**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ**
**MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ**

**Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş**

# “VƏTƏN MÜHARİBƏSİNDƏ QAZANDIĞIMIZ TARİXİ ZƏFƏR HEYDƏR ƏLİYEV SİYASƏTİNİN TƏNTƏNƏSİDİR”

**mövzusunda**

**ELMİ-NƏZƏRİ KONFRANSIN**
**M A T E R İ A L L A R I**
**4 may 2021-ci il**

**MİNGƏÇEVİR**

**KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ:**


| | | |
|---|---|---|
| **Ş.V.Bayramov** | – | **sədr, rektor, i.f.d., dos.;** |
| **V.S.Əyyubov** | – | **sədr müavini, Elmi işlər üzrə prorektor əvəzi, i.e.d., prof .;** |
| **V.S.Mustafayev** | – | **məsul katib, Elm və innovasiyalar şöbəsinin müdiri, tex.f.d., dos.;** |
| **H.R.Mahmudov** | – | **rektorun müşaviri;** |
| **N.D.Zeynalov** | – | **Pedaqoji fakültənin dekanı, tar.f.d.;** |
| **N.A.Qədimli** | – | **İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, i.f.d., dos.;** |
| **A.Ə.Əliyeva** | – | **Mühəndislik fakültəsinin dekan əvəzi, tex.f.d., dos.;** |
| **E.H.Cəfərova** | – | **Humanitar fənlər kafedrasının müdiri, s.f.d., dos.;** |
| **S.M.Mustafayev** | – | **Riyaziyyat kafedrasının müdiri, f.-r.f.d., dos.;** |
| **E.Y.Hüseynova** | – | **Sənayenin təşkili və idarəetmə kafedrasının müdiri, i.f.d., dos.;** |
| **C.Q.Musayeva** | – | **İqtisadiyyat kafedrasının müdiri, i.f.d., dos.;** |
| **M.B.İsmayılov** | – | **Mexanika kafedrasının müdiri, tex.f.d., dos.;** |
| **Z.M.Əzizova** | – | **Xarici dillər kafedrasının müdiri, p.f.d., dos.;** |
| **Ü.İ.Aşurova** | – | **Energetika kafedrasının müdiri, tex.f.d., dos.;** |
| **A.M.Mustafayeva** | – | **İnformasiya texnologiyaları kafedrasının müdiri, tex.f.d,;** |
| **Ş.N.Muradov** | – | **baş mühasib;** |
| **E.O.Xəlilov** | – | **İnformasiya Texnologiyaları Mərkəzinin direktoru.** |



**© Mingəçevir Dövlət Universiteti, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş “VƏTƏN MÜHARİBƏSİNDƏ QAZANDIĞIMIZ TARİXİ ZƏFƏR HEYDƏR ƏLİYEV SİYASƏTİNİN TƏNTƏNƏSİDİR” mövzusunda elmi-nəzəri konfransın materialları.**



**MİQ poliqrafiya ofisi, 2021, 258 səh.**

**MİNGƏÇEVİR**

## MÜNDƏRİCAT

**Ş.BAYRAMOV**
Giriş sözü ........................................................................................................ 8

**PLENAR İCLAS**

**F.İ.QURBANOV**
Azərbaycan ali təhsilinin inkişafında Heydər Əliyev fenomeninin əvəzsiz rolu .................... 9
**İ.M.İSMAYILOV**
Vətən Müharibəsində qazanılan tarixi zəfər Heydər Əliyev siyasətinin qələbəsidir .............. 11
**Ş.K.SEYİDZADƏ**
İlham Əliyev: Ulu Öndərin vəsiyyətini reallaşdıran sərkərdə ............................................... 15
**Ş.V.BAYRAMOV**
Heydər Əliyev: dahi şəxsiyyət və müasir Azərbaycanın qurucusu ........................................ 16
**C.N.YUSUBOV**
Ümummilli lider Heydər Əliyevin siyasi portreti ................................................................. 19
**Q.K.KƏRİMOV**
Heydər Əliyev ideyalarına sadiq Azərbaycan gənclərinin Vətən müharibəsində fəal iştirakı 21

**BÖLMƏ İCLASI**

**V.S.ƏYYUBOV**
Milli iqtisadi inkişafın “Heydər Əliyev modeli” .................................................................. 25
**F.Ə.MƏMMƏDOV**
Yerli özünüidarəetmənin inkişafında Heydər Əliyevin rolu .................................................. 27
**Н.Г.АЛИЕВ**
Интеграция армянского меньшинства в Азербайджане и вопросы гражданства ........... 29
**R.R.MİRZƏZADƏ**
Heydər Əliyev strateji dühası: “Şuşasız Qarabağ, Qarabağsız, ümumiyyətlə, Azərbaycan yoxdur” ........................................................................................................ 31
**M.İ.ƏMRAHOV**
Azərbaycan təhsilinin inkişafında Heydər Əliyev dövrü ....................................................... 33
**A.M.BAYRAMOV, E.M.ASLANOV**
Ulu öndər Heydər Əliyevin gənclər siyasətinin başlıca istiqamətləri .................................... 36
**V.S.MUSTAFAYEV**
Azərbaycanın metallurgiya sənayesinin inkişaf tarixində Heydər Əliyev dövrü ................... 38
**N.D.ZEYNALOV**
Azərbaycanın tarixi irsinin qorunmasında Heydər Əliyev fenomeni ..................................... 41
**E.H.CƏFƏROVA**
Ulu öndər Heydər Əliyevin banisi olduğu Azərbaycan multikulturalizmi ............................. 44
**Z.M.ƏZİZOVA**
Heydər Əliyev dühası yüksəliş yollarına işıq salır ................................................................ 47
**M.B.RƏSULOV, M.F.İSMAYILOVA**
Təhsil islahatları üçün Heydər Əliyev ideyalarının həyata keçirilməsində avtomatlaşdırılmanın rolu ........................................................................................ 49
**N.R.MANAFOV**
Bizim gücümüz bizim birliyimizdədir .................................................................................. 52
**V.E.MƏHƏRRƏMOVA**
“Azərbaycan” adını dünya tarixinə qızıl hərflərlə yazdırmış lider ......................................... 54
**F.N.ƏLİYEVA, H.R.EMİNOVA**

Heydər Əliyev və Azərbaycanın geosiyasəti ........................................................................ 57
**A.M.BALAYEV**
Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarıdır: sabitlikdən inkişafa doğru ........ 61
**T.M.QASIMOVA**
Postmüharibə dövründə cəmiyyətin yenidən formalaşmasına siyasi-fəlsəfi baxış ................. 65
**N.R.AXUNDOVA**
Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin memarı kimi mədəniyyətin inkişafında rolu ........................................................................................................................ 67
**Н.А.БАЙРАМОВА**
Мультикультурализм как ресурс геополитического позиционирования Азербайджанского государства ........................................................................................ 69
**S.A.SADIQOVA**
Heydər Əliyev irsinə həsr olunmuş informasiya resurslarının Azərbaycan gəncliyinin inkişafında rolu ............................................................................................................. 71
**N.Ə.ƏHMƏDOVA**
Müasir güclü və çoxşaxəli iqtisadiyyat – Ümummilli lider Heydər Əliyevin iqtisadi strategiyasının davamıdır ................................................................................................. 74
**Z.H.KƏRİMOV**
Zəfərlər Ordusu ............................................................................................................. 77
**K.A.NƏCƏFOVA, Q.A.KƏRİMOVA**
Təhsil sisteminin keyfiyyətinin sosial iqtisadi əhəmiyyəti .................................................. 79
**M.A.ALLAHVERDİYEVA, H.İ.HƏŞİMOV, N.M.RZAYEVA**
Ümummilli lider Heydər Əliyev Azərbaycanın strateji və geosiyasi maraqlarının təminatcısıdır ................................................................................................................. 82
**K.S.DADAŞOVA**
Neft-qaz sənayesi və sosial-iqtisadi məsələlərin həllində onun rolu ...................................... 85
**F.Ş.HÜSEYN**
Müzəffər Azərbaycan ordusunun qələbəsi və Cənubi Qafqazda yeni geosiyasi vəziyyət ....... 87
**R.V.ƏSGƏROVA**
Heydər Əliyevin bank sektorunun inkişafında rolu və bank sektorunun müasir vəziyyətinin təhlili ........................................................................................................................... 88
**R.H.İBADOV**
Azərbaycan Respublikasının Qarabağ regionu siyasətinə dair ............................................... 91
**B.İ.ƏLƏSGƏROV, Y.A.SƏMƏDOV**
Heydər Əliyev Azərbaycan milli iqtisadiyyatının qurucusudur ............................................. 92
**R.A.HÜSEYNOVA**
Heydər Əliyev dühası – bütöv şəxsiyyətin mücəssiməsinin öyrənilməsinin ideoloji istiqamətləri .................................................................................................................. 95
**R.M.MƏMMƏDOVA**
Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti ................................................................ 98
**G.K.YUNUSOVA**
Heydər Əliyev və Azərbaycan mədəniyyəti ........................................................................ 100
**V.S.MUSTAFAYEVA**
Heydər Əliyevin ekoloji siyasət xətti: dünən və bu gün ...................................................... 103
**M.N.İBRAHİMOV**
Azərbaycan Respublikasının dövlətçilik tarixində Heydər Əliyev şəxsiyyəti və onun müstəqil xarici siyasət kursu .......................................................................................... 105
**A.Ə.ƏLİYEVA**
Müasir iqtisadi şəraitdə milli iqtisadiyyatın inkişafında regionların rolu ............................... 106
**X.F.MURADOVA, S.İ.ABDULLAYEVA**
Ümummilli lider və sosial-iqtisadi tərəqqi ......................................................................... 109

**Z.M.ƏZİZOVA, V.T.BALAKİŞİYEVA**
Heydər Əliyev müstəqil Azərbaycan Ordusunun memarı kimi .......... 112
**A.M.ƏZIMOV, İ.Q.MƏMMƏDOV**
Qarabağ iqtisadiyyatının (Ağdam rayonu üzrə) bərpası və inkişafı prosesində rəqəmsal texnologiyalardan istifadə imkanları və prioritetləri .......... 114
**C.V.HƏSƏNOVA**
Ordu dövlətin təminatıdır .......... 116
**E.A.QASIMOV**
Humanitar sahədə Azərbaycan-İtaliya münasibətlərinin inkişafında Heydər Əliyevin tarixi xidmətləri .......... 118
**S.F.ABDULLAYEVA**
Heydər Əliyevin Azərbaycançılıq ideologiyası .......... 121
**T.D.MƏMMƏDOV, Ə.İ.DADAŞZADƏ**
Ümummilli lider Heydər Əliyev müstəqil, hüquqi, demokratik Azərbaycan dövlətinin qurucusudur .......... 122
**R.V.QURBANOVA**
Azərbaycan təhsilinin inkişafında Heydər Əliyev islahatları .......... 127
**D.Ə.ƏMİRASLANOVA**
Müəssisədə idarəetmə qərarlarının informasıya bazasının təhlili .......... 129
**L.Q.MƏCİDOVA**
Azərbaycanın beynəlxalq aləmdə imici hər zaman müsbət olub .......... 131
**Ş.S.MİKAYLOV**
Ümummilli lider Heydər Əliyevin siyasi kursunda demokratik cəmiyyət quruculuğu .......... 132
**N.Ə.HƏMZƏYEV**
Heydər Əliyev Azərbaycan elmi və təhsilində uğurlu islahatların müəllifi kimi .......... 135
**A.M.TAĞIYEV**
Heydər Əliyev və Azərbaycanın xarici iqtisadi siyasətinin müasir durumu .......... 137
**Н.М.ИСЛАМОВА**
Жизнь, отданная служению народу .......... 139
**G.M.ŞƏFAQƏTOV**
İnklüziv sosial inkişafın təmin edilməsi perspektivləri .......... 141
**N.F.NİFTƏLİYEV**
Müzəffər və rəşadətli Azərbaycan Ordusu Heydər Əliyev siyasətinin təntənəsidir .......... 144
**İ.M.MƏMMƏDOV**
Heydər Əliyev və Azərbaycan gəncliyinin multikultural tərbiyəsi .......... 148
**M.A.KƏRİMOVA**
Heydər Əliyev və Azərbaycan iqtisadiyyatının inkişafı .......... 150
**M.R.YUSİFOVA**
Azərbaycanın təhsil siyasətində tarixi varislik .......... 153
**M.M.İSMAYILOVA**
Heydər Əliyev erası: daxili siyasət və emi-texniki tərəqqinin yeni mərhələsi .......... 155
**T.A.SƏFƏROVA**
Azərbaycanda yüngül sənaye müəssisələrinin restrukturizasiyası .......... 158
**S.M.İSAYEVA**
Təlim və tərbiyənin vəhdəti pedaqoji prosesin əsas amili kimi .......... 160
**L.Ç.SÜLEYMANOVA**
Heydər Əliyev və Azərbaycan energetikası .......... 164
**A.K.ƏHMƏDOV**
Heydər Əliyev və maliyyə, audit sisteminin inkişaf modeli .......... 166
**Ə.N.MUSAYEV**
Heydər Əliyev elm və təhsil siyasətinin banisi kimi .......... 169

**M.C.CAVADOV**
Heydər Əliyev və milli ordu quruculuğu .................... 171
**Z.X.GÜLÜSTANİ**
Heydər Əliyev irsi Azərbaycan gəncliyi üçün daimi örnəkdir .................... 173
**T.Ə.ƏLİYEVA**
Heydər Əliyevin Azərbaycan dövlətini davamlı iqtisadi inkişafa aparan düşünülmüş strategiyasının əsas istiqamətləri .................... 174
**A.R.QƏDİROVA**
Gənc nəslin tərbiyəsində Heydər Əliyevin rolu .................... 176
**A.Ç.BABAZADƏ**
Əzizə Cəfərzadə irsinə Heydər Əliyev qayğısı .................... 178
**C.A.BAĞIROV**
Heydər Əliyev və Azərbaycanda turizm sənayesinin inkişafı .................... 180
**S.A.AĞAKİŞİYEVA**
Heydər Əliyev və ədəbiyyat .................... 182
**F.N.İSAYEVA**
Heydər Əliyev və Hüseyn Cavid irsi .................... 184
**F.X.KƏRİMLİ**
Qloballaşan dünyada Azərbaycanın neft-kimya sənayesinin inkişafinda Heydər Əliyev siyasi kursunun rolu .................... 187
**K.S.MUSTAFAYEVA**
Bu günkü təhsilimizin banisi .................... 191
**A.V.MƏMMƏDOVA, S.C.MƏMMƏDOV**
Dövlətimizin şanlı qələbəsində Azərbaycanın hərbi sənayesinin rolu .................... 192
**A.M.NAMAZOVA**
Heydər Əliyev siyasətinin davamçısı İlham Əliyevin tarixi zəfər yolu .................... 195
**Ş.Z.İSLAMOVA**
Azərbaycanda sənaye-energetika sisteminin inkişafında Heydər Əliyevin rolu .................... 197
**A.M.ƏZİZOVA**
Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti qələbəmizin təməlidir .................... 200
**Ç.Q.SƏFƏROVA**
Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarıdır .................... 202
**S.İ.MƏMMƏDOV**
Müasir regionaı siyasətin səmərəli tənzimlənməsi məsələləri .................... 205
**G.A.VƏLİYEVA**
Heydər Əliyevin Cavid yaradıcılığına qayğısı .................... 208
**G.F.KƏRİMLİ**
Ümummilli lider Heydər Əliyevin ölkə iqtisadiyyatının inkişafında rolu .................... 210
**N.Z.CƏFƏROV**
Heydər Əliyev və müasir idarəçilik strategiyasının komponentləri .................... 212
**S.B.NOVRUZOVA**
Heydər Əliyev irsində vətənpərvərlik və dil .................... 215
**A.N.DADAŞOVA**
Heydər Əliyev və Azərbaycan dili .................... 217
**A.İ.NADİROVA**
Heydər Əliyev Azərbaycan milli iqtisadiyyatının inkişaf strategiyasının müəllifidir .................... 218
**A.C.NƏSİBOVA**
Heydər Əliyevin irsi – həm Qarabağ zəfərinin bünövrəsi, həm də gələcək nəsillərin firavan həyatının zəminidir .................... 221
**S.A.NƏSİBLİ**
Heydər Əliyev Azərbaycan dövlətinin milli təhsil yaradıcılığının banisi kimi .................... 225

**G.A.NƏCƏFOVA**
Heydər Əliyev irsi Azərbaycan gəncliyi üçün daimi örnəkdir ................................................ 228
**A.İ.İSMAYILOVA**
Heydər Əliyev Azərbaycan ordusunun qurucusudur .............................................................. 230
**X.R.ABDULLAYEVA**
Azərbaycan Respublikasında çoxmillətlilik siyasətinin inkişafında Heydər Əliyev tolerantlılığının rolu ................................................................................................................ 232
**G.İ.ƏJDƏRZADƏ**
Tarixi vəzifə: idarə etmək və xilas etmək ............................................................................... 234
**L.V.İSMAYILZADƏ**
İnformasiya-kommunikasiya texnologiyaları sahəsində Azərbaycanın inkişafı Heydər Əliyevin adı ilə bağlıdır ................................................................................................ 236
**M.İ.İSMAYILOVA**
Heydər Əliyev və Azərbaycan təhsili ........................................................................................ 238
**S.Ə.QASIMOVA**
Azərbaycan Ordusunun tarixi qələbəsi Ulu öndər Heydər Əliyev ideyalarının və Xalq-Prezident birliyinin məntiqi nəticəsi kimi ..................................................................... 240
**P.T.CƏFƏROV**
Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər ......................................................................................................... 243
**S.Q.MƏHƏRRƏMOV**
Ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə müstəqil Azərbaycanın iqtisadi inkişafı .. 244
**S.R.SEYİDOVA**
Heydər Əliyev strategiyasının bank sisteminin gücləndirilməsində rolu və əhəmiyyəti ......... 246
**İ.Ə.FAXTİYEV**
Heydər Əliyev – müstəqil Azərbaycan dövlətçiliyinin banisi ................................................ 249
**N.M.MƏHƏRRƏMOVA**
Elmimizin ideya mənbəyinə çevrilən irs .................................................................................. 253
**A.M.ŞAMİLOVA**
Ulu öndər Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafında rolu ....................................... 256

# GİRİŞ SÖZÜ

*Şahin Bayramov,*
*Mingəçevir Dövlət Universitetinin rektoru*

**Hörmətli konfrans iştirakçıları!**
**Hörmətli qonaqlar!**
**Hörmətli professor-müəllim heyəti!**
**Əziz tələbə və magistrantlar!**

Heydər Əlyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş “Vətən Müharibəsində qazandığımız tarixi zəfər Heydər Əliyev siyasətinin təntənəsidir” mövzusunda elmi-nəzəri konfransın açılış mərasimində hər birinizi salamlayıram. Müasir Azərbaycanın qurucusu olan Ulu Öndərimizin əziz xatirəsi qədirbilən xalqımız tərəfindən hər zaman dərin ehtiramla yad edilir. Allahdan Ümummilli Liderimizə rəhmət diləyirik. Əbədiyaşar liderimizin anadan olmasının 98-ci ildönümünün ərazi bütövlüyümüzün təmin olunduğu dövrdə qeyd edilməsi hər birimizdə fəxarət hissi yaradır. Hər birimiz hazırda dahi rəhbərin ruhunun şad olmasına əminik.

Ulu Öndər zirvələri fəth edən nadir və tarixi şəxsiyyətdir. Xalqımızın Ümummilli Lideri Azərbaycanda milli dövlətçilik ənənələrinin formalaşmasında, onun siyasi-ictimai və sosial-iqtisadi inkişafında, gələcək dövrə hədəflənmiş strateji inkişaf parametrlərinin müəyyənləşdirilməsində onun rolunu nəinki Azərbaycan xalqı, hətta dünya siyasi arenasının ən nüfuzlu liderləri belə həmişə yüksək qiymətləndirmişlər. Milli tariximizin Heydər Əliyev erası dirçəlişdən tərəqqiyə, zirvəyə və zəfərə doğru aparan bir yoldur.

Ümummilli Lider Heydər Əliyevin tarixi torpaqlarımızın düşmən işğalından azad olunması istiqamətində apardığı haqq mübarizəsi onun layiqli siyasi varisi, möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən qalibiyyətlə başa çatdırılmışdır. 44 günlük Vətən Müharibəsində qazandığımız tarixi zəfər məhz Heydər Əliyev siyasətinin təntənəsi kimi qiymətləndirilir.

Dahi şəxsiyyətin misilsiz xidmətlərinin və zəngin irsinin öyrənilməsi, təbliğı və gənc nəsilə çatdırılması ali təhsil müəssisələri qarşısında mühüm vəzifələr qoymuşdur. Açılışını etdiyimiz bugünki elmi-nəzəri konfransın əsas məqsədi də məhz bundan ibarətdir.

Qeyd edim ki, konfransımıza maraq çox böyük olmuşdur. Belə ki, konfransımıza 10 ali təhsil müəssisəsindən və Azərbaycan Milli Elmlər Akademiyasının 4 elmi-tədqiqat institutundan ümumilikdə 100-dən artıq məruzə və tezis daxil olmuşdur. Məruzə və tezislər Ümummilli Lderimizin zəngin və çoxşaxəli fəaliyyətinin müxtəlif aspektlərinə həsr olunmuşdur.

**Hörmətli konfrans iştirakçıları!**

Plenar iclasdan sonra konfransımız öz işini bölmə iclası ilə davam etdirəcək.

Konfransa qatılan hörmətli qonaqlarımıza universitetimizin kollektivi və şəxsən öz adımdan təşəkkürümü bildirirəm.

**Plenar iclası açıq elan edirəm və konfransın işinə uğurlar arzulayıram!**

## PLENAR İCLAS

UOT 32(092); 371

### Azərbaycanda təhsilin inkişafında Heydər Əliyev fenomeni: Ulu öndərin ideyaları yaşayır və qalib gəlir

*i.f.d., dos. Firudin İsa oğlu Qurbanov,*
*Azərbaycan Respublikası Təhsil nazirinin müavini*

Tarixdə adı müstəqil dövlətçiliyin rəmzinə çevrilən çox az siyasi liderə rast gəlmək mümkündür. Nadir idarəçilik və liderlik keyfiyyətlərinə, fitri istedada, yüksək vətənpərvərlik hissinə malik olan Heydər Əliyev məhz belə bir liderdir. O, ölkəmizin ən yeni tarixində müstəqil Azərbaycan dövlətinin siyasi, iqtisadi, hüquqi, əsaslarını yaradan və inkişafını təmin edən qüdrətli şəxsiyyətdir.

Ötən əsrin 70-ci illərindən etibarən 30 ildən artıq bir müddətdə Azərbaycanda iqtisadiyyatın, elm, təhsil və mədəniyyətin təşəkkülü və inkişafı bilavasitə Ümummillli lider Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Onun genişmiqyaslı fəaliyyətində təhsilin inkişafı hər zaman prioritet sahə kimi mühüm yer tuturdu. Təhsilin cəmiyyətin inkişafında rolunu və şəxsiyyətin formalaşmasında əhəmiyyətini daim yüksək qiymətləndirən dahi rəhbərin qəbul etdiyi qərarlar, uzaqgörənliklə irəli sürdüyü konseptual fikirlər, tarixi tövsiyələr bu gün də ölkəmizdə təhsil islahatlarının əsas istiqamətlərinin müəyyənləşdirilməsinə öz töhfəsini verməkdədir.

Tarixi həqiqətdir ki, bütün sahələrdə olduğu kimi, Azərbaycanda təhsilin dünyanın inkişaf tendensiyalarına və beynəlxalq standartlara cavab verən hazırkı səviyyəyə çatması və inkişafında ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Bu gün ölkəmizdə fəaliyyət göstərən təhsil müəssisələrinin geniş şəbəkəsi, güclü elmi-pedaqoji kadr potensialı öz mənbəyini məhz ötən əsrin 70-ci illərindən Heydər Əliyevin rəhbərliyi altında təhsil sahəsində aparılan uzaqgörən və məqsədyönlü siyasətdən almış, həyata keçirilən genişmiqyaslı təhsil quruculuğu gələcək inkişafın güclü təməlini yaratmışdır. Həmin dövrdə Azərbaycanda bütün təhsil ocaqları əvvəlki illərlə müqayisədə yeni inkişaf pilləsinə yüksəlmiş, bu istiqamətdə aparılan ardıcıl dövlət siyasəti xalqımızın təhsil, ümummədəni və intellektual səviyyəsinin yüksəldilməsində müstəsna rol oynamışdır.

Heydər Əliyev sosial-iqtisadi və mədəni yüksəlişə gedən yolun məhz ümumi təhsildən keçdiyini dərindən bilərək əsas diqqəti bu sahəyə yönəltmiş, qısa bir zamanda ümumtəhsil məktəblərinin şəbəkəsi genişlənmiş, əsaslı keyfiyyət dəyişiklikləri baş vermişdi. 1970-80-ci illərdə respublikada 683 min şagird yerlik 1191 yeni məktəb binası tikilib istifadəyə verilmişdi. Müstəqillik illərində bu işlər davamlı xarakter almışdır. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə məktəb tikintisi geniş vüsət almış, 2003-2021-ci illər ərzində 3300-dən çox məktəb binası tikilmiş və ya əsaslı təmir edilmiş, 1 milyondan çox şagirdin təlim şəraiti əhəmiyyətli şəkildə yaxşılaşdırılmışdır.

Ulu öndər Heydər Əliyev hər zaman müəllim peşəsinə böyük dəyər vermiş, “Müəllim adı ən yüksək addır. Mən yer üzündə müəllimdən yüksək ad tanımıram” demiş, bu yanaşmadan çıxış edərək müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı davamlı qərarlar qəbul etmişdir.

Heydər Əliyevin müəllim peşəsinə sonsuz diqqəti dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş, son illərdə müəllim nüfuzunun yüksəldilməsi istiqamətində kardinal addımlar atılmış, ümumi təhsil müəssisələrində çalışan müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi uğurla başa çatmış, onların həftəlik dərs yükü 1.5 dəfə, vəzifə maaşı təxminən 2 dəfə artırılmışdır.

Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafındakı müstəsna xidmətlərindən biri də 1970-80-ci illərdə Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox

nüfuzlu ali məktəbində respublikamızın iqtisadiyyatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və ölkə üçün ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına şərait yaratmasıdır. İftixar etməli haldır ki, Respublikadan kənarda milli kadr hazırlığı sahəsində aparılan siyasətin mühüm istiqamətlərindən biri də milli hərbi kadrların yetişdirilməsidir. Həmin illərin ən əhəmiyyətli hadisələrindən biri kimi keçmiş SSRİ-nin ali hərbi məktəblərinə azərbaycanlı gənclərin sistemli şəkildə göndərilməsidir. 1971-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradıldı və bu da Azərbaycanda hərbi məktəblər şəbəkəsinin sonrakı inkişafında mühüm rol oynadı. İftixar hissi ilə qeyd edilməlidir ki, bu gün müstəqil Azərbaycanın Milli Ordusuna rəhbərlik edən zabitlərin əksəriyyəti məhz Heydər Əliyevin xeyir-duası ilə o illərdə təhsil almağa göndərilən və ölkəmizin hərbi məktəblərini bitirən gənclərdir.

Azərbaycanda hərbi təhsilin inkişafına böyük töhfələr vermiş C.Naxçıvanski adına Hərbi Məktəbin bu il Prezident Sərəncamı ilə 50 illik yubileyi keçiriləcəkdir.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş xaricdə təhsil ənənələri son illərdə uğurla davam etdirilmişdir. Prezident cənab İlham Əliyevin təşəbbüsü ilə “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” təsdiq edilmiş, həmin Proqram çərçivəsində ümumilikdə 3558 nəfər dövlətimiz tərəfindən maliyyələşdirilməklə dünyanın 32 ölkəsinin 379 aparıcı universitetində təhsil almaq hüququ qazanmışdır. Həmin universitetlər Harvard Universitetindən tutmuş dünyanın 500 ən güclü universiteti sırasındadır. Ölkə Prezidenti İlham Əliyev tərəfindən təhsil sahəsində Ulu Öndərin başladığı islahatların davamlılığı təmin etmək məqsədilə “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” 2013-cü ildə təsdiq edilmiş, onun icrası hazırda uğurla davam etdirilməkdədir. Bu siyasətin davamı kimi “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” təsdiq edilmiş və həyata keçirilməkdədir.

Heydər Əliyevin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən sanballı nəticələrindən biri də azərbaycançılıq məfkurəsinin və milli ruhun yüksəlişi, milli özünüdərkin təmin edilməsi, xalqın tarixi yaddaşının özünə qaytarılması, milli dövlətçilik ənənələrinin güclənməsi və real siyasi amilə çevrilməsi olmuşdur. “Hər bir azərbaycanlı öz milli mənsubiyyəti ilə fəxr etməlidir, biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli mənəvi dəyərlərini, adət və ənənələrini inkişaf etdirməliyik” deməklə Heydər Əliyev “azərbaycançılığı” milli dövlətçilik ideologiyasının əsası kimi müəyyənləşdirmişdir. Bu gün qüdrətli dövlət xadimi Heydər Əliyevin zəngin irsi, şərəfli həyat və fəaliyyəti gənc nəslin milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması üçün ən dəyərli mənbədir.

Müstəqilliyin ilk illərində Azərbaycanda yaranan siyasi vəziyyət, Ermənistanın hərbi təcavüzü, keçmiş Dağlıq Qarabağ və ətraf rayonları işğal etməsi, ölkə daxilində separatçı qüvvələrin baş qaldırması dövlət müstəqilliyimizi sual altına almışdı. İşğal olunmuş rayon və şəhərlərdə minlərlə təhsil müəssisəsi dağıdılmış, təhsil sisteminə ciddi ziyan dəymişdi. Bu çətin anlarda, 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdan Ümummilli lider Heydər Əliyev Azərbaycanı böyük bəlalardan, dağılmaqdan, parçalanmaqdan, vətəndaş müharibəsindən xilas etdi, dərin iqtisadi və sosial-siyasi böhran vəziyyətindən çıxarmağa nail oldu və təhsil islahatlarının aparılması üçün də əlverişli imkan yarandı.

Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasi və iqtisadi kurs son 18 ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yeni müstəvidə və beynəlxalq təcrübə əsasında uğurla davam və inkişaf etdirilmiş, ölkəmizin tərəqqisinə böyük töhfə vermişdir.

Xüsusi qeyd edilməlidir ki, məhz Heydər Əliyevin vaxtilə yaratdığı etibarlı təmələ söykənərək Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə İkinci Qarabağ Müharibəsində – Vətən Müharibəsində inamlı qələbə qazanılmışdır. Müzəffər Azərbaycan Ordusu tərəfindən 30 ilə yaxın Ermənistanın işğalı altında olan əzəli torpaqlarımız azad edildi. Bu zəfər şanlı tariximizə qızıl hərflərlə yazıldı. Bu möhtəşəm qələbə xalqımızın inamını özünə qaytarmış, uzun illər ərzində doğma yurdlarına qayıtmaq eşqi ilə yaşayan məcburi

köçkünlərin həsrətinə son qoymuşdur. Eyni zamanda bu qələbə bütün dünyada Azərbaycan dövlətinin və xalqının qüdrətini və sarsılmaz iradəsini, Ordumuzun gücünü nümayiş etdirmişdir. Bu qələbə Azərbaycanı sonsuz məhəbbətlə sevən Ümummilli lider Heydər Əliyevin azadlıq ideallarının parlaq təzahürü kimi xüsusilə əhəmiyyətlidir.

Böyük iftixar hissi ilə bəyan edirik ki, Vətən Müharibəsində "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur!" deyən Ulu öndərin arzusunu reallaşdıran ölkəmizin Prezidenti İlham Əliyevin xalqa müraciətlə söylədiyi "Mən bu gün Ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu böyük qələbədir! Bu gün şəhidlərimizin, Ulu öndərin ruhu şaddır!" kəlamında Qarabağın işğaldan azad olunmasında Heydər Əliyev ideyalarının təntənəsi gözəl ifadə olunmaqdadır.

Bu bir həqiqətdir ki, Vətən Müharibəsində döyüşən Azərbaycan əsgərləri ya əvvəlki illərdə doğulub müstəqillik illərində təhsil alanlardan, ya da bu illərdə doğulub təhsil alan Vətən övladlarıdır. Müqəddəs savaş göstərdi ki, istər hərbiçilərimizdə, istərsə də cəmiyyətimizdə vətənpərvərlik ruhu kifayət qədər yüksəkdir. Çağdaş tariximizə qızıl hərflərlə yazılan bu Qələbə Azərbaycanda Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və ölkə Prezidenti cənab İlham Əliyevin uğurla apardığı siyasətin nəticəsidir. Ancaq bu da etiraf edilməlidir ki, təhsil sisteminin də bu işdə rolu danılmazdır.

Hesab edirik ki, dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan dövləti və milləti qarşısında misilsiz xidmətləri xalqımızın tarixi yaddaşında daim yaşayacaq. İllər ötəcək, nəsillər bir-birini əvəz edəcək, lakin Azərbaycan xalqının iftixarı olan Heydər Əliyevin uzaqgörən və müdrik siyasəti və strategiyası uğurlu gələcəyə gedən yollarımızı daim işıqlandıracaq.

UOT 32(092); 94(479.24)

## Vətən Müharibəsi Heydər Əliyev siyasətinin tarixi qələbəsidir

*s.f.d. İlham Mehdixan oğlu İsmayılov,*
*Mingəçevir şəhər İcra Hakimiyyətinin başçısı*

XX əsrin 90-cı illərinin əvvəllərindən Azərbaycanda davamlı yeniləşməyə əsaslanan qlobal bir layihə həyata keçirilir. Heydər Əliyev dühasının şah əsəri olan bu layihənin reallaşdırılması ilə bağlı həyatımızın bütün sahələrində – iqtisadiyyatda, siyasətdə, mədəniyyətdə, ordu quruculugunda və düşüncə tərzində müasir inkişaf meyarlarına uyğun pozitiv dəyişikiliklər baş verir. Bu gün həmin layihənin reallaşdırılması istiqamətində möhtəşəm işlər görülmüş, Azərbaycan xalqı inkişaf baxımından yeni parametrlərlə müəyyən olunan və müasir tələblərə cavab verən layiqli həyat ukladına sahib olmuş və möhtəşəm qələbələrə imza atmışdır.

Yaşadığımız bu günlərdə yeni əsrin ilk böyük sınağından şərəflə çıxmış Azərbaycan öz adını yeni, üçüncü minilliyin tarixinə şəhidlərin və qəhrəmanların müqəddəs qanına boyanmış qızıl hərflərlə yazmışdır. Azərbaycan xalqının ruhunda və əməlində baş verən pozitiv dəyişikliklər isə ölkəmizin və xalqımızın qlobal yeniliklər astanasında olmasından xəbər verir. Tezliklə Azərbaycanın yaradıcı enerjisi erməni vandalizminin viran qoyduğu hər şəhərdə, hər kənddə bərqərar olacaq, işğaldan azad olunmuş Qarabağ yenidən çiçəklənəcək.

Bu gün Azərbaycan dövlətlər arasında öz layiqli yerini və siyasi çəkisini tam təsdiq edib. Kiçik bir dövlət beynəlxalq siyasətin müəyyən olunmasında, tək bir ölkənin və regionun deyil, həm də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində vacib rol oynayır. Bu isə Azərbaycanın, onun qüdrətli rəhbərinin tarixi uğurudur. Tükiyə ilə birlik və həmrəylik heç vaxt olmadığı yüksək həddə çatıb. Dostunu və düşmənini qəti şəkildə müəyyən etmiş Azərbaycan "Türkiyə ilə əbədiyyətə qədər!" şüarını yekdilliklə qəbul edib. Nəinki yaxın gələcək, həmçinin yeni yüzillik üçün strateji inkişaf konsepsiyasını, hərbi doktrinasını və milli ideyasını müəyyən edib. Bəli, Azərbaycanın

müasir tarixində cərəyan edən qlobal dəyişikliklər göz qabağındadır. Azərbaycan xalqı öz qüdrətli liderinin, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı möhtərəm İlham Əliyevin rəhbərliyi altında bəşər tarixinin çərxini və zamanın gərdişini fəal şəkildə dəyişir.

Azərbaycan xalqının müasir tarixinin ən şanlı səhifələrindən biri sayılan Vətən Müharibəsi öz miqyasına, xarakterinə və nəticələrinə görə “Vətən müharibəsi” kimi xarakterizə olunur. “Dəmir yumruq” adlanan bu irimiqyaslı hərbi əməliyyatın əsas məqsədi 1988-1994-cü illərdə I Qarabağ müharibəsi zamanı erməni silahlı qüvvələri tərəfindən Dağlıq Qarbağda və onun ətrafinda zəbt olunmuş Azərbaycan torpaqlarının azad edilməsindən ibarət idi.

Qeyd etmək lazımdır ki, 1994-cü il may ayının 12-də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Bişkek protokoluna əsasən atəşkəs əldə olunmuş və qarşıdurma “dondurulmuş” münaqişə qismində 26 il davan etmişdir. 1992-ci il mart ayının 24-də Finlandiyanın Helsinki şəhərində ATƏM-in (Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi – 1995-ci il 1 yanvar tarixindən ATƏT, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı) növbəti iclasında Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə dair Minsk konfransının çağrılması haqqında qərar qəbul edilmişdi. 1994-cü il 5-6 dekabr tarixində ATƏM-in Budapeştdə keçirilən Zirvə toplantısında “Həmsədrlik institutu” təsis edilmişdir. 1997-ci il 1 yanvar tarixindən ATƏT-in Minsk Qrupuna ABŞ, Rusiya və Fransanın nümayəndələri rəhbərlik edir. Lakin, ikili standartlar və aşkar ermənipərəst xarakteri ilə seçilən ATƏT-in Minsk Qrupu 26 il ərzində heç bir pozitiv nəticə əldə edə bilməmişdi.

Bu müddətdə Ermənistan Respublikasının Dağlıq Qarabağın işğal olunmuş ərazilərində yerləşdirilmiş hərbi birləşmələri davamlı olaraq atəşkəsi pozmuş və Azərbaycanın mövqelərini və yaşayış məntəqələrini mütamadi olaraq, iri çaplı silahlardan atəşə məruz qoymuşdur. 2016-cı il aprel ayının 1-dən 2-nə keçən gecə Ermənistan Silahlı qüvvələri tərəfindən atəşkəsin pozulması nəticəsində Dağlıq Qarabağ münaqişəsi yenidən aktiv fazaya keçmiş və 4 gün davam edən şiddətli döyüşlər nəticəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin həyata keçirdiyi əks hücum nəticəsində Tərtər rayonunun Seysulan kəndi, Talış kəndi, burada yerləşən bir sıra strateji yüksəkliklər, həmçinin Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi, Cocuqmərcanlı kəndi, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Suqovuşan (Madagiz) kəndi istiqamətində yollar düşməndən azad olunmuşdur. Ümumilikdə, 2 min hektar ərazi erməni işğalından azad olunmuşdur

2018-ci il aprelindən Ermənistanda hakimiyyət dəyişiklikləri ilə əlaqədar Dağlıq Qarabağ münaqişəsində gərginlik daha da artdı. Siyasi sələflərindən heç də seçilməyən yeni dövlət başçısı sərsəm iddiaları və məsuliyyətsiz bəyanatları ilə mövcud situasiyanı gündən-günə gərginləşdirir, danışıqlar prosesində əldə olunmuş bütün razılıqları heçə endirir və irimiqyaslı hərbi əməliyyatların başlayacağını qaçılmaz edirdi. 2019-cu il may ayının 8-10 tarixlərində erməni rəhbərinin Azərbaycanın işğal olunmuş ərazilərinə gəlməsi, Şuşada – Cıdır düzündə Şuşanın erməni işğalçıları tərəfindən ələ keçirilməsinin 27-ci il dönümü ilə bağlı mərasim keçirməsi və yallı getməsi, Azərbaycanın qarşısında 7 şərt qoyması, 2020-ci il aprel ayının 14-də Dağlıq Qarabağda keçirilən üzdəniraq prezident seçkiləri Azərbaycan xalqının səbir kasasını doldurdu.

Bundan sonra, mənfur düşmən öz havadarlarının dəstəyi ilə daha çirkin əməllərə əl atdı və 2020-ci il iyul ayının 12-də Tovuz rayonu istiqamətində Azərbaycan Respublikasının sərhədyanı məntəqələrini iriçaplı silahlardan və toplardan atəşə tutdu. İyulun 17-nə qədər davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 12 nəfər hərbçisi həlak oldu.

2020-ci il avqust ayının 23-də Ermənistan ordusunun təxribat qrupu Azərbaycan Respublikasının Goranboy rayonu istiqamətində Azərbaycan mövqelərinə hücum etməyə cəhd göstərdi. Qrup zərərsizləşdirildi və qrupun komandiri ələ keçirildi. Əldə olunan kəşfiyyat məlumatlarından məlum oldu ki, Ermənistan tərəfi Azərbaycan torpaqlarının ələ keçirilməsi istiqamətində hərbi planlar hazırlayır. 2020-ci sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti təxribatından sonra, Tərtər, Cəbrayıl və Füzuli istiqamətlərində irimiqyaslı hərbi

əməliyyatlar başladı. Beləliklə, Azərbaycanın müasir hərb tarixnə “44 günlük savaş” kimi daxil olan Vətən Müharibəsi başlandı.

Ermənilər 30 il ərzində işğal olunmuş ərazilərdə möhkəm istehkamlar qurmuşdular. Azərbaycan ordusu böyük itkilərdən qaçmaq və qısa müddət ərzində düşmən müdafiəsini cinahlardan yarmaq məqsədilə “Hilal taktikasın”dan istifadə edirdi. Hərbi əməliyyatlara 100 min nəfərlik hərbi kontingent cəlb edilmişdi. Ən müasir silahlarla – özüyeriyən artilleriya qurğuları, Türkiyə, İsrail, Pakistan və Azərbaycan istehsalı olan pilotsuz uçan aparatlar – Bayraktar, Harop, İtiqovan, İsrail istehsalı olan “Dəmir qübbə” adlı hava hücumundan müdafiə qurguları ilə silahlanmış Azərbaycan ordusu qısa müddət ərzində Ermənistan ordusuna sarsıdıcı zərbələr vuraraq bir-birinin ardınca işğal altında olan əraziləri azad etməyə başladı. Beləliklə, 04.10.2020-ci il tarixində Cəbrayıl, 17.10.2020-ci il tarixində Füzuli, 20.10-2020-ci il tarixində Zəngilan, 25.10.2020-ci il tarixində Qubadlı, 08.11.2020-ci il tarixində isə Şuşa işğaldan azad olundu. Düşmən ordusu böyük itkilər verərək, mövqelərini, hərbi texnikanı, yaralanmış və məhv edilmiş əsgərlərin cəsədlərini döyüş meydanında qoyaraq qaçmağa başladı. Şuşa şəhərinin azad edilməsi isə dünyanın hərb tarxinə misli görünməmiş rəşadət nümunəsi, insan qürurunun təntənəsi və vətənə məhəbbətin ali təzahürü kimi daxil oldu.

Erməni rəhbərliyi və erməni komandanlığı bütün çirkin üsullardan istifadə edərək, Azərbaycan xalqının döyüşkənlik ruhunu, qələbəyə olan ümidlərini sındırmağa çalışsa da, dinc əhalini, sivil, xüsusilə də strateji əhəmiyyət kəsb edən obyektləri qadağan olunmuş silahlarla, “Smerç”, “Toçka-U” və s. tipli ballistik raketlərlə, kasetli bombalarla, xlor qarışığı olan kimyəvi silahlarla atəşə tutsa da Azərbaycan xalqının iradəsini və qələbə əzmini sındıra bilmədi. Oktyabrın 4-də, 8-də, 11-də və 17-də Gəncə şəhərinin raket hücumuna məruz qalması nəticəsində 27 nəfər həlak olmuş 95 nəfər yaralanmış və şəhərə ciddi ziyan dəymişdi. Ermənilərin çirkin planlarının digər hədəfləri isə Mingəçevir su anbarı, Mingəçevirdə yerləşən və 1981-ci ildə istismara verilmiş Dövlət Rayon Elektrik Stansiyası, Bakı-Tbilisi-Ceyhan neft-boru kəmərinin Yevlaxdan keçən hssəsi və digər strateji obyektlər idi. Hətta ermənilər Abşeron rayonu istiqamətində də raket hücumlarına cəhd etmişdilər.

2020-ci il oktyabr ayının 28-də erməni silahlı birləşmələri Bərdə şəhərinə “Smerç” tipli əməliyyat-taktiki təyinatlı raketlərlə xaincəsinə zərbə endirdi. Nəticədə 5-i qadın olmaqla 21 nəfər həlak oldu, 8-i uşaq, 15-i qadın olmaqla 70 nəfər yaralandı.

Bütün bunlara baxmayaraq, Azərbaycan Respublikasının rəşadətli, müzəffər ordusu Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, müzəffər rəhbərimiz möhtərəm İlham Əliyevin rəhbərliyi altında xalqımız Vətən naminə sıx birləşdi və düşmənə ağır zərbələr vuraraq, torpaqlarımızı işğaldan azad etdi. Diz çökdürülən düşmən təslim oldu və rüsvayçı sülh bağlamağa məcbur edildi. Təslim olmaq haqqında razılaşmaya görə Azərbaycan əsgərindən ölümcül zərbə almış mənfur düşmən noyabrın 20-də Ağdamdan, 25-də Kəlbəcərdən, 01 dekabrda isə Laçından qovuldu.

Artıq Azərbaycan Respublikası Dovlət sərhədlərinin bərpası, kommunikasiyaların qurulması, erməni vandalları tərəfindən dağıdılmış yaşayış məntəqələrinin, infrastrukturun bərpası istiqamətində irimiqyaslı işlər başlayıb. Azad olunmuş ərazilərə Azərbaycan əhalisinin köçürülməsinə hazırlıq işləri görülür.

2020-ci il dekabr ayının 10-da Bakıda Azadlıq meydanında 44 günlük Vətən Müharibəsində əldə edilmiş Böyük Qələbə münasibəti ilə keçirilən hərbi parad müasir hərb tariximizin daha bir möhtəşəm hadisəsi oldu. Bu paradda xalqımız öz qüdrətli ordusunun və Ali Baş Komandanının tarixi qələbəsini sevinc göz yaşları ilə müşahidə edirdi. Bu tarixi qələbə şəhadətə qovuşmuş 3000 Azərbaycan oğlunun həyatı, 1245 qazinin öz sağlamlığını itirməsi və “Qalib əsgər” adı qazanmış minlərlə Azərbaycan oğullarının fədakarlığı sayəsində baş tutdu.

Qazandığımız misilsiz hərbi qələbəmizdən qəhrəman əcdadlarımızın, ulu babalarımızın və şəhidlərimizin ruhları da şad olub.

Bu tədbirdə iştirak edən insanların əksəriyyəti 28 il ərzində bu tarixi qələbəyə addım-addım necə yaxınlaşdığımızı, Ümummilli lider Heydər Əliyevin möhtəşəm xilaskarlıq missiyasını öz

gözləri ilə görüb. Ulu öndərin Yeni Azərbaycanı zərrə-zərrə necə qurması kimi nəhəng bir prosesdə bilavasitə iştirak edib. Bu gün artıq 28 il bundan əvvəl cızılmış layihə gerçəkliyə çevrilib. Ulu öndərin seçdiyi şəhanə rənglərdən və çalarlardan yaradılmış "Azərbaycan" adlı tarixi əsər isə dünyanı heyran qoyub.

1990-cı ilin yayında Ulu öndər Heydər Əliyevin Moskvadan doğma Azərbaycana qayıdışını hamımız yaxşı xatırlayırıq. Bu qayıdışı detalları ilə təhlil edəndə, o çətin günləri çağdaş həyatımızla əlaqələndirəndə bu misilsiz hadisə bütöv bir millətin alın yazısını dəyişdirmiş həqiqət anı kimi ortaya çıxır. Bu qayıdış geçmişə dönüş deyildi, gələcəyə zəfər yürüşünün başlanğıcı idi. Heydər Əliyevin 1993-cü ildə böyük siyasətə qayıdışı isə yeni bir millətin mövludunun başlanğıcı oldu. Elə bir millət ki, onun 28 il ərzində yetişdirdiyi və Heydər Əliyev ideyalarından güc aldığı yeni nəsil bu gün şanlı bir tarix yazır.

Şuşa işğaldan azad olunan gün – noyabr ayının 8-də Prezident İlham Əliyevin Ulu öndərin məzarını ziyarət etdiyi mərasimdə ifadə olunan dərin məzmun, əsrarəngiz həyat fəlsəfəsi, möhtəşəm həqiqət anı, unikal ünsiyyət və doğma qəlblərin görüşü hər bir azərbaycanlıda fəxarət hissi yaratmışdı və hər kəsi kövrəltmişdi. Möhtərəm Prezidentimiz bu mərasimdə Ulu öndərin vəsiyyətinin artıq həyata keçməsi haqda şərəf məruzəsi etmişdi. Heydər Əliyev dühasının növbəti təntənəsi haqqında tarixi hesabat vermişdi.

Dekabr ayının 10-da 44 günlük Vətən Müharibəsində əldə etdiyi Böyük Qələbəyə həsr olunmuş hərbi parad əslində Heydər Əliyev ideyalarının 29 il ərzində əldə etdiyi qələbələrinin paradı idi. Qələbə Paradındakı hər bir məqamda – Prezidentlərin çıxışında, mərasimin təşkilati elementlərində, əsgərin yerişində, komandirlərin məruzəsində, hərbi nəğmələrdə, Bakı havasında, Azadlıq meydanın möhtəşəm aurasında, insanların sevinc dolu çöhrəsində Heydər Əliyev dühasının parlaq cizgiləri görünürdü. Qalib Azərbaycan xalqını, onun dostlarını sevindirən, düşmənlərinin isə gözünü kor edən bu möhtəşəm mənzərə Heydər Əliyev qüdrətinin təntənəsi idi.

Bu gün biz tariximizin ən parlaq siması olan ümummili lider Heydər Əliyevi böyük hörmətlə və sonsuz məhəbbətlə yad edirik. Onun müqəddəs ruhuna dualar oxuyur, bizi dünyanın böyük xalqları sırasına çıxardığı üçün "sağ ol" deyirik.

Hər bir xalqı, ilk növbədə onun rəmzləri ilə tanıyırlar. Bu rəmzlərdən biri də liderdir. Məhz lider obrazı, onun dühası və istedadı toplum haqqında adekvat təsəvvürlər və təəssuratlar yaradır. Azərbaycan xoşbəxt ölkədir ki, Ulu öndər Heydər Əliyevin timsalında onun bütün dünyaya nümunə olan möhtəşəm liderlik simvolu var və bu simvol bizi xoşbəxt gələcəyə və davamlı qələbələrə aparan müqəddəs nur mənbəyidir.

**İsitfadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Mədinə şəhərində Peyğəmbər məscidinin "Fəxri qonaqlar üçün kitabda" yazısı. "Heydar Aliyev's Heritage" International Online Library. 14 iyul 2010-ci il tarixində aktivləşdirilmişdir

2. Qayıdış. Bakı: Azərbaycan, 2008, s.798-800

3. Heydər Əliyev. Müstəqillik yolu. Bakı: Azərbaycan Universiteti, 1997, s.17-19

4. Heydər Əliyev: biblioqrafiya / Layih. rəhb. Ə.Qarayev; tərt. ed.: M.Vəliyeva, M.İbrahimova, A.Hüseynova; elmi red. K.Tahirov; red. G.Səfərəliyeva. Bakı, 2018, s.23-26

5. Hüseynova F. Müstəqillik dövründə Azərbaycan-Türkiyə əlaqələrinin kulturoloji aspektləri (elm, təhsil, mədəniyyət). Bakı, 2007, s.80-86

6. Naxçıvan ensiklopediyası. Bakı: Elm, 2002, s.139-140

7. Ömərov V. Ulu Öndər Heydər Əliyevin birinci hakimiyyəti illərində Azərbaycan-Türkiyə əlaqələrinin genişləndirilməsində rolu. "Səs" qəz., 2013, 15 mart, s.14

UOT 32(092)

## İlham Əliyev: Ulu öndərin vəsiyyətini reallaşdıran sərkərdə

*Şahin Kamil oğlu Seyidzadə,*
*millət vəkili, Milli Məclisin Elm və təhsil komitəsinin üzvü*

“Azərbaycan adlı dövlətin varlığı bizim ən böyük tarixi sərvətimiz, bütün Azərbaycanlıların qazandığı ən böyük nailiyyətdir,” – bu sözləri öz çıxışında qeyd edən Ulu öndər Heydər Əliyev Azərbaycana olan bağlılığını, sədaqəti və Azərbaycançılıq ideologiyasını bizlərə çatdırmışdır.

Heydər Əliyev görkəmli ictimai-siyasi və dövlət xadimi olmaqla yanaşı, həm də tarix, fəlsəfə, ədəbiyyat və incəsənətin çox gözəl və dərindən bilicisi, təhsil, elm və mədəniyyətin hərtərəfli himayədarı idi. Dahi şəxsiyyətin bütün fəaliyyəti doğma və sevimli xalqına sədaqətlə xidmətin parlaq təcəssümüdür.

Vətənimizin, xalqımızın taleyində ötən əsrin 70-ci illərindən XXI əsrin əvvəllərinədək taleyüklü bir dövrdə öz adını əməlləri, cəsarətli addımları və milli təfəkkürü ilə Azərbaycan tarixinə, Azərbaycan ictimai-siyasi fikir tarixinə həkk etmiş Heydər Əliyevin çoxşaxəli fəaliyyəti haqqında bu ana kimi çox fikirlər söylənilib, bundan sonra da söylənəcəkdir.

Azərbaycan öz müstəqilliyini qazandığı XX əsrin 90-cı illərində ölkəmizdə olan siyasi qeyri-sabitliyin, iqtisadiyyat başda olmaqla, bir çox əhəmiyyətli sahədə olan çətinliklər dövründə Ulu öndər Heydər Əliyevin hakimiyyətə geri dönməsi, Azərbaycan cəmiyyət və dövlətə, həm də ictimai-siyasi həyatımıza stabillik indeksi gətirdi.

“Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır,” – deyən Ulu öndər problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı. Dirçəlişin ilk addımı məhz Ulu öndər tərəfindən atılan və bu gün bəhrəsini gördüyümüz həmin sabitlik dahi Heydər Əliyevin bizə miras qoyduğu ən dəyərli irslərdəndir.

Ulu öndər Heydər Əliyev daima insan kapitalına, hər bir Azərbaycan vətəndaşına, ümumiyyətlə, Azərbaycançılığa böyük önəm, diqqət və dəyər vermişdir. Müasir dünya təcrübəsində də məhz insan kapitalına verilən dəstək və formalaşması dövlətin əsas siyasətini əhatə edir. Məhz Ulu öndər Heydər Əliyev də bunu əsas götürərək, hələ Azərbaycan SSRİ dövründə olan fəaliyyəti zamanı azərbaycanlı gənclərin gələcəyi üçün ciddi yatırımlar etmişdir.

Elm və təhsilə diqqət ayıran Heydər Əliyev Moskvadan geri dönərkən, özü ilə zamanında xaricdə təhsil almaq üçün dövlət xətti ilə yollanılmış şəxslərin siyahısını gətirmiş, bu şəxslərin müasir Azərbaycanın quruluşunda, tarixində əhəmiyyətli rol oynayacağını öz uzaqgörənliyi ilə müəyyən etmişdir.

Sosial, iqtisadi, elm, təhsil, mədəniyyət kimi bir çox sahədə olduğu kimi hərbi, xüsusən də Qarabağ mövzusunda olan fəaliyyətində də Ulu öndər üçün Qarabağa qayıdış prioritet olmuşdur. Ulu Öndər Heydər Əliyev bütün çıxışlarında, siyasi fəaliyyətində Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə çalışırdı.

Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın düşdüyü vəziyyət haqqında dünya ictimaiyyətinə ətraflı məlumat verən Ulu öndər özünün qətiyyətli və prinsipial mövqeyini daima nümayiş etdirmişdir. Məhz torpaqların azad olunması, qeyd-şərtsiz boşaldılması istiqamətində Ulu öndər daima qarşı tərəflə danışıqlar aparmış, R.Köçəryanla 20-dən çox görüş keçirmişdir. Ümummilli lider bu görüşlərdə daima ədalətin bərqərar olması və torpaqların boşaldılması mövqeyini qətiyyətlə nümayiş etdirmişdir. Ulu öndərin arzusu yenidən Qarabağı, Qarabağın incisi Şuşanı, işğal edilən rayonlarımızı azad görmək idi və bu missiyanı layiqli davamçı İlham Əliyevə miras qoymuşdur.

Ulu öndər Qarabağın azad olunması uğrunda gedən, Vətən müharibəsini, xalqımıza bəxş etdiyi həmrəyliyi və birliyi görməsə də, arzu, niyyət və hədəflərinin onun oğlu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev reallaşdırdı.

Öz qətiyyətli mövqeyi, mübarizliyi və əsl sərkərdəliyi ilə Azərbaycan xalqının 30 illik həsrətinə cənab Prezident, Ali Baş Komandan İlham Əliyev 44 gün ərzində son qoydu. Döyüş meydanında müasir döyüş texnologiyası və hərbi texnikası, rəhbərliyi və xarici siyasətdə bütün dünya ilə apardığı mübarizənin nəticəsi olaraq, Azərbaycanın işğal edilmiş torpaqları azad olundu.

Artıq cənab Prezidentin rəhbərliyi ilə yeni dövr – dirçəliş və qayıdış dövrləri başlayır. Müharibənin bitməsindən qısa müddət keçməsinə baxmayaraq, artıq həm daxildə, həm də xaricdə Qarabağın dirçəlişi üçün əsaslı işlər görülür. Ermənilərin işğal etdiyi ərazilərdə törətdiyi əməllər, viran qoyduğu rayonlarımız və tarixi abidələrimiz dünya ictimaiyyətinin diqqətinə çatdırılır, eyni zamanda isə həm yerli, həm də xarici şirkətlərin cəlbi ilə yenidənqurma işləri aparılır. 2020-ci ildə torpaqların azad olunması sözdən əmələ keçdi və Qarabağ azad oldu. Bu gün, 2021-ci ildə isə Qarabağın dirçəlişi artıq sözdən əmələ keçir.

Ulu öndər Heydər Əliyev müasir Azərbaycanının nizami ordusunu yaratdı, İlham Əliyev isə o ordunu dünyanın ən güclüləri sırasına torpaqlarımızı azad edərək çıxardı. Cənab Prezident güclü ordu, xalqın birliyi və həmrəyliyi ilə Heydər Əliyevin arzusunu və vəsiyyətini yerinə yetirdi.

UOT 32(092); 321.01

## Heydər Əliyev: dahi şəxsiyyət və müasir Azərbaycanın qurucusu

*i.f.d., dos. Şahin Vaqif oğlu Bayramov,*
*Mingəçevir Dövlət Universitetinin rektoru*

Bu gün Azərbaycan xalqının Ümummilli lideri, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əlirza oglu Əliyevin anadan olmasının 98-ci ildönümünü qeyd etmək və hər birimizin qəlbində əvəzolunmaz yeri olan o dahi şəxsiyyətin əziz xatirəsini yad etmək üçün toplaşmışıq. Bugünki tədbirimizdə biz həmçinin Heydər Əliyevin vətən və xalq qarsışında misli görünməmiş tarixi xidmətləri, Azərbaycan xalqının dirçəlişi və dünya xalqları sırasında layiqli yer tutması naminə gördüyü işlər haqqında danışacağıq.

Ulu öndər Heydər Əliyevin xilaskarlığa, reformasiyaya və davamlı inkişafa əsaslanan bəşəri xidmətləri o qədər möhtəşəmdir ki, onların tərənnüm edilməsi ən böyük qurultayların və konfransların belə proqramlarına sığmaz. Heydər Əliyev dühasının qüdrəti ona görə möhtəşəmdir ki, o, XX əsrin 20-ci illərinin əvvələrindən 60-cı illərinin sonlarına qədər – 50 il ərzində metodiki və məqsədyönlü şəkildə dağıdılmış, milli ruhu sarsılmış, tarixi yaddaşına qadağalar qoyulmuş və ənənələrindən uzaq düşmüş bir toplumu yenidən yaratdı, onun oyanışını, dirçəlişini və inkişafını təmin etdi. Heydər Əliyev fenomeninin fövqəladə unikallığı onunla izah olunur ki, o, zaman və məkanla məhdudlaşan konkret bir dövrün şəxsiyyəti deyil. Onun tarixin gedişatını dəyişən, çox möhtəşəm ideallara əsaslanan əməllərinin bəhrəsi və ölməz ruhu isə dünya durduqca yaşayacaqdır.

Xalqımızın son yarıməsrlik tarixinə qısa nəzər salsaq, görərik ki, orada elə bir mütərəqqi hadisə, həyatımızın məzmununu və mahiyyətini pozitiv məcraya dəyişən elə bir məqam yoxdur ki, o, Heydər Əliyevin adı və siyasi fəaliyyəti ilə bağlı olmasın. Şanlı keçmişi, zəngin dövlətçilik ənənələri, davamlı insan potensialı olan xalqımızın iqtisadi, siyasi və mədəni həyatını müasir dövrün tələblərinə uyğun tərzdə yenidən formalaşdıran Heydər Əliyev Azərbaycanın və bu qədim məmləkətdə yaşayan hər kəsin daha layiqli həyata, daha uğurlu taleyə və daha işıqlı gələcəyə sahib olması kimi bir tarixi vəzifəni özünün dəyişməz həyat kredosu elan etmiş və bu vəzifəni uğurla həyata keçirmək üçün intellektual resursların yeni inkişaf mərhələsinə çıxarılmasını, elmi-texniki tərəqqinin insan kapitalı əsasında davamlı təmin edilməsini milli ideyanın əsas prioriteti kimi müəyyən etmişdir.

Heydər Əliyevin müasir Azərbaycan dövlətinin qurucusu kimi gördüyü işlərin miqyasını və əhəmiyyətini dərk etmək üçün 1920-1969-cu illərdə ölkəmizdə mövcud olmuş sosial-iqtisadi, ictimai-siyasi və sosial-mədəni situasiyaya da diqqət yetirmək lazımdır. Belə ki, 1920-ci ildə

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Azərbaycanın milli istiqlalına qarşı səlib yürüşü elan olunmuş, milli genofond və intellektual elita məhv edilmiş, bütün milli dəyərlər və adət-ənənələr “burjua-zadəgan ünsürləri” elan olunaraq onlara tabular qoyulmuş, nəhayət ölkədə vulqarlığı və eybəcərliyi ilə milli təfəkkürdə şok effekti və yanlış ruhani potensiya yaradan üzdəniraq proletar mədəniyyəti bərqərar edilmişdi. Zorakı kollektivləşdirmə, 1937-ci il repressiyaları, II Dünya müharibəsi, Azərbaycanın ərazi bütövlyünə qəsd etmək üçün daim fürsət axtaran erməni faktoru və digər neqativ amillər Azərbaycanda insan resurslarının yaradıcı gücünü sarsıtmışdı.

Ulu öndər Heydər Əliyevin 1969-cu il iyul ayının 14-də Azərbaycana birinci rəhbərliyi başlayanda, əslində 1920-ci ildə bolşevik-erməni təcavüzü nəticəsində tamamilə məhv edilmiş dövlətçiliyin müasir milli təməllər üzərində yenidən qurulması prosesi başlandı. Sovet sisteminin totalitarizm və irtica rejiminə baxmayaraq, Heydər Əliyev milli dövlətçiliyin bərpa etdirilməsi istiqamətində iqtisadi-mədəni prioritetləri və spesifik ictimai-siyasi ideologiyaya tabe etdirilmiş cəmiyyətdə sosial tərəqqiyə nail olmaq üçün perspektiv hədəfləri müəyyən etdi. Beləliklə, bütün milli qüvvələri, xalqın intellektual potensialını və təbii resursları səfərbər edən ulu öndər Yeni Azərbaycan evinin inşasına başladı. Qarşıya qoyulmuş praktiki hədəflər sırasında milli koloritə, dürüstlüyüə və ədalətə əsaslanan kadr siyasəti, ölkənin işıqlı gələcəyini etibarlı şəkildə təmin etməyə can atan, milli dəyərlərdən, tarixdən gələn əxlaqi-mədəni ənənələrdən məharətlə bəhrələnən, pozitiv elmin yaradıcı komponentlərinin və yüksək professional kompetensiyaların fəal daşıyıcıları olan, daim yeniliyə və innovasiyaya can atan kreativ düşüncəli vətənpərvər insanların yetişdirilməsi kimi ümdə məsələlər üstünlük təşkil edirdi.

XX əsrin 60-cı illərinin sonu, 80-ci illərinin əvvəlində Heydər Əliyevin Azərbaycanda reallaşdırdığı və milli-mədəni dəyərlərin intibahına istiqamətlənmiş aktiv fəaliyyət mahiyyət və status baxımından inqilab idi. Bu inqilabın dinamilkası fonunda ümummilli lider Heydər Əliyevin möhtəşəm və yenilməz obrazı dayanırdı. Bu obrazın bütün cizgiləri isə ozündə Azərbaycan milli ideyasının gerçəkləşməsi naminə siyasi qətiyyət və dəmir iradə ifadə edirdi. Heydər Əliyev daim bəşəri nizama, davamlı inkişafa, milli təhlükəsizliyə, optimizmə əsaslanan, yüksək rifah vəd edən, ümidlər gətirən və bütün hallarda xoşbəxt sonluğu zəmanət altına alınmış perspektivə can atırdı.

Fenomenal düşüncə tərzi, təkrarolunmaz harizma, daim yeniliyə və tərəqqiyə can atmaq cəhdləri Heydər Əliyev şəxsiyyətinin yaşam sütunlarını təşkil edirdi. Heydər Əliyev milli toplumun hər bir üzvünün himayədarı və sözün əsl mənasında rəhbəri idi. O, vətənin və xalqın rifahı naminə çalışmağı bütün şanlı və mənalı həyatının devizi elan etmişdi. Onun yenilməz siyasi iradəsi və qətiyyətlə mübarizə aparmaq əzmi tarixyaradan faktor kimi təzahür edirdi. Mövqeyindən və statusundan asılı olmayaraq Heydər Əliyevin böhranlı situasiyaya müşahidəçi qala bilməməsi, xalqın maraqları, ümumbəşəri dəyərlərin təntənəsi naminə onu dəyişməyə can atması və buna yüksək səviyyədə nail olması bu gün dünya xəritəsində özünəməxsus mövqeyi, söz və nüfüz sahibi olan müstəqil Azərbaycan dövlətinin mövcudluğuna gətirib çıxarmışdır. Ümummilli lider Heydər Əiyev tarixdə misli-bərabəri olmayan fövqəlbəşər bir həyat fəlsəfəsinin daşıyıcısı idi. Bu fəlsəfənin əsas kateqoriyaları milli dəyərlərimizin və milli ruhumuzun intibahı üzərində köklənmişdi. Məhz bu həyat fəlsəfəsinin praktikada tətbiqinin məntiqi nəticəsi olaraq, Azərbaycan yenidən intibah və inkişaf yoluna çıxmış oldu.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi XX yüzilliyin 60-cı illərinin sonu, 80-ci illərinin əvvələrində respublikamızda, yeni iqtisadi, siyasi və mədəni elementlərə, möhtəşəm azərbaycançılıq məfkurəsinə əsaslanan təkamül prosesi başlanmışdı. Artıq XX yüzilliyin 80-ci illərinin əvvəllərində Azərbaycanda intellektual inkişaf elə yüksək həddə çatmışdı ki, Sovetlər birliyi miqyasında “azərbaycanlı intellektual etalonu” adlanan bir məfhum yaranmışdı. Məhz Heydər Əliyev dühasının bəhrəsi idi ki, həmin dövrdə Azərbaycan elminin və mədəniyyətinin görkəmli nümayəndələri yetişmiş və onlar hətta “dəmir pərdənin” total sərhədlərini aşıb keçərək bütün dünyada məşhurlaşmışdılar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev başda olmaqla müasir dövrümüzün aparıcı simalarının böyük əksəriyyəti məhz o dövrdə yetişmişdi.

Heydər Əliyev şəxsiyyətinin möhtəşəmliyi 1828-ci ildən başlayaraq fiziki və intellektual terrora məruz qalmış bir xalqın tarixin yaradıcı ruhundan qidalanmış ənənəvi simasını, onun qədimliklə üzvi əlaqəsi olan tarixi yaddaşını, milli əlamətlərini və mental xüsusiyyətlərini özünə qaytardı. Mövcud rejimin məhdudiyyətlərinə baxmayaraq, Heydər Əliyev Azərbaycanda dünyanın inkişaf standartları ilə tam rəqabət aparmağa qadir olan adekvat mədəni və intellektual mühit yaratmağı bacardı.

Heydər Əliyev XX əsrin ikinci yarısından başlayaraq planetar miqyasda misli görünməmiş möhtəşəm xariqələr yaradan Azərbaycan və türk fəallığının ən parlaq nümunələrindən biri kimi özünü təsdiq etdi. Müdrikliyi və uzaqgörənliyi ilə durgunluğa yaradıcı impuls qatması və status-kvonu davamlı olaraq dəyişməsi Heydər Əliyevin 34 illik siyasi fəaliyyətinin leytmotivini təşkil edirdi.

Heydər Əliyev dühasının nəticəsi olan möhtəşəm yaradıcılıq aktının pik nöqtəsi uzun müddət təqiblərdən əziyyət çəkən, daim diskriminasiyaya məruz qalan, adekvat tarixi qiyməti verilməyən xalqın 2-ci mövludu və dirçəlişi oldu. Məhz bu xidmətlərinə görə Heydər Əliyev “Ümummilli lider” statusuna, dahilik və möhtəşəmlik kürsüsünə, nəhayət əbədiyyət məqamına yüksəldi. O hələ sağlığında özünün əbədi heykəlini öz əlləri və əməlləri ilə ucaltdı. Canından çox sevdiyi Azərbaycan xalqı onun xatirəsini həmişə qəlbində yaşadır, onun siyasi kursuna, min bir əziyyətlə qurduğu dövlətə, ərsəyə gətirdiyi iqtisadi, siyasi və mədəni ənənələrə sadiq qalır.

Bütün enerjisini və mənalı həyatını Azərbaycanın və Azərbaycan xalqının rifahı və işıqlı gələcəyi üçün sərf edən Ulu öndər müqəddəs ideallar naminə hər an hər şeyə hazır idi. O, tarixi zərurət kimi təzahür edən bəşəri missiyasının təntənəsi və bütün ümidlərini ona bağlayan doğma xalqının rifahı naminə çox güclü olmağa çalışırdı. Ulu Öndər dahi şəxsiyyətin ümumbəşəri misiyasını və onun üzərinə düşən tarixi məsuliyyəti çox gözəl bilirdi.

Heydər Əliyev dini-mədəni dəyərlərə dərin inancı olan uzaqgörən şəxsiyyət idi. Onun 1993-2003-cü illərdə müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi zaman xüsusi diqqət mərkəzində saxladığı sahələrdən biri də məhz dini ideologiyanın və tolerant münasibətlərinin müasir dövrün tələblərinə uyğun inkişaf etdirilməsi ilə bağlı olmuşdu. 1994-cü ildə Heydər Əliyevin Səudiyyə Ərəbistanına rəsmi səfəri çərçivəsində Məkkədə və Mədinədə müqəddəs dini məkanları ziyarət etməsi, faktiki olaraq, Azərbaycanın yenidən müqəddəs islam arealına qovuşmasının rəmzi idi.

Təhsil sahəsinə xüsusi diqqət göstərən Heydər Əliyev ali təhsil sisteminin inkişafına mühüm önəm verirdi. Xalqın intellektual intibahı kimi bir tarixi vəzifəni öz üzərinə götürən Ümummilli Lider çox yaxşı bilirdi ki, milli ruhun və milli insan kapitalının öz sərhədlərini aşaraq ümumbəşəri sərvətə çevrilməsi üçün təhsilin ali və akademik məqama yetişməsi mütləq şərtdir. Məhz bu yanaşmanın nəticəsi olaraq, Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyinin sonunda – XX əsrin 80-ci illərinin əvvəlində respublikamız orta statistik azərbaycanlının intellekt koeffisienti kifayət qədər yüksək idi.

Heydər Əliyevin Azərbaycan Respublikasına ikinci rəhbərliyi dövründə elm və təhsil islahatları ilə bağlı həyata keçirdiyi tədbirlər sırasında ali təhsildə “universitet sistemi” ideyası xüsusi önəm kəsb edirdi. Ulu öndər xalqın intellektual obrazının ali təzahürünün universitet olmasını bir daha təsdiq etdi. Beləliklə, artıq yeni nəslin leksikonunda “universitet” anlayışı spesifik intellektual məzmun və pozitiv emosional yük daşıyan element kimi öz təsdiqini tapdı. Beləliklə, universitetin orta əsrlərdən gələn “alma-mater” mahiyyətinə müvafiq milli çalarlar və adekvat kompetensiyalar qatılmış oldu.

İnsanın humanist və tolerant mahiyyətinin aşkara çıxarılmasında və inkişaf etdirilməsində maarifçiliyin rolunun həlledici olmasını çox yaxşı bilən Heydər Əliyev Azərbaycanda gənc nəslin ideoloji konstruksiyasının formalaşdırılmasında multikulturalizm ideyalarının effektli vasitə kimi tətbiq edilməsi məsələsini gündəmə gətirdi. Ölkədə mədəni siyasət qismində təzahür edən kompleks tədbirlər qısa müddət ərzində gənc nəslin mədəni plüralizm ruhunda tərbiyə olunmasında ciddi pedaqoji layihə kimi özünü təsdiq etdi. Ali təhsil humanizm ideallarının təbliği və mənimsənilməsi baxımından daha adekvat, müasir dövrün və cəmiyyətin tələblərinə uygun məzmun kəsb etməyə

başladı. Tarixdən və milli ənənələrdən gələn yüksək təşəkküllü tolerantlıq ruhu təhsildən keçərək cəmiyyətin həyat tərzinə çevrildi.

Müasir dövrdə Cənubi Qafqazda bərqərar olunmuş, regional və qlobal miqyasda söz sahibinə çevrilmiş, mütərəqqi əməlləri və adekvat davranışları ilə tarixə möhürünü vurmuş, geosiyasətin mahiyyətini milli maraqlara uygun şəkildə dəyişmiş Azərbaycan adlı bir dövlət var. O, Ümummilli liderin, möhtəşəm əməllərilə adını tarixə qızıl hərflərlə yazmış dahi şəxsiyyətin – Heydər Əliyevin şah əsəridir. Bu gün bizə dahi rəhbərimizdən miras qalmış bu qiymətli əsər etibarlı əllərdədir. Azərbaycan xalqı onun qüdrətindən ruhlanaraq, Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı İlham Əliyevin rəhbərliyi altında qalibiyyətlərlə və ugurlarla dolu yeni dövrün bir möhtəşəm tarixini yazır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Audrey L. Altstadt. The Azerbaijani Turks: power and identity under Russian rule. Hoover Press, 1992, p.116

2. Heydər Əliyev muzeyi / Azərbaycan Respublikası Xüsusi Dövlət Müdafiə Xidmətinin saytı (azərb.). dmx.gov.az.

3. Мир-Бабаев М.Ф. Торжество нефтегазовой стратегии общенационального лидера (к 25-летию подписания "Контракта века") // Азербайджанское нефтяное хозяйство, 2019, №9, с.82-86

4. Pietropaolo S., Crusio W.E. Genes and cognition // Wiley: nterdisciplinary Reviews: Cognitive Science, journal, 2010, Vol.2, no.3, pp.345-352

5. Regional'nai͡a stipendiatskai͡a programma fonda im. Genrikha Belli͡a dli͡a molodykh uchenykh naI͡Uzhnom Kavkaze. Identity, power and the city in the works of young social scientists in the South Caucas. Heinrich Böll Stiftung, 2005, p.33

6. Zeyno Baran. The Baku-Tbilisi-Ceyhan Pipeline: Implications for Turkey // The Baku-Tbilisi-Ceyhan Pipeline: Oil Window to the West. The Central Asia-Caucasus Institute, Silk Road Studies Program, 2005, p.106

UOT 32(092)

## Ümummilli liderin siyasi portreti

*Cavanşir Nəriman oğlu Yusubov,*
*Yeni Azərbaycan Partiyası Mingəçevir şəhər təşkilatının sədri*

Bir neçə gündən sonra Azərbaycan xalqının böyük oğlu, müasir Azərbaycan Respublikasının xilaskarı və memarı, Yeni Azərbaycan Partiyasının yaradıcısı Ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ili tamam olur.

Onun böyüklüyü Azərbaycan xalqı və müstəqil dövlətçiyimiz üçün göstərdiyi misilsiz, təkrarolunmaz xidmətləri daha aydın və qabarıq şəkildə nəzərə çarpır. Heydər Əliyev yalnız Azərbaycan xalqının deyil, bütövlükdə müsəlman-türk dünyasının bu günədək gəlmiş-keçmiş görkəmli öndərlərindən biridir. Heydər Əliyev tarixin gedişatını dəyişə bilən, yeni tarix yaradan dövlət xadimi idi.

Həyatı daim xalq və haqq yolunda, mübarizədə keçən Heydər Əliyev məhz özünün fitri istedadı, yüksək intelekti, fenomenal yaddaşı, rəhbərlik məharəti, cəsarət, mərdliyi, güclü iradəsi, idarəçilik mədəniyyəti, böyük həyat və dövlətçılik təcrübəsi ilə bütün çətinliklərin öhdəsindən ləyaqətlə gəlmiş, Azərbaycan dövlətini məhv olmaq təhlükəsindən xilas etmiş, ölkəmizi iqtisadi tənəzzüldən inkişaf və tərəqqi yoluna cıxartmışdır. Heydər Əliyev bütün varlığıyla Azərbaycan dövlətçiliyinə bağlı idi, və o lazım gələrsə, həyatını belə bu yolda əsirgəməzdi.

Ulu öndərin keçdiyi zəngin və şərəfli yolu, xalqımızın mənafelərini qorumaq üçün bütün dövrlərdə apardığı qətiyyətli mübarizələr, gördüyü işlər, nümayiş etdirdiyi siyasi iradə və Azərbaycanın həqiqi müstəqilliyi yolunda göstərdiyi misilsiz fədakarlıqlar bunun əyani sübutudur.

Məhz bütün bunalrın nəticəsidir ki, həyat fəaliyyətinə dövlət təhlükəsizlik organlarında gənc bir əməkdaş kimi başlayan Heydər Əliyev müstəqillik dövründə nəinki Azərbaycan xalqının və bütün dünya azərbaycanlılarının, eləcə də Türk dünyasının lideri səviyyəsinə yüksəldi. Azərbaycan dövlətçılik tarixinə qızıl hərflərlə yazılan Heydər Əliyev epoxası bir insan ömrünə sığışmayan və hər kəsə nəsib olmayan əlçatmaz zirvə və təkrarolunmaz taledir.

Azərbaycan dövlətçilik tarixində Heydər Əliyev fenomenin oynadığı müstəsna rol siyasi aksiomadır. O, müstəqil Azərbaycan dövlətinin yaradıcısı və memarıdır. Heydər Əliyev Azərbaycanda sivil demokratik hüquqi və dünyəvi dövlət modelinin qurulması uğrunda gərgin mübarizə aparıb və iftixar hissiylə demək olar ki, buna nail olubdur. Lakin Heydər Əliyev fenomeni və dövlət müstəqilliyi ideaları arasındakı bağlılığın tarixin kökləri 50 il əvvələ gedib çıxır. Heydər Əliyevin Azərbaycan dövlətçiliyindəki müstəsna rolunu üç əsas mərhələyə bölmək olar:

- 1969-1987-ci illər – 70-ci illərin hazırlıq mərhələsi;
- 1987-1993-cü illər – 90-cı illərin axırlarından fəal mübarizə mərhələsi;
- 1993-2003-cü illər – dövlət quruculuğunun başa çatdırılması və möhkəmləndirilməsi mərhələsi.

Respublikamızın çoxəsirlik dövlətçilik tarixində Heydər Əliyev dövrü misilsiz əhəmiyyət kəsb edir. Dünya şöhrətli siyasətçi, görkəmli dövlət xadimi Heydər Əliyev öz müdriklik fəaliyyəti ilə çağdaş Azərbaycan tarixinin ən şanlı və parlaq səhifələrini yaradıb. Bu dahi şəxsiyyət Sovetlər dönəmində 14 il Azərbaycana rəhbərlik edib, 5 ildən artıq SSRİ kimi böyük bir dövlətin ali rəhbərlərindən olub.

Müasir Azərbaycanın memarı Heydər Əliyev bu barədə belə deyirdi: “14 il burada çalışdım, beş ildən artıq Moskvada işləyərkən yenə də Azərbaycana daha çox vəsait ayrılmaqla, respublikamızın işini daha da irəliyə aparmaqla məşğul oldum. Mən üst-üstə 20 il bu işləri gördüm”.

Bu bir həqiqətdir ki, Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın Sovet dövründə qazandığı ən böyük nailiyyət həmin dövrdə yaranmış iqtisadi elmi-texniki və mədəni potensialın istifadəsi ilə respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaradılmasıdır.

Azərbaycanın dövlət müstəqilliyinə zəmin yaradılması kimi strateji məqsəd üzərində köklənmiş Heydər Əliyev Azərbaycan dövlətçiyinin varlığını təsdiqləyən rəmzlərə və atributlara da münasibəti çox həssas olmuşdur. Hələ 1977-ci ildə Azərbaycan SSR Konstitusiyası qəbul edilərkən onun atdığı daha bir addım məmnunluqla xatırlamaq olar. Belə ki, 1977-ci ildə qəbul edilən Konstitusiyada Azərbaycanın rəsmi dövlət dili kimi Azərbaycan dili qəbul edilməsi də, ölkəmiz üçün tarixi nailiyyət oldu.

Yüksək vəzifədən istefa verəndən sonra Ulu öndər Vətənin ağır günündə xalqının yanında olmağa qərar verdi və bu məqsədlə də Azərbaycana qayıtdı.

20 iyul 1990-cı ildə Moskvadan Bakıya, iki gün sonra isə ağır blokada vəziyyətində olan Naxçıvana gələn Heydər Əliyevi xalq böyük coşqunluqla qarşıladı.

30 sentyabr 1990-cı ildə Azərbaycan SSR-nin Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının xalq deputatı seçildi. 1990-cı ilin noyabrın 17-də Naxçıvan Ali Məclisin ilk sessiyası Heydər Əliyevin sədrliyi ilə fəaliyyətə başlamışdır. Həmin sessiyada təkcə Naxçıvan üçün deyil, ümumən Azərbaycan üçün son dərəcə böyük əhəmiyyətə malik taleyüklü qərarlar qəbul olunmuşdur. Belə ki, sessiyada Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından “Sovet Sosialist” sözlərinin çıxarılması, Naxçıvan MSSR Ali Məclisi Sovetinin Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması, milli istiqlal rəmzi olan üç rəngli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi 31 dekabr “Dünya Azərbaycanlılarının Həmrəylik Günü” kimi qeyd olunması haqqında tarixi qərarlar qəbul olunmuşdur.

Keçmiş SSRİ-dan miras qalmış təhlükəsizlik orqanlarının ləğv edilərək, milli maraqlar xidmət edən yeni müvafiq qurumun yaradılması rus qoşun birləşmələrinin muxtar respublikadan

çıxarılması, muxtar respublikanın müdafiə sistemi tədbirlərin görülməsi, nizami ordu hissələrin təşkili, əhalinin ehtiyaclarının ödənilməsi  Ulu Ödərin fəaliyyətinin Naxçıvan dövrünə aiddir.

Ulu öndər Heydər Əliyevin xalqımız və dövlətçiliyimiz qarşısındakı misilsiz xidmətlərindən biri ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının yaradılmasıdır. Belə ki, "91-lər"in müraciəti ilə başlayan ümumxalq dəstəyi nəticəsində Azərbaycanın vətənpərvər oğulları Heydər Əliyevin ətrafında sıx birləşərək, Yeni Azərbaycan Partiyasının yaradılmasında və müasir Azərbaycan dövlətçiliyinin qurulmasında yaxından iştirak etdilər. O dövrdə ölkədə gedən dağıdıcı proseslərin qarşısını almaq, onu duçar olduğu dərin siyasi, iqtisadi, ictimai, hərbi böhran uçurumdan xilas etmək məqsədi ilə 21 noyabr 1992-ci il tarixində 550 nəfər partiya üzvü ilə Naxçıvanda təsis yığıncağı keçirilən YAP-ın ilk Sədri yekdilliklə Heydər Əliyev seçildi və bununla da Azərbaycan xalqından yekdil dəstək alan partiyamız yeni bir siyasi qüvvəyə çevrildi.

Ümummilli Liderimizin nüfuzu, Azərbaycan xalqının ona göstərdiyi misilsiz etimad Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı. Yeni Azərbaycan Partiyası dünyada analoqu olmayan bir siyasi təşkilat kimi yarandığı müddətdən 6 ay sonra siyasi hakimiyyətə gəldi və həmin gün Azərbaycan tarixinə "Milli Qurtuluş" günü kimi daxil oldu. 1993-cü il okyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Heydər Əliyevin çox böyük səyləri hesabına vətəndaş müharibəsi təhlükəsindən qurtulan Azərbaycan quruculuğa, inkişafa istiqamətləndi.

Bu gün Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə, reallıqlarına və qanunauyğunlaqlarına muvafiq surətdə uğurla davam etdirilir.

Minnətdar xalqımız Ulu öndər Heydər Əliyevin ruhu qarşısında baş əyir, Allahdan rəhmət diləyir, onun uğurlu siyasətin davamçısı Preident İlham Əliyevə iş avandlığı və uğurlar arzulayır.

UOT 316.6; 355-54/.55; 32(092); 37.013

## Heydər Əliyev ideyalarına sadiq Azərbaycan gənclərinin Vətən müharibəsində fəal iştirakı

*Qaragöz Kərim oğlu Kərimov,*
*Mingəçevir Dövlət Universiteti*

*"Nə qədər ki, Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam."*
*Heydər Əliyev*

Azərbaycan yerləşdiyi coğrafi mövqe və təbii sərvətlərinə görə zaman-zaman işğallara məruz qalıb. Böyük dağıntılara məruz qalsa da, bu xalq özünü yenidən dirçəldə bilib, işğalçılar xalqın mənəviyyatını, vətənpərvərlik hissini məhv edə bilməyib. Düşmənə nifrət, Vətənə məhəbbət xalqın yaratdığı şifahi xalq yaradıcılığı nümunələrində əks etdirilərək bugünki nəsillərə çatdırılıb. Qədim oğuz türklərinin tərcümeyi-halı hesab edilən "Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanları xalqımıza xas olan, dəyərli qəhrəmanlıq nümunələrini özündə çox gözəl əks etdirir.

Tarix sübut edib ki, hər bir xalqın var olması üçün güclü dövlətin olması, güclü dövlətin qurulması və inkişafı üçün də ağıllı, müdrik, xalqa arxalanan siyasi liderin olması vacib şərtdir.

Qədim dövlətçilik ənənəsinə malik Azərbaycan xalqı XX əsrdə iki dəfə dahi şəxsiyyətin hakimiyyətə gəlməsi ilə öz varlığını qoruyub saxlaya bilmişdir. Haqqında bəhs etdiyimiz dahi şəxsiyyət hələ sağlığında xalqı tərəfindən Ümummilli lider adı qazanmış Heydər Əliyevdir.

1969-cu ildən Azərbaycana rəhbərlik etməyə başlayan uzaqgörən siyasətçi "Sovet dövrü"nün bütün xüsusiyyətlərini nəzərə alaraq, Azərbaycanın inkişafını nəzərdə tutan planlar hazırladı. Hakimiyyətə gəlməmişdən əvvəl də Heydər Əliyevi vətənpərvər bir oğul kimi tanıyan xalq onu dəstəkləyərək, sevərək, ideyalarının arxasınca böyük inamla getdi. Beləliklə, Azərbaycan xalqının

taleyində Heydər Əliyev dövrü – respublikanın iqtisadi, ictimai-siyasi, mədəni inkişafında intibah dövrü başlandı. Azərbaycan Respublikası İttifaq miqyasında təkcə inkişaf etmiş sənaye və kənd təsərrüfatı ölkəsi kimi deyil, elmi-texniki və mədəni səviyyəsinə görə də ön sıralarda yer aldı. H.Əliyevin əzəmətli quruculuq işlərinin tarixi əhəmiyyəti bundan ibarət idi ki, xalqımızda milli qürur, mənlik şüuru oyandı, azadlıq, müstəqillik yolunda böyük inam hissi formalaşdı. H.Əliyevin hələ XX əsrin 70-ci illərindən gələcəyə hesablanmış quruculuq fəaliyyətinin, siyasətinin nəticəsi öz bəhrəsini verdi. Güclü, müstəqil, demokratik Azərbaycan dövləti quruldu, inkişaf etdi.

Heydər Əliyevin dövlət quruculuğu fəaliyyətini araşdırarkən müəyyən etmək olur ki, bu siyasi və geniş miqyaslı işlərin əsasında böyük bir məqsəd, ideya dayanır. Bu dövlətçilik ideyası Azərbaycançılıq məfkurəsi adlanır. Dövlətçilik, milli müstəqillik, ana dilinin mövqelərinin möhkəmləndirilməsi, dini və milli dəyərlərə hörmət, milli maddi və mənəvi sərvətləri qorumaq kimi məsələlər H.Əliyev irsində Azərbaycançılıq prinsiplərinin əsasını təşkil edir. Bu prinsip və ideyaların daşıyıcıları, gələcək nəsillərə ötürən adətən gənclərdir. H.Əliyevin irsi gənc nəslin mənəvi tərbiyəsini zənginləşdirmək üçün dəyərli xəzinədir.

Ulu öndər cəmiyyətin tərəqqisini gənclərimizin mükəmməl təhsil almasında görürdü. Hakimiyyəti dövründə Ulu öndər gənclərin təhsilinə, milli kadrların hazırlanmasına xüsusi qayğı göstərmişdir. 1970-1980-ci illlərdə H.Əliyevin təşəbbüsü ilə Respublikada çoxlu ali məktəblər fəaliyyətə başlamışdır. Yüzlərlə istedadlı gənclərin İttifaqın məşhur ali məktəblərində təhsil almasına şərait yaratmışdır. Bu gənclər sonralar mütəxəssis kimi vətənlərinə qayıdaraq, Respublikamız üçün dəyərli işlər görmüşlər. Onlar sonralar müstəqil Azərbaycanın iqtisadiyyatının inkişafında da mühüm rol oynadılar.

Əgər SSRİ dövründə H.Əliyev vətəninin, xalqının tərəqqisi üçün arzularını, ideyalarını ümumimperiya qanunları adı altında reallaşdırırdısa, müstəqil Azərbaycan üçün isə, yəni II hakimiyyəti dövründə isə azərbaycançılıq ideyasını xalqın birləşməsi, dövlət hakimiyyətinin möhkəmləndirilməsi yolunda yeganə amal olduğunu bildirdi. Dünya azərbaycanlılarının təşkilatlandırılması milli mənəviyatımızın zənginləşdirilməsi və təbliği yolunda dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızın qüvvəsindən istifadə etmək imkanı yaratdı. Digər tərəfdən də onlar Azərbaycanı özlərinin Ana Vətəni kimi anladılar, dərk etdilər. Ulu rəhbərin “Xaricdə yaşayan azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin yaradılması barədə” Fərmanı xaricdə yaşayan azərbaycanlılara qayğının təzahürü idi.

Gənclərimizin əsas yolunu mükəmməl təhsil sisteminin qurulmasında görən Ulu öndər 1999-cu il iyunun 15-də “Azərbaycan Respublikasının təhsil sistemində islahat proqramı”nı təsdiq etdi. Məqsəd aydın idi. “Ümumi təhsilimizdə, yəni məktəblərimizdə bütün dərslər, bütün fənlər bizim bu günümüzə və gələcəyimizə həsr olunmalıdır” [1] vəzifəsini qarşıya qoyan Ümummilli lider, eyni zamanda Azərbycanın dövlət müstəqilliyinin, dövlət atributlarının mahiyyətinin uşaqlara geniş şəkildə izah olunmasını vacib sayır, bu sahədə görülən işləri vətənpərvərlik tərbiyəsində mühüm amil hesab edirdi. Çünki müstəqilliyi qoruyub saxlamaq üçün dahi şair Məmməd Araz demiş, gərək “Vətən daşı” olasan, Vətənini, Xalqını dərindən tanıyasan, sevəsən. Daxili və xarici siyasətdə böyük uğurlar qazanaraq güclü dövlətə çevrilən Azərbaycanın ən böyük problemi – “Dağlıq Qarabağ” məsələsi hələ də həll olunmamış qalırdı. Atəşkəsə nail olaraq cəmi 6-7 ildə güclü dövlət qura bilən dahi lider eyni zamanda beynəlxalq səviyyədə “Dağlıq Qarabağ” probleminin həlli yollarının tapılmasını tələb edirdi, məsələnin sülh yolu ilə həll olunmasa müharibə ilə həll ediləcəyini də bildirirdi.

Ulu öndər bu problemin həllində də gənclərin mühüm rol oynayacağını yaxşı bilirdi. Ona görə də gənclərə xitabən demişdir: “Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir. Gənclərin əsas vəzifəsi özünü Azərbaycan Respublikasının yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olmalıdır. Vətənini, torpağını, dövlətini müstəqil Azərbaycanı qorumaq öz ata-anasını qorumaq deməkdir, evini qorumaq deməkdir”.

Təqvimdə xalqımızın tarixinə “qara” hərflərlə yazılmış torpaqlarımızın işğal günlərini məktəb tədbirlərində “anım günü” kimi qeyd edirdik, tezliklə bu torpaqların azad olunacağına inanırdıq.

Mənim həmyaşıdlarım bu dövrləri – məktəb illərini yaxşı xatırlayar. Yaşımız artdıqca bu anım günlərində iştirak edəndə nədənsə utanıb, sıxılırdıq. Belə ki, hər il işğalın tezliklə bitəcəyini söyləyirdik, ancaq vaxt uzanırdı. O illərdə yüzlərlə gənclərimiz hərbi məktəblərə qəbul olunurdular. Əsası 1973-cü ildə Ulu öndər H.Əliyev tərəfindən qoyulmuş C.Naxçıvanski adına hərbi liseyə daxil olanların sayı xeyli artdı.

Ali hərbi kadrlar üçün baza rolunu oynamış bu məktəb Azərbaycan gənclərində hərbi peşəyə həvəsi artırdı. Məktəbin indiyədək 12 mindən çox məzmunu olmuşdur, onlardan 20-si general rütbəsinədək yüksəlmişdir. [2] Vətən müharibəsində onlar ərazi bütövlüyümüzün bərpasında böyük rol oynamışdılar. Qürur hissi ilə qeyd etmək istəyirəm ki, sinif yoldaşlarımdan ikisi bu məktəbin məzunu olub, hazırda zabit kimi Milli Orduda xidmət edirdilər.

Müstəqilliyimizin sonrakı illərindən uzaqgörən siyasətçi müxtəlif hərbi sahələr üzrə ali hərbi kadrlar hazırlanması üçün 1999-cu ildə Silahlı Qüvvələrin Hərbi Akademiyasının, 2001-ci ildə Azərbaycan Ali Hərbi Dənizçilik məktəbini, Azərbaycan Ali Hərbi Təyyarəçilik məktəbini yaratmışdır.

Müasir, demokratik dövlətin qurucusu olan dahi rəhbər bütün Azərbaycanın qüdrətlənməsinə, çiçəklənməsinə çalışdı. Xalqının gələcək taleyinə biganə qalmayaraq bu quruculuq ideyalarına sadiq davamçılar – vətənpərvər Azərbaycan gəncliyini və modern düşüncəli, yüksək idarəetmə və təşkilatçılıq qabiliyyətinə malik olan lider yetişdirdi. Uzaqgörən lider 2003-cü ildə Azərbaycan Prezidentliyindən İ.Əliyevin xeyrinə imtina edərək xalqa müraciətində belə demişdir. “İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları Sizin köməyimiz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.” [3]

Ulu öndər yanılmamışdı, H.Əliyev tərəfindən müasirləşən Azərbaycan modern Azərbaycan oldu. Azərbaycan sosial-iqtisadi və siyasi cəhətdən daha da inkişaf etdi.

Bütün danışıqlara baxmayaraq, azğınlaşmış ermənilər sentyabrın 27-si 2020-ci ildə başladıqları müharibəni axıradək davam etdirə bilməyəcəklərini bilib müqavilə bağlamağa məcbur oldular. Döyüş cəmi 44 gün çəkdi. “Yazıq erməni” libasını tez əyinlərinə keçirib bütün dünyanın diqqətini özlərinə çəkməyi bacaran ermənilər 44 günlük müharibə dövründə öz simalarını, bütün dünyaya kim olduqlarını göstərdilər.

H.Əliyev irsindən bəhrələnən, türklərə xas qeyrət, namus, mərdlik, humanist hissləri özündə birləşdirən Azərbaycan əsgəri isə Vətən Müharibəsində tarixdə misli görünməmiş səhifə yazdı: bu vətənpərvərlik, igidlik, könüllülük, düşmənə nifrət, yeni-yeni hərbi uğurlarla dolu şanlı bir səhifə.

Müharibənin ilk günlərindən çağırış məntəqələrinə gələn könüllülərin sayı hesabı yox idi. Yaşının çox olmasına baxmayaraq yaşlı insanlar da Vətənin müdafiəsinə qalxdı, qoca baba-nənələr əmək pensiyalarını “Müharibəyə yardım fondu”na keçirdi, azyaşlı uşaqlar əsgərlərə – cəbhəyə məktub yazaraq, əsgərlərə mənəvi güc verirdilər. Analar oğullarını cəbhəyə yola salanda “Torpaqlarımızı azad edib dön”, - deyə xeyir-dua verirdi. Düşmən tərəfdən əsgərlərin öz silahlarını qoyub qaçdığının şahidi olduq. Amma bir nəfər də olsun Azərbaycan əsgəri fərarilik etmədi, çünki onun işi haqq işi idi, bir zamanlar ata-analarının qovulduğu, özlərinin də bəlkə də qundaqda tərk etməyə məcbur qaldıqları bu torpaqlar onların doğma Vətəni idi, Azərbaycan əsgərinə ruh verən də bu vətənpəvərlik hissidir.

Mən də Mingəçevir Dövlət Universitetinin əməkdaşı, Vətən qarşısındakı borcunu dərk edən hər bir azərbaycanlı gənc kimi Vətən müharibəsinin ilk günlərindən ərazi bütövlüyümüzün bərpası üçün müharibəyə getdim və sonadək iştirak etdim.

Xüsusilə, alınmaz qala olan Şuşanın alınması dünya hərb tarixinə bir yenilik kimi daxil oldu. Yalnız soyuq və yüngül silahlarla silahlanmış, qayalıqlarla şəhərə daxil olan əsgərlərimiz qələbənin “pik” nöqtəsini qoydular, düşmənə və onun havadarlarına psixoloji zərbə vurdular.

Güclü hərbi qüvvə, texnologiyaya malik olsa da, düşmən anladı ki, əsas silah, texnika deyil, o silahları işlədən əsgərin, zabitin ürəyi qələbə, Vətən uğrunda canını qurban verməyə hazır deyilsə, o, silahı da tullayıb qaçacaq. İnsana ruh verən torpaq, Vətən sevgisidir. Muzdluda, işğalçıda Vətən sevgisi hardan ola bilərdi axı?!

Ali Baş Komandanın mübarizənin gedişi müddətindəki fəaliyyəti, jurnalistlərlə münasibətləri o qədər dəyərli idi ki, bu bir ordunun döyüşdə qazandığı qələbəyə bərabər idi. Ali Baş Komandanın “Qarabağ Azərbaycandır” şüarı hamı üçün bir deviz oldu, hamı bir yumruq kimi bu məqsədin ətrafında birləşərək, düşmənə amansız zərbələr vurdu. Bu zərbələr bizim üçün “Qələbə günü”nü yaxınlaşdırdı. Azərbaycan əsgərinin döyüşdə qazandığı qələbələr dövlətimizin siyasi müstəvidə də qələbəsini təmin etdi. Bu qələbə şəhidlərimizin qanı bahasına, əsgərlərimizin rəşadəti, dövlət başçımız – Ali Baş Komandanın siyasəti hesabına qazanıldı. Biz azadlığımızı, ərazi bütövlüyümüzü bərpa etməklə bərabər bütün dünyaya çox şeyi diqtə etdik. Cənab İlham Əliyev bunu belə ifadə edir: “Biz bir daha gücümüzü göstərdik, xalqımızın birliyini göstərdik. Göstərdik ki, heç bir qüvvə bizim qabağımızda dura bilməz, bizi haqq yolunan döndərə bilməz. Bu qələbəni qazanan əsgər və zabitlərdir, gizirlərdir. Onlar düşməndən bu yerləri qarış-qarış azad edə-edə bu qələbəni, bu zəfəri xalqımıza nəsib etdilər. Ona görə də bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir. Bizim birliyimiz bizə imkan verəcək ki, işğaldan azad edilmiş torpaqlara yenidən həyat qaytaraq. Azərbaycanın ayrılmaz hissəsi və gözəl guşələrindən biri olan Qarabağ əsl cənnətməkana çevriləcəkdir.” [4]

**İstifadə edilmiş ədəbiyyat**

1. http://www.science.gov.az/news/open/7452
2. http://anl.az/down/meqale/az_muellimi/2010/dekabr/145268.htm. H. Əliyevin Respublika Təhsil İşçiləri və Ali məktəblərə daxil olmuş tələbələrlə görüşdəki nitqindən, 31 avqust 1999-cu il
3. https://www.muallim.edu.az/news.php?id=13185. Ümummilli lider H. Əliyevin 01 oktyabr 2003-cü il tarixli xalqa müraciətindən
4. https://apa.az/az/sosial_xeberler/Prezident-Ilham-liyev-v-Mehriban-liyeva-1-sayli-Kliniki-Tibbi-Mrkzd-mualic-olunan-hrbcilrl-gorusublr-colorredYENILNIBcolor-614719

## BÖLMƏ İCLASI

UOT 330.34; 330.35

# Milli iqtisadi inkişafın “Heydər Əliyev modeli”

*i.e.d., prof. Veysəl Seyfəl oğlu Əyyubov,*
*Mingəçevir Dövlət Universiteti*

*“İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.”*
*Heydər Əliyev*

Postsovet və müstəqillik dövrünün ilk illərində Azərbaycan iqtisadiyyatı çox mürəkkəb və çətin bir yol keçmişdir. Bu dövr iqtisadi siyasət prinsiplərinin və sosial-iqtisadi inkişafın mütənasibliyinin pozulması, respublikada və onun hüdudlarından kənarda baş verən məlum tarixi proseslərin gözlənilmədən dəyişməsi, iqtisadi islahatların düzgün istiqamətləndirilməməsi və bütövlükdə iqtisadi sistemin dəyişməsi ilə səciyyəvidir.

Xalqımızın Ümummilli lideri Heydər Əliyev irsinin araşdırılması bir daha göstərir ki, 1969-2003-cü illərdə Azərbaycanın sosial-iqtisadi inkişafı tarixini üç dövrə bölmək olar: 1969-1982-ci illər – Heydər Əliyevin Azərbaycanda ilk hakimiyyətdə olduğu dövr, 1982-1993-cü illər – Azərbaycan hakimiyyətinin Heydər Əliyevsiz dövrü və 1993-2003-cü illər – müstəqil və müasir milli iqtisadi inkişafımızın Heydər Əliyevin hakimiyyəti dövrü.

Respublikanın bütün sahələrində uzunmüddətli milli iqtisadi inkişaf strategiyasını müəyyənləşdirmiş Ümummilli lider Heydər Əliyev müasir dövrün tələblərinə uyğun olaraq həm yeni Azərbaycan dövlətçiliyi ideyasını yaratmış, həm də bu ideyanı həyata keçirən siyasi və intellektual qüvvələri – səriştəli idarəçiləri və ölkəni mütərəqqi sosial-iqtisadi inkişaf orbitinə çıxarmağa qadir olan milli kadrları formalaşdırmağa nail olmuşdur.

Ümummilli lider Heydər Əliyevin birinci hakimiyyəti dövründə Azərbaycan iqtisadiyyatının inkişafı və onun səmərəliliyinin yüksəlməsi təmin olunmuşdur. Belə ki, 1970-1980-ci illərdə məcmu ictimai məhsulun və milli gəlirin həcmi ayrılıqda 2,1 dəfə, o cümlədən sənaye istehsalının həcmi 2,2 dəfə, əmək məhsuldarlığı 67,0 faiz, fond verimi isə 26,4 faiz artmışdır. 1970-ci ilə nisbətən 1982-ci ildə elektrik enerjisi istehsalı 1,4 dəfə artaraq, 16,9 milyard kvt.saat təşkil etmişdir. Uyğun olaraq mineral gübrələr 2 dəfə, dərinlik nasosları 1,2 dəfə, pambıq lifi 2,3 dəfə, soyuducular 3,8 dəfə təşkil etmişdir. Bu illər ərzində Bakı Məişət Kondisionerləri, Salyan Plastmas Emalı zavodları, Sumqayıtda Kompressor zavodu, Üst trikotaj fabriki, Bakıda tikiş, ayaqqabı hissələri fabrikləri, Bulka-maya kombinatı, Gəncədə ət kombinatı, Lənkəranda, Xudatda konserv zavodları, Mingəçevirdə istilik elektrik stansiyasının ilk blokları və s. tikilib istifadəyə verilmişdir. Neft hasilatı, emalı və neft kimyası sənayesi, əlvan və qara metallurgiya, maşınqayırma sənayesi sürətlə inkişaf etmişdir.

Ümummilli lider Heydər Əliyevin birinci hakimiyyətdə olduğu dövr iqitisadiyyatımızın qızıl dövrü kimi qiymətləndirilir və müasir milli iqtisadi inkişafımızın bünövrəsi hesab edilir.

1982-ci ildə Heydər Əliyev kecmiş SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin olunandan sonra respublikanın makroiqtisadi göstəricilərində və təsərrüfat fəaliyyətində tənəzzül və iqtisadi böhran özünü sürətlə biruzə verdi. 1982-ci ildən 1991-ci ilə kimi olan dövrdə ölkənin iqtisadi sistemində əvvəlki yüksək artım tempi və sıçrayışlı iqtisadi uğurlar ətalət, durğunluqla əvəz olundu və iqtisadi potensialdan səmərəli surətdə istifadə edilmədi. Respublikanın əsas makroiqtisadi göstəricisi olan ümumi milli gəlir üzrə artım tempi 1982-ci ildən başlayaraq tədricən aşağı enməyə başladı. 1986-cı ildə ümumi milli gəlirin səviyyəsi 1985-ci ilə nisbətən 102,6 faiz olmuşdu ki, bu göstərici Azərbaycan üçün son 10 ildə ən aşağı artım tempi idi. 1989-cu ildə ümumi milli gəlirin artım tempi 1988-ci ilə nisbətən 99,8 faiz, 1990-cı ildə isə 91,9 faiz təşkil etmişdir. Qeyd etmək lazımdır ki, ümumiyyətlə, həmin dövrdə Azərbaycanın bütün makroiqtisadi və sosial göstəriciləri aşağı düşmüşdür.

Beləliklə, Azərbaycan iqtisadiyyatının Heydər Əliyevsiz dövrü tam tənəzzülə uğramışdır.

1993-cü ildə Ümummilli liderimiz Heydər Əliyevin ölkə rəhbərliyinə yenidən qayıdışı dərinləşən siyasi və sosial-iqtisadi böhrana və hakimiyyət çəkişmələrinə son qoydu, quruculuq işlərinin davam etdirilməsi və qlobal işlərin həyata keçirilməsinə münbit şərait yarandı. Hakimiyyətinin ilk illərində Heydər Əliyev yaxşı bilirdi ki, müstəqilliyi təhlükə altında olan ölkənin, ilk növbədə, milli iqtisadiyyatını dirçəltmək və inkişaf etdirmək lazımdır. Bunlardan ilki və ən ümdəsi isə neft sahəsində təşəbbüslər, tədbirlər oldu. Ümummilli lider Heydər Əliyev milli iqtisadi inkişafımızın milli adət-ənənələrə və ölkənin iqtisadi potensialına uyğun olaraq, “milli iqtisadi inkişafımızın modeli”ni qurmağı qarşıya məqsəd qoymuş və buna nail olmuşdur.

Bütün çətinliklərə və bəzi fövqəl dövlətlərin təzyiqinə baxmayaraq, Heydər Əliyevin qətiyyətli iradəsi sayəsində, 1994-cü ilin sentyabr ayının 20-də, hamıya əfsanə kimi görünən, “Əsrin müqaviləsi” bağlandı. Xəzərin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarından müştərək istifadə edilməsi və neft hasilatının artırılmasının təmin olunması üçün beynəlxalq razılaşmalara nail olundu. Bu müqavilənin iştirakçıları beynəlxalq konsorsium təşkil etdilər ki, həmin konsorsiumla Azərbaycan Dövlət Neft Şirkəti arasında 30 il müddətinə müqavilə, artıq qeyd edildiyi kimi, “Əsrin müqaviləsi” imzalandı. Bağlanılan müqavilədən sonra Azərbaycana, xüsusilə, Xəzər neftinə dünya miqyasında maraq artdı, Azərbaycanı işıqlı sabahlara aparan yeni neft strategiyasının icrasına başlanıldı.

Ümummilli liderimizin apardığı geniş miqyaslı siyasətin prioritet istiqamətlərindən biri milli bazarın dünya bazarı ilə, milli iqtisadiyyatın dünya iqtisadiyyatı ilə intensiv inteqrasiyasının düzgün və ona uyğun təşkil edilməsi olmuşdur. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda “Qədim İpək Yolu”nun bərpasına nail olundu. Bununla da “Qədim İpək Yolu” Avropa-Qafqaz-Asiya beynəlxalq dəhlizi statusu aldı və AB-nin TRACECA proqramı çərçivəsində maliyyələşdirilməyə başlandı və qərargah (Daimi Katibliyi) Azərbaycanda yerləşdirildi.

Azərbaycan Respublikasının MDB dövlətləri ilə əməkdaşlıq münasibətləri gücləndi, Azərbaycanın dəstəyi və yaxından iştirakıyla GUAM təşkilatı yaradıldı. Eyni zamanda, Beynəlxalq Maliyyə qurumları ilə də (Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və sair) sıx əməkdaşlıq münasibətləri quruldu və bu təşkilatlar ölkə iqtisadiyyatının təşəkkül tapmasında, dünya iqtisadiyyatına inteqrasiya olunmasında və milli iqtisadiyyatımızın maliyyə təminatlığında yaxından iştirak etdilər.

Azərbaycanın makroiqtisadi göstəricilərinin təhlili və araşdırılması bir daha belə bir nəticə hasil etməyə imkan verir ki, deməli, milli iqtisadiyyatımızın dinamik inkişafı bütün sahələrdə, istər neft, istərsə də qeyri-neft sahələri olsun, özünü göstərirdi. Milli iqtisadiyyatının stabil və davamlı inkişafı vergi daxilolmalarında, büdcənin artması və kəsirsiz yerinə yetirilməsində, inflyasiyanın sabitləşməsi və birrəqəmliyə çevrilməsində, yoxsulluğun və işsizliyin azalmasında daha qabarıq nəzərə çarpırdı.

Müstəqillik bərpa edildikdən bir müddət sonra, yəni Heydər Əliyevin rəhbərliyi ilə 1997-ci ildən başlayaraq Respublikamızda makroiqtisadi sabitləşmə və iqtisadiyyatın davamlı və dayanaqlı inkişafı sahəsində böyük uğurlar əldə edilməsini şərtləndirmişdir. Sosial-iqtisadi sferada əldə olunmuş uğurlar ölkə vətəndaşlarının yaşayış səviyyəsinin yüksəldilməsinə, məşğulluğun təmin edilməsinə, işsizliyin və ən əsası yoxsulluğun azaldılmasına xidmət etmişdir. Bu nöqteyi-nəzərdən, müasir Azərbaycanın qurucusu Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan iqtisadiyyatının 1970-1980-ci və 1993-2003-cü illərdə davamlı və dinamik inkişaf dövrünün öyrənilməsi və qloballaşma şəraitində onun təbliği məsələləri xüsusi əhəmiyyət kəsb edir.

Hazırda Heydər Əliyev siyasətinin davamçısı ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi davamlı, dayanıqlı və şaxələndirilmiş iqtisadi siyasət də məhz Azərbaycanın milli iqtisadi inkişafına və onun vətəndaşlarının sosial-iqtisadi vəziyyətinin daim yaxşılaşdırılmasına yönəlmişdir. Ölkə başçısının apardığı məqsədyönlü iqtisadi və maliyyə siyasəti nəticəsində dünya təsərrüfatını “silkələyən” 2008-2009-cu və 2014-2015-ci il böhranlarından Azərbaycan uğurla çıxa bilmiş, milli iqtisadi inkişafımız dünya iqtisadi-maliyyə böhranı “küləyindən” məharətlə qorunmuş və enerji

sektorunun inkişafı ilə əlaqədar olaraq bir çox istər inkişaf etməkdə olan, istərsədə inkişaf etmiş neft ixrac edən ölkələrə məxsus olan "Holland sindromu" kimi tanınan xəstəliyə uğramamışdır.

Hazırda dünya bəlasına çevrilən yeni növ koronavirus (COVİD-9) pandemiyası qısa zaman ərzində əvvəl insan sağlamlığını, daha sonra dünya iqtisadiyyatını çətin vəziyyətlə üz-üzə qoymuşdur. İnfeksiya pandemiya xarakteri almaqla planetə yayılmış, dünyanın bütün ölkələrində misligörünməyən özünütəcrid tədbirlərinin gerçəkləşdirilməsi nəticəsində dünya iqtisadiyyatı tənəzzülə uğrayır. Təbiidir ki, beynəlxalq səviyyədə özünəməxsus əhəmiyyətə malik olan ölkəmizin iqtisadi vəziyyəti də bu təhlükədən kənarda qalmaq ehtimalı çox azdır. Lakin biz əminik ki, ölkə başçısının rəhbərliyi ilə azərbaycan xalqı bu bəladan da uğurla cıxacaq.

Beləliklə, Azərbaycan Respublikasının müstəqillik tarixinə, milli iqtisadi inkişaf dinamikasına, ölkədə cərəyan edən sosial-iqtisadi və siyasi proseslərin xronologiyasına nəzər saldıqda müasir inkişaf modelini tərəddüdsüz olaraq, "Heydər Əliyev modeli" adlandırmaq olar. Ona görə ki, əldə edilən bütün uğurların başlanğıcı xalqımızın dahi oğlu, Ümummilli lider Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi bir dövrə təsadüf edir və bütün uğurlar məhz bu unudulmaz insanın əvəzsiz zəhməti və təşəbbüsü ilə reallaşdırılan beynəlxalq müqavilələrin, sosial-iqtisadi və siyasi arenada yüksək iradə və qətiyyətlə həyata keçirdiyi islahatların nəticəsi olaraq təzahür etmişdir. Bu gün ölkəmiz inkişaf etmiş dövlətlər səviyyəsindədir, bəzi göstəricilərə görə isə hətta bir sıra "Böyük yeddilik" dövlətlərini belə geridə qoyur. Bu o deməkdir ki, Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla gerçəkləşdirilən milli iqtisadi inkişaf strategiyası ümumbəşəri dəyərlər nəzərə alinmaqla həyata keçirilir. Və əminliklə deyə bilərik ki, bu model Azərbaycanı daha da gücləndirəcək və inkişaf etdirəcək, Heydər Əliyev dühası da xalqımızın qəlbində əbədi yaşayacaqdır.

UOT 339.015

## Yerli özünüidarəetmənin inkişafında Heydər Əliyevin rolu

*i.e.d., prof. Fizuli Əziz oğlu Məmmədov,*
*Mingəçevir Dövlət Universiteti*

Bu gün Azərbaycanımızın bütün sahələrinin inkişafının təməli Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu öndər öz uzaqgörənliyi ilə dövlətçiliyin möhkəmlənməsi, demokratiyanın bərqərar olması yolunda ümumi fəaliyyət konturlarını müəyyənləşdirərkən yerli özünüidarəetmə məsələlərinə əhəmiyyətinə xüsusi önəm vermişdir.

Yerli özünuidarəetmə qurumları vətəndaşa ən yaxın qurumlar hesab olunur. İnsan ehtiyaclarının çox və müxtəlif olması bu ehtiyacları ödəməklə məsul olan yerli idarəetmə orqanlarının həyata keçirdiyi xidmətlərində müxtəlifliyinə və mürəkkəbliyinə səbəb olmuşdur. Digər tərəfdən, ölkələrin sosial-iqtisadi problemləri də yerli idarəetmələrin işləməsinə təsirsiz ötüşmür. İşsizlik, dayanıqsız şəhərləşmə, qaçqın və köçkünlər, yaşlı və yoxsulların sayındakı artım, ətraf mühitin çirkinliyi, məskunlaşma problemləri kimi həlli vacib olan mövzularda yerli əhali bu idarəetmə qurumlarından daima yetərli və keyfiyyətli xidmət gözləyirlər. Odur ki, hazırda yerlı idarəetmələrin funsiyalarını yerinə yetirə biləcək səviyyəyə yüksəlmələri baxımından bu orqanların gücləndirilməsi və demokratikləşməsi bütün dünyada aktual mövzuya çevrilmişdir [1, s.65].

Yerli özünüidarəetmə XXI əsrdə demokratiyanı təcəssüm etdirəm ən mühüm qurumlar hesab olunurlar. Yerli idarəetmələrin demokratik dəyərlərə əsaslanması, onların səmərəli xidmət göstərən idarəetmə qurumlarına çevirilməsini zəruri edən ən mühüm amildir. Demokratik dəyərlərə söykənən yerli idarəetmə yerli səviyyədəki xidmətləri effektli və səmərəli şəkildə yerinə yetirməklə yanaşı, həm də ölkə səviyyəsində demokratiyanın bərqərar olmasına böyük töhfə verirlər. Məhz bu səbəbdən dünyada və son zamanlar ölkəmizdə bu istiqamətdə ciddi fəaliyyətlər başlamışdır. Fərdin dövlət qarşısında gücsüzlüyü, xüsusilə, az inkişaf etmiş ölkələrdə vətəndaşın dövlətdən

çəkinməməsinə, ona qarşı ögey münasibət başlanmasına və depolitizasiyasına səbəb olur. Bu baxımdan yerli səviyyədə həyata keçirilən və əhalinin yaxından iştirakını təmin edən idarəetmə bu problemlərin həllini sürətləndirir.

Elmi tədqiqat işinin məqsədi – Azərbaycanda yerli özününidarəetmənin müasir vəziyyətini öyrənmək və yerli özünüidarəetmə orqanları üçün təklif və tövsiyələr verməkdən ibarətdir.

Əhalidə demokratiya şüurun aşılaması və onların idarəetmədə aktiv iştirakını təmin etməsi baxımından yerli özünüidarəetmələrə böyük vəzifə düşür. Vətəndaşlarda demokratik mədəniyyət yerli idarəetmə səviyyəsində daha çox inkişaf edir. Məhz bu baxımdan yerli idarəetmələr bəzi hallarda demikratiya məktəbi də adlandırılır. Yerli demokratiyanın inkişafında ən mühüm ölçü, yerli xalqın yerli əhəmiyyətli qərarların alınmasında iştirakını dərəcəsidir. Bu iştirakın səviyyəsi nə qədər yüksək olarsa yerli demokratiyanın inkişafı da o qədər sürətli olar. Yerli idarəetmə əksər hallarda yerli özünüidarə kimi də ifadə olunur. Lakin hər ikisi hakimiyyətin əks mərkəzləşməsi prinsipinə əsaslansa da yerli özünüidarəetmə dedikdə daha çox mərkəzi hakimiyyətin ölkənin müxtəlif ərazilərində səlahiyyət genişliyi prinsipi əsasında fəaliyyət göstərən və mərkəzi hakimiyyətin ölkənin müxtəlif ərazilərində səlahiyyət genişliyi prinsipi əsasında fəaliyyət göstərən və mərkəzi hakimiyyətin yerli nümayəndəsi olan qurumlar başa düşülür. Yerli özünüidarəetmə isə xalqın, ona aid olan hakimiyyətin həyata keçirilməsinin formalarından biridir. Yerli özünüidarəetmə idarəçiliyin yeniləşmiş formasıdır və özündə özünüidarə hüququna malik olan ərazi əhalisini təmsil edən yerli orqanların müstəqilliyini və muxtariyyətini ehtira edir [2, s.82].

Yerli özünüidarəetmə qurumları bu və ya digər formada cəmiyyətin inkişafının müxtəlif mərhələlərində mövcud olmuşdur. Bununla bərabər, onun müstəqil hüquqi instituta və hakimiyyət orqanları sisteminə çevirilməsi iri Avropa şəhərlərində yerli özünüidarə orqanlarının formalaşdığı orta əsrlərə təsadüf edir. Lakin o dövrün qurumlarının müasir yerli özünüidarə qurumları ilə eyniləşdirmək düzgün olmazdı. Onlar daha çox bugunkü bələdiyyələrin özülləri və çox sadə formaları idi.

Mərkəzi hakimiyyətdən asılı olmayan və təbii hüquqa, insan azadlığı prinsipinə əsaslanan yerli özünüidarə orqanlarının yaranması mərkəzləşdirilmiş dövlətlərin yaradılması dövründə monarx hakimiyyətinin genişləndirilməsinə şəhər əhalisinin – tacırlərin, sənətkarların, şəhər sakinlərinin təbii reaksiyanın nəticəsi idi. Əhalinin müstəgil idarəçilik hüquqi qazanması və özünüidarəetmə formaların yaratması, insanların dövlətdən birbaşa asılılığın azaldır və onların öz problemlərini daha rahat və asan yolla həll etməsinə imkan verirdi. Yerli özünüidarəetmənin mahiyyətini aydınlaşdırmaq, dövlətin və cəmiyyətin idarə olunmasında onun yerini və rolunu müəyyən etmək üçün ilk növbədə onun nəzəri-metodoloji əsaslarına nəzər salmaq lazımdır [3, s.30].

Bu qurumların rəhbərləri şəhər kommunalarının magistralı olmaqla, inzibati, maliyyə və hətta məhkəmə işlərinin həllində söz sahibi olmağa can atırlar.

Dövlət hakimiyyətinin üstünlüyünün azalması vaxt keçdikcəşəhərdə təsərrüfat işlərinin idarə olunması sahəsində də müəyyən müstəqillik verdi. Şəhərlər tədricən hüquqi statuslarını möhkəmləndirərək, icma mülkiyyəti üzərində sərbəst sərəncam vermə səlahiyyəti əldə edirdilər. Yerli özünüidarəetmə konsepsiyasının yaranmasında iqtisadiyyat və dövlət haqqında liberaı düşüncə tənzimin geniş yayılmasına zəmin hazırlayan XVIII əsr Böyük Fransız inqilabının da müstasna rolu olmuşdur. Liberalizm dövlətin müdafiə funksiyası istisna olmaqla cəmiyyətin bütün sferalarına müdaxiləsini məhdudlaşdırdı. Bu yanaşma çərçivəsində yerli hakimiyyət orqanlarının dövlətdən qeyri-asılılığı təbii qanuna uyğunluq idi. Məhz buna görə də elmi ədəbiyyatda yerli özünüidarəetmə bəzən XIX əsrin libaral-demokratik dövlətinin məhsulu kimi ifadə olunur. Liberal tendensiyaların cəmiyyətdə geniş yayılması elmi təfəkkürün inkişafına əsaslı sürətdə təkan verilir. Məhz bu dövrdə yerli özününidarəetmənin təşəkkülü problemləri elmi ictimayyətinin diqqət mərkəzinə çevrildi. Yerli hakimiyyətin yerli özünüidarə prinsipləri əsasında qurulması fikrini nəsiri cəhətdən ilk dəfə 1790-cı ildə fransız dövlət xadimi Türe Fransa Milli Məclisində Yerli idarəetmənin islahatları haqqında Qanun layihəsində əsaslandırmağa çalışmışdı. Türe, yerli özünüidarəetmənin vəzifələrini təbiətinə görə bilavasitə ictimanın özünə aid və ona dövləttərəfindən

verilən dövləti işləri olmaqla ikiyə ayırırdı. Daha sonra bu anlayışlar yerli özünüidarəetmə haqqında ayrı-ayrı nəzəriyyələr halında inkişaf etdirildi.

Azərbaycanda ilk bələdiyyə seçkiləri 1999-cu ildə keçirilib İlkin mərhələdə ölkədə cəmi 2669 bələdiyyə fəaliyyət göstərdiyi halda, sonradan onların sayı artaraq 2009pcu ildə 2757-yə çatmışdır. Sonradan 2757-dən 1762-yə qədər azalmışdır. Azərbaycan eyni zamanda "Yerli özünüidarəetmə haqqında" Avropa xartiyasını da qəbul edib. Yerli özünüidarəetmə Haqqında Avropa Xartiyası 2001-ci il dekabırın 25-də Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya olunmuşdur.

Bələdiyyələrin səlahiyyətləri Konstitusiyanın 144-cü maddəsində göstərilmişdir. Azərbaycanda yerli özünüidarəetmə sistemi tək pilləli olub inzibati-ərazi vahidinin statusundan, ərazi ölçüsündən, maliyyə potensialından və əhalinin sayından asılı olmayaraq bərabər hüquqludurlar və eyni səlahiyyətləri daşıyırlar. Bələdiyyələr arasında heç bir tabeçilik yoxdur onların orqanları eyni dərəcədə müstəqildirlər, müstəqil maliyyə mənbələrinə malikdirlər eyni səlahiyyət yükünü daşıyırlar,öz əmlakı üzərində sərbəst sahiblik və sərəncamlıq hüququna malikdirlər, müstəqil qərarlar qəbul edirlər və nəhayət ümum ölkə miqyaslı seçkilər nəticəsində formalaşırlar ölkəmizdə bələdiyyələrin formalaşması üçün ərazi və əhali prinsipi tələb kimi qoyulmuşdur. Əhalinin sayı yalnız bələdiyyə məclislərinin say tərkibi baxımından önəm daşıyır. Bələdiyyələr yerli əhəmiyyətli məsələləri həll etmək üçün yerli sosial müdafiə və sosial inkişaf proqramları, yerli iqtisadi inkişaf proqramları və ekoloji proqramlar hazırlayaraq həyata keçirirlər.

**İstifadə edilmiş ədəbiyyat**


1. Məmmədov F.Ə., Əyyubov V.S. Əliyev R. R. Regional idarəetmə. Gəncə, 2014, 267 s.
2. İsmayılov V.A., Yusifov S.C., Hüseyn A.S. Yerli özünüidarəetmə. Bakı, 2016, 204 s.
3. Əliyev N.H. Bələdiyyələr və yerli büdcə. Bakı, 2003, 250 s.


УДК 342; 323.1; 327.39

## Интеграция армянского меньшинства в Азербайджане и вопросы гражданства

*д.ю.н., проф. Намик Гасан оглу Алиев,*
*Чрезвычайный и Полномочный посол Азербайджанской Республики,*
*Академия Государственного Управления при Президенте Азербайджанской Республики*

После восстановления территориальной целостности Азербайджанской Республики встал вопрос налаживания мирной жизни на освобожденных территориях, в том числе и в тех районах, где осталось местное армянское меньшинство.

Как сказал, принимая в декабре 2020 года сопредседателей Минской группы от Франции и США, Президент Ильхам Алиев, Азербайджан вел войну не с армянским народом, а с оккупантами и преступниками, оккупировавшими наши территории. В дальнейшем армяне смогут жить в безопасности и с достоинством в Карабахе, как сейчас они живут в других регионах страны. Глава государства заверил, что под юрисдикцией Азербайджана они будут жить хорошо, избавятся от бедности и получат перспективы.

Отметим, что вопрос интеграции армян Карабаха в азербайджанское общество, пожалуй, один из самых сложных. Агрессивный национализм, ксенофобия, столетие пестовавшиеся в армянской среде, оказали разрушительное воздействие на ментальность армянского народа. Настолько разрушительное, что даже живя многие годы в интернациональной и мультикультуральной семье народов Азербайджана, армянские граждане легко поддались националистической пропаганде.

Сегодня, когда оккупации положен конец, как и отмечал Президент Азербайджана, для армян Карабаха открылась возможность стать частью единой, нормальной, стабильной и процветающей страны. Но пока что, к сожалению, нет четких признаков осознания этого факта армянами Карабаха. Мы уже не говорим о массированной пропаганде реваншистских настроений, идущей из Армении. В какой-то степени реалии заслоняет от армян Карабаха и присутствие российских миротворцев, насчет которых у жителей бывшего сепаратистского образования имеются определенные иллюзии. Например, иллюзии насчет возможности остаться вне юрисдикции Азербайджана, в частности, не принимать азербайджанского гражданства, а сохранить гражданство Армении, в которое карабахские армяне массово перешли в период оккупации, или даже принять российское.

Президент Азербайджана Ильхам Алиев после капитуляции Армении однозначно заявил о возможности армян-граждан Азербайджана, проживавших до конфликта в нагорной части Карабаха и признающих законы Азербайджана, безопасно, свободно, проживать на равных условиях со всеми другими национальными меньшинствами в Азербайджане. Азербайджан гарантирует эти права всем национальным меньшинствам, в том числе и армянам. Азербайджан гарантирует им это право и признает их гражданами Азербайджана в соответствии с Конституцией [1] и другими законами нашей страны.

В то же время, во избежание разночтений необходимо разъяснить некоторые положения нашего законодательства в сфере гражданства.

В соответствии с Законом Азербайджанской Республики от 30 сентября 1998 года №527-IQ «О гражданстве Азербайджанской Республики» и внесенными в него изменениями и дополнениями [2] все физические лица, в том числе и армяне, проживавшие в нагорной части Карабаха и других регионах Азербайджана, выехавшие за пределы страны на постоянное место жительства и приобретшие иностранное гражданство, считаются утратившими гражданство Азербайджана. Кроме того, население нагорной части Карабаха в период оккупации азербайджанских территорий Республикой Армения отказалось от азербайджанской юрисдикции, что практически означало добровольный выход из гражданства Азербайджана.

В соответствии со статьей 10 указанного закона Азербайджанская Республика не признает также и двойное гражданство [2].

Иностранные граждане не обладают правом постоянного проживания на территории Азербайджана, сроки их пребывания ограничены нормами национального (внутригосударственного) законодательства и двусторонними межправительственными соглашениями. Поэтому все иностранцы, не имеющие законных оснований для проживания на освобожденных от оккупации азербайджанских территориях, должны будут покинуть территорию Азербайджана.

Следует отметить, что нормы азербайджанского законодательства в сфере гражданства соответствуют международным стандартам и международной практике в сфере исключения случаев безгражданства и двойного гражданства.

Таким образом, все карабахские армяне, имеющие право на восстановление азербайджанского гражданства, должны официально отказаться от армянского и любого другого гражданства, в котором они состоят в настоящее время, и лишь после этого они могут обрести азербайджанское гражданство и право на проживание на азербайджанской территории.

В этой связи позволю себе напомнить интересный прецедент из практики азербайджано-российских отношений. 3 сентября 2010 года в Баку президентами Российской Федерации Д.А.Медведевым и Азербайджанской Республики И.Г.Алиевым был подписан Договор о государственной границе, установивший прохождение линии сухопутной границы между двумя государствами, соответствующий бывшей административной границе между Дагестанской АССР и Азербайджанской ССР [3]. В прошлом территория Азербайджана включала два российских эксклава Храх-Уба (Палыдлы (Palıdlı), Хачмазский район, село

расположено на левом берегу реки Гусарчай) и Урьян-Уба (Урьяноба (Üryanoba), Хачмазский район), населенных этническими лезгинами и ранее окруженных территорией Азербайджана. Всего там проживало 600 лезгин-граждан РФ.

В соответствии с достигнутыми с российской стороной договоренностями, азербайджанское государство предоставило жителям двух сёл, всё ещё сохранявшим российское гражданство, возможность выбора и при желании принять гражданство Азербайджана по упрощённой схеме. Часть жителей Урьянобы воспользовалась этим предложением, приняло азербайджанское гражданство и осталось жить в селе [4]. 26 декабря 2012 года правительство Дагестана обязалось переселить оставшихся 400 жителей Урьян-Убы и Храх-Убы на территорию Дагестана и обеспечить их жильём [5]. Для переселения этих людей были созданы все условия.

Подобная практика позволяет этническим меньшинствам сделать свободный выбор места своего постоянного проживания, страны, чьей юрисдикции они готовы подчиняться. Такой подход позволит также избежать ненужных эксцессов в сфере межнациональных отношений, укрепит суверенитет государств, а также ограничит возможности вмешательства во внутренние дела соседних государств.

**Использованная литература**

1. Конституция Азербайджанской Республики. Баку, 2017
2. О гражданстве Азербайджанской Республики. Закон Азербайджанской Республики от 30 сентября 1998 года (№527-IQ) и внесенные в него изменения и дополнения. https://republic.preslib.az/ru_d4-63.html
3. Договор о государственной границе, установивший прохождение линии сухопутной границы между двумя государствами, соответствующий бывшей административной границе между Дагестанской АССР и Азербайджанской ССР. Текущий архив МИД Азербайджанской Республики
4. Переселение жителей села Храх-Уба и Урьян-Уба в Дагестан завершится до конца года. РИА Дагестан. 25 июня 2018 г. https://riadagestan.ru/news/tourism_events/pereselenie_zhiteley_sela_khrakh_uba_i_uryan_uba_v_dagestan_zavershitsya_do_kontsa_goda/
5. Дагестану понадобилось 900 миллионов на переселение лезгин из Азербайджана. https://lenta.ru/news/2012/12/26/resettlement/

UOT 316.37

## Heydər Əliyev strateji dühası: “Şuşasız Qarabağ, Qarabağsız, ümumiyyətlə, Azərbaycan yoxdur”

*fəl.e.d., prof. Rəna Rza qızı Mirzəzadə,*
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*

Azərbaycanın müasir – təxminən 50 illik dövrü böyük dövlət xadimi, mükəmməl strateq siyasətçi, fenomen şəxsiyyət Ulu öndər Heydər Əliyevlə bağlıdır. XX əsrin 60-cı illəri təhlükəsizlik orqanlarından respublikanın Ali Rəhbərinədək olan Yolda Vətəninə bağlı taleyüklü ömürdə Qarabağ məsələsi də gündəmdə olmuş, Ulu öndərin prinsipiallığı nəticəsində söndürülmüş, Azərbaycan xalqının milli maraqları dominant sayılmışdır. Belə ki, “60-70-ci illərdə də erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdlərindən əl çəkməmişdilər... bir çox hallarda həmin cəhdlərin qarşısının alınmasının təşkilatçısıyam” söyləyən Ulu öndər Heydər Əliyevin güclü qətiyyəti nəticəsində yalan və iftiraçı erməni iddiaları iflas olunmuşdu. Ulu öndər Qarabağın geosiyasi tarixini, geoiqtisadiyyatı və mədəni-mənəvi həyat

tərzini, orada tarixən yaşayan azərbaycanlı, eləcə də məskunlaşan erməni ailələrin keçmişini, birgə yaşayış münasibətlərini akademik səviyyədə bilir və Qarabağın inkişafı, abadlaşdırılması istiqamətində bütün sahələr üzrə işlər aparırdı. Ulu öndər hələ Dövlət Təhlükəsizlik Komitəsinin Rəhbəri olduğu zaman ermənilər 1967-ci ildə iyun ayının 24-də Xankəndində küçələrə ermənicə 300-dək vərəqə paylamışdı. Saxta və uydurma sovinizmə söykənən, yalan erməni tarixini əks etdirən bu vərəqələrdə Dağlıq Qarabağın Ermənistan SSR-inin tərkibinə qatılması təbliğatı gedirdi. Təbii ki, mükəmməl kəşfiyyatçılıq keyfiyyətləri olan DTK-nın milli təfəkkürlü generalı Heydər Əliyev həmin vərəqələrin müəlliflərini tapdırıb, ciddi cəza verdirmişdi. Digər bir fakt isə 1967-ci ildə erməni millətçiləri özləri erməniəsilli birini öldürmüş və bu ölümü iki azərbaycanlının üzərinə qoymuş, onların məhkəməsində isə həmin azərbaycanlıları öldürmüşdülər. Məqsəd milli münasibətləri qızışdırmaq, qarşıdurma yaratmaqla yerli əhalini köçürüb, Qarabağın Ermənistana birləşdirilməsinin bünövrəsini yaratmaqdan ibarət idi. Və... nə yaxşı ki, qismət Böyük Heydər Əliyevi Azərbaycanın taleyinə yazmışdı. Ulu öndər 15 gün şəxsən Xankəndinə gedərək, bu prosesin qarşısını öz məharətli çevik müdaxiləsi ilə aradan qaldırmışdı.

Ulu öndərin birinci hakimiyyəti zamanında da ölkədə, xüsusən də Dağlıq Qarabağda da milli düşüncə, milli ruh, milli kimliyin oyadılmasında danılmaz xidmətləri olmuşdur. Tarixi Şuşanı çox sevən Ulu öndər onun iqtisadi-mədəni inkişafında da böyük səylər göstərmişdi. Sonradan isə Moskada Siyasi Büroda üzv olarkən də, daim bu “Ermənistana birləşmə” arzusunun qabağına sədd çəkmişdi.

Müstəqil Azərbaycanda ikinci dəfə yenidən hakimiyyətə gələn Ulu öndər məhz etnik təmizləmə, təcavüz, soyqırım, erməni millətçiliyi məsələlərinin əsil köklü mahiyyətini açmış və daşnakların “birləşmək arzularına” siyasi-hüquqi qiymət vermişdi. Dünya ictimaiyyətinə ermənilərin terrorçuluq, işğalçılıq siyasətinin əsl mahiyyətini göstərmişdi.

Ulu öndər söyləyirdi ki: “Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir qaladır, əziz bir abidədir” və onun ölkəmiz, Vətənimiz üçün xüsusi, vacib yeri olduğunu vurğulayaraq bildirmişdi ki: “Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə Azərbaycan yoxdur” [1]. Hazırda Prezident İlham Əliyev də “Bayrağımız bütün işğal edilmiş torpaqlarımızda dalğalanacaq” bəyan edir.

“Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün hər bir döyüşə, hər bir vuruşa hazır olmalıyıq” söyləyən Ulu öndər sanki uzaqgörənliklə dünəndən bu günə səslənib və yaxud “Bizim məqsədimiz müharibə etmək deyil, ordumuz ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etmək üçün lazımdır” paradiqmal məntiqi günümüzün Yoludur. [2]

Ulu öndərin “Ya ayağa qalxıb torpaqlarımızı azad etməli, ya məhv olmalı, ya da millət olmadığımızı etiraf etməliyik” siyasi fəlsəfəsində “Azərbaycan xalqı həmişə güclü olub. Amma bu xalqı qaldırmaq, səfərbər etmək lazım idi” [3] məntiqi var.

Torpağın Nurla dolsun, Böyük Öndər, siyasi varisin, Qanın-Nəfəsin, səsin-davranışın, eynən Bənzərin olan Prezident İlham Əliyev 2020-ci il sentyabrda Azərbaycanda qismən səfərbərlik elan etdi və sanki hər birimizdə dünəndən ünvanlandığınız kəlamınızı öz Qətiyyətli Cəsarəti ilə oyatdı. Ulu öndərin “Dünya bilməlidir, o cümlədən Ermənistan bilməlidir ki, biz heç vaxt torpaqlarımızın bir qarışını da heç kəsə verməyəciyik” [4] HÖKMÜNDƏ “Qəhrəman Azərbaycan əsgəri, müqəddəs Azərbaycan torpaqlarının, müstəqil Azərbaycan Respublikasının müdafiəsi yolunda İRƏLI” [5] ƏMRİ bu gün də Şuşaya Yolumuz, Amalımız da “QARABAĞ Azərbaycandır” Nidamızdır.

Ulu öndər Heydər Əliyev Azərbaycan xalqına müraciət edərək: “Mənim başa çatdıra bilmədiyim bütün işləri İlham Əliyev başa çatdıracaq” söyləmiş və İlham Əliyevi siyasi varis elan etmişdi. Bu hadisə 2003-cü ilin payızında olmuşdu... Düz 17 il sonra isə, yenə payızda Prezident İlham Əliyev Böyük Strateg Heydər Əliyevin uzaqgörən dühasının sübuta ehtiyacı olmadığını təsdiq etdi və Ali Baş Komandan, Strateg Sərkərdə olaraq işğalçı Ermənistanın yenidən atəşkəsi pozaraq torpaqlarımıza olan təcavüzünə qarşı Azərbaycan Ordusuna əks hücuma keçmə əmrini verdi. Vaxtilə Ulu öndər Heydər Əliyev Qarabağ münaqişəsini əlində xətkeş, önündə Azərbaycanın xəritəsi dünyaya Azərbaycanı-Qarabağı tanıdırdı, hazırda Ali Baş Komandan İlham Əliyev dünyanın məhşur TV, KİV-lərinə “Qarabağ Azərbaycandır” bəyan edir.

Azərbaycan torpaqları işğal edilsə də, Ulu öndər Heydər Əliyev siyasi-ideoloji, hərbi-diplomatik təbliğatı dayandırmır və ölkədə ictimai-siyasi sabitliyi bərpa edirdi. 17 il sonra XXI əsr Azərbaycanın islahatçı, lider Prezidenti, həm də Xilaskar Strateq, Ali Baş Komandan və Vətən Müharibəsinin Diplomat Sərkərdəsi Ulu öndər Heydər Əliyevin başladığı diplomatik Yolu, Prezident İlham Əliyev davam etdirdi. Prezident ilk öncə bu illərdə Güclü Ordu+Güclü dövlət+ Güclü iqtisadiyyat strategiyası ilə vəhdəhdə, Azərbaycançılığa söykənən Güclü Xalq və kreativ, intellektual Azərbaycan Vətəndaş formulasında xalqın milli mənafeyini qorumağa, Azərbaycanda yaşayan bütün xalqların birgə yaşayış həyat tərzinə hörmət amilini formalaşdırdı. Bu Ulu öndər Heydər Əliyev ideoloji məktəbinin siyasi-strateji və məntiqi yekunudur. Dövlət o zaman möhkəm olur ki, Güclü Lideri olsun! Güclü lideri də məhz Güclü xalq meydana çıxarır. Prezident İlham Əliyev Güclü Azərbaycan Xalqının Güclü, Çevik lideri, Diplomat Strateq Ali Baş Komandanıdır.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsinin uğurları bu illərdə səbrlə, soyuqqanlı diplomatiya ilə əldə olunub. Güclü liderin rəhbərliyi ilə BƏRPA edilən dövlət sərhədlərimiz, işğal altında qalan torpaqlarımızın azad olması ilə bahəm, həm də Azərbaycan Xalqının Özünə İnamı qayıdır, Özünə-Liderinin gücünə Etibarı daha da möhkəmlənir. Hər kəs Güclü Rəhbər – Güclü Ali Baş Komandan fövqündə özünü də Güclü hesab edir, iki əsrdən (1813-cü il Gülüstan müqaviləsindən başlayaraq) bu günədək uzanan Yoldakı "tabeçilik" kompleksindən çıxır, Vətənin müdafiəsi uğrunda həm də Ali Baş Komandanına – Prezidentinə hörməti və məhəbbəti çoxalır.

Bəllidir ki, istər fərd, istərsə fərdlər toplumu və ya XALQ-MİLLƏT özü-özünə hörmət-sayqı saxlamasa, ona heç kim hörmət bəsləmir. Cəsarətli, mübariz, qorxmaz, Vətəni – Torpağının Varlığını – Var olmasını müdafiə edənlərin də hörməti olur, sözü eşidilir və belə xalqlar da sayılır, diqqət nöqtəsində olur!

Möhtəşəm Azərbaycan Ordusu və Ali Baş Komandanımız – Qarabağı işğaldan azad edən İlham Əliyev Azərbaycanın fenomen Xilaskarı, Rəhbəridir. Fikrimi Azərbaycanın Birinci vitse-prezidenti Xanım Mehriban Əliyevanın "Qoy Uca Tanrı hər bir azərbaycanlıya Müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin" diləyi ilə yekunlaşdırıram.

**İstifadə edilmiş ədəbiyyat**

1. nuhcixan.az/news/cemiyyet/15068
2. Heydər Əliyev. Müstəqillik yolu. Bakı, 1997, s.37-39
3. Heydər Əliyev. Müstəqillik yolu. Bakı, 1997, s.42
4. Heydər Əliyev. Müstəqillik yolu. Bakı, 1997, s.107
5. Heydər Əliyev. Müstəqillik yolu. Bakı, 1997, s.40

UOT 37(091); 37(092)

**Azərbaycan təhsilinin inkişafında Heydər Əliyev dövrü**

*tar.e.d., prof. Mais İsrail oğlu Əmrahov,*
*AMEA Tarix İnstitutu*

Müstəqil Azərbaycanın 10 il prezidenti olmuş Heydər Əliyev Azərbaycan xalqının XX əsrdə yetirdiyi ən parlaq simalardan biri olub adını tarixin səhifəsinə qızıl hərflərlə yazmışdır. Ulu öndər Azərbaycana rəhbərlik etdiyi illərdə Azərbaycanın tərəqqisinə və çiçəklənməsinə, beynəlxalq aləmdə tanınmasına, dövlətçiliyimizin möhkəmlənməsinə, xalqımızın milli-mənəvi dirçəlişinin qorunub saxlanmasına çalışmış və sözün həqiqi mənasında Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi tarixə daxil olmuşdur. Müstəqil dövlətinin Konstitusiyasının qəbuluna nail olan

Ümummilli lider qanunvericiliyin, hakimiyyətin bölünməsi prinsiplərini, hüquq normalarını dünya standartlarına uyğunlaşdırıl-masına nail olmuşdur. [4]

Azərbaycan SSR-də təhsilin inkişafında XX əsrin 70-80-ci illəri keyfiyyətcə xüsusi mərhələni təşkil edir və intibah dövrü hesab oluna bilər. Bu dövrdə H.Əliyevin diqqəti və qayğısı sayəsində təhsilin inkişafı sahəsində uğurlar qazanılmışdır. XX əsrin 70-80-ci illərində republikada təhsili inkişaf etdirmək, xüsusilə, əhalinin ümumtəhsil səviyyəsinin yüksəldilməsi sahəsində iki əsas istiqamət – təhsil müəssisələrinin iş şəraitinin yaxşılaşdırılması və təhsilin forma və məzmununu təkmilləşdirmək, onun həyatla əlaqəsini möhkəmləndirmək təşkil edirdi [3, s.257]. Bunun üçün ilk növbədə təhsilə ayrılan büdcə vəsaitinin artırılması, ayrılan vəsaitin təyinatı üzrə xərclənməsi əsas məsələlərdən biri idi. Bu səbəbdən də, 1970-82-ci illərdə təhsil sahəsinə ayrılan büdcə vəsaitin 1,7 dəfə artırılmış, 1980-ci ildə 363,9 milyon manata çatdırılmışdı.[7, s.294]

Keçən əsrin 70-80-ci illərdə məktəbəqədər uşaq müəssisələri, məktəbə hazırlıq siniflərinin, məktəbyanı internatların, günüuzadılmış məktəb və qrupların, məktəblərarası tədris kombinatlarının təşkil olunması, işləyən gənclər üçün əyani və qiyabi məktəblərin yaradılması, orta texniki peşə məktəblərinin şəbəkəsinin genişləndirilməsi, 1970-1980-ci illərdə 51,8 min yerli məktəbəqədər uşaq müəssisəsinin tikilib istifadəyə verilməsi H.Əliyevin bu sahəni diqqət mərkəzində saxlamasının nəticəsi idi. 1982-1983-cü dərs ilində 2721 günüuzadılmış qrupda 358,1 min şagird cəlb olunmuşdu. [8, s.197]

Təhsilə göstərilən qayğı nəticəsində Azərbaycanda məktəb binalarının tikintisi və əsaslı təmiri sürətlənirdi. 1970-82-ci illərdə Azərbaycanda 16,2 min şagird yeri olan 761 ümumtəhsil məktəb binası tikilərək istifadəyə verildi. 1982-ci ildə Azərbaycan SSR-də 4395 ümumtəhsil məktəbi fəaliyyət göstərirdi, 117 min müəllim təlim-tərbiyə işləri ilə məşğul idi. 1980-1982-ci illərdə fəaliyyət göstərən 369 ibtidai, 1577 natamam orta və 2004 orta məktəbdə işləyən müəllimlərin 73,8%-i ali təhsilli idi. [9, s.197]

Texniki peşə təhsili sistemi 1970-1980-ci illərdə özünün inkişaf dövrünü yaşadı. 1970-80-ci illərdə Azərbaycanda gedən iqtisadi quruculuq prosesi, sənaye və kənd təsərrüfatının sürətli inkişafının ixtisaslı fəhlə kadrlarına olan tələbatını ödənilməsi üçün H.Əliyevin təşəbbüsü ilə 1969-cu ilin sonlarında "Texniki peşə təhsili sistemi məktəblərində ixtisaslı fəhlə kadrlarının hazırlanmasını daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul edildi. Respublika partiya təşkilatının və respublika hökumətinin 1971-ci ilin noyabr ayında qəbul etdiyi "Azərbaycan SSR-də texniki peşə təhsilinin daha da inkişaf etdirilməsi haqqında", 1975-ci ilin mayında qəbul olunan "Azərbaycan SSR-də texniki peşə təhsili sisteminin inkişafının bəzi məsələləri haqqında" qərarlar ixtisaslı fəhlə kadrlarının hazırlanmasında mühüm rol oynadı. 1975-ci ildə H.Əliyevin təşəbbüsü ilə "Kənd orta texniki peşə məktəblərinin şəbəkəsini genişləndirmək və onların işini yaxşılaşdırmaq tədbirləri " barədə qərar qəbul olundu. Nəticədə 1971-1975-ci illərdə 54 yeni texniki peşə məktəbi açıldı. 1980-ci ildə respublikada fəaliyyət göstərən 173 texniki peşə məktəbində 99,8 min, 1982-ci ildə isə 184 məktəbdə 109 min şagird oxuyurdu. [6, s.16]

H.Əliyevin Azərbaycanda siyasi hakimiyyətinin birinci dövründə (1969-1982-ci illər) ali təhsil sistemində ciddi dəyişikliklər aparıldı. 1971-ci ildə Pedaqoji Xarici Dillər İnstitutunun bazasında Rus dili və ədəbiyyatı və Pedaqoji Xarici Dillər İnstitutu təşkil olundu. Həmin ali məktəblər hazırda Bakı Slavyan Universiteti və Dillər Universiteti kimi fəaliyyət göstərir. 1972-ci ildə Naxçıvanda, 1973-cü ildə Xankəndində Pedaqoji institutlar təşkil edildi. 1976-cı ildə İnşaat, 1987-ci ildə Gəncə Texnologiya İnstitutları fəaliyyətə başladı. Beləliklə, qısa dövrdə ali məktəblərin sayı 12-17-yə çatdı. Ali məktəblərin maddi-texniki və tədris-metodiki bazası möhkəmləndirildi. İstifadəyə verilən yeni tədris korpusları, yataqxana binaları, təhsil-idman kompleksləri təhsilin keyfiyyətini yaxşılaşdırmaqla yanaşı, tələbələrin asudə vaxtlarının səmərəli təşkilinə şərait yaratdı.

Ali məktəb tələbələrinin sosial strukturunda müsbət dəyişikliklər baş verirdi. Professor-müəllim heyətinin elmi potensialı xeyli gücləndi. 1976–1980-ci illərdə ali məktəblərdə elmlər doktoru və professorlarən sayı 32 % artmışdı.

1970-1982-ci illərdə H.Əliyevin təşəbbüsü ilə SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ali məktəbində 80-dən artıq sahəni əhatə edən 250-dən çox ixtisas üzrə 15 mindən artıq gəncin

ali təhsi almasına imkan və şərait yaradıldı [2]. Eyni zamanda dünyanın müxtəlif ölkələrindən Azərbaycan ali məktəblərində 72 xarici ölkədən 1700-dan çox tələbə təhsil alırdı. [1]

XX əsrin 70-ci illəri Azərbaycanda milli hərbçi kadrların yetişdirilməsi illəri kimi tarixə düşdü. Artıq 1981-82-ci tədris ilində C.Naxçıvanski adına xüsusi hərbi məktəbin 540 nəfər məzunu SSRİ-nin ali hərbi müəssisələrində oxuyurdu. 1980-ci illərin əvvələrində Azərbaycan SSR-dən SSRİ-nin müxtəlif ali məktəblərinə hər il 800-1000 nəfər göndərilirdi. Ümumilikdə, 1970-80-ci illərdə SSRİ-nin ali məktəblərində 2000-dən çox azərbaycanlı zabit hazırlanmışdı.[3, s.268]

Qeyd olunanları ümumiləşdirərək deyə bilərik ki, 1969-1982-ci illər Azərbaycanda təhsilin inkişafında mühüm mərhələ olmuşdur.

Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə respublikada hakimiyyətə qayıtdıqdan sonra da təhsil sahəsini diqqət mərkəzində saxladı. İlk növbədə Azərbaycan Konstitusiyası ilə 11 illik icbari təhsilə keçildi. H.Əliyevin təşəbbüsü ilə "Təhsil qanunu"nun yeni layihəsi ümumxalq müzakirəsinə verildi. 1998-ci il martın 30-da "Azəraycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası haqqında" sərəncam imzalandı. "Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı" 1999-cu il iyunun 15-də təsdiq olundu.

H.Əliyevin göstərişi ilə orta məktəb dərsliyi latın qrafikası ilə nəşr olundu. Təmayüllü siniflərin, yeni tədris müəssisələrin şəbəkəsi genişləndi. Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında xüsusi fərman imzalandı və həmin fərmanla gənc istedadların "Qızıl kitab"ı və Pezident təqaüdü təsis olundu.

Heydər Əliyev Respublikaya rəhbərliyinin 1-ci dövründə olduğu kimi 1993-2003-cü illərdə də orta təhsilin ciddi problemlərindən olan məktəb tikintisini, mövcud məktəblərin əsaslı təmirini, məktəblərin avadanlıqlarla təchizini nəzarətə götürdü. Onun 2002-ci il oktyabrın 4-də "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" Sərəncamından sonra məktəblərin tikintisi, təmiri və avadanlıqlarla təchizi sahəsində tədbirlər görüldü. 2002/2003-cü tədris ilində məktəblərin sayı 4561-ə çatdı. Ümumilikdə isə, 1999-cu ildən 2002-ci ilədək respublikanın 10 rayonunda 28 məktəb binası tikildi, 15 rayonda 70 məktəb binası təmir olundu.

Texniki peşə təhsilinə xüsusi önəm verən Heydər Əliyev 1996-cı ildə "Azərbaycan Respublikasında peşə təhsilinin təkmilləşdirilməsi haqqında" qərar qəbul etdi. Qərara uyğun olaraq peşə məktəbləri və liseylər yaradıldı. 2002/2003-cü tədris ilinin əvvəlində Respublikada fəaliyyət göstərən 49 peşə liseyi və 61 peşə məktəbində 115 peşə istiqaməti üzrə 25 mindən artıq şagird oxuyurdu.

1993-2003-cü illərdə ali və orta ixtisas təhsili sahəsində də uğurlar əldə olunmuşdur. 1993-94-cü tədris ilində ikipilləli ali təhsilə – 4 illik bakalavr və 2 illik magistratura təhsilinə keçid, dövlət məktəbləri ilə yanaşı özəl ali təhsil müəssisələri şəbəkəsinin genişlənməsi, təhsil sisteminin Avropa təhsil sisteminə inteqrasiya prosesinin güclənməsi və nəhayət, ali və orta ixtisas təhsili müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması təhsilin inkişafına dövlətin qayısının nəticəsi hesab olunmalıdır.

Ali təhsil sisteminin yaxşılaşdırılmasında H.Əliyevin "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 2000-ci il 13 iyun tarixli Fərmanı xüsusi mərhələnin başlangıcı oldu. Fərmana görə 4 aparıcı ali məktəb maliyyə müstəqilliyi qazandı, bir neçə ali məktəbə "Universitet" statusu verildi.

1993-2003-cü illər təhsil sahəsində beynəlxalq əlaqələrin genişlənməsində də dönüş mərhələsi oldu. Dünyanın 40-dək ölkəsinə 160 ixtisas üzrə 4 mindən çox azərbaycanlı gənc göndərildi [5, s.46]. Azərbaycan ali məktəbləri də 50 xarici ölkədən 200-dən çox tələbə, magistr və aspirantı (doktorantı) auditoriyalarına qəbul etdi. Bir sözlə, Azərbaycan təhsili 1993-2003-cü illərdə inkişafının yeni mərhələsinə qədəm qoydu.

**İstifadə edilmiş ədəbiyyat**

1. ARRİİSSA, f.1, siy.67, iş 192, 198, 388-390

2. “Azərbaycan müəllimi” qəz., 2003, 7-13 mart
3. Heydər Əliyev. İki cilddə, 1-ci cild. Bakı: Turxan NPR, 2013. 500 s.
4. “Xalq qəzeti”, 1998, 15 iyun
5. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002, 580 s.
6. Yusubov S. 1969-1987-ci illər Azərbaycanın oyanış dövrüdür. Heydər Əliyev və müstəqil Azərbaycan gəncliyi. Bakı: Azərnəşr, 2003, 368 s.
7. Народное хозяйство Азербайджанской ССР в 1984 г. Статистический сборник. Ежегодник. Баку: Азернешр, 1986, 315 с.
8. Народное хозяйство Азербайджанской ССР к 60-летию Великого Октября. Юбилейный статистический ежегодник. Баку: Азернешр, 1987, 352 с.
9. Народное хозяйство Азербайджанской ССР к 70-летию Великого Октября. Юбилейный статистический ежегодник. Баку: Азернешр, 1987, 314 с.

UOT 32(092); 37.03

## Ulu öndər Heydər Əliyevin gənclər siyasətinin başlıca istiqamətləri

*prof. Azad Mustafa oğlu Bayramov,*
*dos. Elgün Məhəmmədəli oğlu Aslanov,*
*Azərbaycan Dövlət Aqrar Universiteti*

Bu gün Azərbaycan gəncliyi cəmiyyətin fəal üzvləri kimi ölkə həyatının bütün sahələrində səylə çalışır, dövlətimizn çiçəklənməsi və inkişafı yolunda öz imkanlarını səfərbər edirlər. Ölkəmizdə məqsədyönlü şəkildə həyata keçirilən işlərin nəticəsi olaraq bu gün müasir Azərbaycan gəncliyi yeni inkişaf mərhələsinə qədəm qoyub, gənclərə günbəgün dövlət qayğısı artırılır. Heç də təsadüfi deyil ki, gənclik hər bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır və bir millətin mövcud olması üçün onun sağlam gəncliyinin olması vacib şərtdir. Çünki istənilən ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Sevindirici haldır ki, bu gün Azərbaycanda sağlam, vətənpərvər, intellektli gənclik formalaşıb. Gənc nəslin yetişdirilməsi dövlətimiz üçün ən başlıca məsələlərdən biridir. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir.

Təməli Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Dövlət Gənclər siyasəti bu gün Azərbaycanda dövlət siyasətinin mühüm tərkib hissəsidir. Belə ki, hakimiyyətə ikinci dəfə qayıtdıqdan sonra Heydər Əliyevin çoxşaxəli fəaliyyətinin əsas istiqamətlərindən biri də gənc nəslə diqqət və qayğının artırılması, respublikamızın sosial-iqtisadi, ictimai-siyasi həyatında gənclərin fəal iştirakının təmin olunması, gənclərin sosial-mənəvi ehtiyaclarının ödənilməsi, onların gələcəyin layiqli vətəndaşları kimi formalaşması üçün münbit şəraitin yaradılması olub. Gənclərlə iş, milli kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılması Ümummilli liderimizin gündəlik işinə çevrildi.

Hələ SSRİ-nin mövcudluğu dövründə Azərbaycan SSR-nin rəhbəri işləyərkən Ümummilli lider Azərbaycanın gələcəyi haqqında düşünmüş, onun yüksək ixtisaslı zabit kadrlara ehtiyacını nəzərə alaraq, bir sıra tədbirlər görmüşdü. 1972-ci ildə onun bilavasitə təşəbbüsü və təkidi ilə Bakıda xüsusi hərbi məktəb – Cəmşid Naxçıvanski adına məktəb açılmışdı. Azərbaycan milli ordusunun yaranmasında və təşəkkül tapmasında bu məktəb çox böyük xidmətlər göstərmiş, hər il onun 800-900 nəfəri Sovet İttifaqının ali hərbi məktəblərinə göndərilirdi. İndi ordumuzda xidmət edən zabitlərin çoxu həmin dövrdə hazırlanan zabitlərdir. Bir qədər sonra isə Azərbaycan Dövlət Pedaqoji Universitetində respublikamızda ilk dəfə milli zabit-müəllim hazırlayan İbtidai hərbi hazırlıq və fiziki təlim fakültəsi təşkil edilmişdi. 1978-1980-ci illərdə həmin fakültənin maddi-

texniki bazası yaradıldı və 1981-ci ildə ilk tələbə qəbulu elan edildi. Qeyd etməliyik ki, fakültəni bitirən məzunlara leytenant hərbi rütbəsi verilirdi. Ulu öndərimiz Azərbaycanda belə bir fakültənin yaranmasının ikinci böyük əhəmiyyətini gənclərimizin hərbi-vətənpərvərlik tərbiyəsinin geniş miqyasda təbliğ edilməsinə ciddi təsirində görürdü.

1970-1980-ci illərdə on minlərlə gəncin SSRİ-nin ən nüfuzlu ali məktəblərinə göndərilməsi yüksək ixtisaslı 15 minə yaxın kadr ordusunun yaradılmasına səbəb oldu. Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı ilə respublikamızdan kənarda SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ali məktəbində 80-nə yaxın ixtisas üzrə 15 min azərbaycanlı təhsil almışdır. Bu gün Heydər Əliyevin milli kadrları ölkədə ən yüksək mövqelərdə çalışırlar.

1993-cü ildə Ümummilli lider Heydər Əliyevin Azərbaycana qayıdışından sonra gənclərin problemlərinin həlli vacib dövlət məsələləri ilə bir sırada prioritet yer aldı. Əgər sovet Azərbaycanına rəhbəriyi dövründə H.Əliyev gənclərə daha çox kadr potensialı kimi baxırdısa, müstəqil Azərbaycana rəhbərliyi dövründə isə o, onları artıq dövlətin idarə edilməsində aparıcı qüvvə kimi görürdü.

Ümumilikdə, Azərbaycanın Ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyən olunan və həyata keçirilən gənclər siyasəti özündə beş mühüm istiqaməti ehtiva edirdi:

- milli-mənəvi dəyərlərin qorunmasında gənclərin rolunun artırılması, gənc nəslin tarixi köklərə bağlı olan vətənpərvərlik ruhunda tərbiyəsinin təmin edilməsi;
- gənclərin elmi və intellektual potensialının artırılması üçün ciddi təhsil və mədəni islahatların həyata keçirilməsi;
- gənclərin təşkilatlanmasının təmin edilməsi, dövlətin müstəqilliyinin müdafiəsi üçün onların aparıcı qüvvə qismində birləşməsinin gücləndirilməsi;
- dövlət idarəçiliyində gənclərin rolunun əhəmiyyətli dərəcədə artırılması və onlarda məsuliyyət hissinin formalaşdırılması;
- gənclərin Azərbaycan dövlətinin beynəlxalq aləmə inteqrasiyası ilə təmin olunan imkanlardan maksimum istifadə etmələri üçün möhkəm əsasın yaradılması.

Həyata keçirilən gənclər siyasətinin başlıca məqsədi milli dəyərlərə söykənən, vətəninə, xalqına bağlı olan müasir düşüncəli gənc nəslin formalaşdırılması, bu gəncliyin potensialından dövlətin inkişafı naminə istifadə edilməsidir.

1993-cü ilin 22 sentyabrında Azərbaycan Prezidentinin səlahiyyətlərini icra edərkən, Respublika Ali Sovetinin sədri Heydər Əliyev gənclərin bir qrupu ilə görüşmüş, Azərbaycan gəncliyini ölkənin ictimai-siyasi həyatında daha fəal iştirak etməyə, ölkənin taleyinə biganə qalmamağa çağırmışdı. Gənclərlə iş sahəsində dövlət siyasətinin mühümlüyünü nəzərə alaraq, Azərbaycan Prezidenti Ümummilli lider Heydər Əliyev 1994-cü ilin iyul ayının 26-da bu siyasəti həyata keçirəcək yeni dövlət quruluşunun – Gənclər və İdman Nazirliyinin yaradılması haqqında fərman imzaladı. Yeni nazirliyin qarşısına qoyulan əsas məsələlərdən biri böyüməkdə olan nəslin Vətənə, xalqa məhəbbət ruhunda tərbiyə olunması, gənclərin sosial- iqtisadi problemlərinin həlli, mənəvi ehtiyaclarının ödənilməsi, gənc nəslin hərtərfli inkişafı üçün şəraitin yaradılması olmuşdur. Respublikada çoxsaylı gənclər təşkilatlarının fəaliyyət göstərdiyi bir şəraitdə onların işini əlaqələndirmək zərurəti getdikcə özünü daha çox göstərirdi. Bu işi təmin etmək məqsədilə Prezident Heydər Əliyevin xüsusi fərmanı ilə 1996-cı ilin 2 fevralında keçirilmiş Müstəqil Azərbaycan Gənclərinin I Forumunun xüsusi əhəmiyyəti oldu. Forumda gənclərin bütün kateqoriyalarını: tələbələri, hərbiçiləri, jurnalistləri, siyasi partiya və gənclər təşkilatlarını təmsil edən 2 mindən çox nümayəndə iştirak etmişdi. Forumun işində respublika Prezidenti başda olmaqla bütün dövlət orqanlarının rəhbərləri iştirak etmiş, gənclərin irad və təkliflərini dinləmiş, bütün Azərbaycan gəncliyinin problemlərini yaxından öyrənib.

Ulu öndər 1997-ci ildə sərəncam imzalayaraq, 2 fevralı "Gənclər Günü" elan etdi. Artıq 20 ildən çoxdur ki, ölkəmizdə bu gün böyük təntənə ilə qeyd edilir. Ulu öndər Heydər Əliyev 1999-cu il iyulun 29-da imzaladığı "Dövlət gənclər siyasəti haqqında" fərmanla müstəqil dövlətimizdə gənclərin hərtərəfli inkişafı üçün daha əlverişli şərait, cəmiyyətin həyatında onların fəal iştirakının təmin edilməsi üçün siyasi, sosial-iqtisadi və hüquqi baza yaratmış, gənclərin dövlət quruculuğu

işinə geniş cəlb olunmasına və ictimai-siyasi fəallığının artmasına kömək etmişdir. 2002-ci il aprelin 9-da “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Qanunda gənclər siyasətinin məqsəd və prinsipləri, onun həyata keçirilməsində dövlətin vəzifələri, bu siyasətin əsas istiqamətləri, həyata keçirilməsinin təşkilati, maddi və maliyyə təminatı və digər məsələlər konkret əksini tapmışdır.

Gənclərin cəmiyyətin inkişafı və onun problemlərinin həllində rolunun, ölkənin gələcəyi naminə onların məsuliyyətinin artırılması, paytaxt və regionlarda yaşayan gənclərin nümayəndələri arasında fikir mübadiləsi üçün şəraitin yaradılması, gənclər təşkilatları ilə dövlət qurumları və hökümət strukturları arasında qarşılıqlı fəaliyyətin asanlaşdırılması məqsədilə 1999-cu il mart ayının 2-3-də Azərbaycan gənclərinin ikinci forumu keçirildi. Bu günə qədər Azərbaycan gənclərinin 8 forumu keçirilmişdir.

Sevindirici haldır ki, gənclər siyasəti bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Cənab Prezident gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun, dövlət idarəçiliyi sistemində iştirakının təmin edilməsi məqsədilə 2005-ci il avqustun 30-da imzaladığı “Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında” sərəncamı da gənclərə dövlət qayğısının davamı idi. Təhsil sahəsində aparılan islahatlar da gənclər siyasətinin ən vacib istiqamətlərindən biridir. Gənclərin maariflənməsinə, savadlanmasına, elmi inkişafına göstərilən xüsusi diqqət və qayğının davamı olaraq, “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində tələbələrin dünyanın məşhur universitetlərində təhsil almaq üçün göndərilməsi xüsusi diqqətə layiqdir. “Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında”, “Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında” Prezident fərmanları bu istiqmətdə görülən mühüm tədbirlərdəndir. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün də dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. “Bədən tərbiyəsi və idman haqqında”, “Gənclər siyasəti haqqında” qanunlar, habelə “Gənc ailə” proqramı, “Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında”, “İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı”, “Ordudan tərxis olunmuş gənclərin məşğulluğu” Dövlət Proqramı da bu qəbildəndir. Prezident İlham Əliyev tərəfindən 2007-ci ilin “Gənclər ili” elan edilməsi gənclərə ölkə Prezidenti tərəfindən böyük önəm verilməsinin növbəti sübutu idi. Hazırda ölkəmizdə gənclər siyasəti uğurla həyata keçirilir. Sosial həyatın bütün sferalarına nəzər salsaq, görərik ki, orada gənclər əksəriyyət təşkil edir.

Son illər həyata keçirilən tədbirlər gənclərin hərtərəfli inkişafının təmin olunması, onların ictimai-siyasi fəallığının artırılması üçün siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şəraitlərin yaradılmasını sürətləndirmişdi. Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Bu gün gənclər dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında, digər təşkilatlarda təmsil olunurlar və cəmiyyətin inkişafına öz töhfələrini vermək imkanına malikdirlər.

UOT 330.34; 330.35

## Azərbaycanın metallurgiya sənayesinin inkişaf tarixində Heydər Əliyev dövrü

*tex.f.d., dos. Vüqar Sabir oğlu Mustafayev,*
*Mingəçevir Dövlət Universiteti*

Müasir Azərbaycanın müstəqil bir dövlət olaraq, həm daxili, həm də xarici siyasətinin əsasını Ümummilli lider Heydər Əliyevin qoyduğu bütün dünyaya məlum olan bir həqiqətdir. Hər bir

sahədə sistemli və davamlı şəkildə həyata keçirilən bu uğurlu siyasət vətənimizin qüdrətini dayanmadan artırmaqdadır. Məhz bu müdrik siyasətin davamı olaraq, bu gün ölkə iqtisadiyyatının intensiv inkişafı fonunda genişmiqyaslı infrastruktur layihələri həyata keçirilir, iri inşaat obyektləri tikilir. Hamıya bəlli olan bir faktdır ki, mülki və sənaye obyektləri, orijinal çoxmərtəbəli tikililər, elm, təhsil, mədəniyyət və idman mərkəzləri, körpülər, avtomobil yolları və s. öz növbəsində metaldan olan inşaat təyinatlı materiallara olan tələbatı da gündən-günə artırmaqdadır. Əgər əvvəllər respublikanın inşaat materialları bazarı yalnız xarici ölkələrdə istehsal olunan məhsullarla təmin edilirdisə, bu gün yerli bazarda müasir dünya standartlarına cavab verən, keyfiyyətcə yüksək, geniş çeşid diapazonlu Azərbaycan istehsalı olan məhsullara tələbat durmadan çoxalmaqdadır. Ölkəmizdə bol və rəngarəng xammal resursları bazasının, müxtəlif növ metal tullantılarının, yerli enerji ehtiyatlarının – neft və təbii qazın, metal tələbatlı sənaye və inşaat sahələrinin, bilikli və təcrübəli mütəxəssis-kadrların, peşəkarların və əmək ehtiyatlarının mövcudluğu ağır sənayenin, o cümlədən onun mühüm və ayrılmaz tərkib hissəsinin – metallurgiya sənayesinin inkişafı üçün də geniş imkanlar yaradır.

Ümummilli lider Heydər Əliyev öz fitri istedadı, parlaq zəkası ilə bütün sahələrdə olduğu kimi, ağır sənayenin də inkişaf yolunu müəyyən etmişdir. Azərbaycanda və Azərbaycandan kənarda – mürəkkəb bir siyasi və iqtisadi şəraitdə, Sovet İttifaqının ən yüksək idarəetmə aparatında işlədiyi dövrlərdə Heydər Əliyev Respublikanın sənayesinin, onun əsası olan metallurgiyanın inkişafına həmişə xüsusi diqqət və qayğı göstərmişdir. Azərbaycan metallurgiya sənayesinin yenidən qurulmasında əvəzsiz xidmətləri olan Ulu öndər Heydər Əliyev öz uzaqgörən siyasətinə əsaslanaraq, ölkənin gələcək inkişafı istiqamətində bu sənaye sahəsinin vacibliyini daim qeyd etmişdir.

Ulu öndər xalqımıza, respublikamıza xidmətdə fədakarlıq nümunəsi göstərmişdir. Hələ sovet hakimiyyəti illərində, o zamanlar ölkəyə rəhbərlik edən Heydər Əliyevin təkidli və uzaqgörən siyasəti sayəsində Moskvanın “1976-1980-cı illərdə Azərbaycan Respublikasında sənayenin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan Kommunust Partiyası Mərkəzi Komitəsinin təkliflərinin nəzərdən keçirilməsi haqqında” qərarı Azərbaycanın iqtisadi və sosial inkişafında yeni bir mərhələnin başlanğıcını qoydu. Qara metallurgiya müəssisələrində, xüsusilə, Azərbaycan Boruyayma zavodunda təşkilati və texniki tədbirlərin həyata keçirilməsi burada polad borular istehsalını artırmağa imkan verdi. Əlvan metallurgiya sənayesi üzrə bir neçə yeni müəssisə və istehsal sahəsi istifadəyə verildi. Respublika sənayesinin böyük müəssisələrindən biri sayılan Sumqayıt Alüminium zavodunun texnoloji avadanlığının modernləşdirilməsi, texnoloji proseslərin intensivləşdirilməsi sahəsində tədbirlər görüldü, alüminumdan və başqa əlvan metallardan yeni məhsul növlərinin istehsalına başlandı. Metallurgiya sahəsində aparılan ardıcıl siyasəti yerinə yetirmək üçün Azərbaycan kifayət qədər xammal, avadanlıq və elmi mühəndis kadr potensialına malikdir. Daşkəsəndə dəmir, Filizçay, Katex, Kasdağ, Mehmanlı, Naxçıvanda əlvan metal – alüminium, kobalt, mis, sink, qurğuşun, Daşsalahlıda – filiz sayılmayan bentonit gili yataqlarının olması, Azərbaycana fasiləsiz və maneəsiz daşınan metal və avadanlıqlar ehtiyatı, 20-dən çox, bu və ya digər şəkildə metallurgiya sənayesi ilə əlaqəsi maşınqayırma zavodları, Azərbaycan maşınqayırma texnologiyası və neft-maşınqayırma kimi elmi-tədqiqat institutları, metallurgiyanın 9 ixtisası üzrə mühəndis hazırlayan, 3 ixtisas kafedrasına, 4 elmi-tədqiqat laboratoriyasına malik və 30 ildən çox bir müddətdə fəaliyyət göstərən Azərbaycan Texniki Universitetinin metallurgiya fakültəsi, metallurgiya sahələri üzrə 8 elmlər doktoru və professor, 50-dən çox elmlər namizədi Azərbaycanın metallurgiya potensialının böyük bir hissəsi kimi dəyərləndirilən amillərdən idi.

Metallurgiya sənayesi, ümumilikdə, iki sahədən – qara və əlvan metallurgiyadan ibarətdir. Burada əsas rol qara metallurgiyaya məxsusdur. Qara metallurgiyaya – dəmir filizinin çıxarılması və saflaşdırılması, çuqun və poladın əridilməsi, prokat və ferroərintilərin istehsalı daxildir. Azərbaycanın ən iri qara metallurgiya mərkəzləri tarixən Sumqayıt, Bakı və Daşkəsən olmuşdur. Daşkəsən Azərbaycanın ən iri dağ-mədən sənayesi mərkəzidir. Sovetlər dönəmində Daşkəsəndə fəaliyyət göstərən filiz saflaşdırma kombinatının istehsalı olan filiz Gürcüstanın Rustavi şəhərindəki metallurgiya zavoduna göndərilirdi. Sumqayıtdakı boru-prokat zavodunda isə qara metallurgiyanın

son məhsulu olan boru və prokat hazırlanırdı. Azərbaycanda boru-prokat istehsalının yaradılması neft-qaz sənayesinin inkişafı ilə əlaqədar olmuşdur. Maşınqayırmanın inkişafı və metal tullantılarının çoxluğu ilə əlaqədar Abşeronda təkrar metal emalı zavodları və kiçik metallurgiya sexlərinin yaradılmasına və inkişafına şərait yaratdı.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının inkişaf tarixində 70-80-ci illər dönüş illəri hesab olunur ki, bu da Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında əsaslı quruculuq işlərinin, kənd təsərrüfatının və sənayenin inkişafının sürətləndirilməsi ilə müşahidə olunmuşdur. Məhz bu dövrdə əhalinin hər nəfərinə düşən milli gəlirin iki dəfə, sənaye istehsalının isə üç dəfə artması, respublikada 250-dən artıq mühüm müəssisənin, yeni sexlərin texnika və mütərəqqi texnologiya əsasında tikilib istifadəyə verilməsi regionların inkişafına öz müsbət təsirini göstərmişdir. Bu dövrdə Azərbaycanda 40-dan artıq maşınqayırma və metal emalı müəssisəsi istismara verilmişdir ki, onlar da 12 orta və kiçik şəhər və rayonlarda yerləşdirilmişdir [1].

Ancaq SSRİ süquta uğradıqdan sonra sənayenin digər sahələri kimi metallurgiyamız da çox acınacaqlı bir vəziyyətə düşdü. Yalnız Ümumimilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bu sahədə də canlanma başlandı. Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı göstərdi ki, o, respublikamızın ağır sənayesinin, o cümlədən metallurgiya sənayesinin güclü inkişafına yönəlmiş böyük siyasətini davam etdirir, bu işin vacibliyini dəfələrlə qeyd edir və beləliklə, ölkəmizin tərəqqisini mütərəqqi sənaye sahələrinin durmadan inkişafında görür.

“Əsrin müqaviləsi”nin imzalanması ilə müstəqil Azərbaycan dövlətinin tarixində milli neft strategiyası həyata keçirilməyə başladı. Məhz bu müqavilədən sonra dünya dövlətlərinin Azərbaycan iqtisadiyyatına marağı əhəmiyyətli şəkildə artdı, ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsinə böyük təkan verilmiş oldu. Müqavilənin imzalanması ilə xalqımızın öz zəngin təbii sərvətləri üzərində sahiblik hüququ bir daha təsdiq edildi, eyni zamanda, Azərbaycan iqtisadiyyatının dünya üçün açıq olması nümayiş etdirildi. Məhz Ulu öndərin ölkəyə rəhbərlik etdiyi illərdə Azərbaycanda özəl sektor sahəsində ilk və ən müasir metallurgiya zavodu olan “Baku Steel Company” MMC yaradılaraq həyata vəsiqə aldı. 2001-ci ilin iyun ayının 23-də Ümummilli liderimiz Heydər Əliyevin iştirakı ilə rəsmi açılışı keçirilən “Baku Steel Company” MMC Azərbaycan metallurgiyasına yeni nəfəs gətirdi. Qısa müddət ərzində müəssisədə aparılan məqsədyönlü fəalyyət, həyata keçirilən yenidənqurma işləri və qoyulan böyük investisiyalar “Baku Steel Company” MMC-ni Cənubi Qafqaz regionunun birinci və ən böyük poladərtimə müəssisəsinə çevirməklə yanaşı, Avropanın ən öndə gedən metallurgiya zavodları ilə müqayisə olunacaq səviyyəyə qaldırdı [2]. Ulu öndərin qeyd etdiyi və Azərbaycanda sənayenin, o cümlədən qeyri-neft sektorunun sonrakı inkişafının da əyani şəkildə göstərdiyi kimi, bu gün bu müəssisə ölkədə polad məhsullarının istehsalı sahəsində əvəzsiz rol oynayır və müasir Azərbaycanın metallurgiya sənayesində önəmli yer tutur.

Məlum olduğu kimi, qara metallurgiya qeyri-neft sektorunda strateji sahələrdən biri sayılır. Rəsmi statistikaya görə ölkəmizin hər il polad və polad məhsullarına olan tələbatı 1,3 milyard dollar həcmindədir. Buna görə də qara metallurgiya sahəsinin müasir texnologiyaların tətbiqi ilə inkişaf etdirilməsi, dünya bazarında rəqabət qabiliyyətli məhsul istehsal edən yeni müəssisələrin yaradılması vacib məsələdir. Prezident İlham Əliyev öz çıxışlarının birində metallurgiyanın inkişafının vacibliyinə diqqət çəkərək bildirmişdir: “Metallurgiya sənayesinin inkişafına böyük diqqət göstərilməlidir. Bu sahədə də böyük imkanlar vardır. Nəzərə alsaq ki, bizdə kifayət qədər metal qırıntıları var, onlardan səmərəli istifadə edilməlidir.” [3] Prezidentin qeyd etdiyi kimi, respublikamızın qara metallurgiya sahəsində böyük imkanları vardır. Yalnız bir faktı qeyd etmək bəs edir ki, hal-hazırda Daşkəsən yataqlarındakı filiz ehtiyatlarının həcmi mütəxəssislərin ilkin hesablamalarına görə 350 milyon ton civarında qiymətləndirilir. Respublikada bu qədər zəngin xammalın olduğu bir şəraitdə və eləcə də müasir innovasiyaların, yeni texnologiyaların tətbiqi ilə ən yaxın zamanlarda Azərbaycanın Yaxın Şərqdə və Xəzəryanı ölkələr arasında güclü metallurgiya sənayesi olan dövlətə çevrilməsi üçün əlverişli şərat vardır. Bu gün ən müasir texnika və texnologiyalarla təhciz edilmiş ölkə metallurgiyasının ən son elmi biliklərlə silahlanmış mühəndis-texniki kadrlar potensialı da buna əlverişli imkan yaradır.

Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən ardıcıl şəkildə, uğurla həyata keçirilən müstəqil Azərbaycan dövlətinin iqtisadi siyasətinin əsas xəttini qeyri-neft sektorunun inkişaf etdirilməsi təşkil edir. Neftdən gələn gəlirlərin əsas hissəsinin məhz bu sahəyə yönəldilməsi də bunu bir daha təsdiq edir. Son zamanlar dünyada gedən proseslər, neftin qiymətinin aşağı düşməsi bu mövzunu daha da aktuallaşdırır. Bu baxımdan sənayenin bazası hesab edilən və əsas dayağı olan metallurgiyanın inkişaf etdirilməsi çox vacib bir faktor kimi özünü təsdiq edir. Həyatımızın elə bir sahəsini tapmaq çətindir ki, metallurgiya ilə əhatə olunmasın.

Çağdaş dövrdə sənayemizin bütün sahələrində olduğu kimi, metallurgiya sahəsində də irimiqyaslı yenidənqurma və intensiv quruculuq işləri aparılır. Bunun nəticəsidir ki, hazırda bu sahə üzrə fəaliyyət göstərən müəssisələrin istehsal etdiyi bir sıra məhsullar Azərbaycan brendi kimi hətta inkişaf etmiş ölkələrdə öz yüksək keyfiyyət parametrlərinə görə tanınmaqdadır. Bu isə, Heydər Əliyev uzaqgörənliyinin daha bir bariz ifadəsi, Heydər Əliyev dühasının daha bir parlaq qələbəsidir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Məmmədov R. Azərbaycanın metallurgiya sənayesi və onun inkişaf perspektivləri. “Xalq qəzeti” qəz., Bakı, 2011, 16 iyun
2. “Baku Steel Company” MMC-nin rəsmi saytı: https://www.bakusteel.com
3. Azərbaycan Respublikasının Prezidentinin Rəsmi internet səhifəsi: https://president.az/articles/4098

UOT 32(092); 930:37.016

**Azərbaycanın tarixi irsinin qorunmasında Heydər Əliyev fenomeni**

*t.f..d. Nizami Dilənçi oğlu Zeynalov,*
*Mingəçevir Dövlət Universiteti*

Heydər Əliyevin Azərbaycan tarix elminin inkişafında və tarixi irsimizin qorunması istiqamətindəki fəaliyyəti bu gün də öz töhfələrini verməkdədir. Ümumiyyətlə, ulu öndərin əməli fəaliyyətinin ayrı-ayrı aspektləri, o cümlədən onun konkret elm sahələri ilə bağlı fəaliyyəti, düşüncə və tövsiyələri, elmə və elm adamlarına, habelə tarixi irsimizə münasibəti xüsusi araşdırma tələb edən kifayət qədər geniş bir tədqiqat mövzusudur. Heydər Əliyev bütövlükdə Azərbaycan elminin və elm adamlarının böyük himayəçisi idi. O, əksər elm sahələrini kifayət qədər yaxşı bilirdi. Özünün məruzə və çıxışlarından, ayrı-ayrı elm adamları ilə görüş və söhbətlərindən onun xüsusilə, humanitar elmləri yaxşı bildiyi dərhal nəzəri cəlb edirdi. Bu, əlbəttə, hər şeydən öncə, ulu öndərin iti təfəkkürə, möhkəm məntiqə, fenomenal yaddaşa və zəngin dünyagörüşünə malik olmasından, ən nəhayət, onun yorulmaq bilmədən daim mütaliə etməsindən xəbər verirdi.

Heydər Əliyev Azərbaycan tarix elminin inkişafına və tarixi irsimizin qorunmasına xüsusi qayğı və həssaslıqla yanaşırdı. Bu həm də müəyyən mənada onunla izah oluna bilər ki, Heydər Əliyev ixtisasca tarixçi idi. Şübhəsiz ki, tarix elmini və onun problemlərini digər elmlərdən daha yaxşı və daha dərindən bilirdi. Ulu öndərin tərcümeyi-halından da bəlli olduğu kimi, hələ 1940-cı ildə, 17 yaşında ikən onun əmək fəaliyyətinə başladığı ilk iş yeri məhz Azərbaycan Tarixi Muzeyi olmuşdur.

Böyük Vətən müharibəsi başa çatandan sonra isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olub və 1957-ci ildə təhsilini müvəffəqiyyətlə başa vurmuşdur. Sonralar, Dövlət Təhlükəsizliyi orqanlarında çalışarkən, respublika partiya təşkilatına rəhbərlik edərkən Azərbaycan tarixinin problemlərinə və Azərbaycanda tarix elminin durumuna daha dərindən bələd olmuşdur.

Heydər Əliyevin Azərbaycan tarixi irsinin qorunması istiqamətindəki fəaliyyətini iki əsas dövrə bölmək olar: Azərəbaycan SSR-ə rəhbərlik etdiyi dövrdəki fəaliyyəti və müstəqillik illərindəki fəaliyyəti. Hesab edirik ki, ulu öndərin Azərəbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə tarixi irsimizin qorunması ilə bağlı atdığı əməli addımlar istər öz məzmununa, istərsə də əhəmiyyətinə görə daha önəmlidir. Məlumdur ki, sovet hakimiyyəti illərində “Kreml” qonşu respublikalarla müqayisədə Azərbaycan xalqının tarixinə, xalqımızın tarixən yaratdığı zəngin mədəni irsə böyük qısqanclıqla yanaşır, hər vasitə ilə tarixi irsin təbliğinə mane olur, xalqın öz milli-mənəvi kökündən qopardılması istiqamətində məqsədyönlü siyasət həyata keçirirdi. Məhz belə bir dövrdə, sovet təbliğat maşınının xalqımızın tarixi irsinə qarşı yönəldiyi bir zamanda bu irsi qorumaq və onu təbliğ etmək, əlbəttə ki, Heydər Əliyev cəsarətinin təntənəsi idi.

Biz ulu öndərin tarix və memarlıq abidələrinə, onların mühafizəsinə, tədqiqinə, təbliğ edilməsinə diqqət və qayğısından xəbər verən bir neçə konkret faktın üzərində dayanmaq istərdik. Belə ki, Heydər Əliyevin 1969-cu ildə respublika rəhbərliyinə gələrkən həyata keçirdiyi ilk tədbirlərdən biri Azərbaycan ərazisindəki tarix və memarlıq abidələrinin uçotunun dəqiqləşdirilməsi və onların yenidən qeydiyyata alınması haqqında qərarı oldu. Əslində, Heydər Əliyev Azərbaycan xalqı qarşısında öz tarixi missiyasını yerinə yetirirdi: yəni Azərbaycan xalqının tarixini, onun tarixi irsini, maddi mədəniyyət abidələrini qoruyub saxlamaq və gələcək nəsillərə ötürmək missiyasını. Bu məqsədlə bölgələrə akademiyanın alimləri və Mədəniyyət Nazirliyinin əməkdaşlarından ibarət işçi qrupları göndərildi. Nəticədə əvvəllər dövlət qeydiyyatında olmayan bir çox yeni abidələr aşkar edilərək qeydiyyata alındı. Qeyd etmək lazımdır ki, Azərbaycan xalqının tarixi irsinin qorunması, bərpası və təbliği istiqamətində təkcə 1969-1973-cü illər ərzində ulu öndərin bilavasitə təşəbbüsü ilə partiya və hökumətin 15 qərar və sərəncamı qəbul edilmişdi.

Azərbaycanın əsasən qərb bölgələrində, Ermənistan SSR ilə həmsərhəd regionlarda tarixi və memarlıq abidələrinin qeydiyyata alınması və tədqiq edilməsi ulu öndərin xüsusi diqqət mərkəzində idi. Aparılan uçota almalar acı bir həqiqəti ortaya çıxartdı: əvvəllər dövlət qeydiyyatına alınmış tarixi abidələrin bir çoxu müəmmalı şəkildə “yoxa çıxarılmış”, Ermənistan SSR ilə həmsərhəd bölgələrdə bir çox tarixi abidələrin üzərindəki kitabələr qoparılmış, yazılar məhv edilmiş, yaxud onlara məqsədli şəkildə saxta əlavələr edilmişdir. Aydın oldu ki, sovet dönəmində özümüzə “dost və qardaş” bildiyimiz üzdəniraq ermənilər zaman-zaman xalqımıza məxsus tarixi-mədəni dəyərlərin oğurlanması ilə, onların məhv edilməsi ilə, Azərbaycanın əzəli torpaqlarından xalqımızın tarixi izlərinin silinəsi və özlərinə saxta tarix yaradılması ilə məşğul olmuşlar. Təbiidir ki, ulu öndərin rəhbərliyi ilə həyata keçirilən bu tədbirlər sayəsində, bir tərəfdən ermənilərin iç üzü açılmış oldu, digər tərəfdən isə, xalqımıza məxsus tarix və memarlıq abidələrinin mühafizəsinə və təbliğinə münasibət köklü şəkildə dəyişdirildi.

Heydər Əliyev Azərbaycanın ayrılmaz guşəsi olan cənnət Qarabğın tarixi isrsinin qorunmasına xüsusi diqqət ayırır, hər vasitə ilə Dağlıq Qarabağ Muxtar Vilayətində və ayrıca olaraq Şuşa şəhərində tarixi abidələrin restavrasiyası və mühafizəsinin qayğısına qalırdı. Ümumiyyətlə, Heydər Əliyev Şuşaya adi şəhər kimi deyil, zəngin tarixi abidə, Azərbaycan xalqının qəhrəmanlıq rəmzi kimi baxırdı. Təkcə 1975-ci ildə Ulu öndərin təşəbbüsü ilə Şuşa şəhərindəki “Qala divarları”nın və “Gəncə qapısı”nın bərpasına Azərbaycan SSR büdcəsindən 25 min manat pul vəsaiti ayrıldı.

Görülən məqsədyönlü tədbirlər sayəsində 200-ə qədər tarixi-mədəni abidə aşkar edilərək, dövlət xətti ilə mühafizəyə cəlb edildi. 1982-ci ilə qədər isə ümumilikdə 6571 tarix və mədəniyyət abidəsi qeydiyyata alındı. Heydər Əliyev bütün bu tədbirlərlə yanaşı, ittifaq büdcəsindən tarix və mədəniyyət abidələrinin bərpa və mühafizəsinə vəsait ayrılmasına da nail olurdu. Hələ 1973-cü ildə bu abidələrin bərpası işinə ilkin olaraq 150 min manat vəsait ayrıldı. Bundan sonra ulu öndərin səyləri nəticəsində dövlət büdcəsindən bu istiqamətdə ayrılan vəsaitin miqdarı ilbəil artırıldı. 1981-ci ildə bu istiqamətdə vəsaitlərin həcmi 1976-cı illə müqayisədə 4 dəfə artırılaraq 6,8 mln manata çatdırılmışdı. 1982-ci ildə isə əvvəlki ilə nisbətən vəsait daha 19,2 % artırılaraq 3,1 mln manat oldu.

Ulu öndərin tarixi-mədəni irsə münasibəti ilə bağlı daha bir prinsipial məqama toxunmaq istərdik. Ötən əsrin 70-ci illərinin sonunda Qəbələ RLS-nin tikintisi ilə əlaqədar Qəbələ arxeoloji

kompleksi böyük təhlükə altına düşmüşdü. Məhz Heydər Əliyevin o dövrdəki böyük qətiyyəti sayəsində Qəbələ arxeoloji kompleksinin məhv edilmə təhlükəsi aradan qalxmış oldu. Azərbaycanın görkəmli tarixçilərindən biri, akademik İqrar Əliyev bu hadisə ilə əlaqədar öz xatirələrində yazır: “Qəbələ hadisəsi ilə əlaqədar mən Mərkəzi Komitədə Heydər Əliyevin qəbulunda olarkən o, məni diqqətlə dinlədi, sonra dərhal Moskvaya, Müdafiə Nazirliyinə zəng vuraraq yüksək rütbəli marşallardan biri ilə çox sərt tərzdə danışdı və bu işin dərhal dayandırılmasını tələb etdi. Mən onda gördüm ki, Heydər Əliyev öz vətəninə, tarix və mədəniyyətimizə nə qədər dərindən bağlı olan mərd bir şəxsiyyət imiş.” Bu hadisədən dərhal sonra H.Əliyevin göstərişi ilə Ali Sovetin Rəyasət Heyətinin sədri Qurban Xəlilovun rəhbərliyi altında Dövlət komissiyası Qəbələyə göndərilir. Sonradan məlum olur ki, Qəbələ RLS-nin layihəsi Moskvanın layihə institutlarının birində işləyən milliyətcə erməni qadın tərəfindən layihələndirilib və məhz Azərbaycanın (Qafqaz Albaniyasının) qədim paytaxt şəhəri olan Qəbələnin üzərində tikilməli imiş. Bir neçə gündən sonra Qəbələ məsələsi MK-nın büro iclasının müzakirəsinə çıxarıldı və 1982-ci ildə məhz Heydər Əliyevin tapşırığı ilə Qəbələ şəhərinin ərazisi tarix və mədəniyyət qoruğu elan edildi.

Ulu öndərin keçmişimizin yadigarı olan tarix və mədəniyyət abidələrinə olan diqqət və qayğısını əks etdirən digər çoxsaylı misallar da göstərmək olar. Onun İçərişəhər abidələrinin konservasiyası və qorunması, Şirvanşahlar saray kompleksi, Atəşgah, Möminəxatun türbəsi, Nizami Gəncəvinin məqbərəsi, Şabran şəhərinin arxeoloji tədqiqi ilə bağlı tarixi əhəmiyyətli sərəncam və göstərişləri, sözün əsil mənasında, hər bir dövlət xadimi və hökumət rəsmisi üçün tarixi-mədəni irsə qayğıkeş münasibət nümunəsidir.

Ulu öndər təkcə Azərbaycanın tarixi-mədəni irsinin, maddi-mədəniyyət abidələrinin qorunmasını deyil, həm də Azərbaycan tarix elminin fundamental əsaslarla inkişaf etdirilməsini, respublikanın milli tarixçi kadrlarının yetişdirilməsini daim diqqət mərkəzində saxlayır, Azərbaycan tarixini hər cür siyasi ideologiyadan kənar, doğru-düzgün yazılmasını tövsiyə edirdi.

Məlumdur ki, Azərbaycan Respublikası öz müstəqilliyinə qovuşanadək onun tarixi sovet ideologiyası nöqteyi-nəzərindən yazılmışdır. Tariximizin bir çox məqamları, xüsusilə qədim və orta əsrlər tariximiz, Azərbaycan xalqının etnogenezi məsələsi, Azərbaycan Xalq Cümhuriyyətinin tarixi, 37-ci illərin repressiyalar dövrü, ermənilər tərəfindən xalqımızın başına gətirilən soyqırımı və deportasiyalar tariximiz dərindən tədqiq edilməmiş, Azərbaycan tarixində xeyli sayda “ağ ləkələr” buraxılmışdır.

1993-cü ildən respublikada siyasi hakimiyyətə qayıdan Ulu öndər Heydər Əliyev digər sahələrdə olduğu kimi, Azərbaycan tarix elminin inkişaf etdirilməsi istiqamətində də qətiyyətli addımlar atdı. Ulu öndərin 1993-cü ilin 21 sentyabrında Azərbaycan Elmlər Akademiyasının ziyalıları ilə görüşü bu istiqamətdə dönüş nöqtəsi kimi qiymətləndirilməlidir. Məhz bu görüşündə ulu öndər Azərbaycan tarixinin, xüsusilə onun XIX-XX əsrlər dövrünün yenidən işlənilməsi ilə bağlı konkret tövsiyələr verdi. 31 yanvar 1997-ci ildə Azərbaycan Elmlər Akademiyasının aparıcı alimləri ilə görüşündə bir daha bu məsələyə qayıdan Heydər Əliyev Azərbaycan tarixinin yenidən yazılması üçün dövlət büdcəsindən çox böyük miqdarda vəsait ayrılması haqqında konkret tapşırıqlar verdi.

Əlbəttə ki, bütün bunlar Azərbaycan tarix elminin inkişafı üçün böyük maddi və mənəvi stimul demək idi.

Ulu öndər Azərbaycan tarixinin öyrənilməsinin böyük ideoloji əhəmiyyətini, xüsusilə gənc nəslin tərbiyəsindəki rolunu yüksək qiymətləndirərək tariximizin, zəngin mədəni irsimizin dərindən öyrənilməsini və sovet dövrünün köhnə stereotiplərindən uzaq yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini tövsiyə edirdi. 2001-ci ildə yeni əsr və III minillik münasibətilə Azərbaycan xalqına müraciətində ulu öndər qeyd edirdi ki, “Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir. ... Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədəni irsi daha dərindən öyrənərək böyük qurur hissi duymağa başlayır və sözsüz ki, bununla fəxr edir”.

İnanırıq ki, qədirbilən xalqımız, Azərbaycan gəncliyi ulu öndərin bu tövsiyəsinə əməl edərək xalqımızın zəngin tarixi-mədəni irsini öyrənmək, təbliğ etmək və gələcək nəsillərə ötürmək üçün əlindən gələni əsirgəməyəcəkdir.

**İstifadə edilmş ədəbiyyat**

1. Heydər Əliyev Azərbaycan elminin keşiyində. Sənədlər və materiallar. 2 cilddə, I cild / red. Y.M.Mahmudov. Bakı: Turxan, 2013, 668 s.

2. Heydər Əliyev. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət. Bakı: Yeni nəşr evi, 2001, 55 s.

3. Hüseynova L. Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri (müstəqillik dövrü). Bakı: Təhsil, 2011, 216 s.

4. Hüseynova L. Əsl liderliyin nümunəsi. “Azərbaycan” qəz., 2017, 14 iyul, s.6

5. Cəbiyev Q. Heydər Əliyev və Azərbaycan tarixinin aktual problemləri. “Xalq qəzeti”, 2016, 3 may, s.8.

6. Qasımlı M. Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 2006, 608 s.

7. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, 472 s.

UOT 32

## Ulu öndər Heydər Əliyevin banisi olduğu Azərbaycan multikulturalizmi

*s.f.d., dos. Esmira Hilal qızı Cəfərova,*
*Mingəçevir Dövlət Universiteti*

XX əsr Azərbaycan tarixi rəngarəng təlatümlü siyasi hadisə və proseslər baxımından çox zəngindir. Ən ümdəsi XX əsrdə Azərbaycan iki dəfə müstəqillik qazanıbdır. Onlardan birincisinin ömrü qısa (cəmi 23 ay) olsa da, ikinci dəfə əldə etdiyi müstəqillik dövründə bir çox çətinliklərə sinə gərərək möhtəşəm uğurlara imza atub regionun qüdrətli, sayılıb-seçilən lider dövlətinə çevrilib. Çünki tarix təkrarlansa da, bu dəfə “tarixi şans əldən getməmiş onu reallaşdıra biləcək tarixi şəxsiyyət siyasət meydanına qayıtdı”, fenomenal təfəkkürə və intellektə malik olan müdrik siyasətçi Heydər Əliyevin uzaqgörən siyasəti, ilk növbədə, Azərbaycanı parçalanmaqdan xilas etdi, vətəndaş qarşıdurmasına, hərcmərcliyə son qoydu, dövlət müstəqilliyimizin dönməzliyinin və ölkədə davamlı inkişafın təmin olunmasına, demokratik prinsiplərin möhkəmləndirilməsinə, yeni iqtisadi modelin formalaşmasına möhkəm zəmin yaratdı.[ 4, s.11- 20]

Nəticədə, Azərbaycan XXI yüz ilə möhkəm siyasi və iqtisadi təməl üzərində qədəm qoyaraq, qısa zaman kəsiyində iqtisadi, enerji, ərzaq, ekoloji və bütövlükdə milli təhlükəsizliyini təmin etməyə, qabaqcıl dünya dövlətləri arasında mövqeyinin möhkəmləndirilməsinə nail oldu. Eyni zamanda Ulu öndər Heydər Əliyev Azərbaycanda əsrlər boyu formalaşan çoxmədəniyyətlilik, torelantlıq, insan hüquqlarının aliliyi kimi multikultural dəyərlərin qarantı kimi azərbaycançılıq ideologiyasını reallaşdırdı, Azərbaycan multikulturalizmini dövlət siyasətinin prioritet istiqaməti elan etdi.

XX əsrin ortalarından başlayaraq bir neçə minillik tarixi olan dünyəvi dövlətlər multikultural dəyərlərin təsiri altında multikulturalizmi tarixi zərurət, alternativi olmayan dövlət siyasəti, tolerantlığın ali forması kimi qəbul edərək tolerant təfəkkür tərzinin inkişaf etdirilməsini günün təxirəsalınmaz tələbi olaraq meydana gətirdilər. Beləliklə, insanların mənəvi dirçəlişinə, onların sağ qalmasında, davamlı inkişafının təmin olunmasında tolerant təfəkkür tərzinin formalaşdırılması əsas şərtə çevrildi. Tolerantlıq geniş mənada başqasına, başqa mədəni ənənəyə səmimi hörmət və rəğbət ifadəsidir. Tolerantlıq, həmçinin başqalarında mövcud olan dəyərlərin tanınması, başqasının mövcudluğuna xeyirxah münasibət, onunla dialoqa hazır olmaq, həqiqətə aparan yolların müxtəlif

olmasının dərk edilməsidir. Tolerantlıq eyni zamanda bir fərdin, bir sistemin digər fərdlərlə və sistemlərlə ünsiyyətə və qarşılıqlı təsirə açıq olmasını ifadə edir.

Tolerantlığın nə qədər qədim tarixi olsa da, o hələ də ümumbəşəri dəyər kimi təsdiq edilməyibdir. Həm də tarix sübut edir ki, tolerantlıq heç də bütün xalqların bəşəri ideyası olmayıbdır. Başqa şəxsiyyətin, başqa xalqın, başqa tarixin özündə yüksək dəyər ifadə etməsini dərk etmək və qəbul etmək çətin prosesdir. Bu, əsasən, onunla bağlıdır ki, tarixən xalqlar öz milli-mədəni ideyalarını təbliğ edərək inkişaf etmişlər. Müəyyən zaman kəsiyində bu, onlar üçün mütərəqqi əhəmiyyət kəsb edib, özünüdərk prosesini sürətləndirib, unikallığın qorunmasına xidmət etsə də, müasir dövrdə bəşəriyyət qarşısında başqa bir vəzifə durur – mövcud müxtəlifliyin birliyini qoruyub saxlamaq. Onu isə şəxsi eqonu və müstəsnalılığı inkar etmədən yerinə yetirmək mümkün deyil. Bununla bağlı olaraq, müasir insan cəmiyyəti çağdaş əlaqələndirici və birləşdirici mexanizmlərin yaradılmasını tələb edir. Hər bir xalqın mədəniyyətinin ən yaxşı nümunələrinə hörmət və başqasının azadlığı çərçivəsi ilə məhdudlaşan özünüifadə azadlığının təmin edilməsi bu mexanizmlərin fundamental elementləri olmalıdır.

Min illər ərzində tolerantlıq və multikulturalizm ənənələrinə sadiq qalan Azərbaycan xalqı bu ümumbəşəri dəyərləri öz tarixinin üzvi elementinə, həyat tərzinə çeviribdir. Azərbaycan tarixinin hansı səhifəsini nəzərdən keçirsək, orada müxtəlif etnosların, fərqli mədəniyyət mənsublarının vahid bir ailədə, bütöv bir orqanizm kimi birgə, əlbir, mehriban yaşadığını görərik. Ulu öndır Heydər Əliyev deyirdi: "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir" [3, s.34].

Ulu öndər Azərbaycana rəhbərlik etdiyi bütün zamanlarda etnik və milli məsələlərə xüsusi diqqət yetirdiyi üçün multikultural dəyərlərin inkişafında da ciddi irəliləyişlər baş verirdi. Ölkədə sabitliyin və inkişafın təmin olunmasında bu amilin önəmli rol oynadığını əsas götürərək həyata keçirdiyi tədbirlər içərisində etnik-siyasi birliyin möhkəmləndirilməsi məsələsi diqqətdə saxlanılırdı. Nəticədə, fenomenal düha sahibi olan Heydər Əliyev tolerantlığı və multikulturalizmi nəinki dövlət siyasəti səviyyəsinə qaldırdı, eyni zamanda, son dərəcə gərgin etnik-siyası və geosiyasi şəraitdə multikultural təhlükəsizliyi təmin edərək milli-etnik siyasətdə dünya dövlətlərinə nümunə olacaq yeni bir modelin – Azərbaycan multikulturalizminin formalaşmasının siyasi əsasını qoydu.

Bununla da, həm də ölkədə sabitliyin və davamlı inkişafın hüquqi təminatının təmin olunması istiqamətində ciddi addımlar atıldı. Məhz Ulu öndərin sayəsində Azərbaycanda milli azlıqların tarix, ədəbiyyat, mədəniyyət, dil, adət-ənənələrinin qorunub-saxlanmasına və inkişaf etdirilməsinə ilkin hüquqi əsaslar yaradıldı. İlk növbədə, Ulu öndərin şah əsəri olan, 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasına multikultural dəyərlərin inkişaf etdirilməsinə imkan yaradan, dini etiqad azadlığını təmin edən, dövlət-din münasibətlərini tənzimləyən müddəalar daxil edildi. Həmin sənəddə həm də dövlət quruculuğunun dünyəvi mahiyyət daşıması, dinin dövlətdən ayrı olması, bütün dini etiqadların qanun qarşısında bərabər sayılması, dövlət təhsil sisteminin dünyəvi xarakter daşıması, insan ləyaqətini alçaldan,insanpərvərlik prinsiplərinə zidd dinlərin yayılmasının və təbliğinin qadağan edilməsi təsbit olundu. [1]

Ölkə Konstitusiyasında dinindən, dilindən asılı olmayaraq, bütün vətəndaşların qanun qarşısında bərabər hüquqlarının təsbit olunması dövlətimizin tolerantlığın keşiyində durduğunu bir daha sübut edir. Dövlət-din münasibətlərində ən demokratik mövqe nümayiş etdirən Azərbaycanda əhalinin böyük əksəriyyətini müsəlmanların təşkil etməsinə baxmayaraq, digər din və mədəniyyətlərə dözümlü münasibət yaşam və həyat tərzinə çevrilib. Ölkəmizdə müxtəlif millətlərin, dini konfessiyaların birgə yaşaması nadir nümunədir. Dini icmalar arasında həmişə möhkəm dözümlülük, qarşılıqlı anlaşma olub, milli, dini ayrıseçkilik müşahidə edilməyib. Bu gün də ayrı-ayrı dinlərə etiqad bəsləyən insanlar ailə kimi mehriban yaşayırlar. Tolerantlıq Azərbaycanda milli-mənəvi sərvət, dünya xalqlarına nümunə göstəriləcək bir dəyərdir.

Azərbaycanda müxtəlif xalqların birgə yaşamaq qaydası, müxtəlif dinlərə münasibət, cəmiyyətdə tolerantlıq mühitinin qorunması kimi məsələlərin müzakirəyə cəlb edilməsi hər zaman aktualdır. Sözsüz ki, ölkəmizdə tolerantlıq ənənələrinin qorunmasında dövlət-din münasibətləri

mühüm rol oynayır. Bununla belə, Azərbaycanda tolerantlıq mühitindən söz açarkən ilk növbədə ölkəmizdə hökm sürən siyasi sabitlik, sosial və iqtisadi inkişaf xüsusi vurğulanmalıdır. Müxtəlif dillərdə danışan, müxtəlif dinləri təmsil edən insanlar sülh, əmin-amanlıq və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşayırsa, Azərbaycan tolerantlıq siyasətinin uğurlu modelinin dünya ictimayyətinin diqqətində olması təbiidir. Azərbaycanda müxtəlif inanc sahiblərinin bir-birlərinin dininə hörmətlə yanaşmaları dünya ictimaiyyəti üçün də nümunə ola bilər. Ölkəmiz yəhudilərin, müsəlmanların və xristianların yanaşı ibadət etdikləri məkandır. Azərbaycanda bütün dini konfessiyaların nümayəndələrinin öz dini etiqadlarını, ayinlərini sərbəst və bərabər şəkildə yerinə yetirmək imkanları var və ölkədə məscidlərlə yanaşı pravoslav, katolik, alban kilsələri və yahudi sinaqoqları fəaliyyət göstərir. Dünyada yeganə dövlətdir ki, burada bir antisemitizm faktı belə qeydə alınmayıb, ölkəmizdə yaşayan xalqların nümayəndələri assimilyasiyaya məruz qalmayıb, onların hər biri öz dinini, ənənələrini, mədəniyyətini qoruyub saxlayıbdır.

Multikulturalizmin bir ideya və anlayış kimi yarandığı Avropada isə XXI əsrin əvvəlləri elə multikulturalizmin böhranı, islamofobiya və ksenofobiya meyllərinin güclənməsi ilə tolerantlığın sıxışdırılması və mədəniyyətlərarası qarşıdurmanın daha da gücləndirilməsi müşahidə edilir. Bütün bunların fonunda, təbii ki, tarixən dini və dünyəvi dəyərlərin uzlaşdırıldığı, etnik müxtəlifliyə və fərqli mədəniyyətlərə baxmayaraq, insanların bir arada yaşadığı və inkişaf etdiyi, sivilizasiyaların qovuşduğu məkan olaraq, həm də özünün milli, dini-mənəvi dəyərlərinə bağlılığını qoruyub saxlayan başqa dinlərin və etnik qrupların nümayəndələri ilə tolerantlıq şəraitində mədəni plüralizm nümayiş etdirən müasir Azərbaycan cəmiyyəti bütün dünyaya nümunə ola bilər. Bütövlükdə isə Azərbaycan dövlətçiliyinin yalnız xalqımıza aid olan milli-mənəvi keyfiyyətlərə söykənməsi , onları qoruması ölkəmizdə dini zəmində qeyri-sabitliyin yaranmasının qarşısına həm də hüquqi sipər çəkmişdir.

Etnik azlıqların hüquqlarının müdafiəsi Azərbaycanda, eyni zamanda, siyasi sabitliyin təminatıdır. Multikulturalizm Azərbaycan dövlətinin dövlət siyasəti, davamlı və ardıcıl həyata keçirilən siyasi kursudur. Bu multikulturalizmin alternativi olmayan möhtəşəm siyasi yol olduğunun, eyni bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin mədəni hüquqlarını tanıyan humanist dünyagörüşünün ən yüksək inkişaf səviyyəsinə çatdığının göstəricisidir. Çünki bu siyasət ayrıca götürülmüş bir ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliyinin qorunması, inkişafı və harmonizasiyasına, azsaylı xalqların dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına istiqamətlənir. Multikulturalizm də humanist və demokratik prinsiplərə söykənən ideologiya olaraq real humanizm, yüksək fərdi və beynəlxalq münasibətləri, insanlar arasında qarşılıqlı anlaşma, mənəvi zənginləşmə, dostluq və əməkdaşlıq təcəssüm etdirən tolerantlığı nəzərdə tutur.

Multikulturalizm həmçinin mədəniyyətlərin və sivilizasiyaların dialoqunun çox mühüm mexanizmidir. Lakin o da məlumdur ki, bəzi xalqların nümayəndələri, o cümlədən, mənfur qonşularımız olan ermənilər bu və ya digər dövlətlərin milli mədəniyyətinə nə assimilyasiya, nə də inteqrasiya olmaq istəyirlər. Bu nöqteyi-nəzərdən indi dünyada Azərbaycan multikulturalizmi həm də ənənəvi tolerantlıq siyasətinin ən təkmil modeli kimi qəbul edilir. Azərbaycanın bu sahədə təcrübəsindən belə nəticə hasil olur ki, yalnız düşünülmüş multikulturalizm siyasəti nəticəsində ölkənin milli mədəniyyətinə müvəffəqiyyətlə inteqrasiya edən müxtəlif xalqların nümayəndələri harmonik inkişafa çata bilər. Çünki məhz mədəniyyətlərin və dinlərin uzlaşdırılması siyasəti nəticəsində ölkəmiz həmişə müxtəlif millətlərim mədəniyyətləri və dinlərinin inteqrasiya məkanı olubdur.

Digər tərəfdən, Ümummilli lider Heydər Əliyev azərbaycançılıq konsepsiyasının işlənib hazırlanmasına nail olarkən nəinki Azərbaycanda yaşayan, həm ölkədən kənarda yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikası ətrafında sıx birliyinin və həmrəyliyinin, vahid azərbaycançılıq ideyasını rəhbər tutaraq səmərəli fəaliyyətinin təmin edilməsini, ölkəmizdə yaşayan icmaların, cəmiyyətlərin və birliklərin işinin əlaqələndirilməsini və gücləndirilməsini nəzərdə tuturdu. Bu məqsədlə 2001-ci il noyabr ayınn 9-10 tarixlərində möhtəşəm Respublika Sarayında (indiki Heydər Əliyev adına Saray) Umimmilli Liderin sədrliyi ilə Dünya

Azərbaycanlılarının I Qurultayı keçirildi. Bu hadisə ilə bütün dünyaya bəyan edildi ki, dünya azərbaycanlılarının Azərbaycan adlanan bir vətəni var və bu yurd, bu ocaq hamı üçün müqəddəsdir, dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq bu diyarda bütün azərbaycanlıların bəşəri və ilahi haqqı vardır. [2, s.84-95, s.301-311, s.326-332 ]

Müxtəlif dinlərə mənsubluğuna görə ölkə vətəndaşları arasında ayrıseçkilik aparmaması, bütün səmavi dinlərin nümayəndələrinə eyni gözlə baxması, məscid, kilsə və ya sinaqoq olmasına baxmayaraq onların bərpa və tikintisinə dəstək verməsi Heydər Əliyev əzəmətinin və böyüklüyünün, xalqa, onun milli mənəviyyatına olan sevgisinin və ölkəmizdə illər boyu formalaşan tolerantlıq ənənələrinə dərin hörmətin təzahürü idi.

Bu ənənə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan multikulturalizmi siyasəti böyük dövlət və siyasi xadim Heydər Əliyevin müəyyənləşdirdiyi, Prezident İlham Əliyevin uğurla reallaşdırdığı və zənginləşdirdiyi inkişaf strategiyasıdır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2009, 96 s.
2. Heydər Əliyev irsi və multikultural dəyərlər. Bakı: Azərnəşr, 2016, 616 s.
3 .Hacıyev A.N., Cəfərova E.H., Məmmədov İ.M. Multikulturalizmə giriş: Dərs vəsaiti. Bakı: Mütərcim, 2018, 369 s.
4. Xəlilov S. Lider. Dövlət. Cəmiyyət. Bakı, 2001, 357 s.

UOT 94 (479.24)

## Heydər Əliyev dühası yüksəliş yollarına işıq salır

*p.f.d., dos. Zenfira Mirsəfər qızı Əzizova,*
*Mingəçevir Dövlət Universiteti*

Xalqımızın başlanğıc və son məkanı, üz tutduğu səcdəgah, ülviyyətinə hamılıqla vurulduğumuz coğrafi region Vətənimizdir – Azərbaycanımızdır. Azərbaycan xalqının sadiq oğlu, ikinci səcdəgahı Heydər Əliyev fenomenidir ki, bizim Azərbaycan xalqını vətənimizlə birlikdə azadlığa, müstəqilliyə, suverenliyə qovuşdurdu, dövlətçiliyimizin əsaslarını, onun bütün kanonlarını yaratdı və bizlərə miras qoydu. Biz öz növbəmizdə bu mirası qorumalı, daha da gücləndirməli, dolğunlaşdırmalı və gənclərimizi bu ruhda tərbiyə edib, onlara düzgün istiqamətli Heydər Əliyev yolunu göstərməliyik. Heydər Əliyev həyatının mənası ən dərin məsələlərdəndir. Biz H.Əliyev siyasətinin ən dərinliklərini belə dərk edə bilməliyik. Bu, tarixi şəxsiyyət, tarixi bir örnəkdir. Heydər Əliyev şəxsiyyəti bütün dünya xalqlarına bir örnəkdir. Heydər Əliyev şəxsiyyətinin canı, alın təri, əvəzsiz zəhməti ilə formalaşmış bir xalq xoşbəxtdir. Biz bu örnəyi unutmamalı və örnəyimizin layiqli davamçıları olmalıyıq. Heydər Əliyev bizlərə vətənin hardan və nədən başladığını öyrətdi. Vətən anlayışını bir aksioma kimi isbatsiz məhfum olduğunu bizlərə anlatdı. O, bir daha sübut etdi ki, vətən anlayışı sinfi xarakter daşımamalıdır. "Vətəni nə üçün sevmək lazımdır?" sualının cavabını Heydər Əliyev öz misilsiz fəaliyyəti və fədakarlığı ilə açıqladı. Döyüş bölgələrini qarış-qarış gəzdi. "Vətən" və "həmvətən" anlayışlarına aydınlıq gətirdi. "Vətən" və "həmvətən" anlayışlarını qarışıq salanlara "bu, vətənpərvərlik anlayışına sinfilik və dəyişkənlik gətirir" deyə, cavab verdi. Onun dərin təfəkkürü bizə öyrətdi ki, Vətənin şöhrəti dünyanın, təfəkkürü isə Azərbaycanın olmalıdır. O, bütün dünya Azərbaycanlılarını bir yerə toplaya bildi. Dünya Azərbaycanlılarının həmrəylik gününü elan etdi. Tükənməz enerjiyə malik insan bütün həyatını bizlərə fəda etdi. Istər-istəməz, hər bir insan öz həyatını düşünüb dərk etməyə çalışır. Insan həyatın mənası məsələsi üzərində düşünərkən həyata öz münasibətini müəyyən etməyə, həyatda nəyin başlıca, nəyin ikinci dərəcəli olduğunu, nədən, kimdən nümunə götürmək, həyatda kimə

bənzəmək, nəyi rədd etmək lazım gəldiyini başa düşməyə səy göstərir. Bu problemə biganə qalan adam axınla məchul bir diyara hərəkət edən və heç kəs tərəfindən idarə olunmayan qayığa bənzəyir. Ancaq bu gün bizim bənzəmək istədiyimiz əbədiyyətə qovuşmuş dahi şəxsiyyətimiz var ki, müstəqillik yollarında, Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başladığı əks-hücum əməliyyatında, 44 günlük Vətən müharibəsi günlərində bizim gözlərimizi açdı, bizə örnək oldu. “Azərbaycan dünyaya günəş kimi doğacaq” demişdi Ulu öndər. “Hər birimiz ayrı-ayrılıqda ömrümüzü xalqımıza bağışlaya bilərikmi?” sualının cavabını Heydər Əliyev fenomeni öz həyatı bahasına sübut etdi. Bundan böyük, dahi, təkrarolunmaz, misilsiz örnək, fədakarlıq olurmu? 44 günlük Vətən müharibəsində Azərbaycan gəncləri, Azərbaycan döyüşçüləri ruh yüksəkliyi ilə Heydər Əliyev irsinin davamçısı Ali Baş Komandan İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu, milli birlik strategiyası ilə vətənin müdafiəsinə qalxdılar, canlarını Vətən yolunda fəda edərək və bizə Böyük Qələbəmizi qazandırdılar.

Heydər Əliyevin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən sanballı göstəricisi də məhz milli ruhun hədsiz yüksəlməsi, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularının və hisslərinin güclənməsinin real siyasi amilə çevrilməsi oldu. Heydər Əliyev dühasının Azərbaycan xalqı qarşısında ən böyük tarixi xidmətlərindən biri də azərbaycançılq ideologiyasını inkişaf etdirməsi oldu. Azərbaycançılıq xalqımızın cöx böyük əzab-əziyyətlə nail olduğu tarixi sərvətdir. O, real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün qüdrətli bir vasitədir. “Azərbaycançılıq” ideologiyası “azərbaycançılq” ideyalarından törəmişdir ki, bu ideyaların da ilk rüşeymləri Heydər Əliyev tərəfindən məhz onun Sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə qoyulmuşdur. Azərbaycan təkrar öz müstəqilliyinə qovuşduqdan sonra, Heydər Əliyevin Prezidentliyi dövründə “azərbaycançılıq” dövlətin əsas ideologiyasına çevrildi. Azərbaycançılığa yüksək milli-mənəvi sərvət kimi yanaşan Heydər Əliyev çıxışlarının birində deyirdi: “Müstəqil Azərbaycan dövlətinin əsas ideologiyası azərbaycançılqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir. Biz azərbaycançılığı, yəni Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq. Azərbaycanlılar harada yaşamalarından asılı olmayaraq daim öz milli-mənəvi dəyərlərinə, milli köklərinə sadiq olmalıdırlar. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır”.[1]

Heydər Əliyev zəmanəsinin böyük filosofu idi. Onun fəlsəfəsi sülh fəlsəfəsi idi [2]. Heydər Əliyev şəxsiyyətini dəyərləndirmək cəhdində olmaq haradasa tarixə, zamana, gələcəyə qiymət vermək iddiası qədər çətindir. Onun yorulmaz fəaliyyətinin Azərbaycan elminin müxtəlif sahələri ilə bağlı əlaqələrinin coğrafiyası və tarixi çox genişdir. Danılmaz bir həqiqətdir ki, Heydər Əliyevin həyat prinsipi həmişə ədalət, sülh, əmin-amanlıq və xalqın rifahı, dövlətin qüdrətinin və təhlükəsizliyinin möhkəmləndirilməsi olmuşdur. Bu gün fəxrlə deyə bilərik ki, belə xoşbəxt xalqlardan biri də Azərbaycan xalqıdır. Azərbaycanın tarixi dahi şəxsiyyətlərin tarixidir. Azərbaycanın müasir tarixi isə xalqımızın Ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev həmişə çıxışlarında yazıçı və şairlərimizin, alimlərimizin, mədəniyyət xadimlərimizin böyük potensiala malik olduğunu bildirmiş, Azərbaycan xalqının təhsillənməsində, biliklənməsində, elm və mədəniyyətimizin, mənəviyyatımızın inkişafında böyük rolu olduğunu bildirmişdir.

Bəli, iftixar hissi ilə demək olar ki, Heydər Əliyev respublikaya rəhbərlik etdiyi 34 illik dövrdə böyük təşkilatçılıq, nəhəng quruculuq işləri ilə yanaşı, zəngin elmi-nəzəri, mənəvi bir irs yaratmışdır. Bu irs qiymətli mənəvi sərvət kimi elmimizin və mədəniyyətimizin “qızıl fondu”na daxil edilmişdir. Heydər Əliyev vətən elminin hamisi, alimlərin böyük dostu idi. Ulu öndər ziyalıların fövqündə dayanan ziyalı idi. Bəli, Heydər Əliyev bəşəriyyət üçün adi vətəndaş olmayıb. O, əqli, zəkası, idrakı ilə seçilən görkəmli dövlət xadimi kimi məşhur şəxsiyyətlərin önündə gedib. Onun hünəri ilə müstəqil Azərbaycan Respublikası formalaşıb, Azərbaycan adlı məmləkət xilas edilib. Azərbaycan dili Azərbaycan xalqına qaytarılıb. [3] Ölkədə hüquqi, demokratik, dünyəvi dövlət qurulub. O, “Gənclər bizim gələcəyimizdir” dedikdə, Azərbaycanın gələcəyinin ağıllı, savadlı, baca-

rıqlı gənclərin əlində olmasını arzulayırdı. Həmçinin, Heydər Əliyev kosmopolit ideyaların zehinlərinə zorla yerləşdirildiyi bir dövrdə milli məfkurənin qorunub saxlanılması, habelə azərbaycançılığın ən mühüm komponenti olan ana dilinin inkişaf etdirilməsi sahəsində də mühüm tədbirlər həyata keçirmişdir. Heydər Əliyev üçün ana dili azərbaycançılığın başlanğıc məqamı, təməl prinsipi olmuşdur. Müdrik rəhbər yaxşı başa düşürdü ki, xalqa milli-mənəvi dəyərlərini aşılamaq üçün ona ilk növbədə öz dilini sevdirmək lazımdır.

Azərbaycan xalqı və dövləti mövcud olduqca Heydər Əliyevin dövlətçilik irsinə daim müraciət ediləcək. Onun nurlu adı, Vətəni naminə gördüyü böyük işlər insanların yaddaşında əbədi yaşayacaqdır. Heydər Əliyevin duhası ilə tarixinin şanlı səhifələri yazılan Azərbaycanı işıqlı və daha qüdrətli sabahlar gözləyir. Buna heç kəsin şübhəsi yoxdur. Çünki onun başladığı və uğurla həyata keçirdiyi siyasi kursun davam etdirilməsi xalqın ən başlıca arzusudur və bu istəyi də Heydər Əliyev məktəbinin layiqli davamçısı prezident İlham Əliyev uğurla reallaşdırır. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev Heydər Əliyevdən əxz etdiyi nadir şəxsiyyətlərə məxsus bu keyfiyyətləri şərəflə daşıyır və böyük əzmlə dövlət idarəçiliyinə tətbiq edir, tarixin yeni tələblərinə uyğun olaraq, təkmilləşdirib inkişaf etdirir.

Bu gün Ümummilli lider Heydər Əliyevin digər sahələrdə olduğu kimi, mədəniyyət, incəsənət, idman sahəsində də gördüyü böyük işləri respublikamızın Prezidenti cənab İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva layiqincə davam etdirirlər. Bu gün sosal-iqtisadi baxımdan dinamik inkişaf edən, geostrateji baxımdan regionda söz sahibi olan respublikamız, görülən tədbirlər sayəsində həm də inkişaf edən idman ölkəsinə çevrilməkdədir.

Bəli, səma təmiz olduqca, uzaq üfüqlər daha aydın görünür. Doğma vətənimizin göylərində qara buludlar çəkildikcə yeni, müstəqil Azərbaycanımızın gələcəyi daha parlaq, daha işıqlı görünür. O nurlu gələcəyi artıq qazanmışıq. Bundan sonra da, Heydər Əliyev irsinin davamçısı, Azərbaycan xalqının, torpaqlarımızın xilaskarı prezidentimiz İlham Əliyev cənablarının ətrafında sıx birləşməli, öz işimiz, əməyimiz, hünərimizlə ona yardımçı olmalıyıq. Bunu bizdən həmişəlik əbədiyyətə qovuşan xalqımızın Ümummilli lideri Heydər Əliyevin ruhu tələb edir!

**İstifadə edimiş ədəbiyyat**

1. İlham Əsgəroğlu, Ağabala İbrahimov. Zəmanəmizin böyük Azərbaycanlısı. Bakı, 2002
2. İsmayılov Ə., Əliyev O. H.Əliyev və milli ləyaqət fəlsəfəsi. Bakı, 1998
3. H.Əliyev. Müstəqillik yolu. Bakı: Azərbaycan Universiteti nəş., 1997

UOT 371.64/.69

## Təhsil islahatları üçün Heydər Əliyev ideyalarının həyata keçirilməsində avtomatlaşdırılmanın rolu

*f.-r.f.d., dos. Mehman Bulud oğlu Rəsulov,*
*r.f.d., dos. Məlahət Fərrux qızı İsmayılova,*
*Mingəçevir Dövlət Universiteti*

Son illər ərzində əldə edilən uğurlar Ulu öndərimiz Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasının yaradıcılıqla həyata keçirilməsi nəticəsində olmuşdur [5, 390] .

“Heydər Əliyev Azərbaycanda maarifin, təhsilin çiçəklənməsinə, mədəni irsin qorunub saxlanmasına və ənənələrlə zənginləşməsinə, gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasına daim böyük qayğı ilə yanaşmışdır” [6, s.52] .

Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi və Azərbaycan əsgərinin rəşadəti ilə əldə etdiyimiz ZƏFƏR QƏLƏBƏSİ, eləcə də pandemiya şəraitində distant təhsilin uğurlu nəticələri həmin fikirlərin tarixi əhəmiyyətini təsdiq edir.

Qlobal dünyanin informasiya bolluğu şəraitində məktəbin, təhsilin vəzifəsi dəyişmişdir [3; 4].

Kurikulum islahatları Azərbaycan hökuməti ilə Dünya Bankının Beynəlxalq İnkişaf Assosiyasiyası arasında bağlanmış ilk Kredit Sazişi əsasında başlayıb. 15 iyun 1999-cu il tarixində “Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı” təsdiq olunmuşdur [3; 6].

Təhsil islahatları aşağıdakı mərhələlərlə həyata keçirilmişdir (cədvəl 1).

**Cədvəl 1**

| Mərhələ | Dövr | Məzmunu |
|---|---|---|
| I mərhələ | 1999 – 2003 | öyrədici - innovativ |
| II mərhələ | 2004 – 2007 | Hazırliq |
| III mərhələ | 2008 – 2013 | Tətbiqetmə |

Coşqun informasiya axınında fəaliyyət göstərən təhsilalanların tədrisində, hətta müstəqil işində də yeni xüsusiyyətlər meydana çıxır [4, s.411]. İnformasiya həcmi o qədər çoxalmışdır ki, hər bir informasiya prosesini avtomatlaşdırmaq zərurəti gündən-günə artır [1, s.353]. Ona görə də pedaqoji prosesin hər bir anını nəzərdən keçirməklə səmərəliliyi artırmaq üçün bütün imkanları aşkar etmək lazımdır.

Bu gün qlobal dünyanin təhsil sisteminə cavab verən şəxsiyyətyönümlü, inkişafyönümlü, interaktiv, fəal təlimin yaradılmasında müasir tələblərə cavab verən texnologiyaların köməyi əsas faktorlardan biridir [2, s.40]. Tədris elə qurulmalıdır ki, təhsilalanlar asudə vaxtı öz fəaliyyəti üçün potensial şansa çevirə bilsin, formalaşmaqda olan informasiya cəmiyyətinin hər bir fəal üzvi kimi məhsuldar qüvvəyə çevrilə bilsin. Buna görə də dərs elə təşkil edilməlidir ki, təhsilalanlar dərsdən sonra müəllimin iştirakı olmadan da məqsədyönlü tədrislə məşğul ola bilsin. Bu, təhsilalanların təkcə texniki vasitələrdən bacarıqla istifadə etməsində deyil, həm də təkraretmədə, müstəqil işdə, sərbəst öyrənmədə lazımdır. Təhsilalanların müəllimdən öyrəndiyi bilik, eşitdiyi tövsiyələr onun tam aktivliyi üçün kifayət etməlidir. Bu işdə təkraretmənin, müstəqil işin, sərbəst öyrənmənin avtomatlaşdırılmasının rolu böyükdür.

Təcrübə göstərir ki, qiymətləndirmənin avtomatlaşdırılması və bunun təhsilalanların gözü qarşısında əyani olaraq həyata keçirilməsi təkcə müəllim əməyinin yüngülləşdirilməsində deyil, həm də təhsilalanların biliyinin tam aşkar olunmasında, istedadların müəyyən olunmasında, özünəinamin möhkəmlənməsində, iradi keyfiyyətlərin möhkəmləndirilməsində rolu böyükdür. Bu işdə EXCEL-in avtodoldurma, vizual görüntü, dayaniqlıq imkanlarının və standart funksiyalarının çox olmasinin rolu əvəzedilməzdir.

Bəzi tətbiqi proqramlarla həmin məqsədlərə nail olmaq mümkündür, lakin təklif edilən layihə çox kütləvidir. Digər tərəfdən təhsilalanların özü də lazımi əməliyyat ardıcıllığını öyrənməklə müstəqil təşəbbüslərə başlaya bilər, bu da onun kompüter bacarığının yüksəlməsinə səbəb ola bilər. Başqa sözlə, təklif olunan tövsiyələr müəllimlərin yaradıcı işləri üçün imkanları genişləndirir.

Lazım olan proqrqm müəllim tərəfindən hazırlandığından hər bir təhsilalan öz cavablarını asanlıqla ekranda yaza bilər və nəticəni özü hamıdan əvvəl görə bilər. Bu layihədən həm də dərsin gedişində lazım gələn qiymətləndirmədə istifadə etmək olar [4, s.411], lakin məsələ ən əvvəl hüquqi müstəvidə həll edilməlidir. Bu layihə dərsin gedişi ilə uzlaşır, dərsin son dəqiqələrində təhsilalanlar öz qiymətini öyrənə bilir. Buna nail olmaq üçün aşagidakı funksiyadan istifadə etmək olar :

F(x) = 1+mod(int (6* sin (7*x)+6 ; 5 ) ,

(F(x) = 1 + остат (целое (6*sin (7* x ) + 6 ; 5)).

Bu funksiyanin aşağıdakı xassələri var :

1) funksiyanın qiyməti sualın sıra sayından (x –dən ) asılıdır;

2) funksiyanın təyin oblastı həqiqi ədədlər çoxluğudur ;

3) funksiyanın qiymətlər çoxluğu E={1, 2, 3, 4, 5} çoxluğudur, bu da test variantlarının sayına uyğundur, variantların sayı azaldiqda və ya artırıldıqda əmsalları dəyişməklə yeni E çoxluğu müəyyən etmək olar (E çoxluğunun elementlərinin sayı, yəni variantların sayı funksiyanın ifadəsindəki sonuncu rəqəmə bərabərdir);

4) funksiya monoton və periodik deyil;

5) funksiyanin hər bir qiymətinin şifahi hesablanması asan deyil .

*Qeyd.* Daha təkmil proqramlar üçün bu funksiyanin aşağıdakı xassəsindən də istifadə etmək olar:

6) funksiyanın arqumentinin qiyməti əsasında həmin suala uyğun olan bal arasında munasibət müəyyən etmək olar, suallara cavab verən təhsilalan sualın sıra sayını bilməklə həmin suala uyğun balı qabaqcadan yəqin edə bilər.

Təkraretmə və müstəqil işin təşkilində sualların sayı üzərində məhdudiyyət olmadığından elə etmək lazımdır ki, ekranin eyni 15 sətrindən istifadə edərək, 100–200 sual ətrafında da biliyi yoxlamaq olsun. Buna nail olmaq üşün EXCEL-in imkanı var. Deməli, sualların verilməsi üçün iki üsuldan istifadə etmək olar.

*I üsul:* Suallar və test variantları müxtəlif vərəqlərdə yazılır (sualların sayı 15-dən çox olduqda).

*II üsul:* Suallar və variantlar ekranin sol tərəfində, proqramin özü isə həmin səhifənin sağ tərəfində realizə oluna bilər (sualların sayı 15-dən çox olmadıqda).

II üsul üçün nümunəyə baxaq (cədvəl 2).

**Cədvəl 2**

| CƏDVƏL 2 | | | | | | | | CƏDVƏL 2 | O | P | Q | R | S | T |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | SUALLAR | | | | | BAL | SUAL | CAVAB | cav.KOD | QIYMƏT | F(X) |
| 1) Azərbaycanın | | paytaxtı | | | | | | | 5 | 1 | E | 5 | 5 | 5 |
| A) Qax | B) Şəki | C) Sumqayıt | | D) Gəncə | | E) Bakı | | | 4 | 2 | B | 2 | 4 | 2 |
| 2)İkinci | Qarabağ | savaşı | neçə | gün davam | | etdi ? | | | 7 | 3 | b | 2 | 7 | 2 |
| A)3 | B)44 | C) 32 | D)36 | E) 40 | | | | | 3 | 4 | C | 3 | 3 | 3 |
| 3)Qarşıdan gələn | | hansı ild | fevral ay | 29 gün | olacaq ? | | | | 4 | 5 | d | 4 | 4 | 4 |
| A) 2022 | B) 2024 | C)2023 | D)2025 | E2026 | | | | | 6 | 6 | A | 1 | 6 | 1 |
| 4) Düzbucaqlının | | tətəfləri | a=5, b=8 | olarsa, | perimetr | tapın | | | 6 | 7 | A | 1 | 6 | 1 |
| A) 23 | B)25 | | C) 26 | D)28 | E)32 | | | | 7 | 8 | C | 3 | 7 | 3 |
| 5) 1941- | ildə | başlamış | Böyük | Vətən | Müharibəsi neçə | | | | 5 | 9 | C | 3 | 5 | 3 |
| il davam | edib ? | A) 2 | B)3 | C) 4 | D) 5 | E)6 | | | 4 | 10 | A | 1 | 4 | 1 |
| 6) Lütfizadə | | nə vaxt | anadan | olub ? | | | | | 4 | 10 | A | 1 | 4 | 1 |
| A) 1921 | B) 1907 | C) 1941 | D) 1932 | E) 1927 | | | | | 4 | 10 | A | 1 | 4 | 1 |
| 7) Lütfizadə | | harada | anadan | olub ? | | | | | 4 | 10 | A | 1 | 4 | 1 |
| A) Bakıd | B) Təbrizdə | | C) Tehranda | | D)Gəncədə | | E)Ankarada | | 4 | 10 | A | 1 | 4 | 1 |
| 8) Bir ild | gecə v | gündüz | neçə dəf | bəraba | olur ? | | | | 4 | 2 | b | 2 | 4 | 2 |
| A) 3 dəf | B) 4 dəfə | | C) 2 dəfə | D) 5 dəf | E) 1 dəfə | | | | 5 | 1 | E | 5 | 5 | 5 |
| 9) Nəsim | ili | nə vaxt | olub ? | | | | | | | | | | | |
| A) 2015 | B) 2017 | C) 2019 | D) 1932 | E) 2020 | | | | | | | | | | |
| 10)Hansı | il | NİZAMİ | ili | elan | edilib ? | | | | | | | | | |
| A) 2021 | B) 2020 | C) 2015 | D) 1932 | E) 2019 | | | | | | | | | | |

1) Əvvəlcə səhifənin sol tərəfində sualları yazaq, cavab variantları üçün boş sətirlər saxlayaq.

2) P sütununda sualların sira sayıni yazaq (P3=1 qəbul edək).

3) O sütununda hər bir sualın düzgün cavabına uyğun balları yazaq.

4) T sütununda F(x) funksiyasının qiymətini hesablayaq (T3 xanasında x = P1 olmalıdir).

5) T3 = 1 + mod (int (6*sin(7*P3) +6) ; 5 ) qəbul etməli. Avtodoldurma ilə T3 xanasını şaquli olaraq 10 sətir aşagı sürüşdürməli.

6) Sualların cavab variantlarını F(x) funksiyasının qiymətinə uyğun olaraq yazaq.

7) E1 = {A, B, C, D, E} nizamlı çoxluğu E= {1, 2, 3, 4, 5} nizamlı çoxluğuna uyğun olmalıdır. Buna nail olmaq üçün R sütununda İF funksiyasından istifadə edərək, Q sütununda cavabı ifadə edən hərflərə uyğun olan rəqəmi (kodu) yazaq, yəni E və E1 çoxluqları arasında qarşılıqlı birqiymətli uyğunluq müəyyən edək : A~ 1, B~ 2 , C~ 3, D ~ 4 , E ~ 5.

(Sualları cavablandıran təhsilalan fikrində tutduğu variantı uyğun kodla yoxlaya bilər). Bu məqsədlə aşağıdakı funksiyadan istifadə edilməlidir :

R3= İF (Q3=”A”; 1; İF (Q3=”B”; 2; İF(Q3= “C”; 3; (İF (Q3=”D”; 4; (İF (Q3=”E”; 5; 6))))).

8) Sonra R3 xanasını şaquli olaraq 15 sətir aşağı sürüşdürməklə R sütununda avtodoldurma icra edək.

9) S sütununda qiymət hesablanır: cavab düzgündürsə, O sütunundakı bal görünür, əks halda qiymət sıfra bərabər olur : S3 = İF (1+ mod ( int (6* SİN ( 7* P3 ) + 6 ) ; 5 ) = R3 ; O3 ; 0 ) .

10) S3 xanasını seçib şaquli olaraq aşağı sürüşdürməklə 15 sətir avtodoldurma icra edək.

11) Proqramın düzgünlüyü yoxlandıqdan sonra T sütunu pozula bilər (sual-cavaba başlamazdan əvvəl).

12) 12-ci sətirdə [O12 : T12] massivini (diapazonunu ) ayrıca seçdirib, şaquli olaraq aşağıya tərəf avtodoldurma ilə sürüçdürək (5–6 sətir). Bu əlavə sətirlər sira sayı müxtəlif olan sual – cavab üçün lazımdir . Yəni digər süallar başqa vərəqdə lazımi formada hazırlanarsa (sualın balı, sira sayı və variantı müvafiq qaydada müəyyən edilərsə), təhsilalan həmin suallar ətrafında da biliyini yoxlaya bilər.

13) Son sətir (diapazon) yenə də avtodoldurma ilə aşağı sürüşdürülə bilər (çoxsaylı suallar üçün).

*Qeyd.* Bir sətir bir neçə sual-cavabı realizə etmək üçün yararlıdır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Abbasov N. Təhsildə kompüterlərin rolu / “Riyaziyyatın tətbiqi məsələləri və yeni informasiya texnologiyaları” III Respublika Konfransının Materialları, Sumqayıt, 2016, s.353–354

2. Heydərova S. Pedaqoji qiymətləndirmə pedaqoji texnologiyalardan biri kimi // Azərbaycan məktəbi, 2017, №6, s.39-46

3. Qəhrəmanov S. Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə təlim kursunun iştirakçıları üçün təlim materialı. Bakı: Xəzər Universiteti, 2012, 69 s.

4. Rəsulov M.B., Əhmədov M.İ. Summativ qiymətləndirmənin avtomatlaşdırılması / Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş “İnformasiya sistemləri və Texnologiyalar Nailiyyətlər və perspektivlər“ Beynəlxalq Elmi Konfransının Materialları, SDU, AMEA İnformasiya Texnologiyaları İnstitutu, Sumqayıt, 2018, s.411–412

5. Şahbazova Q.T., Məmmədova G.S. Heydər Əliyev və Azərbaycanda təhsil islahatları / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş “Qlobal tendensiyalar və Müasir Azərbaycan” mövzusunda Respublika Elmi Konfransının Materialları, Mingəçevir, 2018, s.390–391

6. Yusifov M. Heydər Əliyev və Azərbaycançılıq ideologiyası. Bakı: Nurlan, 2003, 204 s.

UOT 316.32

## Bizim gücümüz bizim birliyimizdədir

*fil.f.d, dos. Namaz Rizvan oğlu Manafov,*
*Mingəçevir Dövlət Universiteti*

Müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu Heydər Əliyev hakimiyyətə gəldiyi ilk gündən türk dünyası ilə əlaqələrin inkişafı üçün mühüm addımlar atdı. Ulu öndər hələ 1993-cü il iyunun 15-də proqram xarakterli çıxışında xarici siyasətin önəmli istiqaməti kimi türkdilli dövlətlərlə işbirliyinin əhəmiyyətini qeyd etdi: “Xarici siyasət sahəsində görüləsi işlər çoxdur. Birinci növbədə, yaxın qonşularımızla sıx münasibət yaradılmalıdır. Bu baxımdan Türkiyə ilə əlaqələr, şübhəsiz ki, önəmli yer tutur. Eyni zamanda, keçmiş sovetlər ittifaqına daxil olan türkdilli ölkələrlə əlaqələrimiz sürətlə inkişaf etməlidir”.

Heydər Əliyev türk birliyinin möhkəmlənib inkişaf etməsində Türkiyənin rolunu həmişə yüksək qiymətləndirmişdir: “Mən bu gün, həqiqətən, qeyd etmək istəyirəm ki, bizim xalqlarımız

əsrlər boyu bir-birinə yaxın dost olmuşlar. Biz bir kökdənik, biz birdilli xalqıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də bunlar hamısı xalqlarımızı hələ biz müstəqil olmadığımız vaxtda, ayrı-ayri dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir-birimizdən ayırmayıb, bir-birimizə bağlayıb, bir-birimizlə daha sıx əlaqədə saxlayıb. İndi isə xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik”.

Ulu öndərin türklük düşüncəsi üç mühüm məqamı özündə birləşdirir: ayrı-ayrı türk dövlətlərinin müstəqilliyinin müdafiəsi; türk dünyasının birliyinin təmin olunması; bu birliyin narahat dünyamızda nizam yaradılmasına xidmət etməsi.

Ümummilli lider Heydər Əliyevin “Azərbaycan-Türkiyə: bir millət – iki dövlət”, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir” kəlamları iki qardaş dövlətin sıx əlaqələrinin leytmotivinə çevrilib. Azərbaycan-Türkiyə münasibətləri ən yüksək pilləyə yüksələrək, əbədi və dönməz xarakter alıb. Bu gün Türkiyə və Azərbaycan dünya çapında bir-birinə ən yaxın olan ölkələrdir, ən yaxın müttəfiqlərdir.

XX əsrin sonu XXI əsrin əvvəllərində Heydər Əliyev bütövlükdə türk dünyasının birləşməsi ideyasının gerçəkləşməsi uğrunda mübarizəyə öndərlik etmişdir.

Dünyanın siyasi mənzərəsini dəyişən ”Əsrin müqaviləsi”, “Böyük ipək yolu”, TRASEKA, TASİS proqramları kimi qlobal layihələrin həyata keçirilməsində, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının, Türksoyun, Türk Yazarlar Birliyinin yaradılmasında Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Məhəmməd Füzulinin 500, “Kitabı-Dədə Qorqud”un 1300 illik yubileyinin YUNESKO səviyyəsində keçirilməsi, Azərbaycanın müstəqil türk dövləti kimi bütün dünyada tanınması, türk dövlətləri başçılarının zirvə görüşlərinin təşkili, Azərbaycanda Atatürk Mərkəzinin yaradılması bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Bu da təsadüfü deyildir ki, Ulu öndər türk dünyası qarşısında misilsiz xidmətlərinə görə 1999-cu ildə Beynəlxalq Atatürk Sülh Mükafatına layiq görülmüşdür [2].

Ümummilli liderin vaxtilə təməlini qoyduğu, amma başa çatdırmağa ömrün vəfa etmədiyi işləri bu gün onun xələfi, dünya siyasi arenasında böyük rəğbət bəslənilən, nüfuz sahibi olan İlham Əliyev bütün çətinlikləri, maneələri aşaraq həyata keçirməkdədir [4].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin türk dünyasının birliyinin, əməkdaşlığının gücləndirilməsi, inteqrasiyasının dərinləşdirilməsinə yönəlmiş fikirləri türkdilli dövlətlərdə böyük rəğbətlə qarşılanır. Türkdilli dövlətlər arasında əməkdaşlığın möhkəmləndirilməsi qarşıda duran ən mühüm vəzifədir.

Bu gün Azərbaycan dünya dövlətləri arasında adı hörmətlə çəkilən və qəhrəmanlıq səlnaməsi yazan bir dövlət kimi tanınır.

Tarixin bütün sınaqlarından başı uca, üzü ağ çıxan Azərbaycan 44 günlük Vətən müharibəsində yeni şərəfli bir tarix yazdı: Əzəli torpaqlarımızı xain düşməndən – bədnam ermənilərdən azad etdik, ölkəmizin ərazı bütövlüyü bərpa olundu. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Bu şərəfli tarixin müəllifi, Ümummilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevdir [3].

İlham Əliyevın çıxışlarında türk xalqlarının təkcə siyasi, iqtisadi və mədəni baxımdan deyil, həm də coğrafi cəhətdən bağlılığı barədə arzuları dəqiq ifadə edilir: “Türk dünyası böyük dünyadır. Vaxtilə türk dünyasının qədim və ayrılmaz diyarı olan Zəngəzur bölgəsinin Azərbaycandan qoparılıb Ermənistana verilməsi nəticəsində türk dünyası arasında olan coğrafi bağlantı pozulubdur. Bu, türk dünyasının coğrafi parçalanması idi. Çünki əgər xəritəyə baxsaq, görərik ki, sanki bizim bədənimizə xəncər saplanmışdır, türk dünyası parçalanmışdır. Əgər o tarixi ədalətsizlik törədilməsəydi, bu gün vahid türk dünyası coğrafi baxımdan da bir məkan kimi yaşayacaqdı. Ancaq buna baxmayaraq, bizi birləşdirən təkcə coğrafi koordinatlar deyil. Bizi birləşdirən aramızdakı münasibətlərdir, qardaşlığımızdır, ortaq keçmişimizdir, bu günümüzdür.

Müstəqil dövlətlər kimi yaşayan ölkələrimiz gücləndi, formalaşdı, dövlətçiliyimizin əsasları quruldu. Bu gün Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan kimi ölkələr öz növbəsində Türkiyəni gücləndirir, necə ki, böyük və güclü Türkiyə bizi gücləndirir. Bizim gücümüz bizim birliyimizdədir. Biz çalışmalıyıq ki, bütün sahələrdə bu birliyi daha da möhkəmləndirək".

Azərbaycanın ikinci Vətən müharibəsindəki zəfəri bütün türk dövlətlərinin daha da yaxınlaşmasına xidmət edən tarixi bir missiyanı da yerinə yetirdi. 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatda Naxçıvanı Azərbaycanın əsas ərazisi ilə birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası ilə bağlı müddəa da yer aldı. Qədim Azərbaycan torpağı olan Zəngəzurdan keçən kommunikasiyalar bütün türk dünyasını birləşdirəcək, eyni zamanda, digər ölkələr üçün əlavə imkanlar yaradacaqdır.

Qarabağ müharibəsinin ən mühüm nəticələrindən biri də respublikamızın haqlı və ədalətli mövqeyinin beynəlxalq platformalarda müdafiəsi oldu. BMT-dən sonra dünyanın ikinci ən böyük təşkilatı olan Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanı birmənalı dəstəklədilər [1].

Azərbaycan torpaqlarının işğaldan azad edilməsi Türk Şurasının Zirvə görüşündə də xüsusi qeyd olundu: Türk Şurasının fəxri sədri Nursultan Nazarbayevin, Qazaxıstanın Prezidenti Kasım-Jomart Tokayevin, Türkiyə Prezidenti Rəcəb Tayyub Ərdoğanın, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin təbrikləri göstərdi ki, Azərbaycanın qələbəsi bütün türk dünyasının zəfəridir. Bu zəfəri bütün türk dünyası şərəflə, hörmətlə, ehtiramla qeyd edir.

Heydər Əliyevin ümumtürk həmrəyliyinin yaradılması ideyası bu gün də yaşayır və onun gerçəkləşməsi istiqamətində əməli addımlar atılır. Bu birliyin möhkəmləndirilməsi türk dövlətlərinin dünyada nüfuzunun, rolunun daha da artmasına və inkişafına səbəb olacaqdır [4].

**İstifadə edilmiş ədəbiyyat**

1. Cəfərli R. Azərbaycanın qələbəsi bütün türk dünyasının zəfəridir. "Azərbaycan" qəz., 2021, 13 aprel, s.16
2. İsmayılov İ. Türk dünyasının fenomental lideri. "Azərbaycan" qəz., 2010, 8 may, s.10
3. Rüstəmov R. Türk dünyasına Zəfər sevinci yaşadan Ali Baş Komandan. "Xalq qəzeti", 2020, 26 dekabr, s.8
4. Sultanova P. Zəngəzur məsələsi və türk dünyası. "525-ci qəzet", 2021, 14 aprel, s.16

UOT 327

## "Azərbaycan" adını dünya tarixinə qızıl hərflərlə yazdırmış lider

*fil.f.d., dos. Vəfa Eldar qızı Məhərrəmova,*
*Mingəçevir Dövlət Universiteti*

"Azərbaycan" dedikdə bilavasitə bu məfhumdan az-çox məlumatı olan hər bir kəsin təxəyyülündə adekvat əlamətlər və rəmzlər canlanır, təhtəlşüurunda isə müvafiq assosiasiyalar yaranır. Məsələn, odun yaxud atəşin yurdu, günəş nurunun bol olduğu ölkə, neft buruqları, şairlərin və aşıqların vətəni, bol ruzi-bərəkət yetirən məmləkət və s. Lakin Azərbaycanı bütün dünyaya tanıdan və bu məmləkət haqqında danışanda insanda spesifik təəssürat yaradan əlamətlərdən biri də onu təmsil edən liderlə, onun harizması, xilaskarlıq missiyası ilə bağlıdır. Hər bir xalqın və dövlətin canlı rəmzləri olan belə real tarixi şəxsiyyətlər zaman keçdikcə dövlərin əsas atributlarından birinə çevrilir. Məsələn, "reformist alman cəmiyyəti" və "müstəqil alman dövləti" dedikdə tarixi hətta çox zəif bilən insan belə dərhal Otto fon Bismark, I Vilhelm, Konrad Adenauer haqqında düşünür. Müstəqil Yəhudi dövləti dedikdə, ilk növbədə Devid ben Qurion yada düşür. Müstəqil Hindistan dövləti dedikdə gözümüzün qarşısında azadlığın və inkişafın rəmzləri olan Mahatma Qandi və

Cəvahirləl Nehru canlanır, Britaniya dedikdə, Uinston Çörçil yada düşür, Fransa haqqında danışanda, adətən, Şarl de Qolu xatırlayırıq. Müstəqil Azərbacan Respublikası haqqında ilkin və pozitiv təəssürat yaradan məqam isə Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Dövlətin və ya millətin dünya xalqları və dövlətləri sırasında yer alması üçün bir neçə faktor zəruri və əvəzolunmaz sayılır. Hazırda 76 ildir ki, fəaliyyət göstərən və dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı olan BMT-də 193 dövlət təmsil olunur və 1992-ci il martın 2-dən isə onların sırasına Azərbaycan da daxil edilib. Lakin Yer kürəsində minlərlə xalq, milli azlıq, etnik qrup və hətta çoxlu sayda böyük xalqlar var ki, onların dövlətçiliyi yoxdur və hər hansı beynəlxalq və ya regional təşkilatda təmsil olunmurlar. Bu xalqların məskunlaşdığı tarixi ərazilərdə zəngin resurslar, böyük təbii sərvətlər olsa da, onlar buna sahib ola bilmirlər. Buna 1 nömrəli səbəb sözügedən xalqları səfərbər etməyə, onları arxasınca aparmağa qadir olan liderin olmamasıdır. Lider etnosun yaranmasında, inkişafında və beynəlxalq aləmdə layiqli yerə sahib olmasında həlledici rol oynayır. Lider bir tərəfdən fövqəladə imkanlara sahib olsa da, müxtəlif resurslardan prioritet şəkildə yararlanmaq şansı qazansa da, eyni zamanda, adi insanlardan fərqli olaraq tarixin və zamanın ən ağır yükü, ən böyük həyati məsuliyyət onun üzərinə düşür. Bu zaman o, bir tərəfdən ona bəşəri təyinatını və missiyasını reallaşdırmaq üçün verilmiş statusunu qorumalı, digər tərəfdən isə ümidlərini yalnız ona bağlamış toplumu arzularına və xəyallarına qovuşdurmalıdır [2]. Liderlik, onun xüsusiyyətləri, liderin missiyası, onun yüksəlişi və süqutu haqqında çoxlu sayda elmi və fəlsəfi əsərlər yazılmış, xalqların təşəkkülü və inkişafı prosesində bu çox vacib faktorun təhlilinə geniş yer ayrılmışdır.

Hələ qədim yunan mütəfəkkirlərindən Platon və Aristotel iddia edirdilər ki, liderlik insanın fövqəlunikal keyfiyyətlərindən irəli gələn və yüksək psixoloji, intellektual və ruhani çalarları ilə seçilən fenomendir. Liderlik psixoloji hadisədir və sosial təsir mexanizmlərinə əsaslanır. Fenomenal bacarığına inandırmaq, arxasınca aparmaq və ərsəyə gətirmək kimi qabiliyyətinə görə o, toplumun digər üzvlərinin güclü dəstəyini qazanır. O, əvvəlcə arzu olunan və fövqəladə iradəsinə görə nüfuz obyektinə çevrilən, şəxs kimi özünü təsdiq edir, daha sonra toplumun xilaskarı missiyasını şərəflə yerinə yetirməklə “xalqın sevimlisi”, “Ulu öndər”, “ümummili lider” və “xalqın sərkərdəsi” kimi statuslar qazanır [3].

Lider təmsil etdiyi xalqın və dövlətin maraqlarını ölkənin sərhədlərindən kənarda, xüsusilə də regional təşkilatlarda və beynəlxalq qurumlarda müdafiə edəndə bir müddətdən sonra tədricən millətin simvollarından birinə çevrilir. Artıq müvafiq təşkilatlarda və qurumlarda o millətin, yaxud dövlətin adı çəkiləndə insanlarda adekvat assosiativ düşüncə işə düşür, konkret dövlət haqqında təsəvvürlər yaranır. Bu baxımdan Azərbaycanı, ilk dəfə beynəlxalq təşkilatlarda (BMT, ATƏT, AŞPA, İƏT, UNESCO, İSESCO) şərəflə təmsil edən şəxs Ümummilli lider Heydər Əliyev olmuşdur. 1994 və 1995-ci illərdə BMT Baş Assambleyasının 49-cu və 50-ci sessiyalarında, həmçinin 2000-ci ildə BMT-nin Minilliyin (Millenium) yekunlarına həsr olunmuş Zirvə Toplantısında Beynəlxalq təşkilatın tribunasından Azərbaycan həqiqətlərini bütün dünyaya çatdırması və ölkəmizin Cənubi Qafqazda təhlükəsizlik məsələlərinə böyük töhfə verməsini vurgulaması dərhal “Azərbaycan” adlanan yeni bir siyasi subyekin mövcudluğuna, onun maraqlarına və tələblərinə diqqəti artırdı və beynəlxalq münasibətlərin faktorları xəritədə “Azərbaycan” adını və onun yerləşdiyi məkanı axtarmağa başladılar.

Ümummilli lider Heydər Əliyevin Azərbaycanı bütün dünyada tanıtmaq, planetin ən mötəbər təşkilatlarının tribunalarından Azərbaycanın siyasi və iqtisadi maraqlarını müdafiə etmək kimi çox vacib bir ənənəni 2003-cü ildən Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Silahlı Qüvvələrini Ali Baş Komandanı İlham Əliyev davam etdirir. 2003-cü ildə İlham Əliyevin BMT Baş Assambleyasının 58-ci sessiyasında çıxışında irəli sürdüyü ideyalar, milli sosial-iqtisadi inkişafla bağlı təkliflər, həmçinin regional və beynəlxalq təhlükəsizliyə qarşı hələ də təhdidlərin olması faktının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması Azərbaycanın Beynəlxalq aləmdə adının və nüfuzunun yüksəlməsi istiqamətində yeni mərhələnin başlanğıcı oldu.

Heydər Əliyevin Azərbaycan Respublikasına 10 illik rəhbərliyinin sonunda beynəlxalq miqyasda ölkəmizin həm siyasi, həm də iqtisadi xəritəsində yeri, mövqeyi və perspektivləri

müəyyən olundu. Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və Azərbaycanın beynəlxalq miqyasda tanınmasının, onun iqtisadi və siyasi maraqlarının qorunması istiqamətindən uğurlu fəaliyyətin məntiqi nəticəsi isə 24 oktyabr 2011-ci il tarixdə Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi oldu.

Bu gün yaşadığımız və xalqımızın qürur mənbəyi olan tarixi gerçəklikləri XX əsrin 90-cı illərində ölkəmizin üzləşdiyi çətinliklərlə müqayisə edəndə belə məlum olur ki, Ümummilli lider Heydər Əliyevin möhtəşəm dühası sayəsində Azərbaycanı nəinki dərin sosial-iqtisadi və hərbi-siyasi böhrandan tamamilə xilas etmək, həmçinin ölkəmizin bu gününü və gələciyini etibarlı şəkildə zəmanət altına almaq mümkün olmuşdur. Bu gün artıq xalqımız və dövlətimiz Ümummilli lider Heydər Əliyevin formalaşdırdığı yeni siyasi kursun və uğurlu gələcəyə hesablanmış milli doktrinanın sayəsində ölkəmiz mövcud beynəlxaq münasibətlər sistemində “tanıtım fazasından” bütün sahələrdə öz qəti sözünü deyən və yenilməz siyasi iradə nümayiş etdirən “fəal siyasi aktor” fazasına keçmişdir.

XX əsrin 90-ci illərinin əvvəllərində çox böyük əzablardan və çoxsaylı itkilərdən keçərək, istiqlaliyyətini qazanmış Azərbaycan yalnız siyasi kuluarlarda tanınan və təşəkkül dövrünü yaşayan bir etnik-siyasi subyekt idisə, bu gün ölkəmiz həm Şərqdə, həm də Qərbdə baş verən siyasi və iqtisadi proseslərə bu və ya digər tərzdə öz təsirini göstərə bilən bir dövlətə çevrilmişdir. Dövlətimizin adı, bayrağı və himni indi ən mötəbər təşkilatlarda təmsil və tərənnüm olunur. Heydər Əliyev siyasətinin bəhrəsidir ki, bir zamanlar fövqəldövlətlərin həyata keçirdiyi yeni qlobal siyasətin qəti diqtəsi ilə oturub-duran Azərbaycan artıq geosiyasətin müəyyən olunmasında və hərbi-siyasi proseslərin Azərbaycan xalqının, Azərbaycan dövlətinin maraqlarına uyğun şəkildə tənzimlənməsində olduqca vacib rol oynayır və dünyanın fövqəlgüclərinin qurduqları böyük planlarda müvafiq korrektivlər edir.

Heydər Əliyevin Azərbaycanı bütün dünyada tanıtmaq və qlobal miqyasda onun maraqlarını qorumaq missiyası dünyanın digər bir nüfuzlu beynəlxalq təşkilatı olan Avropa Şurasında da çox uğurla reallaşdırılırdı. Sivil və demokratik dəyərləri tərənnüm edən Azərbaycan Respublikasının Avropanın ictimai-siyasi strukturlarına inteqrasiyası, davamlı olaraq Avropanın rəhbər tutduğu yaşam standartlarını qəbul etməsi və onlara ardıcıl olaraq əməl etməsi 2001-ci ildə ölkəmizin bu mötəbər təşkilata tam hüquqlu üzv seçilməsi ilə nəticələndi [1].

Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasını İslam dünyasına, islam ölkələrinin təsis etdikləri beynəlxalq təşkilatlara fəal şəkildə nüfuz etməsinin və İslam həmrəyliyində Azərbaycanın iştirakının təmin edilməsinin qayğısına qalmağı da unutmurdu. Bu qayğının məntiqi nəticəsidir ki, bu gün Azərbaycan İslam Əməkdaşlıq Təşkilatında nüfuzlu söz sahibidir. 2017-ci ildə artıq ölkəmizin İslam həmrəyliyinin mərkəzinə çevrilməsi Heydər Əliyevin uzaqgörən siyasətinin bariz nümunəsidir. Son illər Bakının bir çox nüfuzlu, müxtəlif səpkili, yüksək səviyyəli beynəlxalq tədbirlərə ev sahibliyi etməsi dövlətimizin beynəlxalq təşkilatlar tərəfindən Cənubi Qafqazın danılmaz lideri kimi qəbul olunduğuna əyani sübutdur.

Beləliklə, bu gün dünya xəritəsində “Azərbaycan” adlanan nüfuzlu, Ulu öndər Heydər Əliyevin möhtəşəm əməyi sayəsində özünün bütün təbii resurslarını və insan potensialını səfərbər etməyi bacarmış qüdrətli bir dövlət və qürurlu bir xalq var. Onun tarixin bütün sınaqlarına tab gətirəcək və dünya durduqca duracaq sütunlarında isə Heydər Əliyevin əbədiyaşar möhürü vurulmuşdur.

## İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan BMT Təhlükəsizlik Şurasının üzvü seçildi. voanews.com, 2011, 24 oktyabr
2. Стивен Р. Кови. Лидерство, основанное на принципах. М.: Альпина, 2009, 302 с.
3. Griffin, Ronald J. Ebert, Ricky W. Business essentials (неопр.). 8th. Upper Saddle River, NJ: Prentice Hall, 2010, pp.135-136

UOT 327; 930.22

# Heydər Əliyev və Azərbaycanın geosiyasəti

*fəl.f.d., dos. Firuzə Nuru qızı Əliyeva,*
*Humay Rüstəm qızı Eminova,*
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*

Artıq Azərbaycan neçə illərdir ki, müstəqil yaşayır. Bu müstəqillik H.Əliyevin uğurlu siyasəti nəticəsində qazanıldı. H.Əliyev dövlətin suverenliyini təmin edən mükəmməl siyasi kurs yaratdı. Bu kursu Prezident İlham Əliyev inkişaf etdirərək, sürətlə dəyişən dünyada yeni uğurlar qazandı. Bu vaxt milli maraqlar, demokratik dövlət və vətandaş cəmiyyəti quruculuğu xəttindən kənara sapmalar olmadı. Bunları ölkə rəhbəri İ.Əliyev "Россия сегодня" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova verdiyi müsahibəsində gözəl vurğulamışdı. Prezident deyib: "Bu gün Azərbaycan sözün tam mənasında müstəqil, özünü təmin edən, milli köklərə əsaslanan, eyni zamanda dünyəvi, çoxmillətli, çoxkonfessiyalı, mehriban münasibətlərə malik, dünya birliyinin etibarlı və layiqli üzvi olan dövlətdir". [1] [1, s.35]

Bildiyimiz kimi, sovetlərin dağılması ilə geosiyasi məkanda xaos yarandı. Müstəqilliyini bəyan edən keçmiş sovet respublikalarından hər biri azad olmaq üçün çox çətin bir yol qət etməli oldular. Belə ki, onlardan hansısa birinin uğur qazanacağına təminat yox idi. Azərbaycan da daxil olmaqla postsovet məkanı adlanan ərazidə müstəqil olmaq istəyən hər bir dövlət riskli addımlar atmalı idi. Bu mənada Azərbaycanda süni əngəllər var idi. Bunlardan ən təhlükəsi Ermənistanın təcavüzkar siyasəti idi. Bu təcavüzkar siyasətin nəyicəsində torpaqlarımızın 20 %-i, azərbaycanlıların isə hamısı birdəfəlik olaraq, öz dədə-baba yurdlarından köçürüldülər. Nəticədə Azərbaycana bir milyondan çox qaçqın gəldi. Bu bizim siyasi, iqtisadi və demoqrafik siyasətində ciddi zərbə vurdu. Yaranmış vəziyyətdə ABŞ-ın dünya ağalığı iddiası və BMT-nin səmərəsiz fəaliyyəti daha da vəziyyəti gərginləşdirdi. Ümummilli lider deyirdi ki, "düşmənçilik dünyasından əməkdaşlıq və tərəqqi dövrünə" keçid asan deyil. Yəni həmin mərhələdə bu istiqamətdə əsas keçidlər baş verməli idi. Ancaq bu asan başa gəlməyə bilər, çünki bəşəriyyət qarşısında duran təhlükələr hələ heç də tamamilə aradan qaldırılmamışdır.[2] [2, s.21]

Bu kontekstdə H.Əliyev tərksilah sahəsində problemləri, iqtisadi qeyri-bərabərliyi, ekoloji təhlükələri, əhali və davamlı inkişaf problemlərini misal gətirmiş, daha kəskin çətinlikləri isə "azğın millətçilik və separatçılığın" meydana gətirdiyini diqqətə çatdırmışdı. Cənubi Qafqazdakı münaqişələrlə bağlı Heydər Əliyev demişdir: "Buradakı münaqişələr nəinki müstəqil dövlətlərin inkişafını ləngidir, hələ möhkəmləndirilməmiş demokratik cəmiyyətlərin varlığı üçün qorxu yaradır."[3] [3, s.42].

Buradan belə nəticə çıxır ki, Azərbaycan lideri əvvəlcədən qlobal siyasətin ümumi inkişaf tendensiyaları ilə regional reallıqlar arasındakı əlaqəni görə bilmiş və ona uyğun addımlar atmışdır. Bu mənada Heydər Əliyevin BMT-nin yüksək tribunasından ifadə etdiyi çox dəyərli fikirlər həmin tezisi təsdiq edir. Heydər Əliyev o vaxtlar demişdir: "Biz bir çox dövlətlərin böyük marağını doğuran ərazidə – Avropa və Asiyanın mühüm coğrafi-siyasi qovşağında yerləşərək, geniş təbii ehtiyatlara və böyük sənaye potensialına malik olaraq, Azərbaycan xalqının qəti əzminə və inamına arxalanaraq öz müstəqilliyimizin möhkəmləndirilməsinə və demokratik islahatların, bazar islahatlarının həyata keçirilməsinə doğru yönəldilmiş bu strateji xətti aparırıq".[4] [1, s.48] Heydər Əliyev bu yolda nə dərəcədə qətiyyətli olduğunu da açıq şəkildə ifadə etmişdir: "Bu gün mən bu yüksək tribunadan qətiyyətlə bildirirəm ki, heç kəs Azərbaycan xalqını tutduğu yoldan geri çəkilməyə məcbur edə bilməz və biz ölkəmizin gələcəyinə nikbinliklə baxırıq. Bizim nikbinliyimiz

[1] Prezident İlham Əliyev. Dağllıq Qarabağa dair ağlabatan kompromis mükündür. Azərtac, 19 oktyabr 2016.
[2] H.Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr, 1995, s.21
[3] Prezident İlham Əliyev. Dağllıq Qarabağa dair ağlabatan kompromis mükündür. Azərtac, 19 oktyabr 2016.,
[4] H.Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr, 1995

dünyada baş verən tarixi proseslərlə, beynəlxalq münasibətlər sistemindəki ciddi dəyişikliklərlə də bağlıdır".[5]

H.Əliyev Azərbaycanın gələcəyini necə təsəvvür etdiyini də BMT üvzlərinə çatdırmışdır. Ulu öndər bunu bariz şəkildə demişdir: "Şübhəsiz ki, artıq hərbi cəbhələşməni və ideoloji qarşıdurmanı əvəz etməkdə olan bərabərhüquqlu dünya qaydası beynəlxalq münasibətlər sisteminin gələcək əsasını təşkil edəcəkdir".[6] [2, s.78]

Bütün bu deyilən fikirlərin dərin fəlsəfi və ciddi geosiyasi əsası vardır. Məhz bu fikilərin sayəsində ölkəmiz Cənubi Qafqazın ən böyük lider dövlətlərinin səviyyəsinə yüksəldilmişdir. Bu baxımdan Prezident İlham Əliyev müstəqillik yoluna verdiyi qiyməti dəqiq və lakonik şəkildə demişdir: "Dövlətçiliyin inkişafı, təşəkkülü, möhkəmləndirilməsi üzrə başlıca vəzifə, əsasən, yerinə yetirilib və qarşımızda gələcək inkişaf üçün çox yaxşı perspektivlər açılıb, ona görə ki, həm iqtisadi sahədə, həm də sosial məsələlərin həlli istiqamətində artıq həyata keçirilmiş və hələ həyata keçiriləcək proqramlar çoxdur".[7] [3, s.3]

Təbii ki, bütün bunların arxasında böyük layihələr dayanır. Bu layihələr içərisində Azərbaycanın enerji siyasəti mühüm yer tutur. Bildiyimiz kimi enerji siyasəti strateji əhəmiyyət daşıyır və bu da ki, dövlətin geosiyasi mövqeyinə çox güclü təsir edir. Azərbaycan rəhbərliyi milli maraqlara cavab verən addımlar atır. Kənardan olan təsirlərə baxmayaraq, Azərbaycan dövləti milli maraqlara cavab verən adekvat addımlar atır. Bütün bunların sayəsində Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Supsa kimi enerji marşurutları fəaliyyətdədir. Hazırda Avropa üçün xüsusi əhəmiyyət daşıyan "Cənub qaz dəhlizi" layihəsi həyata keçirilmişdir. Onun tərkib hissələri olan TANAP və TAP xüsusi əhəmiyyət daşıyır. Qərbin böyük dövlət başçıları açıq etiraf edirlər ki, Azərbaycan qlobal enerji təhlükəsizliyinə böyük töhfələr verir. Enerji təhlükəsizliyi problemi milli təhlükəsizliyin ayrılmaz hissəsidir. Heç təsadüfi deyil ki, Azərbaycan müstəqillik illərində həyata keçirdiyi enerji siyasəti ilə böyük nüfuz qazanıb. Ölkə başçısı İlham Əliyev Putinlə görüşündə Rusiya ilə əməkdaşlığın böyük geosiyasi əhəmiyyəti olduğunu vurğulamışdır. Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaranan əməkdaşlıq formaları regional və qlobal miqyasda geosiyasi dinamikaya təsir edə biləcək proseslərə startı vermişdir. Şimal-Cənub nəqliyyat dəhlizi, enerji marşurutlarının şaxələnməsi, təhlükəsizlik sahəsində əməkdaşlıq, beynəlxalq terrorla mübarizə bunun əyani sübutudur. Rusiya ilə İran rəhbərliyi həmin xətti genişləndirməkdə maraqlıdırlar. Təəssüflər olsun ki, İran və Rusiyanın Ermənistandan Azərbaycan torpaqlarının azad edilməsində ikili mövqe tutması da şübhə doğurur. Hər iki dövlət hər zaman Ermənistanın təcavüzkar siyasətini dəstəkləyir. Dünya dövlətləri isə buna göz yumur. Sözsüz ki, burada din faktoru da mühüm rol oynayır. Ona görə də Avropa dövlətlərinin əksəriyyəti ermənilərin tərəfindən çıxış edərək, onların işğalçılıq siyasətini dəstəkləyirlər.

Azərbaycanın geosiyasi mövqelərinin möhkəmləndirilməsi sahəsində Ümummilli lider Heydər Əliyevin xidmətləri böyükdür. Azərbaycanın müstəqil bir dövlət kimi dünyada tanınmasında, Xəzər-Qara dəniz hövzəsi Cənubi Qafqazdakı mövqelərinin möhkəmləndirilməsində Heydər Əliyevin apardığı siyasət danılmazdır. Məhz Heydər Əliyevin diplomatik məharəti nəticəsində Azərbaycanın strateji mövqeyi və geosiyasi dəyəri dünyanın məşhur politoloqları tərəfindən yüksək qiymətləndirilmişdir. Dahi siyasətçi və diplomat olan Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan bir neçə il ərzində dünyanın aparıcı qüvvələrindən birinə çevrildi. Politoloq Z.Bzejinski demişdir ki, "Müstəqil Azərbaycan Qərbin Xəzər hövzəsinin və Orta Asiyanın zəngin enerji resurslarına çıxışı üçün dəhliz ola bilər. Və əksinə, asılı Azərbaycan Orta Asiyanın dünyadan təcrid edilməsi deməkdir".[8] [1, s.233]

Azərbaycanın dünyadakı geosiyasi mövqeyinə müsbət təsir edən amillərdən biri onun mövqeyinin başqa ölkələrdən fərqlənmişdir. Belə ki, Azərbaycanın geosiyasi uyğunsuzluğu, milli

---

[5] Yenə orada.

[6] Yenə orada.

[7] Prezident İlham Əliyev. Dağlıq Qarabağa dair ağlabatan kompromis mümkündür. Azərtac, 19 oktyabr 2016

[8] Бжезинский З. К. Великая шахматная доска. Господства Америка и его геостратигические императивы М. 1998, s.233-234

resursların bölüşdürülməsi və orta maraqlar naminə "kompromis siyasət" vasitəsilə aradan qaldırılır[9] [2, s.2]. Məhz Azərbaycan rəhbərinin yeritdiyi siyasət nəticəsində region ölkələri ilə yaranan ziddiyyətlər aradan qaldırılır. Buna Azərbaycanın dünyanın mühüm transmilli geosiyasi və geoiqtisadi maraqlarının kəsişmə nöqtəsində yerləşməsi şərait yaradır.

Azərbaycan ən böyük transmilli layihələri həyata keçirərkən geosiyasi və geoiqtisadi maraqları nəzərə alaraq adekvat addımlar atır. Bu mənada Xəzər hövzəsi və Cənubi Qafqazın geosiyasi perspektivləri ilə bağlı beynəlxalq konfranslarda regional sülh və təhlükəsizlik məsələləri əsas faktor kimi irəli sürülür. Hazırda Qafqazdakı postsovet məkanından olan ölkələrdə Ermənistan-Azərbaycan, Gürcüstan-Abxaziya, Cənubi Osetiya və Rusiya-Çeçenistan münaqişələri regionun sabitliyini pozur. Qeyd etmək lazımdır ki, Ermənistan-Azərbaycan arasında münaqişə yox, müharibə gedir. Çünki azərbaycanlıların öz dədə-baba yurdlarından qovulmasını münaqişə yox, müharibə adlandırmaq lazımdır. Bu məsələlərin həlli çətin ki, sülh yolu ilə başa çatsın. Çünki hələ deyərdik ki, heç bir ölkə işğal etdiyi əraziləri dinc yolla qaytarmış olsun. Ona görə də Azərbaycanla Ermənistan arasında müharibə qaçılmazdır. Bunu biz yox, tarix deyir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın prinsipial mövqeyini 1993-2003-cü illərdə prezident Heydər Əliyev, 2003-cü ildən etibarən isə Prezident İlham Əliyev BMT, ATƏT, NATO və digər beynəlxalq və regional təşkilatların tribunalarından səsləndirilmiş və müvafiq dəlil və sübutlarla Ermənistanın işğalçılıq siyasətini gündəmə gətirmişdir. Lakin təəssüflər olsun buna qarşı dünya dövlətlərinin heç bir reaksiyası olmamışdır. Ermənistanın təcavüzkar siyasətini ifşa edərək, İlham Əliyev demişdir: "Əlbəttə, biz bu vəziyyətlə barışa bilmərik. Azərbaycan heç zaman ərazisinin itirilməsi ilə barışmayacaqdır. Məsələnin həllində beynəlxalq hüquq normaları əsas götürülməlidir. Azərbaycan dünyadakı bütün ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşır və özünə də eyni münasibətdə yanaşmağı tələb edir. Bizim ərazi bütövlüyümüz bərpa olunmalıdır. Ermənistanın işğalçı qüvvələri zəbt olunmuş ərazilərdən geri çəkilməlidir. Qaçqınlara-köçkünlərə doğma yurdlarına qayıtmaq imkanı verilməlidir. XXI əsrdə Avropa Şurasının üzvü olan bir ölkənin – Ermənistanın Avropa Şurasının üzvü olan digər ölkənin – Azərbaycanın ərazilərini işğal etməsinə yol verməməliyik".[10] [1; s.2] Prezident İlham Əliyevin Ermənistanın ərazi iddiaları və təcavüzkarlıq siyasətinin ifşası istiqamətində apardığı mübarizəni Azərbaycan diplomatiyasının uğurlu addım kimi qiymətləndirmək olar.

Azərbaycanın milli təhlükəsizlik fəaliyyəti müstəqillik qazandıqdan sonra, əsasən, dövlətimizin banisi, şəxsiyyətinə pərəstiş etdiyimiz Ulu öndərlə bağlıdır. Milli Təhlükəsizlik Konsepsiyasının hazırlanmasında, onun ərsəyə gəlməsində Heydər Əliyevin xidmətləri əvəzsizdir.

Azərbaycan Prezidenti İlham Əliyev ölkənin milli maraqları ilə bağlı bir çox iqtisadi, siyasi, ideoloji, coğrafi, mədəni və digər amilləri, Ulu öndərin təhlükəsizliklə bağlı nəzəri irsini nəzərə alaraq, dövlətin ali təhlükəsizlik maraqlarını rəhbər tutmuşdur.

Məhz bu mənada 2004-cü ildə Azərbaycan Respublikasının Milli Məclisi "Milli təhlükəsizlik haqqında" Qanun qəbul etmişdir. Bu qanun özündə Ümummilli lider Heydər Əliyevin milli təhlükəszilik təliminin əsas prinsiplərini, məqsəd və vəzifələrini əks etdirməklə yanaşı, həm də dövlətin Milli Təhlükəsizlik Konsepsiyasının yaradılmasını ehtiva etmişdir. Ölkə Prezidentinin 2007-ci il 23 may tarixli Sərəncamı ilə Milli Təhlükəsizlik haqqında Konsepsiya qəbul olundu. Konsepsiyada dövlətin ərazi bütövlüyü, dövlətin təhlükəsizliyi, milli-vətəndaş birliyi və ictimai sabitliyi qorumaq və s. ümdə məsələlər öz əksini tapmışdır.

Beləliklə, qeyd etmək lazımdır ki, necə ki, Azərbaycan dövləti yaşayır, Heydər Əliyev də yaşayacaqdır.

Ölkənin strateji əhəmiyyət daşıyan məsələləri Azərbaycan kimi müstəqilliyini yenicə qazanmış və çox mürəkkəb geosiyasi məkanda yerləşən zəngin ölkədə dövlətin nəzarəti altında qalmasının zəruriliyini sübut etdi. Bunun nəticəsində özəl kapital Azərbaycanda dövləti ələ keçirə bilmədi. Liberal islahatlara xas olan bu təzadlar Azərbaycanın daxili və xarici siyasətinin əsasını təşkil edir.

[9] Azərbaycanın geosiyasi kursu: XXI əsrin çağırışları işığında. Respublika 23 noyabr, 2016.
[10] Azərbaycan qəzeti, 18 mart 2004-cü il.

Qərb analitikləri tərəfindən dərk olunan bu təzad qeyri-qərb cəmiyyətlərində islahatların perspektivi ilə bağlı müəyyən şübhə yaratmışdır. Frensis Fukuyama 1989-cu ildə bildirirdi ki, “Qərbin qərb ideyasının qələbsi aşkardır. Liberalizmin heç bir həyat qabiliyyətli alternativi qalmamışdır[11] [1, s.150]. Amma 2001-ci ildə o, etiraf edirdi ki, “müasirləşmə nəzəriyyəsi” Avropa təmayülüdür və məqsədlərin müxtəlifliyini nəzərə almır.” Bəlli oldu ki, “belə müasirləşmənin əleyhdarlarının ideyaları öz güc və inandırıcılığını saxlayır, nəticədə bir çox insanlar azad bazar iqtisadiyytına əsaslanmış demokratik cəmiyyətə aparan bəşəriyyət üçün yeganə inkişaf yolunun müdafiəsindən çəkindilər[12] [2, s.248]. Fukuyama göstərmək istəyirdi ki, qeyri-Qərb cəmiyyətində – mədəniyyət səviyyəsində, çətinliklər özünü göstərir. Bu, dil, din, mənəviyyat, milli özünüdərk, adət-ənənə sahələrində özünü büruzə verir.

Fukuyamanın qeyd etdiyi liberal müasirləşmənin çətinliklərinə baxmayaraq, məhz Heydər Əliyevin 1993-cü idə ölkə rəhbərliyinə qayıdşı ilə Azərbaycan səmərəli dövlətçilik konsepsiyasına, iqtisadiyyatın dirçəldilməsi strategiyasına uyğun olaraq, xalqın sosiomədəni irsinə əsaslanaraq, liberal demokratiya yoluna qədəm qoydu. Ölkənin ictimai-siyasi, sosial, iqtisadi, mədəni həyatında, beynəlxaq əlaqələrində dönüş yarandı, müstəqil dövlət quruculuğu prosesi başlandı. Heydər Əliyev 1993-2003-cü illərdə yeni milli inkişaf stratigiyası formalaşdırmağa müvəffəq oldu. Bu strategiya çoxmədəniyyətli suverenlik ideyasına əsaslanırdı.

Çoxmədəniyyətli suverenlik Azərbaycan Respublikasının daxili və xarici siyasətinin özəyi olmuşdur. Bu xarici siyasət milli mədəniyyət əsasında, həmçinin dövlət quruculuğu mədəniyyəti zəminində qurulmaq deməkdir.

Çoxmədəniyyətlilikdən danışarkən Ulu öndər öz nitqlərində hər şeydən öncə millətin mənəvi dünyasını əks etdirən məsələlərə toxunurdu. O, liberal nitqini-vətənpərvərliyə, suverenliyə, dövlətçiliyə uyğunlaşdırırdı. Heydər Əliyev Azərbaycan Respublikasının dövlət müstəqilliyinin müdafiəsinin, gücləndirilməsinin və inkişafının uğrunda çalışırdı. O, çıxışlarında deyirdi ki, “Nə olursa-olsun müstəqillik itirilməyəcəkdir, Azərbaycan Respublikası bundan sonra hər hansı bir dövlətin tərkibinə daxil olmayacaq, başqa dövlətin əsarətinə düşməyəcəkdir[13] [1, s.75]. Heydər Əliyev elə xarici siyasət yeridirdi ki, orada Azərbaycan dövlətinin mənəvi dəyərləri öz əksini tapmış olsun. O, deyirdi: “Biz çalışmalıyıq ki, yenidən müstəqilliyini əldə etmiş Azərbaycan xalqı bu mənada həm tarixi, həm də müasir potensiala malikdir.” İqtisadiyyatın da daxil olduğu bu potensiala Heydər Əliyev “bizim elmimizi, mədəniyyətimizi, ənənələrimizi və islam dinini” daxil edirdi.

Ümummillli Liderin yeritdiyi möhtəşəm xarici siyasət sahəsində ölkəmiz dünyanın strateji əhəmiyyətli ən iri dövlətləti ilə əlaqələrini gücləndirməyə nail oldu. Bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqazda Rusiya və digər xarici dövlətlərlə bərabərhüquqlu münasibətlər sistemi yaratmağa nail olmuşdur. Rusiya ilə Azərbaycan arasında qarşılıqlı, ikitərəfli səmərəli əməkdaşlıq tarixin sınağından çıxmışdır.

Azərbaycan müstəqillik qazanandıqdan sonra xarici siyasət sahəsində Türkiyəyə münasibətdə də müəyyən dəyişikliklər edildi. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ölkələrdən biri oldu. Azərbaycan-Türkiyə münasibətləri iki qardaş xalqın mənafelərinə xidmət etməklə yanaşı, bütün dünyada sülhün və əminamanlığın bərqərar olması işinə də öz töhfəsini verir.

Azərbaycan öz geosiyasətində qonşu İran dövləti ilə də qarşılıqlı əməkdaşlıq, mehriban qonşuluq prinsipləri əsasında ikitərəfl siyasi, iqtisadi və mədəni münasibətlər yaratmağa müvəffəq olmuşdur. Azərbaycan Qərb dövlətlərinin iştirak etdiyi neft konsorsimunda İrana yer ayırmış, “Şahdəniz” yatağının işlənilməsi üzrə müqavilədə bu ölkəyə pay verməşdir. Bütün bunlara baxmayaraq, İran işğalçı Ermənistanla sərhədləri açmış, onlarla iqtisadi, siyasi və mədəni əlaqələri ilbəil artırır. İran Azərbaycanın heç vaxt müstəqilliyinin tərəfdarı olmamışdır. Tarix boyu İran Azərbaycanla düşmənçilik siyasəti yeridərək, Ermənistanın tərəfdarı olmuşdur. Fars şovinizmi əsrlər boyu Azərbaycana qarşı öz məkrli siyasətini davam etdirmiş və etdirir. Azərbaycan İslam

[11] Ф.Фукяма “Великий разрыв” М.2002, s.150
[12] Məmmədov N. “Geosiyasətə giriş”. B.,2011, s.248
[13] Heydər Əliyev “Minilliklərin qovşağında” B.,2001,s.75

Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrlə siyasi, iqtisadi, ticarət və mədəni əlaqələri xeyli inkişaf etdirmişdir. Hazırda Azərbaycan ilə ABŞ-ın rəhbərlik etdiyi antiterror koalisiyasının üzvüdür, beynəlxalq birliyin terrorizmə qarşı mübarizəsini dəstəkləyir və bu sahədə bir sıra əhəmiyyətli addımlar atır. Azərbaycan ABŞ-la, habelə iqtisadi, enerji təhlükəsizliyi və demokratik inkişafın bütün sahələrində əməkdaşlığı gücləndirərək müəyyən işlər aparır.

Azərbaycan Böyük Britanya ilə də ikitərəfli əməkdaşlıq münasibətlərini inkişaf etdirir. Bu gün Böyük Britaniya beynəlxalq aləmdə Azərbaycanın fəal tərəfdarı kimi çıxış edir. Lakin təəssüflər olsun ki, Qarabağ münaqişəsinin həllində bütün Avropa dövlətləri kimi Böyük Britaniya da sözdə Azərbaycanı dəstəkləyir, əməldə isə Ermənistanın tərəfini saxlayırlar.

Bundan başqa, Avropanın nüfuzlu ölkələri – Almaniya, Fransa, İtaliya. Belçika, Niderland, Yunanıstan, Polşa, Rumıniya, Bolqarıstan, Skandinaviya ölkələri ilə də Azərbaycan arasında tam sabit və bərabərhüquqlu əməkdaşlıq münasibətləri yaranmışdır. Avropa ölkələri ilə münasibətlərin inkişafında Tarixi İpək yolunun bərpasının böyük rolu olmuşdur. TRASEKA adlı bu proqramın həyata keçirilməsi nəqliyyat dəhlizinin mərkəzində yerləşən Azərbaycan Şərqlə Qərbin qovuşmasında böyük rol oynayır.

Dünyanın ən böyük dövlətlərindən biri və BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Çin, nəhəng intellektual potensiala malik Yaponiya uzun illərdir ki, Azərbaycanın siyasi və iqtisadi tərəfdaşına çevrilmişdir ki, bu da respublikamızın yeritdiyi uğurlu siyasətlərdən biridir. Azərbaycanla İsrail dövləti arasında siyasi, iqtisadi və mədəni əlaqələr genişlənməkdədir. Qərb və Şərq mədəniyyətlərini birləşdirən körpü kimi Azərbaycan Sivilizasiyalar arasındakı dialoqda fəal iştiak edir.

Qərblə Şərqin kəsişməsində yerləşən Azərbaycan Avropa ölkələrindən Asiya bazarlarına mal gətirilməsində və əksinə daşınmasında böyük rol oynayır. Orta Şərq və Asiya ölkələri ilə əlaqələr Azərbaycanın xarici siyasətində vacib yer tutur.

Bundan başqa Azərbaycan siyasi, sosial-mədəni baxımdan nüfuzlu beynəlxalq təşkilatlaara hərtərəfli inteqrasiya xətti yürüdür. Hazırda dünyada təqribən 4000-dən çox beynəlxalq və regional təşkilat mövcuddur ki, bunlardan 300-dən çoxu hökumətlərarası təşkilatlardır. Bu təşkilatlarla Azərbaycan öz problemlərini (ən böyük olan işğal altındakı torpaqlarımızı) dünyaya çatdırmaq üçün böyük işlər görür. Lakin dünya ölkələri Azərbaycanın haqq sözünü eşitmirlər. İşğal altındakı torpaqlarımızın azad edilməsində birtərəfli mövqedən çıxış edirlər. Qarabağ həqiqətlərində bu təşkilatlar birmənalı olaraq Ermənistanı dəstəkləyirlər. Nəticə olaraq, onu qeyd etmək lazımdır ki, Azərbaycanın Müzəffər Ordusu Ali Baş Komandanımızın rəhbərliyi altında 44 gün ərzində torpaqlarımızı erməni işğalçılarından azad etdi.

### İstifadə edilmiş ədəbiyyat


1. Heydər Əliyev. Minilliklərin qovşağında. Bakı, 2011
2. Фукяма Ф. Великий разрыв, М., 2002
3. Əliyev İ. İnkişaf məqsədimizdir. I-V kitablar. Bakı, 2008-2010
4. Həsənov Ə. Geosiyasətə giriş. Bakı, 2011


UOT 94(479.24)

## Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarıdır: sabitlikdən inkişafa doğru

*tar.f.d., dos. Alı Məhəmməd oğlu Balayev,*
*AMEA Tarix İnstitutu*

1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə Ulu öndər Heydər Əliyevin hakimiyyətə ikinci gəlişi Azərbaycan tarixində yeni mərhələnin başlanğıcını qoydu. Ümummilli liderin gələcəyə ünvanlanmış siyasi-hüquqi və iqtisadi islahatlara geniş yol açması, ölkədə qanunçuluğun

gücləndirilməsi nəticəsində, özbaşınalığa son qoyuldu, ictimai qaydalar möhkəmləndirildi.

1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi, vətəndaş cəmiyyəti və hüquqi dövlət təsisatları yaradıldı, dövlətçilik möhkəmləndirildi və inkişaf etdirildi. Ali və yerli dövlət qurumlarına seçkilərin demokratik hüququ bazası qəbul olundu, çoxpartiyalı sistem formalaşdı, insan hüquq və azadlıqlarının müdafiəsini təmin edən qurumlar yaradıldı, demokratik ictimai və qeyri-hökumət təşkilatları təşəkkül tapdı, müstəqil, obyektiv, demokratik kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən qanunvericilik aktları qəbul edildi.

1993-cü ildən başlayaraq, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının pozulmuş ərazi bütövlüyünün bərpası uğurunda mübarizə yeni mərhələyə daxil oldu, dünyanın ən güclü dövlətləri, yaxın və uzaq ölkələrlə ikitərəfli əlaqələr yaradıldı və inkişaf etdirildi.

1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Milli Məclisinin fövqəladə sessiyası Heydər Əliyevi Ali Sovetin sədri seçdi. Vətəndaş müharibəsini dayandırmaq məqsədilə Heydər Əliyev heç bir siyasi idarəçilik bacarığı olmayan, xarici dövlətin xüsusi orqanlarının və qisas almaq istəyən qüvvələrin əlində oyuncağa çevrilmiş, lakin real silahlı gücə malik S.Hüseynovu öz sayıq nəzarəti altında baş nazir vəzifəsinə təyin etdi. Güc nazirliklərinə rəhbərlik ona tapşırıldı.

H.Əliyev tarazlı, milli maraqlara xidmət edən xarici siyasət konsepsiyası hazırlayaraq onu uğurla tətbiq etdi. Onun mühüm addımlarından biri Rusiya qoşunları geri qayıtmadan MDB tərkibinə daxil olmasıdır.

Heydər Əliyev respublikada ictimai-siyasi sabitliyin bərpası üçün ciddi tədbirlər gördü, ilk növbədə işğalçı, təcavüzkar Ermənistanla atəşkəs haqqında müqavilə bağlandı. 1994-cü il sentyabrın 20-də Bakıda "Əsrin müqaviləsi"nin imzalanması həm ölkə daxilində, həm də beynəlxalq aləmdə Azərbaycanın mövqeyində ciddi dəyişikliyə imkan yaratdı, bu saziş Azərbaycanın iqtisadi potensialının möhkəmlənməsinə xidmət edirdi.

İkincisi, 1993-cü ildən sonra sentyabrın 20-də bağlandı. Bu saziş 30 il müddətinə nəzərdə tutulan 7 milyarddan artıq məbləğdə dəyərləndirildi. Bazar iqtisadiyyatı yolu ilə irəliləyən Azərbaycan Respublikası "Əsrin müqaviləsi"ni imzalamaqla respublikada sabitliyin bərpa olunması yolunda yeni addım atmış oldu.

1994-cü il oktyabrın 4-də Gəncə şəhərində hərbi çevrilişə cəhd baş tutmadı. Heydər Əliyev ölkədə 60 günlük fövqəladə vəziyyət elan edərək Surət Hüseynovu baş nazir vəzifəsindən azad etdi.

Bu dövrdə ən təhlükəli hakimiyyət çevrilişinə cəhdlərdən biri Cavadov qardaşlarının (Rövşən və Mahir) başçılıq etdikləri Xüsusi Təyinatlı Polis Dəstəsinin silahlı çıxışları oldu. Nəticədə R.Cavadov öldürüldü, M.Cavadov xaricə qaçdı, qiyamçılardan və hökumət qüvvələrinin ümumi itkisi 48 nəfərə çatdı. Xarici tədqiqatçılar bu çevriliş cəhdlərinin "səriştəsiz" şəkildə edildiyinin və Rusiyadakı hər hansı peşəkar qüvvələr tərəfindən onun dəstəklənməsinə şübhə edildiyini" [8, s.310] göstərirlər.

Azərbaycan Prezidenti çevriliş cəhdinin qarşısını danışıqla, sülh yolu ilə almaq üçün əlindən gələni etdi. Lakin bu istiqamətdə görülən tədbirlər nəticə vermədi. Martın 13-dən 14-nə keçən gecə həmin silahlı dəstə Tovuzdakı hərbi hissəyə hücum etdi, gecə saat 2-dək davam edən döyüşdə həmin banda darmadağın edildi. Burada qardaş qanı töküldü. 4 nəfər əsgər Azərbaycanın dövlətçiliyini qorumaq uğrunda mübarizədə həlak oldu. 50-60 adamdan ibarət XTPD bölməsi üzvlərinin 49 nələri həbs edildi, qalanları qaçıb gizləndilər [6, s.185].

Bütün danışıqlar fayda vermədiyindən hökumət qüvvələri qiyamı silah gücünə yatırdılar.

M.Əlizadə Azərbaycanı gözləyən bütün təhlükələrdən xilas edən Heydər Əliyev haqqında yazır: "Heydər Əliyevin zəkasının gücü ilə təhlükələri sovuşdurması vətənin bütövlüyünə xidmət edən vətəndaşlıq borcu idi. Heydər Əliyevin siyasi əqidə bütövlüyü bu idi desək, yanılmarıq. Deməli, bunu Heydər Əliyevin vətən qarşısında siyasi məsuliyyəti kimi də düşünmək lazımdır" [5, s.34].

Müstəqilliyin ilk illərində bütün postsovet məkanı üçün keçid dövrü səciyyəvi idi. Bu dövrdə əsas vəzifə;

- milli dövlətçiliyin yaranması və inkişaf etdirilməsi;

- bazar iqtisadiyyatına keçid;
- demokratik rejimin təşəkkülü və inkişaf etdirilməsi idi.

Ekspertlər keçid dövründə qanunauyğunluqların təşəkkülünü göstərirdilər və burada "siyasi və makroiqtisadi sabitliyə nail olunması"nı [1, s.132] əsas vəzifələrdən hesab edirdilər.

Şübhəsiz ki, sabitliyin yaranmasında müstəqil Azərbaycanın demokratik Əsas Qanununun qəbul edilməsinin zəruriliyi öndə durdu. Bunun üçün ölkədə Konstitusiya Komissiyası yaradıldı. Azərbaycan Prezidenti Heydər Əliyev Konstitusiya Komissiyasının ilk iclasında çıxış edərək demişdir: "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun." [4, s.409]

Xalqın istəklərini və milli maraqlarını ifadə və müdafiə edən H.Əliyev sabit və uzunmüddətli siyasi rejim yaratmağa nail oldu.

Məlum olduğu kimi, siyasi rəhbərlik üç əsas məqama diqqət yetirir: Birincisi, qarşıya yaxın dövr və perspektiv gələcək məqsədləri müəyyən edən prinsipial vəzifələri həll edir; İkincisi, siyasi rəhbərlik xalqın istək və iradəsinə cavab verən qarşıya qoyulmuş məqsədlərin optimal şəkildə yerinə yetirilməsinin köməyi ilə fəaliyyət formaları, vasitələri və metodları işləyib hazırlayır. Üçüncüsü, siyasi rəhbərlik qarşısında duran vəzifələri ən yaxşı şəkildə həyata keçirə bilən təcrübəli kadrların seçilməsini və yerləşdirilməsini təmin edir" [9, s.24].

Beləliklə, siyasi iqtisadi, mənəvi böhrandan Azərbaycanı xanlığını 1993-1995-ci illərdə dövlət başçısı H.Əliyev xilas edə bildi.

Sabitliyin bərpa olunmasında, qanunun gücü ilə sabitliyi pozanların qarşısının alınmasında yeni konstitusiyanın qəbul olunması əsas rol oynadı. "Konstitusiyanın əsas vəzifələrindən biri də ondan ibarətdir ki, bu Əsas Qanun respublikada sabitliyi təmin etməyə, sabitliyi pozmaq istəyən qüvvələrin qarşısını qanuni yolla almağa xidmət etməlidir" [6, s.196].

Bunun üçün H.Əliyev dövlət, xalq və hakimiyyət arasındakı münasibətləri tənzimləyən əsas qanunun qəbul olunmasını onu xalqın konstitusiyasına, hər bir vətəndaşı konstitusiyasına çevirməyi bacardı.

Azərbaycan Konstitusiyası milli ənənələrin və beynəlxalq təcrübənin vəhdətini əks etdirən bir qanunlar külliyyatıdır. Buna görə də H.Əliyev deyirdi ki, Azərbaycan Konstitusiyasını səciyyələndirən əsas cəhətlər "Azərbaycanın tarixi keçmişini, bu günlü reallıqlarını və gələcək perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənmişdir." [4, s.27]

Azərbaycan Konstitusiyasında sabitliyi nəinki bərpa etməyim, həm də gələcək inkişafın yolları və güclü dövlətin əsas vəzifələri də göstərirlər.

Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;

- konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;
- vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;
- xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq;
- ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək;
- ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək kimi ülvi niyyətlərlə ümumxalq səsverməsi – referendum yolu ilə qəbul edilmiş [3, s.3] Azərbaycan Respublikası Konstitusiyası Azərbaycan xalqının sabitlik dinc, əmin-amanlıq, təhlükəsiz yaşamağının ali qanuni təminatçısıdır.

Azərbaycan Konstitusiyasında hakimiyyətin yeganə mənbəyinin Azərbaycan xalqı olduğu, xalqın suveren hüquqları, vahidliyi təsbit edilməklə sabitliyin pozulmasına, hakimiyyətin qeyri-qanuni yolla ələ keçirilməsinə yol verilmir: "Azərbaycan xalqının heç bir hissəsi, sosial qrup, təşkilatlı ya heç bir şəxs hakimiyyətinin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz. Hakimiyyətin mənimsənilməsi xalqa qarşı ən ağır cinayətdir." [3, s.5]

Konstitusiyaya görə ölkədə qanunun, hüququn alimliyi əsasında dövlət hakimiyyəti daxili məsələlərin həll edir. Bu hakimiyyət qanunverici, icra və məhkəmə hakimiyyətləri əsasında təşkil

edilir.

Azərbaycan Konstitusiyası sabitliyi təmin edən, pozucu, separatçı qüvvələrə qarşı çıxan güclü dövlət ideyasını özündə təcəssüm etdirir. Rusiyalı tədqiqatçı akademik B.Topornin yazır: “Güclü dövlət-real, səmərəli demokratiya, vətəndaş cəmiyyəti ilə konstruktiv əməkdaşlığa əsaslanaraq qurulmuş dövlətdir. Dövlətin idarə edilməsi təkcə idarə edilməsi bölünməsi əsasında deyil, həm də hakimiyyətin bütün şaxələrinin əməkdaşlığı və qarşılıqlı əlaqələri əsasında qurulur, çünki praktiki olaraq bütün məsələlərin həlli bu cür qarşılıqlı əlaqələrin olmasını tələb edir [10, s.5].

Azərbaycanın güclü dövləti öz fəallığında icra qanunvericilik və məhkəmə hakimiyyətlərinin qarşılıqlı əlaqəsinə əsaslanır. Həm də onlar öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.

1995-ci ilin sonlarında ölkədə sabitlik bərpa olundu, prezident siyasi vəziyyətə nəzarətini gücləndirdi. Qeyri-qanuni, ekstremist mübarizə formalarına, separatçıların silahlı çıxışlarına son qoyuldu. Cinayətkarlıq əsaslı şəkildə azalmış, təhlükəsizlik təmin olunmuşdu. Çünki xalq-hakimiyyət birliyi güclənmişdi.

1996-cı ildə təkcə radikal müxalifət deyil digər qruplaşmalar da dağıdıcı pozucu fəaliyyətləri ilə dövlətçiliyə, sabitliyə təhlükə mənbəyi idilər.

1996-cı ilin may ayında İslam Partiyasının rəhbərləri həbs edildi. İslam Partiyasının yeni rəhbərliyi Azərbaycan dövlətinə münasibətdə loyal mövqe tutduğunu bəyan etdi.

Prezident İlham Əliyevin 21 yanvar 2013-cü il tarixli “Azərbaycan xalqının ÜMUMMİLLİ LİDERi Heydər Əliyevin 90 illik yubileyi haqqında” Sərəncamında vurğulandığı kimi, “ölkəmizin Əsas Qanunun – Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsiplərinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissəsidir” [2, s.1]. Bu konstitusiya Azərbaycan tarixinə cavab verir və milli və beynəlxalq təcrübənin vəhdətini özündə əks etdirir.

Heydər Əliyevin kütləvi informasiya vasitələri üzərindəki senzuranı ləğv etməsi, çoxpartiyalı mühüm formalaşdırılması, əfv fərmanları verməsi, radio və televiziyadan sərbəst istifadə etmək üçün şərait yaratması sabitliyin bərpa olunmasında əsaslı rol oynadı. Akademik Ramiz Mehdiyev göstərir ki, “Heydər Əliyev müasir dünyanın siyasi xadimləri arasında çox az təsadüf edən bir rəhbərdir ki, bu müxtəlif tip liderlərdə olan keyfiyyətləri ahəngdar, üzvi bir şəkildə özündə birləşdirir.” [7, s.264]

Bununla da Heydər Əliyev ölkənin və azərbaycanlıların milli birliyini möhkəmləndirdi, özbaşınalıqlarına son qoydu, sabitliyi yüksək səviyyədə bərpa etdi.

1993-cü ildə Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı ilə respublikada sabitlik bərpa olundu:

- dövlətçilik formalaşmağa başladı: demoqrafik hüquqi dövlət və vətəndaş cəmiyyəti yarandı;
- qanunçuluq, hüquq-mühafizə sistemi möhkəmləndirildi;
- dövlət çevrilişlərinə cəhd edən pozucu qüvvələr ləğv edildi;
- ölkənin əsas qanunu Konstitusiya qəbul olundu;

Hakimiyyət bölgüsü prinsipi uğurla həyata keçirildi.

Qeyd olunanlara əsaslanaraq inamla demək olar ki, 1990-2003-cü illəri Azərbaycan tarixində ciddi dönüş illəri oldu. Bu illərdə ölkə sərt imtahanlarla üzləşdi. Azərbaycanın ərazi bütövlüyü parçalanmaq təhlükəsi ilə qarşılaşdı. Ölkəni bu imtahanlardan yalnız dərin dövlətçilik təcrübəsi olan şəxsiyyət Ulu öndər Heydər Əliyev çıxara bildi. XX əsrin 95-ci illərinə qədərki dövr Azərbaycanda siyasi sistemin, iqtisadiyyatın bərpa dövrüdür. 1996-2003-cü illər isə müstəqil Azərbaycanın inkişafı dövrüdür.

**İstifadə edilmiş ədəbiyyat**

1. Abbasov Ə. Milli maraqlar və milli ideologiya. Bakı: Təknur, 2012, 240 s.
2. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (21 yanvar 2013-cü il, №2679). “Azərbaycan” qəz., 2013, 22 yanvar, №14, s.1

3. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq Yayın Evi, 2018, 92 s.
4. Əliyev Heydər. Müstəqillik yollarında. III kitab. Bakı: Azərbaycan, 1997, 510 s.
5. Əlizadə M. Milli müdrikliyin Heydər Əliyev zirvəsi. Bakı: Bakı Universiteti nəşriyyatı, 2006,752 s.
6. Hüseynov İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, 472 s.
7. Mehdiyev R. Azərbaycanın inkişaf dialektikası. Bakı: Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, 2000, 288 s.
8. Svyatoxovski T. Rusiya və Azərbaycan: sərhədyanı bölgə keçid dövründə. Bakı: Xəzər Universiteti nəş., 2000, 374 s.
9. Аббасбейли А. Гейдар Алиев – основатель и архитектор независимой Азербайджанской Республики // Strateji təhlil, 2016, s.23-38
10. Российское государство и право на рубеже тысячелетии. Всероссийская научная конференция. Выступление академика В.Топорнина // Государствуй право, 2000, №7, с.3-17

UOT 321; 323/324

**Postmüharibə dövründə cəmiyyətin yenidən formalaşmasına siyasi-fəlsəfi baxış**

*fəl.f.d., dos. Təzəgül Mirzə qızı Qasımova,*
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*

Müharibədən sonrakı bir cəmiyyətin, yəni zorakı hücumdan, təcavüzdən və müharibədən xilas olan bir cəmiyyətin yenidən qurulması, bərpası məsələsi ortaq dəyərlərin qurulmasında təməli olan ədalətin bərpası ilə və bütün tərəflər üçün məqbul olan etik normalarla əlaqələndirilir [3]. Bu problemin açılmasında diqqət iki istiqamət üzərində cəmlənir. Bir tərəfdən müharibədən sonrakı cəmiyyətin yenidən qurulması ilə ortaq ədalət və ictimai harmoniyaya əsaslanan cəmiyyətin sosial, siyasi və institusional quruluşunun qanuniliyinin yenilənməsi, digər tərəfdən isə cəmiyyətin sahib olduğu dəyərlər, çatmaq istədiyi ümumi hədəflər və yeni çağırışlar.

Beynəlxalq münasibətlərin, xüsusən də müharibə, sülh və münaqişələrin həlli ilə əlaqəli müxtəlif etik aspektləri təhlil edən nəzəri və empirik tədqiqatlara diqqət yetirən zaman ilk öncə müharibə və müdaxilənin mənəvi cəhətdən əsaslandırılması və təhlili zamanı ”sülh etikasına” diqqətin yönəldiyini görmək mümkündür. Bu zaman barışıq təmin etmək üçün müxtəlif mənəvi, siyasi və iqtisadi məqsədlərin və vasitələrin inandırıcılığı da diqqətçəkən tərəf ola bilər.

Gündəlik həyatımızda doğruluğuna inandığımız çoxlu nəsnələri diqqətlə araşdıranda onların daxilinə nüfuz etmiş çoxsaylı aşkar ziddiyyətin olduğunu görürük və bütün bunların doğrudan da indiyədək düşündüyümüzdən fərqli olduğuna inanmaq üçün bir az düşüncəmizi həddən artıq gərginləşdirməklə həqiqəti anlaya bilirik. Və bu da təcrübələrin hesabına mümkün olur [2, s.6].

Tədqiqatçıların hadisəyə və gerçəyə olan münasibəti nəticəsində zorakı təcavüzə uğramış bir cəmiyyətin yenidən qurulması və bərpası məsələsinin ziddiyyətlərlə dolu olduğunu görürük və uzun bir yol qət edəcəyini əminliklə qəbul edirik.

Bu gün Azərbaycan cəmiyyəti də təcavüzdən sonra qalib bir cəmiyyət kimi öz bərpa və yenidənqurma dövrünü yaşayır. 30 il ərzində davam edən qanlı münaqişə güclü siyasət və güclü ordunun birgə fəaliyyəti nəticəsində zəfərlə həllini tapdı. Bu müharibə Azərbaycanın regional liderliyini birmənalı sübuta yetirdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə genişmiqyaslı xarakter daşıyan iqtisadi islahatlar, yüksək iqtisadi artım mükəmməl bir cəmiyyətin formalaşmasına zəmin yaratdı. Azərbaycan dövləti bu siyasi, hərbu uğura, zəfərə illərlə hazırlıq görürdü. İstər qlobal, istərsə də lokal məkanda bir münaqişənin həlli üçün müharibə aparırdı. İkinci Qarabağ müharibəsi

zamanı Azərbaycanda siyasi-iqtisadi sabitlik hökm sürürdü. Xalq-hakimiyyət birliyi ən yüksək səviyyədə özünü göstərdi. Və bu birlik bizi zəfərə çatdırdı.

İkinci Qarabağ müharibəsi eyni zamanda informasiya müharibəsi idi. Liderin dərin biliyi, güclü, aydın məntiqi, siyasi səriştəliyi bu informasiya müharibəsində Azərbaycanın mənfur düşmənə qalib gəlməsinə səbəb oldu. Bu ədalətin bərpası idi.

Münaqişə sonrası yenidənqurma siyasəti, zorakı münaqişənin dayandırılmasını və qanunun aliliyinin köməyi ilə ictimai harmoniyaya və normal sosial qarşılıqlı fəaliyyətə qayıtmağı vurğulayan xüsusi bir ədalət çərçivəsinə söykənir. Bu siyasət bir neçə istiqamətdə müəyyən edilə bilər: birinci məqsəd şiddəti, zorakılığı dayandırmaqdır; ikincisi, qeyri-adi kənar müdaxiləyə ehtiyac qalmadıqdan sonra ictimai harmoniyanı və sosial tarazlığı qorumaqdır; üçüncüsü, suveren milli idarəetmənin qurulması və böyük həcmdə öz-özünə təyin edilmiş iqtisadi fəaliyyətin təmin edilməsi və əsas ictimai xidmətlər ilə işləyən infrastrukturun yenidən qurulması;

Müharibədən sonra Azərbaycan Respublikasının dövlət siyasətinin əsasını azad edilmiş ərazilərin yenidən bərpası, yenidənqurulmasıdır ki, hansı ki, bu məsələlər dövlət investisiya proqramlarında, dövlət layihələrində öz əksini tapmışdır. Yol-nəqliyyat infrastrukturunun enerji ilə təminat, beynəlxalq aeroport, dəmir yolları, suvarma işləri və s. kimi məsələlər təcavüzə uğramış bir cəmiyyətin yenidən bərpasının ilkin elementlərindən, tərəflərindən hesab olunur. Sərhəd xidmətinin bərpası, şəhərsalma qaydalarının tətbiqi kimi məsələlər də bu problemlər sırasına daxildir. Münaqişədən sonra Azərbaycan yenidənqurmanın ilkin mərhələsini yaşayır [1].

Azərbaycan dövləti bu yenidənqurma işlərində iştirak etmək üçün dost ölkələrdən şirkətlər dəvət edir və əməkdaşlığı daha da genişləndirirdi. Ərazilərimizin işğaldan azad olunması əvvəlcədən müəyyən edilmiş inkişaf strategiyasına daha geniş imkanlar yaradacaq. Bu gün Azərbaycan dövləti cəmiyyətin yenidən qurulması üçün iki proqramla çıxış edir. Birinci, 2030-cu ilədək olan inkişaf proqramı, digəri isə Qarabağın bərpası üçün olan inkişaf proqramıdır. Və əsas diqqət çəkən bir məsələ işğaldan azad edilmiş ərazilərdə yeni idarəçilik modelinin təqdim olunmasıdır. Və bu model vasitəsilə idarəçiliyə və bu sahədə inkişafa çox müasir yanaşma formalaşacaq ki, bu da iki dövrü əhatə edəcək, bərpa zamanı və bərpadan sonrakı müddətdəki inkişafı.

Müharibədən və qarşıdurmadan sonrakı bir cəmiyyətin yenidən formalaşmasının əsas tərəflərinə etik normalar, ictimai harmoniya, hansıki əsasını ədalət konsepsiyası təşkil edir aid etsək yanılmarıq. İctimai harmoniyanı barışıq, birgəyaşayışın daha geniş ölçüləri əhatə edir. Münaqişədən sonrakı yenidənqurma prosesi 3 konseptual mərhələdə təşkil edilə bilər. Təhlükəsizlik, sabitlik və hərbi müdaxilə, hansı ki, fövqəladə xidmətlər üçün hərbi müdaxilə ilə xarakterizə olunur. Yuxarıda qeyd etdiyimiz kimi siyasətə haqq qazandırmaq üçün onu ədalətdən kənarda həyata keçirmək uğurdan uzaqlaşmağa doğru aparır. Hər iki elementi birləşdirməyə çalışsaq isə harmoniyaya, daha doğrusu ictimai harmoniyaya çatmış olarıq. İctimai harmoniyadan danışarkən "passivizmi" unutmaq olmaz.

Digər bir etik dəyəri də qeyd etmək lazımdır. Haqqı olanı almaq. Azərbaycanın ərazi bütövlüyünün bərpası onun haqqıdır. Bu etik norma və dəyərlər də uçub dağılmış, məhv olmuş bir cəmiyyətin bərpasını, formalaşmasının əsasını təşkil edir.

Münaqişədən sonrakı yenidənqurma prosesinin öz çərçivəsi, əhatə dairəsi mövcuddur ki, bura ədalət anlayışı və onun etik ölçüləri daxildir. Xüsusilə, münaqişədən sonrakı cəmiyyətlərdə barışığın qurulması və sosial-siyasi nizamın bərpası xarakterik cəhətlərdən hesab olunur. Barışıq, sosial-siyasi nizam anlayışları, qanunun aliliyi ilə bağlı olan sosial müqavilə yanaşmasının əsasını təşkil edir. Sosial müqavilənin yenidən qurulması yuxarıdan aşağıya doğru bir proses olaraq davam edir. Bu sosial müqavilənin əsasında qərəzsizlik, fərdi hüquqlara hörmət və demokratik iştirak və s. durur.

Nəticədə onu qeyd etmək istərdim ki, bu gün Azərbaycan inkişaf etmiş və müharibədən qalib çıxmış bir dövlət kimi təcavüzə məruz qalmış cəmiyyətini bərpa etmək üçün bütün siyasi-etik prinsipləri qoruyur, məqsədinə doğru irəliləyir və bu uğura da öz imzasını atır. Barış, ictimai

harmoniya və insan rifahı üçün vacib olan prinsiplər və dəyərlərin mövcud olduğu cəmiyyət çox asanlıqla yenidən formalaşa və bərpa oluna bilər.

**İstifadə edilmiş ədəbiyyat**

1. İlham Əliyevin ADA Universitetində keçirilən "Cənubu Qafqaza yeni baxış: münqaişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransında çıxışı// www.prezident.az
2. Rassel, B. Fəlsəfənin problemləri. Bakı: Qanun, 2017
3. https://www.researchgate.net/search/publication?q=publications-23547745

UOT 94 (479.24)

**Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin memarı kimi mədəniyyətin inkişafında rolu**

*tar.f.d., dos. Nigar Rəşid qızı Axundova,*
*AMEA Tarix İnstitutu*

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Heydər Əliyevin hakimiyyətə gəlməsi (1993) mədəni quruculuqda köklü dəyişikliklərə səbəb oldu. XX əsrin sonlarında sovet imperiyasının süqutu onun tərkibinə qatılmış digər xalqlar kimi, Azərbaycan xalqının da dövlət müstəqilliyinin bərpası üçün əlverişli imkan yaratdı. Bəzi mühafizəkar qüvvələrin müqavimətinə baxmayaraq, Respublikanın Ali Soveti 18 oktyabr 1991-ci il tarixində "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktı" qəbul etdi. Bununla da xalqımız 200 ilə yaxın davam etmiş müstəmləkəçilik əsarətindən xilas olaraq müstəqil milli dövlət quruculuğu dövrünə qədəm qoydu. Bərpa edilmiş müstəqillik milli mədəniyyətimizin inkişafı üçün də əlverişli imkan yaratdı.

Bununla belə, müstəqilliyin ilk illəri Azərbaycan xalqının tarixində əsl sınaq dövrünə çevrildi. Qarabağı işğal etmək istəyən ermənilərin xalqımızı müharibəyə sürükləməsi, keçmiş sovet respublikaları ilə iqtisadi əlaqələrin kəsilməsi ölkə iqtisadiyyatının çökməsinə, xalqın maddi rifah vəziyyətinin hədsiz dərəcədə pisləşməsinə gətirib çıxardı. O dövrkü respublika rəhbərliyinin səriştəsizliyi şəraitində hakimiyyət uğrunda mübarizənin kəskinləşməsi ölkədə vətəndaş müharibəsi şəraitinin yaranması təhlükəsini artırdı.

Müstəqilliyin ilk illərində ölkədə yaranmış xaos, anarxiya özünün mənfi təsirini mədəniyyət sahəsində də aydın şəkildə göstərirdi. Yaranmış ağır maddi durum mədəniyyət müəssisələrinin əksəriyyətinin fəaliyyətini iflic vəziyyətinə saldı. Ciddi maddi çətinliklərlə üzləşən mədəniyyət xadimlərinin bir çoxu ölkəni tərk etməyə məcbur oldu. Bir çox ali məktəblər, o cümlədən Bakı Musiqi Akademiyası özünün peşəkar kadrlarını itirdi.

Vəziyyət yalnız 1993-cü il iyunun 15-də Heydər Əliyevin ikinci dəfə Azərbaycan rəhbərliyinə gətirilməsindən sonra düzəlməyə başladı. Qısa müddət ərzində dövlət strukturlarında nizam-intizam bərpa edildi, vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı, iqtisadi islahatlara start verildi. 1993-cü il oktyabrın 3-də Azərbaycan prezidenti seçilən Heydər Əliyev deyirdi ki, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir. Əgər dövlət iqtisadi inkişafını düzgün və lazımi səviyyədə qurarsa, onda onun əhalisinin həyat səviyyəsi yaxşı olacaq və dövlət daima inkişaf edib çiçəklənəcək.

Milli dövlətin himayəsində olan millət dünyaya güclü iqtisadiyyatla yanaşı, həm də inkişaf etmiş mədəniyyəti və incəsənəti ilə tanınır. O, belə hesab edirdi ki, dövran nə qədər müasirləşsə də, millət öz keçmiş adət-ənənələrini, mədəniyyətini unutmamalı, əksinə, onu müasir dövrlə əlaqələndirib daha yüksək zirvələrə qaldırmalıdır [12, kitab 5, s.82, kitab 7, s.98; kitab 8, s.107, kitab 13, s.304].

Müstəqillik dövründə xalqımızın əsl ÜMUMMİLLİ LİDERinə çevrilən Heydər Əliyev milli mədəniyyətimizin inkişafına daha böyük diqqət və qayğı göstərməyə başlamışdı. O, mədəniyyət xadimlərinə böyük həssaslıqla yanaşır, onların bütün ehtiyaclarını ödəmək üçün əlindən gələni əsirgəmirdi. Heç də təsadüfi deyil ki, ölkə ictimaiyyəti onu yazıçı və şairlərin, kino və teatr xadimlərinin, təsviri incəsənət xadimlərinin, rəssam və heykəltəraşların böyük dostu və himayədarı kimi tanıyırdı.

Azərbaycan mədəniyyətinin vurğunu olan Heydər Əliyev onu yalnız ölkə daxilində deyil, səfər etdiyi bütün xarici ölkələrdə də dərin məhəbbətlə təbliğ edirdi. Bir çox rəsmi dövlət səfərlərinə elm, mədəniyyət və incəsənət xadimlərinin də cəlb edilməsi Azərbaycan mədəniyyətinin bütün dünyada tanınması məqsədinə xidmət edirdi.

Heydər Əliyevin Azərbaycan mədəniyyətinin inkişafına göstərdiyi qayğının miqyasını dərk etmək üçün onun dövründə bu sahəyə dair qəbul edilmiş qanun və sərəncamlara nəzər salmaq lazımdır.

1993-2003-cü illərdə Azərbaycanda mədəniyyətə aid qəbul edilmiş 17 qanun və sərəncam Heydər Əliyev tərəfindən verilmişdir [1, İ, c.3-182].

Qəbul edilmiş qanunlar mədəniyyət sahəsində yeni siyasətin formalaşmasında, mədəniyyətin maddi-texniki bazasının möhkəmləndirilməsində, böyüməkdə olan nəslin mədəniyyət yönümlü təhsilinin, mədəni-maarif işinin yüksək səviyyədə təşkilində, Azərbaycanın mədəni potensialının və irsinin, eləcə də bütün yaradıcılıq sisteminin qorunub saxlanılmasında, cəmiyyətin mədəni həyatının rəngarəngliyinin qorunub saxlanılmasında, incəsənətin bütün sahələrinin, o cümlədən bədii incəsənətin yalnız Bakıda deyil, bütün Azərbaycanda inkişafının təmin edilməsində, Azərbaycan mədəniyyətinin xarici ölkələrdə təbliğini təmin etmək üçün incəsənət xadimlərinin beynəlxalq əlaqələrinin yaradılmasında, yüksək mənəvi dəyərlər və etik normalar əsasında milli mədəniyyətə bağlı olan şəxsiyyətin yetişməsində, bütün Azərbaycanda yeni mədəniyyət ocaqlarının tikilməsində və mövcud olanların qorunub bərpa edilməsində mühüm rol oynamışlar.

Azərbaycan mədəniyyəti öz struktur sıralarında mədəniyyət şöbələrini, teatr-konsert müəssisələrini, kitabxanaları, muzeyləri, rəsm qalereyalarını, təhsil müəssisələrini və s. birləşdirir.

Dövlət mədəniyyət quruculuğunda əsas yeri teatr-konsert müəssisələri (Opera və Balet Teatrı, dram teatrları, Musiqili Komediya, Gənc Tamaşaçılar, Kukla, Mahnı, Muğam və s. teatrları) tutur. Bu sıraya həmçinin kitabxana müəssisələri (Milli kitabxana, Prezident kitabxanası, kütləvi, gənclər, uşaq, korlar, şəhər, rayon, kənd və s. kitabxanaları); muzeylər (Tarix, İncəsənət, Ədəbiyyat, xatirə muzeyləri və s.); rəsm qalereyaları və sərgi salonları (V.Səmədova adına, S.Bəhlulzadə adına Müasir incəsənət mərkəzi və s.); zoopark, mədəniyyət və incəsənətinin təbliği və yayımı müəssisələri və s. daxildir.

1993-2003-cü illərdə Azərbaycanda 36 teatr və Filarmoniya fəaliyyət göstərirdi.

Müstəqil Azərbaycan Respublikasında mədəniyyət strukturunda 28 teatr, 12 konsert müəssisəsi, 1 sirk, 1 sərgi salonu, 3966 kitabxana, 2703 klub, 169 dövlət muzeyi, 33 rəsm qalereyası və sərgi salonu, 21 dövlət qoruğu, 60 mədəniyyət və istirahət parkı, 1 zoopark, 4 asudə vaxt mərkəzi, 7 kinostudiya, 1 Dövlət Film Fondu, 4 ali təhsil ocağı, 2 kollec və 1 Xoreoqrafiya məktəbi fəaliyyət göstərir [1, x, s.166].

Beynəlxalq əlaqələrin inkişaf etdirilməsi Azərbaycan Respublikasında həyata keçirilən mədəniyyət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. 1993-2003-cü illərdə Azərbaycan Respublikasında qeyd olunmuş mühüm tarixi, siyasi və mədəni tədbirlər, habelə yaradılmış beynəlxalq əlaqələr Heydər Əliyevin adı ilə bağlıdır.

Təkcə onu göstərmək kifayətdir ki, bu illərdə respublikada 300-ə yaxın dövlət əhəmiyyətli tədbir keçirilmişdir. Azərbaycanın bədii-yaradıcı ziyalıları dünyanın müxtəlif ölkələrinə səfərlər etmiş, ölkə daxilində və xaricdə müxtəlif sənət sərgiləri təşkil edərək Azərbaycanı təmsil etmişlər.

Heydər Əliyevin əsl milli təəssübkeşliyi sayəsində Bakı az bir vaxt ərzində təkcə Azərbaycanın deyil, bir məşhur yazıçının təbirincə desək, bütün Qafqazın mədəniyyət paytaxtına çevrilmişdir.

Müstəqil dövlətimizin yeni formalaşdığı dövrdə onun sükanı arxasında duran Heydər Əliyev

mədəniyyətimizin yalnız dünəni və bu gününü deyil, həmçinin sabahını da düşünürdü.

Azərbaycan Respublikasının mədəni həyatında qazanılmış uğurlu nailiyyətlər bu gün Prezident İlham Əliyev və onun xanımı birinci Vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Arxivi. Hesabatlar (illik hesabatlar 1993-2003-cü illər)

a) 1993-cü il, s. 1-12.
b) 1994-cü il, s. 1-15.
c) 1995-ci il, s.1-16.
ç) 1996-cı il, s.1-15.
d) 1997-ci il, s.1-15.
e) 1998-ci il, s.1-17.
ə) 1999-cu il, s.1-23.
f) 2000-ci il, s.102-129.
g) 2001-ci il, s.1-58.
ğ) 2002-ci il, s.1-42.
h) 2003-cü il, s.1-76.
x) 2006-cı il, s.1-173.
i) Mədəniyyət fəaliyyətinə aid Qanunlar toplusu. Bakı, 2003-cü il (s.3-182).

2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. I kitab. Bakı, 1997; II kitab. Bakı, 1997; V kitab. Bakı, 1998; VI kitab. Bakı, 1998; VII kitab. Bakı, 1998; VIII kitab. Bakı, 1998; IX kitab. Bakı, 2000; X kitab. Aprel 1997 - may 1997, Bakı, 2002; XI kitab. Bakı, 2003; XIII kitab. Bakı, 2004.

УДК 323.1; 327.39

## Мультикультурализм как ресурс геополитического позиционирования Азербайджанского государства

*д.ф. по полит.наукам, доц. Нигяр Афияддин кызы Байрамова,*
*Академия Государственного Управления при Президенте Азербайджанской республики*

Конститутивными чертами глобализационных процессов становятся взаимосвязанность и взаимозависимость стран и народов, которые во многом определяются складывающимися в течение длительного времени культурно-национальными традициями, отражающими ценности различных социальных слоев и этнических общностей национального государства.

Самосознание народа, его самоопределение в политических ожиданиях не только влияют на конкретную политическую реальность, но и формируют фундаментальные принципы функционирования самого национального государства, во многом определяя в мировом общественном мнении оценку этого государства, как актора международных отношений. В этом смысле азербайджанская модель мультикультурализма, аккумулируя характерные составляющие политического наследия нашего общества, представляет не только социокультурный феномен. Мультикультурализм можно рассматривать как определенный компонент геополитического процесса в целом и эффективный ресурс геополитического позиционирования Азербайджанского государства. «Азербайджан расположен на стыке цивилизаций, культур и религий, - отмечает Президент Азербайджана Ильхам Алиев. - Мы находимся между Европой и Азией. Конечно, такое географическое

положение сыграло свою роль в культурном разнообразии Азербайджана. Представители всех культур, религий и этнических групп веками жили в Азербайджане в мире и достойных условиях, как одна семья. Мы гордимся тем, что в годы независимости эти позитивные тенденции еще более усилились». [1]

В эпоху глобализации главная задача международно-политического анализа в поиске новых, более эффективных путей и форм международного сотрудничества, что предполагает теоретическое переосмысление моделей мультикультурализма и их влияния как ресурса геополитического позиционирования национального государства. Современная турбулентность мировой политики, прогрессирующие каскадные кризисы экономики трансформируют классические геополитические парадигмы и позволяют создавать модель полицентричного мира через такую категорию как мультикультурализм. На наш взгляд, мультикультурализм можно определить, как материализованную предпосылку развития международных связей, что в свою очередь, позволяет характеризовать мультикультурализм как ресурс геополитического позиционирования.

На примере Азербайджана мы наблюдаем, что мультикультурализм отвечает стремлению суверенного государства создать либерально-демократический режим и формирует широкие возможности для национального государственного строительства. На наш взгляд, мультикультурализм может составлять привлекательный имидж государства как в одной системе международных отношений, так и охватывать сразу нескольких таких систем, не ограничиваясь сферой гуманитарного сотрудничества. Мультикультурализм позитивно влияет на отношения между странами, пронизывая собой практически все сферы мировой политики: от экономики, науки, культуры до международного права и глобальной безопасности.

Стабилизирующая роль мультикультурализма, как политического курса суверенного государства способствует построению многополярного мира, в рамках которого будет происходить сокращение геополитических рисков.

Закономерно, что объявление Президентом Азербайджана Ильхамом Алиевым 2016 год «Годом мультикультурализма» имело не только государственное, но и международное значение. В этой связи следует отметить, что в складывающейся полицентричной системе мировой политики возрастает роль гибких неблоковых механизмов и, соотвественно, высоко оцениваются «возможности страны в обеспечении благоприятного окружения, международного культурно-гуманитарного сотрудничества, нахождение параллельных интересов в целях преодоления общих проблем и решения общих задач». [2, с.10]

Мультикультурализм является, с одной стороны, показателем «мягкой силы», создающей достойный имидж Азербайджанского государства. С другой стороны, мультикультурализм как фактор, транслируемый через глобальные каналы политических, экономических и культурных коммуникаций, способствует формированию широкого международного партнерства Азербайджанского государства и его устойчивому геополитическому позиционированию в глобальном мировом порядке.

Представляя позитивную составляющую такого фактора как мультикультурализм, мы можем утверждать, что его целевое назначение выражено в сохранении ценностей прав и свобод человека как личности и как представителя нации или этнической общности. Мультикультурализм, формируясь в исторических рамках протекающих политических процессов, проходит через исторические этапы длительного закрепления и становится достоянием политического опыта национального государства. Потенциал мультикультурализма проявляется в продвижении инициатив по формированию ценностей толерантности и сотрудничества.

Таким образом, мультикультурализм, воздействуя на мировое общественное мнение, формирует правила, стандарты и стереотипы поведения, определяемые в современной западной теории международных отношений как «правила политической гуманитарной силы» [3].

**Использованная литература**

1. İlham Əliyev Bakıda III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında iştirak edib. https://president.az/articles/15172
2. Vuving A. How Soft Power Works. American Political Science Association annual meeting, Toronto. 2009. https://apcss.org/Publications/Vuving
3. Wright T. The problem of politics as a game. www/ise.ac.uk/politicsandpolicy/the-problem-of-politics-as-a-game

UOT 025.4

## Heydər Əliyev irsinə həsr olunmuş informasiya resurslarının Azərbaycan gəncliyinin inkişafında rolu

*tar. f.d., dos. Solmaz Azay qızı Sadıqova,*
*Bakı Dövlət Universiteti*

Ümummilli lider Heydər Əliyev irsinə həsr olunmuş informasiya resursları gənclərin inkişafında mühüm rol oynayır. Ulu öndər Heydər Əliyev deyirdi: “Gənclər bilməlidirlər ki, həyatda uğurla yaşamaq üçün xalqımızın, millətimizin milli-mənəvı dəyərlərinə sadiq olmaq lazımdır, bu mılli-mənəvi dəyərləri ümumbəşəri dəyərlərlə birləşdirib müasir həyat tərzi keçirmək lazımdır. Cürbəcür mənfi hallara uymaq lazım deyil.[8, s.56]

Biz dərk edirik ki, planetimizin ən dəyərli sərvəti insandır. Yer kürəsində hər şey insanların yaşaması, dünya nemətlərindən faydalanması və həm maddi, həm də mənəvi cəhətdən yüksək səviyyədə inkişafı üçündür. Təbiət də, yerin təki də, onun üstündə olan sərvətlər də, dövlət də insanlar və xalq üçündür. [8]

Ümummilli lider Heydər Əliyev irsinə həsr olunmuş informasiya resurslarından bəhs edərkən çap olunmuş ilkin sənədlərin mühüm rolunu qeyd etmək lazımdır. İlkin mənbələrdən Ümummilli lider Heydər Əliyevin “Müstəqilliyimiz əbədidir” çoxcildliyinin 46 cildini qeyd etmək lazımdır (1997-2013). “Azərnəşr” tərəfindən nəşr edilən “Heydər Əliyev. Müstəqilliyimiz əbədidir” çoxcildliyi dahi liderin zəngin siyasi irsini özündə cəmləşdirən, həm tarixiliyi, həm məzmun etibarilə müasir Azərbaycan kitabiyyatı tarixində ən qiymətli və sanballı külliyyat kimi diqqəti cəlb edir. [1]

İlkin sənəd nümunələrindən olan professor Zahid Qaralovun “İdeologiya və mənəviyyat” kitabı 484 səhifədən ibarət 2008-ci ildə “Hüquq ədəbiyyatı” nəşriyyatında çapdan buraxılmışdır. Müəllif, kitabı tarixi şəxsiyyət, böyük ideoloq, ictimai-siyasi xadim Heydər Əliyevin anadan olmasının 85 illiyinə ithaf etmişdir. [10]

Azərbaycan Respublikasının memarı və qurucusu olan Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin yeni nəslin tərbiyəsində göstərdiyi misilsiz xidmətlərini yaddaşlarda daimi yaşatmaq, Azərbaycan gəncliyinə verdiyi dəyərli tövsiyələrini təbliğ etməkdə “Heydər Əliyev: biblioqrafik məlumat kitabı”nın rolu çox böyükdür. [9]

Nəşr olunmuş kitablardan biri və demək olar ki, birincisi – müasir Azərbaycan Respublikasının memarı və qurucusu olan Ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevin 80 illik yubileyi münasibətilə yüksək poliqrafik səviyyədə çap olunmuş biblioqrafik məlumat kitabıdır.

Bakı Dövlət Universiteti Elmi Şurasının qərarı ilə ilk dəfə olaraq, “Dünyanın görkəmli dövlət xadimləri” seriyasından olan bu kitab müstəqil Azərbaycan dövlətçiliyinin inkişafında və möhkəmləndirilməsində misilsiz rolu olan Heydər Əliyev irsinin biblioqrafiyalaşdırılması sahəsində atılan ilk addımdır. 434 səhifləik Azərbaycan dilində [2], 446 səhifəlik rus dilində [3], 455 səhifəlik ingilis dilində [4] çap olunmuşdur. Kitabın tərtibçi-müəllifləri əməkdar elm xadimi, Bakı Dövlət Universitetinin fəxri professoru Abuzər Xələfov və biblioqrafiyaşünaslıq kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Solmaz Sadıqovadır.

Tərtibçi-müəlliflərin araşdırmaları nəticəsində məlum olmuşdur ki, 1969-2003-cü illər ərzində Heydər Əliyevin 209 adda kitabı nəşr edilmişdir. Onlardan 118-i Azərbaycan, 83-ü rus, qalanları isə müxtəlif xarici dillərdədir. Müstəqillik dövründə Azərbaycan dilində çap olunmuş 50 adda kitabın 16-nı çoxcildli əsərlər təşkil edir. “Heydər Əliyev şəxsiyyəti” adlanan birinci hissədə Azərbaycan Prezidentinin həyat və fəaliyyətinin qısa salnaməsi verilmişdir. Bu müdrik insanın siyasət, iqtisadiyyat, elm, təhsil, mədəniyyət, incəsənət, ədəbiyyat, həmçinin, ayrı-ayrı görkəmli şəxsiyyətlər haqqında söylədiyi fikirləri özündə əks etdirən “Heydər Əliyevin fikir dünyasından seçmələr” bölməsində öz əksini tapmışdır. Biblioqrafik məlumat kitabının ikinci hissəsi “Heydər Əliyevin kitab şəklində nəşr edilmiş əsərləri” adlanır.

Sovetlər birliyi dövründə “Azərbaycanın tərəqqisi və inkişafına yönəlmiş siyasət (1969-1990-cı illər)” bölməsində verilmiş kitabları izlədikdə məlum olur ki, hələ o dövrdə, 1977-ci il avqustun 27-də Heydər Əliyev Bakının ali məktəb tələbələrinin nümayəndələri ilə, Moskvanın, Leninqradın və digər şəhərlərin ali məktəblərində təhsil alan azərbaycanlılarla, respublikanın fəalları ilə görüşündə nitq söyləmişdir.

1978-ci il mayın 18-də Azərbaycan müəllimlərinin VI qurultayındakı nitqi; 1979-cu il aprelin 25-də “Fəal həyat mövqeyinin formalaşdırılması: Mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri: Ümumittifaq elmi-praktik konfransda məruzə”; 1979-cu il iyulun 17-də “İdeoloji işi və siyasi tərbiyə işini daha da yaxşılaşdırmaq haqqında”; “Vicdanımızın normaları ilə”; 1980-ci il mayın 28-də Azərbaycan ali məktəblərinin işini partiyanın yüksək tələbləri səviyyəsinə qaldıraq: Ali məktəb işçilərinin respublika müşavirəsində nitqi; Xalqların dostluğu ədəbiyyatların dostluğudur; Yazıçıların ümumittifaq yaradıcılıq konfransında məruzə; 1981-ci il sentyabrın 3-də “Gənclərin birlik, dostluq və əməkdaşlığının möhkəmləndirilməsi, sülh və sosial tərəqqi uğrunda” “Gənclər, inkişaf və sülh” mövzusunda Beynəlxalq gənclər konfransında nitq söyləmişdir. Hələ o dövrdə “Qoy ədalət zəfər çalsın” sərlövhəli kitabı daha çox diqqəti cəlb edir. “Gənclərin əmək, əxlaq və ideya siyasi tərbiyəsini hər vasitə ilə gücləndirməli” və s. belə mənbələri daha da artırmaq olar. [2]

Heydər Əliyev irsini təbliğ etməkdə “Müstəqilliyimiz əbədidir” çoxcildliyindən istifadəni asanlaşdırmaq üçün bu fundamental külliyyata ayrı-ayrılıqda 3 biblioqrafik göstərici M.F.Axundov adına Milli Kitabxana tərəfindən çap olunmuşdur. “Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: (Çoxcildliyin I-IX cildlərinin köməkçi aparatı), (Qeydlər, mövzu, coğrafi və şəxsi adlar göstəricisi)” 2008-ci ildə 339 səhifədən ibarət çap olunmuşdur. [5]

Respublika ictimaiyyətinin, müəllimlərin, dövlət qulluqçularının və tədqiqat aparan bütün aparıcı mütəxəssislərin bu kitaba olan böyük tələbatı və marağı nəzərə alınaraq, Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə M.F.Axundov adına Milli Kitabxana tərəfindən çoxcildliyin 1-9-cu cildlərinin (qeydlər, mövzu, şəxsi və coğrafi adlar göstəricisi) köməkçi göstəricisi tərtib edilmişdir. “Şəxsi adlar göstəricisi”ndə şəxslərin soyadları, coğrafi adlar göstəricisində isə şəhər, ölkə, liman, çay, dəniz və s. cografi adlar əlifba ardıcıllığı ilə verilmişdir. İnformasiya tələbatçılarının məlumatını artırmaq məqsədilə göstəricinin “Qeydlər” bölməsində çoxcildlikdə adları cəkilən bir sıra dövlət və ictimai xadimlər, müxtəlif təşkilat və şirkətlərin başçıları, əhəmiyyətli neft müqavilələri, assosiasiyalar və s. haqqında ətraflı informasiya verilmişdir. Onu da qeyd edək ki, göstəricinin qeyd hissəsində adları verilən şəxslərin tutduqları vəzifələr çoxcildliyin çap olunduğu dövrə uyğun göstərilmişdir.

Mövzu göstəricisinə gəldikdə isə göstəricinin müxtəlif cildlərində gedən eyni mövzular bir rubrika altında əlifba ardıcıllığı ilə əks olunmuşdur. Göstəricidən istifadəni asanlaşdırmaq məqsədi ilə çoxcildliyin cildləri qara hərflərlə göstərilmiş və onların qarşısında müvafiq səhifələr verilmişdir. 478 mənbə daxilində qeydlər verilmişdir. Həmin qeydlər əlifba prinsipi əsasında düzülmüşdür. Burada Ümummilli liderin əsərlərindən irəli gələn bir sıra mövzulara həsr olunmuş mənbələr açıqlanmışdır.

Haqqında bəhs etdiyimiz göstəricinin davamı olan “Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: Çoxcildliyin X-XXVIII cildlərinin köməkçi göstəricisi: (Qeydlər, şəxsi və coğrafi adlar göstəriciləri)” Biblioqrafik göstərici 2010-ci ildə 512 səhifədən ibarət çap olunmuşdur. [6]

M.F.Axundov adına Milli Kitabxana tərəfindən hazırlanan bu vəsait Ümummilli lider Heydər Əliyev irsini araşdıran oxucuların və mütəxəssislərin “Müstəqilliyimiz əbədidir” çoxcildliyinin X-XXVIII cildlərindən istifadəni asanlaşdırmaq məqsədilə tərtib olunmuşdur.Vəsaitdə çoxcildliyin mətnində verilən qeydlər, şəxsi və coğrafi adlar əlifba sırası ilə qruplaşdırılaraq ayrı-ayrı cildlərdə gedən materiallar bir kitabda toplanmışdır. 1515 adda mənbə öz əksini tapmışdır. Birinci göstəricidən fərqli olaraq, burada “Mövzu göstəricisi” verməyi məqsədəuyğun hesab etməmişlər, “Şəxsi adlar göstəricisi”, “Coğrafi adlar göstəricisi” ilə kifayətlənmişlər.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Çoxcildliyin XXIX-XXXXII cildlərinin köməkçi göstəricisi: (Qeydlər, şəxsi və coğrafi adlar göstəricisi) 2013-cü ildə işıq üzü görmüşdür. [6] 1346 mənbəni əhatə edən biblioqrafik resursun eyni zamanda hər üç biblioqrafik göstəricinin, eləcə də haqqında bəhs etdiyimiz informasiya nəşrlərinin Elektron Məlumat Bazası da oxucuların istifadəsinə verilmişdir. Ulu öndər Heydər Əliyev irsinin tədqiqi və təbliği istiqamətində aparılan işlər inkişaf etdikcə bu qəbildən olan nəşrlərin də sayı artacaqdır.

M.F.Axundov adına Milli Kitabxana tərəfindən hazırlanan bu vəsait Ümummilli lider Heydər Əliyev irsini araşdıran oxucuların və mütəxəssislərin “Müstəqilliyimiz əbədidir” çoxcildliyinin XXIX-XXXXII cildlərindən istifadəni asanlaşdırmaq məqsədilə tərtib olunmuşdur. Vəsaitdə çoxcildliyin mətnində verilən qeydlər, şəxsi və coğrafi adlar əlifba sırası ilə qruplaşdırılaraq ayrı-ayrı cildlərdə gedən materiallar bir kitabda toplanmışdır. Milli Kitabxana bu təşəbbüsü davam etdirərək Ulu öndərin 90 illik yubileyi münasibətilə çoxcildliyin XXIX-XXXXII cildlərinin də köməkçi göstəricisini (qeydlər, şəxsi adlar və coğrafi adlar) hazırlamışdır. Mütəxəssisləri məlumatlandırmaq məqsədilə “Qeydlər” bölməsində coğrafi və şəxsi adlar göstəricilərində gedən bir çox məfhumların izahlı açılışı verilmişdir. Habelə göstəricinin “Qeydlər” bölməsində adları verilən şəxslərin vəzifələri çoxcildliyin çap olunduğu dövrə uyğun göstərilmişdir.

“Şəxsi adlar göstəricisi”ndə şəxslərin adları və soyadları, “Coğrafi adlar göstəricisi”ndə isə şəhər, ölkə, liman, çay, dəniz və s. coğrafi adlar əlifba ardıcıllığı ilə verilmiş, bütün cildlərdə olan bu məfhumlar bir kitabda toplanmış, ayrı-ayrı cildlərdə gedən materiallara isnadlar verilmişdir. Göstəricidən istifadəni asanlaşdırmaq məqsədilə çoxcildliyin cildləri qara hərflərlə göstərilmiş və onların qarşısında müvafiq səhifələr verilmişdir.

23062 səhifə və 1441,3 çap vərəqi həcmində olan 46 cilddən ibarət “Müstəqilliyimiz əbədidir” çoxcildliyi və Ulu öndər Heydər Əliyevə həsr olunmuş biblioqrafik informasiya resursları Azərbaycan gəncliyinin inkişafında mühüm rol oynayır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Heydər Əliyev Müstəqilliyimiz əbədidir: 1-46 cild. Bakı: Azərnəşr, 1997-2013

2. Heydər Əliyev: Biblioqrafik məlumat kitabı / Tərtib edənlər: A.A.Xələfov, S.A.Sadıqova. Bakı: BUN, 2003, 434 s.

3. Гейдар Алиев: Библиографический справочник / Составители: А.А.Халафов, С.А.Садыгова. Баку: Изд-во Бакинского гос.ун-та, 2003, 446 с.

4. Heydar Aliyev: Bibliographic reference book / Compilers: A.A.Khalafov, S.A.Sadigova. Baku: Baku University Press, 2003, 455 p.

5. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: (Çoxcildliyin I-IX cildlərinin köməkçi aparatı) Ümummilli lider Heydər Əliyevin anadan olmasının 85 illiyinə həsr olunur. Bakı, 2008, 339 s.

6. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Çoxcildliyin X-XXVIII cildlərinin köməkçi göstəricisi: (Qeydlər, şəxsi və coğrafi adlar göstəriciləri) // Layihənin rəhbəri. Ə.Qarayev; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, M.F.Axundov ad. Azərb. Milli Kitabxana. Bakı: M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2010, 509 s.

7. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Çoxcildliyin XXIX-XXXXII cildlərinin köməkçi göstəricisi: (Qeydlər, şəxsi və coğrafi adlar göstəricisi) Azərbaycan xalqının Ümummilli lideri

Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunur / M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. Bakı, 2013, 448 s.

8. Heydər Əliyev: biblioqrafiya / Layihə rəhb. Ə.Qarayev; tərt. ed.: M.Vəliyeva, M.İbrahimova, A.Hüseynova. Bakı, 2018, 680 s.

9. Sadıqova S.A. Gənclərin milli ruhda tərbiyə olunmasında “Heydər Əliyev: biblioqrafik məlumat kitabı”nın əhəmiyyəti // Kitabxanaşünaslıq və biblioqrafiya, 2006, №1, s.76-84

10. Sadigova S.A. İnitial resources on socio-political information // European Journal of Humatities and Social Sciences. Austria, Vienna, 2018, №6, pp.60-62 http://ppublishing.org/upload/iblock/404/EJH-6_2018-cor4.pdf

11. https://az.wikipedia.org/wiki/M%C3%BCst%C9%99qilliyimiz_%C9%99b%C9%99didir

UOT 330.34; 330.35

## Müasir güclü və çoxşaxəli iqtisadiyyat – Ümummilli lider Heydər Əliyevin iqtisadi strategiyasının davamıdır

*tar.f.d., dos. Naibə Əhmədağa qızı Əhmədova,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Vətən müharibəsində qələbəmizi təmin edən əsas amillərdən biri kimi, Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyası Ümummilli lider Heydər Əliyevin iqtisadi strategiyasının davamıdır. Bu strategiyanın əsas istiqamətləri: iqtisadi gücdən Dağlıq Qarabağ probleminin həllində təsirli vasitə kimi istifadə etmək, dövlət idarəçiliyinin prinsipləri və institusional islahatlar, Azərbaycanın neft sektorunun inkişafının davamı ilə yanaşı neft və qeyri-neft sektorunun əlaqələndirilməsi, iqtisadiyyatın şaxələnməsi və inkişafı, regionların inkişafı, ərzaq təhlükəsizliyi və aqrar sahədə dövlət siyasəti, əhalinin məşğulluğunun təmin edilməsi, sahibkarlığın inkişafı, yoxsulluğun azaldılması və iqtisadi ideoloji təbliğat işi idi. Prezident “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri” haqqında 2003-cü il 24 noyabr tarixli Fərmanı ilə hökümətin iqtisadi blokuna ilk tapşırıqlarını verdi. Fərmanda əks olunan məsələlər məzmun və xarakterinə görə 5 əsas blok üzrə qruplaşdırılmışdır: institusional (idarəçilik), sosial, sənaye, sahibkarlığın inkişafı, bazar mühitinin yaxşılaşdırılması, dövlət maliyyə sisteminin təkmilləşdirilməsi.

2003-2018-ci illərdə 201 proqram xarakterli sənəd, o cümlədən 12 Konsepsiya, 12 Milli Strategiya, 12 Strateji Yol Xəritəsi, 94 Dövlət Proqramı, 10 Milli Fəaliyyət Planı, 23 Tədbirlər Planı, 21 Tədbirlər Proqramı, 17 Milli Plan və Milli Proqramlar qəbul edildi. Əvvəlki iki əsrdə olduğu kimi, XXI əsrin əvvəllərində də Azərbaycan iqtisadiyyatının əsasını neft sənayesi təşkil edirdi. Mütəxəssislərin hesablamasına görə, ölkəmizdə neftlə zəngin 57 yataq mövcuddur ki, bunun da 18-i Xəzər dənizinin Azərbaycana aid olan hissəsindədir. Xəzər dənizi hövzəsində karbohidrogen ehtiyatlarının 30 milyard ton neft və 17-20 trilyon kub metr həcmində qaz ehtiyatı təşkil edir. Xəzər hövzəsinin Azərbaycana aid olan hissəsində 3-5 milyard ton neft, 5 trilyon kub metr həcmində qaz ehtiyatı mövcuddur. Xəzərin “Şahdəniz” yatağında təbii qaz ehtiyatı 1 trilyon kub metrdən, kondensatnt ehtiyatı 300 milyon tondan çoxdur.

2005-ci ilin fevralında Xəzərdə “Azəri-Çıraq-Günəşli” yataqlarında ilkin neft çıxarılmışdır. 2010-cu ildə “Azəri-Çıraq-Günəşli” layihəsi üzrə neft hasilatında ən rekord nəticə qazanıldı, 54.9 mln.ton neft çıxarıldı. 2017-ci ilin 8 noyabrında Bakıda Heydər Əliyev Mərkəzində 2 milyardıncı ton Azərbaycan nefti çıxarılması münasibətilə böyük tədbir keçirildi. 2019-cu il ərzində respublikamızda 37.5 mln.ton xam neft hasil edilmişdir.

2019-cu ildə respublikamızda əsas dövlət şirkəti – SOCAR öz neft və qaz hasilatını sabitləşdirməyə nail olmuşdur. Ölkə üzrə ümumi qaz hasilatı 2018-ci illə müqayisədə 2019-cu ildə

təqribən 17 % artaraq, 35.6 milyard kub metrə çatmışdır. SOCAR birbaşa özünün istismar etdiyi yataqlarda neft hasilatını sabitləşdirməyə nail olsa da, başqa əməliyyatçı şirkətlərin göstəriciləri də daxil olmaqla, ümumilikdə, 2019-cu ildə Azərbaycan üzrə neft hasilatının azalması davam etmişdir. Təbii azalma 2010-cu ildən sonra, əsasən, beynəlxalq konsersium tərəfindən istismar edilən Azəri-Çıraq-Dərinsulu Günəşli yataqlarında müşahidə olunur. Azərbaycan neft-qaz istehsal edən ölkədən neft-qaz ixrac edən ölkəyə çevrildi.

2002-ci il sentyabrın 18-də Səngəçalda əsası qoyulmuş Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixac boru kəmərinin 2003-cü il mayın 23-də Gürcüstan hissəsinin təməli qoyuldu. 2005-ci il mayın 25-də BTC-nin Azərbaycan, oktyabrın 13-də isə Gürcüstan hissələrinin doldurulması başa çatdırıldı.

2006-cı il iyulun 13-də Azərbaycan, Gürcüstan, Türkiyə liderlərinin iştirakı ilə kəmərin Türkiyə hissəsinin açılışı oldu. Yalnız Azərbaycanın deyil, dünya iqtisadiyyatının inkişafı üçün böyük əhəmiyyəti olan BTC boru kəməri Türkiyə və Avropanın enerji təhlükəsizliyi sisteminin ayrılmaz hissəsinə çevrildi.

2007-ci il iyulun 3-də "Şahdəniz" qazı Bakı-Tbilisi-Ərzurum marşrutu üzrə Cənubi Qafqaz boru kəməri vasitəsilə Türkiyənn qaz kəmərləri sisteminə daxil oldu. Azərbaycan qazının Avropaya çatdırlmasında Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) layihəsi üzrə Azərbaycanla Türkiyə arasında sazişlər imzalandı (2011-2012).

Trans-Adriartik Qaz Boru Kəməri (TAP) layihəsi Azərbaycanın Xəzər dənizindəki "Şahdəniz-2" yatağından çıxarılan qazın Yunanıstan və Albaniya vasitəsilə Adriatik dənizinin dibindən keçməklə İtaliya və Qərbi Avropa ölkələrinə nəqli nəzərdə tutulurdu.

2019-cu ilin noyabrında TANAP istifadəyə verildi. TANAP Cənub Qaz Dəhlizinin əsas hissəsidir. Cənub Qaz Dəhlizi 4 layihədən ibarətdir və onlardan 3-ü "Şahdəniz-2" layihəsi çərçivəsində hasil olunan qazın, ilkin olaraq, ildə 10 milyard kub metrinin Avropaya nəqli nəzərdə tutulur. "Cənubi Qafqaz Qaz" kəməri və "TANAP" artıq reallığa çevrildi. 4-cü layihə olan TAP kəməri noyabr 2020-ci ildə tamamlandı və ticarət fəaliyyətinə başladı.

Azərbaycan üçün mühüm önəm daşıyan infrastruktur layihələri sırasında Avropanın ən böyük infrastruktur layihələrindən olan "Cənub Qaz Dəhlizi"nin reallaşması mühüm yer tutur. Bu layihənin ilkin mərhələsi olan "Şahdəniz-2" artıq yekunlaşmaq üzrədir. Cənub Qaz Dəhlizinin əsas hissəsini TANAP təşkil edir. Hazırda dünya siyasətinin aktual məsələlərindən biri enerji təhlükəsizliyidir. Xüsusən Avropa ölkələri son illər öz enerji təhlükəsizliklərini təkmilləşdirməyə və gücləndirməyə ehtiyac duyur. Xəzərdə hasil olunan təbii qazın Avropa ölkələrinə çatdırılmasında Avropa İttifaqı (Aİ) böyük maraq göstərir. Aİ-nin bu sahədə əməkdaşlıq etdiyi əsas ölkə Azərbaycandır. 2006-cı ilin noyabrında Brüsseldə imzalanmış "Azərbaycan Respublikası və Aİ arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumu", 2008-ci ilin noyabrında imzalanmış "Bakı Bəyannaməsi"nin müddəaları və 2009-cu ilin mayında Praqa Zirvə Görüşünün Müvafiq Enerji Bəyannaməsində təsbit olunmuş Azərbaycan-Aİ enerji münasibətlərinin vacibliyi bunları təsdiq edirdi. Qeyd olunanların nəticəsi kimi, 2011-ci il yanvarın 13-də Bakıda Aİ ilə "Cənub Qaz Dəhlizi haqqında Birgə Bəyannamə" imzalandı. Cənub Qaz Dəhlizini istifadəyə vermək üçün Şahdəniz qaz yatağınını 2-ci mərhələsinin işlənməsinə başlanmalı, mövcud qaz kəmərləri genişləndirilməli, Türkiyə və Avropa ölkələrinin ərazisində yeni qaz kəmərləri çəkilməli idi.

Cənub Qaz Dəhlizinin bütün komponentlərinin reallaşdırılması üzrə beynəlxalq razılaşmalar əldə olundu. 2012-ci il iyunun 26-da Azərbaycan hökuməti ilə Türkiyə hökuməti arasında Trans-Anadolu təbii qaz boru kəməri (TANAP) sisteminə dair saziş imzalandı və hər iki dövlətin qanunverici orqanları həmin sazişi ratifikasiya etdilər. 2013-cü il iyunun 30-da isə Trans-Adriartik boru kəməri layihəsi üzrə beynəlxalq saziş, 2013-cü il dekabrın 17-də isə Şahdəniz yatağının 2-ci mərhələsi üzrə beynəlxalq müqavilə imzalandı. Hələ 2015-ci il noybarın 15-də Prezident İlham Əliyev "Böyük İyirmiliy"in (G-20) Antalya Sammiti çərçivəsində keçirilən iclasdakı çıxışında "Cənub Qaz Dəhlizi" layihəsinin Avropanın enerji təhlükəsizliyinin təmin olunması işində önəminə toxunmuşdur. O demişdir: "XXI əsrdə biz Cənub Qaz Dəhlizi layihəsini həyata keçirdik. Bu layihə

Azərbaycanın və Türkiyənin fəal iştirakı ilə reallaşır. Mən Türkiyə və Azərbaycanı, Xəzər və Aralıq dənizlərini birləşdirən layihəni nəzərdə tuturam. Bu, tarixdə ilk hadisədir".

2018-ci il iyunun 12-də Cənub Qaz Dəhlizinin Türkiyə hissəsi olan TANAP-ın Eskişəhərdə rəsmi açılış mərasimi oldu. TAP-ın tam başa çatmasından sonra isə daha 20 milyard kub metr qaz Avropaya nəql edildi.

"Əsrin müqaviləsi"nin müddəti 2017-ci ildən 2050-ci ilə qədər uzaldıldı. Bu müqavilə üzrə istismar olunan "Azəri-Çıraq-Günəşli"neft yatağında çoxlu neft ehtiyatının olduğunu göstərir.

"Cənub Qaz Dəhlizi" layihəsinin reallaşdırılmasının səbəbi Azərbaycanın həyata keçirdiyi uğurlu siyasi-diplomatik fəaliyyətidir. Bu cür layihələrin həyata keçirilməsi Azərbaycanı regionun lider dövlətinə çevirmişdir, beynəlxalq aləmdə ölkəmizi etibarlı tərəfdaş kimi tanıtmışdır.

"Cənub Qaz Dəhlizi"nin reallaşmasına ABŞ və Böyük Britaniya dövlətləri güclü dəstək vermişlər. "Cənub Qaz Dəhlizi" layihəsinin gerçəkləşməsi ilə Azərbaycan dünyada gedən iqtisadi və siyasi proseslərə daha fəal cəlb olundu. "Cənub Qaz Dəhlizi"nin başa çatdırılması enerji məsələlərində Azərbaycanın mühüm siyasi-diplomatik qələbəsidir.

"Şahdəniz-2" yatağında çıxarılacaq qazı Avropadakı istehlakçılara çatdırmaq üçün bu dəhliz boyu üç böyük kəmər bir-birinə calanaraq vahid sistem yaradacaq. Bunlar CQBK (Cənubi Qafqaz Boru Kəməri), TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP (Trans-Adriatik Qaz Boru Kəməri). Cənubi Qafqaz Boru Kəməri (CQBK) Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" qaz yatağından çıxarılan qazı Gürcüstana və Türkiyəyə ötürmək üçün inşa edilən kəmərdir. Boru kəməri Bakıda Səngəçal terminalından başlayır. Kəmər Türkiyə sərhədinədək Azərbaycanda və Gürcüstanda Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə eyni marşurutdadır və Türkiyədə bu ölkənin qazpaylayıcı sisteminə birləşdirilib.

XXI əsrin ən mühüm iqtisadi layihələrindən biri olan Bakı-Tbilisi-Qars dəmir yolu artıq layihədən reallığa çevrilib. Bu layihənin reallaşdırılması Azərbaycanı regionda tranzit daşımaların mərkəzi kimi tanıdır. 2017-ci il oktyabrın 30-da Bakı-Tbilisi-Qars dəmir yolunun təntənəli açılış mərasimi reallaşdı. Ümumi uzunluğu 846 kilometr olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin 504 kilometrlik hissəsi Azərbaycanın ərazisinə düşür. Dəmir yolu xəttinin 263 kilometri Gürcüstandan keçir. Yolun 79 kilometri isə Türkiyə ərazisindədir.

Bölgə dövlətləri – Azərbaycan, Türkiyə və Gürcüstanın iqtisadiyyatları qarşılıqlı faydalı əməkdaşlıq şəraitində inkişaf etdikcə, Ermənistan bu proseslərdən kənarda qalmalı olur. Ermənistanın xaricə çıxışını təmin edən başlıca dəmir yolu xətləri Azərbaycanla bağlıdır ki, bunlar da onun respublikamıza mühüm təcavüzü nəticəsində qapanmışdır. Mənfur qonşularımız xaricə çıxış imkanı qazanmaq üçün əsasən iki istiqamətdə səy göstərirlər. Birincisi, 2007-ci ildə bəyənilmiş Ermənistan-İran dəmir yolunun tikintisi layihəsidir. Orta hesabla 500 kilometr uzunluğunda olan dəmiryolu xəttinin (420 kilometri Ermənistan, 80 kilometri İran) çəkiliş layihəsinin investisiya təminatı 2 milyard ABŞ dolları həcmində hesablanır. Lakin layihənin reallaşması üçün tələb olunan maliyyə demək olar ki, Ermənistanın hazırkı dövlət büdcəsi qədərdir ki, bu da onun imkanları daxilində deyildir. Qəsbkar mövqe bu ölkəni özünü qapanmaya sövq edərək uçuruma yuvarladır.

Sahibkarlığın inkişafı dövlətin sosial-iqtisadi siyasətinin mühüm istiqamətlərindən biri idi. Bazar iqtisadiyyatı və sahibkarlığın inkişafına diqqət nəticəsində özəl sektorun inkişafı və xüsusi mülkiyyətçilik münasibətləri dərinləşdi.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan tarixi. Yeddi cilddə, VII cild. Bakı: Elm, 2003
2. Əliyev İ. Cənub Qaz Dəhliz enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir. 11 fevral 2021. report.az
3. Məsimov A. BP – Azərbaycan şirkətinin yaranması və fəaliyyəti. Bakı, 2018
4. Məsimov A. Neft-qaz istehsalı və ixracında BP–Azərbaycan Beynəlxalq əməliyyat şirkətinin rolu. Bakı, 2020

UOT 356/359(091); 356/359:93/94; 355.4

# Zəfərlər Ordusu

*tar.f.d., dos. Zakir Hafis oğlu Kərimov,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Azərbaycan Milli Ordusunun yaradılmasını zəruri edən amillər:

- Dağlıq Qarabağda sepatizmin alovlanması, Ermənistanın Azərbaycana qarşı aqressiyasının güclənməsi;
- SSRİ rəhbərliyinin – M.S.Qorbaçov hökumətinin sovet qanunlarına müvafiq olaraq, Azərbaycan xalqının təhlükəsizliyinin qarantı vəzifəsini yerinə yetirmək əvəzinə seperatizmi dəstəkləməsi və Ermənistanı müdafiə və himayə etməsi;
- Rusiya Federasiyası Prezidenti B.Yeltsin hökumətinin beynəlxalq hüquq normalarını pozaraq, bu siyasəti davam etdirməsi, erməniləri silahlandırması, atəşkəs dövründə yalnız 1994-1996-cı illərdə Ermənistana 1 milyard dollardan artıq silah-sursat verməsi [2, s.494];
- daxili asayişin təmini;
- Azərbaycan Milli Ordusunun təşkili üçün hüquqi bazanın yaradılması;
- Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 9 oktyabr tarixli "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" Qanununun qəbulu;
- Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 18 oktyabr tarixli "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı";
- 1992-çi il 25 mart, "Azərbaycan Respublikası Milli Qəhrəmanı" adının təsis olunması haqqında Respublika Ali Sovetinin qərarı;
- 1992-ci il 25 may, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin zabit icları haqqında" Əsasnamənin qüvvəyə minməsi [2, s.484];
- 1992-ci il iyun, Milli Orduda yazışmaların Azərbaycan dilində aparılmasına milli atributların tətbiqinə başlanması, hərbi hıssə və birləşmələrin təşkilinin yalnız Müdafiə Nzirliyinin səlahiyyətinə aid edilməsi, paralel sturukturların yaradılmasının qadağan edilməsi;
- 1992-ci il 26 iyun Milli Ordu günün təsisi;
- Respublika Prezidentinin 1992-çi il 27 iyun tarixli fərmanı ilə Müdafiə Nazirliyində vahid komandanlıq yaradılması [2, s.484];
- Ümummilli lider Heydər Əliyevin Prezidentliyi (1993-2003) dövründə ordu quruculuğu sahəsində təşkilati tədbirlərin gücləndirilməsi [1, s.355-360];
- Dövlət Müdafiə Şurasının yaradılması haqqında Prezidentin 1993-cü il 1 noyabr tarixli Fərmanı;
- Beyləqan istiqamətində düşmənin dəf olunması və Füzuli rayonun bəzi yaşayış məntəqələrinin azad olunması (1993-1994);
- peşəkar milli hərbi kadr hazırlığı:
- Bakı Ali Ümumqoşun və Bakı Ali Dənizçilik məktəbinin Müdafiə Nazirliyinin sərəncamına verilməsi;
- Ali Hərbi Təyyarəçilik məktəbinin yaradılması;
- Sərhəd Qoşunları,Daxili Qoşunlar, Milli Təhlükəsizlik Nazirliyinin və.s akademiyalarının təşkili;
- kiçik və orta rütbəli hərbçi kadr hazırlığı;
- C.Naxçıvanski adına Respublika Orta Hərbi internat məktəbinin Naxçıvan filialının açılışı;
- qardaş Türkiyə və digər dövlətlərdə milli hərbi kadrlar hazırlığı;
- ordunun təşkili və maddi-texniki təchizatı;
- milli ordu quruculuğu;
- Hərbi Hava, Hərbi Dəniz Qüvvələri və Sərhəd Qoşunlarının təşkili;
- respublika hərbi büdcəsinin ildən-ilə artırılması;

- silah-sursat və hərbi texnika ilə təchizat sahəsində xaricdən asılılığı azaltmaq üçün milli hərbi sənaye sahəsinin yaradılması, yüzlərlə adda silah-sursat və hərbi ləvazimat istesalı;

- Müdafiə Sənayesi Nazirliyinin təşkili (2005);

Azərbaycan Ordusunun zəfərləri:

- Ordumuzun 2016-cı il Aprel qələbəsi;

- Ermənistan və havadarlarının Tovuz təxribatları (iyul, 2020);

- Rusiya Fedarasiyası, İran, bir sıra ərəb və Avropa dövlətlərinin Ermənistanı daha da militaristləşdirməsi;

- Ermənistan və Dağlıq Qarabağ seperatçılarının Qarabağ bölgəsində təmas xəttində atəşkəsi pozması, Ordumuzun əks-zərbələri, II Qarabağ müharibəsinin başlanması" (27 sentyabr 2020 – 10 noyabr 2020), "Dəmir yumruq" hərbi planı [3];

- Azərbycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müharibə dövründə hərbi, diplomatik və informasiya cəbhəsində rəhbərlik və təşkilatçılıq fəaliyyəti;

- Ordumuzun üç istiqamətdə: şimal-şərq, cənub-şərq, mərkəz istiqamətində əməliyyatları;

- şimal-şərq istiqamətində – Murovdağ əməlıyyatı;

- Suqovuşan döyüşü: 2020-ci il 27 sentyabr – 3 oktyabr, şimal-şərq cəbhəsində ordumuzun ən əhəmiyyətli döyüşü, Suqovuşan (Madagiz) və Talış kəndlərinin düşməndən azad olunması;

- "Suqovuşanın azad olunmasına görə" medalın təsisi haqqında 26 noyabr 2020-ci il tarixli Sərəncam və qəhrəman döyüşçülərimizin bu medalla təltifi haqqında 29 dekabr 2020-cı il tarixli Sərəncam;

- Arazboyu əməliyyat (2020-ci il 27 sentyabr–22 oktyabr):

- Azərbaycan Ordusunun cəbhənin cənub-şərq hissəsində sürətli əks-hücumunun nəticələri;

- Füzuli əməliyyatı (27 sentyabr–17 oktyabr 2020-ci il)

- Ermənistan hərbi qüvvələrinin Lələtəpə istiqamətində ikinci dəfə darmadağın edilməsi, 650 nəfər hərbçisini və 44 tankdan 42-ni itirməsi;

- bu məğlubiyyətin düşmən qüvvələrinin Cəbrayıl ərazisindəki hərbi hissələrini, Xocalı və Xocavənddəki tank bölüklərini ağır duruma salması;

- Ordumuzun ermənilərin alınmaz hesab etdikləri "Ohanyan xətti"nin Horadiz kəndində yarması;

- Füzuli şəhərinin düşməndən azad olunması [6];

- "Füzulinin azad olunmasına görə" medalın təsisi haqqında 2020-ci il 26 noyabr tarixli Sərəncam, 2020-ci il 25dekabr tarixli sərəcamla ilkin mərhələdə 13345 qəhraman döyuşçümüzün bu medalla tətif edilməsi;

- Cəbrayıl şəhərinin azad olunması [4];

- "Cəbrayılın azad olunmasına görə" medalın təsisi haqqında 2020-ci il 26 noyabr tarixli Sərəncam; igid hərbcilərimizin bu medalla təltifi haqqında Respublika Prezidentinin 24 dekabr 2020-ci il tarixli Sərəncamı;

- 10 noyabr 2020-ci ilədək Xocavənd rayonun Hadrut qəsəbəsi və 34 kəndinin işğaldan azad edilməsi [7];

- "Xocavəndin azad olunmasna görə" medalın təsisi haqqında 26 noyabr 2020-ci il tarixli Sərəncam, döyüşçülərimizin bu medalla təltifi haqqında Respublika Prezidentinin 25 dekabr 2020-ci il tarixli Sərəncamı;

- 20 oktyabr 2020-ci il Zəngilan şəhərinin işğaldan azad olunması [8];

- "Zəngilanın azad olunmasına görə" medalının təsisi haqqında 2020-ci 26 noyabr tarixli Sərəncam;

- hərbçilərimizin bu medalla təltifi haqqında Respublika Prezidentinin 25 dekabr 2020-ci il tarixli Sərəncamı;

- 25 oktyabr 2020-ci il Qubadlı şəhərinin işğaldan azad edilməsi [9];

- "Qubadlının azad olunmasına görə" medalının təsisi haqqında 2020-ci il 26 noyabr tarixli Sərəncam, qəhrəman hərbçilərimizin bu medalla təsisi barədə Respublika Prezidentinin 29 dekabr 2020-ci il taixli Sərəncamı;

- 8 noyabr 2020 kapitulyasiyası, Şuşa şəhərinin azad edilməsinin müharibə və danışıqların taleyinə təsiri, Ermənistanın üçtərəfli bəyanatı imzalaması [10];

- "Şuşanın azad olunmasına görə" medalının təsisi haqqında 2020-ci il 26 noyabr tarixli Sərəncam, 4646 min döyşçümüzün bu medalla təltİfi haqqında Republika Prezidentinin 29 dekabr 2020-ci il tarixli Sərəncamı;

- 2020-ci il 20 noyabrda Ağdam, 25 noyabrda Kəlbəcər və 1 dekabrda Laçın şəhərlərinin işğaldan azad edilməsi;

- "Laçının azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə" medallarının təsisi haqqında Sərəncamlar, döyüşçülərimizin bu medallarla təltifi haqqında Respublika Prezidentinin 29 dekabr 2020-ci il tarixli Sərəncamları;

- 2020-ci il 10 dekabr, Bakıda, Azadlıq meydanında Zəfər Paradı – xalq, dövlət və ordu birliyinin təntənəsi.

**İstifadə edilmiş ədəbiyyat**


1. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild, Bakı, 2003
2. XX əsr Azərbaycan tarixi. II cild, Bakı, 2009
3. "Azərbaycan" qəz., 2020, 29 sentyabr
4. "Azərbaycan" qəz., 2020, 6 oktyabr
5. "Azərbaycan" qəz., 2020, 7 oktyabr
6. https://az.m.wikipedia.orq>viki>
7. https://az.m.wikipedia.orq>viki>
8. https//azeridefense.com>prezident
9. https//az.m.wikipedia.orq>wiki
10. https//www.bbc.com>azeri>azerb…


UOT 338:37

**Təhsil sisteminin keyfiyyətinin sosial-iqtisadi əhəmiyyəti**

*i.f.d., dos. Kəmalə Akif qızı Nəcəfova,*
*Qöncə Akif qızı Kərimova,*
*Azərbaycan Dövlət İqtisad Universiteti*

Hər bir xalqın tarixində onun xilaskarı olan böyük insanlar var. Ən taleyi həll olunan məqamlarda onlar xalqı öz arxasınca aparır və nəticədə qələbə qazanırlar. Azərbaycan xalqının Ümummilli lideri Heydər əliyev belə tarixi şəxsiyyətlər sırasındadır.

Ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsi nəticəsində Azərbaycanın milli özünüdərkin dirçəlişi və oyanışı başlamışdır, məhz onun sayəsində müstəqilliyimiz əbədi və dönməz xarakter almışdır.

Ölkəmiz dünyada məhz Ulu öndərin müdrikliyi, qətiyyəti, zəngin dövlətçilik təcrübəsi sayəsində özünə layiq yer tuta bilmişdir. Bu gün də bütün həyat sahələrində qazanılmış uğurların təməlində Heydər əliyevin ideyaları və müdrik strategiyası dayanır.

Bu gün elmi-texniki inkişafın getdikcə daha da sürətlə getdiyi bir vaxtda "informasiya"ın əhəmiyyəti xeyli artıb. Müvafiq olaraq, ümumtəhsil müəssisələrinə, xüsusilə də, ali məktəblərə olan tələblər xeyli artıb. Təhsil müəssisələri ümidsiz olaraq dəyişən bazar şəraitinə uyğunlaşmaq və yeni tələbləri yerinə yetirmək üçün yeni idarəetmə modelləri tapmağa çalışırlar. Keyfiyyətin idarəetmənin ilk dəfə istehsal sahəsində tətbiq olunduğunu nəzərə alaraq, bu tədqiqatın məqsədi xarici ölkələrin təcrübəsi əsasında yeni innovasiv metodlara qoşulan Azərbaycanda ali təhsilə uğurla tətbiq oluna bilməsini sübut etməkdir.

Cəmiyyətdə baş verən dəyişikliklər sosial inkişaf və təhsilin bir-birindən asılı olduğunu və növbəti mərhələdə inkişaf və problemlərini təmin edir. Bəşəriyyətin bütün məqsəd və dəyərlərinin yenidən təyin edilməsi nəticəsində, informasiya mədəniyyətinin inkişafı ilə təhsil sisteminin dominant əhəmiyyəti artır. Eyni zamanda, pedaqoji elm çərçivəsində təhsilin müxtəlif sahələrində təhsil fenomeninin öyrənilməsi nəzəri anlayışların yeni dövrdə genişlənməsinə gətirib çıxarır. Təbiətdə müxtəlif forma və təsirlərin təzahürü olan kompleks kimi sosial inkişafa böyük təsir göstərərək, təhsilin özü siyasi, sosial-iqtisadi və digər amillərdən təsirlənir.

Azərbaycan Ali təhsilin ümumavropa sektorunu yaratmış Boloniya sazişinə qoşulmuşdur və bu proses universitetlərin üzləşdiyi ali təhsil problemləri ilə bağlıdır ki, buna iqtisadi qloballaşma, təhsil bazarında mübarizə, mütəxəssislərin mobilliyinin təmin edilməsi, ali təhsilin keyfiyyətinin təminatı sisteminin inkişafı və s.-ni misal göstərmək olar.

Boloniya prosesinə və ali təhsilin transformasiyasına əsasən Azərbaycanda təhsilin modernləşdirilməsi ideyası müasir reallıqlarda çoxsəviyyəli sistemin sınaqdan keçirilməsi, qiymətləndirmə meyarlarından fərqlənən təhsil müəssisələrinin fəaliyyətinin səmərəlilik göstəricilərinin öyrənilməsi və tətbiq edilməsindən ibarətdir.

Təhsilin keyfiyyəti – yeni sosial-iqtisadi şəraitdə şəxsiyyətin inkişafı və cəmiyyətin tələbləri baxımından subyektin həyat fəaliyyətinin bütövlüyü, tədris metodları, nəzarət və öz müqəddəratını təyinetmə metodları baxımından təhsilin qiymətləndirilməsidir. Bununla əlaqədar olaraq, təhsilin keyfiyyəti təhsil sisteminin qarşıya qoyulmuş məqsədlərə nail olmaq və konkret insanın sosial-iqtisadi tələblərinə uyğun təhsil tələbatını təmin etmək qabiliyyətini əks etdirən anlayışdır.

Təhsilin keyfiyyəti yalnız inkişafın nəticəsinə deyil, həm də təhsil müəssisələrinin və ayrı-ayrı şəxslərin fəaliyyətində dəyişikliklərlə bağlı dinamik proseslərə, həmçinin onların sosial, iqtisadi, texniki və ekoloji siyasətinin müəyyənləşdirilməsinə imkan verir.

Bacarıq və biliklərin inteqrasiyası, onların ötürülməsi, qarşılıqlı nüfuz və sintez, bir qayda olaraq, biliklərin yüksək səviyyədə mənimsənilməsi anlamına gəlir; onlar özünü reallaşdırmağa, özünü ifadə etməyə, özünü təkmilləşdirməyə, öz müqəddəratını təyin etməyə və nəticədə, fərdin ümumi bilik və əlaqəli qabiliyyətlərlə bu və ya digər sahədə bacarığına malik olan şəxsə yönəldilməsinə imkan verir ki, bu da ona bu sahəni əsaslandırmağa və bu sahədə səmərəli fəaliyyət göstərməyə imkan verir.

Bu gün təhsilə sosial-mədəni fenomen kimi baxılır. Eyni zamanda, bu onu göstərir ki, təhsilin mədəni əhəmiyyəti mühüm prinsip kimi vacibdir. Təsadüfi deyil ki, mədəniyyət dedikdə təhsilin, elmin, incəsənətin, dövlətçiliyin və mənəviyyatın inkişafı başa düşülür. Bu gün təhsil və mədəniyyətin qarşılıqlı əlaqəsi problemi təhsil və mədəniyyət paradiqmasının inkişafına xidmət edir və xüsusi tədqiqat predmeti kimi qəbul edilir.

M.M.Baxtin və V.S.Bibler kmi tədqiqatçılar tərəfindən təhsil və mədəniyyət dialoqu konsepsiyası işlənib hazırlanmışdır və bu konsepsiyaya görə, müxtəlif mədəniyyətlərin insanların dialoqu mövcud olan mədəniyyət və təhsilin əsas formasıdır. Bu, təhsilin mədəni dəyərini müəyyən etməyə imkan verir və insanın öz həyat mədəniyyətinin və şəxsi inkişafının bir subyekti olduğu qənaətinə gətirir.

Təhsil ekoloji və mədəni inkişafın təminatı, yaradiciliq və dialoq mədəni-təhsil mühitində şəxsiyyətin yaşaması və öz müqəddəratını təyin etmə üsuludur. Bu ideyalar həm də mədəni ideyalara əsaslanan şəxsi yönümlü təhsilin təşkilati problemini həll edir.

Mədəni konsepsiyanın mahiyyəti aşağıdakı əsas müddəalarla sübuta yetirilə bilər:

1) təhsil islahatının əsas prinsipi kimi müasir mədəniyyətin, o cümlədən təhsil mədəniyyətinin qəbul edilməsi;

2) insanın mənəviyyatı kimi, mədəni etika və mənəvi dəyərləri mənimsənilməsi prosesində mənəvi dəyərlərin yaranması;

3) təhsilin məqsədi mədəni insana sahib olmaqdır;

4) təhsilin mədəni yönümlü məzmununun formalaşdırılması, təhsil müəssisələrində mədəni həyatın norma və modellərinin yaradılması, təhsilin mədəniyyətə inteqrasiyası zərurəti;

5) milli və dünyəvi mədəniyyət kontekstində təhsilin həyata keçirilməsi onun məzmununun humanistləşdirilməsini nəzərdə tutur:humanist tərbiyə, təhsil texnologiyalarından istifadə, təhsil müəssisələrində yaradıcı özünü reallaşdırmaya qadir şəxsiyyətin formalaşması;

6) təhsil mədəniyyətlə, insanları düşüncə ilə daha da zənginləşdirir.

Qeyd etmək lazımdır ki, "Azərbaycan Respublikasının Təhsil haqqında qanun" təhsilin məqsədini şərh edərkən səlahiyyətlər ümumi formada verilir. Bununla əlaqədar, "Müstəqil və yaradıcı vətəndaş və Azərbaycan dövləti qarşısında məsuliyyətini dərk edən, milli ənənələrə və demokratiya, insan hüquq və azadlıqlarına hörmət edən, vətənpərvərliyə və Azərbaycana sadiq olan şəxsiyyət" müddəalardan birinə diqqət yetiririk.

Göründüyü kimi, formalaşmalı potensial təhsil məqsədlərinə yönləndirilmişdir. Dünya ölkələrinin təcrübəsinə baxsaq görərik ki, potensial səriştələr və təkliflər ayrı-ayrılıqda verilir. Yeni Zelandiyada təhsil sistemi gənclərin özünə əminliyi, həyat boyu öyrənənlər olmasına çalışmaqdır. Avstraliyada isə təhsil sistemində ədalət, bərabərlik və mükəmməlliyi təmin etmək və s.

Dünya ölkələrində təhsilalanlarda nəzərdə tutulan səriştə də fərqliliyə diqqət yetirsək, görərik ki, şəxsiyyətin hərtərəfliliyi; yaradıcı olmaq, bilik və bacarıqlarını tətbiq etmək, mədəniyyət və mirasına hörmət; karyera qurmaq; fəal vətəndaş olmaq; özünə güvənmək; müstəqil öyrənə bilmək; aktiv töhfə bacarığı; qayğıkeş vətəndaş olmaq əsas götürülür.

Səriştəli təhsilin əsasında tədqiqat komponentləri mühüm rol oynayır. Tədqiqat apara bilmək bacarığı öz qabiliyyətlərini nəzərə alaraq, həm də yaradıcılıq qabiliyyətlərinin gerçəkləşdirilməsindən irəli gələn dəyərdir. Başqa sözlə, tədqiqat yaradıcılığı yaradır, yaradıcılıq isə tədqiqat fəaliyyətini formalaşdırır. Müasir təhsilin inkişafı yaradıcı düşüncə şəxsiyyətinin formalaşması, yeni düşüncə mədəniyyətinin əldə edilməsi və şəxsiyyətin formalaşması ilə bağlı olduğu kimi, təhsil prosesində tələbələrin tədqiqat fəaliyyətinin formalaşması ilə bağlıdır.

Tədqiqat fəaliyyəti tələbələr üçün özlərini qiymətləndirmək, özünü dərk etmək, səbəb-nəticə hadisələrini və prosesləri müxtəlif problemlərin həllinin əsas üsulları kimi müəyyən etmək, çətin situasiyalarla üzləşmək, Şəxsi statuslarını sübut etmək və lazımi bacarıqları inkişaf etdirmək çox vacibdir, məsələn, hər bir mövzunun və ya universitetdənkənar (sinifdənkənar) fəaliyyətin öyrənilməsində tələbələrin diqqətini tədqiqat fəaliyyətinə yönəltmək, mövzunun məzmunundan asılı olmayaraq yeni təhsil proqramı və fənn kursları Tələbələrin normal tədqiqat fəaliyyəti üçün geniş imkanlar yaradır. Təcrübə göstərdi ki, tədqiqatlar nəticəsində əldə edilmiş biliklər daha möhkəm və fundamental olub. Bu bilik yalnız nəzəri bilik deyil. Tələbələr hadisələr və proseslərlə bağlı problemləri araşdırmaq və həll etmək üçün onları istifadə edərək əldə edilmiş bilikləri tətbiq edə bilərlər. Beləliklə, məntiq və tənqidi düşüncə ilə insanın yaradıcı düşüncəsi inkişaf edir.

Nəticə olaraq qeyd edək ki, təcrübə və tədqiqatlar göstərir ki, perspektivli təhsil kontentinin formalaşdırılmasında təhsil paradiqması öz ideya və mövqelərini reallaşdırmaq üçün həlledici əhəmiyyətə malikdir. Beləliklə, perspektiv xarakter daşıyan təhsil dəyər xüsusiyyətlərinə malikdir. Bu dəyərlər arasında humanizm, insan dəyərləri vacibdir. Təhsil humanist baxış sistemi aşılamaq və humanist vətəndaş münasibətlərini inkişaf etdirir. Belə ki, humanist baxış sistemi, əsasən, humanist dəyərlər əsasında formalaşır. Belə ki, qloballaşan dünyadamədəniyyətyönlülük, humanistlik kimi başlıca amillərin təhsilin məzmununda əks olunması fərdin bir şəxsiyyət kimi formalaşdırılmasına, cəmiyyətin inkişafına təsir gücü çox böyükdür.

Bu gün məktəbəqədər müəssisələrdən başlayaraq, yüksək texnologiya ideyası nümayiş etdirmək, praktik yönümlü dərslərə üstünlük vermək lazımdır. Yaradıcılıq ideyasının irəli sürülməsi, həmcinin innovativ metodlara üstünlük vermək – təhsil, mütəxəssis və tələbələrin iş-məşğələ birliyidir!

**İstifadə edilmiş ədəbiyyat**


1. Nuray Senemoğlu. Gelişim Öğrenme ve Öğretim Kuramdan Uygulamaya. Pegem Akademi, 2010
2. Nəzərov M.H. Müasir dövrdə təhsilin sosiomədəni problemləri. Bakı, 2018, 296 s.

3. Mahmudov M.C. Boloniya prosesi: problemlər, perspektivlər, reallıqlar. Bakı, 2010, 504 s.
4. Məmmədzadə R. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı, 2010, 170 s.

UOT 339.9

## Ümummilli lider Heydər Əliyev Azərbaycanın strateji və geosiyasi maraqlarının təminatçısıdır

*i.f.d., dos. Muslumat Allahverdi qızı Allahverdiyeva,*
*i.f.d., dos. Hüseyn İbrahim oğlu Həşimov,*
*i.f.d., dos. Natavan Mamed qızı Rzayeva,*
*Azərbaycan Dövlət İqtisad Universiteti*

Azərbaycanın strateji baxımdan əhəmiyyətli bir geosiyasi məkanda, ən vacib beynəlxalq nəqliyyat və kommunikasiya dəhlizlərinin kəsişməsində yerləşir. Əlverişli geosiyasi və coğrafi mövqe Azərbaycana zəngin karbohidrogen ehtiyatlarından yeni dividendlər, bərabər dividentlər alma şansı verdi. Ümummilli lider Heydər Əliyev, bu həqiqəti müstəqil Azərbaycan dövlətinin əsas şanslarından biri kimi düzgün qiymətləndirmişdir. Son 25 ildə onun müəyyənləşdirdiyi strategiya həm yeni neft strategiyasının, həm də transmilli dövlətin həyata keçirilməsində mühüm amil kimi ustalıqla istifadə edilir. Ümummilli lider Heydər Əliyevin bütün sahələrdə olduğu kimi nəqliyyat və kommunikasiya siyasəti hal-hazırda Azərbaycanın dünya dövlətləri, güc mərkəzləri ilə əlaqələrinin əsasını qoymuş, üstünlük təşkil edən geopolitik, geoiqtisadi və coğrafi reallıqlardan bu da ölkənin strateji maraqlarının yüksək səviyyədə təmin edilməsində bu ideyalar hələ uzun illər aparıcı rol oynayacaqdır.

Ümummilli lider Heydər Əliyevinn Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzinə çevirmək siyasəti dövlətin xarici-iqtisadi əlaqələr sahəsində 1993-cü ildən bəri davam etdirilən strateji xətlərdən biri olaraq inkişaf etdirilir. İqtisadçı alimlər Azərbaycanın bu vaxt ərzində fəaliyyətinin bir neçə vacib tərəfini vurğulayırlar. Buraya aşağıdakılar aiddir:

- Avropa, Qara dəniz, Qafqaz, Xəzər dənizi və Orta Asiya bölgələri arasında iqtisadi, ticarət, nəqliyyat və logistic əlaqələrinin inkişafı;
- Çin və Avropa İttifaqı arasında ən qısa yolda multimodal dəhlizin inkişafı;
- “Şimal-Cənub” beynəlxalq dəhlizin yaradılması;
- Böyük İpək Yolu daxilində transit yüklərin cəlb edilməsi;
- tənzimləyici tədbirlər sayəsində Azərbaycanı bölgədə daha cəlbedici mərkəz halına gətirən logistika və ticarət infrastrukturunda ciddi inkişaf;
- Azərbaycanın rəqəmsal ticarət mərkəzi layihəsi vasitəsilə Böyük İpək Yolunun rəqəmsallaşması;
- müxtəlif nəqliyyat sektorlarının koordinasiyası;
- yük və sərnişin daşınması üçün beynəlxalq və daxili tariflər sahəsində uyğunlaşdırılmış siyasət;
- multimodal nəqliyyatın təşkili üçün razılaşdırılmış fəaliyyət proqramının hazırlanması. [1]

Son on ildə dövlətin apaqrdığı iqtisadi siyasət nəticəsində neft gəlirlərinin bir hissəsi Azərbaycanı xarici ölkələrlə əlaqələndirən avtomobil yollarının əksəriyyəti hava və su nəqliyyatının infrastrukturu quru, hava və su nəqliyyatı ilə bağlı olan kommunikasiya informasiya texnologiyaları ilə əlaqə, ilk növbədə, yenidən qurulmuş və modernləşdirilmişdir.

Azərbaycanda 3 telekommunikasiya peyki, “Azərspeys-1”, “Azərspeys-2” orbitə buraxıldı. Xəzər dənizinin dibi boyunca Asiya və Avropanı birləşdirən rabitə qurğularının salınması işləri başladı. [6]

Azərbaycanın regional və beynəlxalq nəqliyyat və kommunikasiya layihələrini dəstəkləmək istiqamətində apardığı ardıcıl və məqsədyönlü siyasət qısa müddətdə ölkəmizi Avrasiyanın əsas nəqliyyat və kommunikasiya mərkəzlərindən birinə çevirdi.

XX əsrin son onilliyində Avropa Birliyi və xüsusi maliyyə dəstəyi ilə həyata keçirilən ipək yoluna (TRASECA) əlavə dəstək olaraq, Azərbaycan rəhbərliyinin dəstəyi ilə 30 oktyabr 2017-ci ildə istifadəyə verilən Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu Azərbaycan, Türkiyə və Gürcüstanın birgə əməkdaşlığı sayəsində Trans-Avropa-Asiya dəmir yolu şəbəkələrini birləşdirərək, qədim ipək yolunu polad xətlər vasitəsilə bərpa etdi.

TRASECA layihəsi Ümummilli lider H.Əliyevin təşəbbüsü və layihəsi idi. Bu layihə 1998-ci ildə Bakı şəhərində 9 dövlət başcısının, 13 beynəlxalq təşkilatın, 32 dövlətin nümayəndələrinin iştirakı ilə tarixi ipək yolunun bərpa edilməsinə aid olan beynəlxalq konfrans keçirildi. [3] Konfrans nəticəsi olaraq Avropa Birliyinin TRASECA proqramı əsasında, Avropa-Qafqaz-Asiya Dəhlizinin inkişafı üçün Beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli satış imzalanmış və TRASECA daimi katibliyinin Bakıda yerləşməsinə aid olan qərar qəbul edilmişdir. TRASECA layihəsi həmin dövrlərdə bəzi beynəlxalq və regional dairələrin əsaslı olmayan qısqanclıqlarına baxmayaraq qədim ipək yolu yenidən quruldu və onun regionunu əksər ölkələri üçün nə qədər əhəmiyyətli olması əsaslandırıldı. Bu layihə hər şeydən əvvəl, Mərkəzi Asiya, eləcə də Əfqanıstan, Avropa, Rusiyaya çıxışı çox asanlaşdırdı, iqtisadi ticarət münasibətlərini dünya iqtisadiyyatına inteqrasiyasının inkişafına şərait yaratdı.

TRASECA layihəsinin bağlandığı gündən indiyə qədər Çindən Orta Asiyaya Cənubi Qafqaz və Türkiyədən keçərək, Avropaya nəql olunan malların geri qayıtmaqda daxil olmaqla çatdırılma müddəti 2 dəfə azalmışdır. Mütəxəssislər düşünürlər ki, bu dəhliz Avropa və Asiyanı birləşdirən ən təhlükəsiz nəqliyyat dəhlizidir.

Son illərdə daşınan yüklərin həcmi bir neçə dəfə artmışdır.

Cədvəl 1-də Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində nəqliyyatın fəaliyyəti göstərilib. [4]

**Cədvəl 1**

**Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində nəqliyyatın fəaliyyəti**

| Göstəricilər | 2005 | 2013 | 2015 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| Yük daşınmışdır (min ton) | 46741 | 59401 | 52240 | 52733 | 52679 |
| Tranzit yük daşınması | 15051 | 14757 | 9494 | 10186 | 9345 |
| Yük dövriyyəsi (milyon ton) | 13446 | 13987 | 10956 | 11427 | 11489 |
| Transit yük dövriyyəsi (milyon ton) | 6680 | 6511 | 5647 | 4566 | 4185 |
| Sərnişin daşınmışdır (min nəfər) | 158709 | 285176 | 331119 | 345175 | 350646 |
| Sərnişin dövriyyəsi (milyon sərnişin-km) | 3423 | 5698 | 6628 | 6740 | 6965 |
| Yükdaşımadan əldə olunan gəlir (min manat) | 191730 | 476360 | 545265 | 641990 | 633608 |

*Mənbə: Azstat.org. Azərbaycanda nəqliyyat 2020*

Son illər içərisində daşınan yüklərin həcmi bir neçə dəfə artdı və Bakı-Tiflis-Kars qitələri birləşdirən ən sərfəli nəqliyyat körpüsü rolunu oynamağa başladı.

BTK-la ilk mərhələdə 5 mln.ton, ikinci mərhələdə 17 mln.ton, daha sonra daha da çox həcmdə yük daşınması planlaşdırılır [4]. Bakının Qaradağ rayonunun Ələt qəsəbəsində inşa edilmiş Bakı Beynəlxalq Dəniz Ticarət limanı bu ərazidə yaradılan Azad Ticarət Bölgəsi və digər vacib infrastruktur layihələri Azərbaycanın beynəlxalq nəqliyyat mərkəzinə çevrilməsində xüsusi rol oynadı.

Yaxın gələcəkdə Azad Ticarət Bölgəsi beynəlxalq yük daşımaları və Avropa Asiya logistika şəbəkələrində lider rolunu oynayacaq, eyni zamanda, yerli istehsalın və Made in Azərbaycan brendinin dünyada tanınmasına xidmət edəcəkdir. Daha bir transmilli nəqliyyat layihəsi Şimal-

Cənub Beynəlxalq Nəqliyyat Dəhlizidir. Məlumdur ki, Hindistan, Pakistan, İran, Azərbaycan, Rusiya və Şimali Avropa ölkələrini birləşdirəcək.

Şimal-Cənub nəqliyyat müqaviləsi ilk aktı 2000-ci il tarixində Sank-Peterburqda Rusiya, İran, Hindistan arasında imzalanmışdır. Azərbaycan 2005-ci ildə bu razılaşmaya qoşuldu.

Son illərdə bu razılaşmanı 13 dövlət imzaladı: Azərbaycan, Belorusiya, Bolqarıstan, Ermənistan, Hindistan, İran, Qazaxıstan, Qırğızıstan, Oman, Rusiya, Tacikistan, Türkiyə, Ukrayna.

Alimlərin fikrinə görə, Şimal-Cənub nəqliyyat dəhlizinin əsas məqsədi, ilk növbədə, cənubdan Hindistandan başlayaraq Rusiyaya, Şimal və Qərbi Avropaya, eyni zamanda körfəz ölkələrinə daşınan malların çatdırılma müddətini azaltmaq, qiymətləri endirməkdir.

Dəhliz bir neçə istiqamət üzrə: Hindistan-Rusiya-Qafqaz-körfəz ölkələri; Orta Asiya körfəz ölkələri; Xəzər dənizi – İran İslam Respublikası – körfəz ölkələri və s. Bu istiqamətlər arasında Azərbaycan üçün ən maraqlısı malların əmtəələrin Hindistanın Mumbay limanından İranın Bəndər Abbas limanına gəmilərlə çatdırılması, daha sonra Qatar və avtomobillərlə çatdırılmasıdır. Süveyş kanalı ilə əmtəələrin çatdırılma müddəti 45-60 gündür. Şimal-Cənub nəqliyyat dəhlizi ilə bu müddət 14-20 gün olacağı gözlənilir.

Azərbaycan hakimiyyəti "Azərbaycan Respublikasında logistikanın və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi"nə uyğun olaraq, sonradan Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması prosesində fəal rol oynamışdır. Ölkəmizin hər iki transkontinental dəhlizin kəsişməsində mühüm nəqliyyat logistika mərkəzinə çevrilməsinə nail ola bilmişdir.

Proqnozlar göstərir ki, tam gücü ilə işləyərkən dəhliz Avropa ölkələri, Rusiya, Orta Asiya və Qafqaz bölgələrinin körfəz ölkələri və Hindistana daxil olmasına şərait yaradacaq və Xəzəryanı ölkələrlə Qara dəniz limanları arasında ticarət əlaqələrini intensivləşdirəcəkdir. Bu dəhliz Avropa-Cənubi Asiya və yaxın Şərq marşrutu üzrə dəmir yolu sıxlığını və müvafiq olaraq həm yerli, həm də tranzit trafikdən gələn dəmir yolu gəlirlərini artıracaqdır.

Şimal-Cənub nəqliyyat dəhlizinin xüsusi əhəmiyyətini nəzərə alan Azərbaycan şon vaxtlar İran və Rusiya istiqamətində yeni kommunikasiyaların yaradılmasına böyük investisiyalar qoymuşdur ki, bu da ölkənin beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi imicini gücləndirmişdir.

Hazırda siyasi arenada baş verən dəyişikliklər Çimal-Cənub layihəsinin həyata keçirilməsinə bir qədər mane olmasına baxmayaraq, bu problemin Azərbaycanla əlaqəli olmadığı aydındır.

Azərbaycan Respublikası həyata keçirdiyi bütün infrastruktur layihələrini uğurla həyata keçirib istifadəyə vermişdir.

Nəticə olaraq qeyd edək ki, Azərbaycanın iki nəqliyyat xətti üzrə ("Cənub-Qərb" və "Şimal-Cənub") gələcəkdə əsas rol oynamaq şansı var. Hazırda Şimal-Cənub nəqliyyat dəhlizi daha çox mənimsənilir. TRASECA layihəsi Ümumilli lider Heydər Əliyevin təşəbbüsü və layihəsi idi. Onun layiqli davamcısı olan hormətli Prezidentimiz İlham Əliyev Azərbaycanin TRASECA layihəsinin və respublikanın inkişafında rolu ola biləcək digər layihələrin ən fəal iştirakçısı kimi fəaliyyətinin davam etdirilməsi ücün lazım ola bilıcək işlərin həyata kecirilməsinin təminatcısıdır. Hesab edirik ki, bu layihələr sayəsində Azərbaycan özünün nəqliyyat infrastrukturuna və nəqliyyat xidmətindən gəlirin dəfələrlə yüksəlməsinə nail olmuş və olacaqdır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Abbasov C. Azərbaycan iqtisadiyyatı qloballaşma yolunda. Bakı, 2006
2. Azərbaycan Respublikasının "Nəqliyyat haqqında" 11 iyun 1999-cu il Qanunu. Biznesmenin bülleteni, 1999
3. Великий Шелковый Путь и Азербайджан: вчера, сегодня, завтра (сборник статей). Баку: изд.-во «Университет Азербайджана», 1998
4. www.azstat.org
5. www.azarbaijan.az
6. www.day.az

UOT 338.45:622, 339.137.2

**Neft-qaz sənayesi və sosial-iqtisadi məsələlərin həllində onun rolu**

*i.f.d., dos. Kəmalə Seyfulla qızı Dadaşova,*
*Azərbaycan Dövlət İqtisad Universiteti*

Azərbaycan Respublikasının ənənəvi sənaye sahələrindən olan neft sənayesi uzun bir dövr ərzində yaranmış, təşəkkül tapmış və inkişafın yeni mərhələsini yaşayır. Hələ keçmiş ittifaqın son dövürlərində respublikamızdakı bu sənaye sahəsinə qeyri-qənaətbəxş diqqət neft sənayesində tənəzzülü qüvvətləndirmiş, işlənmədə olan yataqlardan hasil edilən neftin həcmi durmadan azalmışdır. Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiya, onun iqtisadi həyatında dirçəliş başqa şərtlərlə yanaşı həm də ölkəmizin külli miqdarda neft-qaz ehtiyatlarına sahib olması ilə də şərtlənir. Bu sərvətlərdən daha səmərəli istifadə milli inkişaf strategiyasının ən mühüm prioritetlərindən birini təşkil edir.

Respublikamız müstəqilliyini qazandıqdan sonra bazar iqtisadi münasibətlərinin prinsiplərinə uyğun iqtisadiyyat qurmaqla, dünya iqtisadiyyatına inteqrasiya olunmaq məsələlərinin həlli istiqamətində xeyli işlər görmüşdür. Keçmiş İttifaq vaxtında mövcud olan ənənəvi iqtisadi əlaqələrin qırılması müxtəlif sənaye sahələrində, o cümlədən neft sənayesində və onun inkişafında xeyli əngəllər törətmişdir. Belə ki, İttifaqın ən böyük "kəşf"lərindən biri o idi ki, müxtəlif sənaye rayonlarının və respublikaların inkişafı bir-birindən o qədər asılı vəziyyətə salınmışdır ki, onların ayrılıqda fəaliyyəti və inkişafı praktiki olaraq, qeyri-mümkün idi. Bu mənada İttifaqın dağılması bütün postsovet respublikaları və o cümlədən Azərbaycan Respublikası üçün də "ağrısız" keçməmişdir. Yəni İttifaqın dağılması ilə əlaqələr pozulmuş, neft sənayesi malik olduğu potensialdan tam istifadə edə bilməmişdir. Bu özünü neft və qaz hasilatı həcminin ilbəil azalması, quyu fondundan istifadə problemlərinin yaranması, qazma işləri həcminin azalmasında göstərmişdir. Yataqların istismarına ögey münasibət məhsulun sulaşmasını artırmış, quyu fondunun 35–50 %-i fəaliyyətsiz fonda keçmiş, məhsul vahidinin maya dəyəri durmadan yüksəlmişdir. Maddi-texniki təchizatda çatışmamazlıqlar, idarə heyətindəki səriştəsizlik neft sənayesində mövcud olan sosial-iqtisadi durumu daha da dərinləşdirmişdir. Bütün bunlar isə "domino" effekti yaratmış yüksək ixtisaslı neftçi kadrların kəskin axıcılığı başlanmış, digər sənaye sahələri güclərinin kiçik bir hissəsindən istifadə etmək məcburiyyətində qalmışdılar.

Respublikada "ödəməmələr" problemi, işsizlik, inflyasiya, milli valyutanın qeyri-sabitliyi, digər tərəfdən isə Ermənistanın respublikamızın torpaqlarını zəbt etməsi Azərbaycanda mövcud sosial-iqtisadi problemlərin təcrübi olaraq, həll edilə bilməməsi səviyyəsinə yüksəltmişdir. İnsanlarda sabaha ümidsizlik, iqtisadiyyatda isə tənəzzül daha qlobal vəziyyət alırdı. Belə bir şəraitdə ölkəni xaosdan qurtaran, onu bazar iqtisadi münasibətlər prinsipinə kökləyən liderə böyük ehtiyac duyulurdu. Məhz Ümummilli lider Heydər Əliyev cənablarının hakimiyyətə qayıdışı bütün bu problemlərin həllində dönüş nöqtəsi oldu. H.Əliyev cənablarının uzaq görən daxili və xarici siyasəti sayəsində Azərbaycanda iqtisadi-siyasi sabitlik yarandı, respublika beynəlxalq inteqrasiya prosesinə qoşuldu. Hakimiyyətin ilk illərində "haradan başlamalı?" sualı çox qabarıq şəkildə özünü büruzə verməyə başladı. H.Əliyev kimi təcrübəli, erudisiyalı, uzun illər respublikaya başçılıq etmiş bir şəxs üçün bu suala cavab tapmaq o qədərdə çətin olmadı. Respublikanın neft sənayesi uzun illər onun maraq dairəsində olmuş, bu sahənin problemləri H.Əliyev cənabları üçün məlum idi, o da məlum idiki, respublikanın dirçəldilməsi, onun xarici ölkələrlə ən real əlaqəsi məhz neft sənayesi ilə həyata keçirilə bilərdi. Bu məqsədlə respublikada yaradılmış iqtisadi-siyasi sabitlik, ölkənin zəngin karbohidrogen sərvətlərinə malik olması, güclü neftçi kadrların, elmi potensialın mövcudluğu xarici şirkətlərin diqqətini cəlb etdi. Azərbaycan müstəqillik qazandıqdan sonra Avropa-Asiya dəhlizində mühüm geostrateji mövqeyinə görə dünyanın ən iri transmilli neft şirkətlərinin maraq dairəsinə çevrildi [1...4].

Uzun illər Azərbaycan iqtisadiyyatının strateji problemlərinin həll edilməsi keçmiş ittifaqın iqtisadi orqanlarının səlahiyyəti daxilində idi. Respublika sənayesinin, o cümlədən neft sənayesinin

inkişafı ilə əlaqədar olaraq mühüm strateji qərarların qəbul edilməsi, hətta onun ərazisində yerləşən strateji sahələrin məhsullarının bölüşdürülməsi məsələsində də kənarda qalmışdır. İqtisadi müstəqillik əldə edildikdən sonra Azərbaycan Respublikası sənayesinin strateji sahələrinin inkişafı və idarə edilməsi işində yeni müstəqil institutlar yarandı. Respublikamızda həyata keçirilən düşünülmüş və məqsədyönlü iqtisadi siyasət nəticəsində strateji məsələlərin inkişafı işində müstəqil iqtisadi qərarların qəbul edilməsi və onun real surətdə həyata keçirilməsi mümkün oldu.

Azərbaycan neft sənayesi yüz əlli ildən artıq bir vaxtdır ki, təşəkkül tapmış, neft yataqlarının sənaye üsulu ilə istismarı XIX əsrin 70-ci illərindən başlamış və XX əsrin əvvəlində dünya neft hasilatının 48 %-i Bakı neftinin payına düşürdü. İndiyə qədər Azərbaycan Respublilkasında istismar edilən neft yataqlarından 1,4 mlrd tondan artıq neft, 490 mln $m^3$-dan artıq qaz hasil edilmiş, 1941-ci ildə ölkəmizdə ən çox 23,5 mln ton neft hasil edilmişdir. Azərbaycanın quru sahələrində istismar edilən neft yataqlarından isə uyğun olaraq, 93 mln tondan artıq (66,5 %) neft, 129 mlrd $m^3$-dən (29,3 %) artıq qaz hasil edilmişdir. Azərbaycanda istismarda olan neft yataqlarından 1971-ci ildə 1 mlrd ton neft hasil olunduğu qeyd edilmişdir.

Maddi nemətlər istehsalının özəyini təşkil edən, təbii sərvətlərə söykənən neft-qaz sənayesi milli iqtisadiyyatımızın prioritet sahəsi kimi xarici kapitalın ən geniş biznes maraqlarında ifadə tapdı. Dünyada ilk neft quyusunun qazılmasından başlamış, onun sənaye üsulu ilə mənimsənilməsinə qədər yol keçmiş, dinamik inkişaf tendensiyasına malik olan bu sənaye sahəsi geniş təsərrüfat infrastrukturuna malik böyük sistemdir. Azərbaycan Respublilkasının dünya iqtisadiyyatına inteqrasiyası, onun iqtisadi həyatındakı dirçəliş başqa şərtlərlə yanaşı həm də ölkəmizin külli miqdarda neft-qaz ehtiyatlarına sahib olması ilə də şərtlənir. Bu sərvətlərdən daha səmərəli istifadə milli inkişaf strategiyasının ən mühüm prioritetlərindən birini təşkil edir.

Dünyada ilk dəfə olaraq, Azərbaycanda dənizdə neftin çıxarılmasına başlanılmış və Xəzərin respublikamıza aid sektorunda bir-birinin ardınca "Güryan–dəniz", "Pirallahı", "Çilov adası" kimi yataqların mənimsənilməsinə başlanmış, 1949-cu il noyabrın 7-də açıq dənizdə sahildən 40 km, Bakıdan 90 km aralı "Neft Daşları" yatağının aşkar edilməsi Azərbaycan və Xəzəri bütün dünyada məşhur etmişdir. Qeyd edək ki, 1970-ci illərin sonu – 1980-ci illərin əvvəllərində dənizin 80–350 metr dərinliklərində indi adları bütün dünyada məşhur olan "Azəri", "Çıraq", "Kəpəz" və hazırda Azərbaycan Respublilkası Dövlət Neft Şirkəti (ARDNŞ) neftinin 60 %-dən çoxunu verən "Günəşli" kimi yataqlar aşkar edildi. Azərbaycanda açılmış 72 neft-qaz-kondensat yatağının 54-ü istismar edilir və bunlardan əksəriyyəti işlənmənin son mərhələsindədirlər. Bu yataqlar üçün hasilatın aşağı düşməsi, məhsulun sulaşma əmsalının böyük olması, təmirlər sayının çox olması, məhsul vahidinin maya dəyərinin yüksək olması və s. səciyyəvidir.

Azərbaycanın quru ərazisində hal-hazırda işlənmədə olan beş neftli-qazlı-kondensatlı region vardır: Abşeron yarmadası, Aşağı Kür, Orta Kür, Quba–Xəzəryanı, Şamaxı–Qobustan. Göstərilən regionlarda 43 neft-qaz-kondensat yataqları mövcuddur, onlardan 36 neft və 2 qaz yatağı işlənmədə, 1 yataq kəşfiyyatda (Zərdab), 1 yataq konservasiyada (Naftalan yatağının yanar neftli sahəsi) və 3 yataq isə (Qazan bulaq, Ağdərə, Tərtər) balansdan kənardadırlar. İşlənmədə olan 38 neft-qaz-kondensat yatağının 364 obyekti sərbəst quyu şəbəkəsi ilə istismara cəlb edilmişdir. ARDNŞ-nin Neftqazelmitədqiqatlayihə institutunun araşdırmalarına görə, bu günə qədər həmin yataqlarda 32700 – dən artıq axtarış, kəşfiyyat, istismar quyuları qazılmış və istismara verilmişdir, onların vasitəsilə 76 mindən artıq quyu – nöqtə istismara cəlb edilmişdir. Bu yataqlarda obyektlər üzrə 2635,7 mln ton neft və 162556 mln $m^3$ qaz ehtiyyatları aşkar edilmişdir. Bu günə kimi yataqlar üzrə əldə edilmiş neft – 931 mln tondan çox, hesabatda olan çıxarıla bilən qalıq neft ehtiyyatı – 135,4 mln ton, qaz isə 17,6 mlrd $m^3$-dir. Uzun illər istismar edilən neft yataqlarında məhsulun sulaşması 95–98 %, ildəki cari təmirlər sayı 30 mindən, əsaslı təmirlər sayı 2 mindən çox, fəaliyyətsiz quyu fondu istismar fondunun 30–40 %-ni təşkil edir.

Qeyd etmək lazımdır ki, Abşeron yarmadasında istismar edilən yataqlara xüsusi fikir verilməlidir. Belə ki, burada 264 neftli-qazlı obyekt 1871–1940-cı illər arasında sənaye əhəmiyyətli işlənməyə cəlb edilmiş, bu obyektlərə 25 mindən çox quyu qazılmış, 65 mindən çox quyu – nöqtə istismara verilmişdir. Bu yataqlarda ümumu sənaye ehtiyyatı balansının 60 %-i, hasilatın isə 70 %-i

cəmlənmişdir. Təhlil nəticəsində məlum olmuşdur ki, ümumi hasilatda tutduğu mövqeyə görə Abşeron yarmadasında yerləşən neft yataqlarından alınan neft hasilatı həm perspektivdəki hasilatın miqdarına təsir edir, həm də ümumilikdə neft strategiyasının müəyyənləşdirilməsində mühüm əhəmiyyətə malikdir.

Bütün bunlar Azərbaycanda həyata keçirilən yeni neft siyasətinin respublikanın iqtisadiyyatına təsirinin təcəssümüdür, sosial-iqtisadi problemlərin həllinə istiqamətlənmişdir və hələ uzun illər bu sənaye sahəsi ölkəmizin iqtisadiyyatına, respublikanın dünya iqtisadiyyatına inteqrasiya etməsinə, rəqabətqabliyyətli, vertikal – inteqrallaşmış neft şirkətinə çevrilməsinə xidmət edəcəkdir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Əliyev H.Ə. Azərbaycan nefti dünya siyasətində. Bakı,1997
2. Əliyev İ.H. Azərbaycan nefti dünya siyasətində.Bakı,1997-1998, IVcilddə
3. Əliyev N.A. Azərbaycan neft sənayesinin inkişafı // Azərbaycan Neft Təsərrüfatı,1997, №6, s.2-6
4. Алиев И.Г. Каспийская нефть Азербайджана. М.: Известия, 2003

UOT 327; 930.22

**Müzəffər Azərbaycan ordusunun qələbəsi və Cənubi Qafqazda yeni geosiyasi vəziyyət**

*tar.f.d., dos. Fəxrəddin Şahbaz oğlu Hüseyn,*
*Lənkəran Dövlət Universiteti*

XX əsrin 80-cı illərin ikinci yarısında SSRİ-nin ictimai-siyasi həyatında əsaslı dəyişikliklər baş verməyə başladı. 1987-ci ildən etibarən Ermənistanda Azərbaycana qarşı açıq şəkildə ərazi iddiaları irəli sürüldü və anti-Azərbaycan təbliğatı aparıldı. Hələ sovet dövlətinin tərkibində olmasına baxmayaraq, Dağlıq Qarabağda baş verən separatçılıq hərəkətləri böyüyüb Ermənistan-Azərbaycan münaqişəsinə çevrildi. DQMV-nın erməni icması tərəfindən vilayətin Azərbaycanın tərkibindən çıxarılaraq Ermənistanın tabeçiliyinə verilməsi tələbi ilə mitinqlər keçirildi. Getdikcə həm Ermənistan Respublikasından, həm də Dağlıq Qarabağdan azərbaycanlılar tarixi torpaqlarından qovuldular. Beləliklə, bu münaqişənin gedişində nəinki, Dağlıq Qarabağ, həm də ona bitişik 7 rayonumuz erməni silahlı birləşmələri tərəfindən işğal edildi. Milyona yaxin azərbaycanlı qaçqın və köçkünə çevrildi.

Asiya və Avropa qitələrin qovşağında yerləşən Cənubi Qafqaz regionu və xüsusən də Azərbaycan Respublikasının coğrafi mövqeyi, təbii sərvətləri tarixən Rusiya, Türkiyə və İran dövlətlərinin diqqət mərkəzində olmuşdur. Bu dövlətlər Qafqazı öz nüfuz dairələrində saxlamaq üçün uzun müddət bir-biri ilə müharibələr aparmışlar. Sovet dövləti dağıldıqdan sonra Cənubi Qafqazda yaranmış siyasi boşluqlardan istifadə edən ABŞ, Çin və iri Avropa dövlətləri burada öz maraqlarına uyğun siyasət yürütməyə başladılar.Lakin, qərb dövlətlərinin ikili siyasətləri Cənubi Qafqaz regionunda sülh və sabitliyin qorunub saxlanılmasına heç bir töhfə verə bilmədi.

Müstəqilliyini bərpa etmiş Azərbaycanda ilk dövrlərdə ictimai, siyasi, iqtisadi vəziyyət çox mürəkkəb və dəyişkən idi. Dağlıq Qarabağda separatçılıq, Ermənistanın təcavüzü və sovet dövründən qalan çoxlu sayda sosial-iqtisadi problemlər Azərbaycan dövlətinin müstəqilliyi üçün böyük təhlükə idi.

1993-cü ilin ortalarında Azərbaycan Respublikasının ictimai-siyasi həyatında mühüm hadisə baş verdi. Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə gəldi. Böyük siyasətçi xalqın və dövlətin maraqlarını əsas götürərək həm daxili və həm də xarici siyasət kursunda dəyişiliklər etdi. Azərbaycan dövlətinin başçısı dünyaya bəyan etdi ki, onun yürütdüyü xarici siyasət beynəlxalq

hüquq normalarına hörmət etmək, dünya dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri yaratmaq, region və dünyada sülh və sabitliyin tərəfdarı olmaq kimi prinsiplərə əsaslanır.

Qeyd edildiyi kimi, Cənubi Qafqaz regionunda nüfuz dairəsi uğrunda əsas mübarizə üç böyük region dövləti olan Rusiya, Türkiyə və İran arasında gedirdi. Rusiya dövləti tarix boyu Ermənistaı dəstəkləmiş ona regionda öz imperiya siyasətinin dayağı kimi baxmışdır. Hazırda Rusiyanın silahlı qüvvələri Ermənistan Respublikasında yerləşmişdir. Müasir mərhələdə Ermənistanın Rusiya və İranla əlaqələri regionda birbaşa türkçülüyə qarşı yönəlmişdir. Moskva-Yerevan-Tehran üçbucağı da bu məqsədə xidmət etmişdir. Sərhədləri yaxınlığında erməni-azərbaycan silahlı münaqişənin güclənib onun ərazisinə keçməsindən ehtiyat edən İran dövləti 1992-ci ilin əvvəllərindən Dağlıq Qarabağ probleminin həll ediməsi üçün vasitəçilik fəaliyyəti göstərmişdir. Amma onun vasitəçilik missiyası uğur qazana bilmədi. Çünki geosiyasi baxımdan Rusiya və ABŞ İranın Cənubi Qafqaz regionunda nüfuz qazanmasına razı ola bilməzdilər.

Azərbaycan Respublikasında strateji maraqları olan dövlətlərdən biri də Türkiyə Respublikasıdır. Türkiyə ilə Orta Asiya arasında Azərbaycan Respublikasnın yerləşməsinin türksoylu dövlətləri üçün böyük siyasi və iqtisadi əhəmiyyəti vardır. Türkiyə Respublikası Dağlıq Qarabağ probleminin həllində qətiyyətlə Azərbaycanın mövqeyini müdafiə etmişdir. İri dünya və region dövlətlərinin geosiyasi maraqlarının kəsişdiyi Cənubi Qafqaz regionunda Azərbaycan Respublikası daima sülh və sabitliyin tərəfdaşı kimi çıxış etmiş, Dağlıq Qarabağ probleminin həllində dinc yola üstünlük vermişdir.

Təbii ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev torpaqların işğaldan azad edilməsində hərb yolunu da istisna etmirdi. Ermənistan Respublikasında hakimiyyətə gələn yeni qüvvələr Azərbaycana qarşı təcavüzkar siyasətlərini gücləndirib, hərbi təxribatlar törətməyə başladılar. Azərbaycan dövləti cavab vermək və torpaqlarını azad etmək məcburiyyətində qaldı. Müzəffər Azərbaycan Ordusu 44 gün davam edən müharibədə erməni silahlı qüvvələrini məğlub edərək, tarixi qələbə qazandı. 30 ilə yaxın müddətdə işğal altında olan torpaqlarımız azad edildi. Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu.

Vətən müharibəsində qazanılmış bu müzəffər qələbə Cənubi Qafqaz regionunda böyük dəyişikliklərə səbəb oldu. Azərbaycan Respublikasının bu qələbəsi regionda təhlükəsizlik və əməkdaşlıq məsələlərinin qorunub saxlanılması və inkişafı üçün yeni geosiyasi şərait yaratdı. Yaradılacaq Zəngəzur dəhlizi Naxçıvan üzərindən keçməklə, Aralıq dənizi ilə Xəzər hövzəsini birləşdirəcək həyat yolu adlanan kommunikasiya xətlərinin çəkilişinin reallaşdırılması üşün geniş perspektivlər açır. Dağlıq Qarabağ və digər işğaldan azad edilmiş ərazilərdə yeni layihələrin həyata keçirilməsində xarici şirkətlərin iştirakının böyük əhəmiyyəti vardır. Dəmiryolu xətlərinin Zəngəzur dəhlizi vasitəsilə əvvəlcə Naxçıvan sonra isə Türkiyə dəmir yollarına birləşdirilməsi türksoylu dövlətlərinin siyasi-iqtisadi əlaqələrinin güclənməsini şərtləndirəcək. Bu layihələrdən Rusiya və İran dövlətləri də yararlana bilər. Bütün bu amillər Cənubi Qafqazda sülhün qorunmasında, dövlətlərarası iqtisadi əməkdaşlıqların genişlənməsinə səbəb olar.

UOT 33

## Heydər Əliyevin bank sektorunun inkişafında rolu və bank sektorunun müasir vəziyyətinin təhlili

*i.f.d., dos. Reyhan Vaqif qızı Əsgərova,*
*Lənkəran Dövlət Universiteti*

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarıdır. Heydər Əliyev bu gün dünyanın ən sabit və sürətlə inkişaf edən güclü iqtisadiyyatının qurucusu kimi tarixdə qalmışdır. Ümummilli lider Heydər Əliyevin digər sahələrdə olduğu kimi, bank sektorunun formalaşması və inkişafında da müstəsna xidməti olmuşdur. Ulu öndərin ciddi

diqqət və dəstəyi ilə dövlət banklarının yenidən qurulması, özəl bankların kapitalizasiyası və konsolidasiyası, bank infrastrukturunun formalaşması istiqamətində bank islahatları həyata keçirilmişdir. Müasir iqtisadiyyatın şaxələnməsi üçün ən fundamental şərtlərdən biri makroiqtisadi sabitlikdir. Bununla yanaşı, maliyyə sabitliyi də Mərkəzi Bankın ən mühüm strateji hədəflərindən biridir. Bu mənada makro və mikro prudensial siyasət bank sektorunda sistem tənzimlənməsi və fərdi nəzarət vasitəsilə idarə edilməsinə yönəlməklə həyata keçirilir. Bank biznesinin daha da müasirləşməsi, elektronlaşması və optimizasiyası istiqamətində zəruri tədbirlər görülməkdə davam edir.

Müasir modern Azərbaycanın iqtisadi tərəqqisinin təməlini qoyan Ümummilli lider Heydər Əliyevin Azərbaycan bankçılığının modernizasiyası sahəsindəki siyasəti indi daha da uğurla həyata keçirilməkdədir. Ölkədə bankçılığının modernizasiyası istiqamətində həyata keçirilən islahatlar dünyada baş verən problemlər mövcudluğu şəraitində də davam etməkdədir. Dünyanı bürüyən pandemiya, karantin rejimləri, sərhədlərin bağlanması, iqtisadiyyatın ayrı-ayrı sahələrinin zəifləməsi, əhalinin real gəlirlərinin düşməsi, istehlak həcminin enməsi, bununla əlaqədar istehsalın da zəifləməsi, turizmin kəskin azalması, dünya maliyyə bazarında dönərliliyin zəifləməsinə, bu ardıcıllıqda iqtisadiyyatın ayrı-ayrı sahələrini bir-biri ilə əlaqələndirən bank sektoruna da öz təsirini göstərməyə bilməzdi. Beləliklə, COVİD-19 böhranının dünya bank sisteminə bir necə istiqamətdə təsiri oldu. İlk olaraq bankın daxili fəaliyyətinin özündə dəyişikliklər baş verdi. Belə ki, artıq pandemiyaya uygunlaşaraq yeni idarəetmə planları formalaşmalı və həyata keçirilməli oldu. İşçi heyətinin fəaliyyətinin yenidən qurulması əsas məsələ oldu. Bankin daxili və xarici infrastruktur elemetlərinin fəaliyyətinə yenidən baxılmalı olundu. Bu elementlər bankın düzgün fəaliyyətini və bank sektorunda dayanıqlılığını müəyyən edir.

Bankların səmərəli fəaliyyətinin təşkil olunması üçün əməyin düzgün təşkili, fəaliyyətin nəticələri ilə bağlı hesabatın keyfiyyətli şəkildə tərtib olunması həddən artıq vacibdir [1]. Xüsusən də, pandemiya dövründə bu məsələlər daha çox diqqət mərkəzində olmalıdır. Koronavirusun bank sektoruna təsirini qiymətləndirdikdə ilk olaraq pandemiyanın iqtisadiyyatın demək olar ki, bütün sahələrinə zərbə vurduğunu görürük. Sahibkarlıq fəaliyyətinin zəifləməsi, iqtisadiyyatın ayrı-ayrı sahələrinin böhranı bank sistemində kredit riskinin artmasını, gəlir itkisi və likvidliklərinin təhlükə altına alınmasını qaçılmaz etdi və sərmayə qoyuluşlarının həcmi azalmış oldu. Belə bir şəraitdə yuxarıda qeyd etdiyimiz kimi, banklar özlərinin infrastruktur bloklarında uygun şəraitlə əlaqədar müəyyən təhlillər aparmalı və gələcəkdə bankın maliyyə vəziyyətinə mənfi təsirləri düzgün idarə etmə istiqamətləri seçməlidirlər. Xüsusi karantin rejimində yeni idarəetmə işçi qrup heyətləri formalaşmalıdır. Çünki məlum rejimdə insanların davranışlarındakı dəyişikliklər, müəyyən təcridolmalar, psixoloji gərginliklər bankla müştəri arasındakı ənənəvi əlaqəyə yenidən baxılmasını tələb edir. Banklarda rəqəmsal bankçılığın fəaliyyəti intensivləşməli, banklar öz müştərilərinin davranış və fərqli istiqamətlərdə onlara göstərilən xidmətlər üzrə çeşidləməli, müştərilərinə yeni texnologiyalar vasitəsilə xüsusi imkanlar təqdim etməlidirlər. Əsasən məsafədən xidmət sahəsinin əhatə dairəsi genişlənməli, bunun üçün müasir texnika və texnologiyaların fəaliyyəti mütləq şəkildə artırılmalıdır. Çünki pandemiya dönəmini arxada qoyduqdan sonra da evindən bayıra çıxmadan bank əməliyyatlarını həyata keçirə bilən müştəri artıq bu xidmətlərdən daimi olaraq bəhrələnəcək və seçimini də bu xidmətləri təqdim etmə iqtidarında olan banklardan yana edəcəkdir. Bütün bu və digər məsələlər nəzərə alınaraq Azərbaycan Respublikası Mərkəzi Bankı ölkədə maliyyə sabitliyini təmin etmək, iqtisadi inkişafın zəifləməsinin qarşısını almaq məqsədi ilə dünya təcrübələrindən bəhrələnir, beynəlxalq maliyyə təşkilatları, mərkəzi banklar ilə əməkdaşlıq çərçivəsində müəyyən tədbirlər həyata keçirir. Səmərəli monetar siyasət yürütmək, ölkədə makroiqtisadi sabitliyin qorunması məqsədi ilə Mərkəzi Bank Dünya Bankı əməkdaşları ilə Ölkə Tərəfdaşlıq Strategiyası çərçivəsində müxtəlif görüşlər, məsləhətləşmələr, layihələr həyata keçirir. “Maliyyə sektorunun müasirləşdirilməsi-2”, “Azərbaycan və Mərkəzi Asiyada elektron və Rəqəmsal maliyyə xidmətləri” layihələri maliyyə sektorunda qanunvericilik bazasının modernləşdirilməsi, rəqəmsal bankçılığın, yeni bank məhsulları və xidmətlərinin inkişafını təminetmə istiqamətində həyata keçirilən layihələrdəndir. Yalnız Dünya Bankının deyil, ölkənin Mərkəzi Bankı Beynəlxalq Valyuta

fondunun da üzvüdür və bu təşkilatla da yoxsulluğun azaldılması və iqtisadi inkişaf, əlavə maliyyələşmə proqramları həyata keçirilmişdir. Həmçinin Asiya İnkişaf Bankı, İsveçrənin İqtisadi Məsələləri üzrə Dövlət Katibliyi, İtaliya Milli Mikrokredit Agentliyi ilə maliyyə sabitliyinin qorunması, bank sektorunun gələcək inkişafı istiqamətindəki əməkdaşlıqlar önəmli məsələlərdir. Bu tip əməkdaşlıqlar nəticəsində Mərkəzi Bankın ölkədə maliyyə sabitliyini qiymətləndirmək məqsədi ilə istifadə etdiyi indeksləri qeyd etmək vacibdir.

Bankın riskli müəssisə kimi etibarlı işinin müddətli şərtlərindən biri də analitik cədvəllərin tərtib olunmasını, informasiyanın toplanmasını, işlənməsini, onun müasir kommunikasiya sistemləri əsasında bankın fəaliyyətinin idarə olunması prosesində istifadə olunmasını nəzərdə tutan analitik bazanın formalaşmasıdır [1]. Beynəlxalq təcrübələrdən bəhrələnərək, Mərkəzi Bankın bank risklərini nəzərə alaraq müəyyən etdiyi “bank sektorunun maliyyə dayanıqlığı” indeksi pandemiya şəraitində öz əhəmiyyətini daha da gücləndirmiş olur. Nəzərə alsaq ki, bu zaman kapital səviyyəsini, likvidlik risklərini əks etdirən göztəricilər, həmçinin rentabellik, bazar riskləri üzrə göstəricilər və aktivlərin keyfiyyətini əks etdirən göstəricilərdən istifadə edilir bu indeksin önəmi daha da artmış olur. Maliyyə sabitliyinin qiymətləndirilməsi məqsədi ilə istifadə edilən indekslərdən biri də bank sektorunun davamlılığını formalaşdıran “bank sektorunun kövrəklik” indeksidir. Bu zaman nəzərə alınan göstəricilər isə əhalinin əmanətləri, özəl sektorlara kreditlər, xarici borc üzrə öhdəliklər əsas götürülür.

Bankın məqsədlərinə, onun funksional təyinatına cavab verən müəyyən bölmələrə malik bankın idaraetmə aparatı daxili blokun əhəmiyyətli elementidir. Bankda bir qayda olaraq, ali idarəetmə bölmələrindən savayı (rəhbərlik, direktorlar şurası) əməliyyatların likvidlik qabiliyyətinin və gəlirliliyinin tənzimlənməsini, ümumilikdə, bank fəaliyyətinin və ayrı-ayrı əməliyyatların planlaşdırılmasını təmin edən idarəetmə aparatları, bölmələr, sektorlar yaradılır [1].

Son bir neçə ildə gedən proseslər 2020-ci ilin mürəkkəb il olacağını gözləməyə əsas verirdi. Ticarət müharibələri və dezinteqrasiya meyilləri ilə bağlı qlobal iqtisadi aktivlikdə səngimə müşahidə edilirdi. Təsadüfi deyil ki, 2018-ci ilin sonlarından başlayaraq, Beynəlxalq Valyuta Fondu (BVF) qlobal iqtisadi artıma dair proqnozunu hər növbəti hesabatda azaltmaq istiqamətində korreksiya edirdi. Neftin orta qiyməti 2018-ci ildə 72 dollar olduğu halda, 2019-cu ildə 12 % azalaraq 64 dollara endi [2]. Əlbəttə ki, 2020-ci ilin əvvəllərində neftin qiymətinin enməsi manata təzyiqi artırmış oldu. Dolayısı ilə əhalinin öz vəsaitlərini xarici valyutaya çevirmək marağı artdı. Lakin etiraf etmək lazımdır ki, Mərkəzi Bank bu proseslərə peşəkarlıqla müdaxilə etdi, kommersiya banklarının xarici valyutaya olan tələbatını vaxtında ödəmiş oldu və bu da əhali arasında manata olan inamın sarsılmamasına səbəb oldu.

Azərbaycan Respublikası Mərkəzi Bankının 2020-ci il ərzində əsas məqsəd və funksiyaların həyata keçirilməsi barədə hesabatına əsasən, 2020-ci ildə də manatın ABŞ dollarına nəzərən rəsmi məzənnəsi banklararası əqdlər üzrə orta məzənnə (“Bloomberg” platformasında hərraclar və hərracdankənar əməliyyatlar nəzərə alınmaqla) əsasında müəyyən edilmişdir. İl ərzində manatın ABŞ dollarına qarşı orta günlük rəsmi məzənnəsi 1.7 manat təşkil etmişdir. Banklar tərəfindən müəyyən edilən xarici valyutanın alış-satış məzənnələri rəsmi məzənnəyə yaxın olmuşdur. Belə ki, kommersiya banklarının orta hesabla günlük alış məzənnəsi 1 ABŞ dollarına nəzərən 1.6991 manat, satış məzənnəsi isə 1.7025 manat təşkil etmişdir. Rəsmi məzənnə ilə kommersiya banklarının orta günlük alış məzənnəsi arasında fərq 0.0009 manat və satış məzənnəsi arasında fərq isə 0.0025 manat olmuşdur. Dövr ərzində manatın məzənnəsi ticarət tərəfdaşı olan ölkələrin valyutalarına qarşı fərqli istiqamətlərdə dəyişmişdir. Belə ki, manatın məzənnəsi türk lirəsinə, qazax tengsinə, rus rubluna, Ukrayna qrivnasına və gürcü larisinə qarşı bahalaşmışdır. Manat bu dövrdə avroya, İsveçrə frankına və yapon yeninə qarşı ucuzlaşmışdır. İkitərəfli məzənnələrin dinamikası çoxtərəfli məzənnənin dinamikasına da təsir göstərmişdir. Ümumilikdə, il ərzində manatın qeyri-neft ümumi ticarət çəkili nominal effektiv məzənnəsi 6.3 %, real effektiv məzənnəsi isə 4.1 % bahalaşmışdır [3].

COVİD-19-un sürətləndirdiyi distant bank fəaliyyəti bankın əməliyyatlarında müəyyən dəyişiklikləri formalaşdırmış oldu. Belə ki, gedişat onu göstərir ki, onlayn-bankçılıq, rəqəmsallaşma meylləri müştərilər üçün komission xərclərini də sərfəli edəcəkdir. Həmçinin 2020-ci COVİD-19 ili

artıq bizim banklarda da dünyanın inkişaf etmiş ölkələrinin banklarında olduğu kimi, depozitlərə görə faiz dərəcələrinin sıfıra yaxınlaşmasına səbəb olacaqdır. Çünki artıq insanlarda onlayn-bankçılığın inkişafı, maliyyə əməliyyatlarının əhəmiyyətli səviyyədə onlayn yolu ilə aparılması, bank sektorunda rəqəmsallaşmanın geniş vüsət alması ilə əlaqədar olaraq vəsaitlərini nağd şəkildə deyil, bank hesablarında saxlamaq maraqları formalaşmaqdadır. Lakin burada bir önəmli məsələ nəzərdən qaçmamalıdır. Belə ki, distant bank fəaliyyətinin davamlı olması bankların informasiya təhlükəsizliyi məsələsini ön plana çəkir.

Hesab edirik ki, müştərilərin bank hesablarının qorunması, kənar müdaxilələrin sıfıra endirilməsi üçün banklar öz fəaliyyətlərində informasiya təhlükəsizliyinin yeni metodlarından istifadə etməli, kibertəhlükəsizlik sahəsində xüsusi mütəxəssislər dəvət olunmalı, dünya təcrübələri dərindən araşdırılmalı və qarşılıqlı təcrübə mübadiləsindən istifadə edilməlidir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Abdullayev Ş., Əsgərova R. Bank işi: Dərslik. Bakı, 2009

2. Azərbaycan Respublikası Mərkəzi Bankının 2021-ci il üçün pul və Maliyyə siyasətinin əsas istiqamətləri barədə bəyanatı

3. Azərbaycan Respublikası Mərkəzi Bankının 2020-ci il ərzində əsas məqsəd və funksiyaların həyata keçirilməsi barədə hesabatı

UOT 323

## Azərbaycan Respublikasının Qarabağ regionu siyasətinə dair

*tar.f.d., dos. Rakif Hüseyn oğlu İbadov,*
*Lənkəran Dövlət Universiteti*

Azərbaycan Respublikasının Prezidenti İlhan Əliyevin apardığı ardıcıl, peşəkar və məntiqli diplomatiyası nəticəsində 44 günlük İkinci Qarabağ müharibəsində qələbə dünya hərb tarixinə daxil ola bildi. Xalqımızın qazandığı Zəfər qələbəsi beynəlxalq münasbətlər sistemində də yeni bir səhifə açdı. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu Azərbaycanın dinamik inkişaf strategiyasını Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İham Əliyev əzmkarlıq və mətinliklə davam və inkişaf etdirməkdədir.

30 ilə yaxındır ki, Azərbaycan dövləti dinc yanaşı yaşamaq və sülhsevər xarici siyasət xəttində ardıcıl və mübariz mövqeyini həmişə nümayiş etmişdir. Bütün beynəlxalq təşkilatlarda və məclislərdə ölkəmiz öz strateji siyasətini aydın və məntiqli davam etdirmişdir. Diplomatik fəaliyyətinin reallığı II Qarabaq müharibəsi ərəfəsində və günlərində yerli və beynəlxalq media əməkdaşlarına verdiyi müsahibələrində ölkə rəhbərinin söylənidiyi fikirlərdə bir daha bunu təsdiqlənir.

Təcavüskar Ermənistan dövlətinin danıçıqsız təslim olması və bəyanətə imza atmasından sonra ölkəmiz üçün əsas məsələlərdən biri də işğaldan azad olunmuş Qarabağ regionunda təhlükəsizlik tədbirlərinin görülməsi, dağıdılmış infrastrurun bərpası, didərgin düşmüş soydaşlarımızın əvvəlki yaşayış yerlərinə qayıtmaları və sosial-iqtisadi həyatın yenidən yaradılmasıdır. İşğaldan azad edilən ərazilərdə basdırılmış minaların xəritəsi indiyə qədər Azərbaycana verilməməsi imzalanan 10 noyabr bəyanətinin mühüm şərtlərindən birinin açıq şəkildə Ermənistan dövləti tərəfindən pozulması deməkdir. Bu beynəlxalq hüquq normalarına riyaət olunması və günahsız insanların həyatlarını heç nədən itirilməsi səbəb olur. Ona görə də əhalinin təhlükəsizliyinin təmin olunması üçün ərazinin minalardan tam təmizlənməsi, ölkəmizə vurulan ziyanının hesablanması və beynəxalq məhkəmələr qarşısında ziyanın ödənilməsi məsələləsinin qaldırılması, məhv edilmiş şəhər və kənd yaşayış yerlərinin bərpası üçün baş planının hazırlanması

və bütün istiqamətdə infrasukturların bərpasına artıq başlanılmışdır. Xocalı hava limanından başqa, Qarabağda, Füzulidə II hava limanının tikintisi iqtisadi, siyasi və beynəlxalq əhəmiyyətli layihə kimi dəyərləndirilməlidir. Əhalinin bu regiona rahat gəlişi, yerləşmələri və hava nəqliyyatı vasitəsi ilə beynəlxalq yükdaşımalar təmin olunması və regionda yaşayanların iş, sosial və digər tələbatlarının ödənilməsinin reallaşdırılmasını nəzərdə tutulur. Qarabağın dilbər guşəsi olan Şuşa şəhərinə iki müxtəlif istiqamətdən yolun çəkilişi mühüm iqtisadi-sosial sahədə əhəmiyyətli addım kimi dəyərləndirilir.

Naxçıvan Muxtar Respublikanın Azərbaycanla yenidən birləşdirilməsi təkcə iqtisadi deyil, siyasi və beynəlxalq əhəmiyyət kəsb edir. Qardaş Türkiyə Respublikası ilə əlaqələrin genişləndirilməsi, beynəlxalq ticarət yolların bərpası, qonşu İran İslam Respublikası ilə bütün istiqamətdə əməkdaşlığın genişləndirilməsi və beynəlxalq diplomatik normalara uyğun olaraq qonşu Rusiya Federasiyasını birləşdirən dəhlizin açılması mühüm strateji addım kimi dəyərləndirmək olar.

İkinci Qarabağ müharibəsinin hərbi, siyasi və diplomatik danışıqlara uyğun olaraq, Zəngilan dəhlzi məsələsi qarşıda duran məsələlərdən biridir. Əzəli və əbədi Azərbaycan torpaqlarının bir hissəsi kimi ermənilər tərəfindən işğalı tarixi bir həqiqətdir. Lakin ilk növbədə həmin ərazilərinin geri qaytarılması və buradan beynəlxalq dəhliz olaraq istifadə olunması, nəinki Azərbaycan və Türkiyə, eləcə də Orta Asiya, Qazağıstan Çin və digər ölkələrin Qərb dövlətlərii ilə beynəlxalq iqtisadi əlaqələrinin reallaşmasında və genişləndirilməsində mühüm rol oynaya bilər. Azərbaycan bu dəhlizə sahib ölkə kimi çıxış etməklə yanaşı, Qərb və Şərq dövlətləri ilə birbaşa müxtəlif istiqamətdə münasibətlərini artıra bilmək imkanlarını malik ola bilər.

Bir tətəfdən əməkdaşlıq, ticarət, kommunikasiya xətlərinin açılması, digər tərəfdən xarici investorların Azərbaycana geniş sərmayə qoyuluşu, Azərbaycan dövlətinin bu istiqamətdə qardaş Türkiyə Respublikası, qonşu İran İslam Respublikası və Rusiya Federasiyası ilə diplomatik danışıqları və əldə edilən razılaşmalar xarici şirkərlərin Qarabağ regionunda fəaliyyətlərinin reallaşmaları üçün imkan yaradılacaq. Dövlətimiz ilkin olaraq, dövlət büdcəsindən ayırdığı 2,2 milyard manat vəsait Qarabağ regionun bütün ərazisində bərpa işlərinin aparılması, soydaşlarımızın mənzil və işlə təmin edilməklə dogma yurdlarına qayıtmaları imkanları tezliklə reallaşması üçün əsas amildir.

Azərbaycan xalqı tam əmindir ki, ölkə başçısı Prezident İlham Əliyevin apardığı ardıcıl və məqsədli siyasəti ilə Qarabağla bağlı nəzərdə tutulan mühüm vəzifələr tezliklə həyata keçəcək və regionda sülh və sabitliyin qarantı olacaqdır.

UOT 33:94(4/9)

## Heydər Əliyev Azərbaycan milli iqtisadiyyatının qurucusudur

*tar.f.d., dos. Baxış İslam oğlu Ələsgərov,*
*tar.f.d., dos. Yaqub Abbasqulu oğlu Səmədov,*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı*

Azərbaycana 30 ildən çox rəhbərlik etmiş Ulu öndər Heydər Əliyevin "bütün həyatının amalı öz varlığı qədər sevdiyi Azərbaycan xalqına, dövlətçiliyinə, ölkənin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur" [4, s.114].

Tarixi təcrübə göstərir ki, zəngin təbii və iqtisadi sərvətlərə malik olan ölkələrdə müstəqilliyin qorunub saxlanılması bəzən onun əldə edilməsindən daha çətin və mürəkkəbdir. Düşmən təcavüzünə məruz qalan və təcrübəsiz dövlət rəhbərləri tərəfindən idarə olunan Azərbaycanda bu daha da çətin idi. Ölkəmiz yalnız dövlət müstəqilliyini itirmək təhlükəsi ilə deyil, eyni zamanda, daxildən də parçalanmaq təhlükəsi ilə qarşı-qarşıya qalmışdı. Ölkəni bu ağır vəziyyətdən 1993-cü ildə xalqın istəyi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli lider Heydər Əliyev çıxardı.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin qeyd etdiyi kimi, “Belə bir çətin anda, çətin dövrdə xalqımızın müdrikliyi bir daha özünü göstərdi. Xalqın təkidi və tələbi ilə Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana qayıtdı, xalq onu Prezident seçdi və ondan sonra ölkəmizin inkişaf dövrü başlandı. Bütün xoşagəlməz meyllərə son qoyuldu, sabitlik, ictimai asayiş bərqərar olundu, qeyri-qanuni silahlı dəstələr tərksilah edildi. Bir sözlə, Azərbaycan inkişaf yoluna qədəm qoydu”.

1993-cü ilin ikinci yarısından başlayaraq, aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində ictimai-siyasi sabitliyin təmin olunması, istehsalda yaranmış geriləmə proseslərinin qarşısının alınması və digər tədbirlərdən sonra iqtisadiyyatda tənəzzül tədricən aradan qaldırıldı və bununla da Azərbaycanın iqtisadi inkişafında mahiyyətcə yeni mərhələnin təməli qoyuldu. Ən əsası isə bu dövrdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarı ilə yeni bir modeli – Azərbaycan modeli yaradıldı.

Heydər Əliyevin rəhbərliyi ilə iqtisadi islahatların mühüm istiqaməti olan özəlləşdirmə prosesi uğurla həyata keçirildi, 1996-cı ildən ümumi daxili məhsul istehsalı ilbəil artmağa başladı, respublikada görülən təxirəsalınmaz tədbirlər nəticəsində iqtisadiyyatda tənəzzülün qarşısı alındı və beləliklə, 1994-1995-ci illərdə bugünkü nailiyyətlərin əldə olunmasının təməli qoyuldu. Hazırda həmin tarixi dövrü təhlil etdikdə onu sabitləşmə dövrü kimi səciyyələndirmək olar. Məhz həmin illərdə geriləmənin qarşısı alındı və 1996-cı ildən etibarən dirçəliş dövrü başladı.

1997-ci ildən sənaye məhsullarının buraxılışında artım müşahidə edilmiş, bu sıradan neft emalı, metallurgiya, ağac emalı, şüşə və çini-saxsı məhsullar istehsalında artım daha yüksək olmuşdur. Digər istehsal sahələrində geriləmənin sürəti azaldılmış, bəzi hallarda isə bu meyl tamamilə dayandırılmış, hasilat sənayesi ilə yanaşı, qeyri neft sektoru da inkişaf etdirilmişdir. Sənayenin inkişafı ilə yanaşı, Heydər Əliyev respublikada kənd təsərrüfatının inkişaf etdirilməsinə də xüsusi diqqət yetirirdi. Məhz bu diqqətin nəticəsində respublikada 40-dan çox normativ-hüquqi akt qəbul edilmiş, kənd təsərrüfatı məhsullarının satışında qiymətlər tam sabitləşmiş, idxal-ixrac əməliyyatlarında bütün maneələr aradan qaldırılmışdır. Yaxın keçmişdə əsas kənd təsərrüfatı məhsullarını müxtəlif xarici ölkələrdən alan Azərbaycan indi əksinə, xaricə məhsul ixrac edir. Bu da sözsüz ki, məhsul istehsalının intensiv artımı nəticəsində mümkün olmuşdur.

İdxal-ixrac əməliyyatlarının bazar iqtisadiyyatının tələblərinə uyğun qurulması nəticəsində ölkəmizin beynəlxalq əlaqələri ilbəil genişlənir, möhkəmlənir və inkişaf edir. 1991-1994-cü illərdə inflyasiyanın böyük sürətlə, hətta dördrəqəmli faizə qədər artması müşahidə olunduğu halda, aparılan iqtisadi islahatlar nəticəsində 1995-ci ildən başlayaraq, sabitləşmə prosesi getmiş, inflyasiyanın birrəqəmlı həddə saxlanılmasına nail olunmuşdur. İqtisadiyyatda aparılan islahatlar ölkənin maliyyə vəziyyətinin yaxşılaşmasını, dövlət büdcəsinin gəlirlərinin ildən-ilə artmasını təmin etmişdir. 2002-ci ildə dövlət büdcəsinin bütün mənbələrdən daxil olan gəlirləri 1993-cü ilə nisbətən 85 dəfə, xərcləri isə 72 dəfə artmışdır. Ulu öndər tərəfindən həyata keçirilən qətiyyətli iqtisadi islahatlar az birzamanda geniş beynəlxalq dəstək aldı. Beynəlxalq Valyuta Fondu və Dünya Bankı tərəfindən Azərbaycanda iqtisadi islahatlar haqqında xüsusi proqram hazırlanıldı və ölkəmizə maliyyə yardımının göstərilməsinə başlanıldı. Həmin beynəlxalq maliyyə-kredit institutları ilə sıx əməkdaşlıq şəraitində hazırlanmış sabitləşdirmə proqramına uyğun olaraq, iqtisadiyyatın liberallaşdırılmasına yönələn radikal islahatlar həyata keçirildi. Sərt və çevik pul-kredit, büdcə-vergi siyasətinin aparılması, qiymətlərin, xarici iqtisadi fəaliyyətin və valyuta bazarının liberallaşdırılması və xarici kapitalın cəlb olunması nəticəsində tezliklə ölkəmizdə makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin edilməsinə nail olundu. Ölkəmizin iqtisadi artım sürəti 1995-ci ildən başlayaraq, MDB üzrə orta göstəricidən xeyli yüksək olmuşdur. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilən strateji kurs Azərbaycanı zirvələrə doğru gedən ölkələr qrupunda öncül mövqeyə çıxarmışdır. Ölkənin inkişaf səviyyəsində ciddi kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermiş və verməkdə davam edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: “Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan beynəlxalq təcriddən çıxdı. Bu gün Azərbaycan beynəlxalq aləmdə çox görkəmli yer tutur, beynəlxalq təşkilatların üzvüdür, onlarda

fəal iştirak edir. Bütün dövlətlər tərəfindən tanınır. Azərbaycanın böyük hörməti var. Artıq demək olar ki, regional məsələlərdə Azərbaycanın sözü həlledici sözdür. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir regional layihə keçirilə bilməz. Beləliklə, Azərbaycan region üçün mərkəzə çevrilibdir. Bizim nüfuzumuz artır, gücümüz artır. Bu, bizə imkan verəcək ki, qarşımızda duran bütün məsələləri öz xeyrimizə həll edək. Bütün bunlar Heydər Əliyevin xidmətləridir”.

Azərbaycan Respublikasının iqtisadi siyasətinin öncül istiqamətlərindən biri müstəqil dövlətin neft strategiyasının hazırlanması olmuşdur.

Müəllifi Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev olan bu strategiyanın həyata keçirilməsinə 1994-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın aparıcı ölkələrinin (ABŞ, Böyük Britanıya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistan) ən məşhur neft şirkətlərı (Amoko, BP, MakDermott, Yunokal, LUKoyl, Statoyl, Ekson, Türkiyə petrolları, Penzoyl, İtoçu, Remko, Delta) arasında Xəzər dənizinin Azərbaycan bölməsindəki “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında fəaliyyət müddəti 30 il olan müqavilənin imzalanması ilə başlanmışdır.

Azərbaycan üçün həyati əhəmiyyəti olan bu müqavilə həm respublikanın daxilində sabitliyin bərqərar olunmasında, həm də xarici siyasətdə uğurların əldə edilməsində müstəsna rol oynadı və bütün çətinliklərə baxmayaraq həqiqətəndə bəhs olunan dövrdə ölkəmiz güclü “iqtisadi inkişaf mərhələsinə qədəm qoymuşdur ”[2, s.222].

Azəri, Çıraq və Günəşli yataqlarının istismarını nəzərdə tutan “Əsrin müqaviləsi”nin imzalanması ölkəyə külli miqdarda xarici investisiyanın axınına səbəb olmuşdur. Bu, sovet dövründən başlanan danışıqların, Heydər Əliyev tərəfindən atılan konkret addımlarla həyata keçirilməsi idi.

Heydər Əliyev düşünülmüş strategiya edərək, xarici ölkələrin şirkətlərini Azərbaycana gətirdi, bu o demək idi ki, bu ölkələr Azərbaycanla da hesablaşacaqlar. “Əsrin müqaviləsi”nin imzalanması ilə yanaşı hasil olunacaq neftin dünya bazarına çıxarılması üçün əlverişli marşrutun axtarıb tapılması da mühüm əhəmiyyət kəsb edirdi. Heydər Əliyev Azərbaycan neft kəmərinin çoxvariantlılığı ideyası ilə çıxış edərək Bakı-Supsa kəməri işə salınmasına, eyni zamanda “Əsrin müqaviləsi” çərçivəsində hasil olunacaq əsas neftin nəqli üçün “Bakı-Tbilisi-Ceyhan” neft kəmərinin inşa edilməsi üzrə danışıqlar ıntensivləşdirilməsinə nail olur. 1999-cu ilin noyabrında Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri ABŞ-ın dövlət başçısının iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin inşa edilməsinə dair hökumətlərarası saziş imzalanmış, bu kəmərin çəkilməsi yolunda yaradılan çoxsaylı əngəllərə baxmayaraq Ulu öndərimizin siyasi iradəsi və uzaqgörənliyi sayəsində manеələrin hamısı dəf edilərək, bu layihənin gerçəkləşməsi reallığa çevrilmiş, 2003-cü ildə kəmərin tikintisinə başlanılmışdır. Böyük çətinliklərə baxmayaraq, Heydər Əliyevin həyata keçirdiyi uğurlu neft siyasəti nəticəsində Azərbaycan neftinin dünya bazarına çıxarılması reallığa çevrildi və “müstəqilliyin ilk illərində baş vermiş tənəzzülün qarşısı uğurla alındı” [3, s.205].

Bununla yanaşı, ölkəmizin iqtisadi həyatında Heydər Əliyev həm də, Azərbaycan qazının dünya bazarlarına çıxarılması üçün nəzərdə tutulan və regionun kifayət qədər əhəmiyyətli layihəsi hesab olunan Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin də təməlini qoymuşdur. Heydər Əliyev neft gəlirlərinin şəffaf xərclənməsi və gələcək nəsillərə saxlanılması məqsədi ilə Dövlət Neft Fondunun yaradılması kimi xidmətləri ilə də yadda qalmışdır. 1999-cu il dekabrın 29-da “Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında” Fərman imzalamış və ”sosial-iqtisadi inkişaf doktrinasının reallaşdırılması nəticəsində Azərbaycanda güclü iqtisadi baza yaradılmışdı” [1, s.31].

Uğurlu iqtisadi siyasətin məntiqli davamı kimi, resursların daha da səmərəli paylanmasını təmin etmək üçün səmərəli büdcə sistemi və dövlət xərclərinin idraetmə sistemi tələb olunurdu ki, bu sahədə də Ümummilli lider Heydər Əliyev tərəfindən xeyli işlər görülmüşdür. Azərbaycanda büdcə sisteminin təşkilinin, büdcələrin tərtibi, təsdiqi, icrası və onların icrasına nəzarətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, habelə dövlət büdcəsi ilə büdcədənkənar dövlət fondlarının, yerli

(bələdiyyə) büdcələrin qarşılıqlı əlaqələrinin əsas prinsiplərinin müəyyənləşdirilməsi məqsədilə 2002-ci ildə “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının yeni Qanunu qəbul olunmuşdur.

Bununla yanaşı, dövlət büdcəsinin gəlirlər hissəsində önəmli xüsusi çəkiyə malik olan vergi daxilolmalarının artırılması, vergi siyasətinin təkmilləşdirilməsi istiqamətində də Ulu öndərin rolu danılmaz olmuşdur. Belə ki, Heydər Əliyevin tövsiyələrinə əsasən təkmil qanunvericiliyin yaradılması, inzibati idarəetmə'nin yaxşılaşdırılması və vergilərin dövlət büdcəsinə tam səfərbər olunmasına diqqət daha da artırılmışdı. Qısa müddət ərzində dünya standartlarına cavab verən Vergi Məcəlləsi qüvvəyə minmişdir. Vergi Məcəlləsinin qəbul edilməsi, vergi sisteminin təkmilləşdirilməsi və onun beynəlxalq standartlara uyğunlaşdırılması bu istiqamətdə gələcək islahatlar üçün təməl rolunu oynadı. Beləliklə, Ulu öndərin Azərbaycan xalqının tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı müstəqil Azərbaycanın sosial-iqisadi və siyasi həyatında böyük uğurların əldə olunmasında müstəsna rol oynadı.

**İstifadə edilmiş ədəbiyyat**

1. Əliyev siyasəti. Ötən ilin uğurları. I kitab. Bakı: Şəms, 2005
2. Xalqa bağışlanan ömür. Bakı: Şəms, 2004
3. Müdriklik zirvəsi. (Azərbaycan dilində). Bakı: Yazıçı, 2011
4. Şəxsiyyətin qüdrəti (Azərbaycan dilində). Bakı: Yazıçı, 2012

UOT 316.37; 37.03

**Heydər Əliyev dühası – bütöv şəxsiyyətin mücəssiməsinin öyrənilməsinin ideoloji istiqamətləri**

*i.f.d. Ruhiyyə Adil qızı Hüseynova,*
*Mingəçevir Dövlət Universiteti*

Dühalıq – əql və qüdrət sahiblərinin öz ömür yollarında qazandıqları ən kamil davranış vərdişi, milli-mənəvi dəyərlərə sahib olmaq, bəşəri ideyaları mənimsəmə xüsusiyyəti, beyinlərində qavradıqları ən incə bilikləri yerbəyer etməklə onları həyata keçirmək bacarığıdır. Bütün bunlar şəffaf ağlın güçündən, qüdrətindən məharətlə istifadə etmək bacarığı olan sərrast düşüncəli insanların şəxsiyyətini bütövləşdirən amildir. Bəşər tarixinin səhifələrini vərəqlədikcə, bu cür şəxsiyyətlərə nadir hallarda rast gəlinir. Ümummilli liderimiz Heydər Əliyev belə şəxsiyyətlərdən olub. O, güçlü dərketmə qabiliyyətinə, möhkəm yaddaş funksiyasına, əqidə saflığına, şəxsiyyət böyüklüyünə, ağlının güçündən, qüdrətindən bacarıqla istifadə etmək məharətinə malik, dərin zəkalılığına, əhatəli bilik dairəsinə görə əvəzsiz bir dahi olub.

Azərbaycan xalqının 34 illik bütün ictimai-siyasi, sosiali-iqtisadi, maddi-mənəvi həyatı Heydər Əliyevin adı ilə bağlıdır. Bu illər ərzində Azərbaycan böyük inkişaf yolu keçmiş, bir çox uğurlar əldə etmiş, müstəqiil dövlət kimi bərqərar olmuşdur. Milli mənafeyi xalqın mənafeyinə, xalqın mənafeyini dövlən mənafeyinə çevirən siyasi lider – Heydər Əliyev Azərbaycanın tərəqqisini təmin etməklə bərabər, həm də beynəlxalq nüfuz və etibar qazanmışdır. Son dərəcə çətin tarixi şəraitdə də milli dəyərləri yaşatmaq, dövlətçiliyi qorumaq, Azərbaycanın inkişafına nail olmaq kimi çətin vəzifəni yerinə yetirmişdir. Ümummilli lider Heydər Əliyevin Azərbaycanın özünəməxsus dövlət-din münasibətləri modelinin formalaşdırılmasında, eləcə də milli-mənəvi dəyərlərin qorunub saxlanılmasında xidmətləri əvəzsizdir.

H.Əliyev şəxsiyyətinin gücü onun xalqına bağlılığında, torpağına, vətəninə olan hədsiz məhəbbətində, fitri və parlaq istedadında, dərin zəkasında, gözəl və təkrarolunmaz natiqlik

bacarığında idi. Onun 1969-1982-ci illər ərzində respublikamızın tərəqqisi üçün gördüyü işlər müstəsna rol oynamışdır. 1982-1987-ci illərdə Siyasi Büronun üzvü kimi H.Əliyev yenə Azərbaycan naminə çalışmış, özünün bütün güc və bacarığını bu işə səfərbər etmişdir. 1988-1990-cı illərdə baş verən proseslər öz apogeyinə 1990-cı ilin qanlı Yanvar faciəsi zamanı çatmışdır. Bu zaman H.Əliyev Sovet Ordusunun törətdiyi vəhşiliklərə qarşı etiraz səsini Moskvadan ucaldaraq millətinə sahib çıxdığını bütün dünyaya sübut etdi. Müstəqilliyimizin ilk illərində, Vətənimizin, xalqımızın taleyi təhlükədə olduğu bir vaxtda, bir tərəfdən məkrli düşmənin acgözlülüyü, işğalçılıq siyasəti, Ermənistan Respublikası ilə müharibə şəraitində olmağımız, digər tərəfdən iqtisadi çətinliklər, daxili hərc-mərclik, çəkişmələr, vətəndaş müharibəsi təhlükəsi qarşısında qaldığımlz zaman Azərbaycan xalqı öz xilasını H.Əliyevdə gördü və gələcək xoşbəxtliyini onunla bağladı. Çünki ölkədə gedən proseslər Azərbaycanı düşdüyü ağır böhran vəziyyətindən xilas etmək üçün ümumxalq liderinin hakimiyyətə gəlməsini diqtə edirdi. Heydər Əliyevin hakimiyyətə gəlişi ilə ölkədəki hərc- mərcliyə son qoyuldu, atəşkəsə nail olundu, köklü islahatlara başlanıldı, güclü dövlət quruculuğu, iqtisadi inkişafın təmin edilməsi istiqamətində uğurlu daxili və xarici siyasət həyata keçirildi. “Əsrin müqaviləsi” neft kontraktının imzalanması xarici investorların Azərbaycana axınına zəmin yaratdı. O, dünyanın ən nüfuzlu ölkələri ilə hərtərəfli əməkdaşlıq etməklə, bərabərhüquqlu tərəf müqabili kimi iqtisadi və siyasi əhəmiyyətli danışıqlar aparmaqla diplomatik missiyalar yerinə yetirdi. H.Əliyevin tükənməz enerjisi xalqın rifahının yüksəlməsinə yönəlmişdir, çoxillik dövlətçilik təcrübəsi, qabiliyyəti və bacarığı, yüksək intellekti, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, xalqın rifahının yüksəldilməsinə yönəldilmişdir. Gördüyü nəhəng işlərə bərabər olan Heydər Əliyev erası kimi tarixə düşmüş və qədirbilən xalqımızın yaddaşına əbədi həkk olunmuşdu. Ən əsası o oldu ki, xalqın öz rəhbərinə olan dönməz inamı nəinki sarsılmadı, hətta dəfələrlə sınaqdan keçərək daha da möhkəmləndi. Xalqımız xilas olunmaq və qüdrətli Azərbaycana qovuşmaq ümidi ilə Heydər Əliyevin ətrafında yumruq kimi birləşdi və inamla irəlilədi.

Heydər Əliyev siyasi məktəbi milli əqidədən qidalanan bir məbəddir. Ulu öndər əsl azərbaycanlı kimi siyasət meydanına daxil olmuş, öz gedişləri ilə dünyanın ən kamil siyasət adamlarını heyran qoymuşdur. Onun kamillik, aqillik, müdriklik zirvəsinə qovuşması istiqamətində yaşadığı bütün anlar tam incəliklərlə aşılanmalıdır, ona görə ki, Heydər Əliyev mənalı ömür zənginliyini yaşayaraq, işləyərək, zamanın tale yükünü çiyinlərində daşıyaraq, bütöv şəxsiyyət kimi tarixə daxil olmuşdur.

Ulu öndər Heydər Əliyevin ömür yolunu zərrə-zərrə nəzərdən keçirsək, görərik ki, bu ömür yolunda, o, hər danışılan söhbətə, hər deyilən sözə, hər edilən hərəkətə dərketmə, qavrama, beyin süzgəcindən keçirməklə nəticə çıxarmaq qüdrətilə yanaşmışdır. Cünki Heydər Əliyev kimi uzaqgörən bir şəxsiyyət dahilik zirvəsinə qovuşmaq amalı ilə həyatı yaşayanların əqidə bütövlüyü ilə ömür sürdüyünü gözəl bilirdi.

Heydər Əliyev öz milləti qarşısında vətəndaş-şəxsiyyət borcunu layiqincə, ləyaqətlə ödəyən, XX əsrin ikinci yarısında Azərbaycanın milli-mənəviyyat və milli azadlıq tarixi üçün yaddaş ömrü yaşayan şəxsiyyət olmaqla, dünyanın istənilən guşəsindən görülə bilən müdriklik, kamillik, aqillik zirvəsidir. Bu zirvəyə yön olan yol, elə Heydər Əliyev yoludur – Azərbycanın milli azadlıq hərəkatı və milli-mənəviyyat tarixində xüsusi səhifə yaradan tarixə yaddaş ömür yoludur. H.Əliyev ata-babaların ədəb-ərkanını, onların keçdiyi ömür yolunu, söhbətlərini, öyüd- nəsihətləri diqqətdən qaçırtmadı. Aqil insan uğura çıxanda ayaq qoyduğu hər qarış torpağı da diqqətlə gözdən keçirir, kiçicik daşa da fikir verir. Deməli, başladığı yolu sonadək getdikdə yol boyu gördüklərini nəzərdən qaçırmır. Bu, ən böyük ustalıq, ən böyük müdriklikdir. Milli dəyərləri, mənəvi saflığı, əxlaqi keyfiyyətləri hər şeydən uca tutan Heydər Əliyevin şəxsiyyət bütövlüyünü dolğunlaşdıran, onu müdriklik, aqillik, kamillik zirvəsinə qovuşduran amillərdən biri də “cəmiyyət üçün əyri addım atanı cəmiyyət görmək istəmir!” düşüncəsidir.

Heydər Əliyev müdriklik, aqillik, kamillik mücəssiməsidir! O, elmə və təhsilə xüsusi diqqət yetirmiş, təhsil sahəsində islahatların aparılmasında aydın xətt müəyyənləşdirmişdir. Onun elm və təhsilin inkişafında əvəzsiz xidmətləri olmuşdur.

Ulu öndərin mənəvi zənginliyini daha tutumlu edən amillərdən biri də onun qəlbinin əqidəsi qədər böyük və saf olması idi. Əqli, qüdrəti, dərin zəkası, şəxsiyyətcə bütövlüyü, aqilliyi, müdrikliyi, milli-mənəvi dəyərləri müqəddəs sayanlar daxilən mənəvi zəngin adamlardır. Belə insanlar öz ürəklərinin təpəri, dərin düşüncə tərzləri, xüsusi dərketmə qabiliyyəti, dərrakə qüdrətləri bahasına mənəviyyatca zənginliyə qovuşurlar və xalqın tarixində onların xüsusi mövqeyi, zəngin dünyaya malik ayrıca həyat səhifələri olur. Ulu öndər belə şəxsiyyətlərdən olub.

Gələcək nəsillər, elmi araşdırma aparanlar Heydər Əliyevin şəxsiyyət bütövlüyünü formalaşdıran amillərdən biri kimi onun mənəvi zənginliyinin köklərinə də dərindən yanaşmalıdırlar. Bu zaman onun xalqı yolunda əlindən gələni etməyə çalışdığına, ölkədə maddi-mədəniyyət abidələrinin, ana dilinin qorunub saxlanılmasına, xalqın heysiyyatına mənfi təsir edən amillərin dəf edilməsinə, milli şüurun formalaşmasına böyük qayğı ilə yanaşması yönümünə xüsusi diqqət verməliyik. Qeyd edildiyi kimi, milli şüurun formalaşmasında onun əvəzsiz xidmətləri olmuşdur.

Ulu öndər siyasi hakimiyyətə qayıdışının ilk günündə etdiyi çıxışda azərbaycançılığı dövlət idarəçiliyi fəlsəfəsində əsas tezis kimi irəli sürmüşdür: “Azərbaycan Respublikasının ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malik olmalıdır. Əgər biz bu məfhumları rəhbər tuta bilsək və bunu əməli surətdə həyata keçirə bilsək, biz Azərbaycan Respublikasında olan bütün xalqların, bütün millətlərin tam birləşməsini təmin edə bilərik. Bu bizim əsas vəzifələrimizdən biridir”. [8]

H.Əliyev müdrikliyi və siyasəti Azərbaycanı vətəndaş müharibəsindən, daxili parçalanmadan qorudu. Bugün hər birimiz onun tariximizdə qazandığı dövlətçilik təcrübəsini örnək kimi qəbul etməliyik. Əyilməzlik, yenilməzlik, yanılmazlığı onu şəxsiyyət kimi bütövləşdirən amillərdəndir. Mübarizlik zəifliyə, ikiüzlülüyə, sözündən dönməyə, dili və əməlində fərq olmağa, nəyinsə xatirinə həqiqətə, ədalətə göz yummağa, biganəliyə, etinasızlığa şərait yaratmağa imkan verməyən əsl sücaətdir. Mübarizliklə qəhrəmanlıq, igidlik, cəsurluq eyni xüsusiyyətdir. Heydər Əliyevin keçdiyi ömür yolunda onu bütövləşdirən, şəxsiyyət kimi formalaşdıran amillərdən biri də onun mübarizliyi olub. O, qarşısına qoyduğu məqsədə catmaq üçün mübarizliyinin, mətinliyinin dözümlülüyünün gücünə arxalanıb. “Heç kəsin şübhəsi olmasın ki, mən ömrümün qalan hissəsini Azərbaycanın müstəqil dövlət kimi inkişafına sərf edəcəyəm” deməsi əsl vətənpərvər insanın Vətəninə olan məhəbbətinin nə qədər güclü olmasını sübut edir. Onun həyat fəaliyyəti araşdırılarkən bir daha əmin oluruq ki, Vətənini çox sevən bu dahi şəxsiyyətin ideoloğiyası davamlı olaraq daima gənc nəslə aşılanmalıdır.

Ulu öndərin ən böyük mirası, onun siyasi xəttinin davamçısı Prezident İlham Əliyevdir. Cənab Prezidentin rəhbərliyi ilə son 17 ildə aparılan uğurlu daxili və xarici siyasətin həyata keçirilməsi nəticəsində Azərbaycan daha da qüdrətlənmışdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 30 illik həsrətə 44 gün ərzində son qoyaraq düşməni məhv etdi. Böyük tarixi qələbə qazanmaqla, Qarabağ və digər işğal altında olan ərazilərimiz azad edildi, Şəhidlərimizin qisası alındı. Xalqımız öz Prezidentinin ətrafında dəmir yumruq kimi birləşərək torpaqlarımızı işğaldan azad etməklə zəfər sevincini yaşayır.

Bu gün Qarabağ və digər işğaldan azad olmuş ərazilərdə bərpa-quruculuq işləri aparılır. Uzun illər ərzində ümumtəhsil, ali məktəblərdə dövlətçilik ənənəsi, vətənpərvərliyin təbliği milli qürurun da formalaşmağına zəmin yaratmışdır. Cənab Prezidentin uğurlu daxili və xarici siyasəti nəticəsində qüdrətlənmiş Azərbaycan yetişmiş geosiyasi vəziyyətdə, qardaş Türkiyənin mənəvi dəstəyi ilə tarixi missiyamıza nail oldu.

Bu gün Azərbaycan dünyada nüfuz sahibidir, sürətlə inkişaf edir. Gələcək illərdə də bu birliyimizi, həmrəyliyimizi qorumalıyıq ki, Azərbaycan dünyada güclü dövlətlər sırasında haqlı mövqeyində sarsılmasın.

Əminik ki, şəxsiyyət mücəssiməsi olan Ümummilli liderimizin ideologiyasının bundan sonra da təbliği və təşviqi istiqamətində ideoloji işlərin aparılması və onun siyasi xəttinin davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan inkişaf edərək, bundan sonra daha da qüdrətlənəcəkdir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Heydər Əliyevin yubileyinə həsr edilmiş “Heydər Əliyev: Müstəqil Azərbaycan dövlətinin qurucusu” mövzusunda keçirilən konfrans materialları. Bakı, 2003
2. https://azdrama.az
3. https://www.sdu.edu.az/az/news/1031
4. https://multiculturalism.preslib.az/az_a2.html
5. https://heydaraliyev-centers.az/saatli/events/5041
6. https://nk.gov.az/az/article/549/
7.https://heydaraliyev-centers.az/saatli/events/5041
8. http://www.dqdk.gov.az/az/view/news/8807/umummilli-lider-heyder-eliyevin-xalqimizin-milli-menevi-deyerlerinin-qorunub-saxlanmasinda-tarixi-xidmetleri-evezsizdir

UOT 81

**Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti**

*fil.f.d. Rahilə Mirzəli qızı Məmmədova,*
*Mingəçevir Dövlət Universiteti*

Poetik bir sistem kimi şifahi nitqi araşdırmaq çox çətindi. Natiqlik sənətində bu ciddi bir problem hesab olunur. Bunun səbəblərindən biri danışanın dilində nitq özünü daha parlaq, daha təsirli büruzə verir. Nə qədər güclü olsa da o, yazıya alınanda ədəbi-bədii mətnə çevriləndə adiləşə bilər. Şifahi nitq yazıya alınanda nadir hallarda qüdrətini qoruyub saxlya bilir. Bu cür hallardan biri Heydər Əliyevin nitqlərində müşahidə olunur.

Ulu öndərin intonsiya ilə danışığını, nitqini zamanında canlı şəkildə radio və televiziya vasitəsi ilə dinləmişik. Heydər Əliyev nitqində bədii ifadə vasitələrini təhlil etməyə və poetikasını açmağa real elmi-nəzəri imkanlar yaranıb. Liderin birbaşa müraciəti, nitq vasitəsi ilə insanlarla ünsiyyətidir. Nitqdə deyilən hər sözün funksiyası, səsin auditoriyaya ünvanlanma tembrdən, səsli ahəngi və gözəlliyi var. Nitqin ahənginin açılması, nitqin poetikası və struktual təhlili deməkdir. Heydər Əliyevin nitqlərində bir neçə ideya-poetik xüsusiyyətlər vardır. Bunlardan ictimai siyasi çeviklik, dərin fəlsəfi məzmun və təsirli səslə müşayiət olunan bədii forma. Ulu öndərin səsinin ahəngi, təmkinli, amiranə və qururlu idi.

Nitqdə nə qədər hazırlıq olsa da, bədahətən söylənilir, ona görə də Allah vergisi, qeyri-adi istedad sayılır. Ulu öndər hər zaman gözəl nitq söyləməklə natiqlik sənətinin qayğısına qalmış, ana dilimizə, dinimizə, mədəniyətimizə gözəl poetik forma verərək, şifahi nitqində səsləndirərdi. O, Azərbaycan dili ilə bağlı söhbətlərində nitq mədəniyyəti məsələlərinə xüsusi diqqət yetirirdi. [1, s.24] İnsanın mədəni yetkinliyin, cəmiyyət üçün faydalı bir şəxsiyyət kimi formalaşmasının meyyarlarından biri onun nitq mədəniyyətinə yiyələnməsidir. Nitq insanın əqli fəaliyyətinin yaranmasında bilavasitə iştirak edir və onun əsası olur. Nitq mədəniyyətinin yüksək səviyyəsi yalnız onun, dilin bütün cəhətləri (fonetika, leksika orfoepiya, söz yaradıcılığı, orfoqrafiya, morfologiya, sintaksis, üslubiyyat) ilə təbii surətdə birləşdirilməsi şəraitində təmin edilə bilər. Nitqdə təbiilik, düzgünlük, məntiqilik, təmizlik, zənginlik, aydınlıq, sadəlik, səlislik, ardıcıllıq və s. kimi normalar gözlənilməlidir. [4, s.397] H.Əliyev Azərbaycan dilini çox sevirdi və bu dildə danışmağı ilə fəxr edirdi.

Heydər Əliyev xalqla onun öz dilində danışırdı. İnsanlar onun nitqinin gözəlliyinə, zənginliyinə, axıcılığına, səlisliyinə məntiqliliyinə heyran qalır, onu dinləməkdən məmun olurdular. Onun nitqi həqiqi mənada yaradıcı fəaliyyət idi. Cümlələrin quruluşu, sözlərin, ifadələrin işlədilməsində orijinallıq, özünəməxsusluq daima nəzərə çarpardı.

Heydər Əliyev bir natiq kimi zəngin söz ehtiyatına malik idi. Danışarkən duruxmaz, söz axtarmaq üçün fikirləşməzdi. O, nitqində söz və ifadələrin təkrarına mümkün qədər yol verməzdi. Düzgün seçilən və yerində işlədilən ifadəlilik vasitələri – leksik və frazeoloji sinonimlər, antonimlər nidalar, müraciətlər, ritorik suallar və s. onun nitqini təsirli edir, estetik cəhətdən gözəlləşdirirdi. "Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini – Azərbaycan dilini, dövlət dilini mükəmməl bilməlidir" deyən Heydər Əliyevə bu dil əziz idi, müqəddəs idi. O, bu dilə mükəmməl yiyələnmişdi. Bu dildə, demək olar ki, hamıdan yaxşı danışırdı.

Heydər Əliyevin nitqində möhkəm bir məntiq, rabitə vardır. O heç bir qeydə baxmadan danışar, faktlar, sübutlar gətirər, dinləyiciləri qane edəcək şərhlər verərdi. İti yaddaş və güclü hafizəyə malik olan H.Əliyevə dinləyicilər böyük maraqla qulaq asar, onu bütövlükdə anlayar və qəbul edərdilər.

H.Əliyev yüksək nitq mədəniyyətinə sahib idi. Onun danışığında nitqin bütün etik normalarına riayət olunurdu. Heydər Əliyev öz səfərbəredici nitqi, danışıq tempi, manerası, jestləri, mimikası və s. ilə auditoriyanı ələ alar, öz ideyalarını dinləyicilərə aşılayardı.

H.Əliyev görkəmli natiq, söz ustası kimi də tarixdə qaldı. Onun nitqləri, çıxışları, söhbətləri, natiqlik məharəti mütəxəssislər tərəfindən öyrənilmiş, bu barədə əsərlər də yazılmışdır. Lakin bu sahədə geniş axtarışlara yenə də ehtiyac vardır [1, s.24-25].

Azərbaycan xalqının tarixində və taleyində Heydər Əliyevin rolunu tam dolğunluğu ilə ifadə edən tərif tapmaq qeyrimümkündür. O həm Ümummilli lider, həm görkəmli dövlət və partiya xadimi, həm də yeni, suveren Azərbaycanın memarı və əlbəttə ki, böyük bir nəslin Heydər babası kimi yadda qaldı. Onun dövlətçilik, siyasi, ideya-nəzəri, ideya-tərbiyəvi, maarifçilik, təşkilatı və diplomatik fəaliyyətinin hətta kiçik bir tərəfinin tam həcmini və məzmununu ən geniş və əhatəli məfhumla ifadə etmək mümkün deyildir. Çünki bu görkəmli şəxsiyyətin qeyri-adi düşüncə tərzi, iti zehni, siyasi təfəkkürünün genişliyi və çevikliyi, istər ənənəvi, istərsə də meydana çıxan yeni problemlərin həllinə yenilikçi kimi yanaşması, kiçik və yaxud böyük məsələlərin həllində psixoloji amildən istifadə etmək qabiliyyəti və həddən artıq kəskin siyasi duyumu onun siyasi, dövlətçilik, ideya-nəzəri və sosial fəaliyyətinin hər bir tərəfini yeni keyfiyyətlərlə, qeyri-adi ünsürlələ və xüsusiyyətlərlə daha da zənginləşdirir. Lakin "yaradıcı" adlı məlum və əhatəli anlayış da mövcuddur. Heydər Əliyev məhz yaradıcı şəxsiyyət idi. Odur ki, onun təhsil sisteminə, təhsil müəssisələrinin fəaliyyətinə, biliklərin mənimsənilməsinə, cəmiyyətin və millətin əqli potensialının inkişafına dair ideyalarında, mülahizələrində, tövsiyə və məsləhətlərində yaradıcılıq və tərəqqi meyarları əsas yer tuturdu.

Heydər Əliyevin ideya və mülahizələrinin başlıca məğzi ondan ibarətdir ki, təlim və təhsil sistemi, məktəb və ali təhsil müəssisələrinin müəllimləri yalnız bir məqsədə – cəmiyyətin və millətin sosial, əxlaqi, mənəvi, mədəni və əqli tərəqqisinə, dövlətin iqsadi inkişafına xidmət etməlidir. Təhsil, tədris müəssisəsi, müəllim, elm, biliklər – ölkənin, dövlətin, millətin tərəqqisini təmin etməli, xalqın həyatının yaxşılaşmasına kömək etməlidir [3, s.3-5].

Elm və təhsilin qarşılıqlı əlaqəsi və bir-birindən asılılığı haqqında Heydər Əliyevin başqa bir ideyası da son dərəcə aktualdır: yeni istiqamətlər üzrə elmi tədqiqatların təşkili və elmin yeni sahələrinin yaradılması üçün istər təhsilin keyfiyyətinə, istərsə də Azərbaycanın təhsil müəssisələrində olmayan ixtisaslar siyahısına daim diqqət yetirilməlidir.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında şagird və tələbələrin mənəvi tərbiyəsi sahəsində məqsədyönlü tədbirlər həyata keçirildi. Ulu öndər Azərbaycanın şagird və tələbələrini yalnız peşəkarlıq baxımından savadlı deyil, eyni zamanda mənəvi və əxlaqi yetkin bir şəxsiyyət kimi görmək istəyirdi [3, s.6-8].

Ümummili liderimizi, adı müasir tariximizə qızıl hərflərlə yazılan Heydər Əliyevi ancaq yeri-göyü işığa qərq edən, qaranlıqları aydınlaşdıran Günəşlə, bir də qartal məskəni, uca göylərə yüksələn zirvə ilə müqayisə etmək mümkündür.

Heydər Əliyev bütün cəhətlərə görə hər zaman zirvədə dayanacaq bir şəxsiyyətdir. Onun zəkası, ideyaları daim Azərbaycanın üzərində Günəş kimi parlayacaq, yolumuzu nura qərq edəcək. Xalqımız fəxr edə bilər ki, onun ləyaqətli övladı Heyər Əliyev hələ sağlığında ikən öz adını

dünyanın sayılıb-seçilən görkəmli dövlət xadimlərinin, tarixi simalarının siyahısına yazmış və bununla da hər birimizə başucaığı gətirmişdir [2, s.9-10].

**İstifadə edilmiş ədəbiyyat**


1. Abdullayev N., Məmmədov Z. Nitq mədəniyyətinin əsasları. Bakı, 2008, 277 s.
2. Əbdülhəsənli T., Zülfüqarlı S. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı, 2014, 469 s.
3. Heydər Əliyev. Təhsil, Bilik, Məktəb. Bakı, 2006
4. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı, 2003, 499 s.


UOT 81:001.12/18; 398; 801.8

**Heydər Əliyev və Azərbaycan mədəniyyəti**

*fil.f.d. Günel Kamil qızı Yunusova,*
*Mingəçevir Dövlət Universiteti*

Heydər Əliyev Azərbaycan mədəniyyətinin, ədəbiyyatının və incəsənətinin kamil bilicisi və vurğunu idi. Ulu öndər respublikamıza rəhbərlik etdiyi illərdə Azərbaycan incəsənətinin tərəqqisi və inkişafı üçün əlindən gələni əsirgəməmişdir. Çünki o, çox gözəl bilirdi ki, bir dövləti, xalqı digər dövlətlərdən fərqləndirən əsas cəhətlərdən biri də məhz həmin dövlətin, xalqın özünəməxsus incəsənət sahələrinin olmasıdır. Heydər Əliyevin xidmətləri nəticəsində Azərbaycan mədəniyyəti, sözün həqiqi mənasında, yüksəliş dövrü keçdi.

Heydər Əliyev ədəbiyyatdan da, teatr və kino sənətindən də, musiqi və rəssamlıqdan da bəhs edəndə həmin sahələrə məhz dövlətçilik mənafeləri baxımından yanaşırdı. Azərbaycan dili, ədəbiyyatı, mədəni-mənəvi dəyərləri Ümummilli liderin azərbaycançılıq fəlsəfəsinin, müstəqil Azərbaycanın milli və dövlət ideologiyasının əsas məxəzləri, bədii-fəlsəfi mənbələridir.

Tarix göstərir ki, Azərbaycan dili müxtəlif dövrlərdə rəsmən dövlət dili kimi elan edilib, bir müddət fəaliyyət göstərsə də, dövlət dili statusu uzun sürə bilməmişdir. Yalnız xalqımızın Ümummilli lideri Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəldikdən sonra milli dilimizin xilaskarı kimi tarixə öz əbədi imzasını qoydu. Tam qətiyyətlə demək olar ki, Ulu öndər Heydər Əliyevin keçən əsrin 70-80-cı illərində yetirdiyi fəal və ardıcıl dil siyasəti Azərbaycanda milli özünəqayıdış, milli özünüdərk və milli azadlıq ruhunu yüksəltdi.

Ulu öndərin təşəbbüsü və fəal iştirakı ilə 1995-ci il oktyabrın 31-də “Konstitusiyanın dövlət dili haqqında” maddəsi ilə bağlı keçirilən gərgin və tam demokratik müzakirələr nəticəsində Azərbaycan dilinin qanuni haqqı özünə qaytarıldı. Həmin il noyabrın 12-də qəbul olunan Konstitusiyada Azərbaycan dili Azərbaycan Respublikasının Dövlət dili kimi təsbit (21-ci maddə) olundu. Ulu öndərin imzaladığı “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 18 iyun 2001-ci il tarixli, 506 saylı Fərman, “Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının tərkibinin təsdiq edilməsi haqqında” 4 iyul 2001-ci il tarixli, 76 nömrəli Sərəncam, “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” 9 avqust 2001-ci il tarixli, 552 nömrəli sərəncam və nəhayət, 2003-cü il yanvarın 2-də qüvvəyə minmiş “Azərbaycan Respublikasının dövlət dili haqqında” Qanun ölkəmizdə dil siyasəti və dil quruculuğunun mükəmməl konsepsiyasını, onun uzunmüddətli strategiyasını və aydın proqramını verən tarixi qanunvericilik aktlarıdır. Bu sənədlərin hazırlanmasında böyük tarixi şəxsiyyət Heydər Əliyevin yüksək intellekti, zəngin dövlətçilik təcrübəsi, yenilməz məntiqi, vətəndaşlıq qeyrəti, ana dilinə misilsiz məhəbbəti mühüm rol oynayıb.

Milli tariximizə Heydər Əliyev epoxası kimi daxil olmuş 1969-2003-cü illərdə Azərbaycan dilinin hərtərəfli inkişafı yalnız rəsmi sənədlərdə deyil, sözün həqiqi mənasında, gündəlik həyatda, təcrübədə ümumişlək dilə, dövlət dilinə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə, dünya diplomatiyasına yol tapması, beynəlxalq aləmin çox mötəbər məclislərinin kürsülərindən eşidilməsi Ulu öndərin ana dilimizin inkişafına, onun sosial-siyasi və mədəni həyatda layiqli yer tutmasına göstərdiyi qayğı və diqqətin, son dərəcə dəqiq, düşünülmüş və uzaqgörən dil siyasətinin nəticəsində mümkün olmuşdur.

Heydər Əliyev Azərbaycan xalqının misilsiz sərvəti olan klassik irsə, ümumən bədii ədəbiyyata xüsusi önəm verirdi. Onun bir fikri bütövlükdə ədəbiyyata, zəngin söz sənətimizə münasibəti üçün epiqrafdır: "Bu gün, ümumiyyətlə, müstəqillikdən danışarkən ədəbiyyatımızın xalqımız üçün nə qədər zəngin sərvət olduğunu qeyd etmək lazımdır. Bizim ədəbiyyatımız, mədəniyyətimiz xalqımızın milli sərvətidir və intellektual mülkiyyətidir. Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xaıqımıza birinci növbədə ədəbiyyatdan keçir."

Məhz Heydər Əliyevin böyük nüfuzu sayəsində ədəbiyyatımız və mədəniyyətimiz dünyanın ən qabaqcıl mədəniyyətləri sırasına yüksəldi. O, dünyanın qədim, böyük türk eposu "Kitabi-Dədə Qorqud"un 1300 illiyini bütün dünyada keçirməklə həm dastanın ilk növbədə Azərbaycan hadisəsi olduğunu sübut etdi, həm də Sovet rejiminin pərən-pərən saldığı dünya türklərini bu dastan ətrafında bir yerə toplamaqla türk birliyi yaratmağa nail oldu. Heydər Əliyev hamıdan yaxşı bilirdi ki, türkləri birləşdirmək üçün onları ortaq məxrəcə gətirən ideyanı ortaya qoymaq lazımdır. Məhz onun müdrikliyi, böyük uzaqgörənliyi sayəsində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyi bütün dünyada qeyd olundu.

Heydər Əliyev müasiri olduğu yazıçılara da xüsusi qayğı ilə yanaşmış, onları yüksək dövlət mükafatları ilə mükafatlandırmış, təntənəli surətdə yubileylərini keçirmişdir. Bu sıradan xalq yazıçıları İlyas Əfəndiyevin, İsmayıl Şıxlının, Anarın, Hüseyn Abbaszadənin, Yusif Səmədoğlunun, Maqsud İbrahimbəyovun, Hüseyn İbrahimovun, xalq şairləri Məmməd Arazın, Nəbi Xəzrinin, Bəxtiyar Vahabzadənin, Mirvarid Dilbazinin, Məhəmmədhüseyn Şəhriyarın, Qabilin, Xəlil Rza Ulutürkün, Zəlimxan Yaqubun adına keçirilən mərasimlər unudulmazdır. Onun sayəsində Azərbaycan mədəniyyəti ümumdünya mədəni məkanında tanınır, sevilirdi. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə "Kitabi-Dədə Qorqud" eposunun, Füzuli, Nəsimi kimi korifey sənətkarların dünya miqyasında yubileylərinin keçirilməsi, Molla Pənah Vaqifin, Hüseyn Cavidin məqbərələrinin inşa edilməsi, İmadəddin Nəsiminin, Nəriman Nərimanovun, Cəfər Cabbarlının heykəllərinin ucaldılması, şəhidlərin xatirə kompleksinin və digər monumental sənət əsərlərinin yaradılması, ədəbiyyat və mədəniyyət xadimlərimizin ev muzeylərinin açılması, "Gülüstan" sarayı, Opera studiyası, Xoreoqrafiya məktəbi kimi memarlıq abidələri əlamətdar hadisələr idi. Bütün bunlar Azərbaycan xalqının milli mədəniyyətinin misli görünməmiş yüksəlişinin təzahürləri idi.

Ədəbiyyata xalqın taleyinin və tarixi yaddaşının əks-sədası kimi baxan Heydər Əliyev bədii düşüncədə tarixilik, millilik və müasirlik prinsiplərinə xüsusi dəyər vermişdir. Millilik, tarixilik və müasirlik Heydər Əliyevin dövlətçilik təlimində ədəbiyyat siyasətinin əsasını təşkil edir. Bu prinsiplər qüdrətli dövlət xadiminin siyasi fəaliyyətinin də təməl şərtlərindəndir. Həmin prinsiplər Heydər Əliyevin dövlətçilik təlimində və ədəbiyyat siyasətində yanaşı mövcud olan amillər deyildir. Əksinə, qeyd olunan istiqamətlər Heydər Əliyev təlimində dövlətçilik fəaliyyəti ilə ədəbiyyat işinin vəhdətində, üzvi sintezində tam məna tapa bilir. Görkəmli dövlət xadimi dövlətçilik fəaliyyəti prosesində millilik amilini, tarixilik anlayışını və müasirlik prinsipini ardıcıl olaraq həyata keçirmək yollarındakı mübarizəsində ədəbiyyatda dərin iz salmış, köklü ənənələrə malik olan həmin amillərdən yerli-yerində, əsaslı şəkildə faydalanmaqla özünün ali məqsədinə nail olmağa çalışmışdır. [2]

Novruz bayramının Azərbaycanda dövlət səviyyəsində qeyd olunması Ulu öndərimizin adı ilə bağlıdır. Sovet imperiyası dövründə Novruz bayramına "dini bayram" damğası vurulub qeyd olunmasına sərt qadağa qoyulmuşdur. Lakin bu bayram sovetlər birliyi dövründə rəsmən yasaq

edilsə də, Ümummilli lider Heydər Əliyevin milli ənənə və dəyərlərə daxilən möhkəm bağlılığı bu bayramın xalq arasında sevilərək yaşadılmasını təmin etmiş, folklorşünaslıq və fəlsəfə sahəsində aparılan elmi tədqiqatlarda onun ideoloji-siyasi əhəmiyyəti dolayı şəkildə önə çəkilmişdir. Ötən əsrin 70-ci illərində isə Novruz bayramı ilk dəfə olaraq, məhz Ulu öndərin xeyir-duası ilə rəsmən qeyd olunmuş, televiziya ilə yayımlanmışdır. Ümumxalq bayramının yüksək səviyyədə keçirilməsi Azərbaycan xalqının milli ruhunu yüksəldir, milli irsə, tarixə böyük məhəbbət yaradır, özünədərki gücləndirirdi. Novruz adət-ənənələri o dövrdə çəkilmiş filmlərdə də özünə yer tapırdı. Hər dəfə “Dəli Kür” filmini seyr edəndə Novruzun necə təbliğ olunduğunu əyani şəkildə görürük. Bəli, məhz müdrik rəhbərin qayğısı ilə o illərdə qorunub saxlanılan milli-mənəvi dəyərlər sonralar Azərbaycan xalqının dövlət müstəqilliyinin bərpasında müstəsna rol oynamışdır.

Bütün bunlar o vaxt ölkəmizin rəhbəri seçilən Ümummilli lider Heydər Əliyevin öz xalqına, onun qədim, zəngin tarixinə, mədəniyyətinə, milli adət-ənənələrinə tükənməz məhəbbətinin əyani təzahürü idi. Ulu öndər Heydər Əliyev Novruzu həm də milli birlik bayramı adlandırırdı. “Novruz bizim ən qədim milli bayramımızdır. O, xalq bayramıdır. Novruz bayramı insanları, xalqımızı həmişə sevindirib, ən çətin anlarda, ən ağır günlərdə də onlarda xoş, nikbin əhval-ruhiyyə yaradıbdır. Ona görə də bu bayram hər bir azərbaycanlı üçün əziz bayramdır”. Onunla da fəxarət duyuruq ki, BMT tərəfindən 21 mart “Beynəlxalq Novruz Günü” elan edilmişdir. [3]

Ulu öndərimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı cənab Prezident İlham Əliyev, Novruzu hər bir azərbaycanlının daxili aləmində ən ülvi niyyətlərin və saf duyğuların yer tutduğu bayram kimi qiymətləndirir.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin Azərbaycan kinematoqrafiyasının inkişafında da rolu çox böyük olmuşdur. O, incəsənət növləri arasında kinonu çox yüksək qiymətləndirmiş, Azərbaycan kinematoqrafiya xadimlərinin xalqımızın keçmiş və müasir həyatından onlarca yüksək keyfiyyətli ekran əsərləri yaratdıqlarını xüsusi vurğulamışdır.

Hələ 1970-80-ci illərədə Azərbaycana rəhbərlik etdiyi dövrdə kino sənətinin inkişafına, həmin sahədə çalışanlara qayğı və hörmətlə yanaşan Heydər Əliyev Azərbaycan Prezidenti seçildiyi gündən respublikanın kino sənəti xadimlərindən öz qayğı və məhəbbətini əsirgəməmişdir.

1970-ci illərdə Azərbaycanda, bütün sahələrdə olduğu kimi, teatr sahəsində də intibah yarandı. Teatra, sənət adamlarına böyük qayğı və hörmətlə yanaşan, onlara sözün əsl mənasında hamilik edən respublikamızın başçısı Heydər Əlirza oğlu Əliyevin səyi və köməyi nəticəsində milli teatr sənətimiz vüsətli inkişaf yoluna düşdü.

1974-cü ildə Azərbaycan teatrının 100 illik yubileyi görünməmiş təntənə ilə qeyd olundu. Azərbaycan KP MK-nın o vaxtkı birinci katibi Heydər Əliyevin dərin məzmunlu məruzəsi dinlənildi. Yubiley münasibətilə “Gülüstan” sarayındakı ziyafətdə də H.Əliyev sənət, sənətkarlar və sənətkarlıq barədə məruzə ilə çıxış etdi.

1998-ci ildə Azərbaycan teatrının 125 illik yubileyi münasibətilə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev sərəncam imzaladı. Sənət adamları fəxri adlara layiq görüldülər.

O, zəngin ensiklopedik biliyə malik olan dahi şəxsiyyət idi. Bu mənada incəsənətin bir qolu olan musiqi də onun diqqətindən kənar deyildi. Heydər Əliyev musiqini çox sevir, bu sənətin sirlərini dərindən bilirdi. Ulu öndərin Azərbaycan musiqisi sahəsində də əməyi çox olmuşdur. Dahi şəxsiyyət musiqi sahəsinə xüsusi diqqət və qayğı ilə yanaşırdı. Çünki xalq musiqimiz Azərbaycan mədəniyyətinin, tarixinin əsasını təşkil edir.

Hər bir xalqın musiqi irsində olduğu kimi, Azərbaycan xalq musiqisini həm dövlətimizdə, həm də xaricdə tanıdan,yaşadan musiqiçilərimiz vardı. Heydər Əliyev Azərbaycan musiqi mədəniyyətinin böyük yaradıcıları olan dünya şöhrətli bəstəkarlar Üzeyr Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Arif Məlikov, məşhur müğənnilər Rəşid Behbudov, Müslüm Maqomayev, Şövkət Ələkbərova, Zeynəb Xanlarova və başqalarının sənətinə yüksək qiymət verərək, onların fəaliyyətinin beynəlxalq arenaya çatdırılması üçün geniş çalışmışdır. Görkəmli musiqiçilərlə yaxın ünsiyyəti vardı və münasibətlər musiqi sənətinin inkişafına xidmət edirdi. Onun uzaqgörənliyi və müdrikliyi, millətinə sonsuz məhəbbəti sayəsində Azərbaycan musiqisi təkcə SSRİ-də deyil, dünyada tanındı. Neçə-neçə bəstəkarımız SSRİ Xalq artisti adına layiq görüldü. İttifaqın ən yüksək

orden və medalları ilə təltif olundular. Üç böyük bəstəkarımız – Qara Qarayev, Niyazi və Fikrət Əmirov və müğənni Rəşid Behbudov Sosialist Əməyi Qəhrəmanı kimi yüksək fəxri ada layiq görüldülər. [1]

H.Əliyev musiqi təhsilinə də xüsusi diqqət ayırırdı. Ölkənin ayrı-ayrı şəhər və rayonlarında musiqi məktəbləri, muğam və aşıq sənəti ilə bağlı yaradıcılıq mərkəzlərinin yaradılması üçün xüsusi göstərişlər vermişdir.

Ulu öndərin apardığı siyasəti bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev müvəffəqiyyətlə yerinə yetirir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Quliyev A. Heydər Əliyev Azərbaycan musiqi sənətinin böyük hamisidir // “Musiqi dünyası” jurnalı, 2008, №3-4, s.18-19
2. Heydər Əliyev Azərbaycan elminin hamisi idi. “Respublika“ qəz., 2009, №150, s.1-2
3. Heydər Əliyev elm və təhsilin, milli-mənəvi dəyərlərin himayədarı idi. “Xalq qəzeti”, 2011, №89, s.7

UOT 502.14:3

## Heydər Əliyevin ekoloji siyasət xətti: dünən və bu gün

*b.f.d. Vüsalə Sahib qızı Mustafayeva,*
*Mingəçevir Dövlət Universiteti*

Müasir Qloballaşan dünyada müstəqil Azərbaycan Respublikasının ekoloji siyasəti dövlətin ümumi siyasət xəttinin başlıca istiqamətlərindəndir. Ekoloji siyasətin başlıca istiqaməti – ətraf mühitin mühafizəsi, təbii ehtiyatlardan düzgün istifadəsi və bərpası, insanların təbiətlə normal rəftarı, ekoloji təhlükəsizliyin təmin edilməsi və bu istiqamətdə aparılacaq hüquqi, siyasi və sosial xarakterli tədbirlərdir.

Digər tərəfdən, dövlətin ekoloji siyasəti həm də onun cəmiyyət və təbiət arasmda optimal qarşılıqlı əlaqələrinin təşkil olunmasına dair fəaliyyəti kimi nəzərdən keçirilir [4].

Müasir Azərbaycanın qurucusu Heydər Əliyev ölkəmizin bu günki inkişafın və tərəqqinin təməlini çox öncədən qoymuşdur. Hələ 1969-1982-ci illərdə, ölkəmizdə fəaliyyətdə olduğu dövrdə qəbul edib, həyata keçiridiyi siyasi-strateji qərarlarla Azərbaycanın bu günki dövlət inkişafının təməllərini qoymuşdur. Məsələn, 1970-cii illədək Bakıda 3 min hektara qədər yaşıllıq sahəsi mövcud idisə, 70-ci illərdən etibarən həyata keçirilən yaşıllaşdırma tədbirləri ilə 17 min hektara çatdırılmışdır. Həmin illərdə ətraf mühitin mühafizəsi və təbii sərvətlərin səmərəli istifadəsi haqqında 8 qanun qəbul olunmuş, 30-dan artqı qərar təsdiqlənmişdir.

Azərbaycan 1990-cı illərdə müstəqillik qazandıqdan sonra ölkədə yaranmış dərin siyasi böhran şəraitində ekoloji problemlərin həllinə yönələn addımların həyata keçirilməsi qeyri-mümkün idi. Ümummilli lider Heydər Əliyevin 1993-cü ilin yayından etibarən qətiyyətli addımları ilə ölkədə ictimai-siyasi sabitlik yaradılmış, ekoloji siyasətin aparılmasına başlanılmışdır. Heydər Əliyevin ekoloji strategiyasında başlıca məqsəd ətraf mühitin ekoloji cəhətdən təhlükəsizliyinin təmin edilməsi, onun daha da yaxşılaşdırılması, əhalinin sağlam ekoloji həyatı və ölkənin təbii ekosistemlərinin qorunması idi [3, s.125].

Azərbaycan Respublikasının Konstitusiyasının 39-cu və 78-ci maddələrinin müddəalarına müvafıq olaraq yeni ekoloji qanunvericiliyin formalaşdırılması baxımından Heydər Əliyev tərəfındən “Ətraf mühitin mühafızəsi haqqmda” (8 iyun 1999-cu il), “Ekoloji təhlükəsizlik

haqqında" (8 iyun 1999-cu il), "Xüsusi mühafızə olunan təbiət əraziləri və obyektləri haqqında" (24 may 2000-ci il), "Ətraf mühitə dair informasiya almaq haqqında" (12 mart 2002-ci il), "İcbari ekoloji sığorta haqqında" (21 aprel 2002-ci il), "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" (10 dekabr 2002-ci il) Azərbaycan Respublikasınm Qanunlarının imzalanması və qüvvəyə minməsi dövlətimizin ekoloji siyasətinin hüquqi bazasının yaradılmasmda əhəmiyyətli addımlardır. Ulu öndərin reallaşdırdığı strateji kursda ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq müqavilələrə qoşulmağa da xüsusi yer verilmiş, onun rəhbərliyi altında Azərbaycan Respublikası çoxlu sayda beynəlxalq konvensiyalara qoşulmuşdur. Bunlardan "Bitkilərin mühafızəsi haqqında", "Biomüxtəliflik haqqında", "Nəsli kəsilmək təhlükəsi altmda olan təbii flora və fauna növlərinin beynəlxalq ticarəti haqqmda", "Səhralaşmaya qarşı mübarizə haqqında" və s. beynəlxalq konvensiyaları xüsusi əhmiyyətli idi [3, s.126].

Ölkədə Heydər Əliyevin rəhbərliyi ilə uğurla aparılan islahatlar çərçivəsində ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadəsi ilə məşğul olan və fəaliyyətlərində bir-birini təkrarlayan dövlət strukturları Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 23 may tarixli 485 nömrəli Fərmanı ilə ləğv edilərək, Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət və Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitələrinin bazasında Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılmış, Prezidentin 18 sentyabr 2001-ci il tarixli Fərmam ilə həmin Nazirliyin Əsasnaməsi təsdiq edilmişdir. Əsasnamədə Nazirliyin vəzifələrinə təbii sərvətlərin öyrənilməsi, onların istifadə edilməsi, bərpası və mühafizəsi, bu sahədə ekoloji təhlükəsizliyin təmin edilməsi, bioloji müxtəlifliyin qorunub saxlanılması, su və mineral xammal ehtiyatlarından səmərəli istifadə edilməsi və digər sahələrdə dövlət siyasətinin həyata keçirilməsi və s. daxil edilmişdir [3, s.126].

Heydər Əliyevin strateji siyasət xəttinin davamçısı Azərbaycan Respublikasının prezidenti, cənab İlham Əliyev ekoloji siyasət haqqında çıxışında demişdir: "Ətraf mühitin qorunması bizim üçün çox vacib məsələdir. Xüsusilə neftin qalıqları ilə çirklənmiş torpaqlarm təmizlənməsi, meşə təsərrüfatmın bərpası və digər məsələlər öz həllini tapmalıdır... İndi biz Azərbaycanın hərtərəfli inkişafı üçün, gənc nəslin sağlam böyüməsi üçün bu sahəyə də diqqət göstərməliyik"[3, s.127].

2010-cu il fevralın 18-də ekoloji problemlərə həsr olunmuş müşavirədə Azərbaycan Prezidenti İlham Əliyev "Ekologiya ili"nin başlıca vəzifəsini müəyyən edərək göstərmişdir: "Əsas məsələ ondan ibarətdir ki, Respublika səviyyəsində bu işlərin görülməsi üçün ciddi və güclü iradəsi vardır... 2010-cu il Azərbaycan tarixində nəinki "Ekologiya ili" kimi qalacaq, bu il Azərbaycan tarixinə ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dönüş ili kimi yazılacaqdır" [3, s.134]. Ölkədə həyata keçirilən ekoloji əhəmiyyətinə toxunan Prezident İlham Əliyev bu sahəyə indiki və gələcək nəsillərin maraqları naminə çox böyük diqqət göstərildiyini qeyd edərək demişdir: "Bu elə sahədir ki, buraya qoyulan vəsaiti, bəlkə də, Azərbaycan iqtisadiyyatı da, vətəndaşları da görmürlər. Amma bunu həm indiki nəsillər, həm də gələcək nəsillər görəcək" [2].

Respublikamızda həyata keçirilən müasir ekoloji siyasət strategiyasının mərkəzində insan, onun sağlamlığı, təhlükəsizliyi, təbiətimizin və təbii ehtiyatların və maddi resursların qorunması və səmərəli istifadəsinin təmin edilməsi durur. Bu siyasətin məqsədi gələcək nəsillərin daha təmiz və ekoloji sağlam və təhlükəsiz gələcək qoymaqdır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Bağırov H. Müasir Azərbaycanın balanslaşdırılmış davamlı ekoloji inkişaf strategiyası. "Xalq qəzeti", 2015, 9 may, s.6

2. "Xalq qəzeti", 2009, 23 aprel, s.3

3. Məmmədova S. Müstəqil Azərbaycan Dövlətinin Ekoloji Siyasətinin məzmunu və reallaşması istiqamətləri // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, 2016, № 4, s.125-138

4. Шуленина Н.В. К вопросу об определении понятия «экологическая политика» // Вестник Российского ун-та дружбы народов. Серия: Политология, 2006, №8, с.51-63

UOT 327; 930.22

**Azərbaycan Respublikasının dövlətçilik tarixində Heydər Əliyev şəxsiyyəti və onun müstəqil xarici siyasət kursu**

*tar.f.d. Mahir Nadir oğlu İbrahimov,*
*AMEA Tarix İnstitutu*

XX əsrin sonlarında dünyada bir sıra dəyişikliklərin baş verməsi nəticəsində Şərqlə Qərb arasındakı qarşıdurma və gərginlik tədricən aradan qalxdı və beləliklə "soyuq müharibə" başa çatmış oldu. Həmin proseslərin nəticəsi olaraq bir sıra Şərqi Avropa ölkələri öz siyasətlərində korrektə edərək sosialist düşərgəsini tərk etdilər. Bunun ardınca SSRİ kimi böyük bir imperiyanın dağılması nəticəsində yeni müstəqil dövlətlərin yaranması prosesi başladı. Belə müstəqil dövlətlərdən biri də 1991-ci ilin oktyabr ayının 18-də öz dövlət müstəqilliyini qazanmış Azərbaycan Respublikası oldu. Dövlət müstəqilliyinin elan olunmasından sonra qısa bir zaman müddətində dünyanın bir çox dövlətləri Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı. Yeni yaranmış müstəqil dövlət kimi Azərbaycan Respublikası bir çox beynəlxalq və regional təşkilatlara daxil olaraq həmin təşkilatlarla və eyni zamanda dünyanın bir sıra dövlətləri ilə diplomatik əlaqə və münasibətlər yaratmağa başlamışdır. Dövlət quruculuğundan danışarkən ölkənin xarici siyasət kursuna nəzər salmamaq mümkün deyildir. Müstəqilliyin ilk illərində Azərbaycanın xarici siyasətinin yalnız bir istiqaməti nəzərə çarpırdı. Belə yanaşma isə müstəqil dövlət quruculuğu ilə beynəlxalq münasibətlər sistemində hər hansı bir yer və rola malik olmağı qeyri-mümkün edirdi. Çünki sırf Rusiya meyilli xarici siyasətin həyata keçirilməsi Azərbaycanın dövlət mənafelərini beynəlxalq münasibətlərin inkişaf tendensiyası ilə uzlaşdırmağa imkan vermirdi. Maraqlıdır ki, sonrakı xarici siyasət kursu da bir istiqamətli oldu. Yəni bu dəfə yalnız Türkiyə ilə diplomatik əlaqələrin qurulması prioritet kimi müəyyənləşdirildi. Lakin 1993-cü ilin ikinci yarısından başlayaraq, beynəlxalq aləmlə sıx inteqrasiyaya istiqamətlənən yeni xarici siyasi strategiya formalaşmağa başladı. Balanslaşdırılan siyasətə söykənən bu strategiya Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri və rolunun təşəkkül tapmasına xidmət edirdi. Həmin səbəbdən Azərbaycan hakimiyyəti konkret dövlətlərin regionda hansı maraqlara malik olması və bu maraqların onlar üçün hansı səviyyədə əhəmiyyətli olmasını dərindən təhlil etdi. Məhz bu cür yanaşmadan çıxış edərək ilk növbədə Rusiya ilə sıx əlaqələr quruldu. Rusiya ilə səmərəli əməkdaşlığın yaradılması üçün MDB-yə üzv olmaq əhəmiyyətli idi. Bu yalnız Rusiya yox, həmçinin digər postsovet respublikaları ilə də pozulmuş münasibətlərin bərpası üçün yeni imkanlar yaratdı.

Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sisteminin subyekti kimi məxsusi rolu və yerinin gerçəkləşməsində ölkəmizə qərəzli münasibət bəsləyən, Ermənistanın təcavüzkar maraqlarını dəstəkləyən dövlətlərlə sıx diplomatik əlaqələrimiz də təsirsiz ötüşmədi. Belə ki, Fransanın Ermənistana təsir imkanlarını nəzərə alan Prezident Heydər Əliyev xarici dövlətlərə ilk rəsmi səfərini məhz Fransaya etdi. Habelə, indi olduğu kimi o vaxt da İranla yaxın qonşuluq əlaqələrinin qurulmasına xüsusi önəm verildi. Qeyd etməliyik ki, Azərbaycan Respublikasının xarici siyasi kursunda Türkiyə ilə əlaqələr xüsusi yer tutur. Artıq bu münasibətlər beynəlxalq hüquq normalarından irəli gələn prinsiplər əsasında inkişaf etdirilərək tamam yeni mərhələyə qədəm qoyub.

Göründüyü kimi, Azərbaycan hakimiyyəti ilk öncə region dövlətləri, sonra isə dünyanın digər nüfuzlu dövlətləri ilə ikitərəfli və çoxtərəfli qarşılıqlı əlaqələr qurmaqla respublikamızın beynəlxalq münasibətlər sistemində özünə layiq yer tutması üçün etibarlı zəmin hazırladı. Azərbaycan Respublikasının əlverişli geosiyasi və coğrafi məkanda yerləşməsini, Şərqlə Qərb, Şimalla Cənub arasında təbii körpü rolunu oynamasını və eyni zamanda zəngin təbii sərvətlərə, karbohidrogen ehtiyatlarına malik olmasını nəzərə alaraq Heydər Əliyev neft-qaz və nəqliyyat kommunikasiya layihələrinin işlənib hazırlanmasına və praktik olaraq, həyata keçirilməsinə xüsusi əhəmiyyət verməyə başladı. Azərbaycanın o dövrdəki iqtisadi vəziyyətini nəzərə alan Heydər Əliyev ilk

növbədə ölkəyə xarici investisiyaların cəlb olunması istiqamətində lazımi işlərin görülməsini təmin etdi. Belə tədbirlərdən biri xarici investorların investisiyalarının qorunması və onlar üçün əlverişli şəraitin yaradılması idi. Ölkəyə xarici investisiyaların cəlb olunması üçün ilk növbədə neft və qaz layihələrinin reallaşdırılmasını və onun dünya bazarlarına çıxarılmasını təmin etmək lazım idi. 1994-cü ildə çox böyük maneə və çətinliklərə baxmayaraq “Əsrin müqaviləsi” adlanan böyük neft müqaviləsinin bağlanması ilə bu istiqamətdə ilk addım atıldı. Tarixi təcrübə göstərdi ki, Ulu öndərin uğurlu neft strategiyası ölkəmizin iqtisadi inkişafı ilə bərabər onun beynəlxalq imicinin və nüfuzunun artmasına da səbəb olmuşdur. Heydər Əliyevin yeni neft strategiyası nəticəsində bu gün Azərbaycan Respublikası regionun ən dinamik inkişaf edən, iqtisadi cəhətdən özünü tam təmin edən, heç bir ölkədən asılı olmayan və eyni zamanda tam müstəqil siyasət yeridən bir ölkəyə çevrilmişdir.

Bu gün ölkəmiz strateji tərəfdaşı olan ABŞ ilə istər siyasi-iqtisadi, istərsə də qlobal problem və təhlükələrə qarşı mübarizədə sıx əməkdaşlıq edir. Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sistemində layiqli yerinin müəyyənləşməsində ATƏT, AŞ, Aİ, İKT, QİƏT, EKO, MDB, GUAM, QH və s. təşkilatlarla əməkdaşlığının rolu çox böyükdür. Burada BMT və onun İnkişaf Proqramı, Qaçqınlar üzrə Ali Komissarlığı, Uşaq Fondu, Təhsil, Elm və Mədəniyyət Təşkilatı, Sənaye İnkişaf Təşkilatı, Qadınlar Fondu, Ümumdünya Səhiyyə Təşkilatı, YUNESKO və digər qurumları xüsusilə qeyd etmək lazımdır. Bu qurumların qəbul etdiyi proqramlar, xüsusilə Avropa Birliyinin “TACİS-TRACECA” proqramı Azərbaycan Respublikasının dövlətlərarası münasibətlərini daha da genişləndirmişdir.

Bütün bunları nəzərə alaraq, Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətinin xarici siyasətinin başlıca prinsiplərini aşağıdakı kimi müəyyənləşdirdi:

- beynəlxalq hüquq normaları ilə tənzimlənən dövlətlərarası münasibətlərə hörmət etmək;
- bütün dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşmaq;
- bütün mübahisəli məsələləri sülh və danışıqlar yolu ilə həll etmək;
- qarşılıqlı surətdə faydalı iqtisadi, elmi və mədəni əməkdaşlıq qurmaq;
- dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətləri aradan qaldırmaq.

Artıq müasir Azərbaycan Respublikasının qarşısında duran böyük dünya siyasətinin iştirakçısına çevrilmək, beynəlxalq birliklərin bərabərhüquqlu üzvü olmaq, dünya xalqları ailəsinə daxil olmaq kimi qlobal vəzifələr yerinə yetirilmişdir. Regional iqtisadi layihələrdə tərəfdaş kimi iştirak etməsi və dövlətlərarası münasibətlərdə beynəlxalq hüquq normalarına sadiqlik nümayiş etdirməsi isə ölkəmizi regionun lider dövlətinə çevirməklə yanaşı, həm də beynəlxalq aləmdə etibarlı dövlət kimi tanıdıb. Elə Azərbaycan Respublikasını beynəlxalq münasibətlər sisteminin subyekti kimi şərtləndirən də məhz bu amillərdir.

UOT 331.01

## Müasir iqtisadi şəraitdə milli iqtisadiyyatın inkişafında regionların rolu

*i.f.d. Aygün Əkbər qızı Əliyeva,*
*AMEA İdarəetmə Sistemləri İnstitutu*

Azərbaycan Respublikasında ötən əsrin 90-cı illərində dövlət müstəqilliyi bərpa olunduqdan sonra milli iqtisadiyyatın inkişafı istiqamətində müstəqil olaraq uğurlu siyasət həyata keçirilməyə başlanılmışdır. Səmərəli olaraq özünü doğruldan Ümummilli lider Heydər Əliyev siyasətinin başlıca prioritetlərini bazar iqtisadiyyatına keçid, regional əməkdaşlığın genişləndirilməsi, o cümlədən beynəlxalq iqtisadi məkana inteqrasiya prosesləri təşkil etmişdir. Ölkəmiz üzrə iqtisadi inkişaf istiqamətlərini iki əsas mərhələyə ayırmaq daha düzgündür. Bu mərhələləri ilkin olaraq, 1991-1995-ci illəri əhatə edən iqtisadi tənəzzül dövrü və 1996-cı ildən başlayaraq, Ümummilli lider

Heydər Əliyevin rəhbərlyi ilə başlatdığı və hal-hazırda da davam edən dinamik inkişaf dövrü kimi səciyyələndirmək mümkündür [1].

Azərbaycan xalqının ümummili lideri Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində ölkəmizin sosial-iqtisadi inkişafı yönümdə çox böyük uğurlar əldə olunmuşdur. Eyni zamanda, beynəlxalq iqtisadi məkana inteqrasiya istiqamətində mühüm iqtisadi nailiyyətlər qeydə alınmışdır.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramları üzrə nəzərdə tutulmuş tədbirlərin ardıcıl və əlaqəli həyata keçirilməsi nəticəsində regionlarda özəl sektorun fəaliyyətinin yüksəlişi, ölkə iqtisadiyyatının neft-qaz məhsullarının ixrac imkanlarından asılılığının aradan qaldırılması istiqamətində ciddi uğurlar əldə olunmuşdur. Hələ müstəqilliyimizin ilk illərindən başlayaraq Ümummilli lider H.Əliyev tərəfindən regionlarda yeni istehsal və emal müəssisələri təşkil olunmuş, çoxsaylı iş yerləri açılmış və əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində effektiv iqtisadi tədbirlər həyata keçirilmişdir.

Ümummilli lider H.Əliyev tərəfindən müstəqilliyimizin ilk illərində davamlı olaraq həyata keçirilən məqsədəuyğun tədbirlər nəticəsində Azərbaycanın yeni iqtisadi inkişaf modeli formalaşmışdır. Bu məqsədlə H.Əliyevin rəhbərliyi altında Azərbaycanda qeyd edilən modelin həyata keçirilməsinin rəsmi bazası kimi bir çox iqtisadi konsepsiya, strategiya və proqramlar qəbul olunmuşdur. Bunların sırasında ən vaciblərindən biri kimi də ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə təsdiq olunmuş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə qəbul olunmuş bir neçə dövlət proqramlarını göstərə bilərik.

Cənab İlham Əliyev tərəfindən regionların sosial-iqtisadi inkişafı üzrə qəbul olunmuş bir neçə dövlət proqramlarında (xüsusən, sonuncu Azərbaycan Respublikası regionlarının 2019-2023- cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" üzrə) ölkə regionlarında iqtisadiyyatın inkişafını sürətləndirəndirilməsi ilə bağlı tədbirlər, bununla bağlı dövlət siyasətinin əsas istiqamətləri qeyd olunmuşdur. Ümummilli lider Heydər Əliyevin layiqli siyasətinin davamçısı ölkə rəhbəri cənab İlham Əliyev tərəfindən həyata keçirilən tədbirlərin əsas məqsədi Azərbaycan Respublikasının rayonlarında mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin genişləndirilməsinə, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılmasına nail olmaq olmuşdur.

Davamlı olaraq həyata keçirilən iqtisadi islahatların mühüm nəticələrindən biri dövlət mülkiyyətinin özəlləşdirilməsi olmuşdur. Eyni zamanda azad sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması da əsas prioritetlərdən hesab olunmuşdur. Görülən tədbirlər nəticəsində regionlarda da iqtisadi inkişaf müşahidə olunmuşdur. Regionların inkişafı üzrə ölkə rəhbəri İlham Əliyev tərəfindən həyata keçirilən son dövlət proqramlarının əsas məqsədi Azərbaycanın iqtisadi rayonlarında mövcud potensialdan səmərəli istifadə etməklə milli iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafını təmin etməkdir. [2].

Nəzərdə tutulan məqsədlərə çatmaq üçün proqramlarda bir sıra məsələlərin yerinə yetirilməsi nəzərdə tutulmuş və uğurla həyata keçirilməkdədir. Onlara bunlar aiddir: yeni istehsal və xidmət müəssisələri yaratmaq, regionların inkişafı üçün zəruri infrastruktur sahələrinin yaradılması, investorların regionlara cəlb olunması üçün əlverişli şəraitin yaradılmasının təmin olunması, aqrar sahənin fəaliyyətinin stimullaşdırılması, məşğulluq səviyyəsinin yüksəldilməsi və s. Ümumiyyətlə, regionlarının sosial-iqtisadi inkişafı haqqında dövlət proqramlarının iqtisadi mahiyyəti regionların sürətli inkişafını təmin etməkdən ibarətdir [4].

Aparılmış təhlil onu göstərir ki, son dövrlər ölkəmizdə qeyri-neft sektorunun fəaliyyətinin genişləndirilməsinə yönəldilmiş xarici investisiyaların dinamikasında da ciddi artım tendensiyaları müşahidə olunmuşdur [5]. Belə ki, ölkə üzrə 2005-ci ildə qeyri-neft sektoruna 230,5 mln. ABŞ dolları vəsait yönəldilmişdirsə, 2010-cu ildə bu göstərici 3 dəfə artaraq 659,6 mln. ABŞ dolları, 2017-ci ildə isə 813,0 mln. ABŞ dolları təşkil etmişdir. 2018-ci ildə bu göstərici 967,1 mln. ABŞ dollarına bərabər olmuşdur. 2019-cu ildə Azərbaycanda qeyri-neft sektoruna yönəldilmiş investisiyaların həcmi 930,1 mln. ABŞ dolları olmuşdur. Bu artım proseslərinin əsas səbəbi Azərbaycanda qeyri-neft sektorunda ayrı-ayrı iqtisadi sahələr üzrə fəaliyyət göstərən şirkətlərin

sayının artması, əlverişli biznes mühitinin yaradılması və s. hesab olunur. Nəticədə bu şirkətlərin rəqabət imkanları yüksəlmiş, ixrac həcmi də artmışdır. Ölkəmizin beynəlxalq iqtisadi reytinqinin yüksəlməsi xarici investorlarun ölkəmizə cəlbini stimullaşdırmışdır. Nəticədə davamlı olaraq onlar tərəfindən milli iqtisadi sektorlara xarici investisiya qoyuluşu hər il artmışdır [3].




**Şəkil 1.** Son illər Azərbaycan Respublikasının regionları üzrə qeyri-neft sektorunun inkişafına yönəldilmiş xarici investisiyaların dəyişən dinamikası (mln. ABŞ dolları ilə)

Təhlil göstərir ki, respublikamızda Ümummilli lider Heydər Əliyev tərəfindən həyata keçirilən iqtisadi islahatların demək olar ki, müəyyən hissəsi regional iqtisadiyyatla əlaqəlidir. Məhz onun rəhbərliyi altda müstəqilliyimizin ilk illərində qeyri-neft sektorunun, o cümlədən, kənd təsərrüfatının inkişafı istiqamətində məqsədəuyğun uğurlu iqtisadi siyasət həyata keçirilmişdir. İnkişaf etmiş ölkələrin təcrübəsi nəzərə alınmaqla, Azərbaycanda elmi baxımdan əsaslandılmış səmərəli regional siyasətin davam etdirilməsi zəruridir. Bundan başqa, regional iqtisadiyyatın dövlət tənzimlənməsi və idarə olunması məsələləri həm nəzəri-metodoloji, həm də praktiki baxımdan xüsusi aktuallıq kəsb edir. Bunun da əsas səbəbi ölkəmizdə demokratik cəmiyyət quruculuğunun inkişafı və dünya iqtisadi sisteminə inteqrasiyanın güclənməsi hesab olunur. Nəzərə almaq lazımdır ki, ölkələr arasında inteqrasiya prosesləri artdıqca dövlətin regional iqtisadiyyata müdaxilə formaları da genişlənir və inkişaf edir. Müvafiq müdaxilə prosesləri həm sahə, həm də ərazi miqyasında müxtəlif metodlardan (iqtisadi, siyasi, inzibati, və s.) istifadə etməklə təmin olunur. Qeyd edək ki, məhz Ümummilli lider Heydər Əliyev tərəfindən regional siyasət, regional inkişafın tənzimlənməsi və idarəetmə sisteminin təkmilləşdirilməsi məsələləri daim diqqət mərkəzində olmuşdur.

Bütün bunları nəzərə alaraq regional iqtisadiyyatın dövlət tənzimlənməsi və idarə olunması ilə əlaqədar nəzəri-metodoloji məsələlərin yerli iqtisadi şəraitə uyğun tədqiq edilməsi məqsədəuyğundur. Ümumiyyətlə, regionlarda olan iqtisadi proseslərin tədqiqi öz aktuallığı ilə seçilir. Bu aktuallıq özünü regional iqtisadiyyatla yerli özünüidarəetmə arasında olan qarşılıqlı əlaqələrdə göstərir. Yerli özünüidarəetmənin müstəqilliyi hər şeydən əvvəl, regionun daxili mühitinin elementləri ilə (istehsal, təbii, əmək, investisiya, eləcə də yaranmış sosial infrastruktur) müəyyən edilir.

Ölkə üzrə regionun ictimai inkişafının məqsədləri məhz yerli idarəetmə sistemi vasitəsilə həyata keçirilir. Məhz bu baxımdan regionun və yerli özünüidarəetmə sisteminin birgə şəkildə fəaliyyət göstərməsi vacibdir. Azərbaycan Respublikası üzrə bu birgə fəaliyyət yerli özünüidarəetmənin inkişaf səviyyəsi ilə təyin olunur. Eyni zamanda bu proses onun funksiyalarını və səlahiyyətlərini həyata keçirməyə kömək edən mexanizmlər vasitəsilə müəyyən edilir. Bu

mexanizmlərin mahiyyətini isə regionların inkişaf şərtləri və iqtisadi xüsusiyyətləri formalaşdırır. Müvafiq proses eyni zamanda qarşılıqlı olaraq özünü həm də yerli özünüidarənin iqtisadi əsası ilə də göstərir. Aparılmış təhlillər onu göstərir ki, yerli özünüidarənin iqtisadi əsasını regional iqtisadiyyatın komponentləri təşkil edir. Onlara təbii ehtiyatları, bələdiyyə mülkiyyətində olan daşınar və daşınmaz əmlakı, bələdiyyə büdcəsini və onun qeyri-büdcə fondlarını nümunə kimi göstərmək mümkündür..

Ümumiyyətlə, əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş, hal-hazırda davam etdirilən regional idarəetmə sisteminin fəaliyyətinin tənzimlənməsinin əsas məqsədi ölkədə iqtisadi inkişaf templərinin daha da yüksəldilməsidir. Bu məqsədlə regionların iqtisadi inkişafı istiqamətində mikro, kiçik və orta sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, iqtisadi tənzimləmə proseslərinin davamlı olaraq həyata keçirilməsi məqsədəuyğundur. Məhz buna görə də dövlət səviyyəsində bu sahədə davamlı olaraq iqtisadi tədbirlərin həyata keçirilməsi zəruridir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Şəkərəliyev A.S. Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi. Bakı, İqtisad Universiteti, 2011, 365 s.
2. Abdullayev K.N. Milli iqtisadiyyatın innovasiyalı inkişafının əsas xüsusiyyətləri // "Tikintinin iqtisadiyyatı və menecment" (Elmi-praktiki jurnal), Azərbaycan Memarlıq və İnşaat Universiteti. Bakı: Elm, №1, 2020, s.159-162
3. Əliyeva A.Ə. Bazar iqtisadiyyatı şəraitində sənaye müəssisələrinin rəqabətqabiliyyətinin yüksəldilməsi məsələləri // AMEA-nın xəbərləri (İqtisadiyyat seriyası). Bakı: Elm və Bilik, 2019, №1, s.101-108
4. Бабашкина А.М. Государственное регулирование национальной экономики. М.: Финансы и Статистика, 2017, 254 с.
5. https://www.stat.gov.az/source/investment/

UOT 342.5

**Umummilli lider və sosial-iqtisadi tərəqqi**

*i.f.d. Xalidə Firdovsi qızı Muradova,*
*i.f.d. Samirə İntiqam qızı Abdullayeva,*
*Azərbaycan Dövlət İqtisad Universiteti*

Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının xilaskarıdır Sudeif İmamverdiyev YAP Veteranlar Şurasının üzvü, Əməkdar elm xadimi Hər bir xalqın tarixində əvəzolunmaz rol oynayan, öz xalqı üçün xilaskarlıq missiyası həyata keçirən tarixi şəxsiyyətlər var. Azərbaycan xalqının tarixində də məhz belə bir şəxsiyyət Ümummilli liderimiz Heydər Əliyevdir. Heydər Əliyev bütün həyatını Öz doğma xalqının inkişaf və tərəqqisinə həsr etmiş, xalqını üzləşdiyi çətinliklərdən xilas etmiş şəxsiyyətdir. Əminliklə söyləmək olar ki, müasir Azərbaycanın keçdiyi yol bilavasitə Ulu öndərimiz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. [1] Hələ sovet dövründə – 1969-cu ilin iyul ayında Azərbaycanda hakimiyyətə gələn Heydər Əliyev keçmiş ittifaq miqyasında geridə qalan respublikamızı qısa müddət ərzində öncül yerə çıxardı, Azərbaycan aqrar respublikadan, sənaye-aqrar respublikaya çevrildi. Ulu öndərimizin həmin dövrdə misilsiz xidmətləri Azərbaycan xalqının rifah halını da əhəmiyyətli dərəcədə yüksəltdi. [11] Mən Ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü ərəfəsində yazdığım bu məqaləni Onun müstəqillik dövrümüzün ilk illərində, daha doğrusu, Azərbaycanın məhv olmaq təhlükəsi ilə üz-üzə qaldığı bir vaxtda göstərdiyi xilaskarlıq missiyasına həsr etmək istəyirəm.

Məlumdur ki, 1980-ci illərin sonunda keçmiş SSRİ-nin bir sıra respublikalarında olduğu kimi, Azərbaycanda da ictimai-siyasi vəziyyət gərginləşmişdi. Ermənistanın Azərbaycana qarşı torpaq iddiaları, soydaşlarımızın doğma yurdlarından deportasiyası və başqa problemlər xalqın səbrini daşırırdı. Problem onda idi ki, həm SSRİ rəhbərliyi, həm də yerli hakimiyyət belə bir vəziyyətin qarşısını almaq niyyətində deyildilər. Bildiyiniz kimi, 1991-ci ildə SSRİ rəsmən dağıldı, respublikalar öz müstəqilliyini elan etdilər. [2] Amma buna baxmayaraq, həmin problemlər daha da çətinləşirdi. 1990-cı illərin əvvəllərində respublikamızın vəziyyəti çox ağır idi və prosesləri analiz edə bilən insanlar bunu dərk edirdilər. Azərbaycan günbəgün sarsılmaqda idi, ictimai-siyasi proseslər idarəolunmaz forma alırdı. Hakimiyyətdə olan insanlar isə sanki xalqın maraqlarını unutmuşdular, onların nəyə xidmət etdiklərini anlamaq mümkün deyildi. Xalqın müqəddəratı, istəyi, Vətənimizin təhlükəsizliyi onları maraqlandırmırdı. Həmin dövrdə xalq ağır vəziyyətə düşmüşdü və ən başlıcası, mənəvi cəhətdən sarsılmışdı.

Beləliklə, hakimiyyətə qarşı ümumxalq narazılığı yaranmışdı və insanlar mitinqlər, etiraz aksiyaları keçirməklə hakimiyyətə etirazlarını bildirirdilər. Ümumxalq narazılığı fonunda 1992-ci ildə respublikada hakimiyyətə gələn AXC-Müsavat cütlüyü dağıdıcı proseslərin qarşısını nəinki almadı, əksinə, hərcmərclik daha da artdı, Ermənistanın hərbi təcavüzü daha sürətləndi. Çox qısa zamanda xalq gördü ki, AXC-Müsavat hakimiyyəti də idarəçiliyi bacarmır [3]. Bu hakimiyyətin yarıtmaz siyasəti nəticəsində ölkəmiz uçuruma doğru sürüklənirdi, Azərbaycan məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Azərbaycanda ümumi vəziyyətin nə qədər təhlükəli olduğunu cəmiyyətin sağlam qüvvələri, ziyalılar yaxşı dərk edirdilər. Bu insanlar anlayırdılar ki, Azərbaycanı belə bir ağır vəziyyətdən xalqımızın ləyaqətli oğlu Heydər Əliyev kimi böyük dövlət xadimi, bütün dünyada tanınmış bir şəxsiyyət xilas edə bilər. Amma o zamankı hakimiyyət Ümummilli lider Heydər Əliyevin təcrübəsindən nəinki bəhrələnmək istəmirdi, əksinə, ona qarşı əsassız mübarizə aparırdılar. Belə olan təqdirdə, cəmiyyətin öndə gedən bir qrup ziyalısı Ulu öndər Heydər Əliyevə müraciət etdi. Qürur duyuram ki, həmin müraciətdə mənim də imzam var. “91-lər hərəkatı” kimi tariximizə düşən bu hadisə çox önəmlidir. Çünki bu ziyalılar görürdülər ki, ölkədə separatçılıq baş alıb gedir, qanunsuz silahlı dəstələr insanlar üçün böyük təhlükəyə çevrilib, əhalinin həyat səviyyəsi də sürətlə aşağı düşürdü. Yəni, sözün əsl mənasında, vətən əldən gedirdi.

Belə bir şəraitdə 91 ziyalı Ulu öndər Heydər Əliyevə yeni bir partiyanın yaradılması və həmin partiyaya rəhbərlik etməsi ilə bağlı müraciət etdi. [4] Partiyanın yaradılmasında məqsəd demokratik yolla hakimiyyətə gəlib vətəni xilas etmək idi. Ulu öndər Heydər Əliyev “91-lər”in müraciətinə müsbət cavab verdi və Yeni Azərbaycan Partiyasının yaradılması istiqamətində hazırlıq işləri başladı. Hakimiyyət isə Heydər Əliyevin rəhbərliyi ilə partiyanın yaranmasının qarşısını almağa çalışırdı [5]. Onlar başa düşürdülər ki, xalqın Heydər Əliyevə böyük sevgisi var və belə bir partiya yaransa, xalqın ən güclü siyasi təşkilatına çevriləcək. Ona görə də partiya işi ilə məşğul olan şəxslərə qarşı hədə-qorxu gəlirdilər, fiziki təzyiqlərə məruz qoyurdular. Amma bütün bunlar bu insanların iradəsini sındıra bilmədi. 1992-ci ilin oktyabr ayında isə Naxçıvanda Ulu öndər Heydər Əliyevi hakimiyyətdən devirməyə cəhd göstərdilər. Amma Naxçıvan əhalisi Heydər Əliyevi dəstəklədi və çevriliş cəhdi edənlərə tutarlı cavab verdi. Beləliklə, bütün çətinliklərə rəğmən 21 noyabr 1992-ci ildə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. [6] Ulu öndər Heydər Əliyev partiyanın Sədri seçildi, partiyanın strukturu, rəhbər heyəti formalaşdı. Bundan sonra isə respublikada təşkilatlanma prosesi başlandı. Təbii ki, ozamankı hakimiyyət bunun da qarşısını almağa çalışırdı. Amma insanlar Heydər Əliyevin yaratdığı partiyaya böyük həvəslə qoşulurdular.

Əlbəttə, o dövrdə respublikada vəziyyət o qədər ağır idi ki, həqiqətən də, dövlətçiliyimiz məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Bir tərəfdən Ermənistanın hərbi təcavüzü davam edirdi, digər tərəfdən, ölkə daxilində iqtisadi, ictimai-siyasi böhran dərinləşirdi. 1993-cü ilin iyun ayında baş verən Gəncə hadisələri isə vəziyyəti daha da gərginləşdirdi. Azərbaycanda vətəndaş müharibəsi başladı. [7] Belə bir vəziyyətdə xalqımızda yekdil bir fikir formalaşdı ki, Azərbaycanı bu təhlükələrdən yalnız Ulu öndər Heydər Əliyev xilas edə bilər. Ona görə də cəmiyyətimizin ən müxtəlif təbəqələri Heydər Əliyevə müraciətlər edirdilər. İş o yerə çatdı ki, AXC-Müsavat

hakimiyyəti də bu reallığı dərk etməyə başladı. Hakimiyyətdəkilər özlərinin həyatının da təhlükədə olduğunu gördülər, hansısa bir üsyançı ilə bacara bilmədilər. Ona görə də iqtidarda olanlar da Ulu öndər Heydər Əliyevi hakimiyyətə dəvət etməyə məcbur oldular.

Beləliklə, Ulu öndərimiz xalqın təkidli tələbi ilə 1993-cü ilin iyun ayında Bakıya gəldi və 15 iyunda Azərbaycan parlamentinin Sədri seçildi. [8] Bu hadisə tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. [6] Azərbaycan xalqı öz gələcəyini Heydər Əliyevlə bağlı görürdü. Onun siyasi hakimiyyətə qayıdışı ictimaisiyasi mühiti tamamilə dəyişdirdi və insanlarda gələcəyə ümidi artırdı. Qısa müddətdə Ulu öndərimiz respublikada ictimai-siyasi sabitliyi bərpa etdi, separatçılığın qarşısı alındı, qanunsuz silahlı dəstələr ləğv olundu. Təbii ki, Azərbaycanın inkişafını istəməyən xarici qüvvələr və onların yerli əlaltıları hər cür təxribata əl atırdılar, dövlət çevrilişinə cəhd göstərirdilər. 1994-cü ilin oktyabr və 1995-ci ilin mart hadisələri buna sübutdur. Amma hər iki hadisə zamanı xalq öz Liderini dəstəklədi və onunla həmrəy olduğunu bəyan etdi. Fakt kimi onu xatırladım ki, 1994-cü ilin oktyabr hadisələri zamanı Ulu öndər Heydər Əliyevin bir çağırışı ilə yüz minlərlə insanın Prezident Sarayının qarşısına toplaşması bütün dünyaya bir mesaj oldu. Yəni xalqla Heydər Əliyev birliyinin sarsılmaz olduğu bütün dünyaya nümayiş olundu.

Qeyd etmək lazımdır ki, 2003-cü ildən etibarən Azərbaycanda Heydər Əliyev siyasəti uğurla davam edir. 2003-cü ildə prezident seçkiləri kampaniyası dövründə Ulu öndər Azərbaycan xalqına müraciət etdi və xalqı cənab İlham Əliyevi dəstəkləməyə səslədi. Xalq bu müraciətə müsbət cavab verdi və cənab İlham Əliyevi özünün lideri seçdi. Prezident İlham Əliyev Heydər Əliyev yoluna sadiqliyini göstərərək, Azərbaycanı uğurla inkişaf etdirir. Bu gün Azərbaycanı 1990-cı illərin əvvəli ilə müqayisə etmək mümkün deyil. [9] Həmin illərdə insanlar ən kiçik sosial ehtiyaclarını ödəyə bilmirdilər. Bölgələrdə işıq, qaz, yol yox idi. Ona görə də əhali böyük şəhərlərə üz tuturdu. Amma hazırda vəziyyət müqayisəolunmaz səviyyəyə gəlib çatıb. Bu gün hər bir sahədə böyük uğurlar qazanılıb.

Bu gün Azərbaycan güclü dövlətdir, dünyada nüfuzlu ölkə kimi tanınır, regionun isə lideridir. 44 günlük Vətən müharibəsində Ali Baş Komandanımızın rəhbərliyi ilə qəhrəman ordumuz tərəfindən torpaqlarımızın erməni işğalından azad olunması isə Azərbaycanın qarşısında yeni perspektivlər açır. Bu regionda Azərbaycanın razılığı olmadan hər hansı bir layihəni həyata keçirmək mümkün deyil. Eləcə də Azərbaycanın regionları uğurla inkişaf edir. [10] Hər yer abaddır, inkişaf edir. Təkcə şəhərlərimiz yox, kəndlərimiz də inkişaf edir. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl olaraq tədbirlər görülür, yeni iş yerləri yaradılır, yollar, körpülər, məktəblər, tibb ocaqları tikilib istifadəyə verilir. Bütün bunlar isə Heydər Əliyev siyasətinin bəhrəsidir.

## İstifadə edilmiş ədəbiyyat

1. Hüseynova İ.M. Müstəqil Azərbaycan dövlətinin qurucusu: monoqrafiya. Bakı: Təhsil, 2011, 472 s.
2. Həbibbəyli İ. Heydər Əliyev mövqeyi. “Azərbaycan” qəz., 2020, 9 may, № 91, s.14
3. Hacıyev İ. Azərbaycan dövlətçiliyinə xidmət nümunəsi. “İki sahil” qəz., 2020, 16 dekabr, №225, s.16-27
4. Hacıyev Q. Ümummilli lider Əliyevin Dağlıq Qarabag siyasətinin böyük uğuru. “Xalq qəzeti”, 2020, 10 dekabr, №259, s.7
5. Alışanova M.N. Heydər Əliyev iqtisadi müstəqilliyimizin banisidir. Bakı: Çinar-Çap, 2006, 214 s.
6. Cəfərov N. Ümilli liderin xilaskarlıq və dövlət quruculuğu missiyası. “Xalq qəzeti”, 2020, 10 dekabr, №263, s.3
7. Novruzov V. Heydər Əliyevin iqtisadi siyasətində şəffaflıq amili və təhlükəsizlik siyasəti yeni mərhələdə. “Respublika” qəz., 2020, 8 may, №90, s.10
7. Andriyanov V.İ. Geidar-Molodaya Gvardia. M., 2015, 396 s.
8. https://president.az/azerbaijan/leader

9. https://mod.gov.az/az/pre/20979.html
10.http://scfwca.gov.az/post/1546/heyder-eliyev-irsi-musteqil-dovletcilik-ve-muasirlik

UOT 94 (479.24)

**Heydər Əliyev müstəqil Azərbaycan Ordusunun memarı kimi**

*ped.f.d., dos. Zenfira Mirsəfər qızı Əzizova,*
*Vəfa Tofik qızı Balakişiyeva,*
*Mingəçevir Dövlət Universiteti*

Müasir müstəqil dövlətimizin memarı və qurucusu olan Ulu öndər Heydər Əliyev qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır. Ulu öndər SSRİ dövründə və müstəqil olduqdan sonra Azərbaycana rəhbərlik edərkən ordu quruculuğu, hərbi kadrların hazırlığı məsələsinə xüsusi diqqət yetirmişdir. 1969-cu ildə respublika rəhbərliyinə gəlişindən sonra müstəsna xidmətləri sayəsində ölkəmizdə hərbi kadrların hazırlanması prosesi geniş vüsət almışdır. 1971-ci ildə böyük səylər nəticəsində hərbi general Cəmşid Naxçıvanski adına hərbi məktəbin açılmasına nail olmuşdur. Həmin məktəbin fəaliyyəti Azərbaycanda hərb sənətinə marağın güclənməsinə, azərbaycanlı zabit kadrların hazırlanmasına gətirib çıxarmışdır. Bu gün məktəbin məzunları arasında yüksək rütbəli zabitlər, generallar var. [1]

Heydər Əliyev azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərində və eləcə də, SSRİ-nin digər məktəblərində oxumaları üçün tədbirlər görmüşdür. Heydər Əliyevin SSRİ dövründəki ordu quruculuğu siyasəti müstəqillik qazandıqdan sonrada öz bəhrəsini vermişdir. Hər bir dövlətin varlığı, müqəddaratı onun güclü iqtisadiyyatı və güclü ordusunun olması ilə səciyyələnir. 1991-ci il 18 oktyabrda öz müstəqilliyini bərpa etmiş Azərbaycan elə müstəqilliyinin ilk günlərində mürəkkəb sosial-iqtisadi, ictimai, siyasi vəziyyətlə üzləşdi. Bu eyni zamanda özünü ordu sahəsində göstərdi [2].

Dağlıq Qarabağda döyüşən əsgərlərin vahid komandanlıqdan idarə edilməməsi, 20 %-dən artıq torpaqlarımızın ermənilər tərəfindən işğalı ilə nəticələndi. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin mövcudluğu və şərəfli tarixi Azərbaycan xalqının Ulu öndəri zəmanəmizin nadir şəxsiyyəti bütün ömrünü xalqın xoşbəxtliyi, azadlığı və müstəqilliyi uğrunda mübarizəyə həsr etmiş unudulmaz Heydər Əliyevin adı ilə sıx bağlıdır. Çünki bu günkü Azərbaycan Ordusunun qurulması, inkişafı, möhkəmlənməsi Heydər Əliyevin yorulmaz fəaliyyətinin dövlətçilik təfəkkürünün siyasi uzaqgörənliyinin və təşkilatçılıq qabiliyyətinin məntiqi nəticəsidir.

Dünya miqyasında çox az şəxsiyyət tapılar ki, Heydər Əlyev kimi siyasi uzunömürlüyə malik olsun, xalqı və milləti tərəfindən belə uzun müddət etibara və etimada layiq görülsün. Uzun müddət xalqının xoşbəxtliyi, firavanlığı, inkişafı və müstəqilliyi yolunda fədakarcasına fəaliyyət göstərsin, özündən sonra müstəqil dövlət kimi qiymətli bir miras qoyub getsin. Buna görədir ki, indi Heydər Əliyev müstəqil Azərbaycan simvollarından birinə çevrilmişdir. Azərbaycanın bu günki və gələcək tarixində özünə bir əbədilik qazanmışdır. Böyük şəxsiyyətin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətlərindən biri də müasir Azərbaycan ordusunun memarı olmasıdır. Müstəqilliyimizin və ərazi bütövlüyümüzün etibarlı zəmanəti olan bu günkü güclü Azərbaycan Ordusu xalqımızın Ümummilli lideri Heydər Əliyevin şah əsərlərindən biridir və zaman ötdükcə, nəsillər dəyişdikcə möhkəmlənən və inkişaf edən Azərbaycan ordusu Heydər Əliyevin adını və əməllərini özündə daim yaşadacaqdır. Heydər Əliyevi daim yaşadacaq amillərdən biri də onun ordu quruculuğu sahəsində hər zaman öyrənilməsinə ehtiyac olacaq, izləniləcək, nəsillərdən-nəsillərə ötürüləcək zəngin irsidir. Azərbaycan xalqının arzusunu, istəyini müstəqil dövlət quruculuğunun fəlsəfəsini əks etdirən bu irs Azərbaycanda ordu quruculuğu təfəkkürünün bu prosesə milli yanaşmasını formalaşdıracaqdır. Silahlı Qüvvələrin güc və ilham mənbəyi olan xalq ordu birliyinin nəzəri və əməli bazasını təmin

edə biləcək ən yaxşı örnəkdir. Milli ordu quruculuğu sahəsində Heydər Əliyev irsinin əvəzsiz dəyəri ondadır ki, bu dəyər başlanğıcını hələ Sovetlər dövründən götürüb. Müstəqil olmadığı zaman Azərbaycanın qəhrəmanlıq ənənələrinin davam etdirilməsi, zəngin hərb tarixinin canlandırılması, gənclərin qəhrəmanlıq ənənələrinin əsasında tərbiyə edilməsi, sərkərdələrin və görkəmli hərb xadimlərinin şərəfli yolunun davam etdirilməsi Heydər Əliyevin hər zaman diqqət mərkəzində olmuşdur.

Bunun nəticəsidir ki, Sovet illərində Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi vaxtlar hərbi xidmətə münasibətdə yeni bir baxış formalaşdırıldı. Bu istiqamətdə əməli təşkilati işlərə vüsat verildi. Əgər Heydər Əliyevə qədər Azərbaycan gənclərinin hərbi xidmətə cəlb edilməsinə onların 2 illik hərbi xidmətinə hansısa hərbi hissədə 2 illik müddətinin başa vurulması kimi sınağı kimi baxılırdısa, Heydər Əliyev respublikaya rəhbərlik etdiyi illərdə bu baxışları dəyişməyə müvəffəq oldu və bunu bir ümumxalq vəzifəsi kimi aktuallaşdırdı.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin Sovet dövründə diqqət yetirdiyi məsələlərdən biri də SSRİ Silahlı Qüvvələrinin tərkibində azərbaycanlı zabitlərin məsul vəzifələrə irəli çəkilməsi məsələsi idi. Ulu öndər bildirirdi ki, o vaxt zabit və generalların irəli çəkilməsinə çalışmaqla Azərbaycanın bu günkü zabit kadrlarının əsasını qoyulmasını istəyirdi. Heydər Əliyevin milli zəmində hərbi təşkilat işinin çox mühüm istiqamətini Sovet dövründə milli zabit kadrlarının hazırlanması təşkil edirdi. Bu sahədəki fəaliyyət Azərbaycanın hərb tarixində son dərəcədə əhəmiyyətli və yadda qalan bir səhifəsidir və Azərbaycan öz müstəqilliyini əldə edəndən sonra Heydər Əliyevin necə böyük uzaqgörən olduğu bir daha öz təsdiqini tapdı.

Naxçıvanski adına hərbi lisey Heydər Əliyevin diqqət və qayğısı ilə qısa vaxt ərzində ən müasir təhsil müəssisəsinə çevrildi. Belə xüsusi diqqət və qayğı Azərbaycanda hərbçi peşəsinin nüfuzunun artmasında xüsusi rol oynamışdır. Nəticədə orduda peşəkar hərbiçilərin sayı da artdı. Bu təhsil ocağını bitirən neçə-neçə gənc Bakının ali məktəbləri ilə yanaşı, keçmiş SSRİ-nin ali məktəblərində hərbiçi peşəsinə yiyələndilər. Onlar indi də Heydər Əliyevin yaratdığı məktəbin məzunları olmaları ilə fəxr edirlər.

Azərbaycan Ordusu bu gün dünyanın ən peşəkar NATO standartlarlarına cavab verən orduları ilə bir sırada dayanır. Bunu beynəlxalq təşkilatların apardığı monitorinqlər də təsdiq edir.

Bu gün Azərbaycanın qüdrətli və nizami orduya malik olması məhz Ümummilli lider Heydər Əliyevin gərgin zəhmətinin bəhrəsidir. Ulu öndərin siyasətini uğurla davam etdirən Prezident, Ali Baş Komandan İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin müasir hərbi texnika ilə təchiz edilməsinə, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordu yaradılmasına nail olundu. Respublika Prezidentinin göstərişinə uyğun olaraq hər il dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün sahələr üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına səbəb olur.

Azərbaycanda hərbi quruculuq bu gün də yüksələn xətlə inkişaf edir. Məhz uğurlu siyasət nəticəsində rəşadətli ordumuzun şücayəti sayəsində Ermənistanın 30 il ərzində yaratdığı ordu sadəcə 44 gün tab gətirdi və beləliklə, dünya ictimaiyyətində Ermənistan ordusu haqqında yaranan yenilməzlik mifi puç oldu.

Azərbaycan Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə haqq mübarizəsinə qalxdı və düşməni iti qovan kimi öz ərazilərimizdən çıxardı. Azərbaycan hərb tarixinə yenilik kimi düşən strategiya tətbiq edərək ən müasir silahlardan istifadə etməklə, habelə minimal itkilər verərək, qısa müddət ərzində düşmənin bütün hərbi texnikasını məhv etdi, canlı qüvvəsinə ciddi zərbə vurdu. Azərbaycan Ordusunun yüksək peşəkarlıqla apardığı işğaldan azadetmə əməliyyatı dünya üzrə müharibələrin aparılması doktrinasında ciddi dəyişikliklərə səbəb olacaq.

**İstifadə edilmiş ədəbiyyat**

1. İbrahimova M., Hüseynova A., Vəliyeva M. Heydər Əliyev (Əliyev Heydər Əlirza oğlu): biblioqrafiya. Bakı: Zərdabi-Nəşr, 2018

2. Mehdiyev R. İnkişaf – məqsədimizdir: yüz birinci kitab: fevral 2020 – mart 2020. Bakı: Azərnəşr, 2020

UOT 330.34; 330.35

**Qarabağ iqtisadiyyatının (Ağdam rayonu üzrə) bərpası və inkişafı prosesində rəqəmsal texnologiyalardan istifadə imkanları və prioritetləri**

*k.t.f.d., dos. Arif Musa oğlu Əzimov,*
*Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialı*
*İlham Qonsur oğlu Məmmədov,*
*Mingəçevir Dövlət Universiteti*

Hər kəsə bəllidir ki, Ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin təşəkkülündə, möhkəmlənməsində, suverenliyimizin qorunmasında, o cümlədən Qarabağın və digər ərazilərimizin işğalına dair erməni faşizminin mənfur planlarının qarşısının alınmasında tarixi xidmətləri vardır. Onun 1993-cü ildə yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycan-Ermənistan münaqişəsinin həllində yeni mərhələ açdı. Məhz Ümummilli lider Heydər Əliyevin Azərbaycan iqtisadiyyatının inkişafına və ordu quruculuğuna göstərdiyi daimi diqqət və qayğısı nəticəsində Qarabağda Azərbaycan möhtəşəm qələbə zəfərini çaldı. 30 ilə yaxın bir zamanda bu ərazilərimiz nəinki inkişaf etmiş, hətta erməni vandalizmi bu ərazilərimizi bərbad etmişdir. Lakin ölkəmiz əsrlərin sınağından çıxmış ümumi bəşəri dəyərin üstünlüklərini qəbul edərək, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçmişdir. Ulu öndər Azərbaycan dövlətinin qurucusu kimi bu barədə demişdir: "Müstəqilliyi qazanmaq çətindirsə, onu qoruyub saxlamaq bir o qədər çətindir".

Təbii ehtiyatların mövcudluğu amilini nəzərə alaraq, ölkəmiz Azərbaycan öz inkişaf modelini seçmişdir. İqtisadiyyat güclü olmasa, hərbi qüvvə heç nə edə bilməz. Bir sözlə, hansı dövlət insan kapitalının inkişaf etdirilməsinə, biliklərə əsaslanan iqtisadiyyata əsaslanırsa, gələcək də elə onlarındır. Son illərdə ölkənin daimi inkişafı üçün gələcəyə sərmayə əhəmiyyəti daşıyan layihələr günü-gündən inkişaf etməsinə gətirib çıxarır.

Hər bir ölkənin uğurlu inkişafı üçün ilkin şərtlər olan müsbət sərmayə mühitinin yaranması, proqnozlaşdırılan siyasi vəziyyət, ölkədə sabit durum və regional əlaqələr nəticəsində Azərbaycana 200 mlrd. dollardan çox sərmayə yatırılmışdır.

2016-cı il dekabrın 6-da Azərbaycan Respublikası prezidentinin Fərmanı ilə təsdiq edilmiş ölkəmizin milli iqtisadiyyat perspektivi üzrə "Strateji Yol Xəritəsi" bunların içərsində xüsusi əhəmiyyət kəsb edən bir sənəddir. Çünki, bu sənədin təsiri çoxşaxəlidir. Yol Xəritəsi çərçivəsində görüləcək işlər iqtisadiyyatımızın inkişafına yenilik gətirəcək, həm də insanların həyat səviyyəsini yaxşılaşdıracaq. [4, s.22]

Aqrar sahənin tənzimlənməsində dövlətin rolu və yeri mühüm əhəmiyyət kəsb edir. Bu isə onunla bağlıdır ki, göstərilən fəaliyyət prosesində və sahənin inkişafı prosesində baş verə biləcək müəyyən böhran hallarının qarşısı alınsın, sosial-iqtisadi stabillik əldə edilsin və davamlı inkişaf təmin olunsun. Bunlarla yanaşı, yerli kənd təsərrüfatı məhsulları istehsalçılarının gəlirlərinin yüksəlməsi, onların mövcud bazar stiuasiyalarına uyğun baş verən dəyişikliklərə çevik şəkildə adaptasiya olunması, ekoloji təmiz məhsulların istehsalı və emalı prosesləri stimullaşdırılsın və ən başlıcası isə daxili bazarın qeyri-sağlam əlverişsiz rəqabət proseslərinin, başqalarından daha səmərəli mühafizəsi təmin edilsin. [4, s.28]

Aqrar sahənin tənzimlənməsinin zəruriliyi bir sıra amillərlə şərtlənir. Ən mühüm şərtlərdən biri – regional səviyyədə sosial-iqtisadi inkişaf templərinin sürətlənməsi ilə bağlıdır. Bu baxımdan Azərbaycan Resdpublikasının ayrı-ayrı bölgələri aqrar sahə üzrə daha çox ixtisaslaşdığı üçün bu

kontekstdə regionların, xüsusən də işğaldan azad edilmiş ərazilərimizin, kənd ərazilərinin inkişafı istiqamətlərinə daha çox diqqət yetirilməsi zərurət doğurur.

Azərbaycanın işğal altından azad edilən rayonlarından çoxşaxəli iqtisadiyyatı ilə seçilən bölgə ərazisi Ağdamın iqtisadiyyatının yenidən bərpası, dövlətin ən önəmli diqqət mərkəzində durur. İnzibati rayon Qarabağ silsiləsinin Şimal-Şərq ətəkləri ilə Kür-Araz çayları arasında, qismən Qarabağ düzündə yerləşən və əsasən rayonun relyefi düzənlikləridir.

Ağdam rayonunda üzümçülük, taxılçılıq, heyvandarlıq, pambıqçılıqla yanaşı tərəvəzçilik, kartof, günəbaxan, bostan bitkiləri, meyvə bağlarından narçılıq xüsusi yer tuturdu. Rayon əhalisinin əsas məsuliyyəti üzümçülük və maldarlıq, qoyunçuluq, pambıqçılıq və taxılçılıq olmaqla, xeyli miqdarda, yəni 18 üzümün ilkin emalı və 1 şampan-şərab zavodu fəaliyyət göstərirdi. Bir irihəcmli un dəyirmanı var idi ki, bu da bütün rayonu və qonşu rayonları un və yem təminatı ilə ödəyirdi. Ağdamda pambığın ilkin emalından keçirib mahlıc alınan pambıq zavodu da var idi. Hazırda işğaldan azad olunmuş bütün ərazilərimizlə yanaşı, Ağdam rayonunda gələcək perspektiv inkişafını təmin edən amilləri şərh edəcək fikirlərimizi bildirək.

Ağdamın ən iri kənd təsərrüfatı sahəsi ilə məşğul olan kəndlərindən biri olan Mərzili kəndini əsas məşğulluğun və aqrar iqtisadi göstəricisi kimi qeyd edə bilərik ki, 1993-cü ilə kimi burada 850 hektar taxıl sahələri, 820 hektar üzüm bağ-plantasiyaları, 400 hektar yonca sahəsi, 200 hektar qarğıdalı, 30 hektar bostan-tərəvəz, 15 hektar tut plantasiyası sahələri və 32 min baş qoyun-quzusu, 420 baş iri buynuzlu südəmtəlik mal fermaları, 5 min başlıq quşçuluq fermaları olmaqla ölkənin aqrar iqtisadiyyatında çoxsahəli, geniş iqtisadi göstəricilərə malik bir yaşayış məntəqəsi – Mərzili kəndi var idi.

Göstəricilər baxımından hesab edirik ki, bu qədər aqrar iqtisadi sahəsahələrin yenidən bərpa edilməsi zərurəti ortaya çıxır. Deməli, aqrar sahənin ən mühüm xüsusiyyətlərindən biri də onun zəruri hallarda dövlət tənzimlənməsi prosesinə kəskin ehtiyacının yaranmasıdır. İqtisadi tənzimləmədə dövlətin stimullaşdırıcı rolunun daha da gücləndirilməsi, bu sahənin özünəməxsus xüsusiyyətlərinin rayon və kəndlərin mütləq şəkildə nəzərə alınmasını zəruri edir.

Göründüyü kimi, aqrar sahənin dövlət tənzimlənməsi – ilk növbədə dövlətin strateji maraqlarının təmin edilməsinə, aqrar sahələrin yeni dövrün tələblərinə uyğun sağlam və səmərəli inkişafının təmin edilməsinə şərait yaradır. Respublikanın ayrı-ayrı bölgələri, xüsusilə də işğaldan azad olunmuş Qarabağ ərazisi regionun iqtisadiyyatının bərpası və onun daha da inkişaf etdirərək bu prosesdə rəqəmsal texnologiyalardan səmərəli, uyğun şərait zəminində yeni texnoloji üsullardan istifadə imkanlarının inkişaf templərinin sürətlənməsi ilə bağlıdır. Bu konteksdə regionların, xüsusən də, adı gedən kənd ərazilərinin inkişafı istiqamətlərinə daha çox diqqət yetirilməsi zərurət doğurur.

Adı gedən regionun aqrar sahədə dövlət tənzimlənməsinin regionun xüsusiyyətləri nəzərə alınaraq dayanıqlı inkişaf, istehsal-iqtisadi fəaliyyət və sosial-iqtisadi səmərəlilik, aqrar sahələrin dövlət tənzimlənməsində ən öndə duran prioritet məsələlərdəndir. Odur ki, Qarabağ iqtisadiyyatının bərpası və inkişafı prosesində tədqiqat və araşdırmalar göstərir ki, aqrar sahədə məhsul istehsalı, tədarükü və emalının dövlət tənzimlənməsi prosesinə başlanan zamanlar aşağıdakı istiqamətlərdə həyata keçirilməsinin məqsədə uyğunluğu daha düzgün olardı:

- istehsalına başlanan kənd təsərrüfatı və ərzaq məhsulları bazarının düzgün formalaşması və onun səmərəli fəaliyyətinin təmin edilməsi;
- maliyyələşmə, kreditləşmə, güzəştli vergi və sığorta sahəsində lazımi tədbirlərin həyata keçirilməsi;
- kənd təsərrüfatında qiymətlərin tənzimlənməsi;
- xarici iqtisadiyyat əlaqələrində əmtəə istehlaklarının maraqlarının qorunması;
- aqrar elmin inkişafı və elmi texniki yeniliklərin istehsala tətbiqi;
- sənaye əhəmiyyətli emal müəssələrinin və ilkin emal zavodların, sexlərin yaradılması;
- kəndin yeni infrastrukturda sosial funksiyası və s.

Fikrimizcə, Qarabağın (Ağdam rayonu şəraitində) iqtisadiyyatının bərpası işində mütləq aqrar sahənin dövlət tənzimlənməsinin aşağıdakı istiqamətlərdə aparılması məqsədəuyğun olardı:

- kənd təsərrüfatı məhsulları istehsalı və aqrobiznes sahələrində investisiya proseslərinin tənzimlənməsi;

- ətraf mühit və ekoloji tarazlığın qorunması şərtilə mövcud torpaq və su resurslarından səmərəli istifadə edilməsi;

- müxtəlif maddi-texniki resurslar, işçi qüvvəsi və istehsal potensialının digər elementlərindən istifadənin düzgün təşkili;

- bu sahədə istehsal və qeyri-istehsal infrastrukturunun fəaliyyətinə yardım göstərilməsi, aqrar bazar infrastrukturunun inkişafının stimullaşdırılması, həmçinin ixracın genişləndirilməsi məqsədilə satınalma qiymətlərinə lazımi iqtisadi müdaxilələrin mütəmadi olaraq həyata keçirilməsi;

- kənd təsərrüfatı məhsullarının satışının stimullaşdırılması məqsədi ilə əhalinin alıcılıq qabiliyyətinin yüksədilməsi və s.

Aparılan müşahidələr və müvafiq təhlillər göstərir ki, ölkəmizin iqtisadi rayonları öz potensialına, təbii sərvətlərinin miqyasına və çeşidinə, əhalinin məşğulluq səviyyəsinə görə, həmçinin aqrar sahənin inkişafı baxımından bir-birindən fərqlənir. Təbii ki, məhsuldar qüvvələrin regionlar arasında qeyri-mütənasib paylanması, onların sosial-iqtisadi inkişaf səviyyəsində də kəskin fərqlər yaranmışdır.

Bununla yanaşı, şərh etdiyimiz iqtisadi rəqəmləri və şəraitlərlə yanaşı, regionlarda formalaşan sosial-iqtisadi münasibətlər nəticə etibarı ilə məqsədli proqram və resurs potensialı əsasında yenilənir, həmçinin orada yaşayan əhalinin gələcək məşğulluğu və tələbatlarının səmərəli şəkildə ödənilməsi mənbəyi kimi mühüm məna kəsb edir. Aqrar sahənin sosial-iqtisadi və təşkilati problemləri – həmin ərazinin kompleks iqtisadi inkişafına uyğun formalaşdırılan və onun regional xüsusiyyətlərini nəzərə almaqla müəyyən edilən şərtlərə əsaslanır. [3, s.29]

### İstifadə edilmiş ədəbiyyat

1. Alıyev İ.H. Aqrar sahənin modernləşməsi və rəqabət qabiliyyətliyinin təmin olunması problemləri. Bakı: Avropa, 2017
2. Coğrafiya Ensiklopediyası – II hissə. Bakı, 2012, s.327
3. Salahov S.V. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı: Nurlan, 2014
4. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı

UOT 356/359(091); 356/359:93/94; 355.4

## Ordu dövlətin təminatıdır

*tar.f.d. Cəmilə Vagif qızı Həsənova,*
*Azərbycan Dövlət İqtisad Universiteti*

Hər bir müstəqil dövlətin suverenliyinin təminatçısı onun ordusudur. Sevindirici haldır ki, son illər ərzində ölkəmizdə ordu quruculuğu yolunda böyük nailiyyətlər əldə edilmişdir. Silahlı Qüvvələrimizin formalaşması isə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli liderimiz Heydər Əliyevin adı ilə sıx bağlıdır.

Tarixə nəzər salsaq, görərik ki, 1828-ci ildə Türkmənçay müqaviləsinin imzalanması ilə Azerbaycanın ərazisi iki hissəyə parçalanmış oldu. Şimali Azərbaycan Rusiyanın tərkibinə, Cənubi Azərbaycan İranın tərkibinə daxil oldu. Danılmaz faktdır ki, Rusiya Azərbaycan əhalisini daima hərbi sənəddən uzaq tutmağa çalışırdı [4]. Bu üzdən Milli Ordumuzun yaradılması Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti dövrünə təsadüf edir. Rusiya imperiyasının müsəlman xalqlarına qarşı həqarətli münasibəti, onların orduda xidmətdən "azad" edilməsi bu xalqların hərbi işləri

yadırğamasına gətirib çıxarmışdı. 1917-1918-ci illərdə erməni təcavüzünün güclənməsi Azərbaycan türklərini fiziki cəhətdən məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Yaranmış vəziyyət təcili olaraq ordu quruculuğuna başlamağı tələb edirdi. 1918-ci il 26 iyun tarixli fərmanla Azərbaycan Milli Ordusunun yaradılmasına başlanıldı. Avqustun 1-də AXC-nin Hərbi Nazirliyi təsis edildi. İstedadlı general Səməd bəy Mehmandarov dekabrın 25-də hərbi nazir, general-leytenant Əlağa Şıxlinski nazir müavini təyin edildilər [2].

AXC süqut etdikdən sonra bolşevik hökuməti Milli Ordunu ləğv etdi. Onun rəhbərlərinin əksəriyyəti Nargin adasına aparılıb güllələndi.

Sovet dövründə çar dövründən fərqli olaraq azərbaycanlı gənclər hərbi xidmətə çağrılırdılar. Lakin onlar döyüş üçün nəzərdə tutulmuş hərbi hissələrdə yox, əsasən tikinti batalyonlarında xidmət edirdilər. Məqsəd aydın idi – azərbaycanlılar arasında hərb elminə dərindən yiyələnən, müasir silahlarla rəftar etməyi bacaran hərbçilərin yetişdirilməsinə imkan verməmək. Bu siyasətin mahiyyətini yaxşı başa düşən Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldikdən sonra, 1971-ci il iyunun 20-də C.Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbi təşkil etdi [1]. O dövrdə bu addımı atmaq çətin bir iş idi. Məşhur Suvorov adına, Naximov adına hərbi məktəblərin mövcud olduğu bir zamanda kiçik respublika olan Azərbaycanda hərbi məktəbin yaradılması müşkül idi. Lakin burada da dahi liderimizin əvəzolunmaz siasəti köməyə yetir. O, azərbaycanlı tələbələrin rus dilini pis bildikləri üçün həmin məktəblərdə yaxşı təhsil ala bilmədiklərini bəhanə gətirir. Və həmin tələbələrin öz dillərində təhsil almalarının və bunun üçün də Azərbaycanda hərbi məktəbin yaradılmasının vacibliyini bildirir. Əslində, o zaman Heydər Əliyev gələcəkdə azərbaycanın müstəqil olacağına daxilən inanmış və bunun üçün də Azərbaycanda milli hərbi kadrların yetişdirilməsi üçün var qüvvəsi ilə çalışmışdır.

Sonralar H.Əliyev deyirdi: "Biz Cəmşid Naxçıvanski adına hərbi liseyin ilk bünövrə daşlarını qoyanda o bizim üçün nəzəriyyə deyildi, böyük gələcəyə, Azərbaycanın gələcəyinə baxış idi. Azərbaycanın milli zabit kadrlarının hazırlanması üçün ilk uğurlu addımlar idi. Biz bu addımları atarkən düşünürdük ki, zaman gələcək, Azərbaycan xalqı öz milli azadlığına qovuşacaq, öz dövlət müstəqilliyini əldə edəcək, müstəqil Azərbaycan dövləti yaranacaq. Yarandı da. Məhz bugünkü müstəqilliyimizə görə mən bu məktəbi yaratdım, yaşatdım, böyütdüm. Bilirsiniz, sizə səmimi deyirəm, C.Naxçıvanski adına lisey mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona bax, bu cür baxacağam". [6].

Ulu öndərimiz o dövrdə azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunmasına nail olmuşdu. Bu gün C.Naxçıvanski adına Hərbi Liseyin milli zabit kadrlarımızın yetişdirilməsində və o dövrdə ali hərbi məktəbləri bitirmiş şəxslərin silahlı qüvvələrin formalaşmasında müstəsna rolu vardır. Bu məktəblərdə yetişən Azərbaycan hərbçiləri Birinci Qarabağ və İkinci Qarabağ müharibələrində misilsiz igidliklər göstərmişlər. Lakin bu nailiyyətlər asanlıqla əldə edilməmiş, çox mürəkkəb və çətin tarixi inkişaf yolu keçmişdir.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın istəyi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra onun müstəqil dövlət quruculuğu istiqamətində tarixi xidmətlərindən biri də Azərbaycan Silahlı Qüvvələrini ağır böhranlı vəziyyətdən çıxarması, ordunu siyasi oyunlarından kənarlaşdırması oldu [3]. Ulu öndər zəngin dövlətçilik təcrübəsi, qətiyyətli və ardıcıl siyasəti ilə çox mürəkkəb şəraitdə ordu quruculuğuna yeni məzmun verdi və ölkədə müasir ordu formalaşdırılmasının əsasını qoydu.

Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədi ilə 1999-cu il yanvarın 20-də Hərbi Akademiyanın yaradılması haqqında fərman imzalamışdır. Prezidentin 20 avqust 2001-ci il tarixli fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırılmışdı [5].

Bu gün Azərbaycan Silahlı Qüvvələrinin zabitləri həmçinin Türkiyənin, Ukraynanın, Rusiyanın, Pakistanın, Çinin, Almaniyanın, Böyük Britaniyanın, İtaliyanın, Rumıniyanın,

Macarıstanın hərbi akademiyalarında və dinləmə kurslarında da təhsil alırlar. Zabitlərimizin Amerika Birləşmiş Ştatlarında təhsil alması haqqında artıq razılıq əldə etmişdir.

Ümumiyyətlə, ordu faktoru hər bir dövlətin daxili və xarici siyasətinin güzgüsü sayıla bilər. Dövlətin və cəmiyyətin orduya münasibəti həmin dövlətin öz nüfuzuna, bu gününə və sabahına olan münasibətidir. Ordu faktorunun rolu isə bilavasitə onun döyüş qabiliyyətindən asılıdır [4].

Dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, ordu quruculuğu sahəsində də Ümummilli liderin, müasir və modern Azərbaycan Ordusunun yaradıcısı Heydər Əliyevin siyasi kursu uğurla davam etdirilir. Elə bunun nəticəsidir ki, milli ordumuz döyüş və mənəvi-psixoloji hazırlıq sahələrində böyük uğurlar əldə edərək gündən-günə daha da güclənir və qüdrətlənir.

Artıq bütün dünya bilir ki, Azərbaycanın Silahlı Qüvvələri 1990-cı ilin əvvəllərindəki siyasiləşmiş silahlı dəstələr deyil, vahid mərkəzdən idarə olunan, maddi-texniki bazası, intellektual potensialı xeyli möhkəmlənmiş, istənilən döyüş tapşıpığını yerinə yetirməyə qadir olan bir ordudan ibarətdir.

Orduya dövlətin təhlükəsizliyinin, ərazi bütövlüyünün və müstəqilliyinin qarantı kimi baxan hər bir Azərbaycan vətəndaşı bu gün öz ordusu ilə sözün əsl mənasında fəxr edir. Əldə olunan uğurlar bir daha sübut etdi ki, cəmiyyətdəki siyasi plüralizm daxili qüvvələrin parçalanmasına, siyasi iddiaların həyata keçirilməsinə deyil, vahid dövlət quruculuğuna xidmət edərsə, ordu quruculuğu sahəsində dövlətin apardığı siyasət əsaslandırılmış və ardıcıl olarsa, Silahlı Qüvvələrin təşkilində və gücləndirilməsində yüksək nailiyyətlər əldə etmək olar [1]. Bütün bunlar ordu quruculuğu prosesində də öz müsbət nəticəsini verməyə başladı. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi bu sahədə də ciddi irəliləyişlərin əldə olunmasını şərtləndirdi. Məhz Ali Baş Komandan İlhan Əliyevin səriştəli siyasəti nəticəsində Azərbaycan Respublikası özünün işğal edilmiş Dağlıq Qarabağ ərazisinə yenidən qayıda bildi. Bu böyük tarixi qələbə idi. Əlbəttə ki, bu Respublikada aparılmış düzgün ordu siyasəti nəticəsində baş verdiyini hər kəs bilir və qürur duyur.

**İstifadə edilmiş ədəbiyyat**

1. Xilaskar (Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91 illiyinə həsr olunub). Bakı: "MTR group" nəş., 2014, 242 s.
2. Mirzəzadə A. Güclü və modern Azərbaycan ordusu Heydər Əliyev siyasətinin nəticəsidir. "Azərbaycan" qəz., 2011, 11 aprel, №76, s.2
3. Rüstəmov İ. Heydər Əliyev Azərbaycan ordusunun qurucusudur. "Respublika" qəz., 2009, 12 dekabr, № 270, s.7
4. Süleymanov M. Heydər Əliyev və Azərbaycanda ordu quruculuğu. "Azərbaycan ordusu" qəz., 2018, 2 may, №33, s.1-3
5. Süleymanov M. Azərbaycan Silahlı Qüvvələri – 100. "Xalq qəzeti", 2018, 26 iyun
6. Customs.gov.az/az/xebrler/620_26-iyun-silahlı-quvveler-gunudur/

UOT 327; 930.22

## Humanitar sahədə Azərbaycan-İtaliya münasibətlərinin inkişafında Heydər Əliyevin tarixi xidmətləri

*tar.f.d. Emil Abgül oğlu Qasımov,*
*Azərbaycan Dillər Universiteti*

Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkələrimiz arasında münasibətlər çoxşaxəli xarakter daşıyaraq daha geniş sahələri əhatə etdi. Reallığa əsasən İtaliya zəngin mədəniyyətə, böyük

dövlətçilik tarixinə və dünya siyasətində geniş imkanlara malik olan bir ölkə kimi həmişə mühüm maraq kəsb edib. Azərbaycanın yürütdüyü humanitar siyasət nəticəsində ölkəmizin beynəlxalq mədəni proseslərdə nüfuzu artmaqdadır. Eyni zamanda həm siyasi-iqtisadi, həm də Roma üçün həyati əhəmiyyətli strateji tərəfdaş kimi Cənubi Qafqazın ən güclü ölkəsi olan Azərbaycanla, İtaliya Respublikası əlaqələr qurmağa üstünlük verir. Ölkəmizdə də bu ölkəyə xüsusi maraq mövcuddur, və bu səbəbdən humanitar istiqamətdə Azərbaycan-İtaliya əməkdaşlığına böyük önəm verilir və münasibətlərin əsas prioritetləri kimi dəyərləndirilir.

1993-cü ildə Heydər Əliyevin Azərbaycana ikinci dəfə hakimiyyətə qayıdışından sonra Qərbi Avropa ölkələri ilə humanitar sahədə əməkdaşlıqda keyfiyyətcə yeni mərhələyə start verildi. Ulu öndər H. Əliyev tərəfindən Azərbaycan-İtaliya arasında humanitar istiqamətdə 1997-ci ildə hüquqi əsasda qurulan münasibətlər əməkdaşlığın istiqamətlərinin müəyyənləşdırılməsi üçün əsas sənəd oldu. Məhz Ulu öndər H. Əliyevin təşəbbüsü və uzaqgörən siyasəti nəticəsində iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişafı üçün zəmin yarandı.

24-27 sentyabr 1997-ci il tarixində Ümummilli lider H.Əliyevin Romaya səfəri zamanı "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında münasibətlərin prinsipləri haqqında Birgə Bəyannamə" imzalandı. Humanitar istiqamətdə razılığa əsasən saziş aşağıdakı sahələrdə əməkdaşlığı əhatə edirdi: təhsil və dil öyrənilməsi; universitetlər arasında əməkdaşlıq; mədəniyyət sahəsində keçirilən tədbirlərdə iştrak etmək; rəsm əsərlərinin mübadiləsi və ədəbiyyat; kino, musiqi, rəqs, teatr sahəsində əməkdaşlıq; mədəni irsin qorunması; incəsənət əsərlərinin və mədəni sərvətlərin qanunsuz çıxarılması, gətirilməsi və ötürülməsi; mətbuat və teleradio, idman, gənclər, arxivlər, kitabxanalar və muzeylər sahəsində əməkdaşlıq [2]. Göründüyü kimi, imzalanan saziş humanitar istiqamətdə əməkdaşlığın hüquqi-siyasi əsaslarını təşkil edir.

1997-ci il sentyabrın 25-də Azərbaycan və İtaliya hökumətləri arasında turizm sahəsində əməkdaşlıq haqqında səkkiz maddədən ibarət saziş imzalandı [3]. Bu sənədlər Azərbaycan Respublikası prezidentinin 1998-ci il 4 fevral tarixli N733-li sərəncamı ilə təsdiq edildi [5].

Heydər Əliyev tərəfindən İtaliya ilə qurulan münasibətlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirir. Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev tərəfindən dinamik inkişafa təkan verən 2005 və 2008-ci illərdə Romaya səfərləri nəticəsində əlaqələr 2010-2011-ci illərdə daha da intensivləşdirilmişdi.

Azərbaycan musiqisinin Avropada təbliğinin genişləndırılməsi məqsədilə 2009-cu il dekabrın 15-də "Azərbaycanı kəşf edək!" layihəsi çərçivəsində ölkəmizin Mədəniyyət və Turizm Nazirliyi ilə İtaliyanın "Felmay Corso Moncalieri" şirkəti arasında müqavilə imzalanmışdır. Müqavilənin müddəalarına əsasən, İtaliyada mədəniyyətimizin təbliği ilə əlaqədar "Azərbaycanın ənənəvi musiqisi" adı altında altı kompakt diskdə musiqi albomlarının hazırlanması və satışının həyata keçirilməsi planlaşdırılır. İlk diskin təqdimatı Turin şəhərində keçirilən "Darbar" adı altında konsert proqramı zamani baş tutub [7].

Azərbaycan həqiqətlərinin İtaliyada daha operativ yayılması istiqamətində atılan mühüm addımlardan biri informasiya mübadiləsidir. Bu istiqamətdə AzərTac ilə əsası 1950-ci ildə qoyulmuş İtaliyanın nüfuzlu AGİ xəbər agentliyi arasında 23 dekabr 2010-cu il tarixində əməkdaşlıq haqqında saziş imzalanmışdır [9].

2011-ci ilin iyununda Şuşa Uşaq Musiqi məktəbinin yaratmış olduğu "Şuşanın dağları" ansamblının Milan və Roma şəhərlərində "Beynəlxalq Uşaq Hüquqlarının Müdafiəsi gününə həsr edilmiş konsertlə bağlı yerli mətbuatda məqalə dərc olunmuşdur. Məqalədə diqqət çəkən məqamlardan biri ansambl üzvlərinin Ermənistanın təcavüzü nəticəsində öz yurd-yuvalarından didərgin düşməsinin səbəblərinin izah olunmasıdır [8].

Dünya mədəniyyətinə əvəzsiz töhvələr verən Nizami Gəncəvinin xarici dövlətlərdə ucaldılan heykəlləri Azərbaycan ədəbiyyatı və mədəniyyətinin təbliğində vacib rol oynayır. Belə abidələrdən biri Azərbaycan Respublikasının Prezidentinin 2011-ci il 23 dekabr tarixli "Azərbaycannın dahi şair və mütəfəkkiri Nizami Gəncəvinin 870 illiyi haqqında" Sərəncamı və Heydər Əliyev Fondunun dəstəyi sayəsində 2012-ci il aprelin 20-də Roma şəhərindəki Villa Borgeze bağında qoyulub [5]. Bu həm Nizamini "fars şairi" kimi qələmə verməyə cəhd edənlərə layiqli cabab həm də Azərbaycan

mədəniyyətinin zənginliyini dünya ictimaiyyətinə çatdırılmasının mühüm töhfəsi kimi dəyərləndirilir.

Azərbaycan mədəniyyətinin təbliğinə xüsusi önəm verən H.Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2011-ci il noyabrın 28-dən dekabrın 2-dək ölkəmizin müstəqilliyinin bərpa edilməsinin 20-ci ildönümü ilə bağlı Vatikanda və Romada səfərdə olmuşdur. Səfər günləri ərzində nümayiş olunan Azərbaycan mədəniyyətinin inciləri Romanın ictimai və mədəni həyatının ən önəmli hadisəsinə çevrilmişdi. Keçirilən tədbirlər barədə məlumat İtaliyanın nüfuzlu mətbu orqanlarında işıqlandırılmışdır [6]. Təşkil olunan mədəniyyət nümunələri xalqlararası təmasların inkişafına böyük töhfə verir.

Araşdırılan dövrdə İtaliyanın incəsənət nümayəndələrinin Azərbaycanda keçirdiyi tədbirlər uğurla keçirilmişdi. 13 fevral 2011-ci il tarixində H.Əliyev sarayında dünya şöhrətli italiyan müğənnisi R.Loretinin konsert proqramı təşkil olunmuşdur. Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində 2011-ci il 14 dekabr tarixində “Toska” tamaşasında İtaliya dirijoru Can Luka Marçiano, 2012-ci il 21 yanvar tarixində tanınmış müğənni Rikkardo Mirabelli (tenor) çıxış etmişlər.

Azərbaycan-İtaliya münasibətlərində Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin fəaliyyəti nəticəsində İtaliyada Azərbaycan Mədəniyyət Ayı çərçivəsində tədbirlərin təşkili və Romada dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsi üçün yerin seçilməsi ilə əlaqədar ezam olunan Azərbaycan nümayəndə heyəti 2011-ci il mayın 24-dən 27-dək İtaliyaya səfər etmişlər. 54-cü Ümumdünya Təsviri Sənət Sərgisində Azərbaycan Pavilyonunun təşkili və gələcək əməkdaşlıq məsələlərinin müzakirə olunması ilə əlaqədar Azərbaycan Respublikasının mədəniyyət və turizm nazirliyinin nümayəndə heyyəti 2011-ci il 1-5 iyun tarixində İtaliyanın Venesiya şəhərində səfərdə olmuşdur. Səfər zamanı XV əsrdə ucaldılan Palazzo Benzon sarayında Azərbaycan Pavilyonunun açılışı olmuşdur [1, s.2-3]. Səfər çərçıvəsində keçirilən tədbirlər yaddaqalan və məhsuldar olmuşdu.

İtaliyanın Azərbaycandakı səfirliyi 2011-ci il 10-20 dekabr aralığında Muzey Mərkəzində İtaliyanın birləşdırılməsinin 150 illik yubileyi ilə bağlı ”Focus on heritage” adlı sərgi keçirilmişdir. 45 paneldən ibarət olan bu sərgi YUNESKO-nun ”Dünya irs siyahısı”na daxil edilmiş 45 abidə və şəhərə həsr olunmuşdur. Sərgi Azərbaycan və İtaliya arasında mədəni əməkdaşlığın inkişafına yönəldilmişdir [4, s.25].

Ümummilli lider H.Əliyev tərəfindən qurulan münasibətlər hazırda strateji səviyyəyə yüksəlməklə Azərbaycanın beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirib. Humanitar istiqamətdə münasibətlərin keyfiyyətcə yeni mərhələdə davam etdirilməsi xalqlarımızın daha da yaxınlaşması baxımından son dərəcə vacibdir. Müasir mərhələdə İtaliya ilə bu istiqamətdə qarşılıqlı əlaqələr bərabərhüquqlu əməkdaşlığının tanınmasının zəruriliyini dərk etməyə gətirib çıxarır.

Qloballaşma dövründə mədəniyyətlər arası dialoqun bir xalqın mədəniyyətinin üstünlüyünə deyil, dünyada mədəni əlaqələrin qorunub saxlanılmasına, eyni zamanda qarşılıqlı zənginləşməyə və mədəni mübadiləyə yönəldilən siyasətdən ibarətdir.

## İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında mədəniyyət və turizm sahələrində ikitərəfli əməkdaşlıq haqqında arayış / Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin cari arxivi. 2006-2016-cı illər, 7 s.

2. Azərbaycan Respublikası hökuməti ilə İtaliya Respublikası hökuməti arasında 1997-1998-ci illərdə ikitərəfli texniki əməkdaşlıq haqqında anlaşma memorandumu / Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin cari arxivi. 1997-ci il.

3. Azərbaycan Respublikası hökuməti ilə İtaliya Respublikası hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında saziş / Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin cari arxivi. 1997-ci il.

4. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin illik hesabatı - 2011. Bakı, 2012, 100 s.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı. 1998-ci il 23 fevral / Azərbaycan Respublikası Gənclər İdman və Turizm Nazirliyinin cari arxivi. 1998-ci il
6. ”Cronaca di Roma”: “İncəsənət, musiqi, təamlar-Azərbaycanın birinci xanımı ölkəsini belə təqdim edir”. “Azərbaycan” qəz., 2011, 7 dekabr
7. İtaliyada buraxılmış musiqi diskində xanəndə Q.Əsgərov və onun rəhbərlik etdiyi ”Turan” ansablının ifası yer almışdır. “Azərbaycan” qəz., 2011, 3 iyun
8. Şuşanın ölməz musiqisi İtaliyada səsləndi. “Azərbaycan” qəz., 2011, 7 avqust
9. http://azertag.az›xeber›Aze
10. https://www.baki-xeber.com/siyaset/115942

UOT 9/47.924

## Heydər Əliyevin Azərbaycançılıq ideologiyası

*tar.f.d. Sevda Fizuli qızı Abdullayeva,*
*Azərbaycan Dövlət Aqrar Universiteti*

Beynəlxalq, mədəniyyətlərarası münasibətlərin get-gedə gücləndiyi bir zamanda gənc nəsli Azərbaycançılıq ideologiyası ilə inkişaf etdirmək bizlərin esas məqsədlərimizdən sayılır. Bu istiqamət xalqımıza Ulu öndər Heydər Əliyev siyasətindən töhfə olaraq qalmışdır. Həqiqətən, deyə bilərik ki, bir dövlətin bəşəri əhəmiyyətini və beynəlxalq aləmdəki mövqeyini əsaslandıracaq iki mühüm xüsusiyyət mövcuddur. Bunlardan birincisi dövlətçilik ənənələrinin qorunması, digəri isə qloballaşan dünyada müstəsna rolu olan multikultural prinsiplərin izlənilməsidir. Əslində hər iki yol mühüm mahiyyət kəsb edən strategiyalardır. Beləliklə, müasir müstəqillik tariximizin banisi sayılan Ümummilli lider Heydər Əliyev dövlətimizin beynəlxalq aləmdə möhkəmlənməsini şərtləndirən çox vacib iki prinsipi daim qorumuşdur. Heydər Əliyevin Azərbaycançılıq və multikulturalizm siyasəti bu günə və gələcəyə istiqamətlənmiş müstəsna bir yoldur. Xarici dilləri və mədəniyyəti öyrənən, beynəlxalq konfranslarda iştirak edən Azərbaycan vətəndaşı yuxarıda qeyd etdiyimiz siyasi kursun vacibliyini həmişə nəzərdə saxlamalıdır. Xalq üçün düzgün siyasətin nə olduğunu gözəl bilən Ümummilli lider milli mənəvi dəyələrimizi qoruyub saxlayaraq, bəşəri mədəniyyətin mühümlüyünü də daim nəzərə almışdır.

Qeyd etmək vacibdir ki, hər iki istiqamətin paralel olaraq, bir-birinə mane olmadan inkişaf etdirilməsi həqiqətən də böyük səy və düzgün siyasi baxış tələb edir. Bu baxımdan, şübhə etmədən qeyd edə bilərik ki, böyük bir siyasətçi olaraq Heydər Əliyev bunun öhdəsindən gəlməyə nail olmuşdur. O, nəinki Azərbaycan mədəniyyətinin dünyada yayılmasına şərait yaratmış, eyni zamanda Azərbaycançılıq ideologiyasının gənc nəsil tərəfindən qorunub saxlanılmasına birbaşa təsir etmişdir. Xalqı üçün nümunə sayılan Heydər Əliyev öz simasında, nitqində və davranışında milli ideologiyanı canlandıraraq hər zaman və hər yerdə Azərbaycan dəyərlərinə istinad etmişdir. Xalqını, mədəniyyətini sevən bir şəxsiyyət olaraq Heydər Əliyev Azərbaycan və Azərbaycançılıq anlayışlarının gələcək nəsillərə çatdırılmasını ən ümdə vəzifə saymışdır. Buna sübut olaraq, akademik Ramiz Mehdiyev diqqətimizi Ümummilli liderin çox təsirli fikirlərinə yönəltmişdir. O, Prezident Heydər Əliyevin 2001-ci il noyabrın 9-da Dünya Azərbaycanlılarının birinci qurultayında dövlətin siyasətini səciyyələndirərkən prioritet saydığı fikirləri oxucularla bölüşmüşdür: “Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq”. [3]

Həqiqətən də, bir xalqın gələcək inkişafı və dünya üzrə diqqətçəkən statusu onun milli xüsusiyyətlərinin cəlbedici və maraqlı göstəricilərindən bilavasitə asılıdır. Milli keyfiyyətlərin spesifik məqamları digər dövlətlərin marağını çəkərək beynəlxalq əlaqələrin möhkəmlənməsinə və inkişaf etməsinə kömək olur. Bu və digər məsələləri gözəl bilən Ümummilli lider haqlı olaraq azərbaycançılıq ideologiyasının qorunmasını vacib məsələ kimi təqdim etmişdir.

Heydər Əliyev siyasəti Azərbaycançılıq ideologiysının qorunmasına əsaslanmış və multikulturalizm baxışlarına yönəlmişdi. Bununla bağlı akademik Kamal Abdulla öz fikrini "Ulu öndər Azərbaycan multikulturlizminin siyasi banisidir" məqaləsində belə ifadə etmişdi: "Ulu öndər haqlı olaraq, multikulturalizm siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edirdi. O, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən etnik-mədəni, dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan əsas insan hüquq və azadlıqları kontekstində görürdü. Ulu öndərin rəhbərliyi ilə, nəhayət ki, dönüşü olmayan demokratik inkişaf yoluna çıxmış Azərbaycan Respublikası, onun qeyd etdiyi kimi, "dinindən, dilindən, irqindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşlarının eyni hüquqlara malik olmalarını təmin etməlidir". [1]

Multikultural bir mühitdə milli dəyərlərin qorunması olduqca məsuliyyətli və vacib bir məqamdır. Nəzər yetirsək, görə bilərik ki, tarix boyu Azərbaycan mədəniyyətinin göstəricisi olan tolerantlıq, qonaqpərvərlik, digər millətlərə, xalqlara qarşı dostyana münasibət əslində azərbaycançılıq ideologiyasının tərkib hissəsidir. Buna əsaslanaraq, dahi lider Heydər Əliyev azərbaycançılıq siyasətini möhkəmləndirərkən milli dəyərlərimizdən biri olan tolerant və multikultural keyfiyyətləri bu qədər vacib saymışdır. Elə bu bir faktdır ki, bu istiqamətin davamı olaraq Prezident İlham Əliyev 2016-cı ili ölkəmizdə "Multikulturalizm ili" elan etmişdi. "Tolerantlıq – dözümlülük və multikulturalizm – çoxmədəniyyətlilik haqqında Azərbaycan modeli bütün dünyaya örnək və nümunədir, dünyanın bir çox ölkələri bu təcrübəni öyrənir.

Sözügedən sahələrdə çox dərin məna, məzmun və mündəricə kəsb edən, kəlam xarakterli, mahiyyətli bu fikirlər Azərbaycan xalqının dünya şöhrətli ictimai, siyasi və dövlət xadimləri olan Ulu öndərimiz Heydər Əliyevin və dövlətimizin başçısı, möhtərəm Prezidentimiz İlham Əliyevin çoxcəhətli, çoxşaxəli, əzmkar fəaliyyətlərində mühüm yer tutmuş və bu gün də tutmaqdadır. (Mixail Zabelin, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Himayəçilik Şurasının üzvü, millət vəkili)." [2]

Beləliklə, dahi lider Heydər Əliyev öz xalqını düşünən bir siyasətçi olaraq, Azərbaycançılıq və çoxmədəniyyətlilik ideologiyalarını öz siyasətinin əsas kursları kimi görmüşdür. Düşünürəm ki, hər bir dövlət üçün öz milli xüsusiyyətlərini qoruyub saxlamaq və özündə multikultural mədəniyyəti formalaşdırmaq həm zəruri, həm də gərəkli strategiyalardır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Abdullayev K. "Azərbaycan" qəz., 2014, 23 iyul, s.7
2. Qarayev Ə. Azərbaycanda multikulturalizm: biblioqrafiya / layih. rəhb. Ə.Qarayev; elmi red. K.Abdullayev. Bakı, 2016, 504 s.
3. Mehdiyev, R. Azərbaycançılıq – milli ideologiyanın kamil nümunəsi // Multikulturalizm: ədəbi-bədii, elmi-publisistik jurnal, 2016, №1, s.20-27
4. http://modern.az/az/news

UOT 321.01, 321.01:342.2

**Ümummilli lider Heydər Əliyev müstəqil, hüquqi, demokratik Azərbaycan dövlətinin qurucusudur**

*tar.f.d. Tohid Dilən oğlu Məmmədov,*
*Əhliman İbrahim oğlu Dadaşzadə,*
*Sumqayıt Dövlət Universiteti*

Dövlət müstəqilliyimizin bərpasından otuz ildən çox bir dövr keçir. Bu günlərdə ən böyük nailiyyətlərimiz sırasında ölkədə hüquqi, demokratik dövlət quruculuğu sahəsində əldə edilmiş nailiyyətlər, heç şübhəsiz, minətdarlıqla xatırlanır. Bu mənada müstəqil Azərbaycanda ilk hüquqi,

demokratik dövlətin yaradıcısı olan Ulu öndər Heydər Əliyevin ictimai-siyasi, hüquqi və dövlət quruculuğu sahəsindəki misilsiz fəaliyyətinin elmi-nəzəri baxımdan dərindən öyrənilməsinə böyük zərurət və ehtiyac duyulur. Çünki Azərbaycan xalqının əsrlər boyu arzu etdiyi müstəqil dövlətin yaranması və təşəkkülü məhz onun adı ilə bağlıdır.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümü münasibətilə hər il Azərbaycanın, demək olar ki, bütün guşələrində, ayrı-ayrı müəssisələrində, əmək kollektivlərində, elm və təhsil ocaqlarında təntənəli yubiley tədbirləri keçirilir. Çox xoşdur ki, bu cür yubiley tədbirləri, dünyanın bir sıra ölkələrində, xüsusən də, azərbaycanlıların kompakt yaşadığı yerlərdə də keçirilməkdədir. Özü də Heydər Əliyevin adı və xidmətləri təkcə onun doğum günü yaxud da, anım günlərində deyil, hər yerdə və həmişə hörmət və ehtiramla yad edilir.

Ulu öndəri özünə müəllim bilən, dost hesab edən, onun iş təcrübəsindən, məsləhət və tövsiyələrindən faydalanan bütün insanlar tərəfindən də hörmət və ehtiramla yad edilir.

Heydər Əliyevin həyatı, fəaliyyəti və onun xidmətləri haqqında çox deyilib, çox yazılıb. Müasir dünyanın ən mötəbər qirayətçiləri, nüfuzlu dövlət xadimləri, onu yaxından tanıyan çox məşhur elm və sənət adamları Heydər Əliyev fenomenini ən müxtəlif rakurslardan səciyyələndirərək, bu dahi şəxsiyyətin örnək ola biləcək keyfiyyətləri barədə mülahizə və fikirlərini bildirmişlər.

Heydər Əliyevin əməli fəaliyyətinin ayrı-ayrı aspektləri, o cümlədən onun konkret elm sahələri ilə bağlı fəaliyyəti, düşüncə və tövsiyyələri, bütövlükdə, Ulu öndərin elmlə və elm adamlarının münasibəti xüsusi araşdırma tələb edən kifayət qədər geniş bir tədqiqat mövzusudur. Son vaxtlar ayrı-ayrı elm sahələrini təmsil edən çox görkəmli alimlərin bu istiqamətdə aparmış olduğu elmi araşdırmaların məntiqi yekunu olaraq artıq neçə-neçə tədqiqat əsəri və monoqrafiya və məqalələr işıq üzü görüb [1, s.13].

Taleyini, həyatını, ruhunu, qəlbini, düşüncəsini, bir sözlə, bütün varlığını Azərbaycanın tərəqqisinə, yüksəlişinə həsr edən, Azərbaycanı bütün dünyaya tanıdan Heydər Əliyevin böyük ömür yolu əsil nümunədir.

XX yüzillikdə təbiətin Azərbaycan xalqına bəxş etdiyi Heydər Əliyev kimi, müdrik bir şəxsiyyətin nəhəng siyasət meydanında atdığı qətiyyətli və inamlı addımlar, onun əsrimizin tarixində danılmaz mövqeyini dəfələrlə sübut etmişdir.

Dövlət Təhlükəsizlik Komitəsində sıravi işçi kimi əmək fəaliyyətinə başlayan Ümummilli liderimiz Heydər Əliyev, DTK-nın generalı rütbəsinə qədər yüksəldi. Milli Təhlükəsizlik Komitəsində rəhbər vəzifəyə seçildi. Həmin dövrdə milli kadrların sayı artırıldı. Heydər Əliyevin Azərbaycan dövlət quruculuğunun fəaliyyətindəki birinci mərhələsi buradan başladı. 1969-cü il iyunun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi təyin edilən Heydər Əliyev bu vəzifədə 14 il çalışdı. Heydər Əliyev həmin dövrün çətinliklərinə baxmayaraq öz şəxsi nüfuzu, qabiliyyəti sayəsində bütün layihələr üzrə intibaha nail oldu. Heydər Əliyevin qeyri-adi təşkilatçılıq qabiliyyətini nəzərə alıb, həmin dövrdə onu SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin etdilər. O, həmin dövrdə Azərbaycanda mütəmadi əlaqə saxlayaraq Azərbaycanın dövlət maraqlarını qorudu. SSRİ dövlətinin başçısı olmuş avantürist M.Qorbaçovun əhatəsində Hörümçək toru kimi Kremldə vəzifədə çalışan faşist ermənilərin təhriki nəticəsində 1987-ci ilin oktyabr ayında Ulu öndər Heydər Əliyev Kremldən kənarlaşdırıldı. Bunun ardınca 1988-ci ilin fevral ayında Dağlıq Qarabağın ermənistana birləşdirilməsi məsələsini qaldıraraq, erməni faşistləri həm Qarabağ ətrafında, Azərbaycanın qərb, eyni zamanda Naxçıvan istiqamətində geniş miqyaslı döyüş əməliyyatlarına başladılar. Bunun ardınca planlı surətdə Sumqayıt hadisələri törədildi. Azərbaycanın 7 rayonu işğal edildi, bir milyona qədər əhali qaçqın vəziyyətinə düşdü, azərbaycanlıların əzmini qırmaq məqsədi ilə tarixdə misli görünməmiş Xocalı faciəsi törədildi, 1990-cı ildə yanvarın 20-də M.Qorbaçovun göstərişi ilə əksəriyyəti ermənilərdən ibarət ordu Bakıda Neftçalada və Lənkəranda dinc əhalini qırdılar.

Dahi şəxsiyyət Heydər Əliyev həmin dövrdə təqib olunmağına baxmayaraq, cəsarət göstərərək, Moskvada Azərbaycan nümayəndəliyinə gələrək xarici jurnalistlər qarşısında bəyanət verdi. Qorbaçov və onun komandasının dinc azərbaycan xalqına qarşı törədilmiş cinayəti bütün

dünyaya bəyan etdi. Qorbaçovun hakimiyyəti dövründə Azərbaycan rəhbərliyi tərəfindən təqibə məruz qalan Heydər Əliyev 1990-cı ildə Naxçıvana gəlməli oldu. Naxçıvan əhalisi onu hərarətlə qarşıladı. Naxçıvan həmin dövrdə blokada şəraitində idi. Belə bir zamanda Heydər Əliyev Azərbaycan Ali Sovetinə deputat, həmdə, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının ALİ Sovetinin sədri seçildi. 1991-ci ilin noyabr ayının 17-də keçirilən sessiyada Naxçıvan Muxtar Sovet Sosialist Respublikası adı dəyişdirilərək, Naxçıvan Muxtar Respublikası adlandırıldı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağı, dövlət bayrağı kimi qəbul edildi. 31 dekabr Dünya azərbaycanlılarının həmrəylik günü elan olundu. Heydər Əliyev Naxçıvanda ordu quruculuğuna başladı. Həmin dövrdə Azərbaycan çox ağır təlatümlü günlərini yaşayırdı. SSRİ dağılandan sonra Azərbaycan iqtisadiyyatı tamamilə iflic vəziyyətinə düşmüş, siyasi qarşıdurma vətəndaş müharibəsi vəziyyətinə gətirib çıxarmışdır. Dövlət idarəçiliyi sistemi böhran vəziyyətində idi, silahlı quldur dəstələr dinc azərbaycanlı əhalisinə qətl və qarətlər törədildi [2, s.11-13].

Azərbaycanın müxtəlif bölgələrində separatçılıq hərəkətləri, baş qaldırdı. Belə bir çətin şəraitdə Azərbaycanın çoxsaylı ziyalılarının və Azərbaycan ictimaiyyətinin təkidi və tələbi ilə Ulu öndərimiz Heydər Əliyev, 1993-cü il iyun ayının 15-də yenidən hakimiyyətə gəldi. O, hakimiyyətə gələn kimi öz fəlsəfi düşüncəsi ilə bütün Azərbaycan xalqına milli barışıq elan etdi. 1993-cü ilin noyabr ayında ordu quruculuğuna başlandı. Azərbaycanın hərbi doktorinası yaradıldı. Azərbaycanda separatçılıq hərəkətləri ləğv edildi, əhalidən qanunsuz silahlar yığıldı, həmin dövrdə Azərbaycanda olan qanunsuz silahlı quldur dəstələr zərərsizləşdirildi. Ölkənin idarəçilik sistemi bərpa olundu. Uzaqgörən siyasətçi Heydər Əliyev Azərbaycan dövlətinin başçısı kimi, fəal daxili və xarici siyasət yeritdi. Ölkə iqtisadiyyatını qaldırmaq üçün Xəzər dənizində olan karbohidrogen ehtiyatlarını aşkara çıxarmaqla iqtisadiyyatı qaldırmaq üçün 1994-cü ilin sentyabr ayında əsrin müqaviləsi olan neft kontraktı imzalandı, Bakı-Ərzurum qaz kəməri çəkilməyə başladı. Qərblə şərqlə dəhlizini birləşdirən ipək yolu çəkilməyə başladı. Dövlətin ən mühüm atributu olan nizami ordu formalaşdı. Ayaz Mütəllibovun, AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə 1989-cu ilin sentyabr ayının 23-də Azərbaycan SSRİ Ali Soveti tərəfindən dövlət suverenliyi haqqında konstitutsiya qanunu, 1991-ci ilin avqust ayının 30-da dövlət müstəqilliyinin bərpası haqqında bəyannamə imzalandı, 1991-ci ilin oktyabr ayının 18-də dövlət müstəqilliyi haqqında konstitusiya aktı imzalansada, lakin, bu dekorativ xarkter daşıyırdı. Həmin dövrdə bir tərəfdən daxili çəkişmələr, hakimiyyət uğrunda aparılan mübarizə, vətəndaş müharibəsi, digər tərəfdən Ermənistanın Azərbaycana etdiyi təcavüz nəticəsində torpaqlarımızın 20 %-i işğal altına düşdü.

Beləliklə, 1993-cü ildə Ulu öndər Heydər Əliyevin siyasi qayıdışından sonra ölkədə vəziyyət sabitləşdi. Ulu öndərin hakimiyyətə qayıdışından sonra bunlar reallaşdı. Dahi şəxsiyyət informasiya blokadasını yaradaraq Azərbaycan həqiqətlərini bütün dünyaya çatdırdı. 1994-cü ilin noyabr, 1995-ci ilin mart hadisələri törədilərək dövlət çevirişi cəhdləri edildi. Lakin, Heydər Əliyevə olan xalq məhəbbəti nəticəsində və onun oğru sayəsində bütün bunların qarşısı alındı.

XXI əsrə Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə qədəm qoyan Azərbaycan Respublikası dövlətçiliyin qorunması vəzifəsini uğurla həll etdi. Ulu öndərin həyata keçirdiyi məqsədyönlü siyasət Azərbaycanı ötən əsrin 90-cı illərin əvvəllərindəki xaos və anarxiya girdasından xilas edərək, əsrin sonlarında ardıcıl inkişaf yollarına çıxartdı.

Gərgin səylər həyatına ictimai-siyasi sabitliyin bərqərar olması və ölkədə cərəyan edən proseslərin sabit meyarda gedişini şərtləndirən mühüm amilə çevrilməsi hüquqi, demokratik dövlət quruculuğu sayəsində geniş miqyaslı islahatların aparılması imkan yaratdı [3-6].

Ölkədə real imkanlar, xalqın mentaliteti nəzərə alınmaqla demokratiya, qanunçuluq, pluralizm, münasib yollar və vasitələrlə inkişaf edirdi.

Ümumxalq səsverməsi referendum yolu ilə, 1995-ci il noyabr ayının 12-də Azərbaycan Respublikasının Konstitusiyası dövlətin ilk əsas qanunu qəbul olundu.

Azərbaycan Respublikasının dövlət quruculuğunun hüquqi, qanuni əsası qoyuldu. Konstitusiya bəyan etdi: “Azərbaycan xalqının və dövlətinin ən mühüm məqsədləri Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar olunmasına nail olmaq, xalqın

iradəsinin ifadəsi kimi, qanunun aliliyini təmin edən hüquqi, dünyavi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq, bütün dünya xalqları ilə, dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək” [4, s.3].

Azərbaycan Respublikası Konstitusiya maddələrinin ⅓ hissəsi (158 maddənin 48-i) insan hüquqları və azadlıqlarına həsr edilmişdir. Hakimiyyət bölgüsü konsepsiyasına uyğun olaraq, konstitusiya təsbit edir ki, İcra hakimiyyəti, Qanunvericilik hakimiyyəti Azərbaycan Respublikası Milli Məclisinə, Məhkəmə hakimiyyətini isə Müstəqil Məhkəmələr həyata keçirirlər. Konstitusiyanın qəbulundan dərhal sonra Azərbaycan Respublikasının yeni parlamenti formalaşmağa başladı. Azərbaycanda dərhal Konstitusiyaya uyğun olaraq, hüquqi və iqtisadi, siyasi, ümumiyyətlə, həyatın bütün sahələrini əhatə edən, islahatlar həyata keçirilməyə başladı. Azərbaycanda sahibkarlıq inkişaf etdirildi, özəlləşmə həyata keçirilməyə nail olundu, mülkiyyətin hər üç forması yeni dövlət, bələdiyyə və xüsusi mülkiyyət inkişaf etdirildi. Azərbaycanda demokratiya inkişaf edərək, Azərbaycan əhalisi tərəfindən parlament formalaşmaqla bərabər, yerli özünü idarəetmə orqanı olan, bələdiyyələr təşəkkül tapdı, ölkədə siyasi plüralizm və çoxpartiyalılıq sistem bərqərar edildi. İnsan hüquqları amili Ulu öndər Heydər Əliyev fəaliyyətinin əsası olmuşdur ki, bu da, bilavasitə onun rəhbərliyi və təşəbbüsü ilə kifayət qədər normativ-hüquqi sənədlərin qəbul edilməsi ilə nəticələnmişdi. 1993-cü ildə Ulu öndərin xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra dövlətimizdə insan hüquqlarının təminatı sisteminin əsası qoyulmuş oldu.

Ulu öndər Heydər Əliyevin cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi haqqında 9 avqust 1994-cü il tarixli Fərmanı ilə cinayətkarlığa qarşı mübarizə tədbirləri daha da gücləndirilmiş, hüquq-mühafizə orqanlarının bu istiqamətdə uzunmüddətli dövr üçün fəaliyyət proqramı müəyyənləşdirilmişdir. Bu fərman ölkədəki daxili ictimai-siyasi durumun sabitləşdirilməsi və ümumi situasiyaya nəzarətin artırılması baxımından samballı sənəd olmuşdur [5, s.20-22].

1998-ci ildən ölkədə Şərqdə ilk dəfə olaraq ölüm hökmü ləğv edildi. Ölkədə geniş miqyaslı məhkəmə-hüquq islahatları keçirildi. Məhkəmələr və hakimlər haqqında, prokurorluq haqqında, Konstitusiya məhkəməsi haqqında, vəkillik və vəkillik fəaliyyəti haqqında, əməliyyat və axtarış fəaliyyəti haqqında, polis haqqında, notariat orqanları haqqında, yerli özünü idarəetmə orqanı olan bələdiyyələr haqqında çoxsaylı qanunlar qəbul edilmişdir, bununla bərabər, Konstitusiyada beynəlxalq hüququn prinsipləri öz əksini tapmışdır. Ümummilli lider Heydər Əliyevin uzaqgörən xarici siyasəti nəticəsində Azərbaycan BMT-in, Avropa Şurasının, İslam Konfransı təşkilatının Qara dəniz, iqtisadi əməkdaşlıq birliyinin, ATƏT-in dünyanın 50-dək beynəlxalq təşkilatının üzvüdür. Onu da göstərə bilərəm ki, Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində ATƏT-in Buxarest sammitində və Lissabon zirvə görüşündə dünya dövlətləri ermənilər işğalçı dövlət kimi tanıdılar. Mötəbər beynəlxalq təşkilat olan BMT və AŞ-da ermənilər işğalçı dövlət olaraq Azərbaycanın torpaqlarını işğal etmələri göstərilmişdir.

Konstitusiyanın daha da, təkmilləşdirmək üçün Heydər Əliyevin təşəbbüsü ilə 2002-ci il avqust ayının 24-də referendum vasutəsi ilə ona 39 dəyişikliklər edildi. Bütün bunlar Respublikada demokratik qanunvericiliyin formalaşmasına və inkişaf etdirilməsinə münasib imkanlar açırdı. 2002-ci il avqustun 24-də referendumla Konstitusiyada edilmiş dəyişikliklərə görə, Milli Məclisə seçkilər daha da demokratikləşdirildi. Proporsional seçki sistemi ləğv edildi. Ümumi proporsional seçki sistemi müəyyən edildi. Qanunların sivil dünyaya, dövlətlərin hüquqi dövlət quruculuğu ənənələrinə, beynəlxalq hüquq normalarına, Avropa Şurası və dünya demokratik qanunvericilik təchizatlarının tələblərinə uyğun hazırlanması üçün, Azərbaycan Respublikası Prezidenti yanında 1990-cı ilin fevral ayında xüsusi hüquqi islahat komissiyası yaradılmışdır. Ümummilli lider Heydər Əliyev qeyd etmişdir ki, hər bir kəlmə ilə, bir ifadə ilə, hüquqi dövlət olmur, dövlət hüquqi, əsl demokratik dövlət etmək üçün, qanunlar, digər tədbirlər gərəkdir.

1998-ci il fevral ayında Ümummilli lider Heydər Əliyev “İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi” sahəsində tədbirlər haqqında fərman verdi. 1998-ci il iyun ayının 18-də “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı” təsdiq edildi. Bu sahədə həyata keçirilən tədbirlərin səmərəliyini artırmaq üçün, AMEA-da insan hüquqları üzrə institut yaradıldı.

Beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, mütəxəssis kadrların hazırlanması üçün addımlar atıldı. Azərbaycan Respublikası insan hüquqları ilə bağlı 200 beynəlxalq konvensiyaya qoşuldu.

“İşgəncələr, qeyri-insani və insan şərəfini alçaldan rəftar və cəzanın qarşısının alınması haqqında” Avropa Konvensiyasının təsdiq edilməsi haqqında qanun qəbul edildi. 2002-ci ildə Respublikada Ombudsman institutu yaradıldı. Azərbaycan Respublikası Şərqdə ölüm cəzasını ləğv etmiş ilk ölkə oldu. Ümummilli liderimiz Heydər Əliyev qeyd edirdi ki, heç kəs keçmiş xidmətinə, vəzifəsinə, doğulduğu yerə görə, yaxud başqa şəxsə görə müstəsna hüquqa malik deyil, ola da bilməz. Biz demokratiya qururuq, bizdə hamı eyni hüquqa malikdir, hamı qanuna tabe olmalı, qanun çərçivəsində işləməlidir. İnsan hüquqları hər bir adamın hüququdur, eyni zamanda hər bir xalqın hüququdur. Hüquqa, qanuna hörmət hər bir şəxsin əqidəsi olmalıdır.

Respublikanın Daxili İşlər, Milli Təhlükəsizlik Nazirlikləri, onların yerli təşkilatları, silahlı hissələri təsadüfi, cinayətkar, xain və satqın ünsürlərdən, əsasən, təmizləndi. Əvvəlki iqtidar dövründə işdən uzaqlaşdırılmış mütəxəssislər yenidən öz iş yerlərinə qaytarıldı, polisin şəxsi heyəti azaldıldı. Heydər Əliyev vətəndaş həmrəyliyinə nail olmağın mühüm vasitəsi kimi, mövcud siyasi və ictimai təşkilatlarla sağlam münasibətlər qurulmasına.Bu təşkilatların demokratik prinsipləri əsasında inkişaf etməsi üçün, şərait yaradılmasına qayğı göstərildi. 1993-cü ili noyabr ayının 17-də Heydər Əliyev respublikadakı siyasi partiya və hərəkatların liderləri ilə görüşdü, onları konstruktiv əməkdaşlığa çağırdı. Lakin müxtəlif siyasi qüvvələr vətəndaş həmrəyliyi yaranmasını hakimiyyətin onlara bölüşdürülməsi ilə bağlayır, öz siyasi ambisiyaların ön plana çəkirdilər. 1994-cü ilin noyabr ayında Bakı kəndləri Birliyinin, habelə başqa təşkilatların vətəndaş həmrəyliyi yaratmaq cəhdləri baş tutmadı. Xalq Heydər Əliyevin ətrafında daha sıx birləşdi.

Respublikada qanuni, demokratik vasitələrlə siyasi fəaliyyət və fikirlər, plüralizm üçün münasib imkanlar yaratmışdır. 1995-ci ildən 50-dən çox ictimai təşkilat və partiyalar vardır. Ümummilli lider Heydər Əliyev demişdir ki, hakimiyyət uğrunda mübarizə hər bir ölkədə təbii bir şeydir. Siyasi plüralizm, söz azadlığı, Azərbaycan dövlətinin prinsiplərinin və demokratik hüquqi cəmiyyətin yaradılmasının əsas şərtlərindən biridir [6, s.15-20].

Azərbaycan xalqının Ümummilli lideri böyük türk oğlu Heydər Əliyevin apardığı uzaqgörən daxili və xarici siyasəti nəticəsində çoxəsrlik dövlətçilik ənənələrinə malik Azərbaycan daha da inkişaf etdirildi. Heydər Əliyevin yaratdığı dövlətimizin atributu sayılan Azərbaycanın silahlı qüvvələri, Azərbaycanın nizami ordusu başda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında erməni faşistlərinə qarşı ordumuzun qələbəsi 44 günlük Vətən Müharibəsində doğma Qarabağımız düşməndən azad olunmuş, ölkəmizin ərazi bütövlüyü bərpa edilmişdir. Hal-hazrda erməni vandallarının dağıtdığı şəhər, qəsəbə və kəndlərimizin bərpasına start verilmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin nəzəri ideyaları, onun layiqli davamçısı İlham Heydər oğlu Əliyev tərəfindən həyata keçirməklə demokratik, hüquqi, dünyavi dövlət olan Azərbaycan Respublikasında uğurlu islahatlar aparılır, Azərbaycan çiçəklənən respublikaya çevrilməkdədir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Əliyev İ. Heydər Əliyev və Azərbaycan tarixi məsələləri. “Elm” qəz., 2002, 10 may
2. Məmmədov T. Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 81-ci ildönümünə həsr olunmuş III konfransın materialları // 10 may 2004-cü il, Sumqayıt, s.77
3. Əsgərov H. Xalqa və dövlətə xidmət amalı. “Azərbaycan” qəz., 2009, 25 dekabr, s.6
4. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009, s.3
5. Süleymanova E. Azərbaycan iştirakçısı olduğu beynəlxalq konvensiyaların milli qanunvericilikdə tətbiqi. Bakı: Qanun, 2003, s.58
6. Orucov H. Heydər Əliyev və Azərbaycan milli siyasəti. Bakı, 2002

UOT 37

**Azərbaycan təhsilinin inkişafında Heydər Əliyev islahatları**

*i.f.d. Röya Vilayət qızı Qurbanova,*
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, bununla bağlı tarixi prosesə təsir göstərmiş Ümummilli lider Heydər Əliyev bütün insani keyfiyyətləri özündə cəmləyən müdrik siyasətçi, cəsur və tədbirli sərkərdə,vətənini və millətini sevən insan, çətin anlarda millətinin dayağı olmağı bacaran əvəzsiz lider, təkrar olunmaz şəxsiyyətdir. Heydər Əliyev bu gün cismən aramızda olmasada mənəvi varlığı ilə daim xalqının yaddaşındadır. Biz hər zaman gündəlik həyatımızda və fəaliyyətimizdə onun uzaqgörən və nəcib əməllərinin nəticələri ilə rastlaşırıq.

Ümummilli lider Heydər Əliyev Azərbaycanda bütün sahələrin – sənayenin, elmin, təhsilin, səhiyyənin sıçrayışlı inkişafını, elm tutumlu yeni istehsal sahələrinin dərin bilicisi kimi daim onları yüksək səviyyəyə çatdırmaq və inkişaf etdirməyə çalışmışdır. Məhz Ümummilli lider Heydər Əliyevin səyi və məqsədyönlü fəaliyyəti ilə bu sahələr tənzimlənmiş, ölkəmizin intellektual, elmi-texniki və iqtisadi potensialı ciddi dərəcədə yüksəlmişdir. Belə sahələrdən bir də təhsil sahəsidir. O, təhsilə xüsusi diqqət yetirmiş və təhsil xadimlərinə böyük qayğı bəsləmişdir.

Qeyd etməliyik ki, Ümummilli lider Heydər Əliyev Azərbaycana 1969-1982-ci illərdə rəhbərlik etdiyi dövrdə də, həmçinin müstəqil, azad respublikanın 1993-2003-cü illərdə ölkə Prezidenti olarkən də bu tarixi missiyanı uğurla yerinə yetirmişdir. Doğrudur, hər iki dövr mahiyyət etibarı ilə özünün ictimai-siyasi məqamlarına görə, ölkədə gedən proseslər baxımından bir-birindən köklü surətdə fərqlənirdi. Ancaq hər iki dövrdə ölkənin rəhbəri kimi o təhsil sahəsində möhtəşəm işlər görmüş, silinməz izlər qoymuşdur.

1993-cü ildə xalqın iradəsi və təkidi ilə Ümummilli liderimiz Heydər Əliyev yenidən hakimiyyətə qayıtmışdır. O, hakimiyyətinin bu dövründə də öz ənənəsinə sadiq qalaraq, milli və ümumbəşər dəyərlərə əsaslanan dünya standartlarına cavab verən milli təhsil sistemini müəyyənləşdirmişdi.

Ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrdə təhsilin inkişafı məqsədi ilə bu sahədə yeni islahatlar aparmış, gənclərin peşəkar mütəxəssis kimi yetişdirilməsi üçün onların Azərbaycan Respublikasından kənardakı ölkələrdə təhsil almasını, yeni modern məktəblərin tikilməsini, ali məktəblərdə yeni kafedraların açılmasını, respublikamızda ixtisaslı kadr potensialının artırılmasını və gücləndirilməsi sahəsində qarşıya məqsədlər qoyaraq əhəmiyyətli tədbirlər həyata keçirtmişdir.

Azərbaycan dövləti bərqərar olduğu dövrdən onun qarşısında duran problemlərdən biri milli təhsili və təhsil sistemini inkişaf etdirməkdən ibarət olmuşdur. Respublikamızda bu sahə üzrə islahatların aparılması konstitusiyamızın başlıca prinsipləri əsasında hazırlanmışdır.

Ümummiilli liderimiz Heydər Əliyevin milli təhsil qurulucuğuna olan diqqət və qayğısı nəticəsində təhsilimiz qabaqcıl ölkələrin təhsil quruculuğundan, milli zəmindən və regional xüsusiyyətindən bəhrələnmiş iqtisadi-sosial bazamız əsasında inkişaf etməyə başlamışdır.

Hər zaman təhsili öz diqqət mərkəzində saxlayan Ümummilli lider Heydər Əliyev “Azərbaycan Respublikasının təhsil sahəsində islahatlar üzrə dövlət komissiyası haqqında” sərəncam vermiş və bununla da təhsil sisteminə dövlət qayğısı göstərərək, təhsil islahatlarının aparılması üçün hüquqi baza yaratmışdır. Təhsil islahatının beynəlxalq təcrübəyə əsaslanan proqram təhsilin inkişafında büdcə vəsaitlərinin artırılmasına və əlavə gəlir gətirən mənbələrdən istifadə üçün geniş imkan yaratmışdır. 1998-ci il martın 30-da verilmiş bu sərəncam Ümummilli liderimiz Heydər Əliyevin təhsilimizə və təhsil işçilərinə göstərdiyi xüsusi qayğının parlaq tarixi səlnaməsidir.

Milli təhsil strategiyasını müəyyənləşdirmək məqsədi ilə Ümummilli liderimiz Heydər Əliyev bir-birinin ardınca dəyərli fərmanlar vermişdir.

Ümummilli liderimiz Heydər Əliyev1999-cu il iyunun 15-də "Təhsil islahatı Proqramı" ilə bağlı fərman verdi. Ümummiilli liderimiz Heydər Əliyev proqramın məqsədini belə ifadə etmişdi: "Təhsil sistemində islahatların əsas məqsədi ondan ibarətdir ki, Azərbaycanın təhsil sistemi dünya təhsil sisteminin standartlarına uyğunlaşdırılsın. Bu illər ərzində etdiyimiz təhsil prinsipləri göstərilməli və inkişaf etdirilməlidir. Əgər biz bu yolla gediriksə, qısa bir zamanda Azərbaycanda təhsil sistemini dünya standartlarına çatdıra bilərik" [3].

Ümummilli liderimiz Heydər Əliyev "Azərbaycanda təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 13 iyul 2000-ci il tarixli, "Azərbaycan Respublikasında ümumi təhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" 4 oktyabr 2002-ci il tarixli fərmanları və "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqram haqqında" 17 fevral 2003-cü il tarixli Sərəncamı ilə islahatın sürətlənməsinə güclü təkan verdi. Bu Sərəncam ilə beşillik (2003-2007-ci illər) inkişaf proqramı təsdiq edilmişdir [1].

Ulu öndər hələ Sovet İttifaqında Azərbaycana rəhbərlik etdiyi dövrdə müstəqilliyimizin bünövrəsi üçün misilsiz xidmətlər həyata keçirtmişdir. Təkcə onu qeyd etmək kifayətdir ki, Keçmiş SSR İttifaqının 170-dən çox ən nüfuzlu ali məktəblərində 250-dən artıq ixtisas üzrə 150 mindən çox azərbaycanlı gənc təhsil almışdır. Xalqına, millətinə layiq mütəxəssislər yetişdirərək onların vətənə xidmət etməsini görmək Ümummilli liderimiz Heydər Əliyevin ən gözəl arzularından biri olmuşdur.

Həmin dövrdə Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi və təşəbbüsü ilə respublikamızda 5 ali məktəb müəssisəsi açılmış və bu təhsil ocaqlarında minlərlə gənc təhsil almışdır. Böyük şəxsiyyətin kadr sahəsində apardığı islahatlar yeni bir mərhələyə qədəm qoyan ölkənin gələcəyindən xəbər verirdi. Müstəqil Azərbaycanın dayaq sütunları üçün Ümummilli liderimiz Heydər Əliyev bu illərdə fundamental təməl atmağa nail olmuşdur.

Bundan başqa, xüsusi vurğulamaq lazımdır ki, Ümummilli liderimiz Heydər Əliyevin hərbi sahəsində milli kadrların hazırlanmasında əvəzsiz xidmətləri olmuşdur. Keçmiş Sovet İttifaqında Azərbaycan gəncləri hərbi xidmətdə olduqları müddətdə onlar hərbi texnika ilə, eləcə də hərbi silah-sursatla davranmaq qaydalarını mənimsəməkdən məhrum edilmişdilər. Ümummilli liderimiz Heydər Əliyev yaranmış vəziyyətin onun xalqına, millətinə nə vaxtsa təhlükə mənbəyi olacağını bilirdi. Bu təhlükənin qarşısını almaq məqsədi ilə Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanda Cəmşid Naxçıvanski adına hərbi məktəbi yaratmış və milli kadrların hazırlanmasına təkan vermişdir. Bundan sonrakı prosesdə isə məhz onun təşəbbüsü ilə hərbi məktəbi bitirmiş minlərlə azərbaycanlı gənci İttifaqın nüfuzlu ali hərbi məktəblərində təhsil almağa göndərmişdir. Bütün bunlar Ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi idi. Onun yetişdirdiyi hərbi kadrlar həm Birinci Qarabağ müharibəsində xalqımızı, vətənimizin müdafiəsində hünərli şücaətlər göstərmiş, həm də İkinci Qarabağ müharibəsində onun davamçı olan Ali Baş Komandan İlham Heydər oğlu Əliyevin ətrafında dəmir yumruq kimi birləşərək düşmənin başını əzmiş, zəfər çalaraq erməni faşistləri üzərində qəhrəmanlıq göstərərək qələbə əldə etmişlər.

Azərbaycan 70-80-cı illərdə Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizdə təhsilin səviyyəsini yüksəltmək məqsədi ilə yeni təhsil müəssisələri tikilib istifadəyə verilmişdir. Burada əsas amal əhalinin bütün təbəqələrinin təhsil alması, onların maarifləndirilməsi, məktəbəqədər təhsil sisteminin təkmilləşdirilməsi, məktəblərin maddi-texniki bazasını möhkəmləndirilməsindən ibarət olmuşdur.

Müstəqil Azərbaycan Respublikasının xilaskarı, öz əməlləri ilə tarixi salnamələr yazan Ümummilli liderimiz Heydər Əliyev təhsil haqqında "Təhsil sistemimiz müstəqil Azərbaycanın gələcək inkişafını təmin etməlidir", "Cəmiyyətdə hər şey məktəbdən, təhsildən başlayır", "Təhsil millətin gələcəyidir" kimi müdrik kəlamlar ifadə etmişdir [5].

Gənc nəslin bilikli, savadlı olması, yüksək peşəkar kimi yetişməsi müəllimlərin misilsiz əməyinin nəticəsidir. Ümummilli liderimiz Heydər Əliyev müəllimlərin əməyini uca tutaraq, belə dəyərləndirərək qeyd etmişdir: "Mən yer üzündə müəllimdən başqa yüksək ad tanımıram". "Cəmiyyətimizdə Azərbaycan ziyalıları içərisində müəllimlər xüsusi yer tuturlar, onlar hörmətə

layiqdirlər və xüsusi qayğı ilə əhatə olunmalıdırlar” deyərək, Ümummilli liderimiz Heydər Əliyev müəllim peşəsini yüksək qiymətləndirmiş, onlara dərin hörmətini bildirmişdir [4].

Danılmaz həqiqətdir ki, Azərbaycanın böyük tarixi şəxsiyyəti Ümummilli lider Heydər Əliyevin ideyaları XXI əsrdə onun layiqlı varisi cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Çünki Ümummilli lider Heydər Əliyev ideyaları yaşayan və yaşadan ideyalardır. Ümummilli liderimiz Heydər Əliyev gəncləri, onların təhsilini daim diqqət mərkəzində saxlamışdır. Bu gün Ulu öndərin amalını, ideyalarını həyata keçirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə təhsil sferasında islahatlar davam etdirilir və bu istiqamətdə ardıcıl tədbirlər görülərək əhəmiyyətli nəticələr əldə olunur.

**İstifadə edilmiş ədəbiyyat**

1. Abbas S. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısı. Gəncə, 2010, 252 s.
2. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. (Çoxcildliyin I-IX cildlərinin köməkçi aparatı). Bakı, 2008, 339 s.
3. Heydər Əliyev. Ömürlük missiya. Bakı, 2014, 107 s.
4. Heydər Əliyev və müasir Azərbaycan. Bakı, 2013, 115 s.
5. Heydər Əliyev və yeni cəmiyyət modeli. Bakı, 2014, 776 s.

UOT 336.714

## Müəssisədə idarəetmə qərarlarının informasıya bazasının təhlili

*i.f.d. Dilarə Əmiraslan qızı Əmiraslanova,*
*Sumqayıt Dövlət Universiteti*

Müasir dövrdə sosial-iqtisadi inkişaf istehsal sahələrinin fəaliyyətinin səmərəli təşkilindən və bu fəaliyyətin düzgün idarə olunmasından asılıdır. Müəssisələrin təsərrüfat-maliyyə fəaliyyətinin səmərəli təşkil edilməsinin mühüm şərtlərindən biri isə idarəetmə qərarlarının informasiya bazasının yaradılması və qiymətləndirilməsidir.

Müəssisədə məhsulun maya dəyərində istehsal xərclərinin strukturunda fərqlərin mövcudluğu idarəetmənin səmərəli təşkil edilməsi və daxili nəzarətin əsas istiqamətlərinin müəyyənləşdirilməsi üçün mühüm amil hesab edilir. Hasilat sənaye sahələrində (neftçıxarmadan başqa) bütün xərclərin 2/3 hissəsi əmək haqqının payına düşür. Aydındır ki, bu sahədə əməyin səmərəli təşkili, onun məhsuldarlığının yüksəldilməsi istiqamətində idarəetmə qərarlarının qəbul edilməsi prioritet məsələ kimi həmişə diqqət mərkəzində saxlanılmalıdır. Neft emalı sənayesində məhsulun maya dəyərində amortizasiya ayırmalarının xüsusi çəkisinin 45 %-dən yüksək olması burada idarəetmənin başlıca vəzifələrindən biri kimi, avadanlıqlardan istifadə əmsallarının artırılmasını etiraf etmək zəruridir. İstehsal sahələrində idarəetmə qərarlarının informasiya bazasının təhlili istiqamətində aparılan tədqiqatı aşağıdakı müddəalarla ümumiləşdirmək məqsədəuyğundur [1]:

Birincisi, müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətinin səmərəli təşkil edilməsinin mühüm şərtlərindən biri idarəetmə qərarlarının informasiya bazasının yaradılması və qiymətləndirilməsidir.

İkincisi, Azərbaycanın və xarici ölkə alimlərinin idarəetmənin informasiya bazasının roluna dair fikirlərinin ümumiləşdirilməsi nəticəsində informasiya bazasının maliyyə hesabatlarında əks olunması, lakin konkret məlumatların idarəetmə uçotunun aparılması qaydasında formalaşdırılması barədə müddəa əsaslandırılır.

Üçüncüsü, idarəetmə qərarlarının informasiya bazası:

1) müdiriyyət tərəfindən cari fəaliyyət tənzimlənərkən;
2) vergi orqanı tərəfindən nəzarət həyata keçirilərkən;

3) auditor təşkilatı tərəfindən yoxlama aparılarkən qiymətləndirilir və təhlil edilir;

Dördüncüsü, müəyyənlik şəraitində informasiya bazasının təhlili qərarların qəbul edilməsinin motivlərini dəqiqliklə təyin etməyə imkan verir;

Beşincisi, qeyri-müəyyənlik şəraitində risklərin idarə olunması üzrə qərarlar istehsal resurslarının bölüşdürülməsi sahəsində uyğunsuzluqların və israfçılığın aradan qaldırılmasını təmin etməlidir.

Müəssisənin düzgün idarə edilməsi sahəsində menecerin fəaliyyəti onun təsdiq etdiyi qərarların icrası vəziyyəti və xüsusilə, həmin fəaliyyəti səciyyələndirən nəticə və göstəricilərlə qiymətləndirilir [2]. Menecerin idarəetmə qərarları idarəçiliyin funksional istiqamətləri – planlaşdırma, təşkilatçılıq, nəzarət və motivləşdirmə üzrə təsnifləşdirilir. Planlaşdırma istiqamətində qəbul edilən qərarlar dəqiq informasiya bazasına əsaslanmaqla müəssisənin qarşıdan gələn dövrdə istehsal və satış göstəricilərinin əsaslandırılması üçün zəruri şərtləri və vasitələri təsbit etməlidir. Əgər müəssisənin istehsal gücünün artırılması və bu məqsədlə yeni istehsal sexinin yaradılması planlaşdırılırsa, müəssisənin bazarda satış fəaliyyətinin perespektivliyi və onu ifadə edən sübutlar və dəlillər əsas götürülərək, yeni istehsal sexinin layihə-smeta sənədlərinin hazırlanması, tikinti-quraşdırma işlərinin aparılması və istismara verilməsi üzrə müvafiq müqavilələrin bağlanması ilə bağlı məsələlər həll edilməlidir. Təşkilatçılıq fəaliyyətinin tənzimlənməsi məqsədilə qəbul edilən idarəetmə qərarlarında yeni istehsal sexinin tikilməsi üzrə layihə komandasının yaradılması, funksiyaların bölgüsü, vəzifəli şəxslərin səlahiyyətlərinin fərqləndirilməsi tikinti-layihə və tikinti-quraşdırma müqavilələrinin hazırlanması və podratçı təşkilatlarla qarşılıqlı münasibətlərin tənzimlənməsi, habelə maliyyə öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı məsələlərin həllinə dair göstərişlər təsbit edilməlidir. İdarəetmə qərarında yeni istehsal sexinin yaradılmasının planlaşdırılması, lahiyələndirilməsi, tikinti-quraşdırma fəaliyyətlərinin və maliyyələşdirmənin həyata keçirilməsi üçün təqdim edilən plan-uçot məlumatlarının dürüstlüyünə, düzgünlüyünə və obyektivliyinə həmin məlumatların verən vəzifəli şəxslərin əminliyi ifadə olunmalı və layihə komandasının fəaliyyəti üzərində nəzarətin həyata keçirilməsinə dair konkret göstərişlər verilməlidir.

Müəssisə menecerinin təsdiq etdiyi qərarda yeni istehsalat sexinin tikilməsinə və istismara verilməsinin müəssisədə eynicinsli, oxşar malların istehsalının təşkili sahəsində böyük nailiyyətlərin əldə edilməsi, bazara yalnız keyfiyyətli məhsulların çıxarılması, istehlakçıların məmnunluğu, məhsulun qiymətinin alıcıların tələblərinə uyğunluğu kimi motivasyaları göstərilməlidir.

İstehsal sahəsinin və ya müəssisənin inkişafını təmin edən qərarlar idarəetmənin planlaşdırılma, təşkilatçılıq, nəzarət və motivləşdirmə kimi funksional istiqamətləri üzrə qəbul edilirsə, onların yerinə yetirilməsinin, müəssisənin fəaliyyətinin səmərəliliyinin zəruri şərtləri realizə olunur.

İstehsal sahələrinin müəssisələrində istehsal, kommersiya və maliyyə fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi istiqamətində qəbul edilən qərarların məqsədəmüvafiqliyi yalnız həmin qərarların informasiya bazasının hərtərəfli təhlili nəticəsində qiymətləndirilir. Bu xüsusda aparılan təhlili idarəetmə təhlili adlanır və o, daxili istehsal-maliyyə fəaliyyətinin təhlilini əhatə edir. Hər iki istiqamət üzrə aparılan təhlinin əhatə dairəsi və xarakteri idarəetmə qərarlarının qəbul edilməsi ilə şərtlənən müəyyənlik və qeyri-müəyyənlik şəraiti ilə müəyyən edili. Burada müəssisənin fəaliyyətində müəyyənlik mükəmməl bazar münasibətləri ilə bilavasitə əlaqədardır. Bu münasibətlər qanunçulq, şəffaflıq, ekvivalentlik, muxtariyyətlik, ədalətlik prinsipləri əsasında qurulduğuna görə, müəssisənin formalaşdırdığı informasiya bazasının təhlili zamanı normativ-hüquqi tələblərə uyğun olaraq, onun hüquqi statusunu müəyyən edən sənədlərin mövcudluğu, beynəlxalq standartlara əsaslanan uçot-hesabat işlərinin yerinə yetirilməsi vəziyyəti, vergi, gömrük, Dövlət Sosial Müdafiə Fondu, statistika, bank, sığorta, kommunal xidmətləri göstərən qurumlar, habelə malgöndərənlər, müəssisədə çalışan işçilər qarşısında maliyyə öhdəliklərinin təmin edilməsini təsdiq edən sənədlər üzrə mühüm əhəmiyyət kəsb edən məlumatlat (göstəricilər) qiymətləndirilir. Müəyyənlik şəraitində aparılan təhlinin nəticələrinə əsaslanan müddəalar idarəetmə qərarlarının qəbul edilməsi üçün başlıca motivasiya hesab edilir [3].

Müəssisədaxili maliyyə təhlili müəyyənlik şəraitində dövriyyə vəsaitlərinə tələbatın həcminin hesablanması, mal-material ehtiyyatlarının yaradılması, bank kreditləri üzrə öhdəliklərin yerinə yetirilməsi, aktivlərin qiymətləndirilməsi, beynəlxalq standartlara əsaslanan maliyyə hesabatlarının tərtib edilməsi, mənfəət (zərər) göstəricisinin əsaslandırılması, mənfəətə təsir edən amillərin müəyyənləşdirilməsi, rentabellik səviyyəsinin proqnozlaşdırılması, məhsulun maya dəyərinin aşağı salınması ehtiyatlarının aşkara çıxarılması, bölüşdürülməmiş mənfəətin kapitallaşdırılması kimi məsələləri aydınlaşdırmağa və müvafiq qərarların qəbul edilməsi üçün zəruri motivasiyanı əsaslandırmağa imkan verir. İstehsal müəssisələrini fəaliyyətində qeyri-müəyyənliyin müşahidə olunması, bir qayda olaraq, risk hadisəsinin baş verməsi ilə izah edilir. Buradan belə qənaətə gəlmək mümkündür ki, qeyri-müəyyənlik şəraitində müəssisələrdə risklərin idarə olunmasını təmin edən qərarların qəbul edilməsi onların idarəçilik fəaliyyətində ön plana çəkilməlidir.

Risklərin idarə olunması üzrə qərarların hazırlanması üçün informasiya bazası müşahidə olunan riskləri, onların təsiretmə potensialı və müəssisə kollektivinin riskləri yol verilən səviyyəyə qədər azaltmaq səyləri ilə bağlı iqtisadi yönümlü məlumatları əhatə edir. Əgər müəssisənin rəhbərləri risk hadisəsinin baş verməsini, onun müəssisənin fəaliyyətinə təsirinin nəticələrini təhlil etmirsə, onların təklif etdikləri risk idarəetmə modeli qüsurlu olacaq.

Müəssisənin sərəncamında və nəzarətində olan material, əmək və monetar resurslar risk qiymətləndirmə təyinatlı informasiya əsasında istifadə olunur. Əgər müəssisədə risk qiymətləndirmə işi qeyri-dəqiq informasiya əsasında aparılırsa, resurslrın öz təyinatına müvafiq bölüşdürülməsi sahəsində uyğunsuzluqların yaranması və istifadəsində israfçılıq halları tez-tez təkrarlanacaq. Məsələn, risk qiymətləndirilməsi üçün təqribi informasiyadan istifadə olunması nəticəsində alıcı müəssisənin ödəmə qabiliyyəti düzgün qiymətləndirilmir və debitor borcların qaytarılmasını nəzərdə tutan çoxsaylı qərarlar qəbul edilir. Risklərin dəqiq qiymətləndirilməsi ehtimal olunan itkilərin həcmini azaltmaq üçün maraqlı tərəflərin məlumatlandırılmasını təmin edir. Ona görə də risklərin idarə olunması haqqında qəbul edilən qərar, hər şeydən əvvəl risk hadisəsinin baş verməsi ehtimalı və onun təsir etmə miqyası dəqiqliklə təyin edilməlidir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Abbasov Q.Ə. Mühasibat uçotu. Dərslik və metodik vəsait. Bakı: Təknur, 2017, 528 s.
2. Cəfərli H.A. İqtisadi təhlil: Dərslik. Bakı: Elm və Təhsil, 2009, 560 s.
3. Сугпобов А.Е., Жарылгасова Б.Т. и др. Бухгаптерский учет и анализ: Учебник. М.: РИОР: ИНФРА, 2017, 478 с.

UOT 327; 930.22

**Azərbaycanın beynəlxalq aləmdə imici hər zaman müsbət olub**

*tar.f.d. Leyla Qadir qızı Məcidova,*
*Lənkəran Dövlət Universiteti*

Müasir Azərbaycan dövlətinin qurucusu, Umummilli lider Heydər Əliyevin ölkəmizin inkişafında, tərəqqisində rolu əvəzsizdir. Azərbaycançılığın banilərindən olan Heydər Əliyev azərbaycançılıq ideyasının hazırlanmasında, təbliğində, yayılmasında əhəmiyyətli işlər görüb. Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi və dövlətçilik mənafelərinin qorunmasında ölkənin zəngin iqtisadi potensialı və əlverişli geosiyasi mövqeyi mühüm əhəmiyyət kəsb edir. Bu amillər Azərbaycanın milli dövlətçilik maraqlarına cavab verən səmərəli və məqsədyönlü xarici siyasət kursunun həyata keçirilməsi üçün ilkin əlverişli zəmin yaradır. Lakin mövcud ilkin potensialı və əlverişli zəmini reallaşdırmaq, onlardan maksimum bəhrələnmək beynəlxalq aləmdə cərəyan edən proseslərin ciddi araşdırılmasını, Azərbaycanın maraqlarına uyğun düşünülmüş,

hərtərəfli əsaslandırılmış və bütün incəlikləri nəzərə alan addımların atılmasını tələb edirdi. Müasir dövrdə strateji inkişaf xətti kimi demokratik cəmiyyət quruculuğu və bazar iqtisadiyyatı yolunu seçən Azərbaycan Respublikası dünya təcrübəsində uğurla sınaqdan keçmiş ümumbəşəri dəyərlərdən faydalanmağa çalışır, özünün geniş iqtisadi potensialını hərəkətə gətirmək məqsədilə inkişaf etmiş ölkələrin qabaqcıl texnologiyasını və maliyyə imkanlarını cəlb edir, onlarla qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini inkişaf etdirir.

Azərbaycan xalqının multikultural ənənələrinin qorunması və inkişaf etdirilməsi sahəsində həyata keçirilən siyasi istiqaməti yeni mərhələdə Prezident İlham Əliyev uğurla inkişaf etdirir. Bu siyasətin həyata keçirilməsində BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi önəm verilir. Azərbaycan multikultural ənənələrinin qorunub saxlanması, təbliği ilə bağlı Heydər Əliyev Fondu əhəmiyyətli layihələr həyata keçirir. Fondun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilən “Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi”, “Qloballaşma şəraitində mədəniyyətlərin rolu”, “Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşama”, “Azərbaycan – tolerantlıq məkanı” layihələrini xüsusi qeyd etmək olar.

Şübhəsiz ki, hər uğur dövlət başçımızın apardığı müdrik siyasəti nəticəsində baş vermişdir. Azərbaycan dövləti bir çox çətinliklərlə qarşılaşsa da öz iradəsi ilə bu çətinlikləri asanlaşdıraraq uğur qazanmışdır. Milli dövlət ideologiyası kimi azərbaycançılıq bu gün hər vətəndaşın qarşısında dəqiq ifadəsini tapmış ideya kimi dayanır.

Müstəqilliyin ilk illərində ölkənin xarici siyasət kursunda və hökumətin bu yönlü fəaliyyətində ciddi nöqsanlar, ziddiyyətli, qeyri-müəyyən və qeyri-ardıcıl qərarlar da olmuşdur ki, bütün bunlar Azərbaycanın həm daxili həyatına, müstəqil dövlət quruculuğu prosesinə, həm də onun dünya siyasəti və beynəlxalq münasibətlər sisteminə qatılması işinə öz mənfi təsirini göstərmişdir. Hər bir dövlət öz xarici siyasəti qarşısındakı vəzifələri həyata keçirmək üçün uzunmüddətli strateji və operativ cari fəaliyyət proqramı hazırlayır. Uzunmüddətli strateji fəaliyyət proqramı dövlətin gücü, qüdrəti, resursları, dünya siyasətindəki rolu və yerindən asılı olaraq müxtəlif məqsəd və vəzifələr üzərində qurulur. Bunların ən vacibləri və həyati əhəmiyyət kəsb edənləri sırasına ölkənin müstəqilliyinin qorunmasını, dünyaya müvəffəqiyyətli inteqrasiya və beynəlxalq münasibətlər sistemində özünə layiq yer tutmasını, ərazi bütövlüyü və suveren hüquqlarının təmin edilməsini, vətəndaşlarının firavan həyatını təmin etmək məqsədilə xarici aləmin imkanlarından istifadə edilməsinə yönəldilmişdir.

Beləliklə, bu siyasi kursun layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirtdiyi siyasət ölkəmizin dünyada tanınmasına şərait yaratmış, beynəlxalq təşkilatlar tərəfindən müsbət qiymətləndirilmişdir. Bunun nəticəsidir ki, otuz ildən artıq işğal altında qalan tarixi torpaqlarımız müzəffər ordumuzun səyi nəticəsində geri qaytarıldı, dövlətimizin dünyada nüfuzu artdı və qalib xalq kimi yeni zəfər tarixinin başlangıcını qoydu.

UOT 321.74

## Ümummilli lider Heydər Əliyevin siyasi kursunda demokratik cəmiyyət quruculuğu

*fəl.f.d. Şasəddin Sabir oğlu Mikayılov,*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı*

Ümummilli lider Heydər Əliyev ən böyük siyasi xadimlərdən, dərin zəkalı filosoflardan, geniş dünyagörüşlü dahilərdən biridir. Onun qətiyyətli prinsipial reallığı sayəsində cəmiyyətdə hüquqi, demokratik, iqtisadi-siyasi-mədəni yüksəliş, milli özünüdərk, milli qürur və milli düşüncə bərqərar oldu. Dövlət müstəqilliyinin bərpasından sonra onun qarşısında duran ən başlıca

məsələlərdən biri dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsi, dövlət quruculuğu strategiyasında demokratik cəmiyyətin yaradılmasının həyata keçirilməsi başlıca məsələlərdən biri idi. Dövlət quruculuğu istiqamətində müəyyən addımlar atılmağa başlandı. Lakin bu proses Azərbaycan üçün çox mürəkkəb idi. Bir tərəfdən ölkəmizdə Ermənistan tərəfindən davam edən təcavüz, digər tərəfdən cəmiyyətin daxilində gedən hərcmərclik idi. Köhnə iqtisadi sistemdən qalan modelin yeniləşdirilməsi, istehsal münasibətlərinin dəyişilməsi, milli özünüdərk kimi müəyyən məsələlərin həlli hələ vaxt tələb edirdi. Dövlət orqanları öz üzərinə düşən vəzifələri həyata keçirə bilmir, hüquqi qanunlar həmin dövrün tələblərinə uyğun deyildi, insanlar arasında da ümidsizlik və inamsızlıq hökm sürürdü. Belə ağır vəziyyətdə Ümummilli lider Heydər Əliyev siyasi manevrlər edərək, müstəqil Azərbaycanın dövlət quruculuğunun əsaslarını yaratmağa başladı,ardıcıl və məqsədyönlü siyasət həyata keçirdi. Yeni qanunların qəbul edilməsi, ən başlıcası, müstəqil Azərbaycan Konstitusiyasının işlənib hazırlanmasını ciddi bir məsələ kimi qarşıya qoydu. Məlumdur ki, Azərbaycan Xalq Cumhuriyyəti öz konstitusiyasını qəbul edə bilməmişdi.

Sovetlər tərkibində olan konstitusiya müstəqil dövlətin konstitusiyası kimi hesab oluna bilmədi. Ümummilli lider Heydər Əliyev bütün bunları nəzərə alaraq, yeni Konstitusiyanın layihəsinin hazırlanması üçün xüsusi komissiyanın yaradılmasına göstəriş verdi və Konstitusiyanın layihəsini müəyyən vaxt ərzində ümumxalq müzakirəsinə təqdim etdi. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə bu Konstitusiya 1995-ci ildə noyabrın 12-də referendium yolu ilə qəbul edildi. Konstitusiyaya görə Azərbaycan hüquqi, demokratik, dünyəvi dövlət elan olundu, onların qorunmasına böyük təminat yaradıldı. “Konstitusiya Azərbaycanın gələcək inkişaf yolunu müəyyən edən bir qurumdur” qeyd edən Ümummilli lider Heydər Əliyev deyirdi: “Hesab edirəm ki, biz Azərbaycanın bu günü və gələcəyi üçün çox böyük bir sənəd siyasi – hüquqi sənəd hazırlamışıq.” [4]

Müstəqil dövlət quruculuğunun mühüm istiqamətlərindən biri ölkənin iqtisadi və siyasi müstəqilliyinin möhkəmləndirilməsi idi. 1994-cü ildən “Əsrin müqaviləsi” neft strategiyasının reallaşmasında əhəmiyyətli dərəcədə rol oynadı. 2006-cı ildə Bakı-Tiblisi-Ceyhan, 2007-ci ildə Bakı-Tiblisi-Ərzurum qaz kəmərinin çəkilişi böyük strateji amil idi. Bu strateji xəttin davamı olaraq Azərbaycan regionu lider dövlətinə çevrilmiş dünyanın əksər ölkələri ilə iqtisadi əlaqələr qazaraq, dünya miqyasında iqtisadi artım sürətinə görə ön planda gedir.

Ümummilli lider Heydər Əliyev reallaşdırdığı siyasətdə demokratik təsisatların və vətəndaş cəmiyyəti pirinsiplərinin bərqərar olunması xüsusi yer tuturdu. Yeni müstəqillik tapmış ölkədə insan hüquq və azadlıqlarının formalaşdırılması quruculuq siyasətinin ən mühüm istiqaməti idi. Söz, mətbuat azadlıqlarının təminatı yaradıldı. Böyük strateq iqtisadi və hüquqi islahatların paralelliyini təmin etməklə məhz bu pirinsiplərə əsaslanmışdır ki, hüquqi dövlət insanların birgə fəaliyyətinin təşkili və tənzimlənməsinin mühüm amili, onların qarşılıqlı münasibətlərinin qaydaya salınmasının, cəmiyyətdə nizam-intizamın və sabitliyin təmin edilməsi vasitəsidir. “Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik, hüquqi, dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik pirinsiplə əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir” [2] deyən Ümummilli lider demokratik inkişafa məhz insanların daxili azadlığını, ənənəvi ucalığını, qanunçuluğa riayət etməsini şərtləndirən mühüm vasitə kimi yanaşmışdır.

Ümummilli lider Heydər Əliyev xalqla əl-ələ verərək, hakimiyyət böhranını aradan qaldırmış, milli birlik yolu ilə dövlətin qüdrətini daha da möhkəmləndirməyə nail ola bildi. O, cəmiyyətin vahidliyinin təmin olunmasını özü üçün başlıca vəzifə hesab edirdi. O, müstəqil istiqamətlərlə sosial bərabərsizlik, regional faktor, dini və milli mənsubiyyət müxtəlif istiqamətləri birləşdirən multukultural dəyərlərin formalaşmasını əsas şərt kimi qəbul etdi. [1]

Ümummilli lider hüquqi dövlət quruculuğu prosesində böyük uğurlara nail oldu. Statistikaya görə 1993-cü ildə oktyabrın 10-dan 2002-ci il dekabrın 30-a dək Milli Məclis tərəfindən qəbul edilmiş 1715 qanun və qərardan 975-i Prezident Heydər Əliyevin şəxsi təşəbbüsü ilə qəbul edildi. Əsası Heydər Əliyev tərəfindən qoyulmuş milli strategiya olan ölkə Prezidenti İlham Əliyev

tərəfindən davam etdirilməkdədir. Yaradılmış milli inkişaf konsepsiyası hal-hazırda ölkəmiz qarşısında böyük perspektivlər açmaqdadır. Ölkədə vətəndaş cəmiyyətinin yaradılmasında demokratikləşmə prosesinin möhkəmlənməsini əsas şərt kimi qəbul edən ölkə Prezidenti demişdir: “Siyasi və iqtisadi islahatların davam etdirilməsi zamanın tələbidir. Əgər biz doğrudan da müasir güclü ölkə yaratmaq istəyiriksə, bunu etməliyik”. [3]

Qarşıya qoyulan mühüm vəzifələrin həll edilməmiş ən səmərəli seçimi cəmiyyətin modernləşdirilməsi prosesi idi. Fəlsəfi yanaşma baxımından müasirləşmə prosesinin kökündə inkişafın keyfiyyət və kəmiyyət amilləri zəminində ənənəvi üsul və formalardan bütünlükdə yeni üsul və formalara keçid nəzərdə tutulur, vətəndaşların üzərində təbii və sosial əhatə baxımından rasional nəzarət təmin edilməlidir. Belə qeyd etmək olar ki, müasirləşmə prosesində əsas mənbə insanlar üçün yeni mühitin formalaşması yeni texnologiyaların yayılması və sivilizasiyalararası inteqrasiyadır.

Məşhur şairimiz Zəlimxan Yaqubun sözləri ilə qeyd etsək, Heydər Əliyev Azərbaycan xalqını şahlıq taxtın qaldırdı. Azərbaycan dövlətinin memarı, qoruyucusu olan dərin biliyə, dünyagörüşə malik olan Ümummilli lider elə bir iz qoymuşdur ki, xalqımız həmin yolla illərlə azad və firavanlıq içərisində yaşayacaqdır. Bunun ən barzi nümunəsi müasir ordu quruculuğuna malik Azərbaycan Ordusunun düşmən üzərində 44 günlük Zəfər yürüşü nəticəsində işğal olunmuş Azərbaycan ərazisinin geri qaytarılmasıdır. Şair bugünkü dövlətin sağlam özül daşlarını Ümummilli lider tərəfindən qoyulduğunu öz misraları ilə qeyd etdi:

“Gülü tikandan qorudu!
Torpağı qandan qorudu!
Qorudu o bu xalqı,
Bu milləti qorudu,
Azərbaycan adlanan
Bir dövləti qorudu.” [5]

Azərbaycan xalqının tarixində və taleyüklü məsələlərinin həllində tarixi xidməti olmuş şəxsiyyətlər çox olmuşdur. Lakin bu şəxsiyyətlər içərisində Azərbaycan xalqının Ümummilli lideri adını almış görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi Heydər Əliyevdir.

Ölkədə siyasi sabitliyin yaranması, dövlətçiliyin inkişafı, ilk növbədə dövlət intizamına nəzarətin güclənməsi, Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınması, nüfuz qazanması, ölkənin iqtisadi və mədəni həyatına önəmli təsir göstərdi. Azərbaycanda demokratik cəmiyyət quruculuğunun inkişafına stimul verdi.

Heydər Əliyev siyasi məsələlərinin layiqli davamçısı İlham Əliyevin çoxəsrlik dövlətçilik ənənələrinə malik olan müstəqil suveren, demokratik, hüquqi, dünyəvi, əsasları bütün sahələr üzrə inkişaf etdirmiş və inkişaf etdirməkdədir. Azərbaycan Prezidenti İlham Əliyevin 28 dekabr 2006-cı il tarixli “Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında” sərəncamında Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi diqqətə çəkilmişdir. Bundan əlavə, dövlət başçısının müvafiq fərman və sərəncamları ilə 18 iyun tarixinin İnsan Hüquqları Günü elan olunması, eyni zamanda “Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya”nın təsdiq edilməsi son illərdə demokratik və hüquqi dövlət quruculuğu sahəsində əldə etdiyimiz mühüm nailiyyətlərdəndir.

**İstifadə edilmiş ədəbiyyat**

1. ”Xəbərlər” elmi-metodik jurnal, 2011, №2, s.33
2. Müdriklik zirvəsi. Bakı: Yazıçı, 2011, s.166
3. Şəxsiyyətin zirvəsi. Bakı: Yazıçı, 2012, s.27
4. Şəxsiyyətin qüdrəti. Bakı: Yazıçı, 2012, s.194
5. Zəlimxan Yaqub Ədəbiyyat dastanı (poemalar). Bakı: Pedaqogika, 2008, 264 s.

UOT 37

**Heydər Əliyev Azərbaycan elmi və təhsilində uğurlu islahatların müəllifi kimi**

*Naqif Ələşrəf oğlu Həmzəyev,*
*millət vəkili,*
*Azərbaycan Dövlət Aqrar Universiteti*

*“Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır.”*

*Heydər Əliyev*

Heydər Əliyev hələ SSRİ dövründə, yəni Azərbaycan Respublikasına rəhbərlik etdiyi 1969-1982-ci illərdə təhsillə bağlı məsələləri daim diqqət mərkəzində saxlamış, ciddi islahatlar həyata keçirilmişdir. 1972-ci ildə “Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında” və 1973-cü ildə “Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında” qəbul edilmiş qərarlar nəticəsində Azərbaycanda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişləndirilərək, 765-dən 2117-yə çatdırılmışdır. Bu da yüzlərlə ucqar yaşayış məskənlərində orta ümumtəhsil məktəblərinin açılışı, minlərlə azyaşlının təhsilə cəlb edilməsi demək idi.

Ümummilli lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdır. Eləcə də dahi rəhbər keçmiş İttifaqın ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışmış və onun təşəbbüsü, birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq, hər il 800-900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir.

Onu da qeyd etmək lazımdır ki, Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıtmasına qədər olan dövrdə digər sahələrdə olduğu kimi təhsil sahəsində də tənəzzül, durğunluq dövrü yaşanmışdır. Belə ki, bu sahədə uğursuz qanunlar qəbul edilmiş və əsassız islahatlar elm ə təhsil sahəsində inkişafı xeyli ləngitmişdir.

Ulu öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. O, təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır. Belə ki, 1993-cü ilin yayında xalqımızın təkid və tələbi ilə ikinci dəfə Azərbaycana, hakimiyyətin ali kürsüsünə qayıdan Heydər Əliyevin zəhməti, qayğısı ilə təhsil sistemimizdə əmələ gəlmiş başıpozuqluğa, hərc-mərcliyə son qoyuldu, təhsilin idarə edilməsinə gətirilmiş səriştəsiz adamlar oradan uzaqlaşdırıldı, peşəkar, bacarıqlı, işgüzar alimlər, müəllimlər yenidən öz ali işlərinə – təhsilin idarə edilməsinə gətirildilər. Təhsil dövlətin üstün inkişaf etdirilən prioritet sahəsinə çevrildi. “Təhsil millətin gələcəyidir” deyən Prezidentimiz Heydər Əliyevin tapşırığı ilə təhsilə, təhsil işçilərinə dövlət qayğısı artırıldı. Əvvəlcə I-IV siniflər, sonra isə yuxarı siniflər üçün dərsliklər dövlət vəsaiti hesabına çap olunmağa başladı. Müəllimlərin maaşı mütəmadi artırıldı.

Ümummilli liderimiz Heydər Əliyev təhsil sistemimizdə olan problemlərin optimal həlli üçün Azərbaycan tarixində ilk dəfə Təhsil sahəsində islahatlar aparılması üçün tapşırıqlar verdi. Bu məqsədlə 1998-ci il martın 30-da Prezident sərəncamı ilə Azərbaycan Respublikasında Təhsil Sahəsində İslahatlar üzrə Təhsil naziri M.Mərdanovun sədrliyi ilə Dövlət Komissiyası yaradıldı. 1998-ci ildə müstəqil Azərbaycan müəllimlərinin 1-ci qurultayı keçirildi. Xalqımızın böyük oğlu Heydər Əliyev qurultayda tarixi çıxış etdi. Bu çıxış təhsil işçilərinin qarşısında duran vəzifələrin həlli üçün proqram idi. Qurultayda təhsil tariximizdə ilk dəfə Respublika Təhsil Şurası yaradıldı.

Ulu öndər 1999-cu ilin iyunun 15-də Milli Qurtuluş günündə “Təhsil Sahəsində İslahat Proqramı”nı xüsusi sərəncamla təsdiq etdi. Heydər Əliyev təhsil sistemində islahatların əsas məqsədini özü müəyyən etmişdi:

''Təhsil sistemində islahatların əsas məqsədi ondan ibarətdir ki, Azərbaycan təhsil sistemi dünya təhsil sisteminin standartlarına uyğunlaşdırılsın… On illərlə əldə etdiyimiz təhsil prinsipləri gözlənilməli və inkişaf etdirilməlidir. Əgər biz bu yolla gedəriksə, qısa bir zamanda Azərbaycanda təhsil sistemini dünya standartlarına çatdıra bilərik".

Müstəqil Respublikamızın memarı Heydər Əliyevin qayğısı ilə Təhsil İslahatı Proqramının əsas müddəaları Dünya Bankının maliyyə yardımı ilə həyata keçirilməyə başladı. Təhsil Qanununun layihəsi ümumxalq müzakirəsinə verildi. Ümumi orta təhsilin dövlət standartları hökümət səviyyəsində təsdiq edildi. Azərbaycan təhsili dünyanın aparıcı dövlətlərinin təhsilinə inteqrasiya edildi. Xüsusi istedadı olan şagirdlərə və gənclərə diqqət artırıldı, adları "Qızıl kitab"a salındı. İstedadlı gənclərə dövlət qayğısı Ana Qanunumuzda öz əksini tapdı.

2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" Sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biridir. Bu Sərəncam ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır. "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli Sərəncamı da ölkədə təhsil sahəsində müstəsna əhəmiyyətə malik dövlət sənədidir.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli və "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2 yanvar 2003-cü il tarixli fərmanları ilə ədəbi dilimizin fəaliyyət meydanı daha da genişləndirilmişdir.

Heydər Əliyev Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan kitabxana quruculuğu sahəsində də, misilsiz xidmətlər göstərmişdir. XX əsrin II yarısında respublikada kitabxana şəbəkələrinin inkişafı, kitabxanaların mərkəzləşdirilməsi, kitabxana fondlarının inkişafı, əhaliyə kitabxana xidmətinin yaxşılaşdırılması, kitabxanaların maddi-texniki bazasının və kadr potensialının möhkəmləndirilməsi istiqamətində Heydər Əliyevin gördüyü işlər danılmazdır. Müstəqillik dövründə kitabxanaların qorunub saxlanılması, kitabxana işinin inkişaf istiqamətləri və dövlətin kitabxana siyasətinin formalaşmasında Heydər Əliyevin rolu böyükdür. Ulu öndər kitab və kitabxana işinin böyük mədəni əhəmiyyətini yüksək qiymətləndirmiş, onu ölkəmizin ümumi mədəniyyətinin əsas göstəricisi kimi qiymətləndirmişdir. Bu da Heydər Əliyevin yüksək elmi, mədəni və intellektual səviyyəsi ilə, bəşəri xarakter daşıyan hadisələri düzgün qiymətləndirə bilmək istedadı ilə şərtləşir.

Heydər Əliyev həmişə çıxışlarında yazıçı və şairlərimizin, alimlərimizin, mədəniyyət xadimlərimizin böyük potensiala malik olduğunu bildirmiş, Azərbaycan xalqının təhsillənməsində, biliklənməsində, elm və mədəniyyətimizin, mənəviyyatımızın inkişafında böyük rolu olduğunu bildirmişdir. İftixar hissi ilə demək olar ki, Heydər Əliyev respublikaya rəhbərlik etdiyi 34 illik dövrdə böyük təşkilatçılıq, nəhəng quruculuq işləri ilə yanaşı, zəngin elmi-nəzəri, mənəvi bir irs yaratmışdır. Bu irs qiymətli mənəvi sərvət kimi elmimizin və mədəniyyətimizin "qızıl fondu"na daxil edilmişdir.

Ümumiyyətlə, Azərbaycan Respublikasının bu günkü inkişaf səviyyəsi və işıqlı gələcəyi Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev tərəfindən əsası qoyulan Azərbaycan modeli bu gün də inkişaf edir və öz bəhrəsini göstərir. Hər bir sahə kimi elm və təhsil sahəsində də görülən tədbirlər əsaslı inkişafı təmin etmişdir. Ulu öndərin təbirincə desək: "Yeni-yeni təhsil ocaqlarının, ali məktəblərin, universitetlərin yaranması indi müstəqil Azərbaycan Respublikasının böyük ali təhsil potensialına malik olmasının əsasını qoymuşdur".

Bu gün bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də Ulu öndərin siyasi kursu onun laiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

UOT 339.924

**Heydər Əliyev və Azərbaycanın xarici iqtisadi siyasətinin müasir durumu**

*Arif Məmmədhəsən oğlu Tağıyev,*
*Mingəçevir Dövlət Universiteti*

Tarixi faktların araşdırmaları göstərir ki, hər bir ölkənin, millətin, xalqın müstəqilliyində, onun dövlətçiliyinin və milli iqtisadiyyatının formalaşması və inkişafında, milli və iqtisadi təhlükəsizliyinin təmin olunmasında güclü şəxsiyyətlərin danılmaz rolu olmuşdur. Belə şəxsiyyətlərdən biri də təxminən 25 ildən çox bir dövrdə Azərbaycanın ali rəhbəri kimi öz xalqına xidmət etmiş, xüsusilə müstəqillik dövründə ölkəmizdə yeni dövlətçilik ənənələri yaratmış, ölkəmizi dünyanın siyasi və iqtisadi məkanına çıxarmağa nail olmuş Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev olmuşdur.

Heydər Əliyev irsinin tədqiqatçıları çox gözəl bilirlər ki, dövlətçiliyimizin qorunmasında o, siyasi və iqtisadi amilləri bir-birindən heç vaxt ayırmazdı. Belə bir tarixi fakt mövcuddur ki, Alfred Nobel XX əsrin əvvəllərində Azərbaycanda olarkən burada olan vəziyyəti xarakterizə edərək qeyd etmişdi ki, Bakıda neft faktoru və siyasət çox sıx şəkildə bir-biri ilə qarışıb, yəni o qeyd etmək istəyirdi ki, neft həm iqtisadi, həm də siyasi amil kimi ölkənin həyatında çox böyük rol oynayır. İkinci dəfə ölkəmizdə belə bir vəziyyət XX əsrin sonunda, 90-cı illərin əvvəlində mövcud olmuşdur. Müstəqilliyin ilk illərində ölkəmizdə bir tərəfdən yaranmış müharibə vəziyyəti, digər tərəfdən isə baş verən hakimiyyət davası, hakimiyyətə qeyri sağlam, təcrübəsiz, səriştəsiz və naşı siyasətlərin gəlməsi, onların məntiqsiz xarici siyasətləri nəticəsində yeni müstəqillik əldə etmiş Azərbaycan hətta özünün ən yaxın qoşuları ilə siyasi-iqtisadi gərginlik yaşayırdı. Faktiki olaraq, həmin dövrdə Azərbaycan özünün bütün mövcud iqtisadi əlaqələrini itirmiş, ölkə iqtisadiyyatı dərin böhran vəziyyətinə düşmüş, əhalinin həyat səviyyəsi son dərəcə pisləşərək ciddi sosial konfliktlərlə müşahidə olunaraq cəmiyyətdə narazılıqların yaranmasına səbəb olurdu.

Nəticədə, ikinci dəfə 1993-cü ildə yenidən dövlətə rəhbərlik etməyə başladıqdan sonra onun tərəfində həyata keçirilən məqsədyönlü dövlətçilik və sosial-iqtisadi siyasətinin əsas istiqamətlərindən biri məhz Azərbaycanın dünya siyasi və iqtisadi arenasına çıxarılması, dünyanın inkişaf etmiş ölkələri ilə, xüsusilə islam ölkələri ilə, qonşu dost ölkələr ilə siyasi-iqtisadi əlaqələrin qurulması, ölkəyə xarici investisiyaların cəlb olunması, xarici ticarət əlaqələrinin genişləndirilməsi olmuşdur. Bu sahədə Ümummilli lider tərəfindən həyata keçirilən ilk tədbirlərdən biri, tarixə “Əsrin müqaviləsi” adı ilə düşmüş neft kontraktlarının bağlanması olmuşdur. Bu müqavilələrnin dəyəri, onun, ölkəmiz üçün eyni zamanda həm iqtisadi, həm də siyasi əhəmiyyəti ilə səciyyələndirilə bilər. Belə ki, “Əsrin müqaviləsi”ndə dünyanın güc mərkəzlərini hesab edilən ölkələrin transmilli şirkətlərinin təmsil olunması, məhz ölkəmizdə bu mərkəzlərin iqtisadi maraqların balanslaşdırılması və neytrallaşdırılması istiqamətində H.Əliyevin xarici iqtisadi siyasətinin təzahürü olmuşdur.

Beləliklə, əsası “Əsrin müqaviləsi” ilə qoyulan xarici iqtisadi siyasətin nəticələri bu gün Azərbaycanın milli iqtisadiyyatında öz bəhrəsini verməkdədir.

Müasir dövrdə hər bir ölkənin milli iqtisadiyyatının inkişaf səviyyəsi, ilk növbədə, onun dünya təsərrüfatı sistemində tutduğu mövqe və inteqrasiya səviyyəsi ilə ölçülür. Milli iqtisadiyyatın ümumdünya iqtisadiyyatına inteqrasiyası son dərəcə aktual və səmərəli bir fəaliyyət olmaqla bərabər, eyni zamanda olduqca geniş, mürəkkəb və problemli bir prosesdir. Belə geniş fəaliyyəti tam həcmdə həyata keçirmək ancaq yüksək iqtisadi inkişafa malik olan dövlətlərə nəsib olur. Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyası dövrünü bir-birindən fərqli 4 mərhələyə bölmək olar: 1992-97-ci illər, 1998-2005-ci illər, 2006-2015-ci illər və 2016-cı ildən sonrakı post neft dövrü. Əsasən, ölkə iqtisadiyyatında böhran və böhrandan çıxış dövrünü əhatə edən 1-ci və 2-ci mərhələdə xarici iqtisadi əlaqələrin və beynəlxalq iqtisadi münasibətlərin formalaşması, onun hüquqi-normativ bazasının yaradılması, xarici ticarət, xarici investisiya və digər xarici iqtisadi

münasibətlərin strategiyasının müəyyənləşdirilməsi prosesləri həyata keçirilmiş, sonrakı mərhələlərdə isə onun davamlı inkişafı təmin olunmuşdur.

Azərbaycanın müstəqil dövlət kimi dünya iqtisadi məkanına inteqrasiyasının başlanğıc dövrünü 1991-1992-ci illərə aid etmək mümkün olsa da, birmənalı olaraq, qeyd etmək olar ki, bu inteqrasiya ilk növbədə, yuxarıda da qeyd etdiyimiz kimi, əsası Ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş "Neft Strategiyası"nın həyata keçirilməsi ilə başlanmış, dünyanın onlarla inkişaf etmiş ölkələri ilə iqtisadi münasibətlər qurulmuş, bu ölkələri təmsil edən ən güclü onlarla transmilli neft kompaniyaları ilə neft müqavilələri bağlanmış və nəticədə ölkəyə xarici kapitalın marağı artmış, ölkəyə iqtisadiyyatına xarici investisiya axını başlanmış və ölkə dünya iqtisadiyyatında qlobal proqramları həyata keçirən DB, BVF, İİB və digər bu kimi qurumlara daxil olaraq onlarla iş birliyi yaradılmış, BMT, Avropa Şurasına, MDB, İƏT kimi bir çox dünya və regional siyasi və iqtisadi qurumlara qəbul edilmiş və inkişaf edərək, özünün hazırkı vəziyyətinə çatmışdır.

Azərbaycanın beynəlxalq iqtisadi münasibətlərində xarici ticarət fəaliyyəti xüsusi yer tutur. Əvvəlki dövrlərdən fərqli olaraq, son illərdə Azərbaycanın xarici ticarət siyasətində ticarət dövriyyəsinin ümumi artımı ilə bərabər daha çox onun keyfiyyət xarakteristikası, yəni struktur keyfiyyətinə, ticarət balansının sağlamlaşdırılması, ixracatın stimullaşdırılması kimi məsələlərə üstünlük verilir.

Təsadüfü deyildir ki, 2004-cü ildən bəri bütün illərdə xarici ticarət saldosu müsbət nəticə ilə yekunlaşmış, bu illərdə həm ümumi ticarət dövriyyəsi, həm də onun ayrı-ayrı tərkib hissələri olduqca sürətlə inkişaf etmiş, idxal-ixracatın strukturu iqtisadi təhlükəsizlik baxımından mövcud parametrlərə yaxınlaşmış, onun ÜDM xüsusi çəkisi 50 faiz və daha çox təşkil etmişdir.

Azərbaycan Respublikası Dövlət Statistisa komitəsinin məlumatlardan göründüyü kimi, ümumi ticarət dövriyyəsinin dinamikasında son illərdə ciddi dəyişiklik müşahidə olunmaqdadır. Belə ki, əvvəlki ilə nisbətən 2010-cu ildə 159,2 faiz, 2011-ci ildə 130,0 faiz, 2012-ci ildə 101,6 faizlik artım müşahidə olunduğu halda, Azərbaycan (o cümlədən bütün dünya) iqtisadiyyatı üçün o qədər də uğurlu olmayan son, 2014-2016-cı illər ərzində xarici ticarət dövriyyəsi daha da aşağı düşərək əvvəlki ilə nisbətən 2014-cü ildə 90,5 faiz, 2015-ci ildə 65,5 faiz, 2016-cı ildə isə 83,7 faiz, natural ifadədə isə mütənasib olaraq 39,4; 25,8 və 21,6 mlrd. dollar səviyyəsində olmuş, 2017-2019 cu ildə isə daha da artaraq müvafiq olaraq 112,3 faiz; 130,9 faiz və 104,3 faiz təşkil edərək, son ildə natural ifadədə 33 mlrd. dollar səviyyəsini ötmüşdür [4].

Müəyyən illərdə ümumi ticarət dövriyyəsində azalmanın əsas səbəbi daha çox ixracatın əsasını təşkil edən xam neftə dünya bazarlarında mövcud olan tələbatın azalması və dəyərinin dünya bazarlarında ən azı iki dəfə ucuzlaşması və ölkədə neft hasilatının xeyli aşağı düşməsi olmuşdur. Odur ki, ölkə iqtisadiyyatını, o cümlədən xarici ticarət balansını neft sektorundan asılılıqdan qurtarmaq üçün artıq 2015-2016-cı illərdən başlayaraq dövlət özünün yeni iqtisadi siyasətini, o cümlədən yeni ixrac siyasətini, başqa sözlə post-neft dövrü siyasətini formalaşdıraraq həyata keçirməyə başlamışdır. Burada əsas məqsəd qeyri-neft sektorunda sürətli inkişaf tempinə nail olmaq, qeyri-neft məhsullarının güzəştli vergi-büdcə və gömrük stimullaşdırıcı mexanizmləri vasitəsilə ixrac potensialının yüksəldilməsindən ibarət olmuşdur. Bunun nəticəsi kimi, son illərdə Azərbaycanda xarici ticarət dövriyyəsinin müsbət nəticəsi kimi idxal-ixracatın strukturunda və xarici ticarət balansında ciddi keyfiyyət dəyişikliklərinin baş verməsini və xarici ticarət tərəfdaşlarının sayının artmasını xüsusi qeyd etmək olar. Belə ki, son illərdə ölkəmizin iqtisadi subyektləritərəfindən dünyanın 180-dən çox ölkəsində fəaliyyət göstərən subyektlər ilə ticarət əlaqələrini həyata keçirmiş, 120-dən çox ölkəyə məhsul ixrac olunmuş, 170-dən çox ölkədən isə məhsul idxal edilmişdir. [4]

Ticarət əməkdaşları arasında Türkiyə, Rusiya, İtaliya, Almaniya, Çin, İsrail, Fransa, İngiltərə, ABŞ, Hindistan, Gürcüstan, Ukrayna, Tayvan, İndoneziya, Kanada, Malayziya, İspaniya kimi inkişaf etmiş ölkələrlə ticarət əlaqələri daha geniş olmuşdur.

Müasir dövrdə Azərbaycanın xarici iqtisadi əlaqələrinin qurulmasında beynəlxalq maliyyə-kredit münasibətlərinin idarə olunması xüsusi yer tutur.

Aparılan araşdırmalar göstərir ki, Azərbaycanın milli iqtisadiyyatının dinamik inkişafına səbəb olan və bu inkişafı təmin edən əsas amillərdən biri dövlətin həyata keçirdiyi məqsədyönlü və davamlı investisiya siyasəti, o cümlədən xarici investisiya siyasəti olmuşdur.

2010-2019-cu illərdə Azərbaycan iqtisadiyyatına cəlb olunmuş xarici investisiyalar və maliyyə kreditlərinin təhlili göstərir ki, ölkə iqtisadiyyatına cəlb edilmiş cəmi təxminən 95 milyard ABŞ dolları həcmində xarici investisiyaların təxminən 27 faizini maliyyə kreditləri, 73 faizini isə birbaşa investisiyalar təşkil etmişdir. [5]

Azərbaycan dövləti eyni zamanda aktiv xarici kredit fəaliyyəti ilə məşğul olan inkişaf etməkdə olan ölkələrdən birinə çevrilmişdir. Təsadüfü deyildir ki, beynəlxalq maliyyə qurumları Azərbaycanın kredit reytinqini, yəni kredit ödəmə qabiliyyətini kifayət qədər yüksək qiymətləndirirlər. Baxmayaraq ki, Azərbaycan dövləti hazırda kifayət qədər maliyyə ehtiyatlarına malikdir, özünün milli iqtisadi maraqları naminə xarici borclardan istifadə etməkdə maraqlıdır. Lakin xarici borcların idarə olunmasında dövlət daimi balanslı siyasət həyata keçirir və onun həcmi ÜDM-ə və valyuta ehtiyatlarına nisbətən minimum təhlükəsizlik səviyyəsində saxlanılır.

Maliyyə Nazirliyinin məlumatına əsasən Azərbaycanın, əsasən, xarici kreditlər hesabına yaranan xarici dövlət borcu 1 yanvar 2020-cu il tarixinə 8,9 milyard dollar təşkil etmiş və onun ÜDM-ə olan nisbəti 19,0 faiz səviyyəsində olmuşdur. Bu tarixə ölkənin valyuta ehtiyatları isə 50,0 milyard dollar səviyyəsinə yüksələrək xarici dövlət borcunu 5,1 dəfə üstələmişdir. [6] Bununla belə, nəzərə aınmalıdır ki, Azərbaycanın əldə etdiyi xarici kreditlər daha uzunmüddətli və aşağı faizli kreditlərdən ibarətdir və ölkənin kredit ödəmə qabiliyyəti kifayət qədər yüksəkdir.

Son dövrlərdə ölkənin dünya təsərrüfatında rolu xeyli dərəcədə artmış, reytinq qabiliyyətlilik indeksi nəzərə çarpacaq dərəcədə yüksəlmişdir. Təsadüfü deyildir ki, ÜİF (Ümumdünya İqtisadi Forumu) və ya başqa adla Davos Forumunun hesabatlarına görə son illərdə Azərbaycan həm rəqabət qabiliyyətlilik reytinqinə görə, həm investisiyaya açıqlıq reytinqinə görə, həm də biznes mühitinə görə dünya ölkələri arasında birinci otuzluqda qərar tutmuşdur. Hazırda beynəlxalq təşkilatların reytinqində Azərbaycan rəqabət qabiliyyətliliyə görə ənənəvi olaraq, orta səviyyədən yuxarı ölkələr sırasına aid edilir. Dünya bankının son hesabatlarında müəyyən düzəlişlər edilərək, Azərbaycanın “Doing Business 2020” hesabatında mövqeyi 6 pillə yaxşılaşdırılaraq ölkənin qlobal reytinq sıralamasında mövqeyi 191 ölkə arasında 34-dən 28-ə yüksəlmiş və ölkəmiz bir daha dünyanın “Ən islahatçı on ölkəsi” sırasına daxil edilmişdir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Əliyev H.Ə. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Bakı, 2001
2. Musayeva C.Q., Tağıyev A.M. Azərbaycan iqtisadiyyatı: Ali məktəblər üçün dərs vəsaiti. Bakı: Avropa, 2018, 420 s.
3. Кулиев Р.А. Глобализация мировой экономики и Азербайджан. Баку, 2011. 320 с.
4. Azərbaycanın statistik göstıriciləri, 2020. AR DSK. Bakı, 2020
5. www.azstat.gov.az
6. www.maliyye.gov.az

УДК 342.5

**Жизнь, отданная служению народу**

*Наргиз Мамедкерим кызы Исламова,*
*Мингячевирский государственный университет*

XX век одарил азербайджанский народ личностью, которая, ведя изо дня в день напряжённую и неустанную работу, сумела занять самое достойное место на широкой

политической арене. Общенациональный лидер нашего народа, живущий в сердце каждого из нас и сегодня, писал: “Цель моей жизни – Азербайджан, Азербайджанская Республика, азербайджанский народ, граждане Азербайджана. Если я достигну этого, я завершу свою жизнь как самый счастливый человек”. История возложила на великого лидера две судьбоносные миссии: спасения и созидания. Мудрый, решительный политический лидер и неподражаемый государственный деятель, он мастерски справился с обеими миссиями. Он вёл борьбу одновременно на двух фронтах. Была разработана стратегия коренных реформ, охватившая все сферы жизни страны, в том числе и образование.

Время его руководства республикой в рамках советского государства в 70-80-х годах, так и будучи независимым государством, справедливо считается эпохой возрождения и расцвета азербайджанского народа. Дальновидный лидер азербайджанского народа ещё в70-80-егоды проявлял особую заботу об образовании молодёжи. Ежегодно сотни молодых людей направлялись на учёбу в Москву, Санкт-Петербург, Киев и другие передовые центры науки и образования. Он создал за пределами республики настоящий национальный университет, охватывающий все отрасли хозяйства и экономики. Направление в те годы молодёжи в самые передовые высшие учебные заведения СССР вошло в историю, как яркий пример дальновидности Гейдара Алиева. Сегодня эти выпускники в числе других ведущих кадров трудятся на благо независимого Азербайджанского государства. Если в 1969-ом году для желающих учиться в различных городах СССР было выделено лишь 47 мест, то в начале 80-х годов число обучающихся в престижных образовательных центрах за пределами республики превысило 1000 человек. В период с 1969 года по 1982 год более 15000 азербайджанцев были отправлены на учёбу в передовые университеты СССР. Г.Алиев придавал важное значение единению азербайджанцев, развитию просвещения, поддержке делу образования в республике. Большая работа была проделана по развитию азербайджанского языка. В 1970 году было открыто военное училище, названное в честь выдающегося военачальника Джамшида Нахичеванского. Оно и заложило основу подготовки кадрового офицерского состава будущей азербайджанской армии.

В первые годы независимости нашего государства, в то время, когда некоторые националистические силы выступали с экстремистскими эмоциональными речами против русского языка и русскоязычного населения, Общенациональный лидер вёл точную и правильную языковую политику. Ещё в 1978 году, добившись добавления статьи в Конституцию СССР о постоянном использовании азербайджанского языка наряду с русским, Гейдар Алиев “подарил вторую жизнь русскому языку.” На протяжении веков русский язык играл коммуникативную роль в межкультурном общении, был культурным и духовным мостом между разными народами и целыми поколениями.

Многие представители азербайджанского просветительства, начиная от писателя – реалиста, основоположника азербайджанской драматургии, М.Ф.Ахундзаде до великого просветителя С.А.Ширвани, выдающегося государственного деятеля Н.Нариманова, говорили о незаменимой роли русского языка в приобретении нашим народом современных европейских, западных ценностей и внесли свой бесценный вклад в дело его изучения и развития. Такое отношение обусловлено тем, что в Азербайджане русские живут более 200 лет. И сегодня русская община в нашей республике самая многочисленная на Южном Кавказе. Благодаря мудрой государственной политике Общенационального лидера Гейдара Алиева и достойного продолжателя его многолетнего труда Президента Ильхама Алиева обеспечены все гражданские права русского населения. Представители русской диаспоры принимают самое активное участие в жизни страны. Успешно функционируют такие общественные организации, как Русская община Азербайджана, Ассоциация русской молодёжи Азербайджана, Землячество казаков в Азербайджане, общество блокадников Ленинграда, Центр русской культуры, центры русского языка и культуры, “Дом русской книги”, информационные агентства, развивается русскоязычное научное и художественное творчество. Радует многочисленных зрителей своими замечательными постановками

Русский Государственный драматический театр. В 2000-м году на базе Азербайджанского педагогического института им. М.Ф.Ахундова по инициативе Г.Алиева открыт Бакинский славянский университет. Наряду с другими высшими учебными заведениями в настоящее время подготовкой высококвалифицированных специалистов занимаются Бакинский филиал Московского государственного университета им. М.В.Ломоносова, филиал Медицинского университета им. И.Сеченова.

Президент Азербайджана Ильхам Алиев сегодня успешно продолжает многосторонний внешний и внутренний политический курс Общенационального лидера: особое внимание уделяет развитию всесторонних отношений с Россией, создаёт необходимые условия для изучения и преподавания русского языка на государственном уровне. Сегодня при государственной поддержке в нашей стране реализуется много проектов в сфере русистики, разрабатываются новые учебные материалы для более эффективного обучения в средних и высших учебных заведениях, организуются различные научные симпозиумы по актуальным проблемам изучения русского языка на современном этапе. На русском языке печатаются и выходят в электронном формате десятки газет и журналов, транслируются телевизионные и радиопередачи на русском языке.

В конце 20-го века, благодаря усилиям общенационального лидера Г.Алиева, были восстановлены традиции толерантности и мультикультурализма. Наша республика прославилась как многонациональная и многоконфессиональная страна. Государственная политика Азербайджанской Республики обусловливает необходимость окружения особой заботой и обогащения накопленного веками исторического опыта в сфере мультикультурализма, усиления пропаганды достигнутых в азербайджанском обществе уникальных успехов в этом направлении на международной арене. Осуществляемый под руководством Г.Алиева политический курс в сфере сохранения мультикультуральных традиций азербайджанского народа сегодня уверенно продолжается и развивается Президентом И.Алиевым. Общенациональный лидер нашего народа Г.Алиев сказал: "Для каждого человека национальная принадлежность является источником гордости. Я всегда гордился и горжусь тем, что я азербайджанец!" Сегодня эти крылатые слова стали формулой жизни для каждого достойного гражданина страны.

**Использованная литература**

1. Heydər Əliyev Müstəqilliyimiz əbədidir: 1-46 cild. Bakı: Azərnəşr, 1997-2013
2. Гусейнова И. От политического руководителя к общенациональному лидеру. Баку, 2005

UOT 330.1; 330.34/35; 334.2; 336.552

## İnklüziv sosial inkişafın təmin edilməsi perspektivləri

*Günəş Musa oğlu Şəfaqətov,*
*Mingəçevir Dövlət Universiteti*

Bünövrəsi Ümummilli lider, Ulu öndər Heydər Əliyev tərəfindən uzaqgörənlik və yüksək peşəkarlıqla formalaşdırılan səmərəli sosial siyasəti davam etdirən Azərbaycan döləti müharibədən sonrakı dövrə də genişmiqyaslı və çevik sosial dəstək zərfi ilə qədəm qoydu. Bu müdafiə zərfi Vətən müharibəsi iştirakçılarını, şəhidlərinin ailə üzvlərini, müharibə əlillərini, müharibədə yaralanmış hərbçiləri, erməni vəhşiliyindən zərər çəkənləri, eyni zamanda göstərilən şəxslərin yaxın ətrafını əhatə edir. Dəstək istiqamətləri isə genişmiqyaslıdır, onun tərkibinə sosial təminat hüquqlarının manesiz reallaşdırılması və sosial ödənişlərin təminatlı təyinatı, sosial-psixoloji

dəstək, reabilitasiya vasitələri və xidmətləri ilə təminat, maddi dəstək, məşğulluq problemlərinin operativ həllində, xırda biznes potensialının formalaşdırılmasına yardımlar edilməsi, mənzil-məişət xidmətlərinin yüksəldilməsi və sair kimi dəstək tədbirləri daxildir. Ümumilikdə müharibədən sonrakı dövür üzrə bu yardım zərfi artıq 20 000-dən çox insana şamil edilib.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2 fevral 2021-ci il tarixli “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” barədə imzalanan Sərəncamda “2021-2025-ci illər üzrə sosial-iqtisadi inkişaf strategiyası”nın hazırlanması ilə bağlı hökumətə müvafiq tapşırıqlar verilib. “2021-2025-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın hazırlanması, habelə bu məqsədlə hökumət tərəfindən yaradılan komissiyanın 10 alt işçi qrupunun fəaliyyət istiqamətləri, iş planları və onun koordinasiyası, hesabatlılıq və təşkilati məsələlər müzakirə olunub.

Bu, hökumətin “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in yerinə yetirilməsinin diqqətdə saxlamasından xəbər verir. Çünki indiki qlobal miqyaslı iqtisadi cağrışlar, eləcə də Vətən müharibəsindən sonrakı yeniləşən mərhələyə istiqamətləndirilən məqsədlər ölkəmizin perspektiv inkişaf istiqmətinin, əsas sosial-iqtisadi tərəqqi vektorlarının və buna adekvat milli prioritetlərin müəyyənləşdirilməsini zərurətə çevrib.

“Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”lə əlaqədar imzalanan sənəddə Nazirlər Kabinetinə “2021-2025-ci illər üzrə sosial-iqtisadi inkişaf strategiyası”nın layihəsinin hazırlanması ilə bağlı uyğun göstərişlərin verilməsi də nəzərdə tutulan müddətdə ölkənin sosial-iqtisadi tərəqqisinə diqqət yetiriləcəyinin təminatıdır.

Qarşıdakı dövrdə uğurlu sosial-iqtisadi nailiyyətlər nəzərdə tutulan illərdə Şərqlə Qərbin qovşağında yerləşən Azərbaycanın imkanlarının daha da artacağına zəmin yaradır. Bu qüdrət 2030-cu ilə qədər olan dövrdə Azərbaycanın iqtisadi müstəqilliyinin möhkəmləndirilməsinə və yeniləşən həyat tələblərinə cavab verən yüksək sosial rifah cəmiyyətinə əsaslanan zəngin dövlətə çevrilməsinə etibarlı zəmanət verir. Azərbaycan dövlətinin ölkə vətəndaşlarının həyat keyfiyyətinin daha da yaxşılaşdırılması üçün bazar iqtisadiyyatının sosialyönümlülüyünün inkişaf etdirilməsi meylinin seçməsi də bunun bariz təsdiqidir.

İnklüziv inkişaf dövlət idarəçiliyinin elə mütərəqqi vasitəsidir ki, onun gerçəkləşdirilməsi nəticəsində ölkə inkişafı şaxələndirilmiş olur və bu prosesin uğurlu nəticələrini bütün vətəndaşlar hiss edir. Sosial rifahın milli səviyyəsinin permanent artması məqsədilə inklüziv, dayanıqlı və yüksək, başlıca olaraq özəl təşəbbüslərə əsaslanan iqtisadi artımın yüksələn səviyyəsinin sürətlənməsi, işğaldan azad edilmiş rayonlara sakinlərin geri dönməsinin təmin edilməsi Azərbaycanın yeni təkamüllü tərəqqi magistralının ideoloji nüvəsini ifadə edir. Ölkənin uzunmüddətli etibarlı və sürətli tərəqqisi üçün biznes, dövlət və cəmiyyət üçlüyünün davamlı əlaqəsi möhkəmləndirilir. İqtisadiyyatda dövlətin rolunun bazarameyilli yeniləşmələr vasitəsilə səmərəli və effektiv idarə olunması, özəl mülkiyyət institutlarının fəallaşdırılması, biznesə dost dövlət idarəetməsi və yerli məhsulların xarici bazarlara ixracını artırmaq məqsədilə ticarət qaydalarının daha da mükəmməlləşdirilməsi iqtisadi inkişafın təməl amillərinə çevrilir.

Ölkədə təşəbbüslərin innovativ, yaradıcı və özəl əsaslarla inkişafı iqtisadi resursların daha çox əlavə dəyər formalaşdıra bilən sahələrə yönəldilməsi reallaşdırılır.

Bu məqsədlərin gerçəkləşdirilməsi dayanıqlı makroiqtisadi tarazlığa təminat verən effektiv makroiqtisadi siyasətin əhatə dairəsinin formalaşdırılmasını, iqtisadi tərəqqinin ortamüddətli və uzunmüddətli “hərəkətverici qüvvələri”nin zənginləşdirilməsini – insan kapitalının mükəmməlləşdirilməsini, rəqəmsal iqtisadiyyatın genişləndirilməsini və iqtisadi suverenliyin yetərincə tamamlanmasını tələb edir.

İqtisadi artım vətəndaşların həyatına təsir göstərən başlıca amillərdən biridir. İqtisadiyyatını davamlı və yüksək sürətlə artırmaqla ölkədə hər nəfərə düşən milli gəlirin yüksək səviyyəsinə nail olunmalıdır. İqtisadi artım yüksək gəlirli iş yerləri yaratmaqla həyat səviyyəsinin ilbəil yaxşılaşmasını təmin etməlidir.

İqtisadi artımın müntəzəm olması, milli iqtisadiyyatın geniş şaxələnməsi, əmtəələr və xidmətlərə aid ixrac imkanlarının tam gerçəkləşdirilməsi üçün mütərəqqi və mükəmməl “hərəkətverici qüvvələr” aşkarlanmalıdır. Sosial-iqtisadi inkişafın dayaqlarından biri neft bölməsi

olsa da, iqtisadiyyatı inkişaf mərkəzinə qeyri-neft bölməsi çevrilməlidir. İqtisadi artım effektiv və qabaqcıl özəl təşəbbüslərə əsaslanmalı, özəl və dövlət əməkdaşlığı gücləndirilməlidir. Daima yeniləşməyə meylli olan özəl bölmədə aktivlik daha da artırılmalı, qeyri-neft bölməsinin maliyyələşməsində özəl bölmənin payı yüksəldilməlidir.

“Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” barədə imzalanan Sərəncamda da, həmçinin bildirilir ki, davamlı iqtisadi inkişaf gəlirlərin bölgüsünün ədalətliliyinə zəmanət verməli, aşağıgəlirli əhali təbəqəsinin sosial-iqtisadi rifahını yüksəltməlidir. Kölgə iqtisadiyyatının yaratdığı qeyri-formal məşğulluğun həcmi müəyyən edilməli və məhdudlaşdırılması üçün kompleks tədbirlər gerçəkləşdirilməli, gəlirlərin leqallaşdırılması yönümündə zəruri tədbirlər həyata keçirilməlidir.

Bütün təbəqələr ölkənin cəmiyyətin ayrılmaz tərkib hissəsidir və dövlətin vəzifəsi onların qayğısına qalmaqdır. İşsizliyin aşağı səviyyəsi və yoxsulluq həddinin minimuma endirilməsi, eləcə də yoxsul insanların ehtiyaclarının ödənilməsinə yönələn ünvanlı yardımların əhatə miqyasının genişləndirilməsi sosial müdafiəyə ehtiyacı olan vətəndaşlar üçün əlavə imkanlar yaradır.

Daha effektiv və ədalətli sosial təminat sisteminin formalaşdırılması hesabına yoxsulluğa həssas və aşağıgəlirli zümrənin, əlilliyə məkum olan şəxslərin, o cümlədən 18 yaşadək sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi və sosial təminatı mübağiləsiz gücləndirilməlidir.

Əlilliyə məhkum olan şəxslər, o cümlədən 18 yaşadək sağlamlıq imkanları məhdud uşaqlar üçün tələb olunan sosial reabilitasiya infrastrukturu istifadə üçün əlçatan olmalı, bu şəxslərin məşğulluğuna yardım proqramlarının miqyası genişləndirilməli, sosial təminatı yaxşılaşdırılmalıdır. Sosial təminat baxımdan həssas əhali qruplarının mənafe və maraqlarına cavab verən, sosial xidmətlər sistemində onlar üçün bərabər iştirak imkanlarının yaradılması təmin olunmalıdır.

İnklüziv cəmiyyət yoxsul, əqli və fiziki məhdudiyyəti olan şəxslərin və cəmiyyətin digər qayğıya ehtiyacı olan qrupunun maddi imkanının artırılmasına mühit yaradılması, onlara ümidverici sosial xidmətlərin göstərilməsi və rifahının yüksəldilməsini nəzərdə tutur. Dünya təcrübəsində inklüziv cəmiyyətin təkamülü üçün bir sıra konkret tədbirlər həyata keçirilir.

Məmləkətdə adicə iqtisadi artım deyil, cəmiyyət üzvlərinin hamısının iqtisadi rifahının yüksəldilməsi mühümdür. Özəl bölmənin bu sahədə xüsusi əhəmiyyəti və rolu var. Yoxsulluğun səviyyəsinin məhdudlaşdırılması üçün özəl bölmənin formalaşdırdığı iş yerlərinin əhəmiyyəti mübağiləsizdir. Ölkəmizdə son on ildə 1,5 milyon iş yeri yaradılıb. Yoxsulluq səviyyəsi 8 dəfə azalıb, işsizlik səviyyəsi isə 5 faizə düşüb. Layihələr əməyə yoxsul zümrənin daha çox cəlb edilməsi, aşağı ixtisaslı insanlar üçün iş yerlərinin yaradılması və peşə təhsilinin tədrisinin yüksəldilməsinə yönəlməlidir.

Hazırda Azərbaycan müstəqil və suveren dövlət kimi postpandemiya və postkonflikt məhələsində də keyfiyyətcə müasir olan və 2021–2030-cu illəri əhatə edən strateji mərhələyə qədəm qoyur. Ölkənin ərazi tamlığının bərpası ilə səciyyələnən mütərəqqi strateji mərhələdə zəngin institusional-struktur islahatlar hesabına mükəmməl iqtisadi artım mənbələrinin aşkarlanması vasitəsilə Azərbaycan dövlətinin potensialının daha da artırılması, yüksək sosial rifah cəmiyyətinin formalaşdırılması, azad olunmuş ərazilərə tarixi dönüş və əbədi məskunlaşmanın təmin edilməsi qarşıda mühüm vəzifə kimi durur.

İqtisadiyyatda qlobal reallıqlar, eləcə də inkişafın yeni mərhələsində qarşıya qoyulan məqsədlər Azərbaycanın mühüm sosial-iqtisadi inkişaf istiqamətlərinin və buna adekvat milli prioritetlərin müəyyənləşdirilməsini tələb edir.

Son dövrlərdə ölkəmizdə formalaşdırılan siyasi və makroiqtisadi sabitlik regionda Azərbaycanın xüsusi rolunu fərqləndirir. Bu cəhətdən hazırda Azərbaycanın hər bir vətəndaşının malik olduğu potensialını gerçəkləşdirilməsi üçün əlverişli mühit yaradılır. İndi yalnız iş yerinə yiyələnmək deyil, eləcə də dövlət tərəfindən iş yeri yaratmağa təşəbbüs göstərən hər bir şəxsə uyğun tədbirlər vasitəsilə adekvat qanunvericiliyin tələblərinin tətbiqi vasitəsi ilə dəstək verilir.

Azərbaycan dövlətinin gerçəkləşdirdiyi siyasətin nüvəsində daim vətəndaş maraqları dayanır. Bu, özünü prioritetlərdə də aydın əks etdirir. Göstəilir ki, iqtisadi artım dəyişkən və inklüziv cəmiyyətin təşəkkülünə səbəb olmalı, öz həyatında hər bir vətəndaş bu inkişafı real hiss etməlidir.

İnsanların yaşadığı ərazidən və sosial statusuna fərq qoyulmadan iqtisadi imkanlara, onların çıxışı ədalətli və bərabər olmalıdır. Çünki mütərəqqi irəliləyiş üçün təkcə iqtisadi artım deyil, cəmiyyətin üzvlərinin hamısının sosial rifahı mühüm şərtdir. İqtisadiyyat inkişaf etdikcə prioritetlər də məhz vətəndaşların gəlirlər və sərvətinin, o cümlədən əmək haqqılarının yüksəldilərək, layiqli həyat səviyyəsinin təmin edilməsini, əmək məhsuldarlığının artım səviyyəsi ilə əməkhaqqının artım səviyyəsinin uzlaşdırılmasını məqsədəuyğun hesab edir. Bu cəhətdən regionla paytaxtın inkişaf səviyyəsinin tarazlı qaydada gerçəkləşdirilməsi xüsusi əhəmiyyət daşıyır. Odur ki, sürətli regional inkişaf ölkə vətəndaşlarının keyfiyyətli iqtisadi zəminlərə və fiziki infrastruktura əlçatanlığı ilə müşayiət edilməlidir. Rayonların inkişafı paytaxt ilə müqayisə aparıla biləcək yaşayış standartlarına layiq olmalıdır. Ölkəmizdə pensiya, təqaüd, müavinət və müxtəlif sosial ödənişlərin məbləğlərinin minimum həddinin layiqli səviyyəsi təmin edilməlidir. Uzunmüddətli pensiya təminatı sisteminin mükəmməlləşdirilməsi üçün onun maliyyə etibarlığı artırılmalıdır, ödənilən sığorta haqqına pensiya məbləğinin mütənasibliyi yüksəldilməlidir.

Ölkə vtəndaşlarının sağlam həyat fəaliyyəti və uzunömürlülüyü yenə də diqqət mərkəzindədir. Bu, ölkə vətəndaşlarının məhsuldar çalışması və sosial rifahının zənginləşməsi üçün hədsiz vacibdir. Prioritetlərdə uzunömürlülüyün və sağlamlığın səhiyyə sisteminin ölkədəki keyfiyyətindən birmənalı asılı olacağı diqqətə çatdırılır.

XXI əsrin cağırışlarına uyğun Azərbaycanda təhsilin təşkili də prioritetlər arasındadır. Dünyada rəqabətin artmasına dözüm göstərə bilmək üçün uzunmüddətli iqtisadi inkişafı güclü və müasir təhsilə istinad etməlidir. Milli sərvətdə insan kapitalının iştirak payı davamlı olaraq, məhz təhsil vasitəsilə çoxaldılmalıdır.

İşğaldan azad edilmiş məkanlara geri dönəcək insanların təhlükəsiz həyat fəaliyyətinin təmin edilməsi, bu ərazinin ölkənin yaşayış və fəaliyyət üçün inkişaf etmiş guşələrindən biri olması da prioritetlərdə əsas yer tutur. Burada mükəmməl həyatın bünövrəsi olan layiqli həyat səviyyəsinin bərpası üçün bütün istiqamətlərdə quruculuğa nail olunmalıdır.

Aşağıdakı üç məqsədin gerçəkləşdirilməsi əsasında bu prioritet uğurla reallaşa bilər:
- hər bir vətəndaşın inkişafdan uğurla bəhrələnməsi;
- yüksək və ədalətli sosial təminat, inklüziv cəmiyyət;
- paytaxt və regionların tarazlı inkişafı.

**İstifadə edilmiş ədəbiyyat**

1. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”, Azərbaycan Respublikası Prezidentinin sərəncamı. Bakı şəhəri, 2 fevral 2021-ci il

2. Qurbanova G. Azərbaycanda inklüziv inkişafin təmin olunmasinda həyata keçirilən sosial və iqtisadi siyasətin rolu // Elm və innovativ texnologiyalar, 2019, №9, s.49-61

3. Bağırova C. Azərbaycanda davamlı inkişafın təmin edilməsində inkluziv artımın rolu. Bakı: ADİU, 2018, 56 s.

4. Davamli inkişafin sosial və fəlsəfi problemləri. Kollektiv monoqrafiya. I kitab. AMEA-nın Fəlsəfə İnstitutu. Bakı: Elm və təhsil, 2020, 312 s.

UOT356/359(091); 356/359:93/94; 355.4

**Müzəffər və rəşadətli Azərbaycan Ordusu Heydər Əliyev siyasətinin təntənəsidir**

*Nazim Fazil oğlu Niftəliyev,*
*Mingəçevir Dövlət Universiteti*

Hər bir dövlətin müstəqilliyinin, suverenliyinin əsas atributlarından biri də onun silahlı qüvvələridir. Azərbaycan ordusunun 1918-ci ildən başlayan keşməkeşli və şərəfli inkişaf yolu hərb

tariximizin möhtəşəm salnaməsidir. Sevindirici haldır ki, zamanın sınağından alnıaçıq, üzüağ çıxan Silahlı Qüvvələrimiz istənilən hücumdan qorumağa qadir bir qüvvə kimi günümüzün danılmaz reallığına çevrilmişdir. Bu uğuru Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında azadlıq və müstəqillik ideyalarının tam təmin olunması naminə hazırlanan ordu quruculuğu konsepsiyasının təntənəsi kimi dəyərləndirmək olar.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın istəyi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra onun müstəqil dövlət quruculuğu istiqamətində tarixi xidmətlərindən biri də Azərbaycan Silahlı Qüvvələrini ağır böhranlı vəziyyətdən çıxarması, ordunu siyasi oyunlarından kənarlaşdırması oldu. Ulu öndər zəngin dövlətçilik təcrübəsi, qətiyyətli və ardıcıl siyasəti ilə çox mürəkkəb şəraitdə ordu quruculuğuna yeni məzmun verdi və ölkədə müasir ordu formalaşdırılmasının əsasını qoydu. Heydər Əliyev görkəmli dövlət xadimi, böyük siyasətçi, həm də peşəkar hərbçi idi. Elə buna görə Ulu öndərin hakimiyyətə gəlişindən sonra əsası qoyulan ordu quruculuğunun diqqət çəkən əsas tərəfi yüksək peşəkarlıqla həyata keçirilməsi idi.

Milli ordu quruculuğu sahəsində Heydər Əliyev irsinin əvəzsiz dəyəri ondadır ki, bu dəyər başlanğıcını hələ Sovetlər dövründən götürürdü. Müstəqil olmadığı zaman Azərbaycanın qəhrəmanlıq ənənələrinin davam etdirilməsi, zəngin hərb tarixinin canlandırılması, gənclərin qəhrəmanlıq ənənələri əsasında tərbiyə edilməsi, görkəmli hərb xadimlərinin şərəfli yolunun davam etdirilməsi Heydər Əliyevin hər zaman diqqət mərkəzində olmuşdu. Bunun nəticəsi idi ki, Sovet illərində Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi vaxtlar hərbi xidmətə münasibətdə yeni bir baxış formalaşdırıldı, bu istiqamətdə əməli-təşkilati işlərə vüsət verildi [4].

Hələ yaxın keçmişdə Azərbaycan ordusu yaradılmasına başlanıldığı vaxtdan müxtəlif təzyiqlərə məruz qalmışdı. Həm xaricdən, həm də daxildən göstərilən təzyiqlərin əsas məqsədi ordu quruculuğunun qarşısını almaqla Azərbaycanın müstəqil bir dövlət kimi mövcudluğuna yol verməmək idi. Məqsəd aydın idi – azərbaycanlılar arasında hərb elminə dərindən yiyələnən, müasir silahlarla rəftar etməyi bacaran hərbçilərin yetişdirilməsinə imkan verməmək idi. Bu siyasətin mahiyyətini yaxşı başa düşən Heydər Əliyev Azərbaycanda ilk dəfə hakimiyyətə gəldikdən sonra, 1971-ci il iyunun 20-də C.Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi liseyi təşkil etdi [1]. Ötən illər ərzində minlərlə gənc bu məktəbi bitirərək ali hərbi məktəblərə daxil olmuş və böyük ordu həyatına vəsiqə almışlar [2].

Azərbaycan xalqının rastlaşdığı başlıca çətinliklərdən biri bu idi ki, hələ müstəqilliyini əldə etməzdən əvvəl Ermənistanın hərbi təcavüzünə məruz qaldı. Belə bir zamanda bütün xalqı öz ətrafında səfərbər edə biləcək şəxsiyyətin respublika rəhbərliyində olmaması Azərbaycanda toplanmaqda olan hərbi qüvvələri də güclü böhran qarşısında qoydu və ölkənin müstəqilliyinin məhvi təhlükəsi yarandı.

Böyük dövlətçilik təcrübəsinə malik dünya şöhrətli siyasətçi Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanı birinci ağır mərhələdə bir çox fəlakətlərdən xilas edə bildi. 1994-cü ildə əldə olunmuş atəşkəs nəticəsində hər iki tərəf öz dövlətçiliyini möhkəmləndirməyə və problemi özünün düzgün saydığı formada həllinə hazırlaşmağa başladı. Dağlıq Qarabağın və ətraf rayonların Ermənistan silahlı qüvvələri tərəfindən zəbt olunması qonşu dövlətin işğalçılıq siyasətinin nəticəsi idi və bu, beynəlxalq təşkilatların sənədlərində və böyük dövlətlərin münasibətində öz əksini tapdı. Heydər Əliyevin apardığı siyasət bir tərəfdən Dağlıq Qarabağ münaqişəsinin həllinə, digər tərəfdən isə Azərbaycanın bir dövlət kimi iqtisadi və hərbi qüdrətinin artmasına yönəldilmişdi [2].

Azərbaycan iqtisadiyyatında, kənd təsərrüfatında islahatların aparılması ölkəmizdə effektli iqtisadiyyatın qurulmasına gətirib çıxardı. Sahibkarlar təbəqəsinin formalaşması, iqtisadiyyatın Azərbaycanın təbii resurslarına uyğun olaraq qurulması öz bəhrəsini verməyə başladı. Əgər 1994-cü ildə Azərbaycanın dövlət büdcəsi 370 milyon dollar idisə, 2000-ci ildə artıq bu rəqəm 800 milyon dollara çatdı. Növbəti illərdə bu artım davam etdi və 2021-ci ilin dövlət büdcəsi 14 milyard 957 milyon dollar təşkil edir.

Bunu isə ancaq neft faktoru ilə bağlamaq olmaz. Bu, ilk növbədə, neft sənayesi ilə yanaşı qeyri-neft sektorunun inkişafına da ciddi əhəmiyyət verilməsi ilə mümkün oldu. Bu gün dünya

bazarlarına çıxarılan Azərbaycanın sənaye və kənd təsərrüfatı məhsulları, eləcə də səhiyyə, elm, bank, turizm xidmətləri artıq dünyanın diqqətini cəlb etməyə başlayıb.

Ermənistanın bütün cəhdlərinə baxmayaraq, dünya birliyi bir dövlətin başqa dövlətin ərazisinin işğalına və XXI əsrdə silah gücü ilə danışmaq prinsipini qəbul etmədi.

Bu proseslərdə ordu faktorunun rolu çox böyükdür. Ümumilikdə götürəndə, ordu faktoru hər bir dövlətin daxili və xarici siyasətinin güzgüsü sayıla bilər. Dövlətin və cəmiyyətin orduya münasibəti həmin dövlətin öz nüfuzuna, bu gününə və sabahına olan münasibətidir. Silahlı Qüvvələrin döyüş qabiliyyətinin yüksəldilməsi, peşəkarlığının artırılması fasiləsiz davam edən bir prosesdir. Döyüş hazırlığı məsələlərinə ciddi önəm verilməsinin nəticəsidir ki, Azərbaycan Silahlı Qüvvələri hazırda istər quruda, istər havada, istərsə də dənizdə hər hansı döyüş tapşırığını layiqincə yerinə yetirməyə qadirdir. Məlumdur ki, hər bir ordunun qüdrəti – onun döyüş qabiliyyəti ilə mənəvi gücünün vəhdətində reallaşır. Bu gün Azərbaycan cəmiyyətində, eləcə də orduda Ümummilli lider Heydər Əliyev tərəfindən hazırlanmış və elmi-nəzəri prinsipləri zamanın sınağından çıxmış mükəmməl hərbi vətənpərvərlik konsepsiyası mövcuddur. İstər sülh, istərsə də müharibə dövründə hərbi qulluqçularda Vətənə, xalqa, dövlətçiliyimizə sədaqət və məhəbbət hisslərinin möhkəmləndiriməsi, onların ümumdövlət mənafeləri ətrafında səfərbər edilməsi bu istiqamətdə aparılan fəaliyyətin əsas məqsədləridir. Hələ o dövrdə Azərbaycan ordusunun müasir NATO standartlarına uyğun olaraq qurulacağı tam aydın idi. Çünki ölkəmiz onların ən üstün olması qənaətində idi. Eyni zamanda Ulu öndər Heydər Əliyevin avrointeqrasiya siyasəti NATO ilə sıx əməkdaşlığı vacib edirdi. Bunun üçün Azərbaycanda yetərli potensial da mövcud idi [2].

Azərbaycanda ali hərbi məktəblər sisteminin yaradılması, onun tədris prosesinin NATO-ya üzv olan ölkələrin hərbi təhsil sisteminin üstünlüklərinə uyğun olaraq qurulması öz nəticəsini verməkdədir. Hazırda Azərbaycan ordusu ciddi, hazırlıqlı, vətənpərvər zabit kadrları ilə təchiz edilir, ordunun maddi-texniki bazası möhkəmləndirilir. Yüksək ixtisaslı milli hərbi kadr hazırlığı istənilən məkan və zaman şəraitində ordu quruculuğu prosesinin obyektiv tələbidir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, əgər Ümummilli lider Heydər Əliyev həmin illərdə respublikanın rəhbərliyində olsaydı, Ermənistanın Azərbaycana qarşı təcavüzünün qarşısı alınardı. Bu sözlərin doğru olduğunu Heydər Əliyev əvvəlcə Naxçıvanda fəaliyyət göstərdiyi vaxt, sonra Azərbaycan xalqının tələbi ilə respublika hakimiyyətinə qayıtdıqdan sonra gördüyü müstəsna işlərlə sübut etdi [4].

1991-ci il sentyabrın 5-də Müdafiə Nazirliyinin yaradılması haqqında qanunun qəbul edilməsinə baxmayaraq, respublika rəhbərliyi bu qərarların həyata keçirilməsi üçün ciddi səy göstərmirdi. Məhz belə şəraitdə Azərbaycan xalqı öz müstəqil dövlətinin məhv edilməsi təhlükəsi qarşısında üzünü Heydər Əliyevə tutaraq onu hakimiyyətə gətirdi. Yalnız Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı və Azərbaycan Respublikasının Prezidenti seçilməsi vəziyyəti kökündən dəyişdi, respublikamızda ordu quruculuğu sahəsində mühüm tədbirlərin həyata keçirilməsinə güclü təkan verdi [1].

Tarixi varislik ənənəsinə uyğun olaraq Ulu öndər Heydər Əliyevin 1998-ci il mayın 22-də imzaladığı fərmanla AXC dövründə ilk əlahiddə Azərbaycan korpusunun yaradıldığı gün – iyunun 26-sı Azərbaycan Respublikasının Silahl Qüvvələr Günü elan edilmişdir [1].

Məhz Ulu öndər Heydər Əliyevin 1999-cu il fevralın 20-də Silahlı Qüvvələrin Hərbi Akademiyasının yaradılması, 20 avqust 2001-ci ildə respublikamızda fəaliyyət göstərən hərbi məktəblərin statusunun artırılması və nəhayət, 17 avqust 2002-ci ildə Silahlı Qüvvələrə Yardım Fondunun yaradılması haqqında imzaladığı fərmanlar heç şübhəsiz, bu istiqamətdə əsaslı dönüş yaratdı.

Hazırda respublikamızın Silahlı Qüvvələri və qanunvericilikdə nəzərdə tutulmuş digər hərbi birləşmələr üçün müxtəlif kateqoriyadan olan hərbi kadrların hazırlanması Azərbaycan Ali Hərbi Məktəblərində, Silahlı Qüvvlərin Təlim və Tədris Mərkəzində, Hərbi Akademiyasında və digər hərbi təhsil müəssisələrində uğurla həyata keçirilir. 1997-ci ildən bu məktəblərdə NATO standartlarına uyğun tədris proqramı tətbiq olunur. Silahlı Qüvvələrin Hərbi Akademiyasında hərbi

qulluqçularla yanaşı dövlət orqanlarında çalışan yüksək vəzifəli şəxslərə müharibə ilə əlaqədar hərbi-strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlərin öyrədilməsi təşkil edilir. Ötən illər ərzində Azərbaycan Respublikası ilə xarici dövlətlər arasında hərbi sahədə əməkdaşlıq haqqında onlarla saziş, protokol və plan imzalanmışdır. Bu gün Azərbaycan Ordusu ən müasir silahlarla silahlanıb. Ordumuzun şəxsi heyəti üçün həmin silahlardan istifadə edilməsi təlimi həm ölkə daxilində, həm də ölkəmizdən kənarda keçirilir.

Ordumuzun möhkəmlənməsi istiqamətində Azərbaycanda Müdafiə Sənayesi Nazirliyinin yaradılması yeni mərhələnin əsasını qoydu. Azərbaycan bu gün nəinki hərbi əşya və arxa təminat təchizatçısıdır, artıq döyüş silahlarını da istehsal edir. Bu silahlar nəinki daxili tələbata yönəldilir, həm də dünya bazarlarına çıxarılır və ciddi rəğbətlə qarşılanır. Silahlı Qüvvələrimizin təminatının gücləndirilməsi, Dövlət büdcəsində hərbi xərclərin artırılması da əhəmiyyətli məqamlardandır.

Azərbaycanda hərbi quruculuq bu gün də yüksələn xətlə inkişaf edir. Bunun ən başlıca səbəbi isə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dövlət başçısı postunda fəaliyyətə başladığı ilk gündən Ümummilli liderimizin həyata keçirdiyi strateji əhəmiyyətli tədbirləri və ənənələri uğurla davam etdirməsi, o cümlədən, ordu quruculuğu işini prioritet elan etməsi ilə bağlıdır.

Ulu öndər Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında yer tutmuşdur. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ordu quruculuğunun dövlət quruculuğunun prioriet istiqamətinə çevrilməsi bu prosesin ahəngdarlığına və səmərəliliyinə zəmin yaratmışdır [5]. Ölkəmizin son illərdə dinamik inkişafı silahlı qüvvələrin büdcəsinin artması və nəticə etibarı ilə ordumuzun güclənməsi ilə müşayiət olunması cənab Prezidentin öz vədinə sadiq olduğunu təsdiq edir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordunun döyüş qabiliyyəti daha da yüksəlmiş, maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilmiş, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmışdır.

2020-ci ilin 27 sentyabrından 10 noyabr tarixinə qədər davam edən 44 günlük Vətən müharibəsi Azərbaycanın tarixi Zəfəri ilə başa çatdı, ölkənin ərazi bütövlüyü bərpa edildi! Bu tarixi qələbə, ilk növbədə, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin azad iradəsi və müzəffər Azərbaycan Ordusunun döyüş meydanında sərgilədiyi şücaəti ilə qazanıldı.

Bu gün artıq dünya müasir hərb sənətinə öz şərəfli imzasını atmış Azərbaycan Silahlı Qüvvələrinin yaranma tarixi bütün ömrünü xalqının xoşbəxt gələcəyi, azadlığı və müstəqilliyi uğrunda mübarizəyə həsr etmiş unudulmaz Heydər Əliyevin adı ilə sıx bağlıdır.

Ümummilli liderimizin müxtəlif illərdə Vətən, xalq, ordu, Qarabağ haqqında söylədiyi fikirlər bu gün də öz ziya dolu işığıyla xalqımızı, ordumuzu şanlı qələbələrə doğru aparır.

**İstifadə edilmiş ədəbiyyat**


1. Xilaskar (Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91 illiyinə həsr olunub). Bakı: "MTR" group mətbəəsi, 2014, 242 s.
2. Mirzəzadə A.N. Güclü və modern Azərbaycan ordusu Heydər Əliyev siyasətinin nəticəsidir. "Azərbaycan" qəz., 2011, 11 aprel, № 76, s.2
3. Rüstəmov İ. Heydər Əliyev Azərbaycan ordusunun qurucusudur. "Respublika" qəz., 2009, 12 dekabr, №270, s.7
4. Süleymanov M. Heydər Əliyev və Azərbaycanda ordu quruculuğu. "Azərbaycan ordusu" qəz., 2018, 2 may, № 33, s.1-3
5. Süleymanov M. Azərbaycan Silahlı Qüvvələri – 100. "Xalq qəzeti", 2018, 26 iyun

UOT 37.1

**Heydər Əliyev və Azərbaycan gəncliyinin multikultural tərbiyəsi**

*İlham Mabud oğlu Məmmədov,*
*Mingəçevir Dövlət Universiteti*

Azərbaycanın tarixində tolerantlığı və multikulturalizm ideyalarını siyasi müstəviyə və dövlət siyasəti səviyyəsinə Ulu öndər Heydər Əliyev çıxartmışdır. Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi (1969-1982) zamanı etnik-milli və mədəni məsələlərə xüsusi diqqət yetirilmiş, dövrün multimədəni dəyərlərinin inkişafında ciddi sıçrayış baş vermişdi.

Heydər Əliyev etnik-siyasi münasibətlər sisteminin mahir bilicisi kimi çox yaxşı başa düşürdü ki, "Azərbaycan" adlı məmləkəti öz canı və qanı bahasına, onu təmsil edən çoxmilliyyətli bir xalq – Azərbaycan xalqı yaratmışdır. Elə buna görə də, o milliyyətlərin hər birinin bu müqəddəs yurdda, torpaqda haqqı və hüququ olmasını "Azərbaycançılıq" ideyasında tərənnüm etmək kimi bir missiyanı öz üzərinə götürmüşdü. 1993-cü ildə Ümummilli lider Heydər Əliyev böyük siyasətə qayıdanda, həyata keçirdiyi ilk tədbirlərdən biri ölkənin etnik-siyasi birliyini təmin etmək üçün davamlı və təsirli tədbirlərin görülməsi oldu. O, "Azərbaycançılıq" ideyasını ali milli dəyər elan etdi. Unikal düha sahibi olan Heydər Əliyev bütün digər sahələr kimi, tarixi və etnik siyasət məsələlərini də gözəl bilirdi. O, tolerantlığı və multikulturalizmi dövlət siyasəti səviyyəsinə qaldırmaqla, son dərəcə gərgin etnik-siyasi və geosiyasi şəraitdə, nəinki multikultural təhlükəsizliyi təmin etdi, həm də etnik siyasətdə yeni bir etalon – "Azərbaycan multikulturalizmi" etalonu formalaşdırdı. 1995-ci ildə şəxsən Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış və qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında, ölkə ərazisində yaşayan bütün xalqların, etnik qrupların hüquq və azadlıqları bütöv şəkildə təsbit olundu ("Bərabərlik hüququ" (Maddə 25, Bənd 3), "Milli mənsubiyyət hüququ" (Maddə 44, Bəndlər 1 və 2),"Ana dilindən istifadə hüququ" (Maddə 45, Bəndlər 1 və 2) və s.).

Heydər Əliyev Azərbaycan multikulturalizmi modelinin assimilyasiya və izolyasiya kimi digər mümkün siyasi modellərdən üstün olmasını bütün dünyaya bəyan etdi. Bununla əlaqədar Ulu öndər Heydər Əliyev demişdi: "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq!"

2001-ci il noyabrın 9-10-u tarixlərində Bakı şəhərində, indiki Heydər Əliyev Sarayında, ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Bu hadisə bir daha sübut etdi ki, bütün dünyada yaşayan azərbaycanlıların "Azərbaycan" adlanan bir Ana Vətəni var və bu yurd, bu ocaq hamı üçün müqəddəsdir. Dinindən, dilindən və etnik-milli mənsubiyyətindən asılı olmayaraq, burada bütün azərbaycanlıların bəşəri və ilahi haqqı vardır.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən etnik-siyasi istiqamət yeni mərhələdə onun layiqli davamçısı – Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıl şəkildə inkişaf etdirilir. Multikulturalizmi Azərbaycan Respublikasının dövlət siyasəti, xalqımızın təbii həyat tərzi kimi qiymətləndirən Prezident İlham Əliyev bu siyasətin həyata keçirilməsində BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu təşkilatlarla əməkdaşlığa xüsusi önəm verir. Ümummilli lider Heydər Əliyevin Dünya azərbaycanlılarının möhkəm birliyi və həmrəyliyi, varlığında "azərbaycanlı ruhu" daşıyan fədakar insanların vəhdəti naminə həyata keçirdiyi ideyaları, əbədi və müqəddəs miras kimi qoyub getdiyi ənənələri, mədəni dəyərlərin reallaşdırılmasını müasir mərhələdə Prezident İlham Əliyev uğurla davam etdirir.

2015-16-cı tədris ilindən Azərbaycan Respublikasının bir sıra ali təhsil müəssisələrində "Multikulturalizmə giriş" (bakalavriat) və "Azərbaycan multikulturalizmi" (magistratura) fənləri tədris olunur. Bu isə multikulturalizm ideyalarının uğurla həyata keçirilməsini şərtləndirən amil kimi təzahür edir. Burada əsas məqsəd Azərbaycan gəncliyinə multikulturalizmi sosial hadisə, ideologiya, siyasət, nəhayət bir həyat tərzi kimi təqdim etmək, onun əhəmiyyətini əsaslı şəkildə təsvir etmək, dünya dövlətlərinin, həmçinin Azərbaycanın bu sahədə tarixi təcrübəsini tədqiq etmək,

gənclər arasında tolerantlıq ənənələrini, dözümlülük dünyagörüşünü möhkəmləndirmək və inkişaf etdirməkdir. “Multikulturalizmə giriş” kursunun müasir Azərbaycan Respublikasının ali təhsil müəssisələrində tədris olunması, ilk növbədə fundamental bir məqsədə əsaslanır. Bu məqsəd – müasir üslubda düşünən, təfəkküründə neqativ stereotiplərə yer olmayan, ekstremizmə, dini fanatizmə, qatı millətçiliyə “yox” deyən tolerant, mərhəmətli, intelligent, insansevər və yüksək səviyyədə vətənpərvər gənc azərbaycanlının, Azərbaycanın gələcəyinin real və potensial qurucuları olan çağdaş şəxsiyyətin tərbiyə edilməsi, onun həyatının intellektual məzmununun və ümumbəşəri dəyərlərlə zənginləşmiş mütərəqqi ideoloji konstruksiyalarının sistematik üsullarla yaradılmasıdır. Bu fundamental məqsədin reallaşdırılması isə ali təhsil sisteminin qarşısında multikultural tərbiyə ilə bağlı çətin və şərəfli vəzifələr qoyur:

1. Multikultural təlim keçən gənc, həmin təlimin predmetini, mahiyyətini, nəzəri-ideoloji əsaslarını, meydana gəlməsi səbəblərini, tarixi şərtlərini, əhəmiyyətini dərindən anlamalı, təlimin incəliklərinə nüfuz etməkdə çox maraqlı olmalıdır. Bununla bağlı fənni tədris edən müəllimdən çox güclü intellektual-psixoloji hazırlıq və səbr tələb olunur. Yalnız bu cür şərtlərlə dinləyiciyə mültikulturalizmin yüksək zəruriliyini, onun mütərəqqi əhəmiyyətini və alternativi olmayan mədəni siyasət olmasını aşılamaq mümkündür.

2. Təlim keçən gənc multikulturalizmin yeni təlim kimi ideoloji əsaslarını öyrənməklə yanaşı, tolerantlığın və multimədəni ənənələrin tarixini də yaxşı bilməlidir. Bu məqsədə çatmaq üçün isə fənni tədris edən müəllim tarix, fəlsəfə, ədəbiyyat, sosiologiya, etnoqrafiya və s. kimi təlimlərin üzvi sintezindən yaratdığı hərtərəfli, sistematik məlumatlara əsaslanmalıdır.

3. Multikulturalizmin mədəni siyasət kimi yeni cəmiyyətdə rolunu düzgün təyin etmək üçün onun bilavasitə ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı olmasını, ümumi rifahın multikultural mühitin yaradılmasında vacibliyini aşkara çıxarmaq tələb olunur. Bununla bağlı təlim verən müəllim ölkədə və dünyada mövcud olan iqtisadi vəziyyətlə yaxşı tanış olmalı, dövlətin iqtisadi siyasətini və sosial-mədəni sahələrdə strateji planlarını düzgün təhlil etməyi bacarmalıdır.

4. Multikulturalizm ideyalarının qlobal miqyasda inkişaf templərini, beynəlxalq sferada etnik-milli və dini-mədəni münasibətlərin tənzimlənməsini, multikultural mühitin xarici siyasətə təsirini öyrənmək, uğurlu multimədəni siyasətin necə vacib aksiya olmasını bir daha sübut edir. Bu vəzifənin uğurla həyata keçirilməsi ilə bağlı, təlim verən hər müəllimdən dünyada mövcud olan multimədəni modellər barədə dərin məlumatlara malik olması, dövlətin xarici siyasət prioritetlərini bilməsi və onları düzgün təfsir etməsi bacarığı tələb olunur.

5. Təlim verən müəllim Azərbaycan multikulturalizminin banisi, Ümummilli lider Heydər Əliyevin tarixdə misli görünməmiş möhtəşəm fəaliyyəti haqqında geniş və hərtərəfli məlumatlara malik olmalı, dövlətin multikulturalizm siyasətini inkişaf etdirmək istiqamətində çoxşaxəli fəaliyyətini, Prezident İlham Əliyevin ölkəmizdə multikultural və yüksək təşəkküllü demokratik mühit yaratmaq işində möhtəşəm xidmətlərini dərindən təhlil etməyi bacarmalıdır. Beləliklə, təhsildə multikulturalizm, eyni zamanda multikultural ekzistensializmi ciddi sosial mexanizmlər vasitəsilə tənzimləməyi və nəzarət altında saxlamağı nəzərdə tutur [1].

Bu gün ölkənin təhsil sistemində əsas diqqət təhsilin məzmununun modernləşdirilməsinə yetirilir. Bu tendensiya təhsil alanların intellektual baxımdan real və potensial imkanlarının artırılması üçün əlverişli şəraitin yaradılmasını nəzərdə tutur. Ən son məqsəd isə bu və ya digər sahələrdə yüksək elmi səriştəyə malik olan, intellektual və praktiki bacarıqlarını səfərbər etməyi bacaran mütəxəssislərin yetişdirilməsidir.

Beləliklə, müasir təhsil sisteminin başlıca vəzifəsi, təkcə konkret intellektual və praktiki bacarığa malik olan mütəxəssisləri yetişdirməklə bitmir. Əsas məqsəd cəmiyyət üçün, dünyanın elmi mənzərəsindən baş çıxaran, sosial-mədəni baxımdan fövqəladə şəkildə aktiv olan, çağdaş mədəniyyəti formalaşdırmağa və inkişaf etdirməyə qadir olan şəxsiyyətin yetişdirilməsidir. Məhz bu halda cəmiyyətin təhlükəsiz gələcəyi zəmanət altına alına bilər.

Müasir pedaqoji təlimlərə uyğun olaraq, çox səriştəli mütəxəssis ilk növbədə dünyanın bütün reallıqlarını düzgün qiymətləndirməyi bacaran və baş verən proseslərə liberal münasibət ifadə edən mədəni insandır [2]. Multikulturalizm məhz tolerant ruha sahib olan, cəmiyyətin sabitliyinin dayağı

kimi yetişən liberal şəxsiyyətin tərbiyə olunmasını müqəddəs vəzifəsi hesab edir. O, liberal ideologiyanın formalarından biri kimi, razılıq və sabitlik siyasətini reallaşdırmaq, mədəni plüralizmi qorumaq kimi təyinat almışdır.

Multikultural təhsil prosesində mədəniyyətlərin qarşılıqlı əlaqəsi və aktiv dialoqu prinsipi bütöv şəkildə reallaşdırılır. Multikultural təhsil multikultural şəxsiyyət formalaşdırır. Bununla əlaqədar multikultural təhsilin qarşısında aşağıdakı vəzifələr durur:

1. Rasizmin, ksenofobiyanın və diskriminasiyanın psixologiyasını öyrənmək, mənfi stereotiplərin yaradılması mexanizmlərini təhlil etmək.
2. Milli-mədəni mühiti çox dərindən anlamaq, ölkədə tolerantlığın səviyyəsini müəyyən etmək.
3. Tolerant atmosferin yaradılması üçün effektli nəzəri və praktiki mexanizmlər yaratmaq.
4. Gənclərin digər mədəniyyətlərlə sıx dialoq və qarşılıqlı əlaqə yaratmaları bacarığını və qabiliyyətini formalaşdırmaq.
5. Gənc nəsli millətlərarası sülh, dözümlülük və humanizm ruhunda tərbiyə etmək, onları tənqidi və yaradıcı düşünməyə cəlb etmək.

Ölkəmizin ali tahsil müəssisələrində elmin zəngin sirlərinə yiyələnən fərdin multimədəni və intellektual dəyərlərdən bəhrələnmiş ekstratolerant şəxsiyyət kimi yetişdirilməsi prosesi unikal, spesifik məzmunlu tədris texnologiyaları əsasında təhsil alanın multikultural orientasiyalı vərdiş və dəyərlərə yiyələnməsinə istiqamətlənmiş tədbirlər sistemi kimi təzahür edir. Beləliklə, multikultural təlim və tərbiyə, bir tərəfdən ölkəmizin ərazisində təmsil olunan çeşidli etnosların postmodern təhsil tələbatlarını ödəməli, digər tərəfdən insanları polietnik cəmiyyətdə yaşamaq üçün hazırlamalıdır [3].

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda multikulturalizm ideyalarının yüksək şəviyyədə həyata keçirilməsi istiqamətində möhtəşəm tədbirlər davam edir. Bu tədbirlərin fonunda isə əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş postmodern, tolerant, multikultural, vahid Azərbaycan və yüksək təşəkküllü monolit Azərbaycan milləti formalaşır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Бенхабиб С. Притязания культуры. Равенство и разнообразие в глобальную эру. М.: Логос, 2003, с. 9–31
2. Палаткина Г.В. Мультикультурное образование:современный подход к воспитанию на народных традициях. М.: Педагогика, 2002, №5, с.41–47
3. Палаткина Г.В. Мультикультурное образование: современный подход к воспитанию на народных традициях. М.: Педагогика, 2002, №5, с.175

UOT 330.34; 330.35

**Heydər Əliyev və Azərbaycan iqtisadiyyatının inkişafı**

*Mehriban Allahverən qızı Kərimova,*
*Mingəçevir Dövlət Universiteti*

Etibarlı siyasi sabitliyə və dinamik iqtisadi inkişafa malik olan, beynəlxalq aləmə inteqrasiya edən Azərbaycan bu gün müstəqil bir dövlətdir. Dünya birliyi artıq Azərbaycanı öz sözünü mötəbər tribunalardan deməyə qadir olan, haqlı mövqeyini qorumağı bacaran və iqtisadi cəhətdən yüksək potensiala malik olan müstəqil bir dövlət kimi tanıyır. Qeyd etdiyimiz bu mövqeyə çatmaqda, dünya miqyasında gənc dövlətimizin tanınmasında Ulu öndərimiz Heydər Əliyevin müstəsna rolu danılmazdır.

Hər bir ölkənin dövlət başçısı xalqın mənafeyini dəqiqliklə dəyərləndirməyə qadir olan, iqtisadi və təbii ehtiyatlardan qənaətlə və səmərəli şəkildə istifadə etməyi bacaran, bu resursları həm əhalinin maddi rifah halının yaxşılaşdırılmasına və həm də dövlətçiliyin ikişafına yönəltməyi bacaran mükəmməl şəxs olmalıdır. Bu baxımdan ölkəmiz çox xoşbəxtdir ki, tarix bizə H.Əliyev kimi, dünyamiqyaslı dahi şəxsiyyət, hər cür çətinlikləri aradan qaldırmağa qadir olan, qısa bir zaman kəsiyində Azərbaycan dövlətini hüquqi, dünyəvi, demokratik inkişaf yoluna çıxaran dövlət başçısı bəxş etmişdir.

Dahi rəhbər elə müstəqilliyimizin ilk illərindən başlayaraq, Azərbaycan dövlətini, ölkə iqtisadiyyatını yaranmış vəziyyətdən xilas edilməsi istiqamətində önəmli addımlar atdı, ölkəmizin iqtisadi yüksəlişini bərpa etmək üçün təxirəsalınmaz tədbirlər işləyib hazırladı. Postsovet ölkələrinin iqtisadi əlaqələri dağıldıqdan sonra iqtisadiyyatın yenidən dirçəldilməsi üçün ölkəmizin zəngin yeraltı və yerüstü təbii sərvətlərindən səmərəli istifadə edilməsi, həmçinin milli məhsulların xarici bazarlara çıxışına şəraitn yaradılması olduqca qarşıda duran ən prioritet məsələ idi.. Bu məqsədlə Azərbaycanın zəngin olan neft ehtiyatlarının mövcudluğunu diqqət mərkəzinə alan Ulu öndərimiz Heydər Əliyev elə ilk danışıqlara başladığı vaxtdan bu prosesə ARDNŞ-nin birinci vitse-prezidenti, həmçinin millət vəkili İlham Əliyevi də cəlb etdi. Bununla da, Prezident İlham Əliyev neft strategiyasının yenidən işlənib hazırlanmasının və uğurla həyata keçirilməsi sahəsində iştirak edən ən fəal simalardan biri oldu.

Neft strategiyasının əsası 1994-cü ilin sentyabr ayında “Əsrin müqaviləsi”nin imzalanması ilə qoyuldu. Ümummilli lider H.Əliyevin qətiyyətli addımı, güclü iradəsi sayəsində imzalanan bu müqavilə ölkəmizin gələcək sosial-iqtisadi inkişafının təməli oldu. İqtisadiyyatın bütün sahələri üzrə Ulu öndərimizin rəhbərliyi ilə islahatlar mərhələli şəkildə həyata keçirilməyə başladı. Ulu öndərin hakimiyyətə yenidən qayıtması ilə iqtisadiyyatın bütün sahələrində yeni iqtisadi yüksəliş başlandı. Azərbaycan iqtisadiyyatına xarici investisiyalar cəlb olunmaqla elə ilkin mərhələdə gələcək müstəqil, güclü iqtisadi siyasətin yaradılması və həyata keçirilməsi üçün şərait və zəmin yaradıldı. Bu siyasətin əsas məqsədi və mahiyyəti müxtəlif mülkiyyət formaları əsasında yeni yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid, o cümlədən dünya iqtisadiyyatına inteqrasiya oldu.

Azərbaycan Respublikasının milli iqtisadiyyatının inkişaf sürəti neft strategiyası ilə başlayaraq, növbəti dövrlərdə daha geniş miqyasda davam etdirildi. Əldə olunmuş makroiqtisadi sabitlik, sənayedə, digər sahələrdə əldə edilmiş iqtisadi göstəricilərin artımı, genişmiqyaslı həyata keçirilən iqtisadi islahatların ilkin nəticələri aparılan siyasətin nə qədər düzgün olduğunu və Azərbaycanın istiqamət götürdüyü bazar iqtisadiyyatı yolunda inamlı addımlarını bir daha təsdiq etdi. Ən başlıcası isə, bu dövrdə resrublikamızda aparılan müstəqil dövlət quruculuğunda iqtisadi islahatların və inkişafın yeni bir modeli, yəni Azərbaycan modeli yaradıldı. İqtisadi islahatların mühüm istiqamətlərindən biri olan özəlləşdirmə prosesi uğurla həyata keçirildi, o cümlədən 1996-cı ildən etibarən ümumi daxili məhsul istehsalı artmağa başladı. Təxirəsalınmaz tədbirlər nəticəsində ölkəmizdə 1994-1995-ci illərdə, bu gün əldə etdiyimiz nailiyyətlərin təməli qoyuldu, 1996-cı ildən etibarən iqtisadiyyatda dirçəliş dövrü başladı. Heydər Əliyev sənayenin inkişafı ilə bərabər, respublikada kənd təsərrüfatının da inkişaf etdirilməsinə xüsusi diqqət yetirdi. Bu diqqətin nəticəsi olaraq ölkəmizdə 40-dan çox normativ-hüquqi akt qəbul edildi, həmçinin kənd təsərrüfatı məhsullarının satış qiymətləri tam sabitləşdi və idxal-ixrac əməliyyatlarında baş verə biləcək bütün maneələr aradan qaldırıldı.

H.Əliyev belə bir fikir söyləmişdir ki, “İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir”. Bu sözlər bu gün də, gələcəkdə də öz aktuallığını qoruyub saxlayacaqdır. İqtisadi islahatların həyata keçirilməsində Ümummilli liderimizin atdığı qətiyyətli addımlar nəticəsində az bir zamanda geniş beynəlxalq dəstək aldı. Dünya Bankı və Beynəlxalq Valyuta Fondu tərəfindən Azərbaycanda həyata keçirilən iqtisadi islahatlara dair proqram hazırlandı və bununla ölkəmizə maliyyə yardımının göstərilməsinə başlanıldı. Bu beynəlxalq maliyyə-kredit institutları ilə sıx əməkdaşlıq zamanı hazırlanmış olan sabitləşdirmə proqramına uyğun olaraq, iqtisadiyyatın liberallaşdırılmasına yönəldilən radikal islahatlar həyata keçirilməyə başladı. Büdcə-vergi, çevik və sərt pul-kredit

siyasətinin aparılması, xarici iqtisadi fəaliyyətin, qiymətlərin, valyuta bazarının sərbəstləşdirilməsi, həmçinin xarici kapitalın ölkəmizə cəlb olunması ilə əlaqədar olaraq, respublikamızda makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin olunmasına nail olundu.

Ümummilli lider bütün fəaliyyəti dövründə əsas bir ideyanı, məqsədi əlində rəhbər tuturdu və qeyd edirdi ki, təkcə nefti hasil edib onu nəql etmək və bunun nəticəsində vəsait əldə etmək deyil. Bizim məqsədimiz neftdən əldə olunan bütün mənfəətləri siyasi, iqtisadi məqsədlərə yönəltməklə yanaşı, Azərbaycan əhalisinin gələcək mənafeyinə və rifahına yönəltməkdir. Beləliklə, aparılan liberal islahatlar, liberallaşma siyasəti, özəl sektora dövlətin maddi və mənəvi dəstəyi, iri regional layihələrin reallaşdırılması və s. bu kimi aparılan tədbirlər milli iqtisadiyyatımızın inkişafını gündən-günə daha da gücləndirirdi. Bütün bu sadalananlar ölkə iqtisadiyyatında davamlı və dinamik inkişafa nail olunması üçün ciddi təməl hesab olunur. İqtisadi sektorda böyük nailiyyətlər əldə edən respublikamız daha beynəlxalq aləmdə öz layiqli yerini tutaraq, dünya birliyi tərəfindən öz haqlı mövqeyinin tanınmasına nail olmuş və olunmaqda da davam edir.

Belə ki, Ulu öndərin adını daşıyan Bakı-Tbilisi-Ceyhan neft boru kəməri vasitəsi ilə Azərbaycanın dünya bazarlarına neftinin çıxarılması ilə bərabər, həm də "İpək yolu"nun, türkdilli ölkələrin əsas magistral kəməri statusunu qazanmışdır. Neft kəmərləri sisteminə BTC dünya "arteriya"sı kimi daxil olmuşdur. Eyni zamanda, bu neft boru kəmərinin ixrac üçün əsas iqtisadi əhəmiyyəti ilə yanaşı, onun siyasi rolunun olması da danılmaz faktdır. Bu neft kəməri vasitəsi ilə Azərbaycan dövlətinin dünya xalqları ilə əlaqələrinin yenidən qurulması imkanına təkan verərək, onun iqtisadi və siyasi baxımdan inkişaf etməsinə, xarici siyasətinin güclənməsinə, həmçinin də beynəlxalq aləmdə imicinin artmasına səbəb olmuşdur.

Təkcə BTC Azərbaycan üçün deyil, həm də enerji təhlükəsizliyi sisteminin beynəlxaq aləmdə, neft ixracı üçün ölkəmiz ilə tərəfdaşlıq edən dövlətlər üçün neft boru kəmərinin əhəmiyyəti olduqca vacibdir.. Azərbaycan bu gün sürətlə beynəlxalq aləmə inteqrasiya etmiş, dinamik iqtisadi inkişafa, həmçinin siyasi sabitliyini etibarlı təmin etmiş müstəqil bir dövlətə çevrilmişdir. Daha Azərbaycan dövləti öz sözünü mötəbər kürsülərdən deməyə qadir olan, haqlı mövqeyini bildirib, onu qorumağa və zəngin bir iqtisadi potensiala malik olan bir dövlətdir. H.Əliyevin ölkəmizə müxtəlif dövrlərdə rəhbərlik etdiyi vaxtlarda həyata keçirdiyi strategiya iqtisadiyyatın bütün sahələrində əldə olunmuş uğurların əsasını, məlum səbələrdən müstəqilliyin ilk illərində böhran vəziyyətinə düşmüş Azərbaycan iqtisadiyyatında yüksəlişə nail olunmasına, aparılan dövlət siyasətinin güclü və aparıcı mövqeyə qədər yüksəlməsinə, çoxəsrlik və qədim tarixi mədəniyyətə malik olan millətimizin bütün dünyada tanıdılmasına səbəb olmuşdur. Ölkəmizin bu qədər uğurlara nail olunmasına səbəb olan başlıca amil Ümummilli lider Heydər Əliyevin islahatçılıq məharəti və yüksək idarəçilik keyfiyyətlərinə malik olması nəticəsində əldə edilməsi danılmaz faktdır. Qeyd edək ki, H.Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1970-1980-ci illərdə ölkəmizin kənd təsərrüfatına qoyulan sərmayə, 1920-1970-ci illərdə qoyulmuş sərmayədən daha çox olmuşdur. Bu da kənd təsərrüfatının dinamik inkişafının əsasını qoyaraq, hələ o zaman Azərbaycanın digər müttəfiq respublikalardan önə keçməsinə səbəb olmuşdur.

Bütün bunlar müasir bazar iqtisadiyyatının bir sıra səciyyəvi xüsusiyyətləri ilə müəyyən edilir ki, bu da inteqrasiya və qloballaşma ilə əlaqədardır. Yəni qeyd etdiyimiz bu faktorların təsiri ilə qlobal iqtisadi proseslərə daha yaxından inteqrasiya etməyi, rəqabətqabiliyyətli məhsullarla dünya bazarına çıxmağı, qloballaşma prosesinin təsiri ilə formalaşan ictimai-siyasi və sosial-iqtisadi proseslərdə milli və dövlətçilik prinsipləri çərçivəsində fəal iştirak etməklə milli iqtisadiyyatımızın davamlı inkişafının zəruri şərtinə çevrilmişdir. Ulu öndərin strategiyasının uğurla reallaşdırılması nəticəsində, Azərbaycan dövləti müstəqilliyinin möhkəmləndirilməsinə, ölkədə davamlı və tarazlı inkişafın təmin edilməsinə, regionların sosial-iqtisadi inkişafına, iqtisadi təhlükəsizliyə, həmçinin onun enerji, ərzaq, nəqliyyat və s. bu kimi sahələrinin daimi təminatı məqsədilə atılan addımları, əldə etdiyi nəticələri ilə, inanılmaz dərəcədə iqtisadi uğurları ilə bərabər beynəlxalq aləmdə nüfuzlu söz sahibi olmasına çevirmişdir.

Müstəqil Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyasının nəticəsi olaraq, bütün proseslər dövlətçilik prinsiplərinə və xalqımızın milli mentalitetinə uyğun olaraq, nüfuzlu

beynəlxalq təşkilatların, beynəlxalq birliyin münasibətlərinə əsaslanaraq, qloballaşma dövrünün müasir tələbləri səviyyəsində qurulur. Ümummilli liderimiz Heydər Əliyevin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə reallaşan regional və iri yerli layihələr sayəsində Azərbaycan dövləti öz iqtisadi nəticələrinə görə aparıcı dövlətlər sırasındadır. Təbiidir ki, davamlı olaraq həyata keçirilən və keçirilməkdə olan bütün bu tədbirlərin, proqramların, layihələrin arxasında Heydər Əliyev siyasəti dayanır. Ona görə də, inamla, düşünmədən deyə bilərik ki, Heydər Əliyev milli iqtisadiyyatın inkişaf strategiyasının banisidir.

**İstifadə edilmiş ədəbiyyat**


1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Elektron külliyyat. httr://heydaraliyev.rreslib.az
2. https://files.preslib.az/
3. http://yeniazerbaycan.com/
4. https://www.stat.gov.az/
5. http://yap.org.az/


UOT 32

**Azərbaycanın təhsil siyasətində tarixi varislik**

*Mətanət Rizvan qızı Yusifova,*
*Mingəçevir Dövlət Universiteti*

1918-ci il mayın 28-də Azərbaycanda ilk demokratik parlamentli respublika olan Azərbaycan Cümhuriyyəti quruldu və bu, Azərbaycan xalqının tarixinə mühüm və əhəmiyyətli bir hadisə kimi daxil oldu. Yeni yaranmış Azərbaycan Cümhuriyyəti dövlət idarəetməsində və ictimai proseslərdə iştirak etmələri üçün ixtisaslı milli kadrlara böyük ehtiyac var idi. Bu kadrların hazırlanması məqsədilə Cümhuriyyət dövründə Azərbaycandan xarici ölkələrin ali təhsil müəssisələrinə 100-dən artıq tələbə göndərilmişdi. Onlardan 23-ü İtaliya, 45-i Fransa, 2-si Almaniya, 10-u İngiltərə, 9-u Türkiyə, 12 nəfəri isə süquta uğramış Rusiya imperiyasının müxtəlif ali təhsil müəssisələrinə (Moskva, Kiyev, Don, Xarkov və digər şəhərlər) göndərildilər. 1919-cu ilin sentyabr ayında AXC-nin Təhsil Nazirliyi tərəfindən irəli sürülən bu layihənin büdcəsi hər tələbəyə 41 min rubl (nəqliyyat xərcləri daxil olmaqla) 4 milyon rubl təşkil edirdi [3].

Türkiyə və Rusiyaya təhsil almaq üçün göndərilənlər istisna olmaqla, 78 gənc Parisdə Əlimərdan bəy Topçubaşovla görüşdülər. O, gənclərə müraciətlə geniş nitq söylədi. Qeyd etmək lazımdır ki, dövlət hesabına göndərilən tələbələrin hər birindən iltizam alınırdı ki, ali təhsilini başa vurub geriyə dönən milli kadrlar dörd il ərzində hökumətin onlar üçün təyin etdikləri işdə müvafiq ixtisas üzrə işləməlidirlər (1 sentyabr 1919-cu ildə Azərbaycan Cümhuriyyətinin Parlamenti tərəfindən qəbul olunmuş Qanunun 2-ci bəndində nəzərdə tutulurdu).

Azərbaycanlı tələbələrin Avropada təhsil almasında həmin ölkələrin nümayəndələri də maraqlı idilər. Məsələn, Azərbaycan Cümhuriyyətinin Maarif Nazirliyindən Xarici İşlər Nazirliyinə ünvanlanan 16 mart 1920-ci il tarixli 3973 saylı məktubda qeyd edilirdi ki, İtaliyanın Qafqazdakı hərbi missiyası azərbaycanlı tələbələrin Qərbi Avropaya göndərilməsi zamanı meydana gələn bütün texniki problemlərin həllində bilavasitə iştirak etmişlər. Buna görə missiyanın rəhbəri Q.Qabbe başda olmaqla hərbi missiya nümayəndələrinə Xalq Maarif Nazirliyi adından təşəkkür ünvanlanmışdı. Bu dövrdə tələbələrin xaricdə qalması və yaşayış şərtləri ilə bağlı bir sıra maddi və texniki çətinliklər meydana gəlirdi. Bu haqda onlar Azərbaycan hökumətinin xaricdəki nümayəndəliklərinə məktubla müraciətlərində bildirirdilər. Xüsusilə, Avropada təhsil alan tələbələrimizin üzləşdiyi bir sıra maddi çətinliklərin həllində Cümhuriyyətin diplomatik

nümayəndəlikləri xüsusi operativlik nümayiş etdirirdilər. Göndərilən gənclər 6 ay ərzində təqaüd və təhsil xərcləri üçün pul alırdılar.

Azərbaycan Cümhuriyyətinin süqutundan sonra yeni yaranmış Sovet Hakimiyyəti ilk dövrlərdə tələbələrin maddi-texniki təminatı istiqamətində bir sıra addımlar atmışdı. Belə ki, xaricdə olan 83 tələbənin siyahısı və təhsil aldıqları ölkələr müəyyən edildi. Tələbələrə maddi yardım göstərilməsi üçün sənədlər tərtib edildi. Belə sənədlərdən birində göstərilir ki, Almaniyada təhsil alan bir qrup azərbaycanlı tələbə “Almaniyada ikmali-əqil edən Azərbaycan tələbələrinin Mərkəzi Birliyi Komitəsi” yaratmışdılar. Onlar Almaniyada təhsillə bağlı rastlaşdıqları maddi çətinliklərin aradan qaldırılması üçün mövcud hakimiyyətə müraciət etmişdilər və N.Nərimanovun göstərişinə əsasən, tələbələrin ilkin tələbatlarının qarşılanması üçün Komitəyə min marka pul göndərilmişdi. N.Nərimanovun Moskvada rəhbər vəzifəyə aparıldıqdan sonra vəziyyət kəskin dəyişdi: yeni rəhbərlər tələbələri “etibarlı” və “etibarsız” olaraq iki hissəyə ayırdılar. Bu, Cümhuriyyətin çətin xarici siyasi vəziyyəti dövrü idi: böyük dövlətlər müstəqil Azərbaycanın yaradılması ilə barışa bilmirdilər, Rusiyada hakimiyyətə gəlmiş kommunist rejimi Rusiya imperiyasının əvvəlki ərazilərini öz hakimiyyəti altında bərqərar etmək istəyirdi. Nəticədə tələbələrə təqaüd göndərilməsi tədricən dayandırıldı.

Milli kadrların hazırlanması prosesində Azərbaycan Cümhuriyyətinin maarifçilik siyasətinin növbəti mərhələsini tələbələrin bitirdikləri ali təhsil üzrə Azərbaycanda işləmək üçün Maarif Nazirliyinə müraciətləri əks etdirirdi. Lakin Cümhuriyyətin süqutu bu siyasətin həyata keçirilməsinə mane oldu. Bir müddət sonra Azərbaycanın gələcək taleyini düşünən dövlət xadimləri və ziyalılarımız tərəfindən bu siyasət yenidən canlandırıldı. Azərbaycanın SSRİ tərkibində, kommunist rejimində mövcud olduğu dövrdə Azərbaycan SSR-də müxtəlif ixtisaslar üzrə təhsil alan milli kadrlarımız SSRİ-nin aparıcı təhsil müəssisələrinə göndərilməklə ölkənin həyatında mühüm rol oynayan peşəkar mütəxəssislər kimi yetişdirilirdilər.

Azərbaycanın təhsil siyasətinin digər bir istiqaməti kimi 1969-cu ildə Çexoslovakiya (indiki Çexiya) və Polşadan olan tələbələrlə tikinti dəstələri üzrə mübadilə aparıldı. Azərbaycan KP MK-nın 1969-cu il 27 may tarixli 101 saylı qərarına əsasən Azərbaycan Neft-Kimya İnstitutu, Azərbaycan Politexnik İnstitutu və Azərbaycan Dövlət Universiteti Çexoslovakiyanın Kimya-Texnologiya İnstitutu, Çexoslovakiya Pedaqoji İnstitutu və Polşa Politexnik İnstitutu ilə birgə tələbə tikinti dəstələri yaradaraq, Azərbaycanın müxtəlif bölgələrində praktik fəaliyyətlə məşğul oldular. Qeyd etmək lazımdır ki, Azərbaycan Neft-Kimya İnstitutu ilə Almaniyanın Frayberq Mədən Akademiyası, Drezden Texniki Universiteti, Qreyfsvaldt Universiteti və Macarıstanın Mişkolts Politexnik İnstitutu arasında istehsalat təcrübəsi çərçivəsində ötən əsrin 70-ci illərində mütəmadi olaraq tələbə mübadiləsi aparılırdı [1].

Ulu öndər Heydər Əliyev Azərbaycan SSR KP MK-nin I katibi vəzifəsinə təyin olunandan sonra tələbələrimizin aparıcı təhsil müəssisələrində tədris və ixtisasartırma fəaliyyəti yeni mərhələyə qədəm qoydu. Bu dövrdən etibarən təhsil siyasəti ön plana çəkildi. Heydər Əliyev bu haqda deyirdi: “Mən 14 iyun 1969-cu ildə Azərbaycana rəhbər seçildikdən sonra, ilk növbədə, təhsillə məşğul olmağa başladım. 1918-ci ildə Azərbaycanda ilk Demokratik Respublikanın qurulduğu zaman onun qurucularının əksəriyyəti Moskvada, Sankt-Peterburqda təhsil almışdılar. Demokratik Respublikanın tərkibində azərbaycanlılarla yanaşı, digər xalqların nümayəndələri – ruslar, polyaklar, yəhudilər də vardı. Çünki müəyyən sahələrdə yüksəktəhsilli mütəxəssislərə ehtiyac var idi”. Təkcə 1972-ci ildə SSRİ-nin aparıcı təhsil müəssisələrinə 116 yer üzrə 400-dən artıq I kurs tələbəsi yönləndirilmişdir; müvafiq olaraq, Moskva şəhəri üzrə 44 yerə 135 nəfər, Leninqradın (Sankt-Peterburq) təhsil müəssisələrinə 32 yer üzrə 84 nəfər, digər İttifaq şəhərlərinə 40 yer üzrə 181 nəfər göndərilmişdir. Azərbaycan SSR Ali və Xüsusi Orta İxtisas Təhsil Nazirliyinin imzaladığı 14 İyun 1973-cü il tarixli 234 saylı əmrdə SSRİ-nin qabaqcıl ali və xüsusi orta ixtisas təhsil müəssisələrinə I kurs üçün 131 nəfərin, hazırlıq mərhələsinə 16, digər ittifaq ölkələrinin təhsil müəssisələrinin yuxarı kurslarına keçid üçün 35 nəfərlik yer ayrılmışdır. Bu ayrılmış yerlər həm müxtəlif ixtisaslar üzrə, həm də geniş və hərtərəfli sahələri əhatə etməklə SSRİ-nin bütün aparıcı təhsil müəssisələri üçün nəzərdə tutulurdu. Eyni zamanda, Azərbaycanın ali təhsil

müəssisələri də digər ittifaq ölkələrindən tələbə qəbul edirdi. Məsələn, təkcə 1973-cü ildə Gürcüstan, Ermənistan və Türkmənistandan olan I kurs tələbələrinə Azərbaycanın ali təhsil müəssisələrində ümumilikdə 47 yer ayrılmışdı [1].

Heydər Əliyev təhsil müəssisələrinə göndərilən azərbaycanlı tələbələrin yüksəkixtisaslı kadr kimi gələcəkdə Azərbaycanın siyasi-iqtisadi və ictimai həyatında mühüm rol oynaya biləcəklərindən əmin idi. Ümummilli lider onları gələcəyin təminatçıları hesab edirdi. Həmin dövrdə ölkə üçün "defisit" olan ixtisas sahələri üzrə kadr hazırlığına xüsusi diqqət yetirilməyə başlandı. Bu proses nəticəsində 70-ci illərdə Azərbaycandan yüzlərlə tələbə SSRİ-nin aparıcı təhsil ocaqlarında yüksəkixtisaslı kadr kimi yetişmək imkanı qazanırdı. Belə ki, təkcə 1973-cü ildə Moskva və Leninqradın (Sankt-Peterburq) aparıcı təhsil müəssisələrinə 135 nəfər ixtisaslı kadr təhsil almaq üçün göndərilmişdi.

Təhsil siyasəti sonrakı illərdə də davam etdirilirdi. 1976-1980-ci illərin beşillik planına əsasən, Azərbaycanın ali təhsil müəssisələrinin pedaqoji heyətinin ixtisasartırması məqsədilə Moskva Dövlət Universitetinə 406 müəllim göndərilmişdi. 1976-cı ildə azərbaycanlılar üçün SSRİ-nin ali təhsil müəssisələrində ümumilikdə 653 yer ayrılmışdı. 70-ci illərdə Azərbaycan SSR-dən olan tələbələr təkcə ittifaq daxilində deyil, ittifaqdan kənarda yerləşən əcnəbi ölkə müəssisələri ilə də tələbə mübadiləsi aparırdı. Bu mübadilə müxtəlif formalarda həyata keçirilirdi. Misal olaraq, 1969-cu ildə Çexoslovakiya və Polşadan olan tələbələrlə tikinti dəstələri üzrə mübadilə aparılırdı. Onlar Azərbaycanın müxtəlif bölgələrində praktiki fəaliyyətlə məşğul olurdular.

Azərbaycanın təhsil siyasətinin növbəti mərhələsi Heydər Əliyevin İttifaq miqyasında rəhbər vəzifəyə aparılması ilə başladı. O, Moskvada işlədiyi müddətdə Sovet İttifaqının ən iri və məşhur universitetlərində azərbaycanlı tələbələrin ali təhsil almasına şərait yaradırdı. Nəticədə 1982-1987-ci illərdə də azərbaycanlı tələbələrin respublikada iqtisadiyyatın müxtəlif sahələri üçün ehtiyac duyulan yüksək ixtisaslı mütəxəssislər kimi yetişdirilib göndərilməsi vəzifəsi həyata keçirildi. Ümummilli lider o dövrdə də bir fikri təkrar edirdi ki, vaxt gələcək, bu kadrlar müstəqillik qazanmış Azərbaycana lazım olacaqlar [2].

Nəhayət, Azərbaycan müstəqillik qazandı. Heydər Əliyev ikinci dəfə Azərbaycana siyasi hakimiyyətə qayıtdı və Cümhuriyyət dövrünün təhsil siyasətinin yeni mərhələsini davam etdirdi. Artıq azərbaycanlı gənclər dünyanın ən yaxşı ölkələrində olan qabaqcıl universitetlərdə müasir təhsil sisteminin bakalavr, magistratura və doktorantura pillələrində təhsil almağa başladılar. Bu tarixi varislik bir dövlət siyasəti kimi indi də davam etdirilir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan tarixi. I cild / Z.M.Bünyadov və İ.B.Yusifovun redaktəsi ilə. Bakı, 1994

2. İsayev N., Rüstəmov F. Azərbaycan maarifçiliyinin milli-mədəni yeniləşmə ideyaları və müasirlik // "Sivilizasiya" jurnalı, 2016, №1

3. Назарли А.Э. Народное образование в Азербайджанской Республике (1918-1920 гг.). Баку, 2008

UOT 323

**Heydər Əliyev erası: daxili siyasət və emi-texniki tərəqqinin yeni mərhələsi**

*Mətanət Məmməd qızı İsmayılova,*
*Mingəçevir Dövlət Universiteti*

Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasına birinci rəhbərliyi dövrü qlobal miqyasda elmi-texniki tərəqqinin yeni mərhələsinə təsadüf edir. XX əsrin 50-ci illərinin əvvəllərində vüsət almağa başlamış, elmin və texnikanın tarixdə misli görünməmiş templərlə

inkişafına əsaslanan bu mütərəqqi hadisə dünya miqyaslı iqtisadi artımı və bəşəri rifahın sürətlə yüksəlməsini nəzərdə tuturdu. Bu dövrdə təzahür edən elmi-texniki tərəqqi özündə həm təkamül həm də inqilab kompenentlərini ifadə edirdi. Kosmik fəzanın tədqiq edilməsi və öyrənilməsi, atom enerjisindən dinc məqsədlər üçün istifadə olunması, kompüterizasiya, gen mühəndisliyi və digər elmi-texniki yeniliklər elmi-texniki inqilabın bu mərhələsinin əlamətləri idi. Bütün bunlar sözügedən dövrdə insan əməyinin xarakterini köklü şəkildə dəyişdi, yeni texniki və texnoloji sistemlərin yaranması idarəçiliyin yeni üsullarının və metodlarının ərsəyə gəlməsinə səbəb oldu. Telekommunikasiya şəbəkələri, informasiyanın emalı, ona nəzarət edilməsi və ötürülməsi üzrə sürətlə işləyən sistemlər yaradıldı [4].

Heydər Əliyevin 1969-cu il iyul ayının 14-də Azərbaycan Respublikasına rəhbərliyə başlayanda elmi-texniki tərəqqinin nailiyyətlərindən xalqın rifahı və gələcəyi naminə istifadə etməyi qarşısına tarixi vəzifə kimi qoydu. Artıq XX yüzilliyin 80-ci illərinin əvvəllərində Heydər Əliyevin həyata keçirdiyi reformasiya və texniki innovasiya siyasəti sayəsində Azərbaycan elmi-tüxniki tərəqqinin müasir nailiyyətlərindən bəhrələnmiş bir məmləkətə çevrildi. Bu dövrdə Ulu öndərin həyata keçirdiyi daxili siyasətin prioritetlərini cəmiyyətin rifah səviyyəsini durmadan yüksəltməyə istiqamətlənmiş, bürokratizmdən, nepotizmdən və korrupsiyadan tamamilə azad olan idarəçilik sisteminin yaradılması ideyasının gerçəkləşdirilməsi təşkil edirdi. Bununla bağlı Heydər Əliyevin reallaşdırdığı tədbirlər sırasında cəmiyyətin sosial-mənəvi, iqtisadi-siyasi və mədəni əsaslarını sarsıdan neqativ əlamətlərə və dağıdıcı ünsürlərə qarşı olduqca sərt, hər hansı kompromisi və güzəşti istisna edən tədbirlər də var idi. Nəticədə Ümummilli lider tərəfindən formalaşdırılmış siyasi kurs və onun başlıca prioritetləri qısa müddət ərzində cəmiyyət həyatının bütün sahələrində, o cümlədən elmi-texniki innovasiyalara əsaslanan elmdə, təhsildə və iqtisadiiyyatda möhtəşəm nəticələr verməyə başladı. Heydər Əliyevin 34 illik siyasi fəaliyyəti dövründə Azərbaycan dövlətinin yaradıcısı və qurucusu kimi həyata keçirdiyi tədbirlərin əsas məqsədi zamanın sərt imtahanları qarşısında sağ qalmaq, ölkə vətəndaşlarının davamlı inkişafını, onların layiqli həyatını təmin etmək üçün müasir elmin, texnikanın və texnoloji yeniliklərin bütün əlçatan nailiyyətlərindən istifadə etməklə müvafiq konstruksiyalar və adekvat strukturlar yaratmaq idi. Bu siyasət yüksək elmi-texniki innovasiyalara əsaslanan cəmiyyətin qurulması ideyasını dah da aktuallaşdırmışdı.

Heydər Əliyevin sosial siyasətinin əsas qayəsi ümumi rifah cəmiyyəti yaratmaq idi. Belə cəmiyyətin yaradılmasında məqsəd ölkədə iqtisadi və sosial sabitliyə, vətəndaşların istiqbalının zəmanət altına alınmasına nail olmaq cəhdləri təşkil edirdi. Beləliklə, Ulu öndər Heydər Əliyevin Azərbaycana həm birinci, həm də ikinci rəhbərliyi dövründəki siyasi fəaliyyətinin və xalqın rifahı naminə apardığı mübarizənin qızıl xəttini innovasiyalara əsaslanan sosial tərəqqini milli istiqbalın təmin olunmasında möhkəm qaranta çevirmək cəhdləri təşkil edirdi [2].

Ümummilli lider Heydər Əliyev əsas iqtisadi kateqoriya kimi "innovasiyalara əsaslanan davamlı iqtisadi inkişaf" faktorunu daim öz fəaliyyətinin başlıca prinsipi kimi ortaya qoyurdu. O, durğunluğun cəmiyyət həyatı üçün hansı ciddi fəsadlar törətməsini yaxşı bilirdi. Elmi-texniki tərəqqi meyarlarının daim təkrar istehsal prosesinin fasiləsiz olaraq genişlənməsində təminatçı rolunu çox yüksək qiymətləndirən Heydər Əliyev hesab edirdi ki, dövlətin qüdrət meyarlarını müəyyən edən komponentlər sırasında müsbət keyfiyyət və struktur dəyişiklikləri ilə müşayiət olunan məhsuldar qüvvələr, elm, texnika, təhsil, mədəniyyət, həyat tərzi və həyat ukladı, insan resursları və insan kapitalı xüsusi önəm kəsb edir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi və bu gün "Heydər Əliyev erası" kimi qiymətləndirilən mütərəqqi tarixi mərhələdə əldə olunmuş elmi-texniki tərəqqiyə və ümumi sosial rifaha rəğmən bu gün Azərbaycan Respublikası "inkişaf etmiş dövlət" statusuna iddia etməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında bu gün də ölkəmiz sosial və iqtisadi siyasətini davamlı inkişafı təmin edən prinsiplər və təməllər üzərində qurur. Xüsusi dövlət proqramları üzrə, məqsədyönlü, ardıcıl və metodiki şəkildə həyata keçirilən sosial-iqtisadi və texniki-mədəni yönümlü müxtəlif tədbirlər Azərbaycanı, nəinki Cənubi Qafqaz regionunda və postsovet respublikaları arasında, həmçinin dünya miqyasında dinamik templərlə inkişaf edən və beynəlxalq aləmdə söz sahibi olan olduqca güclü dövlətə çevirib.

Azərbaycanın aparıcı texnologiyalardan bəhrələnmiş və müasir dövrün tələblərinə cavab verən iqtisadi sistemi qısa müddət ərzində bazar iqtisadiyyatının ənənəvi prinsiplərini yüksək səviyyədə mənimsəmiş, ölkəmizin müasir obrazı, onun sosial və mədəni infrastrukturu, istehsalat, logistika və xidmət sektoru dövrün innovativ tələblərinə uyğun tərzdə dəyişmişdir.

Hələ XX əsrin 60-cı illərinin sonu, 70-ci illərinin əvvəllərində Heydər Əliyev tərəfindən başlanmış və əsrin 90-cı illərinin əvvəllərindən yeni və daha intensiv templərlə davam etdirilmiş sosial-iqtisadi siyasət bu gün son nəsil innovasiyalara əsaslanan güclü iqtisadi sistemin bərqərar edilməsini şərtləndirməklə, Azərbaycan Respublikasının "inkişaf etmiş dövlət" kateqoriyasına layiq olması iddiasını da gerçəkləşdirmişdir.

Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə həyata keçirdiyi uzaqgörən və müdrik siyasət nəticəsində ölkəmizin enerji təhlükəsizliyi və texniki təchizat baxımdan müstəqil dövlət kimi fəaliyyəti üçün adekvat sosial-iqtisadi baza yaradılmışdı. ABŞ-da Sovet tarixinin o mərhələsinə aid olan sənədlər təhlil edilərkən Azərbaycan SSR-yə Heydər Əliyevin rəhbərlik etdiyi dövrdə baş verən iqtisadi yüksəliş dərin iqtisadi islahatlar kimi qiymətləndirilmişdir.

Məlumdur ki, XX yüzilliyin 60-cı illərində obyektiv və subyektiv səbəblər ucbatından Azərbaycan SSR-də sosial-iqtisadi vəziyyət son dərəcə gərgin xarakter almışdı, həm sənayedə, həm də aqrar sezilən və gündən-günə dərinləşən neqativ tendensiyalar müşahidə olunurdu. O dövrün elmi-texniki nailiyyətləri Azərbaycan iqtisadiyyatına, ölkə həyatının ayrı-ayrı sahələrinə demək olar ki, tətbiq edilmirdi. Heydər Əliyevin Azərbaycan SSR-yə rəhbərlik etdiyi 1969-cu ildən etibarən ölkə həyatında böyük dönüş dövrü başlandı. Heydər Əliyevin bilavasitə nəzarəti altında hazırlanan və böyük perspektivlər vəd edən kompleks inkişaf proqramları Azərbaycan Respublikasının uzunmüddətli, dinamik və hərtərəfli inkişafını nəzərdə tuturdu. Ulu öndərin həyata keçirdiyi, cəmiyyəti texniki-mədəni və sosial-iqtisadi yeniləməsinə istiqamətlənmiş çox möhtəşəm tədbirlər onu xalqa sevdirdi. Yeni liderə misilsiz simpatiya bəsləyən ölkə əhalisi bu uzaqgörən və müdrik şəxsiyyətin qüdrətinə və istedadına inandı və onun arxasınca getdi.

Heydər Əliyev həm Azərbaycanın, həm də Azərbaycan SSR-in təmsil olunduğu Sovet İttifaqının möhtəşəm elmi-texniki resurslarından və təbii ehtiyatlarından bacarıqla istifadə edərək Azərbaycanı qısa müddət ərzində elmi-texniki tərəqqi yoluna çıxartdı. Sözügedən dövrdə Heydər Əliyev ittifaq miqyasında çoxlu sayda maneələri dəf edərək, Sovet rəhbərliyindən Azərbaycan haqqında beş xüsusi qərarın qəbul etdilməsinə nail olmuşdu. Beləliklə, 1970-1982-ci illər milli dövlətçiliyimiz tarixində sosial-iqtisadi inkişaf, texniki təchizat və mədəni inkişaf baxımından ən uğurlu illər olmuşdu. Respublika iqtisadiyyatında vacib struktur dəyişiklikləri baş vermiş, yeni və mütərəqqi sənaye sahələri yaradılmış, sənaye istehsalının səviyyəsinə uyğun olaraq ölkənin proporsional inkişafı üçün şərait yaradılmışdı. Elmi-texniki nailiyyətlərin əldə olunmasında çox vacib faktor olan, bilavasitə istehsalatla bağlı elmi-tədqiqat işlərinə diqqət artırılmış, mütərəqqi texnologiyaların istehsalata tətbiqi nəticəsində Azərbaycan ittifaq miqyasında aparıcı yerlərdən birinə sahib olmuşdu.

O dövr üçün aparıcı texnologiyaların kənd təsərrüfatında da ardıcıl və metodiki şəkildə tətbiq olunması prosesi gedirdi. Buna görə də Azərbaycan XX əsrin 70-ci illərinin sonlarinda SSRİ-nin ən qabaqcıl kənd təsərrüfatı respublikalarından birinə çevrildi. Heydər Əliyevin 1970-1982-ci illərdə həyata keçirdiyi yüksək səriştəli iqtisadi siyasət nəticəsində respublikada yüzlərlə müəssisə tikilib istifadəyə verildi. Bunlardan 213-ü tam gücü ilə işləyən sənaye müəssisəsi idi. O dövrdə Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 dövlətinə ixrac olunurdu [3]. O zaman istehsal olunan sənaye məhsulunun həcmi əvvəlki 50 ildə istehsal olunmuş ümumi məhsulun həcmindən çox idi. Sözügedən həmin illərdə Azərbaycan böyük bir tikinti meydanını xatırladırdı. Qısa müddət ərzində həm paytaxt Bakının, həm də rayonların siması əhəmiyyətli şəkildə dəyişmişdi. Paytaxt da daxil olmaqla respublikanın bütün iri yaşayış məntəqələrində yüzlərlə yaşayış binaları, mehmanxanalar, ictimai tikililər, məktəblər və mədəniyyət evləri, ölkə iqtisadiyyatının əsaslarını təşkil edən və məşğulluğun təmin edilməsində həlledici rol oynayan fabriklər, zavodlar, çoxlu sənaye obyektləri, su anbarları, Kür-Abşeron su kəməri yaşıllaşdırma zonaları, istirahət mərkəzləri, yollar inşa olunmuşdu.

1970-1982-ci illər ərzində Azərbaycanda əldə olunmuş ən böyük tarixi nailiyyətlərdən biri də ölkədə gələcəyə hesablanmış güclü kadr potensialının yaradılması, o cümlədən nadir ixtisasların sahibləri və biliciləri olan mütəxəssislərin hazırlanması idi. O zamanlar Heydər Əliyevin təşəbbüsü ilə SSRİ-nin 170 aparıcı ali məktəblərində 3500 gənc azərbaycanlı təhsil alırdı. Hər il 800 nəfər gənc tələbə isə nadir ixtisaslara yiyələnmək üçün İttifaqın nüfuzlu ali təhsil müəssisələrinə göndərilirdi.

1993-cü ilin iyununda Ulu öndər Heydər Əliyevin böyük siyasətə qayıdışı və Azərbaycan Respublikasına ikinci dəfə rəhbərlik etməsi Azərbaycan tarixində yeni bir eranın başlanğıcı oldu. Xalqın sosial-iqtisadi həyatında baş verən dinamik inkişaf templəri yenidən o dövrün pozitiv mahiyyətini müəyyən edən başlıca amilə çevrildi [1].

**İstifadə edilmiş ədəbiyyat**

1. Qayıdış. Bakı: Azərbaycan, 2008, s.798-800

3. Naxçıvan ensiklopediyası. Bakı: Elm, 2002, s.139-140

3. Махмудов Я. Газ. "Бакинский рабочий", 2017, 9 февраля, с.4

4. Шестакова И.Г. Новая темпоральность цифровой цивилизации: будущее уже наступило // Научно-технические ведомости СПбГПУ. Гуманитарные и общественные науки, 2019, №2, с.20-29

UOT 338.45

## Azərbaycanda yüngül sənaye müəssisələrinin restrukturizasiyası

*Təranə Allahverdi qızı Səfərova,*
*Mingəçevir Dövlət Universiteti*

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf strategiyasının çox mühüm istiqamətlərindən birini dövrün tələblərinə uyğun səmərəli iqtisadi siyasət və çoxşaxəli islahatlar təşkil edirdi. Həmin strateji kursun tərkib hissəsi kimi olaraq, müstəqil Azərbaycanın iqtisadi inkişaf yolu islahatlar vasitəsilə liberalizm prinsipinə əsaslanan bazar iqtisadiyyatına keçid olaraq müəyyənləşdirildi. Heydər Əliyev iqtisadi sahədə dövlət siyasətindən bəhs edərkən qeyd etmişdi: "...Mən Azərbaycanın iqtisadiyyatında dövlət siyasətini artıq müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara sərbəstlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılmasıdır. Bu, dövlət siyasətimizin əsas prinsipləridir".

Məlumdur ki, islahatlar Ümummilli liderin rəhbərliyi ilə həyata keçirilən strateji kursun mühüm istiqaməti kimi ölkədə mükəmməl hüquqi bazanın yaradılması sosialyönümlü liberal iqtisadiyyat quruculuğuna uğurlu transformasiyanı təmin etdi, respublikamızda özəl bölmənin inkişafına təkan oldu. Xüsusi olaraq, vurğulamaq lazımdır ki, Ulu öndərin rəhbərliyi ilə hazırlanan və ümumxalq səsverməsi nəticəsində qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şəraitin yaradılması, sahibkarlığa təminat verilməsi, rəqabət mexanizminin formalaşması və inkişafı, həmçinin rəqabətin qorunması ilə bağlı müddəalar öz əksini tapdı ki, bu da özəl sektorun inkişafının hüquqi əsaslarının formalaşması baxımından olduqca əhəmiyyətli idi. Eyni zamanda, Heydər Əliyev bu sahədə şəffaflığın təmin edilməsi məqsədilə bir sıra fərman və sərəncamlar imzaladı ki, onların sırasında Azərbaycan Prezidentinin 1996-cı il 17 iyun tarixli "İstehsalat, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə", 1999-cu il 7 yanvar tarixli "Dövlət nəzarət sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində

süni maneələrin aradan qaldırılması haqqında" fərmanları, 1997-ci il 24 iyun tarixli Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi proqramı (1997-2000-ci illər)" xüsusi olaraq vurğulanmalıdır. Ümummilli liderin 30 aprel 2001-ci il tarixli Fərmanı ilə İqtisadi İnkişaf Nazirliyinin yaradılmasının ölkəmizdə liberal iqtisadiyyatın bərqərar olmasında rolu əvəzsizdir. Heydər Əliyev tərəfindən təsdiqlənən "Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)" sahibkarlıq infrastrukturunun yaradılması, sahibkarlara dövlət maliyyə dəstəyi sisteminin formalaşdırılması, vergi yükünün azaldılması, onlara zəruri texniki yardım göstərilməsi və s. tədbirləri nəzərdə tuturdu. Bunlarla yanaşı, "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında", "Azərbaycan Respublikasının Prezidenti yanında Sahibkarlıq Şurasının yaradılması", "Sahibkarlara Kömək Milli Fondunun yaradılması" və "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" imzalanmış fərmanlar iş adamlarının hüquqlarının qorunması, bu sahənin inkişafı baxımından mühüm önəmə malik idi.

Azərbaycanın qədim sahələrindən biri olan yüngül sənaye müəssisələri əsasən pambıq, yun, barama, gön-dəri xammalı məhsullarının emalına əsaslanır. Azərbaycanda hələ qədim dövrlərdən ipək sənayesi formalaşmış və ipəkçiliyin mərkəzi Şəki şəhəri seçilmişdir.

Müasir dövrdə yüngül sənaye müəssisələrində istehsalın restrukturizasiyası rəqabətqabililiyətliliyin formalaşması və onun əsasında iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsinin əsas istiqaməti olmalıdır. Bu sahədə aparılan hər bir yenilik əvvəlcədən hazırlanmış müvafiq proqramlar əsasında reallaşdırılmaqla uğurlu ola bilər. Restrukturizasiya aparılmasının əsas səbəbləri müəssisə daxilində və xaricində yarana bilər. Bunlar aşağıdakılardır:

- müəssisədə işləyənlərin müasir biliklərinin aşağı olması;
- iqtisadi, marketinq, istehsal xidmətləri arasında əlaqələrin zəif olması;
- müəssisə daxilində informasi və qərarların qəbulunda axınının zəif olması və qərarların qəbulunda yetərli olmaması;
- resursların bölmələr arasıda bölgü sisteminin səmərəsizliyi;
- müəssisə fəaliyyətinin məqsədinin aydın olmaması;
- müəssisənin daxili və xarici vəziyyətinə cavab verməyən köhnəlmiş təşkilati strukturları;
- müəssisənin inkişafı üçün dövriyə vəsaitlərinin qənaətbəxş həcmdə olmaması və s.

Bu zaman restrukturizasiya bir sıra məqsədlərə nail olmağa zəmin yarada bilər. Fikrimizcə, buna aşağıdakıları aid etmək olar:

- əməyin təşkili və idarə edilməsinin müasir forma və metodlarindan istifadə edən istehsalların yaradılması;
- bu sahələrə investisiya layihələrinin əhəmiyyəti və cəlbediciliyinin yüksəldilməsi;
- ETT əsasıda maddi-texniki bazanı möhkəmləndirilməsilə istehsalda əsaslı dəyişikliklər edilməsi;
- rəqabətqabiliyyətli məhsulların buraxılışının təmin edilməsi və s.

Ona görə də yüngül sənaye müəssisələrində istehsalın səmərəliliyinin yüksəldilməsi və müəssisənin gəlirliliyinin artırılması məqsədilə vaxtaşırı resturukturizasiya aparılmalıdır.

Bildiyimiz kimi, respublikamızda yüngül sənayenin inkişafı üçün əlverişli şərait və imkanlar mövcuddur. Qeyd edək ki, yüngül sənaye üçün müvafiq xammal bazası Azərbaycandadır. Yüngül sənaye sahələrinin məhsullarını istehsal edən müəssisələr fəaliyyətə başladıqda buraxılan məhsulların maya dəyəri yüksək olmayacaq.

Sənaye istehsalı yüksək olan ölkələrin iqtisadi inkişafı yüngül sənayenin inkişaf səviyyəsindən birbaşa asılıdır. İnkişaf edən ölkələrin böyük hissəsində sənayeləşmənin hərəkətverici qüvvəsi qismində tikiş və toxuculuq istehsalı çıxış edir. Belə sahələrin inkişaf etdirilməsi nəticəsində yeni iş yerləri əmələ gəlir və işsizlik problemi aradan qaldırılır.

Yüngül sənaye müəssisələrində istehsal edilən məhsullar üçün daxili bazarın yaranması istiqamətində tədbirlərin həyata keçirilməsi bu sahənin cəlbediciliyini həm daxili həm də xarici investorlar üçün artırmış olur. Respublikamızda eyni zamanda sənaye kompleksində istehsal olunan məhsulların qiymətlərinin tənzimlənməsi daim diqqət mərkəzində olmalıdır.

Yüngül sənaye sferasında işləyən müəssisələrin iqtisadi spesifikliyi onların təşkiledici və texniki səciyəsi ilə təyin olunur. Yüngül sənaye ilkin xammalın emal olunmasını,eyni zamanda hazır məhsulun istehlakını reallaşdırır. Bu sahədə əsas istiqamətlərdən biri müasir dövrdə fəaliyyət göstərən müəssisələrdə innovativ yeniliklər və istehsal sahibkarlığının idarə olunması konsepsiyasının formalaşdırılmasıdır. Yüngül sənaye sferasında fəaliyyət göstərən müəssisələrdə yaradılacaq innovasiya və sahibkarlıq bölmələrinin korporasiyasının əsas məqsədi aydın olmalıdır. Bu onların bazar istiqamətinin təyin olunmasında diqqətlərinin istiqamətləndirilməsinə təkan verəcəkdir. Fikrimizcə, bunun üçün əlverişli biznes-planlar işlənib hazırlanmalıdır. İnnovasiya və sahibkarlıq bölmələrinin müəssisədaxili hərəkətverici motivasiyası aşağıdakılara söykənməlidir:

- enerji səmərəliliyinin artırılması;
- hazır məhsulun satış bazarlarında bazar seqmentinə uyğun realizasiyasına nail olunması;
- köhnəlmiş avadanlıqlara "sürətli amortizasiya" üsulu tətbiq etməklə, əldə olunan vəsaitlər hesabına investisiya resurslarının formalaşdırılması və s.

Yüngül sənaye sahələrinin inkişaf etdirilməsində istehsal edilən əmtəələrin rəqabət qabiliyyətliliyində və ixracyönümlü olmasını təmin etmək üçün zəruri standartlaşdırma və sertifikatlaşdırma işləri həyata keçirilməlidir. Fikrimizcə, Azərbaycanda yüngül sənaye sahələrinin dayanıqlı işini təmin etmək üçün qarşıda duran vəzifələr aşağıdakılardır:

- yüngül sənaye sahələrinin investisiya təminatının həll olunması;
- kənd təsərrüfatı və yüngül sənaye sahələrinin inkişafını təmin edə biləcək şəraitin formalaşdırılması;
- yüngül sənaye sahələrinin istehsalının sosial və iqtisadi baxımdan səmərəliliyinin daha da yüksəldilməsi;
- yüngül sənaye müəssisələrini mütərəqqi tələblərə uyğun vəziyyətə gətirməklə, onların restrukturizasiyasını yüksək səviyədə həll olunmasına nail olmaq;
- yüngül sənaye sahələrində fəaliyyət göstərən müəssisələrdə innovasiyaların və yeni texnologiyaların istifadəsinin təmin edilməsi;
- yüngül sənaye məhsullarının keyfiyyət göstəricilərinin yüksəldilməsi və istehlak xassələrinin yaxşılaşdırılması;
- yüngül sənaye məhsulları ilə daxili bazarın təmin edilməsi;
- yüngül sənaye sahəsində fəaliyyət göstərən müəssisələrin bazasında inteqrasiya edilmiş böyük idarəçilik strukturlarının yaradılması;
- yüngül sənaye məhsullarının xarici bazara ixracının təmin edilməsi və s.

Bütün bu qeyd etdiklərimiz yüngül sənaye sahələrində fəaliyyət göstərən müəssisələrdə yeni məhsulların mənimsənilməsinə yönəldilməlidir.

**İstifadə edilmiş ədəbiyyat**


1. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. 29 dekabr 2012-ci il
2. Abbasov F.H., Quliyev R.A. Sahibkarlığın əsasları. Bakı, 1995
3. Axundov M.Ə. Strateji idarəetmə. Bakı: Ağrıdağ, 2001
4. Hüseynov T.Ə. Sənayenin iqtisadiyyatı. Bakı: Azərnəşr, 2000


UOT 18: 37.01

## Təlim və tərbiyənin vəhdəti pedaqoji prosesin əsas amili kimi

*Sevil Mirhəsən qızı İsayeva,*
*Mingəçevir Dövlət Universiteti*

Təllim-tərbiyə prosesi yalnız elm deyil, həm də böyük sənətdir. Bu prosesin tamamlanması mümkün deyil, təkmilləşməsi və inkişafı isə sonsuzdur. Təlim və tərbiyənin vəhdəti bütün

zamanlarda aktual olmuş, cəmiyyət üzvlərini ciddi düşündürmüş və bundan sonrakı zamanlarda da öz aktuallığını qoruyub saxlayacaqdır. Həyatımızın elə bir sahəsi tapılmaz ki, orada təlim və tərbiyənin vəhdəti olmasın. Təlim-tərbiyənin bir sıra yolları vardır ki, bunlardan ən ümdəsi milli-mənəvi irs və onun qloballaşma şəraitində təbigi məsələləri, milli dəyərlərlə bəşəri dəyərlərin vəhdəti məsələsidir.

Ulu öndər Heydər Əliyevin "Təhsil sistemimiz müstəqil Azərbaycanın gələcək inkişafını təmin etməlidir" prinsipinin yerinə yetirilməsinin təmin olunması üçün milli dəyərləri saxləmaqla, təkamül yolu ilə dünya təhsil sisteminə doğru hərəkət edib, Azərbaycan təhsil sistemini yeni zirvələrə qaldırmalıyıq. Məhz bu mənada gənc nəslin tərbiyəsinin milli zəmində təşkili mühüm əhəmiyyət kəsb edir.

1999-cu il 15 iyunda Ulu öndər Heydər Əliyevin təhsil sahəsində islahat Proqramını təsdiq etməsi təhsil tariximizdə ən əlamətdar hadisələrdən biri olmuşdur. Milli ideologiya və dövlətçilik prinsipləri əsasında "Milli Tərbiyə Proqramı"nın işlənib hazırlanması mühüm məsələlərdəndir. Tərbiyə işini milli zəmində qurmaq üçün klassik alim və filosorlarımızın yaradıcılıqlarında milli-mənəvi tərbiyə məsələlərinin araşdırılması günün tələbidir.

Xalqımızın milli istiqlaliyyət qazandığı müasir şəraitdə məktəblilərin milli ruhda tərbiyə edilməsi təlim-tərbiyə müəssisələrinin qarşısında başlıca problem olaraq durmaqdadır. Təsadüfi deyil ki, təhsil qanununda qeyd edilir: "Təhsil sisteminin başlıca vəzifələri dərin və hərtərəfli biliyə, bacarığa, yükək mədəniyyətə, məsuliyyət hissinə və demokratik dünyagörüşünə, soy-kökünə və Azərbaycan xalqının azadlıq və demokratik ənənələrinə bağlı olan, xalqının milli, əxlaqi, humanist, mənəvi və mədəni dəyərlərinə dərindən yiyələnən, onu qoruyan və daim inkişaf etdirən, türk dünyasının və islam əxlaqının yaratdığı dəyərlərə yiyələnən, biliyinə, yüksək mənəvi keyfiyyətlərinə, demokratikliyinə görə dünyanın qabaqcıl vətəndaşlarının səviyyəsində dura bilən sağlam yurddaşlar yetişdirmək və bununla yüksək sivilizasiyalı cəmiyyət qurmağa, Azərbaycanı dünyanın ən inkiçaf etmiş demokratik dövlətlərindən birinə şevirməyə qadir olan insan tərbiyə etməkdir" [5].

Adam dünyaya bioloji varlıq kimi gəlir, təhsilin vəzifəsi bu məxluqu sosial varlığa çevirməkdir, ata-ananın istehsal etdiyi adamdan insan (sosial varlıq) istehsal etməkdir, adamı (bioloji varlığı) insana (sosial varlığa) çevirməkdir. Deməli, təhsil şagirdin bilik, bacarıq və vərdişlərlə silahlanması kimi yox, məktəblinin əqli və fiziki cəhətdən tam formalaşdırılması kimi başa düşülməlidir. Təlim də, tərbiyə də təhsilin tərkib hissələridir. Elə bu səbəbə görə də "təhsil qanunu" deyirik, amma "tərbiyə qanunu", "təlim qanunu" demirik.

Hər bir uşaq fərdi psixo-fizioloji xüsusiyyətlərə, meyl və marağa malikdir. Onları öyrənmək və başa düşmək, onlardakı zəif və qüvvətli cəhətləri görə bilmək, tərbiyə prosesini məqsədyönlü təşkil etmək lazımdır. Qloballaşan müasir dövrümüzdə təlim-tərbiyə işinin əsas vəzifələrindən biri insanların yüksək, müstəqil düşüncə və fikir sahibi olmalarına, söz və əməl birliyinə riayət etmələrinə nail olmaqdır və bunun üçün müxtəlif təlim-tərbiyə metodlarından, texnologiyalarından istifadə edilir. Qloballaşan cəmiyyətdə müasirlərimiz olan gənclərdə məntiqi, tənqidi, yaradıcı təfəkkürü, ünsiyyət mədəniyyətini formalaşdırmaq, onları praktik fəaliyyətə real olaraq hazırlamaq üçün istifadə etdiyimiz yeni metodların məqsədini klassik pedaqoji irsimizə söykənərək cilalamalı və bununla kamil insanın, fəal vətəndaşın yetişməsinə şərait yaratmalıyıq. Bu gün biliyi yaddaşa görə deyil, mühakimə yürütmə qabiliyyətinə görə qiymətləndirməli, dəyərləndirməliyik. Nəzərə almaq lazımdır ki, hər sinifdə elə qabiliyyətli şagirdlər var ki, onlar müstəqilliyə çalışmır, təlim fəaliyyətinə qoşulmur və ciddi səy etmirlər. Digər qabiliyyətli şagirdlər isə yaxşı səy göstərir, gərgin əmək sərf edir, fəallarla daim ayaqlaşırlar. Elə şagirdlər də var ki, onlar dalğındır, kifayət qədər diqqətli olmur, gərgin əmək sərf etməkdən çəkinir və iradəcə zəif olurlar. Bunları nəzərə alaraq, fərdi yanaşma təlim prosesində bütün şagirdlərə tətbiq edilir. Müəllim şagirdlərin maraq və meyillərini öyrəndikdən sonra, onların irəli getməsi üçün daha faydalı yollar müəyyən edir. Təlimdə orta mövqe tutanların səyini artırır, geri qalanların zəif cəhətlərini aradan qaldırır [4].

Şagirdlərin təlimdə yetirməməsi müxtəlif səbəblərdən izah edilir. Məsələn, müəllimin pedaqoji fəaliyyətindəki qüsurlar, şagirdin təlimə münasibəti, tətbiq edilmiş təlim metodlarının

qüsurluluğu, tədris vasitələrindəki çatışmazlıq, proqramların lazımi səviyyədə tərtib edilməməsi, ailədə baxımsızlıq və s. Geridə qalma ilə mübarizə aparan müəllimlərin fəaliyyətində fərdi yanaşma prinsipi mühüm yer tutur. Onlar bu prinsipi müvəffəqiyyətlə həyata keçirmək nəticəsində, şagirdlər tərəfindən biliyin möhkəm mənimsənilməsinə, hər bir uşağın təlim məsuliyyətinin artırılmasına və ailədə uşağın tərbiyəsinin düzgün təşkil edilməsinə nail olurlar. Onlar şagirdlərin təlim-tərbiyəsi üçün vaxt azlığından şikayətlənmirlər. Bu onunla izah edilir ki, belə müəllimlər vaxta qənaət edir, şagirdlərin bilik və bacarığının qeydini dəqiq aparır, bu məqsədlə “Şagirdlər üzərində müşahidə” dəftəri saxlayırlar. Qabaqcıl müəllimlər dərsdə yeni materialı izah etməklə bərabər, şagirdlərin müstəqil işlərini də təşkil edir, zəiflik göstərənləri həmişə diqqət mərkəzində saxlayır, onlarla fərdi iş aparırlar [1].

Ümumiyyətlə, hər bir xalq öz mentalitetinə, dövlət quruluşuna, tutduğu mövqeyə və digər amillərə uyğun olaraq, ideologiyasına vətənpərvərlik ruhu təcəssüm etdirir. Elə bir dövlət olmaz ki, az və ya çox dərəcədə bu mühüm ideologiyanı həyata keçirməsin. Bu ruh ölkənin bütün vətəndaşlarına, tutduğu vəzifədən, sosial vəziyyətdən, dinindən, dilindən, coğrafi şəraitindən və sair digər kateqoriyalardan asılı olmayaraq, yüksək keyfiyyətlə aşılanır. Bu amil lap körpə yaşlarından hər bir vətəndaşa çox vacib şərt kimi öyrədilməlidir. Tarixi müşahidələr və təcrübələr sübut etmişdir ki, hər hansı ölkədə, cəmiyyətdə, müəyyən qurumlarda bu keyfiyyət yüksək tələbkarlıqla öz əksini tapırsa, orada mədəniyyətin inkişafı yüksək səviyyədə olur [3].

Dövlətin məktəblər qarşısında qoyduğu vəzifələrdən biri də gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsidir. Vətənpərvər, əməksevər, ictimai işə şüurlu münasibət bəsləyən və digər müsbət əxlaqi keyfiyyətlərə malik olan uşaqların, gənclərin tərbiyəsində fərdi yanaşmanın rolu çox böyükdür və bu iş müəllimin birinci dərəcəli vəzifəsidir. Düzgün təşkil olunmuş əxlaqi söhbət xamanı məktəblilər həqiqi mənəvi təmizlənmə yolu keçər, özünün ləyaqətini, mənliyini dərk edər, ailənin, valideynlərinin qədrini bilər, torpağa bağlanar, xalqını, vətənini ürəkdən sevər, onun azadlığı və müstəqilliyi yolunda hər cür mübarizəyə hazır olar.

Əxlaqi söhbətlərin müasir tələblərə cavab verən tərzdə aparılması şagirdlərdə effektiv nəticə göstərəcək və cəmiyyətimizin inkişafına xidmət edən şəxsiyyətlərin formalaşmasına zəmin yaradacaq. Sağlam düşüncəli insan yetişdirmək ailə və məkrəbin birgə fəaliyyəti nəticəsində mümkündür. Ailədə və məktəbdə şagirdə sərbəst fikir yürüdən, qərar verən şəxsiyyət kimi baxmaq lazımdır. Müəllim və tərbiyə olunanlar arasında münasibətlərin tənzimlənməsi, məktəbin, ailənin və ictimaiyyətin vahid pedaqoji mövqedən çıxış etmələri vacibdir.

Gənc nəslin demokratik, humanist, mütərəqqi dünyagörüşlü şəxsiyyət kimi formalaşmasında, ədəbi biliklərin dərinləşməsində, milli və ümumbəşəri mənəvi dəyərləri mənimsəməsində, vətənpərvərlik ruhunda tərbiyə olunmasında uşaq ədəbiyyatının da rolu böyükdür.

Klassik ədəbiyyatımıızda uşaq mütaliəsi üçün nəzərdə tutulmuş janrlardan biri də mənzum nəsihətlərdir. Araşdırmalar göstərir ki, ilk mərhələdə didaktik nəsihətlər müstəqil əsər kimi deyil, məsnəvinin, poemanın tərkibində verilsə də, sonrakı dövrlərdə ədəbiyyatımızda bilavasitə uşaqlara ünvanlanan nəsihətnamə müstəqil ədəbi janra çevrilmişdir. Sadəliyi, yığcamlığı, konkretliyi, xalqın mənəvi dəyərlərini, müxtəlif əxlaqi keyfiyyətləri cəmləşdirən nəsihətlər gənc nəslin təlim-tərbiyəsində mühüm rol oynamışdır.

Dahi Nizami gənc nəslin tərbiyəsini başlıca məsələ sayır, öz əsərlərində bu problemə dönə-dönə toxunurdu. O, oğlu Məhəmmədə müraciətlə dərin məzmunlu nəsihətlər yazmışdır. Həmin nəsihətlər əsrlər boyu neçə-neçə gənc nəslin təlim-tərbiyəsinə xidmət etmişdir:

Qəflətdə oynama, qeyrət vaxtıdır,
İndi hünər vaxtı, şöhrət vaxtıdır.
Ucalmaq istəsən, bir kamala çat,
Kamala ehtiram göstərər həyat.

Klassik sənətkarların oxuculara təlqin etdiyi nəsihətlər sırasına xeyirxahlıq, təvazökarlıq, qənaətlə yaşamaq, nəfsi cilovlamaq, əməksevərlik, düzlük, nəciblik və s. haqqında mülahizələr diqqəti cəlb edir. Eqoizm, xudbinlik, lovğalıq, yersiz qürur, nadanlıq, qorxaqlıq, tənbəllik, acgözlük, paxıllıq insanın mənfi xüsusiyyətləri kimi tənqid edilir.

Gənc oxucu böyük Nizaminin əsərlərini oxuyarkən onun oğlu Məhhəmmədə nəsihətlərindən ibrət dərsi alır, öz həyat yolunu müəyyənləşdirir, kərpickəsən kişinin həqiqətini başa düşür, Sultan Səncərə şikayət edən kimsəsiz qarının halına acıyır, quyuya düşən uşağa rəgbət bəsləyir, özündən razı hökmdara ibrət dərsi verən Fitnə kimi fərasətli olmağa çalışır, Xeyiri alqışlayır, Şəri pisləyir, həyatda hökmdarın dostluğuna etibar etməyənin, öz ağlına, fərasətinə güvənməyin daha dogru olması qənaətinə gəlir.

Tərbiyə, təhsil və təlim prosesləri özlərinə məxsus spesifik xüsusiyyətlərə malik olsa da, hamısı ümumi bir məqsədə – şəxsiyyətin ahəngdar inkişafına xidmət edir. Həm tərbiyə, həm də təlim üç əsas funksiyanı – təhsilverici, tərbiyəedici və inkişafetdirici funksiyaları yerinə yetirir. Bu zaman pedaqoji prosesin bütün sahələri qarşılıqlı vəhdətdə çıxış edir: təlim prosesi tərbiyə funksiyasını həyata keçirdiyi kimi, tərbiyə prosesi də təlim prosesinə təsir göstərir.

Demokratiya, humanizm, bərabərlik prinsipləri əsasında qurulan təhsil sistemi yeni insanın tərbiyə olunması problemini irəli sürür. Bu gün gənc nəslin tərbiyəsində əsas vəzifə vətənə sonsuz sədaqəti, onun qorunması uğrunda fədakarlıq göstərməyə, canından keçməyə, onun çiçəklənməsi, sərvətinin artması yolunda hazır olan, biliklərə dərindən yiyələnmiş, yüksək mədəniyyətə sahib olan adamlar yetişdirməkdən ibarətdir.

Uşaq şəxsiyyətinin formalaşdırılmasında təhsilin demokratikləşdirilməsi və humanistləşdirilməsi prinsipinə riayət etmək vacibdir. Təhsildə humanistləşdirmə prinsipini həyata keşirmək üçün mütləq demokratikləşdirmə prinsipini gözləmək, yaradıcılıqla düşünən, müstəqil mühakimə yürütməyi bacaran, demokratik dünyagörüşünə malik şəxsiyyət formalaşdırmaq lazımdır. Geniş imkanlara malik olan yeni təlim metodları – innovasiyalar bu baxımdan əlverişlidir. Məlum olduğu kimi, yeni pedaqoji texnologiyalardan, fəal təlim metodları uşaqların onlara vacib olan bilik, bacarıq və vərdişləri əldə etməsində mühüm vasitədir. Təlim zamanı tərbiyəçi və uşaq qarşılıqlı əlaqədə fəaliyyət göstərirlər. Elə buna görə də bu, interaktiv təlim adlanır.

Tərbiyə insanı əməyə, həyata və cəmiyyətdə fəaliyyətə hazırlayır. Tərbiyənin məzmununda şəxsiyyətin ideya-mənəvi təsəvvürləri, inamı, əqidəsi, dünyagörüşü, müsbət davranış adətləri aşılamaq əsas yer tutur. Lakin tərbiyə prosesinin məzmunu şəxsiyyətin təhsil səviyyəsinə, biliklərin genişlənməsinə də güclü təsir göstərir,

Təlimdə şagirdlərin fəallıq və səyini stimullaşdıran amil kimi çıxış edir. Qeyd etməliyik ki, bu gün uşaqlar daha tələbkardır. Bu da onların maraq dairəsinin geniş olmasının nəticəsidir. Uşaq çox sual verir, ona maraqlı olan hər şeyi öyrənməyə can atır. Tərbiyəçi, müəllim bunları nəzərə almalıdır,bilməlidir ki, bu günün uşağı sabahın vətəndaşı, şəxsiyyətidir.

Şəxsiyyətin çox müxtəlif keyfiyyətləri – zehni, əxlaqi, ideya-siyasi, əmək, fiziki, estetik və digər keyfiyyətləri vəhdətdə formalaşır və inkişaf edir; bu keyfiyyətlərin biri digərini şərtləndirir, tamamlayır. Bununla da şəxsiyyətin bütövlüyü – ahəngdar inkişafı təmin olunur. Əgər pedaqoji prosesin müxtəlif sahələri bir-birindən ayrılıqda, əlaqəsiz həyata keçirlərsə, pedaqoji prosesin tamlığı pozular, bu da şəxsiyyətin inkişafına mənfi təsir göstərər.

Göründüyü kimi, pedaqoji prosesin müxtəlif sahələri ümumi tərbiyə məqsədinin həyata keçirilməsində iştirak edir [2, s.11].

Məlumdur ki, Nəsirəddin Tusi XIII əsr Azərbaycanın ən görkəmli simalarından olmuşdur. Ensiklopedik alim, görkəmli filosof Xacə Nəsirəddin Məhəmməd oğlu Tusi insan şəxsiyyətinin formalaşmasında, xasiyyətlərin dəyişməsində irsiyyətlə yanaşı, təlim və tərbiyənin, ictimaiyyətin rolunu elmi cəhətdən əsaslandırır. Onun fikrinə görə, uşaqda təmiz idraki qüvvələrdən birinci həya özünü göstərir, ona görə də hər şeydən əvvəl, bu hissin tərbiyəsi və inkişafı ilə məşğul olmağı təklif edir. Tusi yazır ki, əgər uşaq həyalıdırsa, əksər halda başını aşağı salır, sırtıqlıq etmirsə, bu, onun nəcibliynə sübutdur. Belə uşağın tərbiyəsinə xüsusi fikir verilməli və belə mənəvi tərbiyə nəticəsində milli mənəviyyatı formalaşdırmaq olar. Uşaqların erkən yaşlardan mənəvi-əxlaqi tərbiyəsi ilə məşğul olmağı, onlara nəcib sifətləri aşılamağı, nəfislərinin tərbiyə edilməsini N.Tusi valideynlərin, tərbiyəçilərin, müəllimlərin, ictimaiyyətin müqəddəs vəzifəsi hesab edirdi. Tərbiyə işində N.Tusi nəfsin tərbiyə edilməsini ön plana çəkirdi. O, nəfsin nəbati (bitki), heyvani və insani olmaqla üç istiqamətini müəyyən edir və insani nəfsin tərbiyəsi üçün tərbiyə üsullarının düzgün

seçilməsinin vacibliyini bildirirdi. Tusinin fikrinə görə, nəfsin sağlamlığı üçün sağlam ruhlu, tərbiyəli, namuslu, xeyirxah, istedadlı, nəzakətli adamlarla oturub-durmaq lazımdır. O, bədxah adamlardan qaçmağı, zərərli nağıllara, əxlaqı pozan şer və hekayələrə qulaq asmamağı məsləhət görür və nəfsin sağlamlığını qorumaq üçün insanın yaxşı və faydalı işlə məşğul olmağını vacib hesab edirdi. Tusi qeyd edirdi ki, yaxşı və faydalı əməklə məçğul olmayan nəzəri və təcrübi hazırlıq əldə etməyən nəfs gec-tez fəlakətə, məhvə məhkumdur.

Yetişməkdə olan gənc nəslin təhsili, tərbiyəsi, inkişafı bütün dövrlərdə aktual olmuş və insan cəmiyyəti mövcud olduqca aktual olaraq qalacaqdır, çünki onun xalqın, millətin tərəqqisinə yönəldilmiş strateji əhəmiyyəti vardır.

Hazırda milli vətənpərvərlik təbliğatının genişləndirilməsi, xalqımızın milli vətənpərvərlik ruhunun qaldırılması, gənclərin milli tərbiyəsinin inkişaf etdirilməsi bir vəzifə kimi qarşıya qoyulmuşdur. Bu vəzifələrin öhdəsindən ləyaqətlə gəlmək cəmiyyətimizin hər bir üzvünün vətəndaşlıq borcudur.

Ölkəmizdə gənc nəslin tərbiyəsinin milli zəmində və demokratik prinsiplər əsasında qurulması Milli Ordumuzun və gənc dövlətimizin daha da güclənməsinə və inkişaf etməsinə səbəb olar. Bununla da, xalqımızın layiq olduğu qüdrətli, müstəqil Azərbaycan dövlətinin möhkəmlənməsi daha da sürətlənər.

Düzgün tərbiyə vətənimizin, millətimizin gələcəyinin etibarlı əsasıdır.

Bu gün Azərbaycan təhsili Ulu öndərin siyasi kursunu davam etdirən prezident İlham Əliyevin rəhbərliyi ilə özünün yüksək inkişaf mərhələsini yaşayır və xalqımız bu müqəddəs yolda öz ölkə başçısını daim dəstəkləyir. Azərbaycanın Ali Baş Komandanının əmri ilə 44 günlük müharibənin zəfərlə başa çatması – torpaqlarımızın erməni işalından azad olunması inkişaf göstəricilərimizin bariz nümunəsidir. Bəli, 8 noyabr 2021-ci ildə Vətən Müharibəsində qazandığımız tarixi zəfər Heydər Əliyev siyasətinin təntənəsidir.

**İstifadə edilmiş ədəbiyyat**


1. Axundov S. Təlim prosesində şagirdlərə fərdi yanaşma. Bakı: Maarif, 1975, 273 s.
2. Abbasova N. Pedaqoji prosesin potensial imkanlar. // "Elmi əsərlər", 2011, № 3, s. 9-13
3. Heydər Əliyev. Dünya Azərbaycanlıları konqresinin I qurultayındakı çıxışından.
4. Педагогическая энциклопедия. Т.2. М.: Советская энциклопедия, 1965
5. "Xalq qəzeti", 1993, 6 yanvar


UOT 629.9(091); 620.9(092)

**Heydər Əliyev və Azərbaycan energetikası**

*Liliya Çingiz qızı Süleymanova,*
*Mingəçevir Dövlət Universiteti*

Böyük şəxsiyyətlər yaşayıb yaratdıqları, fəaliyyət göstərdikləri zamanlarda siyasi, iqtisadi və digər prosesləri öz xalqlarının rifahı naminə irəliyə aparmaqla adlarını əbədi olaraq tarixə yazırlar.

Hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaratdığı irsə böyük ehtiramla yanaşır. Azərbaycan xalqı da hər zaman müasir dövlətimizin memarı və qurucusu, xalqının və ölkəsinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş dahi şəxsiyyət Heydər Əliyevi qürur hissi ilə xatırlayır. Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir.

1969-cu ildə Ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişindən sonra respublikanın sosial-iqtisadi həyatının mühüm sahələrindən biri olan elektrik enerjisi sisteminin

sürətli inkişafını təmin etmək məqsədilə təxirəsalınmaz tədbirlər həyata keçirilmiş, bir çox irimiqyaslı layihələr reallaşdırılmışdır. Ümummilli lider Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə hələ ötən əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq respublikanın elektrik enerjisinə olan tələbatının yerli imkanlar hesabına ödənilməsinə yönəlmiş layihələrin həyata keçirilməsinə başlanmışdır. Həmin dövrdə bir-birinin ardınca yeni elektrik stansiyalarının, yüksək gərginlikli elektrik verilişi xətlərinin və yarımstansiyaların inşa edilib istifadəyə verilməsi respublikanın sənaye potensialının artırılmasında mühüm addım oldu.

“Azərbaycan İES”in birinci enerji bloku 1981-ci il oktyabrın 20-də Ulu öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə istifadəyə verilmiş, bu möhtəşəm hadisə Azərbaycan energetikasının inkişafında yeni bir mərhələnin əsasını qoymuşdur. 80-ci illərin əvvəllərində inşasını hətta SSRİ miqyasında ümumxalq tikintisi səviyyəsinə qaldırmağa müyəssər olduğu bu əzəmətli tikili bu gün də Ümummilli liderin bütün qurub yaratdıqları kimi onun nurlu şəxsiyyətinin möhtəşəm abidəsi kimi ucalır. Ulu öndər Heydər Əliyevin səyi nəticəsində bu stansiyanın inşası prosesinin ümumittifaq səviyyəsində aparılması tikinti prosesinə ən peşəkar mütəxəssislərin cəlb olunmasına, müasir texniki vasitələrdən istifadəyə şərait yaratmışdır.

Stansiyanın birinci enerji blokunun işə salınması Azərbaycanda fərəh dolu əlamətdar hadisəyə çevrildi. Ulu öndərimizin bu münasibətlə 1981-ci ilin 20 oktyabrında doğma şəhərimizə – Mingəçevirə gəlişi, stansiyanın vəziyyəti ilə tanış olaraq, energetiklərə və inşaatçılara öz dəyərli tövsiyələrini verməsi bu tarixi təqvimdə Azərbaycan energetiklərinin peşə bayramı günü kimi müəyyənləşdirmiş oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 13 oktyabr 2004-cü il tarixli Sərəncamına əsasən həmin gün “Energetik günü” kimi qeyd edilir.

Ölkə elektrik enerjisi sisteminin sütununu təşkil edən bu stansiya indi də müstəqil dövlətimizin enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna rola malikdir. Bu stansiyanın istismara verilməsi ilə elektrik enerjisi sistemində başlanan inkişaf və tərəqqi prosesi nəticəsində respublikamız sonralar özünün müstəqil, dayanıqlı enerji sistemini formalaşdıra bilmişdir.

Ümumilikdə Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə ölkəmizin elektrik enerjisi ilə təminatı problemi öz həllini tapmışdır. Bu illərdə Azərbaycanın bütün yaşayış məntəqələrinə, o cümlədən hər bir evə elektrik xətti çəkilmişdir. Əgər 1969-cu ildə Azərbaycan elektrik enerjisi idxal edirdisə, 1982-ci ildə artıq elektrik enerjisi ixrac edən respublikaya çevrilmişdi.

Həmin dövrdə elektrik stansiyalarının inşası ilə yanaşı, elektrik şəbəkələri də sistematik inkişaf etdirilmiş və respublikamızın dayanıqlı enerji sistemi yaradılmışdır. O illərdə 330 kV-luq Əli Bayramlı İES–Ağdam–Gəncə–Ağstafa, Əli Bayramlı–Yaşma–Dərbənd, 5-ci Mingəçevir, 500 kV-luq 1-ci və 2-ci Abşeron, Muxranis–Vəli və digər elektrik verilişi xətləri, 330/110/20 kV-luq Yaşma, Gəncə, Ağstafa, 330/110/10 kV-luq İmişli, 500/330/220 kV-luq Abşeron, 220/110/10 kV-luq Hövsan, Nizami, Müşfiq, Səngəçal, Masallı, Ağsu, Babək və başqa qovşaq yarımstansiyaları istismara verildi. Bununla da elektrik enerjisi sahəsində yeni inkişaf mərhələsinin başlanğıcı qoyuldu.

Sonralar həmin şərəfli günləri xatırlayan müdrik rəhbər deyirdi: ”Biz o illər bütün bu imkanlardan istifadə edərək eyni zamanda düşünürdük ki, hər respublikanın özünü təmin edə bilən iqtisadi potensialı olmalıdır. Bu iqtisadi potensialın tərkibində ən mühüm yer tutan elektrik enerjisi istehsal edən müəssisələr yaradılmalıdır. Ona görə də o illər Moskvanın etirazına, bu işimizə maneçilik törədən qüvvələrin çox güclü olmasına baxmayaraq, biz Azərbaycanın elektrik enerjisi müstəqilliyini, elektrik enerjisi sarıdan asılılıqdan qurtarmasını təmin etmək üçün respublikamızda güclü potensiala malik olan elektrik stansiyaları yaratmağa başladıq, buna da nail olduq”.

Ötən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəlində baş vermiş hadisələr, Sovet İttifaqının süqutu elektrik energetikası sisteminə də təsirsiz ötüşmədi. Yaranmış siyasi və iqtisadi böhran nəticəsində elektrik enerjisi istehsalında böyuk problemlər yarandı. Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində vaxtilə tikilib istifadəyə verilmiş “Azərbaycan İES” olmasaydı, respublikanın, o cümlədən paytaxt Bakının enerji təchizatında ciddi problemlər yaşana bilərdi. Beləliklə, Azərbaycanı o illərdə qurub yaradan, respublikanı bütün sahələr üzrə kənar

asılılıqlardan çıxararaq dövlət müstəqilliyi üçün zəruri əsasları formalaşdıran Ulu öndərin enerji sektoruna diqqət və qayğısının əsl səbəbləri Azərbaycan müstəqilliyə qovuşduqdan sonra daha aydın, dolğun şəkildə duyuldu.

Ulu öndərin şah əsəri olan "Əsrin müqaviləsi", Xəzərin zəngin neft və qaz ehtiyatlarından istifadə edilməsi üzrə digər müqavilələrdə nəzərdə tutulan tədbirlərin icrası Abşeron yarımadasının elektrik enerji təminatına yenidən baxılması zərurətini yaratdı. Burada yeni generasiya güclərinin işə salınması ilə yanaşı, yüksək gərginlikli elektrik şəbəkələrinin sistematik inkişaf etdirilməsi ön plana çəkildi.

Ulu öndərin həyata keçirdiyi məqsədyönlü siyasət hesabına elektrik enerjisi sistemi respublikanın bütün ərazisini əhatə etməklə bərabər, Rusiya Federasiyası, İran İslam Respublikası, Gürcüstan və Naxçıvan Muxtar Respublikası tərəfindən Türkiyə enerji sistemləri ilə sıx əlaqəni təmin etmişdir. Bu, həm də ölkələrimiz arasında qarşılıqlı münasibətlərin daha da inkişafına, regionda sülhün, sabitliyin, təhlükəsizliyin qorunub saxlanmasına şərait yaradan ciddi amillərdən biridir.

Ulu öndərin müstəqil Azərbaycana rəhbərliyi dövründə ölkəmizin elektrik enerjisi sistemində qanunvericilik bazasının formalaşdırılması, bu sahəyə dair hüquqi əsasların təkmilləşdirilməsi istiqamətində də mühüm tədbirlər həyata keçirilmişdir. "Energetika haqqında", "Enerji resurslarından istifadə haqqında", "Elektroenergetika haqqında", "Elektrik və istilik stansiyaları haqqında" qanunların qəbulunun məhz həmin dövrə təsadüf etməsi buna sübutdur.

Ümummilli lider Heydər Əliyevin bu sahədə özünəməxsus uzaqgörənliklə müəyyənləşdirdiyi mükəmməl strateji xəttin uğurla həyata keçirilməsi və hazırda Prezident İlham Əliyev tərəfindən ardıcıllıqla davam etdirilməsi ölkəmizi regionun aparıcı dövlətinə, eyni zamanda Avropanın enerji təhlükəsizliyinin təminatçılarından birinə çevirmişdir.

UOT 336.761.6, 336.764/.768, 339.172

## Heydər Əliyev və maliyyə, audit sisteminin inkişaf modeli

*Akif Kamran oğlu Əhmədov,*
*Mingəçevir Dövlət Universiteti*

İqtisadi təmayüllü mütəxəssislərin hazırlanmasının müasir səviyyəsi maliyyə elminə dair tədris ədəbiyyatlarına yeni tələblər irəli sürür. Bu ədəbiyyatlar tələbələrə cəmiyyətdə əmələ gələn maliyyə münasibətləri sisteminin nəzəri əsaslarını kompleks şəkildə öyrənməyə imkan verməlidir. Təcrübə göstərir ki, müasir iqtisadiyyatda pul ilə maliyyə arasında həddin o qədər əhəmiyyətli dərəcədə silinməsi baş vermişdir ki, pul ilə maliyyə münasibətləri, pul ilə maliyyə resursları arasında sərhədləri dəqiq müəyyən etmək qeyri-mümkün olmuşdur [2].

Maliyyə-iqtisad fənləri üzrə, xüsusən maliyyə nəzəriyyəsi sahəsində dərsliklərə olan ciddi tələbləri nəzərə alaraq, təqdim edilən dərslikdə iqtisadi nəzəriyyənin əsas müddəalarının, Azərbaycanın və xarici tətqiqatçıların baxışlarının təhlili əsasında maliyyənin mahiyyəti və rolu, maliyyə resursları və maliyyə mexanizminin haqqında nəzəri müddəalar əsasında maliyyə sistemi, maliyyənin idarə edilməsi haqqında nəzəri baxışlar şərh edilir, onların sosial-iqtisadi proseslərə təsiri mexanizmi fəaliyyətinin xüsusiyyətləri göstərilir [2].

Maliyyə makroiqtisadi nəzəriyyənin ayrılmaz hissəsi kimi inkişaf edərək (əvvəlcə dövlət, sonra müəssisə və ev təsərrüfatı kimi), son nəticədə "maliyyə nəzəriyyəsi" qismində makroiqtisadi nəzəriyyədə seçilmək üçün kifayət qədər fərqləndirici əlamətlərə malikdir.

Maliyyənin mahiyyətinin belə aydınlaşması göstərir ki, maliyyə bütövlükdə məhsul axınlarını tamamlayan, mübadiləni asanlaşdıran pul dövriyyəsi deməkdir.

Maliyyə mərkəzi bankların, dövlətin kredit və büdcə siyasətinin yardımı ilə "yaranan" pul vəsaitlərinin məcmu həcmidir. Maliyyə müxtəlif fondlara – dövlət büdcəsi, fərdi kommersiya

layihələri fondu, bank sektoru və s. cəlb edilən, istifadə edilən pul vəsaitləridir. Maliyyə pul və pul fondları ilə bağlı bu və başqa proseslərin idarə edilməsidir [3].

Maliyyə – pulların müxtəlif fondlara cəlbi, istifadəsi, dövriyyəsi, hərəkətini və s. xarakterizə edən münasibətlər pulun özü yarandığı andan təşəkkül tapmağa başlayır.

Maliyyə sisteminin təşəkkül tarixi pulun yaranma tarixindən başlansa da, maliyyə tarixini pul tarixi ilə tam eyniləşdirmək, əlbəttə ki, səhv olardı. Çünki əvvəldə göstərilmişdir ki, maliyyə sistemi müxtəlif pul fondlarının formalaşması, istifadəsi və s. bəlkə də dövlət maliyyə sisteminin təşəkkülü və inkişafı hesab etmək olar. Beləliklə, dövlət maliyyə sisteminin maliyyə tarixində əhəmiyyətli yer tutması mübahisəsizdir.

Maliyyə (maliyyə nəzəriyyəsi) – pul dövriyyəsi və dövriyyədəki pulun həcminin formalaşması, pul vəsaitlərinin hərəkəti və istifadəsi, pul vəsaitlərinin idarə edilməsi proseslərini və bu proseslərin efekktivlik səviyyəsinin artırılması yollarını öyrənən elmdir.

Bu xarakteristikadan aşkar görünür ki, maliyyə elmi təkcə pul dövriyyəsini təsvir etməməlidir. Bu elm Mərkəzi Bankın uçot dərəcələrini artırıb, yaxud azaltmaq faktının konstasiyası ilə məhdudlaşmalıdır. Maliyyə nəzəriyyəsi vergi dərəcələrinin artırılıb-azaldılması qərarlarının qeydiyyatını aparmaqla kifayətlənməməlidir. Yaxud hər hansı inversiya layihələrinin uçotunu aparmağı öz məqsədi hesab etməməlidir. Maliyyənin başqa və daha tez-tez istifadə olunan şərhlərindən biri isə aşağıdakı kimidir:

Maliyyə – dövlətin, onun ərazi bölmələrinin, həmçinin ictimai məhsulun paylaşdırılması və yenidən paylaşdırılması prosesində genisləndirilmiş, yenidən istehsalat və sosial ehtiyacların təmin olunması üçün zəruri olan vəsait fondlarının formalaşması, paylaşdırılması və istifadə üzrə iqtisadi pul vəsaitlərinin münasibətləridir. Bu şərtlə birgə dövlət maliyyəsinin, bir qayda olaraq, onların iqtisadi və maddi xarakteristikası da vardır:

1) iqtisadi mənada – milli gəlirin bölgüsü, paylaşdırılması və yenidən bölgüsü nəticəsində dövlət və bələdiyyə pul fondlarının formalaşması prosesində yaranan pul münasibətləri sistemidir:

2) maddi mənada – ümumi məqsədlər üçün səfərbər və istifadə olunmuş dövlət və bələdiyyə sturukturlarının pul fondlarıdır.

Maliyyə sferası maliyyə sistemi adlandırılır. Çünki sistem hər bir hissəsi tamlığın xarakteristikasına öz töhfəsini verən və qarşılıqlı əlaqəli hissələrdən ibarət müəyyən bir tamlıqıdır. Sistem anlayışının bu izahından bəllidir ki, maliyyə sferasını, bir sistem adlandırmaq üçün bu sfera müxtəlif elementlərdən, altsistemlərdən və s.-dən ibarət olmalıdır.

Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyevin "xalqımızın iqtisadi inkişafında maliyyə audit nəzəriyyəsi"nin, onun bütün təsərrüfat sahələrində inkişaf kateqoriyası və yeniləşdirilməsi barədə rolu çox böyük olmuşdur.

Azərbaycan Respublikasında xəzinədarlıq sistemi 1995-ci ildə Ümummilli lider Heydər Əliyevin dövründə yaradılmışdır. İlk xəzinə uçotu regionlar üzrə Mingəçevir şəhərində 1-ci mərhələdə baş tutmuşdur ki, həmin dövrdə mən Mingəçevir Maliyyə idarəsinin rəhbəri olmuşam. Xəzinədarlıq işinin qurulmasında fəal iştirakçılardan biri olmuşam.

Milli iqtisadiyyatın bazar münasibətlərinə keçməsi və dünya sisteminə sıx inteqrasiyası, müxtəlif mülkiyyət və təşkilati-hüquqi formalı təsərrüfat subyektlərinin yaranması, sahibkarlıq fəaliyyətinin genişlənməsi yeni biliklər sahəsinin meydana gəlməsinə səbəb olmuşdur. Bu auditdir.

Audit (lat. "*audio*" – eşitmək sözündəndir) – müxtəlif təsərrüfatçılıq və mülkiyyət formalarına aid müəssisələrdə mühasibat uçotunun və maliyyə hesabatının aparılmasının düzgünlüyünün və qüvvədə olan qanunvericiliyə uyğunluğunun yoxlanması prosesidir. Audit müəssisənin verdiyi maliyyə informasiyasının düzgünlüyünə müstəqil nəzarətdir və auditor təşkilatı (firması), yaxud sərbəst auditorla müəssisə, idarə, təşkilat, yaxud digər sifarişçi arasında bağlanan müqavilə əsasında aparılır. Auditin məqsədi faktların toplanması və qiymətləndirilməsi, müəssisənin hesabatının, balansının və təsərrüfatçılığının nəticələrinin yoxlanılması, habelə müəssisənin maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı müxtəlif məsələlər üzrə digər xidmətlərin göstərilməsidir. Dünya təcrübəsində auditin xidməti çox əsrlik tarixə malikdir. Azərbaycanda auditin ortaya çıxma tarixi isə 1991-ci ildən başlayır.

İqtisadi ədəbiyyatlarda audit anlayışı haqqında müxtəlif fikirlər vardır. Xarici təcrübəni şərh edən bir sıra ədəbiyyatlarda auditin kompleks iqtisadi təhlil olduğu əsaslandırılır. İqtisadi ədəbiyyatlarda audit (daxili və xarici) özünün mahiyyəti, məzmunu və təyinatı etibarilə başlıca olaraq, maliyyə-təsərrüfat fəaliyyətinin və maliyyə-təhlilinin metod və üsullardan istifadə etməklə və ya onları əlaqələndirməklə həyata keçirilməsi kimi ifadə edilir.

"Audit xidməti haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsində müəyyənləşdirilmişdir ki, audit-əmtəə istehsalı və satışı, xidmət göstərilməsi və iş görülməsi ilə məşğul olan təsərrüfat subyektlərində mühasibat uçotunun dəqiq və düzgün aparılması, mühasibat və maliyyə hesabatlarının müstəqil yoxlanılmasıdır.

Auditin mahiyyətlərinin və vəzifələrinin araşdırılması göstərir ki, bu, xüsusilə mürəkkəb sosial cəhətdən neytral iqtisadi alətdir.

Milli iqtisadiyyatın bütün sahələrində audit yoxlamalarını auditorlar həyata keçirir. Bu zaman onların qarşısında bir sıra təxirəsalınmaz vəzifələr durur:

- müəssisədə mühasibat uçotunun təşkilində və aparılmasında subyektlərə auditor xidməti göstərmək;
- müəssisə və təsərrüfat subyektlərinin fəaliyyətlərinin yoxlanılmasında onlara yardımçı olmaq;
- əldə edilmiş nəticələr haqqında iqtisadi subyektlərə lazımı məsləhətlər vermək;
- ekspert qiymətləndirmələrində və müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin təhlilində müəssisəyə xidmətlər göstərmək;
- müəssisənin təsis sənədlərinin hazırlanmasında subyektlərə pullu xidmətlər göstərmək;

Müəssisə və təsərrüfat subyektlərinin fəaliyyəti, onun təşkili, idarə edilməsi və əsas məqsədlərinin həyata keçirilməsi baxımından bazar mexanizminin araşdırılması, kompleks şəkildə öyrənilməsi demək olar ki, bütün mərhələlərdə öz aktuallığı ilə fərqlənmişdir. Lakin müasir dövrdə bütün elmi problemlərin, o cümlədən idarəetmə səviyyəsinin yüksəldilməsinin kəskinlik dərəcəsi qeyri-şərtsiz, olduqca yüksəkdə durur.

Hazırda sosial-iqtisadi inkişafın sürətləndirilməsi üçün təsərrüfat mexanizmi yenidən qurulmaqla, ciddi islahatlar həyata keçirilir. Bu prosesin müvəffəqiyyətlə həyata keçirilməsində insan amili həlledici rol oynayır. Bu təcrübənin tətbiq olunması işində auditin rolu böyükdür.

İdarəetmənin tərkib hissəsi olan sosial iqtisadi idarəetmənin məqsədi və vəzifələri cəmiyyətin keçmişinin, bu gününün və gələcək inkişafının hərtərəfli öyrənilməsi nəticəsindən irəli gələn audit işinin təşkilinə şərait yaradır. Audit anlayışını daxili audit və kənar audit kimi başa düşmək lazımdır.

Daxili audit idarədaxili nəzarətdir. Daxili auditin həcmi və məqsədləri müəssisənin ölçüsündən və strukturundan, onun rəhbərliyinin tələblərindən asılıdır. Kənar audit təsərrüfat fəaliyyətinin uçotu, nəzarəti və təhlili sahəsində çalışan auditorluq fəaliyyəti ilə məşğul olmaq hüququna dair lisenziyası və ya sertifikatı olan yüksək ixtisaslı mütəxəssislərin keçirdiyi müstəqil nəzarətdir.

Respublikanın ayrı-ayrı regionlarında, eləcədə müəssisə və təsərrüfat subyektlərində biznes plan tapşırıqlarının, öhdəliklərin, sifarış və müqavilələrin yerinə yetirilməsi nəzarət auditin qarşısında duran mühüm vəzifədir. Audit bu sahələr üzrə daxili ehtiyatların aşkar edilməsi və onlardan səmərəli istifadı üçün əməli məsləhətlər verir.

Azərbaycanın dünya iqtisadi sisteminə interqrasiyası, xarici investisiyaların ölkəmizin neft və qeyri-neft sektoruna güclü axını, beynalxalq təcrübə əsasında idarəetmə sisteminin təkmilləşdirilməsi ölkəmizdə sahibkarlıq fəaliyyətinin və sosial-iqtisadi inkişafın sürətləndirilməsinə, yoxsulluğun azaldılmasına, əhalinin məşğulluğunun və maddi rifah halının yüksəldilməsinə səbəb olmuşdur. Belə bir şəraitdə mövcud istehsal resurslarından, əsas fondlardan, dövrüyyə fondlarından, torpaqdan və digər resurslardan məqsədəuyğun, qənaətlə istifadə olunmasına ehtiyac gündən-günə artır. İstehsal resurslarından səmərəli istifadə olunmasına nəzarət, habelə bu resurslardan daha da səmərəli istifadə edilməsi yollarının aşkar edilməsi audit vasitəsilə həyata keçirilir.

Azad bazar münasibətləri şəraitində isehsal resurslarının ən aktiv hissəsi hesab edilən işçi qüvvəsindən səmərəli istifadə gündəmdə duran ən vacib məsələlərdən biridir. İşçi qüvvəsinin hərəkətinin idarə edilməsi, əmək resurslarının səmərəli və məqsədəuyğun istifadə yollarının aşkar edilməsi audit vasitəsilə həyata keçirilir.

Ölkənin xalq təsərrüfatı miqyasında idarəetmə funksiyalarını icra edən, habelə nəzarət funksiyasını icra edən bütün orqanlar milli iqtisadiyyatın inkişafına dair perspektiv və cari planların kompleks proqramını, proqnozları, əmr, sərəncam və göstərişləri və s. hazırlayan zaman onların həyata keçirlməsinin mümkün olub-olmamasını, habelə həyata keçirilmiş tədbirlər və onların nəticələrinin iqtisadi və sosial əhəmiyyətini audit yoxlamalarına əsasən müəyyən edir. Deməli, idarəetmənin əsasını təşkil edən planlaşdırma, norma və normativlərin, təlimatların, əmr, və göstərişlərin hazırlanması işlərinə audit yoxlamaları ilə başlanılır.

Bazar iqtisadiyyatına keçid şəraitində milli iqtisadiyyatın inkişaf templəri daim artmalıdır. Lakin ayrı-ayrı təsərrüfat subyektlərinin inkişafının artım tempi həmişə eyni olmur. Eyni zamanda təsərrüfat ehtiyatları da tələb olunan miqdarda olmur. Belə bir şəraitdə milli iqtisadiyyatın bütün sahələrinin fəaliyyətinin qarşılıqlı əlaqəli surətdə tarazlaşdırlması audit yoxlamaları əsasında müəyyən edilir.

Müasir aqrar sənaye inteqrasiya şəraitində sənaye sahələrinin kənd təsərrüfatı, ticarət, tikinti, rabitə, nəqliyyat və s. sahələrin qarşılıqlı əlaqəli surətdə inkişafının normal gedişatı audit yoxlamaları aparmaq yolu ilə mümkündür.

Ölkənin dünya iqtisadi sisteminə inteqrasiya etdiyi şəraitdə müəssisə və təsərrüfat subyektlərinin təsərrüfat fəaliyyətinin öyrənilməsi işlərini onların özləri, tabe olduğu baş idarənin təsərrüfat orqanları, maliyyə və bank idarələri, investisiya qoyanlar, sahibkarlar, kreditorlar, vergi idarələri, həmçinin auditorlar, onun maliyyə vəziyyətində maraqlı olan kənar müəssisə, idarə və təşkilatlar, ictimai orqanlar tərəfindən yerinə yetirilə bilər.

Bazar iqtisadiyyatı tələblərinə uyğun olaraq, müasir mərhələdə təsərrüfat subyektlərində idarəetmənin elmi səviyyəsinin durmadan yüksəldilməsi proseslərində təsərrüfat-maliyyə nəticələrinin öyrənilməsi və qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Müəssisə və təsərrüfat subyektlərində maliyyə təsərrüfat fəaliyyətinin audit yoxlanması düzgün olmadıqda auditin hansı növündən istifadə edilməsinin məqsədə uyğun olmasını da düzgün təyin etmək olmaz. Beləliklə, Heydər Əliyevin Azərbaycanda iqtisadi islahatlar, nəticələr və perspektivlər sahəsində maliyyə və audit sisteminin inkişafında çox böyük mühüm rolu olmuşdur.

**İstifadə edilmiş ədəbiyyat**

1. 1993-cü ildən 2003-cü ilə kimi dövlət başçısının iqtisadi müsavirələrdəki çıxışları.
2. Atasov B., Novruzov N., İbrahimov E. Maliyyə nəzəriyyəsi: Ali məktəblər üçün dərslik. Bakı, 2014l
3. Zeynalov V. Maliyyənin əsasları. Bakı, 2008
4. Hacıyev F.S., Əliyev S.H. və b. İqtisadi jurnallardan qeydlər. Bakı: AUDİT, 2011

UOT 32(092)

**Heydər Əliyev elm və təhsil siyasətinin banisi kimi**

*Ələsvər Nağdalı oğlu Musayev,*
*Mingəcevir Dövlət Universitetı*

Hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr etdiyi kimi, Azərbaycan xalqı da hər zaman müasir dövlətimizin memarı və qurucusu, xalqının və ölkəsinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, dahi şəxsiyyət Heydər Əliyevi qürur hissi ilə xatırlayır.

Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir. Heydər Əliyev xarakterinə görə praqmatik, dərin bilikli, məntiqli, cəsarətli dövlət xadimi kimi həyata keçirmək istədiyi ideyalar uğrunda əzmlə mübarizə aparan prinsipial rəhbər olmaqla yanaşı, millətini, xalqını, vətənini sonsuz məhəbbətlə sevən lider idi. Dünya şöhrətli Heydər Əliyev tarixi prosesləri və ictimai-siyasi vəziyyəti düzgün və uzaqgörənliklə qiymətləndirirdi.

“Hər bir milli və dövlət ideologiyasının məqsədi dövlətcilik anlayışı ilə bağlıdır,” – deyən ümumimilli liderin Azərbaycanda milli dövlətcilik ideologiyasının və demokratik təsisatların formalaşdırılmasının və yeni ictimai münasibətlər sisteminin yaranmasının inkişaf etdirilməsində müstəsna rolu olmuşdur.

ABŞ Demokratiya Mərkəzinin prezidenti Allen Ueynşeyn dahi şəxsiyyət haqqında öz fikirlərini belə ifadə etmişdir: “Azərbaycan prezidenti qeyri-adi, dahi şəxsiyyətdir. Onu ən görkəmli siyasi və dövlət xadimi kimi Corc Vaşingtonla müqayisə edirəm. Onların hər ikisinin tarixi missiyası arasında uyğunluq var”. Azərbaycanın bugünkü inkişaf yolunun əsas istiqamətlərindən danışarkən birmənalı şəkildə qeyd etmək lazımdır ki, bu inkişaf ilk növbədə xalqımızın Ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi siyasi xəttin ardıcıl davam etdirilməsinin nəticəsidir.

Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycanda təhsil və elm sahəsində aparılan islahatlar dövlətcilik anlayışının möhkəmlənərək, milli təfəkkür tərzinə cevrilməsində yeni dövrün tələblərinə uyğun müstəqil dövlətin formalaşmasında mühüm rol oynamışdır. Ulu öndər müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. Azərbaycancılıq ideolgiyasının əsas prinsiplərindən biri də beynəlxalq təhsil sisteminə uyğun milli təhsil sisteminin qurulması ilə bağlıdır. Müstəqillik dövrünün ilk illərindən respublikada təhsil sistemində əsaslı islahatların aparılması məqsədi ilə boyük layihələrin sürətlə işlənib hazırlanmasına və həyata kecirilməsinə başlanıldı.

Heydər Əliyevin müvafiq Sərəncamı ilə 1998-ci ilin mart ayının 30-da təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası yaradıldı. 1999-cu ilin iyunun 15-də Komissiya tərəfindən hazırlanan Prezident Heydər Əliyevin milli təhsilin inkişafına qoyduğu tələblərə cavab verən “Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı” təsdiq edildi. Ulu öndər ona xas olan müdrikliklə Azərbaycanda bütün sahələr kimi, elm və təhsilin problemlərini də dərindən bilir, elmin və milli təhsilin inkişafına, qurulmasına strateji əhəmiyyətə malik mühüm bir proses kimi baxırdı.

Ümummilli lider, dünya şöhrətli Heydər Əliyev vətənpərvər, uzaqgörən bir dövlət başçısı kimi hər bir azərbaycanlı gəncin gələcəyinə ümidlə baxırdı. Onların hər birini savadlı, sağlam, vətənpərvər və milli kökümüzə bağlı görmək istəyirdi. Hələ respublikaya rəhbərlik etdiyi sovet dövründə bu istiqamətdə böyük işlər görmüşdü. Məhz Ulu öndərin təşəbbüsü ilə azərbaycanlı gənclər kecmiş SSRİ dövlətinin ən nüfuzlu ali məktəblərində təhsil almışdılar. Həmin dövrdə sovet dövlətinin 170-dən artıq ali təhsil müəssəsində 15 mindən artıq azərbaycanlı gənc respublikamızın iqtisadiyyatında, xalq təsərrüfatında, elm, təhsil və mədəniyyətində ehtiyac duyulan 80-dən artıq sahə üzrə ixtisaslara yiyələnmişdi.

Sonradan zaman göstərdi ki, Ümumimmilli liderimiz azərbaycanlı gəncləri yüksək təhsil almağa göndərərkən perspektivləri bugünkü müstəqilliyimizə hesablanmış, indiki müstəqil Azərbaycan üćün milli kadrlar hazırlamışdır.

Azərbaycana boyük siyasi uzaqgörənliklə rəhbərlik etdiyi 70-80-cı illərdə respublikada fəaliyyət göstərən ali təhsil ocaqlarının sayına daha beş yeni ali məktəb əlavə olunmuşdu. Tələbələrin sayı bir necə il ərzində 70 mindən 100 minə catdırılmışdı. O, bir qayda olaraq, azərbaycanlı gənclərin yaxşı təhsil almasına, müasir peşələrə yiyələnməsinə, istedadlarının özə çıxarılmasına diqqətlə yanaşırdı. Ümummilli lider Azərbaycanı ölkə elminin mərkəzlərindən birinə çevirmək məqsədilə elmi-tədqiqat institutlarının, elmi işçilərin sayının artırılmasına çalışır və onlara qayğı göstərirdi. Bu sahədə onun fəaliyyəti kifayət qədər uğurlu idi. Əgər 1969-cu ildə Azərbaycanda fəaliyyət göstərən 89 elmi-tədqiqat institutlarında, digər layihə müəssisələri və problem laboratoriyalarında 12850 elmi işçi, o cümlədən 55 akademik və müxbir üzvü, 329 elmlər

doktoru və 3000 elmlər namizədi var idisə, 1978-ci ildə elmi-tədqiqat, layihə və sahə institutlarının sayı 118-ə, elmi işçilərin sayı 21407 nəfərə, akademik və müxbir üzvlər 100, elmlər doktorları 853, elmlər namizədlərinin sayı 7594 nəfərə çatmışdı.

Görkəmli dövlət xadimi Heydər Əliyevin səyləri nəticəsində Azərbaycanda elmi işçilərin sayı artır, alimlərin hazırlanmasına xüsusi diqqət verilirdi. 1970–1980-ci illərdə respublikamızda 258 elmlər doktoru, 2677 elmlər namizədi hazırlanmışdı. Respublika Elmlər Akademiyasının 56 həqiqi üzvü və 71 müxbir üzvü var idi. 123 elmi idarə və 17 ali məktəbin kafedralarında 22 min elmi əməkdaş, o cümlədən 900-dən çox elmlər doktoru və 8 mindən çox elmlər namizədi çalışırdı.

Heydər Əliyevin elm və təhsil sahəsində hərtərəfli islahatlara başlaması, eyni zamanda azərbaycancılıq konsepsiyasına əsaslanan milli ideolgiyamızın hazırlanması bu proseslərin əsasını təşkil etmişdir. Onun elm və təhsilə həssaslıqla yanaşması aşağıdakı fikirləri ilə bir daha öz təsdiqin tapmışdır: "Təhsil mürəkkəb bir sahədir. Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi,intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda, təhsil sisteminə cox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət cox həssas olmalıdır. Amma kecid dövrünü yaşayan ölkələr, bir ictimai-siyasi sistemdən başqasına kecən ölkələr bu işə daha da diqqətli olmalı, daha da ciddi və həssas yanaşmalıdırlar."

Ulu öndər müstəqil, demokratik Azərbaycan dövlətinin inkişaf istiqamətlərinin təməlini qurmaq,bu işin həyta kecirilməsində bir sıra amillərin,o cümlədən təhsilin rolunu qeyd edərək, elm və təhsil işcilərinin qarşısında mühüm vəzifələr qoyurdu. Belə ki, Heydər Əliyev göstərirdi ki, "Azərbaycan xalqını yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti vəziyyətinə catdırmaq, qabaqcıl, elmli, bilikli adamların fəaliyyəti nəticəsində olur. Belə adamları üzə çıxarmaqda tükənməz imkanlara malik olan qüvvə təhsildir. Respublikanın bütün müəllimləri təhsilimizin bu gücündən zamanın tələbinə uyğun istifadə etməli, müasir həyata uyğun təlim metodlarından istifadəni ön plana cəkməli və öz dərs modellərini yatatmalıdır. Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gəncliyimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır".

Müstəqil Azərbaycanda təhsil və elm sahəsində Heydər Əliyevin rəhbərliyi ilə aparılan islahatlatlar dövlətçilik anlayışının möhkəmlənərək, milli təfəkkür tərzinə cevrilməsində, yeni dövrün tələblərinə uyğun, müstəqil dövlətin formalaşmasında mühüm rol oynamışdır.

**İstifadə edilmiş ədəbiyyat**


1. Aqaşova N., Abdullayev S. Heydər Əliyev və Azərbaycan. Bakı, 2006
2. Hacıyev İ. "Azərbaycan" qəz., 2016, 11 may


UOT 32

## Heydər Əliyev və milli ordu quruculuğu

*Mirzə Cavad oğlu Cavadov,*
*Mingəçevir Dövlət Universiteti*

Tarixi gerçəklik və ədalət naminə qeyd etməliyik ki, 15 iyun 1993-cü ildə xalqımızın təkidli tələbi ilə ikinci dəfə Azərbaycana siyasi hakimiyyətə qayıdan və ölkə prezidenti seçilən xalqımızın böyük oğlu, müstəqil dövlətimizin memarı və qurucusu, Böyük sərkərdə, hərb elminin bütün incəliklərini dərindən bilən Ulu öndər Heydər Əliyev dövlət və cəmiyyətin inkişafı naminə atdığı ən böyük addımlardan biri də dövlətimizin milli maraqlarına cavab verən, vahid komandanlığa əsaslanan nizami ordunun yaradılması oldu. Çünki dahi strateq yaxşı bilirdi ki, intizamsızlığın hökm sürdüyü, hərbi nizamnamələrin tələblərinin gözlənilmədiyi silahlı birləşmələrdən düşmənlə mübarizədə uğur gözləməyə dəyməzdi. Elə buna görə də atılan ilk addım məhz könüllü batalyonlar kimi yaradılan, sonralar ayrı-ayrı şəxslərin, partiyaların tağşırığı ilə hərəkət edən və cinayətkar

yuvasına çevrilən silahlı dəstələrin buraxılması oldu. Prezident fərmanı ilə 1993-cü il noyabrın 1-də Dövlət Müdafiə Şurası yaradıldı və elə həmin ayın 23-də "Müdafiə haqqında" Qanun qəbul edildi.

1993-cü il noyabrın 2-də Ulu öndər Heydər Əliyevin xalqa müraciəti ilə Azərbaycanda həm ordu quruculuğunun əsası qoyuldu, həm də cəhbədəki məğlubiyyətlər seriyasına birdəfəlik son verildi. Rəhbər və sərkərdəlik qətiyyəti ordu quruculuğu prosesinin uğurla başlaması və davam etdirilməsində özünü göstərdi. 1993-cü ilin noyabr-dekabr aylarında 16,7 min döyüşçüsü olan 40 ehtiyat taboru təşkil edildi. 1994-cü ilin noyabrında milli ordu sıralarında 54 min əsgər və zabit var idi. Ordunun maddi-texniki bazası möhkəmləndi, zabit kadrlarla təmin olunması yaxşılaşdı, mənəvi və fiziki hazırlığı gücləndi. Ulu öndərin cəbhə xəttinə gələrək düşmənlə təmas xəttində olan döyüşçülərimizlə görüşməsi onlarda dövlətə, rəhbərə inam yaratdı.

Bütün bunlar 1994-cü ilin uğurlu Horadiz əməliyyatında özünü qabarıq sürətdə biruzə verdi. Füzuli rayonunda Horadiz qəsəbəsi və 22 kənd, Cəbrayıl və Kəlbəcər rayonlarının bir sıra yaşayış məntəqələri düşməndən azad edildi. Düşmən 4 min əsgər və zabit, 50 zirehli texnika, 15 artileriya qurğusu itirdi. 1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan müharibəsində mühüm əhəmiyyət kəsb edən atəşkəs əldə olundu. Ölkədə hakimiyyət boşluğu aradan qaldırıldı, siyasi sabitlik yarandıvə ordu quruculuğu istiqamətində görülən işlər yeni fazaya daxil oldu. Ulu öndər Heydər Əliyev orduda şəxsi heyətin mənəvi-psixoloji hazırlığını mühüm amillərdən sayırdı. O, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə, hərbi-vətənpərvərlik işini gücləndirilməsinə xüsusi diqqət yetirilməsini tələb edirdi.

Silahlı qüvvələrin döyüş hazırlığının səviyyəsi tək müasir döyüş texnikası ilə deyil, bu texnikanı idarə edə biləcək savadlı və intelektual dünyagörüşünə malik zabit korpusundan əhəmiyyətli dərəcədə asılıdır. Bu baxımdan silahlı qüvvələrdə mükəmməl təhsil sisteminin yaradılması çox vacib və tarixi əhəmiyyətli bir məsələ idi. Bu məsələ Ulu öndər Heydər Əliyev üçün prioritet idi. Onun təşəbbüsü və Türkiyə ilə imzalanmış protokola əsasən 1997-ci ildə indi onun adını daşıyan Azərbaycan Ali Hərbi məktəbi, bir qədər sonra Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Təyyarəçilik Məktəbi yaradıldı. Silahlı qüvvələrin şəxsi heyyətinin sosial müdafiəsinin güclənməsinə diqqət artırıldı.

Ulu öndər Heydər Əliyev NATO ilə əməkdaşlığa da xüsusi önəm verirdi. O, 1994-cü il mayın 4-də Brüsseldə NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramını imzaladı. Bu proqramın imzalanması ilə Azərbaycan-NATO əlaqələrinin hərtərəfli inkişafının əsası qoyuldu və bu əlaqələr bu gün daha da inkişaf etməkdədir. Nəticədə Azərbaycan ordusu NATO standartlarına keçdi, birgə hərbi təlimlərə cəlb edildi, sülhməramlı bölmələrimiz isə İraq və Əfqanıstanda sülhyaratma əməliyyatlarında uğurla iştirak etdi.

Xalqımızın Ümummilli lideri Heydər Əliyevin ordu quruculuğu sahəsində əsasını qoyduğu strategiya onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. "Güclü iqtisadiyyata mütənasib güclü ordu" formulu ötən 17 ildə Prezident İlham Əliyevin siyasi fəaliyyətinin əsas qayələrindən biri kimi diqqəti cəlb etmişdir.

Bu bir həqiqətdir ki, ölkəmizin ildən-ilə artan iqtisadi inkişaf tempi silahlı qüvvələrimizin də müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində mühüm rol oynamışdır . Orduya və ölkənin müdafiəsinə ayrılan büdcə vəsaiti ilə xeyli artırılmış, Azərbaycan ordusu ən müasir döyüş texnikası ilə təchiz edilmişdir. Bütün bunlar isə 44 günlük Vətən müharibəsində müzəffər ordumuzun düşmən üzərində möhtəşəm zəfərinə və xalqımızın 30 illik torpaq həsrətinə son qoyulmasına gətirib çıxardı.

**İstifadə edilmiş ədəbiyyat**

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 42 cilddə, Bakı, 1997-2012
2. İlham Əliyev. İnkişaf məqsədimizdir. Bakı, 2017
3. Hüseynova İ. Müstəqil Azərbaycanın qurucusu. Bakı, 2004
4. Azərbaycan tarixi. 7 cilddə, VII cild. Bakı, 2007

5. Azərbaycan Milli Ensiklopediyası. Bakı, 2007
6. “Azərbaycan” qəz., 2008, 3 iyun

UOT 32(092)

**Heydər Əliyev irsi Azərbaycan gəncliyi üçün daimi örnəkdir**

*Zəminə Xosrov qızı Gülüstani,*
*Mingəçevir Dövlət Universiteti*

Ulu öndər Heydər Əliyev Azərbaycan xalqına, bugünkü və gələcək nəsillərə böyük bir miras qoyub getmişdir. Heydər Əliyev irsindən böyük bir nəsillər,etnoslar, alimlər, müəllimlər, ziyalılar,gənclər və s. bəhrələnirlər.

Bugünkü təhsil sisteminə nəzər yetirsək, görərik ki, dərsliklərimizin, kitablarımızın istiqamətverici faktorları Heydər Əliyev irsidir. Heydər Əliyev Azərbaycan xalqının tarixinin tədqiqinə, xalqın mədəni, mənəvi irsinin qorunmasına və gənc nəsillərin təfəkkürünün formalaşmasına xüsusi diqqət yetirir və qayğılar göstərirdi.

Müstəqillik dövründə Heydər Əliyevin xalqın keçmişinə, bu gününə və gələcəyinə olan maraq və qayğılarının dairəsi müqayisə olunmayan dərəcədə genişlənmişdir. Azərbaycan dövlətçiliyinin qədimliyi və tarixi kökləri, müasir şəraitdə dövlət quruculuğu, dövlət müstəqilliyinin qorunması böyük siyasi əhəmiyyət kəsb edir.

Dünyada gedən prosesləri və müasir dövrün tələblərini nəzərə alaraq, H.Əliyev cəmiyyətin, dövlətin və ictimai münasibətlərin demokratikləşdirilməsi problemlərinə xüsusi əhəmiyyət verirdi.

Azərbaycan xalqının böyük oğlu H.Əliyev ən başlıca vəzifə kimi cəmiyyətin sağlamlığını nəzərdə tuturdu. Bu məsələnin həlli yollarını isə birinci növbədə, gənclərin yüksək səviyyədə təhsilinin və tərbiyəsinin təşkil olunmasında görürdü. H.Əliyev təhsil işçilərinə, elm və mədəniyyətlə məşğul olan insanlara, xüsusən də müəllimlərə, gənclərin milli-mənəvi ruhda, xalqın keşmişini dərindən öyrənmək istiqamətlərində tərbiyə olunmasını tövsiyə edirdi.

Biz heç zaman unutmamalıyıq ki, Heydər Əliyevin Azərbaycan mədəniyyətinin, elminin, təhsilinin, incəsənətinin inkişafında böyük rolu olmuşdur.

Hər birimizə aydındır ki, cəmiyyətin inkişafı heç də hamar yollardan keçmir. Cəmiyyət inkişaf edərək, təkmilləşərək müxtəlif çətinliklərlə, maneələrlə üzləşir. Bu çətinliklər gündən-günə inkişafda olan Azərbaycan dövlətindən də yan keçməmişdir. Onlardan ən əsası və ən ağırı olan ölkəmizin ərazisinin 20 %-nin erməni faşistləri tərəfindən zəbt olunması və 1 milyona qədər qaçqın və köçkünün olması idi. Lakin bildiyimiz kimi bu sahədə, Ümummilli liderimiz Heydər Əliyevin layiqli varisi və davamçısı olan cənab İlham Əliyevin böyük siyasəti və bacarığı sayəsində torpaqlarımız düşmən tapdağından azad oldu. 44 günlük Vətən müharibəsində xalqımızın nələrə qadir olduğunu düşmənlər də bir daha anladılar. Bütün bunlar böyük Heydər Əliyev məktəbi keçmiş, yüksək savad və səriştəliliyi sayəsində İlham Əliyevin və xalqın qalibiyyəti idi.

Heydər Əliyev ideyaları bu gündə yaşayır, bu gün də Azərbaycanın inkişafında, inkişaf strategiyalarının formalaşmasında böyük rol oynayır.

Hələ sovet illərində Azərbaycana rəhbərlik edən Heydər Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə, tarixinə və tarixi keçmişinə münasibəti, qayğısı xüsusi yer tutur. Nizaminin, Füzulinin, Nəsiminin, Aşıq Ələsgərin, Hüseyn Cavidin, Üzeyir bəy Hacıbəylinin, Qara Qarayevin və s. irsini məhz Heydər Əliyev dünya xalqlarına Azərbaycan xalqının milli-mənəvi dəyəri kimi təqdim etdi.

Heydər Əliyevin siyasi və tərbiyəvi fəaliyyətində mənəviyyat, mənəvi tərbiyə, mənəvi tərəqqi, gənclərin, mənəvi sağlamlıq problemi xüsusi yer tutmuşdur. Bütün həyatını, ruhunu, qəlbini, düşüncəsini, bir sözlə, bütün varlığını Azərbaycanın tərəqqisinə, yüksəlişinə həsr edən, Azərbaycanı və onun milli-mənəvi dəyərlərini bütün dünyaya tanıdan Ulu öndər Heydər Əliyevin böyük ömür yolu əsl nümunədir.

Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsində bu gün Azərbaycan dünyanın inkişaf etmiş dövlətləri arasında öz layiqli yerini tutmuş və ölkə başçısı İlham Əliyev cənablarının gərgin əməyi sayəsində gündən-günə inkişaf edərək, hegemon dövlətlərdən birinə çevrilir.

Ulu öndər daima gənclərə xüsusi diqqət ayırmışdır. Məhz Heydər Əliyevin rəhbərliyi ilə 1996-cı ildə Gənclərin I Forumu keçirildi. Ölkəyə rəhbərlik etdiyi illərdə azərbaycanlı gənclərin xaricdə təhsil almalarına və ixtisaslı kadr kimi yetişərək, respublikada və respublikadan kənarda xidmət göstərmələrinə xüsusi diqqət göstərmişdir. Bunun nəticəsidir ki, Azərbaycan gəncliyi bu gün də Heydər Əliyevin ideyalarını yaşadır.

Dövlətin, xalqın gələcək taleyi onun malik olduğu elmi-intellektual potensialından asılıdır. Başlıca vasitə sayılan elm və təhsil həm də cəmiyyət qarşısında dayanan bir çox problemlərin həllində mühüm rol oynayır. İnkişafda olan Azərbaycanın da bu yolu seçməsi əsasən təhsil siyasətinin strateji mahiyyətindən irəli gəlir. Təhsil siyasətinin strateji mahiyyət daşıdığını daima diqqət mərkəzində saxlayan Azərbaycan Respublikasında bu sahədə mühüm dövlət proqramları, layihələri uğurla həyata keçirilir ki, bu da nəticədə təhsilimizin inkişafına xidmət edir.

Heydər Əliyev görkəmli dövlət xadimi, dünyada tanınmış böyük siyasətçi lider, Aərbaycan xalqının Ümummilli lideri idi. Onun həyat və fəaliyyəti, keçdiyi çətin, mürəkkəb və şərəfli yol gənc nəslin yetişib formalaşmasında, məktəblilərin, tələbə gənclərimizin mənəvi, əxlaqi cəhətdən tərbiyələnməsində ən böyük örnəkdir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Mədəniyyətimizin və mədəni incilərimizin hamisi. Bakı, 2007, 422 s.
2. Heydər Əliyev: dövlət xalq üçündür. Bakı: Adiloğlu, 2008
3. H.Əliyev. Təhsil millətin gələcəyidir. I–IV kitab. Bakı, 1997

UOT 32(092); 330.34; 330.35

## Heydər Əliyevin Azərbaycan dövlətini davamlı iqtisadi inkişafa aparan düşünülmüş strategiyasının əsas istiqamətləri

*Təranə Əsman qızı Əliyeva,*
*Mingəçevir Dövlət Universiteti*

Tarixdə əbədiyaşar hüququnu qazanmış elə böyük şəxsiyyətlər olub ki, onların miras qoyduqları irs mənsub olduqları xalqın gələcəyinə işıq salaraq dünyadakı yerini müəyyənləşdirmiş, milli dövlətçilik və müstəqillik kimi ali ideyaların gerçəklənməsində müstəsna rola malik olmuşlar. Müəyyən mərhələdə önə çıxan belə dühalardan biri də Azərbaycan xalqının xilaskarı, tarixi memarı, fenomen şəxsiyyət Heydər Əliyevdir. Şərəfli və mənalı ömür yolunu keçmiş Ümummilli lider bütün fəaliyyətini milli dövlətçiliyimizin dirçəlməsinə, müstəqil və müasir bir dövlətin qurulmasına, xalqının müstəqillik arzusuna qovuşmasına həsr etmişdir.

Azərbaycanın dövlətçiliyinin tarixinə öz adını əbədi həkk etmiş bu nadir şəxsiyyətin keçdiyi həyat yoluna nəzər salsaq, xalqımızın dünəni, bu günü və sabahını aydın təsəvvür etmək olar. Bu mənada uzaqgörən siyasətçi Heydər Əliyevə layiq olduğu qiyməti vermək, vətənə və xalqına göstərdiyi misilsiz xidmətləri obyektiv dəyərləndirmək məsuliyyət tələb edir. Hər birimiz üçün əziz olan Ulu öndər dövlətin və cəmiyyətin hər bir üzvünün mənafeyinə xidmət etmiş, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, xalqın rifahının daha da yaxşılaşdırılması üçün mümkün olan hər bir işi görmüş, bütün varlığı ilə öz həyat və fəaliyyətini respublikanın çiçəklənməsinə həsr etmişdir.

İstənilən siyasi şəraitdə xalqının, dövlətinin problemlərinə biganə qalmaması Heydər Əliyevi Ümummilli liderə çevrilməsini təmin edən əsas amillərdir. Respublikaya rəhbərlik etdiyi dövrdə

millətinin rifah halının yüksəldilməsi üçün keçirdiyi islahatlar, atdığı addımlar dövlətinə bəslədiyi dərin məhəbbətinin bariz sübutudur. İlk gündən resublikanın qarşılaşdığı problemləri düzgün müəyyənləşdirərək onların aradan qaldırılması üçün qətiyyət və prinsipiallıq göstərərək, fitri istedadı, uzaqgörənliliyi, yüksək təşkilatçılıq məharəti və milli ideyalara bağlılığı ilə Azərbaycanı dinamik inkişaf yoluna çıxarmağa nail olmuşdur. Mütərəqqi yenilikləri idarəçilikdə məharətlə tətbiq etməklə və milli kadrlara üstünlük verməklə cəmiyyətin normal inkişafını təmin etməyi bacarmışdır.

Ulu öndərin yürütdüyü daxili və xarici siyasət respublikamızın dünya miqyasında nüfuzunu artıran əsas amillərdən biri olan müstəqil dövlət kimi formalaşmasına, maddi, mənəvi, insan resurslarına, milli-vətəndaş birliyinə, güclü ordu və müdafiə potensialına və s. ilə özünü təmin edən milli iqtisadiyyata malik olmasına səbəb oldu. Məlumdur ki, yenicə müstəqilliyini bərpa etmiş bir dövlətin iqtisadi və ideoloji əsaslarınn, idarəçilik mexanizminin, təhlükəsizlik konsepsiyasının, xarici ticarət strategiyasının formalaşdırılması və həyata keçirilməsi çox çətin bir prosesdir. Məhz dahi şəxsiyyət Heydər Əliyevin siyasi uzaqgörənliyi, şəxsi nüfuzu ölkənin sabit inkişaf yoluna qədəm qoymasına, milli iradəyə əsaslanan müstəqil dövlət kimi dünya arenasına inteqrasiya etməsinə şərait yaratmışdır.

Həyatı və fəaliyyətinin doğma vətəninə sədaqət, məhəbbət simvolu olmuş Ulu öndərin əməlləri şəxsi hünər rəmzinə çevrilmişdir. Bu səbəbdən onun adı ilə bağlı olan hər bir məqam bizim üçün müqəddəs və əvəz olunmazdır. Əlverişli siyasi mühitdən yararlanaraq, elm və təhsilə istiqamətləndirməyi bacaran belə bir vətənpərvər lider olmasaydı, xalqımız yaranan siyasi şəraitdən yetərincə yararlanmayıb, milli iradəsini toplayaraq müstəqillik ideyalarına qovuşa bilməzdi. Dünya şöhrətli fenomenin dühası sayəsində xalqımız yaşamağa məhkum olduğu böhran və tənəzzül günlərindən xilas oldu və azadlığına qovuşdu.

Azərbaycanın yetirdiyi ən böyük şəxsiyyətin siyasi obrazı tarixin sınağından çıxmış idarəçilik məktəbinin, dövlətçilik şüurunun və müasir siyasi fikrin ən davamlı keyfiyyətinin canlı mənzərəsidir. Xalqımız müstəqil dövlət ideyasına, dövlətçiliık ənənələrinə, milli dəyərlərin ali keyfiyyələrinə Heydər Əliyevin istiqamətləndirdiyi yol ilə gedərək nail olmuş, millət kimi mğvcudluğunu və özünü idarə etmək bacarığını yüksək səviyyədə nümayiş etdirmişdir.

İqtisadiyyatın hər bir dövlətin inkişafının özəyi hesab edən Ulu öndərin əsas missiyası ondan ibarətdir ki, iqtisadiyyatı zəif olan ölkəni güclü hesab etmək olmaz və dövlətin inkişafı onun iqtisadi inkişafından bilavasitə asılıdır. Öz ölkəsinə dərin rəğbət bəsləyən Heydər Əliyev hesab edirdi ki, iqtisadi inkişaf üçün respublikamız hər bir imkana malikdir və bütün potensialdan tam istifadə edərək, xalq-dövlət birliyinə əsaslanan düzgün hazırlanmış inkişaf strategiyası ölkəni inkişaf yoluna qədəm qoymasına imkan verəcəkdir. Bu baxımdan daima milli maraq və mənafeləri önə çəkən Ulu öndər yeni pozitiv dəyişiklər hazırlamaqla və yaranmış vəziyyətə uyğun strateji qərarlar qəbul etməklə uzaq hədəflərə hesablanmış inkişaf strategiyası formalaşdırmışdır.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən irimiqyaslı islahatlar yenicə müstəqilliyini qazanmış respublikanın sosial-mədəni həyatının canlanmasına, milli-mənəvi dəyərlərin dirçəldilməsinə, iqtisadi potensialın formalaşdırılmasına və nəticədə gələcək müstəqilliyin təmin olunması üçün bünövrə qoymuşdur. Bu elə bir bünövrə, zəmin idi ki, gələcəkdə yalnız onun möhkəm dayaqları üzərində müstəqil dövlətin qurulması, yeni tarixin əsasının qoyulması mümkündür.

Heydər Əliyevin Azərbaycan Respublikasını davamlı iqtisadi inkişafa aparan düşünülmüş strategiyasının istiqamətlərinə müstəqil iqtisadiyyatın təşəkkülünə səbəb olan ardıcıl sosial-iqtisadi islahatların həyata keçirilməsini, bu sahənin dayanıqlı inkişafını təmin edən qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi sahəsində görülən işləri misal göstərmək olar. Demək olar ki, inkişaf strategiyasına əsaslanaraq iqtisadiyyatın dirçəlməsi və sürətli inkişafı baxımından sadalamaqla bitməyən xeyli işlər görülmüşdür.

Müstəqilliyin ilk illərindən respublikanın milli iqtisadiyının tamamilə xarici kapitaldan və neft sənayesindən asılı olduğu hər birimizə məlumdur. Lakin uzaqgörən siyasətçinin rəhbərliyə gəlişi ilə iqtisadi, sosial, infrastruktur və s. sahələrdə yerli kapital və qeyri-neft sektorunun payı əhəmiyyətli

dərəcədə artmış, əsas valyuta ehtiyatlarının bu sektorun yüksəlişinə istiqamətlənmişdir. Bütün bunlar isə dövlət başçısına inamı artırmış, ölkənin iqtisadi gələcəyi ilə bağlı əhalidə əhval-ruhiyyənin artırılmasına səbəb olmuşdur.

Respublikada aparılan islahatlar mürəkkəb bir sistem olan iqtisadiyyatın normal fəaliyyətini təmin edən bütün altsistemləri də əhatə etmişdir. Buna misal olaraq, qeyd etmək olar ki, informasiya texnologiyaları, nəqliyyat, rabitə, energetika və s. sistemlərində struktur dəyişikliklər edilmiş, onların normal fəaliyyətinin təmin edilməsi və səmərəliliyinin artırılması üçün hüquqi baza formalaşdırılmışdır. Əhaliyə qayğını yaxşılaşdırmaq, iqtisadi təhlükəsizliyi təmin edilməsi məqsədilə ölkədə enerji təchizatının, sosial sferanın, əhalinin təminatının daha da yaxşılaşdırılması, yanacaq-enerji sektorunun səmərəli, ahəngdar, fasiləsiz fəaliyyətinin təmini istiqamətində irimiqyaslı layihələr həyata keçirilmişdir.

Heç bir ölkənin yalnız öz çərçivəsində iqtisadiyyatını inkişaf etdirə bilməməsi ideyasını əsas tutan dünya şöhrətli lider Heydər Əliyevin dünyanın ən nüfuzlu dövlətləri və təşkilatları ilə qurduğu əməkdaşlıq Azərbaycanda yeni iqtisadi sistemin qurulması və dünya sivilizasiyasına qovuşmasına mane olan problemlərin aradan qaldırılmasına şərait yaratdı. Məhz onun rəhbərliyi nəticəsində belə nüfuzlu təşkilatlardan Ümumdünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və s. qurumlarla başlanmış əməkdaşlığı qeyd etmək olar.

Böyük fəxarət hissi ilə qeyd etmək olar ki, hazırki dövrdə dövlətimizin sosial-iqtisadi istiqamətlərdə əldə etdiyi uğurlar əvəzolunmaz şəxsiyyət Heydər Əliyevin uzaqgörən siyasətinin, quruculuq işlərinin nəticədir. Ulu öndərin ideyaları idarəetmə sahəsində dahi şəxsiyyətdən zəngin təcrübə toplamış cənab İlham Əliyevin yüksək idarəçilik keyfiyyətləri və rəhbərliyi ilə Azərbaycan hökuməti tərəfindən hal-hazırda da uğurla reallaşdırılır və davam etdirilir. Prezident İlham Əliyevin apardığı həm daxili, həm xarici siyasət zaman çərçivəsinə sığmayan dahi şəxsiyyət Heydər Əliyevin əməllərinin davamıdır. Azərbaycan dövlətinin inkişafı və vətəndaşlarının yaxşı yaşaması bu siyasətin məğzini təşkil edən əsas meyardır. Azərbaycan dövləti var olduqca, Heydər Əliyevin əməlləri və ideyaları da daima yaşayacaq və qorunub saxlanacaqdır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Heydər Əliyev Azərbaycanda dövlət quruculuğunun banisidir. Məqalələr toplusu. Bakı, 2017
2. Heydər Əliyev: dövlət xalq üçündür. / X.Vəliyevin redaktəsi ilə. Bakı, 2008
3. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, 2004
4. Qasımov Ə. Heydər Əliyevin inkişaf strategiyasi və Naxçıvan Muxtar Respublikasi (XX əsrin 70-80-ci illəri). Bakı, 2009

UOT 902(4/9)

## Gənc nəslin tərbiyəsində Heydər Əliyevin rolu

*Aygün Raqif qızı Qədirova,*
*Mingəçevir Dövlət Universiteti*

Milli-mənəvi və maddi dəyərlərimizin Müstəqil Azərbaycan Respublikasının azərbaycançılıq milli ideologiyasının tərkib hissəsi kimi yüksək səviyyədə təbliğidir. Ümummilli lider Heydər Əliyev cənabları demişdir: “Milli ideologiyamızın əsas tərkib hissəsi bizim milli-mənəvi dəyərlərimizdir. Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan bir xalq həqiqi xalq, həqiqi millət ola bilməz.” [2, s.244]

Mədəniyyət cəmiyyət və insanın özünün inkişafının tarixən müəyyən səviyyəsi, formaca milli, məzmunca beynəlmiləl və ümumbəşəri, üstqurum hadisəsi kimi təzahür edir. Dünya mədəniyyəti özünün maddi və mənəvi dəyərləri ilə seçilən türk mədəniyyəti və onun tərkib hissəsi olan Azərbaycan mədəniyyəti mükəmməl maddi təməl üzərində, uzun əsrlərin əməli vərdişləri, empirik bilik və təcrübələri ilə zənginləşmiş, mədəni irsimizin mühüm sahəsi olmuşdur. Xalqımızın maddi və mənəvi mədəniyyətinin, təsərrüfat və ailə məişətinin, etnik proseslərin öyrənilməsi Azərbaycan etnoqrafiyası elmi qarşısında duran ən aktual problemlərdəndir. Buna görə gənclərimiz, məktəblilərimiz də milli inkişaf tariximizi öyrənərkən həm də etnoqrafiya elminin məsələləri ilə bağlı yetərincə maraqlanmalıdırlar. Əlbəttə ki, bu onların intellektual səviyyəsini, tarixi-etnoqrafik biliklərini daha da inkişaf etdirmiş olacaq.

Hər bir xalq dünya mədəniyyəti xəzinəsinə hansısa dərəcədə öz töhfəsini verir və bu isə ümumbəşəri mədəniyyətin tərkib hissəsinə çevrilir. Bəli, bizim çox böyük milli-mənəvi dəyərlərimiz var. Bunlar isə iki yerə: maddi və mənəvi dəyərlərə bölünür. Xalqımızın zəhməti ilə qurulmuş maddi dəyərlərə bizim abidələrimiz, yaşayış məskənlərimiz, xalq geyimləri, xalq nəqliyyatı vasitələri, bəzək əşyaları və yeməklərimiz daxildir. Azərbaycan xalqının çoxəsrlik empirik təcrübə, bilik və vərdişlərə söykənən, böyük təkamül mərhələsi keçən maddi mədəniyyət tarixi zəngin olub, özünün spesifikasını və milli xüsusiyyətlərini maddi mədəniyyətin bütün sahələrində bariz şəkildə nümayiş etdirir” [4, s.7]. Mənəvi mədəniyyətə din, elm və təhsil, tərbiyə mənəviyyatı, milli oyun və əyləncələrimiz, bayramlarımız, qonaqpərvərliyimiz və s. aiddir. Bunların hamısı böyük zəhmətlə yaranıb, nəsillərdən-nəsillərə ötürülmüş və maddi-mənəvi mədəniyyət abidələri kimi bu günümüzə çatmışdır. Azərbaycançılıq ideologiyası elə bu dəyərlər üzərində qurulub ki, etnoqrafiya elminin əsas vəzifəsi bunları araşdırmaqdadır.

Milli-mənəvi və maddi dəyərlərin təbliği və qorunub gələcək nəsillərə çatdırılması üçün dövlətimizdə nə kimi tədbirlər həyata keçirilib? Bu gün dünya xalqlarını heyran edən xalqımızın zəngin qonaqpərvərlik adətləri, dünya xalqlarına örnək ola biləcək oyun və əyləncələri, sənət yaradıcılığı, xalça kolleksiyaları, Novruz adətləri, zəngin musiqi mədəniyyətimiz, geyim mədəniyyətimiz, folklor örnəkləri və s. dəyərlərimiz var. Müasir gənclik bunları çox yaxşı öyrənməli və gələcək nəsillərə otürməlidir. Musiqi mədəniyyətinin paralel qollarından olan muğam sənəti və aşıq sənəti xalqımızın çox dərin tarixi kökləri olan və yüzilliklər boyu keçilən inkişaf yolunun məntiqi məhsuludur. Heydər Əliyev Fondunun təşəbbüsü və YUNESKO-nun xətti ilə muğam sənətimiz dünya miqyasında çox böyük uğur qazanıb və YUNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına salınıb. Zaman dəyişir və hər şeyi də özünə uyğun dəyişdirir. Buna görə də biz ilk növbədə öz mədəniyyətimizi qorumalı, toxunulmaz saxlamalıyıq ki, həm bu günkü gənc nəsil və sonra gələn nəsillər Azərbaycan mədəniyyətinin necə formalaşdığını, inkişaf mərhələsini, hansı maddi-mənəvi dəyərlərə sahiblik etdiyini bilsin. Biz bu gün çox böyük səylə çalışmalıyıq ki, maddi-mənəvi sərvətlərimizə aid olan heç bir element itib getməsin və yaddan çıxmasın. Təəssüflər olsun ki, son dövrlərdə bədnam erməni “qonşularımız” torpaqlarımıza göz tikdikləri kimi, musiqi mədəniyyətimiz, milli mətbəximiz, xalq geyimlərimiz və s özüninkiləşdirməyə çalışırlar. Buna görə də mədəniyyət məsələləri ilə məşğul olan bütün əlaqədar qurumlar və alimlərimiz çox işləməli və gənclərimizə milli-mənəvi dəyərlərimizi tam tanıtdırmalıdırlar. Bu günkü gənclərimiz güclü elmi potensiala və analitik təfəkkürə malikdirlər.

Etnoqrafiya – dünya xalqlarının məişət və mədəniyyətindən, adət-ənənələrindən, etnik birliklərin yaranması və inkişafından, onların yayılması və qarşılıqlı mədəni əlaqələrindən bəhs edən tarix elmidir [3, s.3]. “Etnoqrafiya” yunan sözüdür, “etnos” – xalq, “qrafos” – öyrənmək deməkdir. XIX əsrin ikinci yarısında etnoqrafiya çiçəklənmə dövrünü keçirirdi və müstəqil elm kimi fəaliyyətə başladı. Alman alimi Şults etnoqrafiyanı “xalqşünaslıq” adlandırmış və bu elmi iki sahəyə ayırmışdır; etnologiya və etnoqrafiya. Etnoqrafiya elmini təsviri xalqşünaslıq və yaxud praktik xalqşünaslıq adlandırmışdı. Etnologiya elmini isə müqayisəvi yəni nəzəri xalqşünaslıq elmi adlandırmışdı. Etnoqrafiya elminin əsas tədqiqat obyekti etnosdur. Etnos, xalq anlayışı etnoqrafiyanın əsas və başlıca anlayışıdır, çünki xalq anlayışı çox vaxt etnosla eyniləşdirilir.

Etnoqrafiya elmi gənclərimizin milli-mənəvi və maddi dəyərlər üzərində köklənməsində, xalqımıza məxsus dəyərlərin, gələcək nəslə tam şəkildə çatdırılmasında çox mühüm işlər görüblər və görməkdədə davam edirlər.

Etnoqrafiya elminin ali və orta məktəblərdə tədrisi hansı vəziyyətdədir? Əfsuslar olsun ki, bir neçə ali məktəb istisna olmaqla, etnoqrafiya elmi tədris olunmur. Nəzərə alaq ki, müasir gəncliyin şəxsiyyət kimi formalaşmasında və milli-mənəvi dəyərlərimizin tanınmasında bu elmin rolu böyükdür. Məhz buna görə də hesab edirəm ki, ali və orta məktəblərdə etnoqrafiya elmi də ciddi şəkildə tədris olunmalıdır. Bundan başqa, xalqımıza məxsus bir çox dəyərlərimiz – sənət yaradıcılığımız, milli geyimlərimiz, milli oyun və əyləncələrimiz, xalq təqvimimiz, təsərrüfat-ailə məişətilə bağlı el sınamalarımız, ev tikintisi ilə bağlı xalq adətlərimiz, toy və dəfn adətlərimiz, xalq inamlarımız, süfrə mədəniyyətimiz, qonaqpərvərliyimiz, ağsaqqallıq-ağbirçəklik kimi etnoqrafik dəyərlərimiz, musiqi sərvətimiz və başqa bir çox etnoqrafik sahələrdə tədqiqat işlərinin sayı artmalı və bu sahədə fundamental elmi nəşrlərin sayı çoxalmalıdır.

Xalqımızın Ümummilli lideri Heydər Əliyev cənabları dəfələrlə qeyd etmişdir ki, “Azərbaycan qədim tarixə, mədəniyyətə, gözəl təbiətə, böyük iqtisadi potensiala və eyni zamanda rəngarəng, ecazkar mətbəxə malik ölkədir” [1, s.2].

Bu günün reallığının layihəsi olan qloballaşma problemləri ilə üz-üzə qalan milli-mənəvi dəyərlərimiz ciddi sınaq qarşısındadır. Bəli, bir çox alimlər qeyd edirlər ki, qloballaşma prosesi lazımdır, sivilizasiyalar bir-birinə qovuşmalıdır, ancaq hər bir xalq ona məxsus milli-mənəvi dəyərləri böyük qloballaşma çərçivəsində qoruyub saxlamalıdır. Qloballaşma prosesi zamanı hər bir etnosa məxsus olan dəyərlərə xüsusi bir ad verilməlidir. Etnoqrafiya bir elm kimi hərtərəfli tədqiq və geniş tədris olunarsa milli dəyərlərimizi daha çox mənimsəyərik və Azərbaycan xalqının etnik simasını dünyada daha da layiqli şəkildə tanıdarıq.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Kulinariyası Ensiklopediyası. Bakı: Şərq-Qərb, 2007, 302 s.
2. Əliyev H.Ə. Yeni Azərbaycan partiyasının yaradılmasının 6-cı ildönümünə həsr olunmuş təntənəli yığıncaqda nitq. 12 noyabr 1998-ci il / Müstəqilliyimiz əbədidir. Çoxcildlik əsərləri, 18-ci cild, 552 s.
3. Quliyeva N.M. Etnoqrafiya və Etnologiya: Ali məktəb tələbələri üçün vəsait. Bakı, 2009, 157 s.
4. Vəliyev F.İ. XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat). Bakı: Şərq-Qərb, 2010, 424 s.

UOT 82.0 (091)

**Əzizə Cəfərzadə irsinə Heydər Əliyev qayğısı**

*Ayna Çingiz qızı Babazadə,*
*Mingəçevir Dövlət Universiteti*

Ulu öndər Heydər Əliyev – tariximizin, ədəbiyyatımızın, mədəniyyətimizin, eləcə də incəsənətimizin inkişafı məhz onun adı ilə bağlıdır. Azərbaycan ədəbiyyatında özünəməxsus yeri olan, dəsti-xətti ilə seçilən şairlərin, yazıçıların dünya ədəbiyyatı miqyasında tanıdılması, yubileylərinin qeyd olunması, orden və medallarla təltif olunmasında Heydər Əliyevin rolu danılmazdır. Hakimiyyətə dönüşündən sonra H.Əliyev Azərbaycan ədəbiyyatına, mədəniyyətinə qayğısını əsirgəməmişdi. Onun köməkliyi ilə yenidən AYB fəaliyyətə başladı, mətbu orqanları dövlət himayəsinə götürdü. Tədbirlərdə şairlər, yazıçılar ilə birlikdə iştirak etməsi, onlarla səmimi

münasibəti Ulu öndərin ədiblərimizə diqqət və qayğısından irəli gəlirdi. Keçirilən görüşlərdə əsərlərdən nümunələr gətirməsi, təşkil olunan ədəbi müzakirələr bunun əyani sübutu idi. Şair və yazıçılarımıza verilən bu dəyər onları motivə edir, onlara yeni ideyalar verir.

Heydər Əliyev ixtisasca bir tarixçi olaraq, tarixdə ədəbiyyatın yerini dərk etmiş və hər zaman ədiblərimizi diqqət mərkəzində saxlamış, əsərlərini yüksək dəyərləndirmiş, medal və ordenlərlə təltif etmişdir. Ümummilli liderimizin bu dəyərləndirməsini biz Əzizə Cəfərzadə yaradıcılığında da görürük. Haqqında araşdırmalar apararaq, əldə etdiyimiz məlumatlar, şəkillər, yazıçıya ünvanlanan məktublar, videolentlər bütün bunlar belə bir qənaətə gəlməyə əsas verir.

H.Əliyev Azərbaycan xalqının soykökünün, milli-tarixi keçmişinin mənimsənilməsində tarixi mövzuda yazılan əsərlərin zəruriliyini vacib hesab edirdi. 2001-ci ildə Ə.Cəfərzadənin 80 illiyi münasibətilə ünvanlandığı təbrik məktubunda H.Əliyev qeyd edirdi: "Xalqımızın yüzillər boyunca təşəkkül tapmış yüksək milli-mənəvi dəyərlərinin qorunub saxlanmasında sizin də yaradıcılığınız mühum rol oynamışdır. Tariximizin ayn-ayn mərhələlərinin dərin məzmununu açan əsərləriniz gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması işinə xidmət etmişdir".

60 ildən artıq bir dövrü əhatə edən və nəsrimizin inkişafına bir töhfə olan ədəbi yaradıcılığınız Azərbaycan dilinin saflığı və təmizliyinin qorunması yolunda mübarizənin də timsalı olmuşdur. Qəhrəmanlıq dolu keçmişə ehtiram aşılayan tarixi romanlarınız insanlanmızı əsrlərin sınağından çıxmış adət-ənənələrimizə sədaqət göstərməyə, milli varlığımızın ifadəsi olan bu müqəddəs sərvəti ulu əcdadlanmızın adına layiq bir şəkidə yaşatmağa çağırır" [2]. İstər məktubda yazılan dəyərli fikirlər, istərsə də 2000-ci ildə "Şöhrət" ordeni ilə təltif olunması, habelə 2001-ci ildə 80 illiyi münasibəti ilə "Xalq yazıçısı" fəxri adının verilməsi yazıçının yaradıcılığına verilən yüksək dəyərin bariz nümunəsi idi.

Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi birinci dövr (1969–1982) Əzizə Cəfərzadənin bir yazıçı, bir filologiya elmləri doktoru, professor kimi aktiv fəaliyyət göstərdiyi, 17 kitab nəşr etdirib (öz bədii və tədqiqat işləri) və 4 böyük kitabı tərcümə edib yazıçı kimi məhşurlaşdığı bir dövrdür. Eyni zamanda, yazıçı Azərbaycan Radio-Televisiyasında "İncilər", "Klassik irsimizdən", Novruz bayramı ilə əlaqədar və s. proqramlarda milli-vətənpərvərlik ruhunda olan verilişlər aparmışdır.

Əzizə Cəfərzadənin bu dövrdə yazdığı əsərlərdə, eləcə də pedaqoji fəaliyyətində əsas qayə "Azərbaycan gəncliyinə dilini, tarixini, kimliyini, mənliyini aşılamaq idi. "Sən tarix boyu kölə olmamısan, müstəqil yaşamısan və yaşamalısan. Oyan! Qalx, öz müstəqilliyini qaytar!" olmuşdu.

Cənab Prezident İlham Əliyevin Şuşa azad edildikdən sonra ilk dəfə 14 yanvar 2021-ci ildə orada olarkən verilən tarixi lentdə (14 yanvar 1982-ci ildə) Şuşada Molla Panah Vaqifin məqbərəsinin aşılmasında iştirak edən Heydər Əliyev, Həsən Həsənov, Mirzə İbrahimov, Süleyman Rüstəm və digər siyasi, ədəbi şəxsiyyətlərlə birgə Əzizə Cəfərzadəni də görürük.

Bu mötəbər tədbirə onun da dəvət edilməsi təsadüfi deyildi, çünki Əzizə xanım hələ yaradıclığının ilk dövrlərindən Qarabağ mövzusuna xüsusi yer vermişdir. İstər ilk nəşr etdirdiyi kitabı "Natəvan haqqında hekayələr" (1963), tədqiqatçı alim kimi ilk tərtib edib topladığı kitab "Fatma xanım Kəminə" (1971), istərsə də "XIX əsrdə Molla Pənah Vaqif ədəbi məktəbi" (1965) adlı ilk yazdığı doktorluq işi mövzusunu qeyd edə bilərik. Yazıçı sonralar da bu mövzulara sadiq qalmış, "Bu saat ədəbiyyatda ən vacib mövzu Qarabağdır" deyərək, bu çıxışlar etmiş, müsahibələr vermişdir.

1998-ci ildə Şirvanşahlar sarayında Novruz bayramı münasibəti ilə keçirilən tədbirdə Heydər Əliyevlə birgə Əzizə Cəfərzadə də iştirak etmişdi. Yazıçının uluöndərin yaxınında əyləşməsi respublika prezidentinin yazıçı, professoru bu adət-ənənə, folklor sahəsində yüksək qiymətləndirməsinin təcəssümüdür.

Prezidentin Əzizə Cəfərzadə yaradıcılığına dərindən bələd olmasını onun yazıçıya ünvanladığı hər kəlmədən aydın görmək olur: "Siz həm də milli mədəniyyətimizin böyük xəzinəsi olan zəngin şifahi ədəbi irsimizin yorulmaz tədqiqatçısısınız. Bu mənada sizin yazıçı kimi zəngin yaradıcılığınız gərgin elmi fəaliyyətinizdən ayrılmazdır" [2]. Həqiqətən də, Əzizə Cəfərzadə folklorumuzun bədii əsərlərdə yaşadıcısı olmuşdur. Xalqımız hər zaman söz ustadlarımızın,

ədiblərimizin qədrini bilən, ona dəyər verən xalqdır. Bu gün Əzizə Cəfərzadə aramızda olmasa da, daim Azərbaycan xalqının qəlbində yaşayacaq, bizlərə yadigar qoyub getdiyi dəyərli əsərləri ilə hər zaman oxucularının sevimlisi olaraq qalacaqdır!

**İstifadə edilmiş ədəbiyyat**

1. Cəfərzadə Ə. Biz Cəfərzadələr / Ə.Cəfərzadə, M.Cəfərzadə, Ə.Cəfərzadə. Bakı: Şirvannəşr, 2001, 304 s.
2. Xəlilzadə F. Hər bir vətəndaş öz dilini qorumalıdır (Əzizə Cəfərzadə ilə müsahibə). "Azərbaycan" qəz., 2001, №7, s.4
3. Professor Əzizə xanım Cəfərzadəyə. Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti, 28 dekabr 2001-ci il
4. Qaraqızı U. Əzizə Cəfərzadə: Bu saat ədəbiyyatda ən vacib mövzu Qarabağdır. "Ekspress" qəz., 2001, 13 sentyabr, s.17

UOT 338.48; 796.5

**Heydər Əliyev və Azərbaycanda turizm sənayesinin inkişafı**

*Cəlil Arif oğlu Bağırov,*
*Mingəçevir Dövlət Universiteti*
*Azərbaycan Turizm və Menecment Universitetinin doktorantı*

Məlum həqiqətdir ki, turizm artıq bütün dünyada ən gəlirli sahələrdən birinə, geniş və sürətlə inkişaf edən iqtisadi sektora çevrilib. Yaradılan iqtisadi sektor özünü yeni iş yerlərinin yaradılması, turizmlə bağlı müəssisələrin və infrastrukturun qurulması ilə göstərir. Ölkə başçısının uzaqgörən daxili və xarici siyasətinin nəticəsi olan Vətən müharibəsindəki qələbəmiz işğaldan azad edilmiş regionlarda təməli Ulu öndərin rəhbərliyi ilə qoyulmuş ideyaların, düşüncələrin reallaşdırılmasına zəmin yaradır.

Təbii sərvətlərimiz, rəngarəng iqlimimiz, zəngin tarixi-mədəni irsimiz cəlbedici turizm məhsulu yaratmaq üçün mühüm zəmindir. Bu sahənin inkişafı hər bir ölkə üçün prioritet istiqamət kimi qəbul olunduğundan, Azərbaycan üçün də önəmlidir. Hər bir ölkəyə turist axınının çox olması, onun iqtisadiyyatının inkişafı deməkdir. Elə bu baxımdan, xarici valyuta axınını gətirən turizm sahəsinin inkişafına dövlət tərəfindən mühüm diqqət ayırır. Ölkəmizdə müvəffəqiyyətlə həyata keçirilən iqtisadi layihələr, dövlət proqramları Azərbaycanın son on ildə qazandığı uğurların davamlılığını şərtləndirir və ölkənin dünyada dinamik iqtisadiyyata malik ölkə kimi qiymətləndirilməsinə imkan yaradır.

Tarixən neft ölkəsi kimi tanınan Azərbaycanda turizm sektorunda müsbət dəyişikliklərlə müşahidə olunub. Ölkəmizdə turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, müasir turizm infrastrukturun yaradılması sahəsində məqsədyönlü işlər görülüb. Son 12 ildə ölkədə turizmin təşviqi ilə bağlı görülən işlər, aparılan islahatlar, qəbul edilən dövlət proqramları, normativ-hüquqi bazanın təkmilləşdirilməsi dövlətin bu sahənin inkişafına xüsusi diqqət ayırdığını bir daha sübut edir.

Azərbaycanın mövcud turizm potensialının beynəlxalq aləmdə tanınması, turistlərin ölkəmizə səfərlərinin təşkili, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, müasir turizm infrastrukturunun yaradılması və sair sahələrdə məqsədyönlü tədbirlər həyata keçirilir. Coğrafi mövqeyi, özünəməxsus iqlimi, fauna və florası, qədim tarixə malik abidələri ilə yerli və xarici turistlərin diqqətini özünə cəlb edən regionlarda turizm nümayiş obyekti sayılan bir sıra tarix-mədəniyyət abidələrinin bərpası və mühafizəsi, mehmanxana və otellərin müasir dünya standartlarına

uyğunlaşdırılması, turizm sahəsində beynəlxalq standartlara cavab verən turizm obyektlərinin tikilməsi və sair proseslər reallaşdırılır.

Azərbaycanın 2001-ci ildə Ümumdünya Turizm Təşkilatına üzv seçilməsi ölkəmizin XXI əsrin birinci ilində dünya turizm sənayesinə qədəm qoymasının sadəcə deklorativ nümayişi olmadı, həm də turizm sahəsindəki bütün potensialını işə salmaqda iddialı olduğunu təsdiqlədi. 2001-ci ildə ilk dəfə olaraq Azərbaycanın turizm imkanlarını geniş təbliğ edən "Welcome to Azerbaijan" adlı xüsusi disk hazırlandı və ÜTT-nin Baş Assambleyasına təqdim olundu. Bununla yanaşı, diskin "Turizm in Azerbaijan" adlı veb səhifəsi yaradıldı. 2002-ci ildə ilk dəfə Bakıda xarici ölkələrin turizm şirkətlərinin iştirakı ilə Beynəlxalq Turizm Sərgisi təşkil olundu və ÜTT-nin dəstəyini qazandı. Sərginin açılışı zamanı ümummili lider, Prezident Heydər Əliyevin təbrik məktubunun oxunması Azərbaycanda turizmə, onun müasir ideyalarına və inkişafına dövlət tərəfindən verilən diqqət və qayğını təsdiqləyən fakta çevrildi. Bu anlardan başlayaraq, artıq Azərbaycan adlı Vətənimiz müstəqil siyasət yeridən, böyük iqtisadi potensiala, zəngin tarixə, mənəvi- mədəni irsə sahib olan, sabit, beynəlxalq səyahət və turizm üçün maraqlı ölkə kimi tanınmağa və nəhəng dünya turizm sənayesində ilk inamlı addımlarını atmağa başladı. Nəticədə bu il "Bütün dünya – bir sərgi" şüarı altında Bakıda keçirilən "AITF-2018" XVII Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisində 20 ölkəni təmsil edən 277 şirkət iştirak edirdi. Bunu, əsl mənada, dünya turizm sənayesinin Azərbaycana artan marağının daha bir göstəricisi hesab edə bilərik.

Ölkədə turizmin sistemli və sürətli inkişafı üçün artıq Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2002-2005-ci illər üçün" Dövlət Proqramının icrasına start verilmişdi. Dövlət Proqramında ən qısa zamanda turizm sahəsində beynəlxalq standartlara cavab verən mehmanxanalar tikilməsi, ölkəyə bir sıra aparıcı beynəlxalq investisiya şirkətlərinin cəlb olunması, sahibkarlığın inkişafı üçün müvafiq kreditlərin ayrılması, turizm obyektlərinin inşasının dəstəklənməsi, bir sıra hüquqi sənədlərin hazırlanması və sair məsələlər əksini tapmışdı. 2003-cü ildə "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında", 2004-cü ildə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı" Dövlət Proqramı haqqında Prezident fərmanları ölkə iqtisadiyyatının inkişafı ilə yanaşı turizm sektorunun inkişafına da öz töhfəsini verirdi. Amma Azərbaycanın turizm infrastrukturunun dünya standartlarına cavab verən modelinin yaradılması, turizm xidmətlərinin beynəlxalq səviyyəyə uyğun təşkil edilməsi və milli kadr korpusunun formalaşdırılması məqsədilə Prezident İlham Əliyev ictimai-siyasi və sosial-iqtisadi həyatımızın digər sahələri kimi bu sahədə də bir sıra vacib qərar və sərəncamlara imza atdı. 2006-cı ilin fevralın 30-da Mədəniyyət Nazirliyi əsasında Mədəniyyət və Turizm Nazirliyinin yaradılması haqqında fərman məhz onlardan biridir.

Şübhəsiz, ölkəyə turist axınının daha da artırılmasında önəmli məsələlərdən biri də turizm sənayesi üçün peşəkar və keyfiyyətli kadr potensialının hazırlanması idi və 2006-cı ildə Prezident İlham Əliyevin qəbul etdiyi mühüm qərarlardan biri məhz bununla bağlı oldu – turizm sahəsində çalışanların peşə hazırlığının artırılması məqsədi ilə Azərbaycan Turizm İnstitutu yaradıldı. Bir neçə ildən sonra həmin institutun bazasında dövlət başçısının 22 dekabr 2014-cü il tarixli Sərəncamı ilə Azərbaycan Turizm və Menecment Universiteti (ATMU) yaradıldı. Nəhayət, bu il aprelin 20-də ölkə başçısının Sərəncamı ilə turizmə daha böyük dövlət dəstəyi göstərilməsi məqsədilə Dövlət Turizm Agentliyi yaradıldı.

Bunlarla yanaşı, paytaxt Bakı artıq yeni əsrin ilk onilliyində beynəlxalq turzimin inkişaf tendensiyalarının müzakirə mərkəzlərindən birinə çevrilməyə başladı. 2009-cu ilin aprelində Bakıda Heydər Əliyev adına İdman və Konsert Kompleksində artıq 8-ci dəfə keçirilən Beynəlxalq Turizm Sərgisində 20 ölkədən 78 turizm müəssisəsi iştirak edirdi. 2010-cu il aprelin 6-da Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafina dair Dövlət Proqrami"nda qeyd edilirdi ki, "2002-2005-ci illərdə turizmin inkişafına dair" Dövlət Proqramının həyata keçirilməsi nəticəsində turizmin inkişafı üçün münbit şərait yaradılmış, beynəlxalq turizm bazarına inteqrasiyanın təmin olunmasının əsası qoyulmuş, milli turizm kompleksinin rəqabətə davamlılığı yüksəlmişdir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Bilalov B.Ə. Turizm fəaliyyətinin tənzimlənməsi. Bakı: Mütərcim, 2006
2. Eqanlı S., Hacıyev E. Turizm. Bakı: ABU, 2006
3. Turizm yenilikləri, №2. Bakı: Turan evi, 2005
4. Bilalov B.Ə. Azərbaycan Respublikasında işgüzar turizm. "Dirçəliş – XXI əsr" jurnalı, 2005
5. www.turizm.gov.az
6. www.economy.gov.az

UOT 32(092)

## Heydər Əliyev və ədəbiyyat

*Səadət Arif qızı Ağakişiyeva,*
*Mingəçevir Dövlət Universiteti*
*Gəncə Dövlət Universitetinin doktorantı*

Ədəbiyyat tarixi boyunca bəşəriyyətin formalaşıb, inkişaf etməsində əsas amil olmuşdur. Dünyada bir çox dövlət xadiminin həm siyasi fəaliyyətlərində, həm də həyatlarında ədəbiyyat mühüm rola malikdir. Dövlət başçıları dünya ədəbiyyatı incilərinin ən aktiv mütaliəçisi olmuşlar. Siyasi liderlərin ədəbiyyata olan maraqları və bu sahədəki bilikləri insanları hər zaman heyrətə gətirmişdir. Bir çox dövlət xadimi şair və yazıçıları daim himayə etmiş, daim dövlət qayğısını göstərmişlər.

Ümummilli lider Heydər Əliyevin həyatında və siyasi fəaliyyətində ədəbiyyatın yeri, əhəmiyyəti və imkanları xüsusi yer tutub. Əsas məsələni qeyd etmək lazımdır ki, Heydər Əliyev dünyada hərtərəfli və sistemli ədəbi biliyə sahib olan nadir liderlərdəndir. Heydər Əliyevin görkəmli siyasi xadim, peşəkar natiq kimi formalaşmasında gənclik illərindən mütaliə ilə ciddi şəkildə məşğul olması mühüm əhəmiyyət kəsb etmişdir. Bu fikirləri dahi lider 1997-ci ildə Azərbaycan yazıçılarının onuncu qurultayındakı nitqində belə ifadə etmişdir: "Şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarından, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm… mənim bir insan kimi formalaşmağında, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum… O illərdə, o uşaqlıq və gənclik illərində onlar mənə o qədər təsir edib ki, mən onları unutmamışam. Bu "oxumuşam, unutmamışam" sözləri sadəcə bir fikir deyil. Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam". [3]

Heydər Əliyev yalnız ədəbiyyata deyil incəsənətin bütün sahələrinə diqqətlə yanaşırdı. O, ədəbiyyat, musiqi, teatr, kino və rəssamlığın inkişafına xüsusi önəm vermiş, bu sahələrə məhz dövlətçilik mənafeləri baxımından yanaşmışdır. Azərbaycan dili və ədəbiyyatı Heydər Əliyevin azərbaycançılıq fəlsəfəsinin, müstəqil Azərbaycanın milli və dövlət ideologiyasının əsas mənbəyini təşkil edirdi.

Heydər Əliyev ədəbiyyata verdiyi dəyər xüsusilə seçilirdi: "Bu gün, ümumiyyətlə, müstəqillikdən danışarkən ədəbiyyatımızın xalqımız üçün nə qədər zəngin sərvət olduğunu qeyd etmək lazımdır. Bizim ədəbiyyatımız, mədəniyyətimiz xalqımızın milli sərvətidir və intellektual mülkiyyətidir. Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir." [3]

Ədəbiyyat vurğunu olan Heydər Əliyevin xüsusi hörmət etdiyi, sevdiyi yazıçı və şairlər, üstünlük verdiyi bədii əsərlər olmuşdur. Cəlil Məmmədquluzadənin “Ölülər” tragikomediyası, xalq şairi Səməd Vurğunun “Azərbaycan” şeiri, Məhəmmədhüseyn Şəhriyarın “Heydərbabaya salam” poeması, “Molla Nəsrəddin” jurnalı, Üzeyir Hacıbəyovun “Koroğlu” üverturası, Hüseyn Cavidin “İblis” faciəsi ən çox sevdiyi və dəfələrlə mütaliə etdiyi ədəbi nümunələr sırasına daxildir.

Heydər Əliyevin yazıçı və şairlərimizə diqqət və qayğısı hələ hakimiyyətə gəlməmişdən davam edirdi. Onun SSRİ-də nüfuzu və səyləri nəticəsində Azərbaycanın bir neçə sənətkarına – Süleyman Rəhimova, Rəsul Rzaya, Mirzə İbrahimova, Süleyman Rüstəmə o dövrün ən şərəfli mükafatı – Sosialist Əməyi Qəhrəmanı adları verildi.

Heydər Əliyevin sərəncamı ilə 2000-ci il aprelin 9-da qədim türk eposu “Kitabi-Dədə Qorqud”un 1300 illiyik yubileyinin təntənəli şəkildə qeyd edilməsi, bu abidənin Azərbaycanın ayrılmaz bir hissəsi olduğunu sübut etdi,

Məhəmməd Füzulinin 500 illik yubileyinin bütün dünyada qeyd olunması, Heydər Əliyevin Azərbaycan klassiklərinə verdiyi yüksək dəyəri bir daha sübut edirdi. 2 noyabr 1994-cü ildə 80-dən artıq millətin nümayəndəsi iştirak edən Türkiyə Böyük Millət Məclisindəki çıxışında H.Əliyev demişdir: “Füzuli keçmişdə də türkləri birləşdirən bir şəxsiyyət olmuşdur. Amma indi türk dünyası XX əsrdə parçalanmış olduğu bir halda, türk dünyasına mənsub ölkələrin, demək olar ki, tam əksəriyyətinin (bir Türkiyədən savayı) onların həyatına, tarixinə, adət-ənənəsinə uyğun olmayan rejimlər içərisində yaşadığı vaxtda Füzuli bizi yaşadaraq bu günlərə gətirib çıxarmışdır.” [3]

Dahi Azərbaycan şairi və filosofu Hüseyn Cavidin cənazəsinin uzaq Sibirdən Naxçıvana gətirilməsi, Naxçıvanda Cavidlər məqbərəsinin tikilməsi, İmadəddin Nəsimi, Hüseyn Cavid, Nəriman Nərimanov, Cəfər Cabbarlıya Bakıda heykəllər qoyulması Heydər Əliyevin Azərbaycan ədəbiyyatına qayğısını, diqqətini bir daha sübut etdi.

Heydər Əliyev klassiklərlə yanaşı, müasiri olduğu şair və yazıçılara da qayğıyla yanaşmışdır. İlyas Əfəndiyevin, İsmayıl Şıxlının, Anarın, Hüseyn Abbaszadənin, Yusif Səmədoğlunun, Maqsud İbrahimbəyovun, Hüseyn İbrahimovun, Məmməd Arazın, Nəbi Xəzrinin, Bəxtiyar Vahabzadənin, Mirvarid Dilbazinin, Məhəmmədhüseyn Şəhriyarın, Qabilin, Xəlil Rza Ulutürkün, Zəlimxan Yaqubun yubileylərinin təntənəli şəkildə qeyd edilməsi, unudulmaz hadisələrdəndir.

Heydər Əliyev ensiklopedik zəka sahibi, müdrik şəxsiyyət idi. Milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, gələcək nəsillərə ötürülməsində onun misilsiz xidmətləri olmuşdur. O, Azərbaycan mədəniyyətinin ən böyük dəstəkcisi olmuşdur.

Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti, xilaskarlıq missiyası, azərbaycançılıq ideyaları müasir ədəbiyyatda yeni xətt formalaşdırdı. Yeni dövr ədəbiyyatını Heydər Əliyevsiz təsəvvür etmək mümkün deyil.

Bəxtiyar Vahabzadənin, Xəlil Rza Ulutürkün, Söhrab Tahirin, Nəriman Həsənzadənin, Fikrət Qocanın, Mirvarid Dilbazinin, Nəbi Xəzrinin, Qabilin, Cabir Novruzun, Rəfiq Zəka Xəndanın, Hüseyn Kürdoğlunun, Məstan Günərin, Səyavuş Məmmədzadənin, Musa Urudun, Vahid Əzizin, Baba Vəziroğlunun, Vaqif Bəhmənlinin, Əli Rza Xələflinin, Yusif Nəğməkarın, Ağacəfər Həsənlinin, Vüqar Əhmədin, Oqtay Rzanın, Xanım İsmayılqızının, Elman Həbibin, Ramiz Məmmədzadənin, Ramiz Heydərin, Ramiz Duyğunun, Elxan Zal Qaraxanlının və başqa şairlərimizin lirikasında Heydər Əliyev mövzusu geniş vüsət alır. Zəlimxan Yaqubun “Əbədiyyət dastanı” poemasında Heydər Əliyevin ədəbi obrazı yaradılır və ən yüksək zirvəyə qaldırılır.

Heydər Əliyevin həyatını və siyasi fəaliyyətini tam şəkildə əks etdirən bütöv bir əsər və ya tarixi roman ərsəyə gəlməmişdir. Lakin memuar ədəbiyyatında dahi şəxsiyyətin vəzində bədii-sənədli janrda əsərlərdə, memuar nəsri nümunələrində, ümumən müstəqil Azərbaycan həyatı, dövlət və cəmiyyət quruculuğunu əks etdirən bir sıra roman və povestlərdə, o cümlədən, bədii detektiv əsərlərində Heydər Əliyev şəxsiyyəti, amal və əməlləri ən müxtəlif rakurslardan obrazlaşmışdır.

Heydər Əliyev mövzusunun nəsrdə inikası ən çox bədii-sənədli janrda reallaşmışdır. Söhbət Viktor Andriyanov və Hüseynbala Mirələmovun “Görkəmli adamların həyatı” bioqrafik silsiləsindən çap olunmuş “Heydər Əliyev” və Elmira Axundovanın altı cilddə, iri həcmli “Heydər Əliyev: şəxsiyyət və zaman” kitablarından gedir. Hər iki əsər rus və Azərbaycan dillərində böyük

tirajla nəşr olunaraq geniş maraq və rəğbətlə qarşılanmışdır. Elmira Axundovanın altı cildliyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən yüksək qiymətləndirilərək, Heydər Əliyev Mükafatına layiq görülmüşdür.

Heydər Əliyev obrazı bir sıra memuar nəsri nümunələrində – Anarın “Unudulmaz görüşlər”, Elçinin “Tarixlə üz-üzə dayanmış adam”, Mövlud Süleymanlının “Qırx ilin yeddi görüşü”, İsa Hüseynovun “Həyatımdan səhifələr”, Vidadi Babanlının “Unutmadığım günlər”, Hafiz Paşayevin “Bir səfirin manifesti”, Səyyad Aranın “Heydər Əliyevin Amerika fəthi”, Hüseynbala Mirələmovun “İşığın izi ilə” əsərlərində bu və ya digər rakursdan, Ulu öndərlə görüşlərdən doğan canlı təəssürat əsasında əksini tapmışdır. Sabir Rüstəmxanlının “Xətai yurdu” romanında, Aqil Abbasın “Çadırda Üzeyir Hacıbəyov doğula bilməz” povestində, Afaq Məsudun “Dahi” hekayəsində hadisələrdən ani keçən Heydər Əliyevin tarixi obrazını görürük. Elmira Axundova və İsa Nəcəfovun “Naşirin ölümü”, İsa Nəcəfovun “Gecə yarısında qətl”, Elmira Axundovanın “Şüşə saray”, Çingiz Abdullayevin “Qanın üç rəngi” siyasi detektivlərində Ulu öndərin xilaskarlıq missiyası gərgin hadisələr fonunda qələmə alınmışdır. [1, s.200]

Azərbaycan ədəbiyyatında Heydər Əliyevin tarixi hünərləri xalqın xilaskarı, Ümummilli lider, böyük dövlət xadimi və siyasətçi, müasir Azərbaycanın, müstəqil Azərbaycan dövlətinin memarı, mədəniyyət və cəmiyyət qurucusu, milli mənəviyyatın qoruyucusu, ədəbiyyat və sənət bilicisi, ali və dahi insan, möhtəşəm şəxsiyyət, ən böyük azərbaycanlı və s. məqamlarda təsvir olunmuş, ədəbiyyat çoxyönlü, çoxcəhətli, universal keyfiyyətlərin vəhdətini qapsayan Heydər Əliyev obrazının bütövlüyünü təqdim etməyə çalışmışdır.

“Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala” monoqrafiyası da həmin həqiqətin elmi təsdiqini verməyə çalışmışdır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala: monoqrafiya. Bakı: Elm və təhsil, 2018, 400 s.
2. Əliyev H.Ə. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı: Ozan, 1999, 496 s.
3. Həbibbəyli İ. Heydər Əliyev irsi: müstəqil dövlətçilik və müasirlik. “Xalq qəzeti”, 2015, 13 dekabr, №275, s.5

UOT 82.09.;82-95

## Heydər Əliyev və Hüseyn Cavid irsi

*Fəxriyyə Nail qızı İsayeva,*
*Mingəçevir Dövlət Universiteti*
*Azərbaycan Dillər Universitetinin doktorantı*

Bəşər tarixində şeirə-sənətə, sənətkar şəxsiyyətinə hamilik edən dövlət başçıları az olmayıbdır. Xüsusi halda klassik Yaxın və Orta Şərq ədəbiyyatlarına üz tutsaq, bir çox hökmdarların adlarını hörmətlə çəkə bilərik ki, bunların arasında tarixən türk başçıları öz səxavət və mərifətləri ilə həmişə seçilmişlər. Ancaq Azərbaycanın Ümummilli lideri, Ulu öndər Heydər Əliyev bu baxımdan unikal bir mövqeyə malikdir, desək, yəqin ki, mübaliğə olmaz. Xüsusən klassiklərin yaradıcılığına böyük önəm verən Heydər Əliyev onların tədqiq və təbliğinə, Vətən və millət qarşısındakı xidmətlərinin dəyərləndirilməsinə qayğı və diqqətini bir an belə əsirgəməmişdir. Azərbaycan ədəbiyyatını dünyanın ən qədim və zəngin ədəbiyyatlarından biri sayan Ümummilli lider, bu ədəbiyyatın yetirdiyi böyük dahilərin qlobal miqyasda öz layiqli qiymətlərini almadıqlarını dəfələrlə qeyd etmiş və bu yolda göstərdiyi səyləri təvazökarlıqla özünün vətəndaşlıq borcu elan etmişdir.

Heç şübhə yoxdur ki, Heydər Əliyevin sevə-sevə qayğı göstərdiyi klassik Azərbaycan sənətkarları içərisində dahi şair və dramaturqumuz, böyük filosof və fikir adamı, vətənpərvər ziyalı Hüseyn Cavidin özünə məxsus müstəsna yeri vardır. Hüseyn Cavidin repressiyaya uğradığı 1937-ci ildə Heydər Əliyevin 14 yaşı vardı və o, artıq tay-tuşları arasında ədəbiyyata, xüsusən dramaturgiyaya güclü meyl göstərən bir gənc kimi tanınırdı.

Taleyin, zamanın, dünyanın özünü əsərlərində bir marionet kimi oynadan böyük Cavidi, taleyin oyunları 1937-ci ildə Şərqi Turan çöllərinə ataraq, rus imperializminin əlilə onun Vətən və millət üçün bu qədər önəmli olan həyatına son qoydu. Məşhur sözdür ki, böyük sənətkarlar ölmür, ölməz əsərləri ilə əbədi həyat əldə edirlər. Cavid də öz cismani ölümü ilə sadəcə öz sonrakı yaradıcılığını yarımçıq qoydu.Ölümünə qədər yazdıqları isə onun dünya ədəbiyyatına əbədi bəxşişi və ölümsüzlüyünün rəhni, möhkəm qarantı oldu. Cavidin bu dünyadan köçməsindən 62 il sonra Ümummilli liderimiz Heydər Əliyev dünyasını dəyişmiş, əbədiyyətə qovuşmuşdur. Hüseyn Cavidin cismən bu dünyada olmadığı bu 62 ildə Azərbaycan xalqının ərsəyə gətirdiyi bu böyük şəxsiyyətlər həyatlarının və fəliyyətlərinin mənasını öz xalqlarına və doğma yurdlarına xidmətdə görmüş və həmin müqəddəs missiyanı yerinə yetirərkən əqidə və fikir dostları kimi daim bir-birilərinə dayaq olmuşlar.

Azərbaycan klassik ədəbiyyatının, o sıradan Hüseyn Cavidin mütərəqqi humanist əsərləri, bəşəri görüşləri zəminində ərsəyə gəlmiş Heydər Əliyev dühası Azərbaycan xalqının tarixi taleyinin xoşbəxtliyi üzündən xalqımızın əvəzedilməz liderinə çevrildikdən sonra öz haqq işində daim bu ənənələri rəhbər tutmuş, vətənin inkişafı naminə bunlardan faydalanmaqla yanaşı, böyük qədirşünaslıq örnəyi göstərmiş, ədəbiyyatımız, mədəniyyətimiz, incəsənətimiz üçün müstəsna işlər görmüş sənətkarların layiqli qiymətini vermək yolunda əlindən gələni əsirgəməmişdir. Bu cür sənətkarların ön cərgəsində yəqin ki, böyük Cavid durmaqdadır. Bəzən adama elə gəlir ki, Cavid də, nəinki doğma xalqı və vətəni qarşısında öz ölməz əsərləri ilə borclu qalmamış, hətta şair dünyadan köçərkən 18 yaşlı bir gənc olan Heydər Əliyevin simasında gələcəkdə Azərbaycan xalqının başında böyük bir maarifpərvər, sənətsevər liderin duracağını görmüş və bunun bədii örnəyi olaraq, Alp Arslan, Məlikşah kimi şeir-sənət vurğunu, elm hamisi türk hökmdar obrazları yaratmışdır. Xəyyamın bir rübaisini dinləyən Alp Arslanın:

“Ah, bu sözlər nə qadar incə, dərin,
Böylə kəskinsə də, xoşdur şeirin!”

- deyə onun sənətinə yüksək qiymət verməsi, onun oğlu Məlikşahın, vəziri Xacə Nizamın (tarixi şəxsiyyət kimi Nizamülmülkün) isə daim bu böyük alimə və şairə hamilik edərək qayğı göstərməsi bunu sübut edir. Aydındır ki, orta əsrlərin bu böyük türk hökmdarlarının dərin mənalı, istedadla yazılmış əsərlərə qarşı göstərdikləri bu mesenatlıq fəaliyyəti bir tərəfdən də dahi mütəfəkkir-sənətkar kimi Hüseyn Cavidin öz arzularının bədii inikası idi.

Cavid sənətinə hələ keçən əsrin 70-ci illərindən maraq göstərən Heydər Əliyev onun adını Azərbaycan ədəbiyyatı xəzinəsini zənginləşdirənlər sırasında dəfələrlə çəkmişdir. Səksəninci illərin əvvəllərindən isə Ümummilli liderimiz Hüseyn Cavid irsinə müntəzəm diqqət göstərmiş, şairə layiqli qiymətin verilməsi işinə nəzarəti bir an belə zəiflətməmişdir. Sonralar, 1993-cü ilin sentyabrında Azərbaycan Milli Elmlər Akademiyasının ziyalıları ilə görüşündə Heydər Əliyev Cavidlə bağlı fəaliyyətini belə xatırlayırdı: “...Böyük filosof-şairimiz, dramaturqumuz Hüseyn Cavid həbs olundu, uzun illər əsərləri qadağan edildi. Ancaq tarix hər şeyi öz yerinə qoydu. Hüseyn Cavidin cənazəsi də Sibirdən öz vətəninə gətirildi, onun adı da yüksəldi. Ancaq təəssüf edirəm ki, 1981-ci ildə Hüseyn Cavidin 100 illiyi haqqında Kommunist Partiyasının qəbul etdiyi qərarı Azərbaycanda on il ərzində həyata keçirmədilər... İndi Hüseyn Cavidin əsərləri xalqa hava-su kimi lazımdır. Təkcə ədəbi baxımdan deyil, həm də fəlsəfi, elmi baxımdan lazımdır. Lakin bu əsərlər lazımi səviyyədə nəşr olunmuşdurmu?” Hüseyn Cavidin əsərlərinin onların dahiyanə məzmununa layiq bir şəkildə nəşr olunmaması, bir çox təhriflərə və ixtisarlara yol verilməsi, şairin sənətkar ruhunun, amal və qayəsinin oxucuya lazımlı səviyyədə çatdırılmaması Heydər Əliyevi bir cavidsevər kimi çox narahat edirdi və cavidşünaslıqdakı bu çatışmazlıqların aradan qaldırılması üçün o istər maddi, istərsə də mənəvi dəstəyini əsirgəmirdi.

Məlum olduğu kimi, Ulu öndərin möhkəm bünövrəsini qoyduğu bu möhtəşəm işi onun varisi, Azərbaycan Prezidenti İlham Əliyev yüksək səviyyədə həyata keçirməyə nail oldu və Hüseyn Cavidin əsərləri bütün orijinallığı ilə 25 min tirajla Azərbaycan xalqına çatdırıldı. Ancaq yuxarıda artıq ötəri olaraq, qeyd etdiyimiz kimi, Ümummilli liderimizin Moskvaya, yüksək dövlət vəzifəsinə getməsi səbəbindən Cavid irsi ilə bağlı yarımçıq qalmış bir çox işləri elə onun özü, respublika hakimiyyətinə ikinci qayıdışından sonra tamamlamağa nail oldu.

Hüseyn Cavid dühası öz ölməz əsərləri ilə adını tarixdə əbədiləşdirmiş sənətkarlardandır. Heydər Əliyev dühası bu əbədiləşdirməni tamamlayan, bütövləşdirən, bir daha nadanların hücumuna məruz qalmayacaq hala salan, ona layiq olduğu qiyməti verən və layiq olduğu abidələri ucaldan nadir dövlət rəhbərlərindəndir. Heydər Əliyev bundan öncə də nəzərdən keçirdiyimiz nitqlərinin birində Hüseyn Cavidi "millətinə həddən artıq xidmət edən bir adam" adlandırmışdı. Ümumilikdə, böyük şəxsiyyətlərə və bu halda Hüseyn Cavidə aid edilən həmin ifadə, əslində elə Heydər Əliyevin özünə də heç bir şübhəyə yol vermədən aid edilə bilər. Heydər Əliyev üçün bu, bir meyardır; şəxsiyyətin böyüklüyünü ölçmək üçün meyar. Əgər hər hansı bir şəxsiyyət böyüklüyə iddia edirsə, o, mütləq öz millətinə xidmət etməlidir. Əks halda, şəxsiyyətin böyüklüyündən söhbət belə gedə bilməz. Heydər Əliyevin ömür həsr etdiyi və başqalarından da tələb etdiyi ideya, amal, yüksək məqsəd də məhz budur. Əlbəttə, onu demək artıqdır ki, bu cür şəxsiyyətlər – "haqq-taalanın könüllərinə ilham verdiyi" (Dədə Qorqud) şəxsiyyətlərdəndir və onların adı vətən tarixində daim yaşayacaqdır.

Hüseyn Cavid kimi, Heydər Əliyevin siyasət, diplomatiya, mədəniyyət, ədəbiyyat adamlarına qayğı və diqqət sahəsindəki yaradıcılığı da Azərbaycan xalqının mədəniyyətini və ədəbiyyatını yüksəklərə qaldırmaqdan, bütün dünyada tanıtmaqdan ibarət olubdur və onun səmərəsini biz bu gün bütün parlaqlığı ilə görməkdəyik. Çünki Heydər Əliyev bütün şüurlu həyatı boyu doğma xalqının xoşbəxtliyi, dünya birliyi içərisində öz layiqli yerini tutması uğrunda yaradıcılıq, quruculuq fəaliyyətinə bir an belə fasilə verməmiş, bunu həyatının ən başlıca mənası hesab etmişdir.

Heydər Əliyev ilk növbədə bir azərbaycançı kimi ölkənin maraqlarına uyğun gələn bütün cəhətləri birləşdirmək, xalqa və dövlətə kompleks fayda vermək, onun yüksəlişinə maksimum dərəcədə nail olmaq yolunu tutmuşdu. Hüseyn Cavid irsi də bu baxımdan istisna təşkil etmirdi. 1996-cı il oktyabrın 29-da Hüseyn Cavidin məqbərəsinin təntənəli açılışı üçün Naxçıvana yola düşən Prezident Heydər Əliyev Bakının Binə hava limanında jurnalistlərə müsahibə verərkən bunu xüsusi vurğulayaraq demişdi: "Mən Naxçıvana birinci növbədə Hüseyn Cavidin məqbərəsinin tikilib başa çatması münasibətilə gedirəm. Oktyabrın 24-də Hüseyn Cavidin anadan olmasının 114-cü ili tamam olmuşdur. Bilirsiniz ki, bu məqbərənin tikilməsi barədə biz hələ 1982-ci ildə qərar qəbul etmişdik, ancaq o tikilməmişdi və bu işə fikir verilməmişdi. Biz artıq bu məsələni də həll etdik. Mən bu işi də başa çatdırmışam. Məqbərənin açılışı olacaqdır. Azərbaycan ziyalılarının böyük bir dəstəsi, Milli Məclisin üzvləri mənimlə birlikdə oraya gedirlər. bu, əlamətdar bir hadisədir. Güman edirəm ki, bu, Azərbaycanın həm mənəvi, həm də mədəni həyatında böyük bir hadisə olacaqdır." Bu sadə sözlərdəki dərin mənalardan belə anlaşılır ki, Heydər Əliyev Azərbaycan naminə xalqımızın keçmişini, indisini və gələcəyini birləşdirmək yolunu seçib və əslində də Azərbaycana xidmətin ən doğru yolu elə budur. Öz fikirlərini Naxçıvan hava limanındakı müsahibəsində davam etdirən Ulu öndər sanki mifik Antey kimi Naxçıvan torpağından güc almasını da üstüörtülü şəkildə dilə gətirməyə nail olmuşdur.

Xarici ölkələrə səfərləri ilə Naxçıvana səfərini müqayisə edən Ümummilli lider maraqlı və orijinal fikirlər irəli sürmüşdür: "Şübhəsiz ki, bunun böyük fərqi var. Çünki bir var mən xarici ölkələrə səfər edirəm, bir də var ki, öz torpağımızın, Azərbaycanın bir hissəsi olan Naxçıvan Muxtar Respublikasına gəlirəm. Bura mənim doğulduğum yerdir. Əhəmiyyətli cəhət bir də ondan ibarətdir ki, 1990-1993-cü illərdə Muxtar Respublika üçün ən ağır dövrdə, o cümlədən mənim də həyatımın çətin bir dövründə mən Naxçıvanda yaşamışam, işləmişəm, Naxçıvan əhalisi ilə bir yerdə olmuşam. Üç il yarım bundan əvvəl Bakıda, Azərbaycanda baş vermiş ağır, çətin proseslərə görə, Respublikamız böyük təhlükə qarşısında olduğuna, vətəndaş müharibəsi başladığına görə mən Bakıya dəvət olundum. Hadisələr elə inkişaf etdi ki, mən Bakıda qalası oldum. Bundan sonra da

Azərbaycanın qayğıları, işləri məni o qədər məşğul etdi ki, buraya gəlmək imkanı əldə edə bilmədim. Nəhayət, mən bu imkanı əldə etmişəm, çox məmnunam, sevinirəm, şadam. Xüsusən ona görə ki, mənim bir arzum da yerinə yetir. Böyük Azərbaycan yazıçısı, şairi, dramaturqu Hüseyn Cavidin cənazəsini 1982-ci ildə Sibirdən gətirərkən, onu burada – Naxçıvanda torpağa verərkən mən qərar qəbul etmişdim ki, onun qəbri üzərində məqbərə tikilsin. Bu, indiyədək olmamışdı. İndi onu başa çatdırmışıq və mən bu mərasim münasibətilə Naxçıvana gəlmişəm."

Səriştəsiz, diletant başçıların üç il yarım ərzində xaraba qoyduqları Azərbaycanı tam qarşısında durduğu uçurumdan xilas etmək üçün Heydər Əliyev üç il yarım ərzində fasiləsiz mübarizə aparmalı oldu, hətta o dərəcədə ki, doğma Naxçıvana getməyə belə vaxt tapa bilmədi. Kim bilir, bəlkə hələ üç il yarım da, yəni nağıllarda olduğu kimi, yeddi il Naxçıvana gedə bilməyəcəkdi, əgər Ümummilli liderin böyük Cavid sevgisi, dahi sənətkar qarşısında duyduğu övladlıq borcu olmasaydı... Təsadüfi deyil ki, müsahibəsinin sonunda da bunu xüsusi vurğulayır və "mən bu mərasim münasibtəilə Naxçıvana gəlmişəm" – deyirdi.

Repressiya qurbanı olan Hüseyn Cavid Heydər Əliyev üçün bir də şəhid-sənətkar kimi əziz idi. Buna görə də təsadüfi deyil ki, Cavid mərasiminə gəlmiş Azərbaycan Prezidenti ilk növbədə Naxçıvandakı Şəhidlər Xiyabanına getmiş, burada qorunan fəxri kitaba öz ürək sözlərini yazmışdı. İndi artıq tarixə qovuşmuş həmin ürək sözləri belə idi: "Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi, müstəqilliyi uğrunda şəhid olanlar əbədiyyətə qovuşublar. Onların qəhrəmanlıq xatirəsi bizim qəlbimizdə daim yaşayacaq." Şübhəsiz ki, bu sözlərdə Hüseyn Cavidin, Azərbaycanın başqa şəhid övladlarının da payı vardır. Çünki vətən, millət uğrunda canını fəda edənlər hər hansı bir zaman kəsiyinə sığışmır, tarixin əbədi yol yoldaşlarına çevrilirlər.

**İstifadə edilmiş ədəbiyyat**

1. Həbibbəyli İ. H.Əliyevin dövlətçilik təlimində ədəbiyyat siyasəti və müasir dövr. "Azərbaycan" jurnalı, 2010, 27 aprel, s.4
2. Əfəndiyev T. Heydər Əliyevin ədəbi siyasəti. 525-ci qəzet, 2010, 18 may, s.4

UOT 66.001.12/.18

## Qloballaşan dünyada Azərbaycanın neft-kimya sənayesinin inkişafında Heydər Əliyev siyasi kursunun rolu

*Faiq Xanoğlan oğlu Kərimli,*
*Bakı Dövlət Universitetinin doktorantı*

Azərbaycanda kimya və neft-kimya sənayesinin təməlinin qoyuluşu XIX əsrin 60-70-ci illərinə təsadüf etməklə bilavasitə neft emalı sənayesinin inkişafı ilə bağlıdır və o dövr üçün Azərbaycanın yeni bir sənaye sahəsi olan kimya sənayesi məhz XIX əsrin sonlarından başlayaraq, mürəkkəb və uzun bir tərəqqi yolu keçmişdir. Həmin dövrlər isə Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illəri əhatə edir. Heç şübhəsiz ki, qeyd olunan illərdə həyata keçirilən uğurlu siyasət və effektiv idarəetmə strategiyası nəticəsində Azərbaycanın emal sənayesi istehsalının strukturunda kimya və neft-kimya sənayesinin məhsulları 10 faizlik yer tutmuşdur. Onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, məhz Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Sumqayıtın kimya sənayesində EP-300 qurğusunun tikilməsi 1970-ci illərdə Azərbaycanda onun qarşısında duran böyük vəzifələrdən biri idi. Həmin dövrdə, EP-300 qurğusu ümumiyyətlə, nadir bir sənaye müəssisəsi hesab olunurdu. Həmin dövrdə, onun texnologiyası yeni olmaqla yanaşı, həmçinin həmin müəssisənin yaradılması böyük vəsait, mütəxəssislər – texnologiyadan istifadə edə bilən mühəndislər, texniklər, fəhlələr tələb edirdi. Lakin bu cür avadanlığın Sovetlər İttifaqı dövründə alınması və quraşdırılması bu o qədər də asan hesab

olunmurdu. Çünki belə qurğuların başqa yerlərdə də yaradılması nəzərdə tutulurdu, böyük vəsait lazım olduğuna görə buna vəsait ayırmaq çətin hesab olunan amillərdən sayılırdı. 1975-1976-cı illərdə EP-300 qurğusunun tikilməsi haqqında təklif irəli sürüldü, yanlız 1980-cı ildə bu qurğunun tikintisinə başlanıldı.

Neft-kimya sənayesinin xarakterik xüsusiyyəti odur ki, onun istehsalat bölmələri arasında şaquli və üfüqi əlaqə mövcuddur. Azərbaycanın neft-kimya sənayesində istehsal olunan məhsulun böyük hissəsi daxili istifadə üçün, yalnız üçdə bir hissəsi iqtisadiyyatın digər sahələrində, daxili istehlak və ixrac üçün istifadə edilir.

Azərbaycan Respublikasında neft-qaz emalı və neft-kimya sənayesinin strateji inkişafı barədə Ümummili lider Heydər Əliyev siyasi kursunun davamçısı Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı ölkə üzrə neft-kimya sənayesinin problemlərinin həlli üçün əsas sənəd hesab olunur. Bu strategiyada hədəflər, tapşırıqlar və sahənin daxili və xarici bazarda inkişaf prioritetləri və reallaşdırılması mexanizmləri müəyyən edilmişdir. Ölkənin neft-kimya sənayesi Azərbaycanın strateji bölmələrindən hesab edilməklə yanaşı, ölkə iqtisadiyyatı üçün böyük önəmə malikdir. Xammal məhsullarından əlavə, Azərbaycan neft-kimya sənayesi həmçinin yarımfabrikat, müxtəlif təsərrüfat sahələri üçün məhsullar ixrac edir.

Azərbaycanın neft-kimya sənayesi özündə fərqli çeşiddə kimya və neft-kimya məhsulları istehsal edən 5 sayda böyük sənaye qruplarını birləşdirir.

Kimya sənayesi bir neçə qrupdan ibarətdir:

1) əsas kimya (duz, turşu, mineral gübrələrin alınması);
2) polimerlər kimyası (plastik kütlə, kauçuk, müxtəlif liflərin alınması);
3) üzvi sintez kimyası (karbohidrogen xammalı, yarımfabrikat istehsalı);
4) polimer materiallarının emalı (sin, polietilen hazırlanması);
5) dağ-mədən kimyası (mineral xammalın hasilatı).

Azərbaycanın kimya və neft-kimya sənayesinin aparıcı və əhəmiyyətli sahəsi əsas kimya təşkil edir ki, burada maliyyə daxil olmaları baxımından kimya sənayesində istehsalın 2/3 hissəsi bu sahənin payına düşür. Burada əsas kimya məhsullarının istehsalı həyata keçirilir. Dünya təcrübəsi göstərir ki, kimya sənayesinin inkişafı digər sənaye və təsərrüfat sahələri üçün multiplikativ effekti rolunu oynayır və əhalinin dayanıqlı məşğulluğuna gətirib çıxarır. Nəticə olaraq, neft-kimya sənayesində yaranan bir iş yeri, digər əlaqəli sektorlarda daha çox yeni iş yerlərinin açılmasına gətirib çıxarır. Neft-kimya məhsulları istehsalı ilə məşğul olan müəssisə kənd təsərrüfatı, maşınqayırma, metallurgiya və tekstil müəssisələri ilə sıx əməkdaşlıq edir. Onu xüsusi vurğulamaq yerinə düşür ki, Azərbaycanın kimya sənayesində çalışanların əməkdaşların sayında əvvəlki illər ilə müqayisədə cüzi azalma müşahidə edilmişdir. Kimya sənayesində təxminən 200000-ə yaxın sayda iri və orta sahibkarlıq subyektləri mövcuddur. Müəssisələrdə təxminən 15000-nə yaxın sayda işçi fəaliyyət göstərir.

Son illərdə ölkədə qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatın genişləndirilməsi sayəsində önəmli nəticələr əldə edilsə də hələlik bu sahədə görülməli işlərin çox olmasını xüsusi vurğulamaq lazımdır. Hazırda Azərbaycanda kimya sənayesinin inkişafına və iqtisadiyyatın genişləndirilməsində görülməli işlər olaraq, aşağıdakıları qeyd etmək lazımdır:

- perspektivli və potensial inkişafa malik sahələrə, müəssisələrə investisiya qoyuluşlarında səmərəli və güzəştli yanaşma probleminin qalması;
- kimya sənayesinin əsas texniki və texnoloji bazasının mütərəqqi texnologiyalara uyğunlaşmaması problemi;
- müasir elmi və intellektual potensialının inkişaf etdirilməsinə ehtiyac;
- peşəkar mütəxəssislərin, yüksək ixtisaslı və intellektual biliklərə malik kadrların yetişdirilməsi səviyyəsinin tələb olunan səviyyədə olmaması;
- ən son innovasiya nailiyyətlərinin tətbiqini təmin edəcək nəzarət mexanizminin və infrastrukturun tələb olunan səviyyədə inkişaf etməməsi;
- kimya sənaye müəssisələrinin innovasiya yönümlü, rəqabət qabiliyyətli məhsul istehsalında maraqlı olmaması;

- beynəlxalq keyfiyyət standartlarının istifadəsinin geniş şəkildə tətbiq edilməsinin təmin olunmaması;

- texnoloji avadanlığın amortizasiyasının yüksək fond tutumluluğu, istehsal fondlarının, yeni və müasir avadanlıqların tətbiq faizinin arzu olunan səviyyədə olmaması;

- neft-kimya məhsullarının istehsalı prosesinin yüksək material və enerji tutumluluğu;

- idarəetmə sisteminin peşəkarlıq və korporativ idarəetmə standartları səviyyəsinə və müasir dövrün tələblərinə qismən cavab verməməsi [4].

Kimya və neft-kimya sənayesi iqtisadiyyatın bütün sahələrində istifadə edildiyi üçün geniş məhsul çeşidi istehsalı ilə (18000-dən çox) xarakterizə edilir. Bu məhsullarının geniş istehlakçıları, əsasən, müdafiə sənayesi, səhiyyə, yüngül sənaye, maşınqayırma, nəqliyyat, inşaat, mebel sənayesi, yanacaq-energetika sənayesi, rabitə, aqrar-sənaye kompleksi və qablaşdırma istehsalı təşkil edir.

Müstəqilliyin ilk illərində həyata keçirilən iqtisadi “islahatlar” və ölkə iqtisadiyyatının strukturunda tətbiq olunan sözdə yenidən qurma işləri Azərbaycanın kimya və neft-kimya sənayesinə ziyansız olmamışdır. Belə ki, dünya bazarında rəqabət qabiliyyətli məhsul təklifinin geniş çeşiddə olması və müasir standartların tələblərinə uyğun olmayan texnologiyaların əsasında olan həyata keçirilən istehsalın təklif etdiyi məhsullara olan real tələbin olmaması Azərbaycanın neft-kimya sənayesində istehsal potensialının təkrar gözdən keçirilməsinə ehtiyac yaratmışdır [3]. Xüsusi olaraq, onu da vurğulamaq lazımdır ki, bu sektora yatırılan investisiyada qeydə alınan azalma, eyni zamanda istehsal həcminin də eyni tendensiya göstərməsi ilə də nəticələnmişdir.

Buna baxmayaraq, son dövrlərdə artıq Azərbaycanın yeni rəhbərliyinin bu sahəyə göstərdiyi diqqət və qayğının sayəsində bu sahənin effektivliyi və rentabelliyi artmış, maliyyə-iqtisadi göstəriciləri, əmək məhsuldarlığı yüksəlmişdir. 2019-cu ildə Azərbaycanın neft məhsullarının istehsalında, kimya sənayesində və plastik kütlə məmulatlarının istehsalında əsas kapitala investisiyalar 2016-cı illə müqayisədə sonra müvafiq olaraq, 100 %, 97 % və 100 %-dən yüksək artım nümayiş etdirmişdir. 2018-ci illə müqayisədə bu göstəricilər isə müvafiq olaraq, 35 %, 25 % azalma və 100 %-dən yüksək artım nümayiş etdirmişdir. Amma ümumilikdə, əvvəlki illərlə müqayisədə bu istiqamətdə qeydə alınan artım göstəriciləri müşahidə olunmuşdur ki, burada da ən başlıca səbəb ölkədə bu sahəyə marağın yüksəlməsi və SOCAR Karbamid, Polimer zavodlarının tikintisi və Azərikimya İB-də aparılan modernizasiya işləri vacib amillərdən hesab olunur [6].

Neft-kimya sənayesində son illərdə qeyd olunan artım dinamikası müşahidə edilir, belə ki ölkənin ödəmə qabiliyyətli istehlakçılarının bu məhsullara olan tələbatı Azərbaycana idxal edilən neft-kimya məhsullarına baxmayaraq, yerli istehsalın əhəmiyyətli dərəcədə artması hesabına təmin edilmişdir. Bununla paralel, kimya və neft-kimya sənayesində qeydə alınan müsbət inkişaf əlamətlərinə baxmayaraq, bu sektorun istehsal potensialı hələ ki, aşağı texniki səviyyə ilə, qeyri qənaətbəxş vəziyyəti və dünya bazarı səviyyəsinə (texniki göstəricilərə və qiymətinə görə) tam cavab verməyən parametrləri ilə xarakterizə olunur.

**Neft-kimya sənayesinin inkişaf perspektivləri**

Əsası 2011-ci ilin dekabrında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə qoyulmuş Karbamid zavodunun tikintisi “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”na əsasən həyata keçirilmişdir. Karbamid mayesi, Ammonyak və əmtəəlik karbamid istehsalı bölmələrindən ibarət olacaq müəssisədə gündəlik 2000 ton karbamid və 1200 ton ammonyak istehsal edilməsi nəzərdə tutulur. Qonşu Gürcüstan Respublikasında da oxşar müəssisənin tikilməsi həm Azərbaycanın kənd təsərrüfatında azot gübrəsinə tələbatın tam təmin edilməsinə, həm də region ölkələrinin bazarlarına yeni, keyfiyyətli və rəqabətqabiliyyətli məhsul çıxarılmasına əlavə imkanlar yaradacaqdır. Hər iki istehsal müəssisəsinin ümumi istehsal gücü təxminən, 1 milyon ton təşkil edir. 2019-cü ildə istismara verilən Karbamid zavodları ammonyak və karbamid məhsullarının istehsal gücünə görə Azərbaycan Qafqazda lider mövqeyini qazandırmışdır [5].

Qaradağ rayonunda tikilmiş Metanol Zavodu 2013-cü ildən istehsal fəaliyyəti prosesinə başlamışdır. Təbii qazdan əldə edilən metanol maddəsi təbii yolla parçalana bilən şəffaf rəngli neft-kimyəvi maye hesab olunur. Bu məhsul təkrar emal plastiki, sintetik toxuculuq malları, məişət

boyaları, peno-balışlar, yastıqla və yapışdırıcılar kimi çoxlu sayda istehlak və sənaye mallarının hazırlanması üçün istifadə olunur.

Metanol maddəsi eyni zamanda, evlərin daxili istilik sistemləri və mətbəx üçün yanacaq kimi istifadə olunur və həmçinin səmərəli nəqliyyat yanacağı kimi də istifadə oluna bilər. Dimetil efiri, elektrik enerjisi, biodizel istehsalında və digər sahələrdə metanolun istifadəsinə olan maraq get-gedə artdıqca satış bazarları da genişlənir və məhsulun istifadəsi ilə bağlı yeni-yeni proqramlar tətbiq olunur.

Metanol eyni zamanda, benzinə əlavə olunduğu zaman yanacağın daha keyfiyyətli yanmasına və ətraf mühitə zərərli tullantıların daha az olmasına səbəb olan yanacaq komponentlərinin istehsalı üçün də tətbiq olunur. Növbəti strateji proqramların birində reallaşdırılması nəzərdə tutulan lahiyələrdən biri də Formaldehid zavodlar kompleksi hesab olunur. Formaldehid və onun törəmələrinin (qətranların) istehsalı müəssisəsində metanoldan xammal kimi istifadə edərək əldə olunan fərqli məhsulların istehsalı nəzərdə tutulur. Bu məhsul güclü maşınqayırma qatranları, inşaat və ağac məhsulları, və həşərat öldürücülərə olan yüksək tələbat səbəbindən tarixən ən böyük metanol törəməsi hesab edilir [1]. Fenol-formaldehid qətranları tökmə birləşmələr, taxta yapışdırıclar və laminatlar üçün istifadə olunur. Hal-hazırda Azərbaycanda qətran tərkibli taxta məhsulları ölkə xaricindən idxal edilir.

Əlavə olaraq, onu da xüsusi qeyd etmək lazımdır ki, statistik göstəricilərə əsasən 2019-cu ildə Azərbaycanda kimya sənayesinin əsas məhsullarının istehsalında (etilen, polietilen, propilen və s.) əvvəlki illə müqayisədə 20 % artım qeydə alınmışdır. Həmin artımda ən böyük pay sahib olan göstəricilər propilen və etilen istehsalı üzrə qeydə alınmışdır. Eyni zamanda, sənaye məhsullarının ümumi həcmində rezin löhvə məmulatları istehsal edən sahənin payı 2019-cu ildə 14 % azalmağına baxmayaraq, plastik qapı və pəncərə blokları və polietilen kisə və çantalar üzrə istehsal həcmi müvafiq olaraq 16 % və 67 % artmışdır ki, bu da həmin sahədə artan istiqamətdə inkişafının göstəricisi hesab oluna bilər.

Azərbaycanda fəaliyyət göstərən və neft-kimya məhsulları istehsal edən müəssisələrinin sayı 2019-cu ildə əvvəlki il ilə müqayisədə 7 % artsa da, bu göstəricinin 2017-ci ildə fəaliyyət göstərən müəssisələrin sayında 26 % çox olması bu sahəyə olunan maraq və diqqətin artmasının bariz nümunəsi hesab oluna bilər [2]. Bu da Azərbaycanın Heydər Əliyev siyasi kursunun bu sahəyə göstərdiyi diqqətin bariz nümunəsi olmaqla yanaşı, o cümlədən dövlət tərəfindən yatırılan investisiyalar ilə əlaqədardır.

Azərbaycanın kimya və neft kimya sənayesinin innovativ dəyişiklərə, ciddi şəkildə investisiya qoyuluşlarına, istehsalat bazasının yenidən qurulmasına və inkişaf etdirilməsinə zəruriyyətin olmasına baxmayaraq, yüksək inkişaf və böyümə perspektivlərinə sahibdir. Əlavə olaraq, onu qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanan 2009-cu ildə Azərbaycan Respublikasında neft-qaz emalı və neft-kimya sənayesinin inkişaf strategiyası haqqında sərəncamında kimya və neft-kimya sənayesinin inkişaf prioritetləri müəyyən edilmişdir. Bu strategiyanın əsas məqsədi və məramı kimya və neft-kimya sənayesinin inkişafı üçün əlverişli şərtlərin yaradılması, rəqabət qabiliyyətli neft-kimya məhsullarının istehsalının təşkili və istehsal həcminin artırılması, yerli istehsalçıların yerli və xarici bazarda rəqabətqabiliyyətli mövqeyinin yaradılması və gücləndirilməsi təşkil edir.

**İstifadə edilmiş ədəbiyyat**


1. http://www.inesp.ru
2. https://www.stat.gov.az
3. http://minenergy.gov.az
4. http://unec.edu.az
5. www.socar.az
6. www.socarpolymer.az

UOT 37:001.12/.18

**Bu günkü təhsilimizin banisi**

*Kəmalə Sahib qızı Mustafayeva,*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin doktorantı*

İnsan həyatı boyu qazandığı bilik, bacarıq və bunların timsalında formalaşan vərdişlərlə dünyanı dərk etmək, anlamaq onu öyrənməyə çalışmaqla mübarizə meydanı olan dünyada ağıl və idrakını inkişaf etdirmişdir. Həyati tələbatlarımız zaman keçdikcə, coğrafi mühit dəyişiklikləri ilə öyrənmə maraqları və metodları ilə dəyişiklik göstərmişdir.

Amerika yazıçısı və filosofu Ralf Uold Emerson: “Sivilizasiyanın əsl göstəricisi sərvət, iri şəhərlər, məhsul bolluğu deyil, ölkənin tərbiyələndirdiyi və yetişdirdiyi insandır” deyir. Tarixən hər bir inkişaf etmiş bəşər sivilizasiyalarında da təhsil cəmiyyətinin əsas zəruri ehtiyacı olmuş, zaman keçdikcə inkişafın əsas mənbəyinə çevrilmişdir. Azərbaycanın dövlətçilik tarixində də təhsil inkişafının başlıca, zəruri amili rolundadır. Bir millətin formalaşması, inkişafı və özünüdərki prosesinin olması üçün müstəqil, azad olması zərurətdir. 1918-ci ildə başlanan dövlət müstəqilliyimiz 1991-ci ildə bərpa edildikdən sonra millətin özünəqayıdışı və dirçəlişi istiqamətində qətiyyətli addımlar atılmışdır. Bu qətiyyətli addımların əsas banisi Ümummilli lider Heydər Əliyev olmuşdur. İndiki dövrümüzdə təhsil sahəsində həyata keçirilən islahatlar proqramına diqqət yetirdikdə, Heydər Əliyevin qoyduğu təhsil strategiyasının başlıca fundamentallığını görmək mümkündür. Hələ sovetlər dönəmində, Heydər Əliyevin hakimiyyətdə olduğu 1970-ci illərdə Azərbaycanda 5 yeni təhsil müəssisəsi açılmış, həmin illərdə 700-dən artıq məktəb binası tikilərək istifadəyə verilmişdir. Bu illərdə respublikada ali təhsil müəssisələri 12-dən 17-yə çatdırılmış, orada təhsil alanların sayı 70 mindən 100 minə qədər artırılmış, 800-dən çox gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir [3].

1993-cü ilin yayından etibarən Azərbaycanda siyasi sabitliyi bərqərar edən Heydər Əliyev bir çox sahələrdə olduğu kimi təhsil sahəsində də problem məsələlərin həllinə yönəlmiş kompleks addımlar atmışdır. Bu tədbirlər sırasında 2002-ci ilin oktyabrın 4-də imzalanan “Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında” Sərəncam da dövrün elm və təhsil sisteminin inkişafı üçün əhəmiyyətli idi. “Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli Sərəncamı da təhsil sahəsindəki problemlərin aradan qaldırılması istiqamətində silsilə tədbirlər planındakı müstəsna addımlardandır [1].

İnkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanaraq, demək olar ki, ali təhsilin inkişaf etmədiyi, ixtisaslaşmanın və bu sahədə tədqiqatların aparılmadığı ölkə və cəmiyyətlərdə yüksək keyfiyyətə əsaslanan təhsildən danışmaq mümkün deyil. Bu mənada, Ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu ikinci dönəmdə ali təhsil müəssisələrində təhsil alan gənclərin elmi-tədqiqat işlərinə cəlb olunması üçün dövrün tələblərinə uyğun şərait və imkanlar yaradılmışdı. 1998-ci ildən bu günə qədər elmi-tədqiqat və ali təhsil müəssisələrinin 1500-dən artıq əməkdaşı müxtəlif xarici ölkələrdə ezamiyyətlərdə olmuş, Azərbaycan elmini təmsil etmişlər. 15 iyun 1999-cu ildə Ulu öndər tərəfindən təsdiq olunmuş “Azərbaycan Respublikasında Təhsil İslahat Proqramı”nın əsas mahiyyəti də təhsil sistemində islahatların mərhələlərlə aparılmasına və dünya təhsil sisteminə inteqrasiya edəcək Azərbaycanın milli dəyər və xüsusiyyətlərini öz qoruyan mütərəqqi prinsiplərin tətbiqi idi. İslahat proqramının reallaşması ilə təhsilin məzmunu yenilənmiş, yeni proqram və dərsliklər hazırlanmış, ayrı-ayrı təhsil sahələri və fənlər üzrə standartların hazırlanması istiqamətində nəticəyönümlü iş aparılmışdır [3].

Heydər Əliyevin təhsil işçiləri və tələbələrlə 1999-cu ilin 31 avqustunda keçirilmiş görüşündəki irəli sürdüyü “Mənim sizə tövsiyəm ondan ibarətdir ki, islahatları düşünülmüş qaydada aparasınız, formalizmə, konyukturaya yol verməyəsiniz. Azərbaycanın milli ənənələrinin üzərindən keçməyəsiniz”, “Çalışmaq lazımdır ki, islahat islahat naminə aparılmasın, təhsil sistemimizi daha da

təkmilləşdirmək, bu günün, gələcəyin tələblərinə daha da uyğunlaşdırmaq məqsədi daşısın”, “Əgər biz iqtisadi sahədə apardığımız islahatlarda bu gün haradasa səhv ediriksə, sabah həmin səhvi düzəltmək mümkündür, haradasa ifrata yol veririksə, onun qarşısını almaq mümkündür… Amma təhsil sahəsi çox həssas sahədir. Burada cürbəcür kombinasiyalara, manipulyasiyalara yer verilə bilməz” fikri onun təhsilə verdiyi diqqətin göstəricisidir [2].

1999-cu ilin martında təhsil sahəsində islahatlar üzrə keçirilmiş Dövlət Komissiyasının iclasında “Azərbaycanın təhsil sistemində təhsil alan insanların və xüsusən ali məktəbləri bitirənlərin bilik səviyyəsi və onların biliklərini təsdiq edən sənədlər gərək dünyanın inkişaf etmiş ölkələrinin ali məktəblərinin bilik səviyyəsinə uyğunlaşdırılsın. Onların prinsiplərinə uyğunlaşdırılsın ki, Azərbaycanda təhsil almış və mühəndis diplomu almış bir insan başqa ölkələrdə də həmin diplomla qəbul edilə və fəaliyyət göstərə bilsin” – nitqi bu gün təhsilimizdə uğurla davam etdirilir [2].

Bu gün Azərbaycan təhslində Heydər Əliyevin qoyduğu kursu Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir. Təhsilimizdə gündən-günə yeniləşir, ən müasir, qabaqcıl texnologiyalar ölkəmizə gətirilir, səmərəli inkişafa bir başa təkan verir. Prezident İlham Əliyev həyata keçirilməsi vacib məsələləri qeyd etdiyi zaman, təhsilin, səhiyyənin və bütün sosial sahələrin əsas və birinci vacib sahələr olduğunu və daim dövlət qayğısı ilə inkişaf etdiriləcəyini vurğulamışdır. Ümummilli liderimizin “Gələcək bilikli, elmli, istedadlı insanların çiyinləri üzərində qurulur” fikri, bu gün Prezident İlham Əliyev tərəfindən “Biz neft gəlirlərinin insan kapitalına çevrilməsini təmin etməliyik” məqsədyönlü şəkildə davam etdirilir [4]. Təhsil gələcəyə, inkişafa və tərəqqiyə açılmış yoldur. Təhsilimizdə son illərdə həyata keçirilən uğurlu islahat və tədbirlər deməyə əsas verir ki, Azərbaycanda təhsili çox da uzaq olmayan gələcəkdə qlobal problemlərin həllini əsaslı surətdə həll edəcək və keyfiyyətli milli təhsil institutunu inkişaf etdirəcəkdir [3].

## İstifadə edilmiş ədəbiyyat

1. Alıyev İ., Əsədov A. Heydər Əliyev elm və təhsilin inkişafina böyük qayğı ilə yanaşırdı. “Xalq qəzeti“, 2009, 12 dekabr, №276, s.6
2. Mərdanov M. Heydər Əliyev ideyaları müasir təhsil quruculuğunun əsasıdır. “Azərbaycan müəllimi” qəz., 2010, 10 dekabr, №48, s.2-3
3. Budaqova S. Mütərəqqi təhsil strategiyasinin banisi. “Şərq” qəz., 2009, 12 dekabr, №230, s.7
4. Qarayev Q. Müstəqil Azərbaycan elminin və təhsilinin memarı. “Respublika” qəz., 2013, 19 aprel, №80, s.8

UOT 351.86

## Dövlətimizin şanlı qələbəsində Azərbaycanın hərbi sənayesinin rolu

*Ayşən Viladdin qızı Məmmədova,*
*Seymur Ceyhun oğlu Məmmədov,*
*Azərbaycan Texnologiya Universitetinin doktorantları*

Azərbaycan Respublikası sürətli iqtisadi inkişaf tempi ilə regionun lider dövlətinə çevrilmişdir. Ulu öndər Heydər Əliyevin siyasi kursunu yeni dövrün gerçəklikləri nəzərə alınmaqla uğurla davam etdirən Prezident İlham Əliyevin qarşıya qoyduğu bütün vəzifələrin icra olunması, mühüm əhəmiyyətə malik dövlət proqramlarının reallaşdırılması nəticəsində əhalinin yaşayış səviyyəsi xeyli yüksəlmişdir.

Bu gün respublikamızda uğurla inkişaf edən sahələrdən biri də müdafiə sənayesidir. Ölkə iqtisadiyyatının digər sahələrində olduğu kimi, əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan müdafiə sənayesi sahəsində də qısa müddət ərzində böyük uğurlar qazanılmışdır.

Azərbaycan Ordusunun inkişafına təsir edən amillərdən biri də xüsusi strateji əhəmiyyət kəsb edən müdafiə sənayesi məhsulları istehsal edən zavodların fəaliyyətə başlamasıdır. Bu amil respublikamızın kompleks inkişaf yolunda qazandığı böyük nailiyyətdir. Silahlı Qüvvələrimizin modernləşdirilməsi, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər mühüm işlər görülüb. Ordumuz yeni texniki imkanlar əldə etməklə həm də müasir, dünyada təcrübədən çıxmış müharibə və döyüş taktikalarını da mənimsəyib. [1]

Hələ aprel döyüşləri zamanı düşmənin canlı qüvvəsinin və döyüş texnikalarının məhv edilməsində MSN-in müəssisələrində istehsal olunan silah və sursatlardan istifadə, müdafiə təyinatlı məmulatların həcminin artması, "Tufan", "İldırım" və "Qasırğa" milli zirehli maşınların, "İstiqlal", xüsusi təyinatlı "Yalquzaq", "Mizrak" raket sisteminin tətbiqi daima düşməni təşvişdə saxlamışdır.

Azərbaycanın hərbi sənaye kompleksinin real istehsal gücü Silahlı Qüvvələrimizi silah-sursat, hərbi texnika və digər vasitələrlə təmin etməklə yanaşı, xarici bazarlara da məhsul ixrac etməyə qadirdir. Xarici bazarlarda Azərbaycanda istehsal olunan hərbi təyinatlı məhsullara böyük maraq var. Bunu indiyə qədər keçirilən və ölkəmizin istehsalı olan müdafiə məhsullarının nümayiş etdirildiyi sərgilər təsdiq edir. Beynəlxalq miqyasda Azərbaycanın istehsal etdiyi hərbi təyinatlı məmulatlara böyük maraq göstərilməsinin səbəbi onların keyfiyyətli olması, müasir tələblərə cavab verməsidir. Bir çox dövlətlər ölkəmizdə müdafiə sənayesi tərəfindən istehsal olunan məhsullara maraq göstərməklə yanaşı, bu sahədə Azərbaycanla əməkdaşlıq qurulmasına və ya mövcud əməkdaşlığın daha da dərinləşdirilməsinə çalışırlar.

Azərbaycanın güclü iqtisadiyyatı var, güclü hərbi-sənaye kompleksi formalaşıb və Azərbaycan artıq hərbi məhsulların perspektivli ixracatçısına çevrilib. [2]

2020-ci il sentyabrın 27-də növbəti erməni hərbi təxribatına cavab olaraq başlayan Vətən müharibəsi Azərbaycanın Ermənistanın təcavüzü nəticəsində işğal olunmuş ərazilərinin azad edilməsi kimi zəruri və ədalətli məqsədlərə xidmət göstərmişdir.

Müharibə cəmiyyətin və dövlətin həyatında ən əhəmiyyətli hadisə olduğundan ölkənin bütün imkanları səfərbər edilir, xüsusi davranış normalarının seçilməsi qaçılmaz olur. Müharibənin uğurla başa çatmasını şərtləndirən əsas amillər dövlətin müharibəyə necə hazırlaşmasından, malik olduğu resurslardan, ordunun döyüş qabiliyyətindən və mənəvi ruhundan asılıdır. Lakin etiraf edilməlidir ki, istənilən hərbi fəaliyyətin başlıca uğuru hərbi strategiya anlayışı ilə əlaqədardır. Bu isə sərkərdə məharəti deməkdir. Bütün dövrlərdə hər bir müharibənin başlıca qəhrəmanı sərkərdələr olub. Ordumuzun sərkərdəsi, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 44 gün davam edən Vətən müharibəsinin əsas və həlledici qəhrəmanı olması təkcə Azərbaycan vətəndaşlarının deyil, bütün beynəlxalq icmanın yekdil qənaətidir. Məhz onun düzgün strategiyası sayəsində təxminən 30 il əvvəl Azərbaycanın ərazilərinin 20 faizini işğal etmiş Ermənistan ordusu darmadağın edildi, işğala son qoyuldu, tarixi qələbə əldə edildi. Birmənalı şəkildə qeyd olunmalıdır ki, Vətən müharibəsində əldə edilən hərbi uğur İlham Əliyevin qələbəsi, onun sərkərdə düşüncəsinin və strategiyasının təntənəsidir.

8 Noyabr Zəfər Günü Azərbaycanın çoxyüzillik tarixinin şanlı səhifəsini təşkil edir. Vətən müharibəsi və onun qələbə ilə başa çatması müasir Azərbaycan dövlətinin həyatının ən parlaq anları kimi, tariximizin bundan sonrakı dönəmlərində daim xüsusi qürur və iftixar hissi ilə xatırlanacaq. Çünki bu, millətin ümid, inam, qürur anları idi. Bu, ölkəmizin yeni tarixinin başlanğıcı, yeni inkişaf üfüqlərinin açılması məqamıdır.

Tarixi Qələbəmizdən danışarkən bir sıra aspektləri, bir sıra mühüm amilləri nəzərdən qaçırmaq olmaz. Qələbəmizin tarixi əhəmiyyəti və xalqımızın taleyində böyük rolu bütün bu şanlı Zəfərin nəticələri bütün istiqamətlər üzrə təbii olaraq araşdırılacaq, təhlil ediləcək. Eyni zamanda, əminliklə qeyd etmək istəyirəm ki, bu Qələbə ölkəmizin gələcək inkişafına, daha da qüdrətlənməsinə, çiçəklənməsinə, vətəndaşlarımızın rifah halının daha da yüksəlməsinə də əvəzsiz töhfələr verəcəkdir.

Vətən müharibəsində Böyük Qələbəmizdən yazarkən qeyd edilməsi vacib olan amillərdən biri də Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu ordu quruculuğu siyasətinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev tərəfindən yeni dövrün tələbləri səviyyəsində inamla, uğurla davam edilməsidir. Prezident İlham Əliyevin son illərdə qəbul etdiyi qərarlar, atdığı inamlı addımlar qüdrətli ordu yaratmaq istiqamətində gərək olan bütün zəruri tədbirlərin həyata keçirilməsini təmin edib. Dövlət başçısı tərəfindən prioritet elan edilən ordu quruculuğu sayəsində ərsəyə gələn Azərbaycan Ordusu dövlətçiliyimizin qarantı olmaqla yanaşı, ölkəmizin dünya miqyasında maraq və mənafeyinin, milli təhlükəsizliyinin lazımi səviyyədə qorunmasını, həmçinin müstəqil siyasət yeritməsini təmin etməyə imkan yaradıb. [3]

Keyfiyyətli təşkil edilən, səmərəli keçirilən təlimlərdə təcrübə toplayan, peşəkarlığını yüksəldən müasir Ordu, döyüş əməliyyatlarının səriştəli, düzgün, eyni zamanda, hərbinin bütün qanunlarına uyğun olaraq planlaşdırılması, həyata keçirilməsi və hərtərəfli, planlı şəkildə hazırlıq ölkəmizin döyüş meydanında qələbə qazanmasını səciyyələndirən faktorlardır. Məhz sadaladığımız bu müsbət xüsusiyyətlərin nəticəsi olaraq, düşmənin illərlə yaratdığı "məğlubedilməz ordu" mifi 44 gün ərzində bütün dünyanın gözü qarşısında tənəzzülə uğradı.

Vətən müharibəsinin ilk günlərindən taktiki üstünlüyü ələ alan Azərbaycan Ordusunun qəlbi vətən eşqi ilə döyünən şəxsi heyəti hər gün yaşayış məntəqələrimizi, strateji yüksəklikləri azad etməklə daha bir uğura, yeni qələbəyə imza atmaqla növbəti günlərdə düşmən üzərində tam üstünlüyə nail oldu. [4]

Azərbaycan Ordusunun ən yüksək texnologiyalara məxsus hərbi texnikalarla silahlanması və ölkəmizin də inkişaf etmiş hərbi-sənaye kompleksinə malik olması zamanın reallığıdır. Eyni zamanda, son illər ərzində ordunun texniki təchizatında da genişmiqyaslı dəyişikliklər baş verib, ən müasir silah sistemləri alınaraq silahlanmaya qəbul edilib. Azərbaycan Ordusu həm hərbi potensialına, həm də döyüş qabiliyyətinə görə bu gün nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır. Son illərdə isə ordu quruculuğunda əhəmiyyətli islahatlar həyata keçirilib, bu məsələ ilə bağlı dövlət başçısı tərəfindən çoxsaylı addımlar atılıb ki, bunun da müsbət nəticələrini 44 günlük Vətən müharibəsində real şəraitdə şahid olduq. [5]

Ancaq bu da danılmaz faktdır ki, Ordu nə qədər güclü, müasir, dəqiq və böyük dağıdıcı gücə malik silahlarla silahlansa da döyüş meydanında sön sözü deyən yenə də insan faktoru, döyüşə atılan insanların Vətən sevgisi və inandığı amal uğrunda gözünü qırpmadan canından keçməyə hazır olmasıdır. Bu mənada Vətən müharibəsində Zəfər qazanmağımızda böyük rolu olan amillərdən biri də Azərbaycan əsgər və zabitlərinin peşəkarlığı, yüksək mənəvi keyfiyyətləri, cəsurluğu, vətənpərvərliyi, inamı, şəxsi rəşadətləri, qələbə əzmi, döyüş əhval-ruhiyyəsidir. Döyüş meydanında yeni tarix yazan Azərbaycan Ordusunun hərbi qulluqçularının göstərdiyi qəhrəmanlıq, şəxsi rəşadət, igidlik, qanı və canı bahasına bu qələbənin əldə olunmasını təmin etməsi hər birimizə qürurverici anlar yaşatdı, qəlbimizi fərəhlə doldurdu.

Beləliklə, Ordumuz sayəsində həlledici addımlar atıldı, taleyüklü işlər görüldü ki, nəticədə düşmən məğlub edildi, döyüş əməliyyatları Azərbaycanın tam üstünlüyü ilə başa çatdı. İşğalçı Ermənistan ordusu bütün ərazilərimizdən çıxarıldı, ölkəmizin ərazi bütövlüyü təmin edildi, el-oba həsrətinə son qoyuldu.

Cəmi 44 günlük müharibənin şah əsəri olan Şuşanın işğaldan azad edildiyi gün – 8 noyabr tarixi möhtəşəm Qələbəmizin, şanlı Zəfərimizin tarixi oldu.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun və işçilərin say həddinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 2006

2. "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"

3. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi. Bakı, 2016
4. https://www.virtualkarabakh.az/
5. https://economy.gov.az/

UOT 94(479.24)

**Heydər Əliyev siyasətinin davamçısı İlham Əliyevin tarixi zəfər yolu**

*Aynur Məhəmməd qızı Namazova,*
*Mingəçevir Dövlət Universiteti*
*Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı*

Tarixə nəzər saldıqda bu gün müstəqil Azərbaycan tarixinin bütöv bir mərhələsi dövlət xadimi, dahi şəxsiyyət, dünya şöhrətli siyasətçi, Ulu öndər Heydər Əliyevlə bağlıdır. Ulu öndər Heydər Əliyev dünya səviyyəli dövlət xadimi və tarixi baxımdan milli lider olub. O, 1969–1982-ci illərdə sovet dövründə Azərbaycanda, 1982–1987-ci illərdə SSRİ rəhbərliyində çalışdığı zaman, eləcə də 1988-1993-cü illərdə Azərbaycana rəhbərlikdən kənar olduğu dövrlərdə, müstəqil Azərbaycana dövlət başçısı kimi xidmət göstərdiyi dövrlərdə əvəzsiz, dahi şəxsiyyətin Azərbaycan xalqının xoş günündə, çətin anlarında yanında olduğunun şahidi oluruq. [1]

Azərbaycan xalqı 1993-cü ildə vətəndaş müharibəsi təhlükəsi yarandığı zaman Heydər Əliyevə üz tutdu, onun uzaqqgörənliyinə, müdrikliyinə arxalandı. H.Əliyevin hakimiyyətə gəlişi Azərbaycan ölkəsi üçün yaxşıya doğru dönüş nöqtəsi oldu. Xalqın etimadı Ulu öndərin dövlətçilik fəaliyyətinə güc, qüvvət verdi. Azərbaycanı böhran vəziyyətindən xilas edən dahi rəhbər ölkənin iqtisadi inkişafı üçün də tədbirlər görməyə başladı. Ulu öndərin hakimiyyətə qayıdışı ilə dövlət müstəqilliyi möhkəmləndirildi, ölkənin iqtisadi-sosial, ictimai-siyasi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Elə ilk günlərdə Heydər Əliyev ARDNŞ-in birinci vitse-prezidenti, millət vəkili İlham Əliyevi danışıqlar prosesinə cəlb etdi, yeni neft strategiyasının hazırlanmasının və həyata keçirilməsinin ən fəal iştirakçılarına çevrildi. O, özünün bütün fəaliyyətində “Bizim məqsədimiz təkcə neft hasil etmək, onu nəql etmək, bundan vəsait əldə etməkdən ibarət deyil. Bizim məqsədimiz neftdən gələn bütün mənfəətləri həm siyasi, iqtisadi, Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir” fikri dururdu. Belə ki, 1994-cü il sentyabrın 20-də “Əsrin müqaviləsi”ni imzalamaqla Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını yaradan yeni ilk neft strategiyası həyata keçirilməyə başladı. “Əsrin müqaviləsi”nin imzalanması Azərbaycan Respublikasının müstəqil dövlət olaraq, öz sərvətlərinə tam sahib olduğunu dünyaya bir daha sübut etdi. Bununla da Azərbaycan öz qapılarını xarici sərmayədarların üzünə taybatay açdı. Beləliklə, Azərbaycan iqtisadiyyatının inkişafında ilk addımlar atılmağa başlandı.

1994-cü ildə atəşkəsin imzalanması sayəsində Ümummilli lider Azərbaycan-Ermənistan cəbhəsindəki ağır vəziyyətə son qoydu. Uğurla həyata keçirilən iqtisadi islahatların sayəsində 1996-cı ildə respublika iqtisadiyyatında sabitliyə nail olundu, 1997-ci ildən sosial-iqtisadi inkişafda müsbət meyllər özünü göstərməyə başladı.

Heydər Əliyev prezident olduğu (1993-2003) on il ərzində aşağıda qeyd olunan strategiyanı müəyyənləşdirmiş və gərgin əməyi sayəsində buna nail olmuşdur.

- Qarabağ cəbhəsində 1994-cü ildən atəşkəs rejiminə nail olmaqla iqtisadi inkişafın əsas prioritetlərinin formalaşdırılması;
- respublikada ictimai-siyasi sabitləşmə, demokratik prinsiplərin və təsisatların yaradılması, təkmilləşdirilməsi;
- dövlət aparatının möhkəmləndirilməsi, iş qabiliyyətli dövlət idarəçilik təsisatlarının formalaşdırılması;

- yeni davranış norma və stereotiplərinin cəmiyyətdə yaradılması, yeni – açıq və demokratik vətəndaşlığın formalaşdırılması;
- müstəqil ölkənin neft strategiyasının əsası olan “Əsrin müqaviləsi” sazişinin imzalanması, ölkənin əsas regional energetik faktora transformasiyasının başlanması;
- “Böyük İpək Yolu” layihəsində fəal iştirak etməklə Azərbaycanın regional logistik mərkəz kimi rolunun dəyişməsi;
- həyat qabiliyyətli tarazlı xarici siyasət modelinin formalaşdırılması;
- müasir və döyüş qabiliyyətli ordunun yaradılması və s. [2]

Əsası Ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan və ciddi elmi əsaslara söykənən sosial-iqtisadi siyasət strategiyası onun layiqli davamçısı, özü kimi inandığı siyasi varisi – Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimiz bütün sahələrdə uğurlu inkişaf yolunda addımlayır. Cənab İlham Heydər oğlu Əliyev 2003-cü ildə Prezident kimi ilk andiçmə mərasimində bütün dünyaya bəyan etdi: “Bizim yolumuz Heydər Əliyev yoludur! Bu yol bizi işıqlı, xoşbəxt, firavan günlərə aparacaq”. [3]

Dövlət başçımız Azərbaycanın yeni dövr üçün iqtisadi siyasət prioritetlərini açıqlamış, bütün sahələrdə islahatlar həyata keçirməklə, cəmiyyətdə böyük nüfuza sahib olmuşdur. Cənab Prezident İlham Əliyevin birinci prezidentlik müddətində imzaladığı məqsədyönlü fərman və sərəncamlar, qəbul etdiyi qərarlar ölkəmizdə iqtisadi-sosial yüksəlişə zəmin yaratmışdır. Eyni zamanda dövlət başçımız tərəfindən yeni dövrün tələbi kimi qarşıda duran vəzifələr də müəyyənləşdirilmiş, inkişaf mexanizminin çevikliyinə, işləkliyinə nail olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkənin sosial-iqtisadi inkişafı ilə əlaqədar görülən tədbirlərə aşağıdakıları qeyd etmək olar.

- “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” (Azərbaycan Respublikası Prezitentinin 2003-cü il 24 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir);
- “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları” (4 Dövlət Proqramı – 2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illər üçün);
- “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyası (Azərbaycan Respublikası Prezitentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir);
- “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı” (Azərbaycan Respublikası Prezitentinin 2014-cü il 26 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir);
- “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri” (Azərbaycan Respublikası Prezitentinin 2016-cı il 16 mart tarixli Sərəncamı ilə təsdiq edilmişdir);
- 11 istiqamət üzrə “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri” (Azərbaycan Respublikası Prezitentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir). [2]

2019-cu il avqustun 5-də Ermənistanın baş naziri Nikol Paşinyan Xankəndində “Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə” bəyanatı ilə çıxış etdi və buna cavab olaraq, 2019-cu il oktyabrın 3-də “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışı zamanı: “Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi!” deyərək cavab verdi.

2020-ci il fevralın 15-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində panel müzakirələr zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistanın baş naziri Nikol Paşinyana və beynəlxalq ictimaiyyətə münaqişə ilə bağlı haqlı mövqeyini çatdırdı və Ermənistanın saxta iddialarını, işğalçılıq siyasətini beynəlxalq hüquqa və tarixi faktlara söykənərək, öz arqumentləri ilə darmadağın etdi. [2]

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycanın Müzəffər Ordusu 30 illik işğala 2020-ci ilin 27

sentyabrında başlanan Vətən müharibəsində 44 gün ərzində son qoydu. Müzəffər ordumuz tərəfindən 8 noyabr tarixində Azərbaycan qədim torpağı olan Şuşa şəhərini işğaldan azad etdi və bunu görən işğalçı Ermənistan 10 noyabr tarixində (Azərbaycan, Rusiya, Ermənistan) üçtərəfli bəyanatla kapitulyasiya aktını imzaladı. Haqq-ədalət öz yerini tapdı. Düşmən torpaqlarımızdan qovuldu, məsələ hərbi yolla həll edildi, sonra siyasi yollarla qələbəmiz möhkəmləndirildi. “Dəmir Yumruq” əməliyyatı uğurla nəticələndi. [1]

Dövlətimizin başçısı müharibə dövründə xarici ölkələrin KİV-lərinə verdiyi müsahibələrində bizim öz ərazi bütövlüyümüzün təminatından başqa marağımızın olmadığını, dövlətimizin haqq-ədalət uğrunda, yurdumuzun ərazi bütövlüyünün təmini uğrunda döyüşdüyünü qeyd edib. Müharibədən sonra Azərbaycan Respublikasının Prezident İlham Əliyevin yerli və xarici media nümayəndələri üçün keçirilən mətbuat konfransında 4 saatdan artıq media nümayəndələrinin bəzi erməniपərəst jurnalistlərin təxribat dolu suallarını, tarixi faktlar və dəlillərlə 4 dildə reallıqlarla cavablandırmışdır.

Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Milli iqtisadiyyatın inkişafının strateji hədəfləri “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” kontekstində 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir.

Azərbaycan Respeblikasının Prezidenti İlham Əliyev bir çox ölkənin və beynəlxalq təşkilatların fəxri adları və mükafatlarına layiq görülmüş, AŞPA-nın fəxri üzvü diplomu və medalı ilə təltif olunmuşdur. [3]

Vaxtı ilə dünya səviyyəli siyasətçi Heydər Əiyevin, hazırda isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi islahatların, məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində Azərbaycan Respubikası dünya arenasında böyük nüfuza malik ölkəyə çevrilmişdir.

**İstifadə edilmiş ədəbiyyat**

1. http://www.azerbaijan-news.az/
2. https://president.az/
3. https://www.yeniazerbaycan.com

UOT 338.45; 620.97

## Azərbaycanda sənaye-energetika sisteminin inkişafında Heydər Əliyevin rolu

*Şəbnəm Ziyəddin qızı İslamova,*
*Mingəçevir Dövlət Universiteti*
*Bakı Dövlət Universitetinin dissertantı*

Milli Öndər Heydər Əliyev Azərbaycanın təbii şəraitindən və təbii təbii ehtiyatlarından səmərəli istifadə edilməsinə də daim diqqət və qayğı göstərərək qeyd edirdi: “Respublikamızın istehsal imkanları, o cümlədən, Azərbaycan təbiətindən alınan məhsullar çox zəngindir, genişdir. Bunlardan səmərəli istifadə etmək lazımdır.” [1].

Heydər Əliyev dühasının uzaqgörənliyi sayəsində həmin sahədəki göstərişlərinin səmərəli həyata keçirilməsi məqsədi ilə elm sahəsində bir çox tədqiqatlar məhz Azərbaycan Respublikasında Alternativ Enerji ehtiyatlarından istifadə probleminə həsr edilmişdir.

Azərbaycan Respublikasının ərazisi geotektonik, geomorfoloji, hidrogeoloji və relyef, əsasən də oroqrafik, iqlim, landşaft və s. cəhətlərdən mürəkkəb quruluşa malikdir. Lakin bununla yanaşı, ölkəmizdə xüsusilə zəngin olan ehtiyatlar Alternativ Enerji Ehtiyatlarıdır (AEE). Bu ehtiyatlardan

istifadə isə, hələlik olduqca məhdud vəziyyətdədir. Dünya miqyasında da qeyd olunan sahədəki ümumbəşəri gerilik, öz növbəsində, qlobal problemlərin yaranmasına təsir göstərmişdir. Bir çox ölkələrdə resursların tükənməsi, torpaqların eroziyası, mühitin çirklənməsi, canlı varlıqların və xüsusilə insanların yeni xəstəliklərə düçar olunması halları baş vermişdir. Məhz bu səbəblərə görə də AEE-dan istifadə olunmasına çox böyük ehtiyac yaranmışdır.

Ölkəmizin Alternativ Enerji Ehtiyatları müxtəlifliyi və özünəməxsusluğu ilə fərqlənməklə, qeyd olunan növlərdən ibarətdir: Günəşin, küləyin, çayın, istehsal edilən suyun və qazın, biokütlələrin, termal suların enerjisi, Xəzər dənizinin qabarma və çəkilməsinin, eləcə də, dəniz bioloji kütlələrinin və s. enerjisi.

Azərbaycan Qafqazın zəngin iqlim qurşağına malik olan regionlarından biridir. Həmçinin coğrafi mövqeyinə görə Günəşlə bağlı müsbət göstəricilərə sahibdir. Burada günəşin şüalanması ildə 2400-3200 saatdır. Ölkəmizdə günəş radiasiyası da yüksəkdir. Belə ki, hər km$^2$-də 124-125 kkal-yə çatır. Ən isti ayda mütləq maksimum 43 $^0$C, mütləq minimum 14 $^0$C-dir. Həmin göstəricilər üzrə ərazi 10 rayona ayrılır və 10 region üzrə 6 fotoenergetika şəbəkəsi yaradılmışdır (şək. 1 ). Bu rayonlarda illik elektroenerji hər m$^2$-ə 194 kVt.saat-dan (Şəki-Zaqatala) 284 kVt.saat-a (Naxçıvanda) qədərdir. Bu ərazilərdə zəruri məsələlərdən biri də modulların iş əmsalının təkmilləşdirilməsidir.




**Şəkil 1. Fotoelektrik modullar üzrə illik elektrik enerjisnin istehsalının proqnozu**
1. Şəki-Zaqatala zonası; 2. Şəki-Şamaxı zonası; 3. Quba-Xaçmaz zonası;
4. Giləzi-Dübrar zonası; 5. Kiçik Qafqazın şimal yamacı; 6. Kiçik Qafqazın cənub yamacı;
7. Naxçıvan zonası; 8. Lənkəran zonası; 9. Kür-Araz zonası; 10. Abşeron zonası

Külək enerjisindən istifadə üçün də Azərbaycan ərazisi əlverişlidir. Artıq Azərbaycanda Yaponiyanın Tomen kompaniyası tərəfindən ilk modul stansiya 40 m hündürlüyündə yaradılmışdır. İllik gücü 7,9-8,1 m/san-dir. Azərbaycanın 9 regionu üçün layihələşdirilmiş elektrostansiyalarda küləyin gücü 4.0-8 m/san qədər proqnozlaşdırılır.

Nəzərə alsaq ki, Azərbaycanda 8 mindən çox çay var, çayların energetik ehtiyatlarından istifadə edilməsi də ölkənin elektroenergetika sistemində mühüm əhəmiyyət kəsb edir. Çay

şəbəkəsinin morfometrik şəraiti mürəkkəb quruluşa malik olmaqla yüksək, orta dağlıq və düzənliklərdən axır. Məhz bu mürəkkəb quruluş da yüksək enerji tutumuna malikdir. Çayların illik axımı 25 mm-dən 1500 mm aralığında dəyişir. Azərbaycanın ən iri SES-i gücü 7 mlrd kVt-a çatan Kür-Araz çayları üzərində quraşdırılıb. SES-in ümumi istehsal gücü ölkədə istehsal edilən enerjinin 18-20 faizə qədər planlaşdırılmışdır.

Azərbaycanda geotermal elektrik stansiyalarından istifadə üçün də əlverişli şərait vardır. Müəyyən edilmişdir ki, Azərbaycanın bütün təbii coğrafi rayonlarında (hidrogeoloji əyalət) geotermal bulaqlardasuların hərarəti 20-90 $^{0}$C arasındadır (şək. 2).




**Şəkil 2. Termal suların yerləşdiyi regionlar və ehtiyatların proqnozu**
1. Böyük Qafqazın dağ-yamac zonaları; 2. Qusar dağətəyi ovalıqları; 3. Abşeron yarımadası; 4. Kiçik Qafqazın dağ-yamac zonaları; 5. Naxçıvan MR; 6. Talış dağ-yamac zonası; 7. Lənkəran ovalığı; 8. Kür çökəkliyi

Bütünlükdə Azərbaycanda geotermal bulaqlardan axan 245604 m$^3$/sutka müəyyən edilmişdir.

AEE-lərin tədqiqinə göstərilən istiqamətlərdən yanaşmalar Azərbaycanda təbii şəraiti və təbii ehtiyatlardan istifadə edilməsini səmərəliləşdirər və XXI əsrdə təbiət və cəmiyyət münasibətlərində təkamülləşmə prosesinə müsbət təsir göstərə bilər. Göstərilənləri dayanıqlı inkişafda əsas aparıcı amillərdən biri hesab etmək olar.

Azərbaycanın müasir dövlət quruculuğunda Ulu öndər Heydər Əliyevin uzaqgörənliyi və misilsiz xidmətləri olmuşdur. Bu gün biz qürur və iftixar hissi ilə deyə bilərik li, Ümummilli lider Heydər Əliyev Azərbaycanın müstəqil energetika siyasətin müəllifidir.

Əsası XX əsrin 60-cı illərindən başlanan Heydər Əliyev idarəetmə siyasətinin başlıca meyarı xalqın rifah halının yüksəldilməsi, ölkənin bütün istiqamətlərdə inkişaf etməsi olmuşdur.

Ümummilli lider heydər Əliyvin müstəqil energetika siyasəti bu gün prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət Başçısı respublikamızda alternativ və bərpa olunan enerji sahəsində idarəetmə sisteminin təkmilləşdirilməsi məqsədilə 2013-cü ildə Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi yaradılması haqqında Fərman imzalamışdır. Bu istiqamətdə ölkəmizdə mühüm əhəmiyyətə malik böyük layihələrin icrası nəzərdə tutulub.

**İstifadə edilmiş ədəbiyyat**

1. Əliyev H. Müstəqillik yolu. Bakı, 1997, 135 s.
2. Azərbaycan Respublika alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı. Bakı, 2004
3. Məmmədov F.F. Azərbaycanda günəş enerjisindən istifadə və müasir günəş energetik qurğuları. Bakı, 2011
4. Göyçaylı Ş.Y., İsmayılov T.Ə. Təbiətdən istifadənin iqtisadi və ekoloji əsasları. Bakı, 2009
5. Göyçaylı Ş.Y. Azərbaycanın təbii şəraiti və təbii ehtiyatlarının bal ilə qiymətləndirilməsi. Bakı, 2013
6. Azərbaycanın Respublikasının Milli Atlası. Bakı, 2015

UOT 32

## Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti qələbəmizin təməlidir

*Aynur Müsbət qızı Əzizova,*
*Mingəçevir Dövlət Universiteti*
*Naxçıvan Universitetinin dissertantı*

Heydər Əliyev XX əsrin son dərəcə mürəkkəb və ziddiyyətli tarixi şəraitində fəaliyyət göstərmiş xilaskarlıq missiyasının banisidir. Ən yeni tariximizin bütöv bir qərinəsi Heydər Əliyev şəxsiyyəti, onun keçdiyi mübarizə yolu və böyük quruculuq fəaliyyəti ilə bağlıdır. Azərbaycan tarixində xüsusi yer tutan bu dövrü fərqləndirən mühüm cəhətlərdən biri ondan ibarətdir ki, Azərbaycanda Heydər Əliyev kimi dünya şöhrətli dövlət başçısı və siyasi xadim yetişmişdir [2, s.9].

Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdışı Azərbaycanın müstəqillik tarixində yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Dahi şəxsiyyətin xilaskarlıq bacarığı sayəsində Azərbaycan yenilməz və qüdrətli dövlətə çevrilərək müstəqil ölkə kimi dünyada tanındı. Əsl həqiqət isə odur ki, bu dahi şəxsiyyət öz müdrikliyi, dərin zəkası, uzaqgörən siyasəti, iti ağlı və iradəsi ilə Azərbaycanımızı qorudu, müstəqilliyini yaşatdı və əbədiləşdirdi, ölkəmizin parlaq gələcəyinin bərqərar olmasına təkan verdi. Misilsiz bacarıqları və səyləri nəticəsində ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni sahələrin gələcək inkişaf istiqamətlərini müəyyən edən Heydər Əliyev qaranlıqdan işığa doğru dönüş mərhələsinin təməlini qoydu. O, dövlətçilik, ədalət, demokratiya, milli yüksəliş, dünyəvi dövlət və dayanıqlı iqtisadiyyat kimi ümumbəşəri dəyərlərin strateji inkişafını təmin edən milli ideologiya formalaşdırıldı. Azərbaycanlıları dünyaya sivil dəyərlərin daşıyıcısı kimi tanıdaraq, dünya azərbaycanlılarını vətənə bağlayan azərbaycançılıq fəlsəfəsinin təməlini qoydu. Dünya xəritəsində müstəqil Azərbaycan adlı tarixi həqiqət ünvanını hər kəsə tanıtdı.

Hələ Moskvada yaşayanda Heydər Əliyev sülhsevər Azərbaycan xalqına qarşı silah tətbiq edilməsini qətiyyətlə pisləyən bəyanatla çıxış edərək, xalqımızın haqq səsini dünya ictimaiyyətinə çatdırmışdı. Onun verdiyi bəyanat 20 Yanvar cinayətinin mahiyyətini və onu törədən dairələrin çirkin niyyətlərini açıq şəkildə göstərmişdi. Sovet qoşunlarının Bakıda törətdikləri qanlı qırğına baxmayaraq, Azərbaycan xalqı müstəqillik uğrunda mübarizəsini daha böyük inam və qətiyyətlə davam etdirirdi. Xalq özünün Ümummilli lideri Heydər Əliyevə arxalanırdı. Heydər Əliyevin adı, nüfuzu öz azadlığı uğrunda mübarizəyə qalxan Azərbaycan xalqı üçün parlaq mayak olmuşdur. 1990-cı ildə Moskvadan Vətənə qayıtdıqdan sonra bu mayakın işığı daha da güclənmiş, xalqımıza azadlığın daşlı-kəsəkli yolları ilə inamla irəliləməkdə əvəzsiz yardımçı olmuşdur [1, s.38].

Ulu öndərin Azərbaycana qayıdışını detalları ilə təhlil edəndə, o çətin günləri çağdaş həyatımızla əlaqələndirəndə bu misilsiz hadisənin bütöv bir millətin alın yazısını dəyişdirmiş

həqiqət kimi ortaya çıxdığının şahidi oluruq. Bu qayıdış keçmişə dönüş deyildi, gələcəyə zəfər yürüşünün başlanğıcı idi.

Heydər Əliyevin 1993-cü ildə böyük siyasətə qayıdışı isə yeni bir millətin mövludunun başlanğıcı oldu. Elə bir millət ki, onun 27 il ərzində yetişdirdiyi və Heydər Əliyev ideyalarından güc aldığı yeni nəsil bu gün şanlı bir tarix yazır. Artıq şagirdlər və tələbələr məktəb dəftərlərində və dərs kitablarında torpaqlarımızın itirilməsini qara haşiyələrdə təqdim edən, pessimist yük daşıyan və bununla da ruh düşkünlüyü yaradan rəqəmlər deyil, torpaqlarımızın işğaldan azad edilməsini göstərən qızıl hərflərlə yazılmış tarixlər görəcək və bundan qürur duyacaqlar. Onlar qəhrəmanlar yurdunun vətəndaşları və azərbaycanlı olmaları ilə fəxr edəcəklər.

Heydər Əliyev strategiyası bu gün artıq öz töhfəsini verib. Bu gün güclü iqtisadiyyat, müasir silahlarla təchiz olunmuş və müasir döyüş taktikasına əsaslanan güclü ordu, misli görünməmiş sərkərdəlik bacarığı, sarsılmaz siyasi iradə sahibi olan dövlət başçısı, öz liderinə bütün varlığı ilə sadiq olan xalq və onun milli həmrəyliyi müasir dünya tarixində inanılmaz korrektivlər etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin timsalında dünya şöhrətli dövlət başçısının möhtəşəm əməllərini, onun sərkərdəlik bacarığını, siyasi istedadını, diplomatik qabiliyyətini müşahidə edən dünya bu yüksək dəyərlərin hansı tükənməz mənbədən qidalandığını da görür. Bəzi Rusiya siyasətçiləri isə bir növ özlərinə avtokompliment ünvanlayaraq İlham Əliyevin misilsiz istedadının MQİMO-dan gəldiyini iddia edirlər. Lakin Möhtərəm Prezidentimiz, ilk növbədə, bütün universitetlərdən daha yüksək təhsil və səriştə verən Heydər Əliyev siyasi məktəbinin, Heydər Əliyev həyat akdemiyasının yetirməsidir.

Şuşa işğaldan azad olunan gün – noyabr ayının 8-də Prezident İlham Əliyevin Ulu öndərin məzarını ziyarət etdiyi mərasimdə ifadə olunan dərin məzmun, əsrarəngiz həyat fəlsəfəsi, möhtəşəm həqiqət anı, sakral ünsiyyət və doğma qəlblərin görüşü hər bir azərbaycanlıda fəxarət hissi yaradır və hər kəsi kövrəldirdi. Möhtərəm rəhbərimiz isə bu mərasimdə Ulu öndərin vəsiyyətinin artıq həyata keçməsi haqda şərəf məruzəsi edirdi. Heydər Əliyev dühasının növbəti təntənəsi haqqında tarixi hesabat verirdi. Bu, böyük bir fəlsəfi təhlil tələb edən çox təsirli bir məqam idi.

Dekabr ayının 10-da 44 günlük Vətən müharibəsində əldə etdiyi Böyük Qələbəyə həsr olunmuş hərbi parad müasir tariximizin daha bir möhtəşəm hadisəsi oldu. Bu parad əslində Heydər Əliyev ideyalarının 29 il ərzində əldə etdiyi qələbələrinin paradı idi. Qələbə Paradındakı hər bir məqamda – Prezidentlərin çıxışında, mərasimin təşkilati elementlərində, əsgərlərin yerişində, komandirlərin məruzəsində, hərbi nəğmələrdə, Bakı havasında, Azadlıq meydanın möhtəşəm aurasında, insanların sevinc dolu çöhrəsində Heydər Əliyev dühasının parlaq cizgiləri görünürdü. Qalib Azərbaycan xalqını, onun dostlarını sevindirən, düşmənlərinin isə gözünü kor edən bu möhtəşəm mənzərə Heydər Əliyev qüdrətinin təntənəsi idi. Bir nağıl kimi izlədiyimiz bu qalibiyyət aktında reallığa çevrilmiş Azərbaycan arzusu bütün möhtəşəmliyi ilə canlı təcəssüm olunurdu.

Yaşadığımız 44 günlük Vətən müharibəsində biz qüdrətli liderimiz, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş komandanı İlham Əliyevin rəhbərliyi altında Heydər Əliyev dühasının töhfələrindən bəhrələnməyimiz, bu dühanın qüdrətindən bir millət kimi yetişməyimiz haqqında tarixi imtahan verdik və müasir tariximizin şanlı şınağı olan bu imtahandan ən yüksək qiymət aldıq, 27 il bundan əvvəl cızılmış bir layihə gerçəkliyə çevrildi, şahanə rənglərdən və çalarlardan yaradılmış “Azərbaycan” adlı tarixi əsər dünyanı heyran qoydu.

Sentyabrın 27-dən başlayan, 44 gün davam edən və Dağlıq Qarabağ da daxil olmaqla işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən Müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Azərbaycan xalqı öz liderinin - müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Bu gün Azərbaycan xalqı hansı səviyyədə uğurlu sərkərdəyə – Ali Baş Komandana sahib olduğunu aşkar gördü. Prezident İlham Əliyev yalnız hərb meydanında müzəffər sərkərdə deyil, diplomatik cəbhədə böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi. [3, s.43]

Vətən uğrunda qazanılmış hər bir qələbə insanda ümummilli iftixar hissi yaradır. Bu gün Məmməd Arazın "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı" misraları qəlblərə və zehinlərə daha dərindən nüfuz edir. İndi Ulu öndərin "Mən fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamı daha qürurlu səslənir. Çünki azərbaycanlı olmaq qalib olmağı zəruri edir.

Böyük qürur və iftixar hissi ilə deyə bilərik ki, düşmən üzərində qələbəmiz Heydər Əliyevin azərbaycançılıq siyasətinin qələbəsidir, onun təntənəsidir. Bu qələbə Heydər Əliyev siyasətini dönmədən həyata keçirən, ölkəmizin bütün etnoslarını vahid Azərbaycan milləti kimi Vətən müharibəsinə hazırlayan, "Mən hər bir azərbaycanlının prezidentiyəm", "Azərbaycan dünyanın bütün azərbaycanlılarının vətənidir", - deyən Prezident İlham Əliyevin quruculuq, xilaskarlıq missiyasının qələbəsidir.

Hər bir xalqı, ilk növbədə, onun rəmzləri ilə tanıyırlar. Bu rəmzlərdən biri də liderdir. Məhz liderin obrazı, onun duhası və istedadı toplum haqqında adekvat təsəvvürlər və təəssüratlar yaradır. Azərbaycan xoşbəxt məmləkətdir ki, Ulu öndər Heydər Əliyevin timsalında onun bütün dünyaya nümunə olan möhtəşəm simvolu var və bu simvol bizi xoşbəxt gələcəyə və davamlı qələbələrə aparan müqəddəs nur mənbəyidir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycanın görkəmli şəxsiyyətləri. Heydər Əliyev (Biblioqrafiya). Bakı, 2018, 340 s.
2. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, 2004, 472 s.
3. Məqalələr (2016-2021-ci illər). Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası. Bakı, 1368 s.

UOT 94 (479.24 )

## Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarıdır

*Çinarə Qabil qızı Səfərova,*
*Azərbaycan Dövlət Aqrar Universiteti*
*Gəncə Dövlət Universitetinin dissertantı*

XX əsrin 80-ci illərinin sonlarında bütün ölkə miqyasında olduğu kimi, Azərbaycanda ictimai-siyasi vəziyyət kəskinləşdi. Və mürəkkəb qarşıdurma yarandı. Mərkəz tərəfdən Azərbaycana qarşı ögey münasibət burada suverenlik, müstəqillik uğrunda aparılan mübarizənin ümumxalq xarakterinə çevridi. Azərbaycan xalqının İttifaqın tərkibindən çıxması onun mərkəzə olan nifrətindən irəli gəlirdi. Ona görə ki, mərkəzin dəstəyi ilə gizli şəkildə və müxtəlif bəhanələrlə ikiüzlü siyasət yeridən ermənilərin müdaxilə etməsi Azərbaycan xalqının səbrini kəsirdi. Mənasız yerə uydurulan və getdikcə dərinləşən Qarabağ problemi mövcud siyasi durumu daha da kəskinləşdirir və mərkəzə olan inamı itirirdi. Odur ki, Azərbaycan xalqının Dağlıq Qarabağ ətrafında baş verən hadisələrlə əlaqədar genişlənən mübarizə hərəkatı indi müstəqillik uğrunda aparılan mübarizə ilə qovuşurdu. Onu da nəzərə almaq lazımdır ki, Qorbaçovun yeritdiyi avantürist siyasət Sovetlər Birliyinin dağılmasına sosial zəmin yaratdı. 1990-cı illərin əvvəllərindən başlayaraq milli zəmində bütün ölkə miqyasında üst-üstə yığılan problemlər birdən-birə partladı. İttifaqın müxtəlif yerlərində silahlı üsyanlar ilə nəticələndi. Azərbaycanda milli zəmində baş verən ziddiyyətlli proseslər xalqın mübarizə əzmini daha da gücləndirirdi. SSRİ-nin və Azərbaycanın rəhbərləri xalqımızın azadlıq hərəkatına qarşı gizlində qanlı cəza tədbirləri hazırlayırdılar.

1990-cı illərin əvvəllərində Azərbaycan suverenlik qazanaraq, ondan öz xalqının xeyrinə istifadə edə bilməyən, dünya birliyində özünə dəstək və müttəfiqlər tapa bilməyən dövlətlər sırasına aid edilirdi. [5]

Azərbaycanın Müstəqillik Aktı qəbul edildikdən sonra qarşıda hələ çətin və mürəkkəb vəzifələr dururdu. Erməni təcavüzü güclənir, torpaqlarımız işğal edilir, ölkə daxilində hakimiyyət

uğrunda siyasi çəkişmələr güclənir,bunun nəticəsində xalq ağır itkilərə məruz qalırdı. Məhz belə bir tarixi şəraitdə müstəqil dövlət qurmaq çox ağır və çətin bir iş idi. Eyni zamanda, həm müstəqilliyini elan etməsi ərəfəsində, həm də özünü müstəqil dövlət elan etdikdən sonra Azərbaycanın həyatında çox mürəkkəb proseslər baş vermişdir. Ermənistan silahlı qüvvələri torpaq iddiası ilə çıxış edərək, Azərbaycanın Dağlıq Qarabağ vilayətini və ətraf əraziləri ələ keçirmək məqsədi ilə hərbi əməliyyatlara başladığı və ermənilərin hamısı bu amal ətrafında bir yumruq kimi birləşdiyi halda, təəssüf ki,bu Azərbaycanda olmamışdı. [6] Müstəqilliyin əldə olunması şərəfli olduğu qədər onun qorunması bir o qədər də şərəfli və çətindir. Ölkədə müstəqillik möhkəmləndikcə ictimai-siyasi böhran dərinləşir, hakimiyyət ehtirası geniş vüsət alırdı. Nəticədə iqtidar müxalifət qarşıdurması genişlənirdi. Müstəqilliyin ilk illərində yaranmış tarixi şərait və onun törətdiyi özbaşınalıq o dövrdə hakimiyyətdə olanları və həm də müxalifəti üzünü böyük şəxsiyyət Heydər Əliyevə tutmağa məcbur etdi.

1993-cü ilin iyun günlərindən Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluşu başlandı. Müdrik siyasətçi vətəndaş müharibəsini aradan qaldırdı. Xarici və daxili düşmənlərin Azərbaycanı parçalayıb yox etmək, müstəqil dövlətimizi aradan qaldırmaq planı puça çıxdı. Dövlətimizin, xalqımızın tarixi müqəddəratının idarəçilik sükanı dahi dövlət adamının əlinə keçdi. Qurtuluş savaşında qələbəyə doğru dönüş başlandı. Heydər Əliyev 1993-cü il iyun ayının 15-də Ali Sovetin sədri seçildi. Bu gün Azərbaycan tarixinə Qurtuluş günü kimi daxil oldu. Bu gün müstəqil dövlətçilik tarixinin yeni, ikinci dövrü başlandı.1993-cü ilin iyunundan başlayaraq, hakimiyyət boşluğu aradan qaldırıldı. Azərbaycanın müxtəlif bölgələrində baş qaldırmış separatçı qüvvələr zərərsizləşdirildi, vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı. Ən əsas nailiyyətlərdən biri də dövlət hakimiyyəti ilə, Heydər Əliyevlə xalqın birliyi oldu. [2]

Heydər Əliyev hakimiyyətə gələn kimi ölkəmizin daxili və xarici siyasət proqramını hazırladı,dağıdılmış iqtisadiyyatın bərpa və inkişaf etdirilməsinin strategiyasını müəyyənləşdirdi. Heydər Əliyev qısa zamanda ölkənin sosial-iqtisadi, siyasi və mədəni inkişafının əsaslandırılmış proqramını hazırladı. Heydər Əliyev Ali Sovetin Sədri kimi ilk gündən parlamentarizm ənənələrinə sadiq qalaraq aşkarlıq prinsipinə üstünlük verdi. Milli Məclisin iclasları, mətbuat konfransları, respublika əhəmiyyətli müşavirələr birbaşa yayımla televiziya ekranlarına verildi. İctimai-siyasi həyatdakı gərginliyin aradan qaldırılması üçün lazımi tədbirlər görülməyə başlandı. [3]

Heydər Əliyevin 1993-cü il iyunun 15-dən oktyabrın 3-dək Ali Sovetə rəhbərlik etdiyi dövrdə parlamentarizm ənənələri yeni nəfəs, yeni qüvvə aldı. Ordu quruculuğu sahəsində mühüm qərarlar qəbul edildi. Heydər Əliyev bu dövrdə əhalinin döyüş ruhunu qaldırmaq, müharibə dövrünə uyğun təbliğat aparmaq, qanunsuz silahlı dəstələri zərərsizləşdirmək üçün lazımi tədbirlər görür, ölkədəki vəziyyət barədə fikirlərini tez-tez xalqla bölüşürdü. Prezident Heydər Əliyevin qədirbilən xalqımız qarşısında ən böyük duha torpaqlarımıza yiyələnmək üstündə ən kəskin geopolitik ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etdi. Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtardı. Dövlətimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması deməkdir. Qurtuluş deməkdir.

Ümumiyyətlə, 1993-cü ilin noyabr ayından başlayaraq indiyə kimi olan dövrü müstəqil Azərbaycanımızın ikinci dövrü deyil, Qızıl dövrü adlandırmaq daha düzgün olardı. Milli ordumuzun formalaşması, Azərbaycanın nizamlı silahlı qüvvələrinin yaradılması, torpqalarımızın müdafiə olunması ilə bağlı təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi, atəşkəs, siyasi və diplomatik vasitələrin işə salınması və.s məhz həmin dövrə təsadüf edir.[7]

Qısa zamanda Heydər Əliyev tərəfindən Azərbaycan Respublikasının xarici siyasət strategiyasının konseptual, elmi əsasları yaradıldı, bütöv bir təlimin beynəlxalq münasibətlər sisteminə uyğunlaşdırılması istiqamətləri, prinsip və vəzifələri, düşünülmüş taktiki yolları, dünya dövlətləri ilə əlaqələrin yaxın və uzaq strategiyası müəyyənləşdirildi. Hazırlanan proqramda sülhsevərlik, mehriban qonşuluq və dinc yanaşı yanaşmaq prinsipləri, başqasının daxili işlərinə qarışmamaq, qarşılıq faydalı əməkdaşlıq kimi yüksək bəşəri dəyərlər öz əksini tapdı. [1] XX yüzilliyin sonuncu onilliyində müstəqil Azərbaycanımızın həyatında xalqımızın Ümummilli lideri Heydər Əliyevin başçılığı və uzaqgörənliyi nəticəsində öz miqyasına, əhəmiyyətinə görə analoqu

olmayan tarixi bir hadisə baş verdi. Belə ki, bildiyimiz kimi, 1994-cü il sentyabrın 20-də “Əsrin Müqaviləsi”nin imzalanması ilə müstəqil ölkəmizin yeni neft strategiyasının əsası qoyuldu. Belə ki, bundan sonra Azərbaycan neft sənayesinə xarici kapitalın axını başlandı.

Beləliklə, 1993-cü ilin ikinci yarısından başlanan məqsədyönlü xarici siyasət artıq 1994-cü ilin sonunda öz müsbət nəticələrini göstərdi və məlum oldu ki, 1988-1993-cü illərdə Azərbaycanın hakimiyyəti dairələrinin görə bilmədiyi işlər Prezident Heydər Əliyevin rəhbərliyi altında cəmi bir ilə həyata keçirildi. Heydər Əliyev dar ayaqda xalqını, vətənini qoyub qaçmadı. Dövlət başçısının qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı. Azərbaycan qanlı burulğandan çıxdı. Sabitlik və əmin-əmanlıq yarandı. Prezident Heydər Əliyev xalqı, yurdu milli-mədəni parçalanmadan, iflasa uğramaqdan xilas etdi. Özündən əvvəlki rəhbərlərin qəbul etdikləri səhv qərarların icrasını dayandırdı. Torpağımızın, xalqımızın, dilimizin üzərindəki əzəli və əbədi “Azərbaycan” möhürü özümüzə qaytarıldı. Bununla vətənçilik, xalqımızın adı və dili, qüdrətimizin və vahidliyimizin əsası olan islam-türk birliyi bərpa olundu, reallaşmaqda olan etnik toqquşmalar ehtimalı aradan qaldırıldı.[4] Böyük dövlət xadimi kimi Heydər Əliyevin digər tarixi qələbəsi məhz budur-sabitlikdir. Ölkədə sabitlik yaratmaqla H.Əliyev öz gücünə, təcrübəsinə güvənən dahi siyasətçi kimi dəfələrlə söylədiyi məşhur kəlamına sadiq qaldığını sübut etdi: “Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır, dönməz olacaqdır“.

Ancaq 2003-cü il dekabrın 12-də Ümummilli liderimiz Heydər Əliyevin dünyasını dəyişməsi Azərbaycan xalqının böyük və unudulmaz kədərinə səbəb oldu. Bütün mənalı həyatını öz xalqına həsr etmiş Heydər Əliyevin zəngin fəaliyyəti Azərbaycan xalqının qəlbində dərin, əbədi kök salmışdır. Onun əməlləri yaşayır və yaşayacaqdır. Heydər Əliyev Azərbaycan üçün böyük bir məktəb yaratmışdır. Hələ bundan sonrakı nəsillər bu böyük məktəbdən, Heydər Əliyev irsindən onun həyatını qurban verdiyi Vətəninin, xalqının inkişafı naminə faydalanacaqdır.

2003-cü il oktyabrın 15-də xalqımız Heydər Əliyev ailəsində tərbiyə almış, Heydər Əliyev rəhbərlik məktəbinin yetişdirməsi, öz fəaliyyəti ilə xalqın etimadını qazanmış İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçdi. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq, işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirməklə yanaşı, xalqımız bütünlüklə Müzəffər Ali Baş Komandanın ətrafında səfərbər oldu. Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi uğrunda gedən döyüşlər, qüdrətli Ordumuzun şanlı tarix yazaraq düşmən üzərindəki sarsıdıcı zərbələri, eləcə də bir sıra mühüm əhəmiyyətli şəhərlərimizin, yaşayış məntəqələrimizin, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəkliklərin işğalçılardan azad edilməsi xalqımızda böyük inam və ruh yüksəkliyi yaratdı.

Azərbaycan Ordusu tərəfindən 2020-ci il noyabrın 8-i tariximizə ən şanlı bir gün kimi yazıldı. [8] Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın baş tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə ciddi təsir göstərdi. Bəli, bu qədim yurd yerimizin xilası ilə tam qələbəmizə yol açıldı. Düşmənin ağ bayraq qaldırmaq və kapitulyasiya etməkdən başqa yolu qalmadı. Döyüşlərdə bütün dünya Azərbaycan xalqının əzmini, Azərbaycan Ordusunun döyüş qabiliyyətini aydın gördü. Vətənpərvər xalqımızın öz Prezidentini necə dəstəklədiyi, onun ətrafında sıx birləşdiyi bir daha təsdiqləndi. “Ali Baş Komandanın bircə əmrinə müntəzirik”, – deyən Azərbaycan əsgər və zabitləri öz sözlərinin sahibi olduqlarını döyüşdə sübuta yetirdilər.

Cəbhə uğurlarımızın ən başlıca səbəbi Prezident, Ali Baş Komandan İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası, milli birlik və döyüşçülərimizin ruh yüksəkliyi idi. Ordumuzun güc-qüdrətinə mühüm önəm verilib, ən müasir döyüş texnikasının alınması gerçəkləşdirilib. Əsgər və zabitlərimizin sosial şəraitinin yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılıb. Beləliklə, döyüşdə uduzan, məğlub olan Ermənistanın öz müqavimətini

dayandırmaqdan, Azərbaycanın şərtlərini qeyd-şərtsiz qəbul etməkdən başqa əlacı qalmadı. Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin 10 noyabr 2020-ci il tarixdə birgə imzaladıqları bəyanat da məhz düşmən ölkənin kapitulyasiyasının ifadəsi idi. Müharibədə ağır itkilər verərək, məğlubiyyətin qaçılmazlığını anlayan, dərk edən işğalçı respublikanın rəhbərliyi Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtlərlə razılaşmağa məcbur oldu. Bununla da beynəlxalq təşkilatların 30 il ərzində edə bilmədiklərini Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qısa müddətdə gerçəkləşdirdi. Azərbaycan döyüşlərdə hərb tarixinə yenilik kimi düşən strategiyanın tətbiqi ilə ən müasir silahlardan istifadəyə xüsusi önəm verdi. Nəticədə həm sürətlə irəlilədi, işğal altındakı ərazilərimizi yağılardan təmizlədi, həm də düşmənin bütün hərbi texnikasını darmadağın etdi, canlı qüvvəsinə ciddi zərbə vurdu. Ordumuz əks-həmlə əməliyyatları zamanı müasir texnoloji silahlarla düşmənin komanda-idarəetmə məntəqələrini, raket və artilleriya vasitələrini, döyüş texnikasını və təminatını sıradan çıxaraq onu faktiki olaraq iflic vəziyyətinə gətirdi.

Müasir texnoloji silahlar Silahlı Qüvvələrimizin güc alətlərindən yalnız biri idi. Müharibənin taleyini müəyyənləşdirən başda Ali Baş Komandanımız olmaqla, döyüş meydanında əsl qəhrəmanlıq göstərən Azərbaycan əsgəri və onun cəsur komandirləri idi. Məhz onların səyi nəticəsində iflic vəziyyətə düşən Ermənistan ordusu arsenalında olan köhnə və istismar müddəti bitmiş silah sistemlərini də döyüşə cəlb etdi və nəticəsi rüsvayçı şəkildə uduzmaq oldu. Bununla da Silahlı Qüvvələrimiz "Ermənistan ordusunun məğlubedilməzliyi" mifini darmadağın etdi.

Böyük iftixarla qeyd etmək lazımdır ki, Ümummilli lider Heydər Əliyevin kursu uğurla davam etdirilir. Onun yaratdığı müstəqil Azərbaycan Respublikası möhkəmlənir, inkişaf edir, dünyanın sayılan sivil dövləti kimi şöhrətlənir. Əldə olunmuş Qələbə xalqın, millətin, dövlətimizin böyük Heydər Əliyevin xatirəsinə ən böyük abidəsidir.

**İstifadə edilmiş ədəbiyyat**


1. Azərbaycan tarixi. XIX-XXI əsrin əvvəli. Bakı, 2010, 489 s.
2. Bayramov Q. Heydər Əliyev və Azərbaycan tarixi elmi. Bakı: Təhsil, 2004, s.152
3. Heydər Əliyev müasir Azərbaycan parlamentinin banisidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları və Milli Məclisdə Çıxışları. Azərbaycan Respublikası Milli Məclisin Nəşri. Bakı, 2008, s.144-145
4. Mahmudov Y. Azərbaycan dövlətçiliyinin xilaskarı. Bakı, 1998, s.35-36
5. Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı, XXI-YNE, 2003, s.20-248
6. "Azərbaycan" qəz., 2002, 18 oktyabr
7. "Respublika" qəz., 2001, 12 sentyabr
8. https://www.facebook.com/LiderIlhamAliyev


UOT 330.341.1
JEL 031

**Müasir regionaı siyasətin səmərəli tənzimlənməsi məsələləri**

*Sərxan İsaq oğlu Məmmədov,*
*AMEA İqtisadiyyat İnstitutunun dissertantı*

Müstəqillil əldə etdiyimiz ilk dövrlərdə ölkə rəhbəri Heydər Əliyevin həyata keçirdiyi iqtisadi tədbirlər nəticəsində Azərbaycan Respublikasının milli iqtisadiyyatının inkişafında davamlı olaraq müsbət inkişaf tendensiyaları müşahidə olunmuşdur. Onun layiqli davamçısı olan hazırkı ölkə rəhbəri cənab İlham Əliyev tərəfindən 2016-cı ildə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn

məsələlər haqqında" Sərəncamına əsasən milli iqtisadiyyat və iqtisadiyyatın on bir sektoru üzrə ümumilikdə on iki strateji yol xəritəsi hazırlanmışdır. Bunlar da beynəlxalq iqtisadi təşkilatlar tərəfindən yüksək dəyərləndirilir. Ümumiyyətlə, strateji yol xəritələrinin icrasında başlıca məqsəd ölkəmizdə regionlar da daxil olmaqla, davamlı iqtisadi inkişafın saxlanılması, milli iqtisadiyyatın rəqabətqabiliyyətini təmin etmək əsas şərt kimi götürülür [1]. Qabaqcıl Avropa dövlətlərinin keçdiyi inkişaf yolunun tarixi mərhələlik baxımından araşdırılması göstərir ki, onların inkişaf prosesi ilk növbədə ümumi iqtisadi siyasətin regional inkişafı təmin etməsi ilə bağlı olmuşdur. Məhz bu baxımdan da ölkənin davamlı inkişafının təmin olunmasında mühüm rol oynayan makroiqtisadi göstəricilər sistemində regionların sosial-iqtisadi inkişaf göstəricisinə daha çox diqqət yetirilir. Göstərilən problem postsovet məkanı ölkələri üçün daha aktual hesab olunur.

Ümumiyyətlə, regional inkişafın effektiv reallaşdırılması, ilk öncə bu sahədə dövlət tənzimlənməsinin əsas prioritetlərinin düzgün müəyyənləşdirilməsindən asılıdır. Ümumiyyətlə, Azərbaycan Respublikasında regional inkişafın effektiv reallaşdırılması prosesini aşağıdakı istiqamətlər üzrə təsnifatlaşdırmaq mümkündür: dövlət regionların inkişafını təmin etmək və stimullaşdırmaq üçün məqsədli regional proqramlardan, investisiya fondlarının, induktiv planların geniş tətbiqi imkanlarından istifadə etməklə respublika regionlarının maliyyə təminatını yaxşılaşdırmaq məqsədilə yerli və xarici sahibkarların, dövlət kapitalı hesabına müştərək məsələlərin geniş şəbəkəsinin formalaşdırılması; regionlarda kənd təsərrüfatı məhsulları istehsal edən kiçik və orta sahibkarlığın inkişafını təmin etmək, istehsalçıların iqtisadi risklərini azaltmaq məqsədilə təminatlı sığorta sisteminin təmin edilməsi; ayrı-ayrı iqtisadi regionların inkişafının dövlət tənzimlənməsinin çox mühüm istiqaməti olan sosial inkişafın təmin edilməsi.

Ölkəmizdə davamlı inkişafa nail olunması ilk növbədə effektiv strateji inkişaf strategiyasının çoxvariantlı konsepsiyasının işlənib hazırlanmasını tələb edir. Müasir iqtisadi inteqrasiya şəraitində milli iqtisadiyyatın gələcək inkişafının təmin edilməsi mühüm əhəmiyyət kəsb edir [2].

Azərbaycan Respublikası üzrə regionlarda fəaliyyət göstərən müəssisə və təşkilatların mənfəətində də son illər ciddi dəyişiklik müşahidə olunmuşdur. Məsələn, 2010-cu ildə bu göstərici 19112,1 mln. manat olmuşdursa, 2018-ci ildə bu göstərici artaraq 36329,1 mln. manat, 2019-cu ildə isə 37351,1 mln. manat təşkil etmişdir (qrafik 1). Mənfəətin artma səbəblərindən biri də regionlarda fəaliyyət göstərən müəssisə və təşkilatların xarici ölkələrə ixrac imkanlarının artması, daxili bazarda təklif olunan malların rəqabətqabiliyyətinin yüksəlməsi və s. hesab olunur [4].




**Qrafik 1.** Azərbaycan Respublikası üzrə regionlarda fəaliyyət göstərən müəssisə və təşkilatların mənfəətini əks etdirən dinamika (mln. manat) *Mənbə: www.stat.gov.az*

Ümumiyyətlə, postsovet məkanı ölkələrinin təcrübəsi göstərir ki, davamlı inkişafın təmin edilməsi üçün ilk öncə aşağıdakı problemlər həll olunmalıdır: davamlı inkişafın təmin edilməsinin mühüm istiqaməti davamlı insan inkişafının təmin edilməsi ilə bağlıdır. Bu da ilk növbədə səhiyyə, təhsil, o cümlədən insan inkişafını səciyyələndirən problemlərin həllini özündə ehtiva edir; yaranmış demoqrafik proseslərin tənzimlənməsi və səmərəli iqtisadi inkişafın təmin edilməsi və s. Müasir iqtisadi şəraitdə Azərbaycan Respublikasında inkişafın müsbət dinamikasının təmin edilməsi, makroiqtisadi sabitliyə və artıma nail olunması sürətli sosial-iqtisadi inkişafa səbəb olmuşdur.

Müxtəlif zaman kəsimlərində dövlətin iqtisadiyyata təsiri, yaxud müdaxiləsinin ölçüləri fərqli rakurslarda mövcud olmuşdur. Sözsüz ki, çağdaş dövrün bazar münasibətləri şəraitində də dövlətin tənzimləmə funksiyalarına olan münasibət heç də birmənalı deyildir.

Ölkəmizdə mikro, kiçik və orta sahibkarlığın inkişafı regionlarda davamlı iqtisadi artımın əsasını təşkil etməkdədir. Bundan başqa, respublikamızın davamlı səmərəli regional siyasətinin reallaşmasında iqtisadiyyatın dövlət tənzimlənməsinin effektivliyinin artırılması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- iqtisadi regionlar üzrə onların inkişaf səviyyəsindən asılı olaraq, mövcud təsərrüfat sahələri üçün regional əmək və məşğulluğun elmi baxımdan əsaslandırılması siyasətinin həyata keçirilməsi;
- ayrı-ayrı regionlar üzrə dövlət mülkiyyətində olan müəssisələrin öz arasında və bu müəssisələrlə özəl müəssisələr arasında münasibətlərin tənzimlənməsi mexanizminin hazırlanması;
- iqtisadi baxımdan zəif rayonlar müəyyən edilməklə, dövlət tərəfindən onların sosial-iqtisadi inkişafına ciddi diqqət ayrılmalıdır.

Regional siyasətin qarşısında duran vəzifələri müəyyənləşdirmək, onların həllinə effektiv vasitələr seçmək üçün, ilk növbədə regionların qeyri-bərabər inkişafına səbəb olan faktorlar müəyyənləşdirilməlidir. Müvafiq amilləri, əsasən, aşağıdakı kimi qruplaşdırırlar:

- hüquqi-siyasi əsaslar;
- təbii-resurs amilləri;
- demoqrafik amillər;
- tarixi amillər [3].

Ümumiyyətlə, ölkəmizdə regionların inkişafının qeyri-bərabərliyinin yaxın perspektiv dövr üzrə qarşısı alınmasa, bu mövcud iqtisadi ziddiyyətlərin dərinləşməsinə, ölkə vətəndaşlarının gəlirlərinin qeyr-mütənasib bölgüsünə səbəb ola bilər. Bunların qarşısını almaq üçün ilk növbədə yerli və xarici investorların, o cümlədən, milli sahibkarların regionlar üzrə istehsal və xidmət sahələri timsalında investisiya qoyuluşlarının həyata keçirilməsini təşviq etmək, daxili maliyyə mənbələrini bu istiqamətdə yönəldilməsini təmin etmək lazımdır. Bundan başqa, regionlarda işğaldan azad olunmuş ərazilərdə istehsal prosesi dayandırılmış sənaye, o cümlədən xidmət müəssisələrinin fəaliyyətinin dirçəldilməsi, kiçik və orta sahibkarlıq fəaliyyətinin genişlənməsinə güzəştli şəraitin yaradılması, yerli və xarici investisiyaların stimullaşdırılmış vasitələrlə cəlbi, dövlətin regional siyasətinin əsas prioritet istiqamətləri hesab olunmalıdır. Məhz buna görə də bu istiqamətdə davamlı olaraq dövlət səviyyəsində məqsədəuyğun tədbirlərin həyata keçirilməsi nəticəsində ciddi uğurlar əldə etmək mümkündür.

**İstifadə edilmiş ədəbiyyat**


1. Abdullayev K.N. Müasir iqtisadi şəraitdə iqtisadi təhlükəsizliyin təmin edilməsinin əsas istiqamətləri // İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər. Beynəlxalq elmi-praktiki konfransın materialları, Sumqayıt: SDU nəşr., 2020, s.455-459
2. Məmmədov Z.S. Regionların iqtisadi inkişaf problemləri. Bakı: Elm, 2007, 465 s.
3. Мировая экономика: учебник / под.ред. А.С.Булатова. М.: Экономист, 2010, 636 с.
4. www.stat.gov.az/pdf/Azərbaycanın statistik göstəriciləri/2020

UOT 82

# Heydər Əliyevin Cavid yaradıcılığına qayğısı

*Gülnar Adil qızı Vəliyeva,*
*Mingəçevir Dövlət Universiteti*

Ümummilli lider Heydər Əliyev Azərbaycan mədəniyyətinin hamisi olmuşdur. O, xalqın mənəviyyatını zənginləşdirən, onu bütün dünyada tanıdan milli mədəniyyətimizin hərtərəfli inkişafını, yüksəlişini daimi izləmiş, ona ən ümdə vəsifəsi kimi baxmışdır. O, milli mədəniyyətin və incəsənətin inkişafına xüsusi önəm verir, mədəniyyət xadimlərinə böyük diqqət və qayğı göstərirdi.

Bildiyimiz kimi, Heydər Əliyev Azərbaycanın ədəbiyyatı tarixinə dərindən bələd olan bir şəxsiyyət idi. Bunu onun Azərbaycanın istənilən qüdrətli ədəbi simasına verdiyi qiymətdən açıq-aşkar görmüşük. Hələ 1970-80-ci illərdə Bakıda Nəriman Nərimanovun, İmadəddin Nəsiminin, Mehdi Hüseynzadənin, Cəfər Cabbarlının, Hüseyn Cavidin, Səttar Bəhlulzadənin və digər görkəmli sənətkarlarımızın abidələrinin qoyulmasında Ulu öndərimiz H.Əliyevin xidmətləri çox böyük olmuşdur. H.Əliyevin sevdiyi şairlər, bəstəkarlar, mahnılar, əsərlər, sənətkarlar var idi. Ən çox sevdiyi şair isə Hüseyn Cavid idi. Hətta müsahibələrindən birində "Sevimli şairiniz kimdir?" sualını cavablandırarkən H.Əliyev özü bunu etiraf etmişdir. Çünki H.Cavid H.Əliyevin dahi insan zəkasına heyran olduğu, şəxsiyyətinə dərin məhəbbət hissi bəslədiyi sənətkarlardan biri idi. Ən əsası isə odur ki, Cavid öz dövrünün tarixi sınaqları, o zamanın fırtınaları və qasırğası qarşısında heç bir zaman məğrurluğunu itirmədiyi bir çox şəxslər kimi H.Əliyevin də diqqətindən kənarda qalmamışdır.

H.Cavid əslində öz dövrünün öksüzü olaraq, o zamanın məşəqqətlərinə, zərbələrinə, acılarına mübtəla olmuşdur:

Görmədim əsla dikənsiz gül, qaranlıqsız işıq,
Hər visalı daima təqib edən bir ayrılıq.
Söylüyorlar: "Daimi sevgi-səadət var," yazıq!
Seyr edib boş iddiadan başqa bir şey görmədim. [2, s.69]

1937-ci il iyunun 3-də keçirilən Azərbaycan Kommunist Partiyasının XIII qurultayında dövlət tərəfindən rəsmən xalq düşməni elan edilən H.Cavid elə həmin gecə dərhal həbsə alınmışdır. Bu azmış kimi üzərinə "pantürkist" damğası vurulan Hüseyn Cavidin adı və əsərləri dərsliklərdən, qəzetlərdən, kitabxanalardan yığışdırılır, adının tarixdən silinməsi üçün bütün qəddar tədbirlərə əl atılmışdır. 1956-cı ilə qədər sırf yasaq adların qara siyahısında qalan, hətta bəraətdən sonra da "pantürkist" damğası üzərindən götürülməyən H.Cavidin tam bəraəti, yəni bütün yaradıcılığı ilə ədəbiyyatımıza və tariximizə qayıdışı məhz H.Əliyevin sayəsində mümkün oldu.

Cavidin yazdığı bir çox əsərlər o dövrdə sovet ideologiyası baxımından öz zərərli mahiyyətini saxlayırdı. O, əlyazmalarının sonunda "imlasına toxunmamalı" sözləri ilə tövsiyəsi və vəsiyyətini bildirmişdir. 1958-ci il Cavidin bəraətdən sonrakı ilk kitabı nəşrə hazırlananda mətni sadələşdirməyi Cavidin dilini "islah" etməyi o zaman ehtiyac içərisində yaşayan Əliağa Vahidə təklif etmişdilər. Ə.Vahid: " Mən nə karəyəm ki, ustadın yazdığına əl gəzdirim?" - deyə təklifdən imtina etmişdi.

Cavid barəsində saysız-hesabsız elmi və bədii əsərlər yzılıb, rəsmlər çəkilib, abidələr yaradılıb, şəninə nəğmələr həsr edilib, lakin bunların heç birini H.Əliyevin Cavid həyatı üçün etdikləri ilə müqayisə etmək olmaz. Heydər Əliyev deyirdi: "Ədaləti ədalətsizliklə bərpa etmək olmaz." H.Cavidin yüksək keyfiyyətlərinə xüsusi dəyər verən H.Əliyev Cavid tarixində özünəməxsus yer tutmağı özü üçün ən öndə duran vəzifələrdən biri hesab edərək, onun məzarını uzaq Sibirdən doğma diyarı olan Naxçıvana gətirməklə ədaləti bərpa etməyə çalışdı. Deməк ki, Cavidlə bağlı ən böyük əsəri H.Əliyevin özü xəlq etmişdir.

Cavidi əsirlikdən qurtarmaq əsl qəhrəmanlıq idi, çünki sovet tarixində belə bir hadisə olmamışdır, yəni heç bir repressiya qurbanı həmin o soyuq, buz kimi şimal cəhənnəmindən qurtulub öz vətəninə dönməmişdir. Heydər Əliyevin bu qəhrəmanlığı siyasi cəsarətinin, müdrik addımlarının və ən başlıcası ürəyinin hökmü ilə bacarmışdır. Hər nə qədər H.Əliyev sovet ideologiyasının öndə

gedən təmsilçilərindən biri olsa da, o bir azərbaycanlı kimi, Cavid sevər kimi milləti qarşısında, vətən qarşısında bu addımı atmağı özü üçün ən önəmli vəzifə hesab etmişdi.

H.Əliyev ilə H.Cavidin oxşar cəhətləri çox idi, ona görə yox ki, hər ikisi Naxçıvanda doğulmuşdur. Ona görə ki, hər ikisi dahi insan, dahi şəxsiyyət, torpaq üçün, vətən üçün, millət üçün canından keçən, ömrünü xalqına həsr edən, millətçi, Azərbaycan tarixində öz əsərləri, öz ideologiyaları ilə dərin izlər buraxan şəxsiyyətlər idilər.

Cavid Azərbaycanı dünyaya öz əsərləri ilə, H.Əliyev isə öz siyasi ideyaları ilə tanıtdırırdı. Cavid "əsrinin öksüzü" oldu, H.Əliyev isə "əsrin adamı" seçildi. Hər birinin öz dəsti-xətti olsa da, amalları və əqidələri bir idi.

1982-ci ildə artıq Cavidin 100 yaşı olacaqdı, düzdür o, 1941-ci ildə dekabrın 5-də uzaq Sibirdə gözlərini əbədi olaraq yummuşdu, ancaq bir aforizmdə deyilir ki, "Dahilər üçün dünyanın bir qapısı var – onlar dünyaya gəlirlər, ancaq getmirlər." H.Əliyev və H.Cavid də bu cür dahilərdən idilər ki, dünyaya bir dəfə gəliblər və hər zaman da xalqımızın tarix yaddaşlarında yaşayacaqlar.

Cavid əsərlərini təkcə öz xalqı, milləti üçün deyil, bütün bəşəriyyət üçün yazmışdır. Məhz bu səbəbdəndir ki, H.Əliyev onun məzarını Sibirdən Azərbaycana gətirmək istədiyini öyrənən ermənilərin bu işə pəl vurmamaqları üçün Cavidin həqiqətən beynəlmiləlçi olduğunu, əsərlərinin bəşəri xarakter daşıdığını göstərən yazılar hazırlanıb, qəzetlərdə dərc edilməsinə göstəriş vermişdi.

Nəhayət, gözlənilən an gəlib çatdı. Heydər Əliyevin təşəbbüsü ilə 1982-ci ildə dahi Azərbaycan dramaturqu və şairi H.Cavidin qəbri uzaq Sibirdən doğma vətənə gətirildi. Çəkdiyi bütün məşəqqətlərə, acılara, aldığı zərbələrə baxmayaraq, Cavid öz elinə, obasına qovuşdu. Axır ki, bu həsrət sona yetdi.

"Olubdu qəlbimə hakim mənim məlali-vətən,
Başımda şur ilə məskən salıb xəyali-vətən.
Vətən,vətən deyərək hər diyara səs salıram.
Düşərmi bircə dilimdən mənim məqali-vətən?" [2, s.116]

Sovet dönəmində, imperiyanın təzyiqi altında olan H.Əliyevin Azərbaycan incəsənətinə, mədəniyyətinə, ədəbiyyatına göstərdiyi bu xidməti təqdirəlayiq bir şəkildə tariximizin yaddaşında qalacaq.

Sonralar Heydər Əliyev Bakıdan Moskvaya göndərildi, onu əvəz edən siyasi rəhbərlər isə onun etdiyi işi tamamlaya bilmədilər. H.Əliyevin qarşıya qoyduğu məsələlərdən biri də Bakıda Cavidin ev muzeyinin açılması idi. Lakin H.Əliyevin Bakıdan göndərilməsi ilə Cavid yaradıcılığına olan diqqət arxa plana keçirildi. H.Cavidin ev muzeyinin açılması üçün nəzərdə tutulmuş bütün tədbirlər təxirə salındı. Sonradan vətənimizin üzərini qara buludlar alması ilə H.Əliyev 1993-cü ildə ikinci dəfə hakimiyyətə gəldi. H.Əliyev bir daha qəhrəmanlıq nümunəsi göstərərək, Azərbaycanı faciələrin caynağından çəkib qurtardı.

H.Əliyevin respublika rəhbərliyinə qayıdışı ilə Cavid yaradıcılığına olan qayğı və diqqət pərvazlandı. Cavid irsinin nəşrinə, təbliğinə və tədqiqinə xüsusi diqqət göstərildi. 1996-cı ildə isə Naxçıvanda Azərbaycanın görkəmli dramaturqu H.Cavidin məzarı üzərində böyük bir məqbərə ucaldıldı. Bu məqbərə H.Əliyevin şəxsi təşəbbüsü və himayəsi ilə ərsəyə gəlmişdir.

Cavid adına ev muzeyinin açılmasında qızı Turan Cavid atası qarşısında övlad olaraq, öz borcunu yerinə yetirməklə irtica dövrünün caynağından qurtararaq, saxladığı sənədləri, atası ilə bağlı qoruyub hifz etdiyi əlyazmaları və ya əşyaları həmin muzeyə bağışladı.

Hüseyn Cavid əsərlərini dərin mənalı, yüksək fəlsəfəyə uyğun olaraq, qələmə almışdır və biz hər zaman onun yaradıcılığından bəhrələnməliyik. Qeydlərimi Turan Cavidin bu sözləri ilə tamamlayıram. "Hər şeyə görə – atamı Vətən torpağına qovuşdurduğuna, əzizlərimi bir sərdabədə – Cavid məqbərəsində görüşdürdüyünə, Cavid ocağının çırağını yenidən yandırdığına görə unudulmaz Heydər Əliyevə Tanrıdan rəhmətlər diləyirəm."

**İstifadə edilmiş ədəbiyyat**

1. Səmədov A. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Gəncə, 2008

2. Hüseyn Cavid. Əsərləri. I cild. Bakı, 2005
3. Hüseyn Cavid. Əsərləri. III cild. Bakı, 2005
4. Pəhləvan Ə. Qalxın, Cavid gəlir. Bakı, 1997

UOT 338

**Ümummilli lider Heydər Əliyevin ölkə iqtisadiyyatının inkişafında rolu**

*Günel Fazil qızı Kərimli,*
*Mingəçevir Dövlət Universiteti*

Hər bir millətin tarixdəki yeri və rolu onun taleyində çətin bir siyasi vəziyyətdə çox böyük məsuliyyət götürərək əvəzsiz rol oynayan, müdrik və uzaqgörənliklə fövqəladə missiyası ilə seçilən dahi şəxsiyyətlərlə müəyyənləşdirilir. Bu cür tarixi şəxsiyyətlər siyasi dünyagörüşü, xalqların əsrlər boyu təkmilləşdirilmiş milli dəyərləri əsasında dövlətin və siyasi davamlılıq ənənələrinin optimal modelini yaratmışdır. Bu dahi şəxsiyyətlər uca mənəvi dünyaları, ən yüksək ümumbəşəri və milli ideyalara dərin bağlılığı və milli maraqları ilə milyonlarla insanın qəlbindı özləri üçün möhtəşəm bir abidə ucaltmışlar.

Bu gün dünyada dövlətçilik ənənələrini formalaşdıran tariixin taleyüklü və çətin mərhələlərində taleyində müstəsna rol oynayan Ümummilli liderə sahib olmayan bir xalq tapmaq çətindir. Türklər üçün – Mustafa Kamal Atatürk, almanlar üçün – Otto von Bismark, ingilislər üçün – Uinston Çörçil, azərbaycanlılar üçün – Ümummilli lider Heydər Əliyev.

Son əsrlərdə baş verən hadisələrin təhlili göstərir ki, respublikamızın müstəqillik dövrünə qədəm qoyması 1969-cu ildən başlamış və Ulu öndər Heydər Əliyevin Azərbaycana yenidən rəhbərliyi dövründə həyata keçirdiyi məqsədyönlü siyasətilə başa çatmışdır. Dövlət müstəqilliyinin qorunması onun əldə edilməsindən daha çətindir. Müstəqil Azərbaycanın keçdiyi inkişaf yolu bunu bir daha təsdiqləyir. Dövlət müstəqilliyi və siyasi azadlıq milli iqtisadiyyatın inkişafı üçün şərait yaratdığı kimi milli iqtisadiyyatın inkişafı və gücləndirilməsi dövlət müstəqlliyinin əsasını daha da gücləndirir. “Güclü iqtisadiyyata sahib olan bir dövlət çox şeyə qadirdir” deyən Ümummilli lider hər zaman dövlət quruculuğunun vacib bir komponenti kimi milli iqtisadiyyatın inkişafına böyük əhəmiyyət vermişdir.

Keçmiş Sovet İttifaqı daxilində Azərbaycan iqtisadiyyatı vahid xalq təsərrüfatı kompleksinin ayrılmaz bir hissəsi idi. Heydər Əliyevin rəhbərliyi ilə həmin dövrdə Azərbaycan iqtisadiyyatının geniş miqyaslı yaradılış prosesi başladı. Məhz Heydər Əliyevin rəhbərliyi ilə əngəllərə və müstəqil istisadi siyasət yürütmək imkanlarının məhdud olmasına baxmayaraq, Azərbaycan iqtisadi potensialını və milli iqtisadi maraqlarını reallaşdıra bilirdi. Sovet İttifaqı dağılmazdan əvvəl iqtisadi cəhətdən siyasi müstəllik üçün hazır olan respublikalardan biri kimi, ekspertlər məhz Azərbaycanı göstərirdi. Bu nəticə təkcə ölkəmizin zəngin təbii sərvətləri ilə deyil, həm də milli iqtisadiyyatın inkişaf perspektivlətinə əsaslanırdı. Keçmiş Sövet İttifaqı dövründə Azərbaycanın büdcə gəlirləri xərcləri üstələyirdi, çoxlu növ məhsul istehsalı üzrə Azərbaycan keçmiş SSRİ-də qabaqcıl yerlərdən birini tuturdu. Həmin dövrdə yeni sənaye müəssisələrinin açılması, maşın və avadanlıqların alınması Azərbaycanda əsas fondların digər respublikalara nisbətən daha sürətli böyüməsinə səbəb oldu.

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra suveren hüquqlarını həyata keçirməyə və iqtisadi sahədə müstəqil siyasət yürütməyə başladı. Bu fəaliyyətin əsas istiqaməti müxtəlif mülkiyyət formalarına əsaslanan iqtisadi sistemin yaradılması, bazar münasibətlərinə keçid və dünya iqtisadiyyatına inteqrasiya idi. Müstəqillik əldə etdikdən sonra iqtisadi inkişafı iki mərhələyə bölmək olar. Birincisi, 1991-1995-ci illəri əhatə edən xaos və ya tənəzzül dövrü, ikincisi isə 1996-cı ildən başlayan və bu günə qədər davam edən makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf dövrüdür.

1993-cü ildən, müstəqil Azərbaycana rəhbərlyinin başlanğıcı dövründən çətin başlanğıc nöqtəsinə baxmayaraq, xalqımızın Ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti və zəhməti nəticəsində qısa bir tarixi dövrdə sosial-iqtisadi sahədə böyük uğurlar əldə edildi. Ən böyük nailiyyət ondan ibarət idi ki, ölkədə həyata keçirilən müstəqil dövlət quruculuğu prosesi nəticəsində yeni inkişaf və iqtisadi islahatlar modeli – Azərbaycan modeli meydana çıxdı. Zaman və sosial-iqtisadi forma baxımından fərqlənən bu dövrlərin əsas bənzərlikləri Azərbaycana böyük uğurlar gətirən Ulu öndərin fədakar xidmətləri idi. Dahi lider böyük bir fikrin daşıyıcısı idi. Atılan addımlar, aparılan siyasət, istifadə olunan diplomatik metodlar onun uzaqgörənliyinin və strateji düşüncəsinin nəticəsi idi [1].

1992-ci ildə inflyasiya 1174 faiz idisə, 1993-cü ildə bu göstərici 1081 faiz oldu. 15 iyun 1994-cü il tarixdə Heydər Əliyevin imzaladığı “Əhalinin sosial müdafiəsinin gücləndirilimısi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında” Fərmanın tətbiqi 1995-ci ildə inflyasiyanın 85 faizədək azaldılmasına səbəb oldu. Yüksək inflyasiya şəraitində həyat səviyyəsini qorumaq mümkün deyildi. Əhalinin sosial müdafiəsi maliyyə sabitliyini tələb edirdi və 1996-cı ildən inflyasiyanın cilovlanması əhalinin həyat səviyyəsinin aşağı düşməsinin qarşısını aldı.

Ulu öndər Heydər Əliyevin milli iqtisadiyyatımızın inkişafındakı əsas xidmətləri sosial-siyasi stabilliyi təmin etməklə yanaşı, digər tərəfdən iqtisadi islahatlara ardıcıl siyasi dəstək verilməsində idi. Azərbaycan iqtisadiyyatının inkişafı yolunda aparılan iqtisadi islahatlar davam edirdi. Azərbaycanda 1991-ci ildən başlayan iqtisadi tənəzzül 1996-cı ildə makroiqtisadi sabitləşmə proqramlarının həyata keçirilməsindən sonra aradan qaldırıldı. Ümummilli lider Heydər Əliyev çıxışında qeyd etmişdir: “Bir Prezident kimi mən iqtisadiyyatda dövlət siyasətini artıq müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara bərabərlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılması zəruridir. Bu, dövlət siyasətimizin əsas prinsipləri olur”.

İqtisadi islahatların həyata keçirilməsi üçün əlverişli şəraitin yaradılması, bazar münasibətləri əsasında milli iqtisadiyyatın inkişafına konstitusiya zəmanətinin verilməsi, neft müqavilələrinin imzalanması, ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi, dünyanın aparıcı ölkələri ilə iqtisadi əməkdaşlığın dərinləşməsi Ümummilli liderin bu sahədə apardığı strateji addımların nəticəsi idi.

Ümummilli lider Heydər Əliyevin 15 iyun 1993-cü ildə hakimiyyətə qayıdışı ilə ölkə iqtisadiyyatında dəyişikliklərin əsası qoyuldu. 1994-cü ilin sentyabr ayının 20-də Azəri-Çıraq-Günəşli neft yataqlarının işlənməsi üçün “Əsrin müqaviləsi” imzalandı, Azərbaycan neftinin dünya bazarına çıxarılması üçün 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə Bakı-Supsa neft kəməri istifadəyə verildi. 1999-cu il noyabr ayında Bakı-Tbilisi-Ceyhan (BTC) “Əsas ixrac neft kəməri”nin çəkilişi haqqında imzalanmış dövlətlərarası Müqaviləyə əsasən 18 sentyabr 2002-ci ildə Səngəçal terminalında Bakı-Ceyhan-Tbilisi neft kəmərinin təməl daşı qoyularaq tikintisinə başlanmışdır. Bakı-Ceyhan-Tbilisi neft kəməri istismara verildiyi gündən 2007-ci ilin sonuna kimi Ceyhan limanından 36 mln 796 555 ton Azərbaycan nefti dünya bazarlarına çıxarılmışdır [2]. “Üç dəniz əfsanəsi” adlandırılan Bakı-Tbilisi-Ceyhan layihəsinin xalqın rifah halının yaxşılaşmasında və Azərbaycanın qüdrətli dövlətə çevrilməsində böyük rolu olmuşdur.

1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsi, kiçik və orta sahibkarlığın dəstəklənməsi məqsədilə qəbul edilmiş Dövlət Proqramları ölkədə yerli sahibkarlıq fəaliyyətinin möhkəmlənməsinə, genişlənməsinə və dövlət büdcəsinin əsas gəlir mənbələrindən birinə çevrilməsinə səbəb oldu. Həmin dövrlərdə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində bu gün sahibkarlıq məşğulluğun təmin olunmasında, büdcə gəlirlərinin artırılması sahəsində öz bəhrəsini vermiş və bununla da ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilmişdir [3].

Azərbaycanda müstəqil dövlətçiliyin qorunması ənənəsinin yaradılması dahi lider Heydər Əliyevin adı ilə bağlıdırsa, dövlətimizin modernləşməsi və daha da möhkəmlənməsi, milli iqtisadiyyatın dinamik inkişafı Ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin adı ilə əlaqədardır. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini üzərinə götürən İlham Əliyev

jurnalistlərlə ilk müsahibəsində söyləmişdir: “Artıq Azərbaycanda ölkəmizin inkişafı üçün əla zəmin yaradılıb. On illər ərzində Heydər Əliyev siyasəti Azərbaycanda çox möhkəm bir təməl qoyub. Bu təməl üzərində gözəl bir binanın yaradılması asan görünə bilər. Amma həyat bir yerdə dayanmır. Bizim qarşımızda yeni tələblər, yeni vəzifələr durur” [4]. Son 18 ildə bu istiqamətdə qoyulan məqsəd və vəzifələr, dəqiq müəyyənləşdirilmiş orta və uzun müddətli inkişaf istiqamətləri, müxtəlif sahələr üçün hazırlanmış fəaliyyət proqramları ilə Prezident İlham Əliyev Ulu öndərin qoyduğu təməl üzərində Azərbaycanın bir dövlət olaraq, əsaslarını möhkəmləndirdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə iqtisadi quruculuq daha geniş vüsət aldı. Azərbaycanın sosial-iqtisadi inkişafının əsas istiqamətləri 2003-2019-cu illərdə imzalanmış çoxsaylı fərmanlarda və sərəncamlarda, dövlət proqramlarında, strateji yol xəritələrində öz əksini tapmışdır.

Hazırda Azərvaycanda dövlət idarəçiliyi, əsasən, “güclü iqtisadiyyat – güclü dövlət” prinsipinə əsaslanır. İqtisadi diplomatiya imkanlarından maksimum istifadə də bu prinsipin həyata keçirilməsinə xidmət edir.

Ölkəmizin bütün uğurlarının Ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu qeyd edən Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Ümummilli liderin başladığı siyasi kursu davam etdirəcəyini bildirmişdi. Çıxışlarında dəfələrlə “Azərbaycanın ən ağrılı problemi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir” deyən Prezident İlham Əliyevin xarici siyasətinin əsasını Azərbaycan Respublikasının ərazi bütövlüyü, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi təşkil edirdi.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 27 sentyabr 2020-ci ildə başlayan və 44 günlük “Dəmir yumruq” əməliyyatı nəticəsində 30 il işğal altında olan torpaqlarımız geri qaytarıldı. Xalqımızın liderinin ətrafında bir yumruqda birləşməsi düşməni bütün cəbhələrdə məğlub etdi. Azərbaycan bütün platformalarda öz gücünü göstərdi.

**İstifadə edilmiş ədəbiyyat**

1. https://nk.gov.az/ru/article/1314/
2. https://az.wikipedia.org/
3. http://anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_may2009/78718.htm
4. http://www.anl.az/down/meqale/bakrabochiy/2018/aprel/586199.htm

UOT 339.1

## Heydər Əliyev və müasir idarəçilik strategiyasının komponentləri

*Nuran Zakir oğlu Cəfərov,*
*Mingəçevir Dövlət Universiteti*

Ümummilli lider Heydər Əliyevin dövlətçilik ideyalarının elmi-nəzəri əsasları təkcə bugün üçün deyil, gələcək üçün də çox əhəmiyyətlidir. İllər keçdikcə biz bunu daha aydın görür və dərk edirik. Heydər Əliyevin idarəçilik məharəti çox zəngin təcrübə məktəbi, tükənməz bir xəzinədir. İllər keçdikcə gələcəkdə hələ çox-çox nəsillər bu təcrübədən bəhrələnəcəklər. Ulu öndər Heydər Əliyev özünün çox böyük təşkilatçılıq məharəti və çoxcəhətli səmərəli fəaliyyətilə idarəçilik elmini tək əməli cəhətdən deyil, həmçinin nəzəri baxımdan zənginləşdirmişdir. Bütün bunlar dünya təcrübəsi üçün də faydalı olduğundan beynəlxalq əhəmiyyətə malik çox zəngin bir sərvətdir. Biz bu sərvətə sahib olduğumuz, ondan davamlı olaraq bəhrələndiyimiz üçün böyük qürur hissi keçirirk. Bu sərvəti qorumaq və gələcək nəsillərə ötürməyi isə tarixi vəzifəmiz hesab etməliyik.

Ulu öndər Heydər Əliyevin çox zəngin həyat təcrübəsi və idarəçilik sistemində qazandığı yüksək professional keyfiyyətləri sayəsində bu gün artıq Azərbaycanda ümumbəşəri demokratik

ənənələrin mütərəqqi prinsiplərini tərənnüm edən idarəçilik sistemi yaradılmışdır. Cəmiyyətin sosial-iqtisadi ictimai-siyasi və əxlaqi-mədəni həyatının bütün sahələrində yüksək intellektual səviyyəyə, korporotiv və subordinativ dəyərlərə əsaslanan münasibətlər formalaşmışdır. İstehsal və xidmət sahələrində davamlı uğurun qazanılmasını zəmanət altına almaq üçün idarəçiliyin effektli şəkildə icrasının vacibliyini dərindən başa düşən ölkə vətəndaşları mütəşəkkil idarəçilik strategiyasını, onun ayrı-ayrı komponentlərini həyat tərzi, həyat ukladı səviyyəsinə qaldırmışlar.

Artıq ölkəmizdə həyata keçirilən və müasir dövrün aparıcı informasiya-kommunikasiya texnologiyalarına, "Elektron hökümət", "ASAN xidmət" kimi yüksək dəqiqliklə işləyən sistemlərə əsaslanan idarəçilik strukturu cəmiyyət həyatının bütün sahələrində bərqərar olmağa başlayıb. Bu gün siyasətdə, dövlət strukturlarında, istehsal və xidmət sahələrində mükəmməl kompetensiya sahibləri olan, yeni tələblərə uyğun idarəçiliyin bütün sirlərini bilən, müasir texniki və texnoloji elementlərdən ustalıqla istifadə etməyi bacaran, müasir idarəçiliyin subordinativ və korporativ variantlarının texniki, psixoloji və ideoloji məzmununu mükəmməl bilən böyük bir mütəxəssis ordusu çalışır. İdarəçilik sistemində insan resurslarından və milli insan kapitalından adekvat şəkildə istifadə olunur. Bütün bunlara isə biz Heydər Əliyevin parlaq və aydın zəkası, çox zəngin biliyi və təcrübəsi, bütün sahələrlə bağlı yüksək səriştə nümayiş etdirən çoxcəhətli fəaliyyəti və fədakarlığın klassik nümunəsi kimi təzahür edən zəhməti hesabına nail olmuşuq. Ümummilli lider Heydər Əliyevin bizə miras qoyduğu zəngin idarəçilik ənənələrini rəhbər tutaraq, eləcə də sivil cəmiyyətlərin idarəçilik atributlarını müəyyən edən beynəlxalq təcrübəyə istinad edərək, idarəçilik mədəniyyətini günün və dövrün tələblərinə uyğun daha da inkişaf etdirmək, onu mlli koloritə uyğun müvafiq komponentlərlə zənginləşdirmək, durmadan yeniləşən və qloballaşma kimi qarşısıalınmaz bir zəruri prosesin diqtəsi altında dəyişən çağdaş dünyanın tələblərinə cavab verən kadr potensialını artırmaq davamlı inkişafın zəmanət altına alınması üçün şərtdir.

Təbiidir ki, hər bir ölkənin, eləcə də Azərbaycanın təhsil sistemi üçün idarəedən kadrların hazırlığı məsələsi xüsusi aktuallıq kəsb edir. Belə ki, Azərbaycanda demokratik hüquqi dövlət quruculuğu prosesləri sürətləndikcə, dövlət müstəqilliyimiz möhkəmləndikcə, iqtisadiyyatımızın inkişaf sürəti artdıqca, ölkədə idarəetmə sisteminin daha da təkmilləşdirilməsi, onun səmərəliliyin artırılması məsələləri də ön plana çıxır. Dövlət idarəçiliyinin səmərəliliyi isə ixtisaslı kadrların hazırlanması və qulluğa cəlb olunması ilə təmin olunur. Belə ki, dövlət orqanlarının keyfiyyətli və səmərəli fəaliyyəti əhəmiyyətli dərəcədə dövlət qulluqçularının səriştəsindən, bacarığından, ixtisas səviyyəsindən asılıdır [1].

Qeyd etmək lazımdır ki, qabaqcıl idarəetmə sistemlərinin və ən yeni texnologiyaların yarandığı müasir şəraitdə idarəetmə sahəsində çalışan rəhbər kadrların bir qismi artıq cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və etik-mədəni həyatında baş verən dinamik dəyişikliklərə adekvat reaksiya verə bilmir və mürəkkəb idarəetmə məsələlərinin həllində peşəkarlıqla bağlı müəyyən çətinliklərlə üzləşdikdə yeni idarəetmənin səmərəliliyini təmin edə bilmirlər.

Məlumdur ki, hər müstəqil dövlətin qüdrət və stabillik meyarlarını müyyən edən əsas faktor ali rəhbərin istedadlı olması və idarəçilik işini əla bilməsidir. Lakin müxtəlif instansiyalara, müəssisələrə, təşkilatlara, manqalara, ayrı-ayrı təsərrüfat subyektlərinə rəhbərlik edən vəzifəli şəxslərin yüksək təhsil və peşəkarlıq səviyyəsinə malik olmaları, idarəçiliklə bağlı professional fəaliyyətlərində günün və yeni dövrün tələblərinə uyğun korrektivlər etməyi bacarmaları da olduqca vacibdir. Bunun üçün müasir təhsil sistemi idarəçilik sahəsində tələb olunan meyarlara uyğun istedadlı və bacarıqlı kadrların, menecerlər ordusunun hazırlanması işi uğurla həyata keçirir. Ali təhsil müəssisələrində (Prezident Aparatı yanında Dövlət İdarəçilik Akademiyası – PADİA, Azərbaycan Dövlət İqtisad Universiteti – ADİU və s.) idarəetmə sahəsi üçün nəzərdə tutulmuş çox yüksək kompetensiyaya sahib kadrlar yetişdirilir. Bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etmişdi ki, ölkə həyatının bütün sahələrində fundamental dəyişikliklərin getdiyi müasir dövrdə cəmiyyətin sosial-iqtisadi tərəqqisində, planetar miqyasda rəqabətə davamlı, elmi və intellektual potensiala malik gənc və enerjili insanların yetişdirilməsində və ali məqsədlərə xidmət edən milli insan kapitalının formalaşmasında təhsil sisteminin xüsusi rolu var.

Əsasları Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən kadr siyasəti dövlətçiliyimizin bütün sahələrində yeni düşüncəli, savadlı, işgüzar, bacarıqlı, saf mənəviyyatlı, yüksək təşkilatçılıq və informasiyadan bacarıqla istifadə etmək qabiliyyətinə malik olan yeni kadrların hazırlanmasına, onların seçilib irəli çəkilməsinə zəmin yaradır. Xalqın və dövlətin gələcəyini yüksək ixtisaslı, peşəkar və vətənpərvər insanlarda görən Heydər Əliyev hələ ötən əsrin 70-80-ci illərində ölkənin maddi imkanlarının məhdudluğuna baxmayaraq, bu işi dünya miqyasına çıxarmış, minlərlə gənci ali təhsil almaq üçün xarici ölkələrə göndərmişdi [2]. Bu gün də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qəbul olunmuş Dövlət Proqramlarına əsasən hər il yüzlərlə gənc inkişaf etmiş xarici dövlətlərin qabaqcıl ali təhsil müəssisələrində ixtisaslı kadr kimi təhsil almaq üçün (o cümlədən idarəetmə və menecment ixtisasları üzrə) xaricə göndrərilirlər.

Möhtəşəm liderlik bacarığına və yüksək tərzdə rəhbərlik etmək istedanına sahib olan Ulu öndər Heydər Əliyev öz qüsursuz davranışları və əməlləri ilə rəhbərin, geniş mənada idarə edən, yönləndirən, nəzarət edən, tənzimləyən, yüksək professional keyfiyyətlərə malik olan personanın əlamətlərini müəyyən etmiş və idarəçilik sisteminə yeni rəhbər etalonu daxil etmişdi. Bu etalona görə qurumun, müəssisənin və ya təşkilatın miqyasından və təyinatından asılı olmayaraq, rəhbər şəxs bu vəzifəsini daha effektli icra etmək üçün adekvat şəxsi keyfiyyətlərə, etik dəyərlərə sahib olmalı, idarəçilik üçün nəzərdə tutulmuş müfaqiq etiket qaydalarını mükəmməl şəkildə bilməli, özünün rəhbərlik fəaliyyətində onlardan səmərəli şəkildə istifadə etməlidir. Rəhbərin ən başlıca keyfiyyəti isə şəxsi və professional səviyyəsinin, yüksək intellektinin, əxlaqi-mənəvi dəyərlərinin və müsbət enerjisinin gücü ilə kollektivdə pozitiv aura yaratmaq bacarığı olmalıdır. Rəhbər daim şəxsi emosiyalarını cilovlamağı bacarmalı və onları idarə edə bilməlidir. Əsəbilik və təcavüz rəhbərliyin simasına yaraşmayan neqativ əlamətlərdir və kollektivin tənəzzülünə səbəb olan əsas faktor kimi qiymətləndirilir.

Ümummilli lider Heydər Əliyevin tərənnüm etdiyi rəhbər obrazı möhtəşəm harmoniyaya əsaslanırdı. Onun hər elementi və hətta ən incə detalları belə bir-birini tamamlayırdı. Ulu öndərin ideal rəhbər obrazı “qulaq asmaq” qabiliyyəti ilə yanaşı, tabeçliyində olanları “eşitmək” bacarığını da ifadə edirdi. Rəhbərin bu keyfiyyəti ilə bağlı məşhur ABŞ alimi, ünsiyyət bacarıqları və natiqlik məharəti üzrə bestsellerlərin müəllifi, “Ünsiyyət nəzəriyyəsi”nin yaradıcılarından biri, “Konfliktsiz ünsiyyət konsepsiyası”nı yaratmış psixoloq Deyl Karneqi (1888-1955) belə yazırdı: “İdarəçilikdə insanın uğurunun 15 %-i onun peşəkar biliklərindən, 85 %-i isə başqaları ilə düzgün ünsiyyət qurmaq bacarığından asılıdır.” [3, s.66–79]

Beləliklə, Heydər Əliyevin liderlik və rəhbərlik işi ilə bağlı formalaşdırdığı nümunənin yüksək təşəkküllü əlamətlərini və keyfiyyətləri ümumiləşdirərək, müasir idarəçilik strategiyasının əsas komponentlərini aşağıdakı kimi müəyyənləşdirmək olar:

1. Özünü idarə etmək qabiliyyəti – yüksək təşəkküllü əxlaqi-mədəni davranış.
2. Psixoloji və inellektual baxımdan rəhbərlik etdiyi kollektiv və cəmiyyət üçün əsl nümunə olmaq – erudisiya, filantropiya və alicənablıq kimi şəxsi keyfiyyətlər.
3. Dəqiq müəyyən olunmuş şəxsi və professional məqsədlər.
4. Davamlı olaraq inkişaf etməyə meyllilik.
5. Problemləri vaxtında və optimal üsullarla həll etmək vərdişləri və bacarıqları.
6. İxtiraçılıq və yeniləşmə, yeniləşdirmə və kreasiya (lat. *creatio* – qurmaq, yaratmaq) kimi qabiliyyətlər, həmçinin modern şəxsiyyət imici.
7. Tabeçiliyəndə olanlara və ətrafındakı insanlara müsbət dəyişdirici təsir göstərmək bacarığı və mühiti ümumi rifah naminə dəyişdirmək qabiliyyəti.
8. İdarəetməyə müasir postindustrial və qlobal cəmiyyətin yeni tələbləri baxımından yanaşmaq və bütün müasir yenilikləri müəssisənin və təşkilatın həyatına tətbiq etmək bacarığı.
9. Tabeçiliyində olanların professional və intellektual baxımdan inkişaf etmələri üçün imkan və şəarait yaratmaq qabiliyyəti.
10. Aktiv işçi qruplarının formalaşdırılması və inkişaf etdirilməsi bacarığı.
11. Çox geniş və universal dünyagörüşü.

12. Vəziyyətin xaraktrini düzgün dərk etmək hissi və qiymətləndirmək bacarığı.
13. Şəxsi personasına adekvat münasibət göstərmək və sağlam özündənrazılıq qabiliyyəti.
14. Bütün pozitiv və neqativ dəyişikliklərə hazır olmaq bacarığı.
15. Kollektivin işinə və fəaliyyətinə yaradıcı motivlər qatmaq və onları reallaşdırmaq istedadı.

**İstifadə edilmiş ədəbiyyat**

1. Qəndilov S. Azərbaycan. “Bakı” qəz, 2010, 22 aprel, s.3
2. Səmədov A. Ümummilli lider Heydər Əlievin Azərbatcanda təhsil və elm xadimlərinə qayğısı: Dərs vəsaiti. Gəncə, 2010, s.46
3. Шостром Э. Талант общения. Дейл Карнеги или Авва Дорофей? М.: Новая книга, «Ковчег», 1998, 144 с.

UOT 82

## Heydər Əliyev irsində vətənpərvərlik və dil

*Səbinə Bəlohər qızı Novruzova,*
*Mingəçevir Dövlət Universiteti*

Hər bir millətin inkişafı təhsil səviyyəsi ilə sıx bağlıdır. Şəxsiyyətin formalaşmasında tərbiyənin mühüm rolu vardır. Mənəvi tərbiyə sayəsində adi fiziki fərd kimi dünyaya gələn insan əsl mənada şəxsiyyətə çevrilir. Məhz dahi şəxsiyyət Heydər Əliyev də ölkəmizin həyatında yeniliklərin gətirilməsi prosesində, milli mənəvi dəyərlərin rolunun artmasında, ədəbiyyatımızın inkişafında önəmli rol oynamışdır. Azərbaycan Respublikası müstəqillik və suverenlik yolunda inamla addımlayır. Həyatın bu sahələrində uğur və nailiyyətlər qazanılır. Milli cəhətlər ön plana çəkilir. Xalqımızın tarixi və mədəniyyəti, adət və ənənələri dərindən öyrənilir. Gənc nəslin milli ruhda, soykökünə bağlı vətəndaş kimi tərbiyə olunmasına xüsusi diqqət yetirilir. Bütün bunlar təhsil sisteminin milli zəminə, ümumbəşəri dəyərlərə əsasən demokratik xarakterdə qurulmasını tələb edır. Gənc pedaqoji kadrların məhz bu ruhda hazırlanmasında Heydər Əliyevin rolu böyükdür.

Heydər Əliyev Azərbaycan xalqının dəyərli sərvəti olan ədəbiyyatımıza xüsusi önəm verirdi. O, ədəbiyyatımızla bağlı deyirdi: “Bizim ədəbiyyatımız, mədəniyyətimiz xalqımızın milli sərvətidir və intellektual mülkiyyətidir. Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir.” [3]

Heydər Əliyev müdrik şəxsiyyət idi. İncənətimizdə, ədəbiyyatımızda onun rolu danılmazdır.

Heydər Əliyevin rəhbərliyi dövründə ədəbiyyatımızın inkişafında irəliləyişlər olmuşdur. Onun fikrincə, millilik, müasirlik və tarixilik ədəbiyyatın formalaşmasında əsas rol oynayır. Ulu öndər Heydər Əliyev Azərbacan dilinin, tarixinin inkişafı baxımından “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 2001-ci il 18 iyun tarixli və “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” 2001-ci il 9 avqust tarixli Fərmanları böyük tarixi-siyasi əhəmiyyətə malik sənədlər idi. [1]

“Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Fərman dilimizin inkişafı və tətbiqi sahəsində meydana çıxan problemlərin həllində mühüm rol oynadı. Eyni zamanda Azərbaycanın müstəqilliyini elan etməsindən sonrakı müddət içində mlli dövlət qurmaq və bu dövlətin fəaliyyətini təmin etmək kimi çətin bir vəzifə Azərbaycanın dövlət başçısı Ulu öndər Heydər Əliyevin bacarıqlı rəhbərliyi altında uğurla həyata keçirildi.

Heydər Əliyev təhsil sistemini yeniləyib, Azərbaycan xalqının maariflənməsinə səy göstərdi. Sadalanan faktlardan, açıqlanan məlumatlardan aydın olur ki, təhsilin inkişafı yönümündə geniş

işlər görülmüşdür. Bu işlərin həyata keçməsi hörmətli Prezidentimizin müstəsna rolu və diqqəti nəticəsində mümkün olmuşdur. Məhz Heydər Əliyevin dühası sayəsində təhsilin bugünkü səviyyəyə qalxması yolları aşkar edilmiş və az bir müddət ərzində Azərbaycan təhsili keyfiyyətcə yeni səviyyəyə qalxmışdır.

Azərbaycan dilinin inkişafında Ulu öndərin müstəsna rolu olmuşdur. Belə ki, yuxarıda qeyd etdiyimiz Azərbaycan dili ilə bağlı imzaladığı Sərəncamlar dilin inkişafında əhəmiyyətli rol oynamışdır. Dilin inkişafı ilə bağlı verilən fərmanlarla bağlı olaraq, hər il “Ana dili” günü yüksək səviyyədə qeyd olunur.

Ulu öndər ana dilimizi hər zaman digər dillərdən üstün tutmuşdur. Baxmayaraq ki, Azərbaycanda çoxsaylı xalqlar yaşayır, onlara öz dillərində danışmaq hüququ verilir, bütün bunlarla yanaşı, onlar Azərbaycan dilini də bilməlidirlər. Milli-mənəvi dəyərlərin ümumbəşəri ideyalara inteqrasiyasına yüksək qiymət verən Ümummilli lider Heydər Əliyev bu barədə deyirdi: “Bu gün hər bir azərbaycanlının həm milli-mənəvi dəyərləri, həm də ümumbəşəri dəyərlərin mənəvi-əxlaqi mentaliteti onun ən böyük sərvətidir”. Qeyd etmək lazımdır ki, bu gün respublikamızın Prezidenti cənab İlham Əliyevin fəaliyyətində milli mədəniyyətimizin və milli mənəviyyatımızın qorunması, eləcə də, milli mədəniyyətimizdə tarixiliklə müasirliyin qovuşdurulması mühüm bir mərhələ təşkil edir.

İnsanın ən ülvi hisslərindən biri olan vətənpərvərlik hissinin əsasında onun doğulub, böyüyüb boya-başa çatdığı, suyunu içib, çörəyini yediyi, havasını udduğu, tarixlə öyünüb bu günü ilə fəxr etdiyi, gözəlliklərini ruhuna çilədiyi torpağına, doğma elə, obaya məhəbbət hissi durur. Ölkənin gələcək inkişafının, millətin tərəqqisinin əsasını da onun vətəndaşlarındakı bu hiss təşkil edir. Ürəyində vətən eşqi, yurd məhəbbəti varsa, onların inkişafı üçün bir vətəndaş kimi çalışacaqsan, yoxsa heç kəsə gərək olmayan adi bir vətən daşına çevriləcəksən. Məhz buna görə də, müstəqillik qazandığımız dövrdə vətənpərvərlik tərbiyəsi gənc nəslin yetişməsi sahəsində aparılan işdə ön mövqeyə çıxır. Çünki tarixin məhz keçid anlarında, vətənin üzərini qara buludlar alanda vətənpərvər insanlara, vətənin müstəqilliyi, azadlığı naminə həyatlarından belə keçməyə hazır olan insanlara daha çox ehtiyac yaranır.

Ölkəmizin indiki durumunda, 44 günlük zəfərdən sonra müstqilliyimizi daha da möhkəmləndirmək, ata-baba yurdlarımızı qoruyub saxlamaq üçün gərgin mübarizə aparılan, bunun üçün ölkənin bütün vətəndaşlarının birliyi tələb olunan bir zamanda bu ehtiyac özünü daha bariz göstərir, məhz buna görə də gənc nəslin tərbiyəsi ilə məşğul olan bütün müəssisələrin, o cümlədən məktəblərin əsas vəzifələrindən biri gənclərdə vətənpərvərlik duyğusunu inkişaf etdirməkdən ibarətdir. Bunu nəzərə alaraq, məktəblərimizin pedaqoji kollektivi, müəllim və tərbiyəçilərimiz təlim-tərbiyə prosesində vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirməlidirlər.

Xalqımızın qəhrəman oğullarından biri Azərbaycanımızı müstəqilliyə qovuşduran, onu dünyaya tanıtdıran müdrik daxili və xarici siyasətilə xalqımızın böyük hörmət və məhəbbətini qazanmış, öz böyüklüyü, müdrikliyi ilə dünya siyasətçilərinin ön sıralarında duran mərhum prezidentimiz Heydər Əliyevdir. Xalqımız bu qəhrəman oğlu ilə hər zaman fəxr edir və edəcəkdir. Azərbaycanın XX əsr tarixini Heydər Əliyevsiz düşünmək mümkün deyil, Heydər Əliyev və tariximiz bir-birindən ayrılmazdır.

Beləliklə, bu gün Azərbaycan dilinin qorunub saxlanılması və onun dünya dilləri içərisində öz layiqli yerini tutması üçün, eyni zamanda gəncləri vətənpərvərlik ruhunda tərbiyə etmək üçün hər birimiz çalışmalıyıq. Bütün bunlar Heydər Əliyev irsinin bizə qoyub getdiyi mirasdır.

**İstifadə edilmiş ədəbiyyat**

1. “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi” haqqında Azərbaycan Respublikasının Prezidentinin Fərmanı. Bakı, 2001

2. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, 2004, 472 s.

3. https://haydaraliyevcenter.w ordpress.com/heyder-eliyev/heydər-əliyev-və-ədəbiyyatimiz

UOT 81:001.12/18

**Heydər Əliyev və Azərbaycan dili**

*Aynur Nurəddin qızı Dadaşova,*
*Mingəçevir Dövlət Universiteti*

Heç şübhəsiz, millətin simasını səciyyələndirən amillərdən birincisi dildir. Azərbaycan dili də dünyanın ən zəngin milli dillərindən biridir. Əsrlər boyu Azərbaycan xalqı çoxsaylı işğallara məruz qalmışdır. Yadellilərin məqsədi xalqımızı, onun dilini tarix səhnəsindən çıxartmaq idi. Ancaq Azərbaycan xalqı tarix boyu mənfur düşmənlə amansız mübarizə apararaq varlığını qoruduğu kimi, doğma dilini də mühafizə edib saxlamışdır. Azərbaycanın dahi mütəfəkkirləri, qabaqcıl elm xadimləri dilimizin milli varlığını qorumağa çalışmış, bunun üçün həm nəzəri, həm də əməli işlər görmüş, xalqı düzgün istiqamətləndirmişlər.

Tarixi təcrübə göstərir ki, dilin inkişafında milli müstəqillik ideyaları və dövlətçilik ənənələrinin, xalqın tarixində şərəfli yer tutan siyasi xadimlərin, dövlət başçılarının müstəsna rolu vardır. Belə qüdrətli dövlət başçısı və siyasi xadimlər cərgəsində Azərbaycan Respublikasının Prezidenti Ulu öndər Heydər Əliyevin adı öz layiqli yerini tutur. O, 60-cı illərin sonu, 70-ci illərin əvvəllərindən öz zəngin təcrübəsi, yüksək intellekti, milli mədəniyyətimizə və mənəviyyatımıza dərindən bələd olması sayəsində ardıcıl milli dil siyasəti işləyib hazırlamış, bütün çətinliklərə sinə gərərək onu həyata keçirmiş, Azərbaycan dilinin dövlət dili olması, onun inkişafı və yüksəlişi uğrunda böyük işlər görmüş, səylə mübarizə aparmışdır.

Heydər Əliyevin ana dilinin inkişafı ilə əlaqədar fəaliyyətində əsas istiqamətlərdən biri də şəxsi nümunə olmasıdır. O, getdiyi hər yerdə öz doğma ana dilində çıxışlar edir, hər bir Azərbaycan vətəndaşının, hər bir azərbaycanlının öz ana dilini, dövlət dilini mükəmməl bilməli olduğunu, xalqın, millətin, insanın öz ana dilindən əziz heç bir şeyi olmadığını vurğulayırdı.

Ölkə rəhbəri Azərbaycan yazıçıları ilə olan görüşlərində də dil məsələsinin önəmini qeyd edir, elmi-pedaqoji sahələrdə ana dilinin inkişaf etdirilməsinə ayrıca qayğı göstərirdi. Bu qayğının nəticəsi yavaş-yavaş ölkənin ictimai, siyasi, elmi və mədəni həyatında özünü biruzə verirdi.

Dövrün reallığı Azərbaycan ziyalısından rus dilini yaxşı bilməyi tələb etsə də, bu öz ana dilini lazımsız bir şey kimi kənara atmağa əsas vermirdi. Heydər Əliyev respublikaya rəhbərlik etdiyi dövrdə məsələni məhz aşağıdakı şəkildə qoymuşdu: hər şeydən əvvəl, öz ana dilini bilməli, müxtəlif sferalarda onun inkişafına şərait yaradılmalı, onun tədrisi yaxşılaşdırılmalı, elmi qrammatikasının yaradılması sahəsində tədqiqatlar genişləndirilməlidir.

Dilin tədrisi məsələləri ilə məşğul olanlar yaxşı bilirlər ki, ana dilinin inkişafında, zənginləşməsində məktəbin, müəllimin xüsusi rolu vardır. Buna görə də Azərbaycan xalqının böyük şəxsiyyətləri, elm, mədəniyyət xadimləri məktəbə, müəllimə həmişə ayrıca diqqət yetirmiş, ana dilinin sosial mövqeyi möhkəm olsun, millətin övladları bu dilə ədəbi səviyyədə yiyələnə bilsin deyə mübarizə aparmışlar.

Ümummilli lider Heydər Əliyev də dilimizin inkişafında məktəbin, müəllimin rolunu həmişə yüksək qiymətləndirmişdir. Bu mövzuda olan çıxışlarından birində demişdir: “...Mən bu gün Azərbaycanın müəllim ordusuna hörmət və ehtiramımı bildirirəm və bəyan edirəm ki, cəmiyyətimizdə, Azərbaycan ziyalılarının içərisində müəllimlər xüsusi yer tuturlar, hörmətə layiqdirlər və xüsusi qayğı ilə əhatə olunmalıdırlar. Mən ümidvaram ki, müəllimlərimizin səyi nəticəsində bizim təhsil sistemi daha da təkmilləşəcək, bunların hamısı azad, müstəqil Azərbaycanın gələcəyinə xidmət edəcəkdir.” [2].

Azərbaycan məktəbinin önəmini vurğulayan ümummmili lider onun hansı ideoloji prinsiplər əsasında işləməli olduğuna da diqqət çəkirdi: “...Siz müstəqil Azərbaycanın məktəblərində təhsil alırsınız. Dövlət müstəqilliyinin xalqımıza bəxş etdiyi nemətlərdən biri də odur ki, biz artıq öz təhsil sistemimizi xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qururuq. Doğrudur, bu proses çox mürəkkəb prosesdir. Bu proses qısa bir müddətdə başa çata bilməyəcəkdir. Bu gün təhsil sahəsində çalışan bütün vətəndaşlara, müəllimlərə, təhsil müəssisələrinin rəhbərlərinə

müraciət edərək xahiş edirəm ki, onlar tezliklə təhsil sistemində işlərin müstəqil Azərbaycanın prinsipləri əsasında qurulmasına nail olsunlar" [2].

Anadilli məktəblərin mövcudluğu, Azərbaycan dilinin tədris dili kimi işlənməsi, yayılması, geniş fəaliyyət göstərməsi bu sahədə böyük uğurlara gətirib çıxarmışdır.

Azərbaycan dilinin dövlət dili statusuna yüksəlməsi yolunda Heydər Əliyevin başladığı milli mücadilənin tarixi bir qərinədən çox davam etmişdir. Milli tariximizə Heydər Əliyev epoxası kimi daxil olmuş 1969-2003-cü illərdə Azərbaycan dilinin hərtərəfli inkişafı yalnız rəsmi sənədlərdə deyil, sözün həqiqi mənasında, gündəlik həyatda, təcrübədə ümumişlək dilə, dövlət dilinə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə, dünya diplomatiyasına yol tapması, beynəlxalq aləmin çox mötəbər məclislərinin kürsülərindən eşidilməsi Ulu öndərin ana dilimizin inkişafına, onun sosial-siyasi və mədəni həyatda layiqli yer tutmasına göstərdiyi qayğı və diqqətin, son dərəcə dəqiq, düşünülmüş və uzaqgörən dil siyasətinin nəticəsində mümkün olmuşdur. Bu şərəfli tarixi yolun başlanğıcı hələ 1970-ci ildə BDU-nun 50 illik yubileyində o dövr üçün fövqəladə hadisə sayılan respublika rəhbərinin Azərbaycan dilində çıxışı ilə başlandı.

Bu tarixi çıxış ziyalılara, bütün xalqa respublika rəhbərinin Azərbaycan dilinə qayğı və ehtiramı haqda bir xəbərdarlıq idi ki, bu proses sonralar milli özünüdərkdə müstəsna rol oynadı. Az keçmədi ki, Azərbaycan dili nüfuzlu məclislərə, dövlət əhəmiyyətli tədbirlərə yol açdı. Heydər Əliyevin qayğısı sayəsində ali məktəblər üçün dördcildlik "Müasir Azərbaycan dili", "Azərbaycan dilinin dialektologiyasının əsasları" dərs vəsaitlərinə Respublika Dövlət mükafatları verildi, təhsil müəssisələrində ana dilinin tədrisinə ayrılan saatların miqdarı artırıldı.

Azərbaycan dili ölkəmizin müstəqilliyə qədəm qoyması ilə dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla azərbaycanlının milli birliyinin yaradılmasında və əlaqələrinin genişləndirilməsində müstəsna rol oynayaraq, soydaşlarımızın ünsiyyət silahına çevrildi. Mübaliğəsiz deyə bilərik ki, ana dilimizin dövlət dili kimi ölkənin siyasi, ictimai, iqtisadi, elmi və mədəni həyatının bütün sahələrində layiqli yerini tutması, onun dövlət statuslu dillər arasında olması, hərtərəfli inkişafı dövlət başçısı Heydər Əliyevin yorulmaq bilməyən fəaliyyəti və yürütdüyü müdrik, uzaqgörən dil siyasəti ilə bağlıdır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. Bakı: Nurlan, 2003
2. Xudiyev N. Heydər Əliyev və Azərbaycan dili. Bakı: Elm və təhsil, 2014

UOT 339.9

## Heydər Əliyev Azərbaycan milli iqtisadiyyatının inkişaf strategiyasının müəllifidir

*Aytən İlham qızı Nadirova,*
*Mingəçevir Dövlət Universiteti*

30 ilə yaxın müstəqillik tarixinə malik olan Azərbaycanın keçdiyi inkişaf yoluna diqqət yetirdikdə hazırkı inkişaf mərhələsinə heç də asan şəkildə nail olmadığını görürük. Müstəqilliyinin ilk illərində dərin böhran, xaos və tənəzzül yaşayan ölkəmiz hətta müstəqilliyini itirmək, dünya xəritəsindən silinmək təhlükəsi ilə üzləşmişdi. Belə çətin zamanda Ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıtdı. Onun düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan xaosdan, anarxiyadan, özbaşınalıqdan, iqtisadi tənəzzüldən xilas olaraq tərəqqi yoluna çıxdı.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf strategiyasının çox mühüm istiqamətlərindən birini dövrün tələblərinə uyğun səmərəli iqtisadi siyasət və çoxşaxəli

islahatlar təşkil edirdi. Həmin strateji kursun tərkib hissəsi kimi müstəqil Azərbaycanın iqtisadi inkişaf yolu islahatlar vasitəsilə bazar iqtisadiyyatına keçid olaraq müəyyənləşdirildi.

Heydər Əliyev iqtisadi sahədə dövlət siyasətindən bəhs edərkən qeyd etmişdi: "Mən Azərbaycanın iqtisadiyyatında dövlət siyasətini artıq müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara sərbəstlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılmasıdır. Bu, dövlət siyasətimizin əsas prinsipləridir."

Şübhəsiz ki, islahatlar Ümummilli liderin rəhbərliyi ilə həyata keçirilən strateji kursun mühüm istiqaməti kimi ölkədə mükəmməl hüquqi bazanın yaradılması sosialyönümlü liberal iqtisadiyyat quruculuğuna uğurlu transformasiyanı təmin etdi, respublikamızda özəl bölmənin inkişafına təkan oldu. Xüsusi olaraq vurğulamaq lazımdır ki, Ulu öndərin rəhbərliyi ilə hazırlanan və ümumxalq səsverməsi nəticəsində qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şəraitin yaradılması, sahibkarlığa təminat verilməsi, rəqabət mexanizminin formalaşması və inkişafı, həmçinin rəqabətin qorunması ilə bağlı müddəalar öz əksini tapdı ki, bu da özəl sektorun inkişafının hüquqi əsaslarının formalaşması baxımından olduqca əhəmiyyətli idi. Eyni zamanda, Heydər Əliyev bu sahədə şəffaflığın təmin edilməsi məqsədilə bir sıra Fərman və Sərəncamlar imzaladı. Beləliklə onların sırasında 1995-ci ildən milli iqtisadiyyatımızda bərpa, 1996-cı ildən isə artım dövrü başladı. 1996-cı il 17 iyun tarixli "İstehsalat, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə", 1999-cu il 7 yanvar tarixli "Dövlət nəzarət sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında" Fərmanları, 1997-ci il 24 iyun tarixli Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi proqramı (1997-2000-ci illər)" xüsusi olaraq vurğulanmalıdır. Ümummilli liderin 30 aprel 2001-ci il tarixli Fərmanı ilə İqtisadi İnkişaf Nazirliyinin yaradılmasının ölkəmizdə liberal iqtisadiyyatın bərqərar olmasında rolu əvəzsizdir. Heydər Əliyev tərəfindən təsdiqlənən "Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)" sahibkarlıq infrastrukturunun yaradılması, sahibkarlara dövlət maliyyə dəstəyi sisteminin formalaşdırılması, vergi yükünün azaldılması, onlara zəruri texniki yardım göstərilməsi və s.tədbirləri nəzərdə tuturdu. Bunlarla yanaşı, "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında", "Azərbaycan Respublikasının Prezidenti yanında Sahibkarlıq Şurasının yaradılması", "Sahibkarlara Kömək Milli Fondunun yaradılması" və "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" imzalanmış fərmanlar iş adamlarının hüquqlarının qorunması, bu sahənin inkişafı baxımından mühüm önəmə malik idi.

Bütövlükdə, 1995-2003-cü illər ərzində respublikamızda ümumi daxili məhsul 1,7 dəfə, dövlət büdcəsinin gəlirləri 3,9 dəfə, sənaye məhsulunun həcmi 23,3 faiz, kənd təsərrüfatı istehsalı 53,8 faiz, xarici ticarət dövriyyəsi 4 dəfə artdı. Qeyd olunan dövrdə iqtisadiyyata bütün maliyyə mənbələri hesabına 20 milyard dollar həcmində sərmayə yönəldildi.

Ümummilli liderin iqtisadiyyatın inkişafında neft amilinə yüksək dəyər verməsi uzaqgörən siyasətinin nəticəsi idi.

Ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurlu və səmərəli nəticələri ölkəmizin sosial-iqtisadi inkişafına təkan verən mühüm amil oldu. 1994-cü il sentyabrın 20-də Ümummilli lider müstəsna xidməti və səyləri sayəsində Bakıda dünyanın altı dövlətini təmsil edən 11 transmilli neft şirkətinin iştirakı ilə Xəzərin Azərbaycan sektorundakı neft ehtiyatları ilə zəngin olan "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənməsinə dair "Əsrin müqaviləsi"nin imzalanması sözün əsl mənasında, tarixi hadisə idi.

"Əsrin müqaviləsi" Azərbaycanın beynəlxalq iqtisadiyyata inteqrasiyasını sürətləndirdi, regional əhəmiyyətli, qlobal xarakterli yeni əməkdaşlıq platformalarının yaranmasını təmin etdi. "Əsrin müqaviləsi"nin işə düşməsi ilə Azərbaycanın yeni inkişaf erası başladı. 1997-ci ildə "Çıraq" yatağından neft hasilatına başlanıldı. Bundan iki il sonra Azərbaycan "Əsrin müqaviləsi" çərçivəsində neftin hasilatından gəlir əldə etməyə başladı. Belə ki, 1999-cu ilin dekabrında

Azərbaycanın "mənfəət nefti" ilə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarıldı."Əsrin müqaviləsi" həm də yeni transmilli enerji layihələrinin həyata keçirilməsində çox mühüm rola malikdir. 1994-cü ildən sonra 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 saziş imzalanması bu baxımdan xüsusi vurğulanmalıdır. Daha dəqiq desək, bu gün yeni kontraktlar imzalanır, Azərbaycan beynəlxalq əməkdaşlıq, enerji sahəsində böyük uğurlar əldə edir.

Dahi şəxsiyyətin müəllifi olduğu çoxşaxəli islahatlar strategiyasının əsas istiqamətlərindən biri torpaq islahatlarıdır.

Azərbaycanda MDB məkanında ilk dəfə geniş torpaq islahatı həyata keçirməklə müsbət və mütərəqqi nümunə yaratmış oldu. Ulu öndərin 10 yanvar 1997-ci il tarixdə imzaladığı "Aqrar islahatların həyata keçirilməsini təmin edən bəzi normativ-hüquqi aktların təsdiq edilməsi barədə" müvafiq Fərmanla respublikamızda geniş torpaq islahatları başlandı. Sənəddə nəzərdə tutulan tədbirlərin reallaşdırılması sayəsində respublikamızda mövcud olmuş 2032 təsərrüfat, yəni kolxoz və sovxozlar ləğv edilərək onların əkinəyararlı münbit torpaqları əhaliyə paylandı. İşğal olunmuş rayonlarımız istisna olmaqla ölkəmizdə torpaq payı almaq hüququ olan 870 min ailəyə torpaq payı verildi. Bu, 3 milyon 442 min 778 subyekt demək idi.

Bu islahatlar kontekstində bir məqamı xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan vətəndaşları heç bir əvəz ödəmədən torpaq mülkiyyətçilərinə çevrildilər. Bu, aqrar sektorun inkişafı baxımından çox böyük əhəmiyyətə malik idi. Bu islahatların səciyyəvi xüsusiyyətlərin biri bu idi ki, bütün vətəndaşlar harada yaşamalarından və kimliyindən asılı olmayaraq, yararlı torpaqlardan istifadə və icarə hüququ qazandılar. Daha bir əhəmiyyətli amil ondan ibarət idi ki, fermerlər torpaq vergisi istisna olmaqla, digər vergilərdən azad edildilər. Onların büdcəyə olan vergi borcları silindi. Bununla yanaşı, fermerlərə yanacağın güzəştli qiymətlərlə satışı, habelə fermer təsərrüfatları üçün kredit resurslarının ayrılması aqrar islahatların intensiv şəkildə davam etdirilməsinə əlverişli zəmin formalaşdırdı.

Bu gün müasir müstəqil Azərbaycan Ümummilli liderin ideyaları əsasında inkişaf edir, Heydər Əliyev siyasəti uğurla davam etdirilir. Son 16 ildən artıq dövrdə Heydər Əliyev siyasətini bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən səmərəli sosial-iqtisadi siyasət, dərin islahatlar strategiyası Azərbaycanın dayanıqlı inkişafını təmin edib, ölkəmizin qarşısında yeni perspektivlər açılır.

Qeyd olunan dövrdə ölkə iqtisadiyyatı 3,4 dəfə artıb ki, bu da dünyada rekord göstəricidir. Ölkəmizdə müasir infrastruktur yaradılıb, sosial-iqtisadi göstəricilər təkmil islahatlar əsasında daha da diqqətçəkən olub. İqtisadi tərəqqi maliyyə imkanlarının artması ilə müşaiyət olunur. Son 16 ildən artıq dövrdə ölkə iqtisadiyyatına 270 milyard dollara yaxın investisiya yatırılıb. Ölkəmizin valyuta ehtiyatları 52 milyard dollardan artıqdır.

İqtisadi tərəqqi güclü sosial siyasətlə tamamlanır. Belə ki, təkcə ötən ilin və cari ilin birinci rübünün sosial-iqtisadi göstəricilərinə diqqət yetirmək kifayətdir. Ötən il 4.2 milyon insanı əhatə edən iki sosial paket reallaşdırılıb ki, bu da Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin mərkəzində məhz ölkə vətəndaşlarının mənafeyi və rifahının dayandığını göstərir. Təqdirəlayiq haldır ki, pandemiya şəraitində də bu siyasət davam etdirilir. Ölkədə məşğulluğa və sosial rifaha dəstək məqsədilə fəal siyasət həyata keçirilir və bu istiqamətdə məqsədyönlü tədbirlər görülür. Prezident İlham Əliyevin 19 mart 2020-ci il tarixli Sərəncamının icrası ilə bağlı təsdiqlənmiş "Tədbirlər Planı"na müvafiq olaraq, məşğulluğa və sosial rifaha dəstək məqsədilə nəzərdə tutulan tədbirlər ardıcıl şəkildə həyata keçirilir. İş yerlərinin saxlanılması üzrə tədbirlər, koronavirus pandemiyasından zərər çəkmiş fərdi sahibkarlara maliyyə dəstəyi, sahibkarlara vergi güzəştləri, imtiyazlar və vergi tətilləri verilməsi yolu ilə onların vergi yükünün azaldılması, kredit vermənin stimullaşdırılması və ən əhəmiyyətlisi, əhaliyə birbaşa sosial dəstək göstərilməsi bu kontekstdə xüsusi vurğulanmalıdır.

30 ilə yaxın torpaqlarından qovulan, çətin şəraitdə yaşayan bu torpaqların sakinləri üçün əlverişli şərait yaradlılacaq. Ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin icrasına başlanılıb. Ümumiyyətlə, Azərbaycanın işğaldan azad edilən ərazilərdə bərpa planları kifayət qədər genişdir.

Vətən müharibəsində qazanılan şanlı qələbə sayəsində geri qaytarılan ərazilərin tezliklə bərpa edilməsi üzrə işlərin həyata keçirilməsi, müvafiq infrastrukturların yaradılması, həmin regionun Azərbaycan iqtisadiyyatına inteqrasiyasının təmin edilməsi üçün bu ilin dövlət büdcəsində 2,2 milyard manat vəsait nəzərdə tutulub. Müşavirədə də bildirildiyi kimi, ordunun təchizatı, respublikamızın sərhədlərinin bərpa edilməsi üzrə işlərin maliyyələşdirilməsi də nəzərə alınmaqla, ümumilikdə bu tədbirlərə 4,6 milyard manat maliyyə təminatı ayrılıb. İşğaldan azad edilən ərazilərin bərpası işləri isə müəyyən ardıcıllıqla həyata keçiriləcək.

2021-ci ildə hökumətin dövlət büdcəsində nəzərdə tutulan bütün sosial öhdəliklərini yerinə yetirəcəyi gözlənilir. Əsas hədəf ölkənin müdafiə və təhlükəsizlik qabiliyyətinin daha da artırılması, işğaldan azad olunmuş ərazilərin bərpası, məşgulluğun, iqtisadi aktivliyin, iqtisadi artımın və sosial rifahın təmin edilməsidir. 2021-ci ildə dövlət büdcəsi xərclərinin ÜDM-də payı 37,7 faiz proqnozlaşdırılır. 2021-ci ildə də neftin qiyməti 40 dollardan yüksək olacaq. Dünya Bankı bu il neft qiymətlərinin bir barel üçün 44 dollar ətrafında olacağını proqnozlaşdırır. Hazırda Azərbaycan nefti 55 dollardır. Bu sahədə əsas risklər hazırda davam edən pandemiya, sərt karantin tədbirləri və ölkələr arasında səfərlərin kəskin azalmasıdır. Bununla belə, vaksinlərlə bağlı yayılan müsbət xəbərlər həmin risklərin təsirini bir qədər yumşaldır. İlin ikinci yarısında da qiymət 50 dollardan da yüksək ola bilər. Bütün bunlar isə dövlət büdcəsində neftin qiymətini 40 dollar götürən Azərbaycan üçün nikbin olmağa, dövlət büdcəsinin gəlir və xərclərinin təmin olunacağını, nəzərdə tutulan sosial ödəmələrin vaxtında həyata keçiriləcəyini söyləməyə əsas verir.

Beləliklə, bu ümumiləşdirməni apara bilərik ki, Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyası əsasında möhkəm bazaya malik olan Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha böyük uğurlara imza atır. Pandemiyadan sonrakı dövr üçün nəzərdə tutulan Tədbirlər Planı, müəyyənləşdirilən yeni iqtisadi inkişaf modeli 2020-ci ilində dərin islahatlar ili kimi tarixə yazılacağına əsas verir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Alışanova A. (elmi red. Ş.M.Muradov) Bakı: Çinar-Çap, 2006, 214 s.
2. Əl-Fəlah A.A. (elmi red. A.Paşazadə) Bakı: Qismət, 2007, 108 s.
3. Heydər Əliyev və mədəniyyət: Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar: 3 cilddə / layihənin rəhbəri və ön sözün müəl. Ə.Qarayev; tərt. ed. S.Məmmədəliyeva, T.Əhmədov. Bakı: Nurlar, 2008
4. Xələfov A. Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla davam edir. Bakı: [M.F.Axundov adına Az.Milli Kitabxanası], 2009, 185 s.
5. Xələfov A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. Bakı: Azərnəşr, 2006, 312 s

UOT 32(092)

## Heydər Əliyevin irsi – həm Qarabağ zəfərinin bünövrəsi, həm də gələcək nəsillərin firavan həyatının zəminidir

*Arifə Carı qızı Nəsibova,*
*Mingəçevir Dövlət Universiteti*

Xalqların dünyada nüfuzunu artıran yalnız onların maddi-mədəni sərvətləri deyil, həm də mütərəqqi ideyaları ilə tarixi proseslərə mühüm təsir göstərən şəxsiyyətləridir. Onların seçdiyi yol milli inkişaf strategiyasının əsasında dayanır və təmsil etdikləri ölkələrin dünya birliyində özünə layiqli yer tutmasını təmin edir. Belə şəxsiyyətlərdən biri müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursu layiqincə davam etdirən Prezident İlham Əliyevdir.

Onun məqsədyönlü və qətiyyətli siyasəti nəticəsində 17 il ərzində Azərbaycan dövlətinin bütün sahələrində əldə etdiyi uğurlar “Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”, - deyən Heydər Əliyev dühasının müdrikliyini və uzaqgörənliyini sübut edir. Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik fəaliyyətini təhlil etdikdə onun güclü siyasi iradəyə və idarəetmə bacarığına malik, xalqına və dövlətinə bağlı müdrik lider olduğunu görürük. Bunun nəticəsidir ki, Azərbaycan davamlı inkişaf və modernləşmə yolu ilə irəliləyən, dünya siyasətində öz yeri və rolu olan dövlət kimi tanınır, xarici ölkələr ona hörmət və ehtiramla yanaşırlar.

2020-ci il sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı nəticəsində başlayan müharibədə xalqımız Prezident İlham Əliyevin müzəffər komandan kimi hərbi sərkərdəlik keyfiyyətlərinin, prinsipial və qətiyyətli mövqeyinin, ən ekstremal şəraitdə belə uğurlu diplomatiya yürütdüyünün bir daha şahidi oldu. 44 gün davam edən Vətən müharibəsində Azərbaycanın işğal olunmuş əraziləri cənab İlham Əliyevin Ali Baş Komandanlığı ilə erməni qəsbkarlarından azad edildi. Xalqımızın tarixinin parlaq və unudulmaz səhifələrindən birini təşkil edən bu şanlı qələbənin əsasında həm Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, həm də ondan irəli gələrək Azərbaycanın sosial-iqtisadi, siyasi, mədəni, hərbi sahələrdə uğurları, xarici siyasətdə nailiyyətləri dayanır.

Bir çox əlamətdar və ağrılı-acılı hadisələrlə tarixə qovuşan 2020-ci ilin son aylarında Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşən Azərbaycan xalqı yerə-göyə sığmayan sevinc hissi və qürurla Qarabag zəfərini qeyd etdi. Bu böyük qələbəyə aparan keşməkeşli yol 30 il sürdü. 30 il torpaqlarımızın Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzü nəticəsində düşmən tapdağı altında qalması Azərbaycan xalqının ürəyində bir yara oldu. 30 il Qarabağ həsrətilə alışıb-yanan ürəklərin fəryadı, 30 il Qarabağa qayıdacağı ümidi ilə yaşayan gözü yaşlı insanların duaları, 30 il bu qələbənin gerçəkləşməsi uğrunda dövlət başçılarımızın apardıqları ədalətli siyasi mübarizə, diplomatik danışıqlar və gərgin ordu quruculuğu, nəhayət ki, bu gözəl Zəfər gününü gətirdi! Ümimmili lider Heydər Əliyev bu günün gələcəyini bilirdi və vaxtılə uzaqgörənliklə söylədikləri bu gün artlq Azərbaycanın reallığıdır: “Biz Qarabağ məsələsini həll edəcəyik. Vaxt lazımdır. Heç kim torpaqlarını Azərbaycandan ala bilməz. İşğal olunmuş torpaqlarımız mütləq geri qaytarılacaqdır. Nəyin bahasına olursa olsun” [1]. Ata vəsiyyətini yerinə yetirən Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşanı azad etdi, Qarabağı işğaldan azad etdi. Bu həqiqətən də Azərbaycan tarixinə qızıl hərflərlərlə yazılan Böyük Zəfərdir!

1923 ildə Azərbaycanın tərkibində yaranan Dağlıq Qarabağ Muxtar vilayətinin qısa, lakin qanlı-qadalı tarixçəsi “xüsusi status”a malik olmasından ibarətdir. Ümummilli lider Heydər Əliyevin 14 iyul 1969-cu ildə Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə seçilməsindən sonra sistemli və məqsədyönlü tədbirləri nəticəsində vəziyyət dəyişdi. 1970-1985-ci illərdə DQMV-də ümumi dəyəri 470 milyon manat olan əsas fondlar, 15 sənaye müəssisəsi və başqa istehsal sahələri ıstifadəyə verildi [2, s.58]. Məsələn, Ağdama qədər uzanmış dəmir yolunun qalan 11 km-i nədənsə çəkilmirdi. 1979-cu ildə “Ağdam–Xankəndi” dəmiryolu çəkildi və istifadəyə verildi. Nəticədə, Qarabağın dağlıq və aran hissələrinin, respublikanın digər rayonları ilə daha sıx təsərrüfat əlaqələri yaradıldı. 1973-cü ildə Xankəndidə Azərbaycan Pedaqoji İnstitutunun filialı əsasında Pedaqoji İnstitut açıldı, amma bir şərtlə ki, burada erməni və rus fakültələri ilə bərabər azərbaycan fakültəsi də fəaliyyət göstərsin. Bu tədbirlər, sözsüz ki, Heydər Əliyevin erməni separatçılarını açıq çıxışlardan çəkindirmək siyasəti və Azərbaycan xalqı qarşısında böyük tarixi xidmətləri idi, çünki Dağlıq Qarabağın Azərbaycana bağlılığını təmin etdi.

Sovet rejiminin dağılması ərəfəsində ermənilərin separatizm meylləri geniş vüsət almışdır. Onlar Qarabağ məsələsinin yenidən qaldırılmasına əvvəlcədən hazırlaşmış və bu hazırlıq işlərinin hədəfində Heydər Əliyev amili vardı, çünki erməni millətçiləri yaxşı bilirdilər ki, Heydər Əliyevin varlığı, onun sovet rəhbərliyində böyük nüfuza malik olması onların mənfur planlarını, həmişə olduğu kimi, darmadağın edəcək, ona görə də Ermənistandan və hətta Azərbaycanın özündən kütləvi şəkildə anonim məktublar Moskvaya göndərilir, qəsdən Heydər

Əliyevə qarşı şər-böhtan kampaniyası aparılırdı. Elə bu səbəbdən Heydər Əliyevin 1987 ildə istefa verməsindən cəmi 20 gün sonra akademik A.Aqanbeqyan “Yumanite” qəzetinə verdiyi müsahibəsində bildirdi ki, Dağlıq Qarabağ Azərbaycandan ayrılıb, Ermənistana birləşdirilməlidir və bu məsələ M.Qorbacovla razılaşdırılmışdır.

Ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı ərəfəsində cəbhədə hərbi güc balansı artıq Ermənistanın xeyrinə idi, həmçinin informasiya mübarizəsində ermənilər üstün vəziyyəti ələ keçirmişdilər. Azərbaycanın paytaxtında hakimiyyət uğrunda şiddətli mübarizə gedirdi. Qarabağ hadisələrinin dalğasında Ayaz Mütəllibov istefa verir, ardınca Şuşa və Laçının təslim olması bahasına cəbhədən geri çağırılan tank və könüllü dəstələrin köməyi ilə Elçibəyin rəhbərlik etdiyi Xalq Cəbhəsi hakimiyyətə gəlir. Respublikanın şimalında və cənubunda separatçılar baş qaldıraraq, Azərbaycanı parçalayıb, “suveren Ləzgistan” və “muxtar Talış-Muğan Respublikası” yaratmağa çalışırdılar. O vaxtkı Azərbaycanın rəhbərliyi təcrid olunmuş vəziyyətdə fəaliyyət göztərirdi, çünki ölkəni diletant səviyyəsində idarə edərək, MDB-nin əksər respublikaları, həmçinin yaxın qonşuları – Rusiya və İranla münasibətləri korlamışdılar.

Azərbaycan xalqının sadiq oğlu Heydər Əliyev 1993-cü ilin iyun ayında xalqın çağırışı ilə Azərbaycanda hakimiyyətə qayıtdıqdan dərhal sonra vəziyyəti düzgün qiymətləndirərək, müharibənin davam etdirilməsinin uğurlu nəticələr verməyəcəyi qənaətinə gəlir və ilk addım olaraq atəşkəs əldə edib, mənasız axıdılan qanın qarşısını alır. Bundan sonra Dağlıq Qarabağ reallığını dünyaya çatdırmaq, dünyanın aparıcı siyasi liderlərini danışıqlar prosesinə cəlb etmək, beynəlxalq ictimai rəydə dönüş yaratmaq və ilk mərhələdə informasiya müharibəsini qazanmaq uğrunda uzun və gərgin siyasi mübarizə yolu başlanır. [1]

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin danışıqlar yolu ilə nizama salınması Ulu öndər Heydər Əliyevin 1993-cü ildən başlayaraq, xarici siyasət fəaliyyətində başlıca yer tutmuşdur. Dahi Öndər Heydər Əliyevin münaqişənin aradan qaldırılmasına nail olmaq üçün ən yüksək səviyyədə ATƏT-in Zirvə toplantılarında, Minsk Qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, beynəlxalq forumlarda, həmçinin dünyada siyasi gücə malik olan dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli, eləcə də, çoxtərəfli görüşlərdə bu münaqişənin mahiyyətiyinə, reallığına dünya birliyinin diqqətini cəlb enməyə bacarmışdı. Heydər Əliyev bütün gərüşlərində və çıxışlarında, siyasi fəaliyyətində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə çalışırdı.

Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın düşdüyü ağır vəziyyət, yerlərindən-yuvalarından qovulan bir millyona yaxın insanların ağır şəraitdə çadırlarda yaşadıqları və öz evlərinə qayıtmaq arzusunda olduqları haqqında dünya ictimaiyyətinə ətraflı məlumat verən milli liderimiz özünün qətiyyətli və prinsipial mövqeyini hər bir görüşdə, hər bir çıxışında dünya ictimaiyyətinə tarixi faktlarla əsaslandıraraq çatdırırdı.

Rusiyanın ciddi dəstəyi ilə hərbi əməliyyatlar aparan ermənilərin maksimum məqsədi Dağlıq Qarabağ ətrafında təhlükəsiz bufer zonası yaratmaq idi. Bundan əlavə, ermənilərin daha ciddi niyyətlərindən biri də Yevlaxı ələ keçirmək, Murovdan enərək, Gəncəyə girmək və bu hissəni Bakıdan ayırmaq idi. Çox təhlükəli bir vəziyyət yaranmışdı. Bu məqamda Rusiya vasitəçilik təklifini irəli sürdü və Azərbaycan Rusiyanın təklif etdiyi atəşkəsə razılıq verdi. Atəşkəs sənədinin Bişkekdə imzalanması təklif edildi. Rusiyanın Minsk Qrupundakı həmsədri Vladimir Kazimirov Bakıya gəlir, görüş zamanı Heydər Əliyevin təkidli tələbi ilə atəşkəs haqqında sənəddən qondarma “DQR” sözü çıxarılır və sənədə “erməni və azərbaycanlı icmaları” ifadəsi daxil edilir. V.Kazimirov dərhal bu tələblə razılaşır və hətta Azərbaycan tərəfinin düzəliş etdiyi sənədin hüquqi qüvvəsinin olduğuna dair imza da atır. Bundan sonra sənəd 3 nüsxədə – erməni, rus və azərbaycan dillərində hazırlanır.

Beləliklə, Birinci Qarabağ müharibəsində atəşkəsi nəzərdə tutan sənəd olan Bişkek protokolu 1994-cü ilin mayın 12-də imzalanır. Sənədə Ermənistan və Azərbaycanın parlament sədrləri, həmçinin Dağlıq Qarabağın erməni və azərbaycanlı icmalarının rəhbərləri imza atıb. Azərbaycan tərəfi sənədə iki əlavə ilə imza atmışdı. Bişkek Protokolunun 5-ci abzasında “tutulmuş ərazilər” sözü “işğal olunmuş ərazilər”lə əvəzlənmiş və atəşkəsdən sonra cəbhə

xəttində yerləşdiriləcək müşahidəçilərin "beynəlxalq müşahidəçilər missiyası" olması Azərbaycan tərəfinin təklifi ilə qeyd edilmişdi. Tarixi faktlar və sənədlər sübut edir ki, atəşkəsə nail olunduqdan sonra 1995-1996-cı ilin sonlarına qədər Ermənistanın öz işğalçı siyasətindən əl çəkmək istəməməsi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ məsələsinin həlli məqsədi ilə Qərb və ATƏT-in, həmçinin Rusiyanın vasitəçiliyi ilə aparılan danışıqlar prosesində konkret nəticənin alınmasında ən böyük və yeganə maneə olmuşdur. [2]

Danışıqlar prosesində Heydər Əliyevi ən çox düşündürən məsələ bu olmuşdur ki, Qərb dünyasının aparıcı dövlətləri və beynəlxalq təşkilatlar Ermənistanı təcavüzkar dövlət saymır. Döğrüdür, Azərbaycanla daima həmrəy olan qardaş Türkiyə Respublikası hər bir zaman və hər yerdə Ermənistanın təcəvüzkar siyəsəti haqqında bəyan edirdi. Bundan savayı, İslam Konfransı Təşkilatı Azərbaycan Respublikasına siyasi dəstəyini göstərərək, Ermənistanın Azərbaycan torpaqlarına təcavüz etməsi haqqında qətnamə qəbul etmişdir. Lakin Qərb dünyası ölkələrində vəziyyət başqa idi. Baxmayaraq ki, Ermənistanın təcavüzünə məruz qalan ölkə Azərbaycandır, Qərbin aparıcı ölkələrinin, əfsuslar olsunki, ən çox Fransanın, parlamentlərində Ermənistana doğma münasibət göstərilir, hətta ermənilərin ortaya atdıqları qondarma "soyqırımı" məsələsinə baxılıb qəbul edilməsinə də səylər göstərilirdi. Bu siyasətin hələ də davam etdirilməsinin bariz nümunəsi kimi 4 dekabr 2020-ci il tarixində Fransa Milli Assambleyasının reallıqla heç bir əlaqəsi olmayan "Erməni xalqının və Avropa və Şərqin xristian icmalarının qorunması" adlı qətnaməsinin qəbul edilməsini göstərmək olar.

Ermənistan–Azərbaycan–Dağlıq Qarabağ münaqişəsinin artıq həll olunmasına baxmayaraq, Fransada ermənipərəst qüvvələr hələ də bu münaqişənin dinlərarası və sivilizasiyalararası toqquşma kimi qələmə vermək cəhdlərini davam etdirirlər və Azərbaycanın müxtəlif etnik mənsubiyyətə və dini etiqadlara malik olan əhalisinin sülh içində yaşadığı çox millətli və çox konfessiyalı dövlət olması reallığını görməzdən gəlirlər.

Beləliklə, Azərbaycan xalqının Ümummilli lideri özünün zəngin dövlətçilik təcrübəsinə əsaslanaraq, 2003-cü ilədək davam edən gərgin siyasi fəaliyyəti nəticəsində Azərbaycan-Ermənistan Dağlıq Qarabağ probleminin tənzimlənməsi üçün beynəlxalq və milli hüquqi baza yaratdı, və ən əsası, Azərbaycana əbədi tarixi zəfər qazandıran ordumuzun quruculuğu ilə bağlı islahatlar unudulmaz Heydər Əliyevin adı ilə bağlıdır. Ordu quruculuğunun ən müxtəlif sahələri ilə bağlı zəruri qanunların qəbul edilməsi nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırılmış, ordunun maddi-texniki təminatı, maliyyə-təsərrüfat fəaliyyəti nizama salınmış, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı və döyüş ruhu yüksəldilmişdir. [3]

Ulu öndər Heydər Əliyevin əvəzsiz xidmətləri ona minnətdar olan xalqın tarixində və hafizəsində əbədiyyən yaşayacaq. Parlaq istedada, nəcib insani keyfiyyətlərə malik böyük siyasi və dövlət xadimi kimi Heydər Əliyevin əziz xatirəsi xalqımızın dilində canlı bir əfsanədir. Zəngin dövlətçilik təcrübasinə malik olan Heydər Əliyevin Azərbaycanda 35 illik hakimiyyəti dövründə Azərbaycan və ümumilikdə, Qafqaz xalqlarının xoşbəxt və firavan yaşamaları uğrunda həyata keçirtdiyi tarixi xidmətlər əvəzedilməzdir. Dünya siyasətində tanınmış, parlaq siyasi lider olan Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda qüdrətli Silahlı Qüvvələrin yaradılması, cəbhədə atəşkəsin əldə edilməsi, iqtisadiyyatın canlandırılması və Qafqazın qeosiyasi xəritəsini dəyişən qlobal iqtisadi layihələrin reallaşması kimi möhtəşəm işləri müasir Azərbaycan tarixinin ən şanlı və qürurverici səhifələridir.

2003-cü ildə Ulu öndərin bütün ömrü boyu fədakarlıqla xidmət etdiyi idarəçilik məktəbinin ideyalarını, yolunu davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın müasir inkişaf dövrü başlayır və bizim ölkəmiz artıq iqtisadiyyatın, təhsilin, mədəniyyətin sürətlə inkişaf etdiyi bir ölkəyə çevrilir. Böyük öndər Heydər Əliyev Azərbaycan xalqına müraciət edərək demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə ümidlər bəsləyirəm".[5,s.456]

Azərbaycan tarixində əbədi rəhbər kimi qalan Heydər Əliyevin ən böyük arzusu tarixi torpaqlarımızın işğaldan azad edilməsi və doğma Azərbaycanın ərazi bütövlüyünün bərpası idi. Bütün azərbaycan millətinin atası olan Heydər Əliyevin vəsiyyətini onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə igid Azərbaycan Ordusu yerinə yetirdi – 44 günlük Qarabağ müharibəsində düşməni torpaqlarımızdan qovdu və üçrəngli bayrağımız yenə də doğma yurdumuzda, Qarabağın döyünən ürəyi – Şuşada qürurla dalğalandırıldı.

Ümummilli lider Heydər Əliyevin təyin edib həyata keçirtdiyi müdrik, uzaqgörən və çevik daxili və xarici siyasətini özünün siyasi kursu elan etmiş İlham Əliyevin mərdi-mərdanə və böyük cəsarətlə məqsədyönlü addımlar ataraq qondarma Dağlıq Qarabağ probleminin ədalətli həllininə nail oldu – Ali Baş Komandanın əmri ilə Azərbaycan Silahlı Qüvvələri işğal olunmuş və Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağı silah gücünə azad etdi. Beləliklə, Azərbaycan xalqının təbii və müqəddəs hüququ təmin edilərək, Qafqaz xalqları tarixində böyük dönüş nöqtəsi olan tarixi hadisə – Azərbaycan torpaqlarının işğaldan azad edilməsi və dövlət sərhədlərinin bərpa olunması baş verdi.

"Dəmir yumruq"la başı əzilən düşmən 10 noyabr 2020-ci il tarixində "Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş Naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı"nı – faktiki olaraq, kapitulyasiya aktını imzalamağa məcbur edildi və ərazi bütövlüyümüz təmin edildi. Beləliklə, Ali Baş Komandana inanan və güvənən cəsur Azərbaycan əsgərləri canları bahasına 30 illik işğala son verdi.

44 günlük İkinci Qarabağ Müharibəsində Böyük Qələbə münasibətilə Bakıda 10 dekabr 2020-ci il tarixində keçirilən möhtəşəm Zəfər Paradı Ümummilli lider Heydər Əliyev siyasi irsinin layiqli varisi, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin təntənəsi oldu.

## İstifadə edilmiş ədəbiyyat

1. Hüseynova İ. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı, 2008, 670 s.
2. Xalqımızın Ümummilli lideri Heydər Əliyevin şərəfli ömür yolu gələcək nəsillər üçün örnəkdir. https://azertag.az/xeber/Xalqimizin_umummilli_lideri_Heyder_Aliyevin_serefli_omur_yolu_gelecek_nesiller_uchun_ornekdir-1664821
3. Бишкекский протокол. http://www.hrono.info/dokum/199_dok/19940505bish.ph
4. 1994-1996-cı illərdə Ermənistan–Azərbaycan–Dağlıq Qarabağ münaqişəsinin həll olunması istiqamətində atılan addımlar və ATƏT üzvü olan ölkələrin dövlət və hökümət başçılarının Lissabon Zirvə görüşü (2-9 dekabr 1996-cı il). https://lib.aliyevheritage.org/az/5718479.html

UOT 371

## Heydər Əliyev Azərbaycan dövlətinin milli təhsil yaradıcılığının banisi kimi

*Svetlana Arif qızı Nəsibli,*
*Mingəçevir Dövlət Universiteti*

"Təhsil millətin gələcəyidir" fikrini qeyd edən Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanda bütün sahələrdə, o cümlədən təhsil sahəsində inkişafa diqqət və qayğı ilə yanaşmışdır. Ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrdə ölkəmizin təhsil səviyyəsinin yüksəldilməsi, gənc kadrların xarici ölkələrdə təhsil alması,

məktəblərin, müasirtipli yeni ali məktəblərin, müasir dövrün tələblərinə cavab verən ixtisasların, kadrların artırılması bu sahədə böyük və əhəmiyyətli tədbirlərin həyata keçirilməsinə böyük töhfə olmuşdur.

Ulu öndər Heydər Əliyev 12 fevral 1995-ci ildə demişdir: “Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam. Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun, kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir” [3, s.5].

Müasir Azərbaycan təhsili milli və ümumbəşəri dəyərlər, demokratik, dünyəvi prinsiplər əsasında inkişaf edərək bugünkü səviyyəyə gəlib çatmışdır. Azərbaycan Dövlət Təhsil siyasətinin əsas məqsədi, prioritet istiqaməti milli təhsilimizin hərtərəfli inkişafını və dünya ölkələri sırasında qabaqcıl mövqedə olmasını şərtləndirən amillər yaratmaqdır. Məhz milli təhsil siyasətinin yaradılması və inkişaf etməsinin banisi Heydər Əliyev şəxsiyyəti sayılmalıdır. Təbii haldır ki, qədim və zəngin ənənəyə malik olan Azərbaycan təhsili bugünkü inkişaf tempinə birdən-birə gəlib çatmamışdır. Bu uğurlu siyasətin, təhsil islahatlarının həyata keçirilməsi, müasir dövrün təhsil potensialının daha da gücləndirilməsi Ulu öndər Heydər Əliyev və onun layiqli davamçısı cənab İlham Əliyevin adı ilə bağlıdır.

XX əsrin 70-ci illərinin əvvəlindən Heydər Əliyev Azərbaycan dövlətinin memarı, milli təhsil yaradıcılığının banisi kimi milli təhsilimizi ən yüksək zirvələrə yüksəltmək missiyasını öz üzərinə götürmüş və bu işin öhdəsindən layiqli və peşəkarcasına gəlməyi bacarmışdır. XX əsrin 70-80-ci illərində dövlət təhsil siyasətinin, məzmununun müasirləşdirilməsi, əhalinin təhsilalma imkanlarının yaradılması və genişləndirilməsi, şagirdlərin pulsuz dərsliklərlə təmin olunması, tələbələrin təqaüdünün artırılması, məktəblərin maddi-texniki bazasının gücləndirilməsi, kadr hazırlığının yaxşılaşdırılması Ulu öndərimizin milli təhsilin inkişafı naminə uğurlu başlanğıcın, ictimai-siyasi fəaliyyətin bünövrəsidir. Heydər Əliyev hər zaman təhsilimizə həssaslıqla yanaşmış, milli təhsilimizin dünya təhsil standartları səviyyəsinə qalxmasına şərait yaratmışdır.

Azərbaycan Respublikasında bir çox sahələrə, fəaliyyət sferalarına olduğu kimi təhsil, elm sisteminə də xüsusi diqqət və qayğı göstərilir. Hər il təhsilin, tərbiyənin məzmununun milli və bəşəri dəyərlər əsasında yeniləşdirilməsi, yeni proqram, dərslik və dərs vəsaitlərinin, elektron tədris materiallarının yaradılması istiqamətində təqdirəlayiq işlər görülməkdədir. Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyası, bazar iqtisadiyyatına uyğun yeni ixtisasların yaradılması və bu istiqamətdə ali məktəblərdə kadr potensialının gücləndirilməsi, təhsil sahəsində milli ənənələrlə beynəlxalq təcrübənin innovativ şəkildə əlaqələndirilməsi dövlətimizin qarşıya qoyduğu prioritet məqsədlərdən sayılır.

Elmin inkişafı təhsilin inkişafına bilavasitə təsir göstərir. Bu baxımdan qabaqcıl təcrübənin öyrənilməsi və təhsilin inkişaf etdirilməsi dövrün zəruri tələblərindən biridir. Bu baxımdan Heydər Əliyevin “Cəmiyyətdə hər şey məktəbdən, təhsildən başlayır” kəlamı Azərbaycan təhsilinin inkişaf yolunun daha da ətraflı öyrənilməsini şərtləndirən proqram sayıla bilər.

“Ana dili xalqın milli sərvətidir,” – deyə qeyd edən Heydər Əliyev Azərbaycan dilinin qorunması və inkişafına xüsusi diqqətlə yanaşmışdır. Hamımıza aydındır ki, dövlət dili sahəsindəki uğurlu fəaliyyətinə Heydər Əliyev Azərbaycanda rəhbərliyə gəldiyi ilk günlərdən başlamış, bu istiqamətdə bir neçə fərman imzalamışdır. Ulu öndərimiz Heydər Əliyevin “Dövlət dilinin tətbiqinin təkmilləşdirilməsi haqqında” 18 iyun 2001-ci il tarixli və “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” 9 avqust 2001-ci il tarixli Fərmanlarının ümumtəhsil məktəblərində ana dilimizin təbliği, öyrənilməsi və tətbiqi işinin təkmilləşdirilməsi sahəsində, şagirdlərin vətənpərvərlik tərbiyəsində, milli şüurun formalaşmasında müstəsna rolu olmuş və bu gün də olmaqdadır [2, s.23].

Azərbaycan ədəbi və xalq danışıq dilinin qaydalarına dərindən bələd olan, qrammatik imkanlardan böyük ustalıqla səmərəli istifadə edən Heydər Əliyev yüksək səviyyəli yığıncaqlarda, həmçinin hamımıza məlum olan BDU-nun 50 illik yubileyinə həsr olunmuş toplantıda, dövlət səviyyəli təşkil olunan digər müşavirələrdə ana dilində çıxışlar edərək, özünə böyük hörmət və məhəbbət hissi qazanmaqla yanaşı Azərbaycan dilinə, onun zənginliyinə, ifadə gözəlliyinə də əvəzsiz və vacib hörmət, məhəbbət, maraq yaratmışdır. Azərbaycan dili ilə bağlı söhbətlərində nitq

mədəniyyəti məsələlərinə də diqqət edən dahi şəxsiyyətin nitqində məntiq, rabitə, xüsusi ahəng vardı. O, çıxışlarında heç bir qeydə baxmadan fikrini ətraflı, dəqiq, sübutlar əsasında dinləyici kütləsinə çatdırardı. İti yaddaş, güclü və çevik hafizəyə, təfəkkürə malik olan H.Əliyevə dinləyicilər böyük həvəs və maraqla qulaq asar, onun fikirlərini asan şəkildə anlayar və qəbul edərdilər.

İndi isə Azərbaycan Milli Elmlər Akademiyası Dilçilik İnstitutunun sabiq direktoru, AMEA-nın müxbir üzvü Ağamusa Axundov və Heydər Əliyev arasında nitq mədəniyyəti məsələsindən bəhs edən bir məlumatı nəzərinizə çatdırmaq istərdik.

Ağamusa Axundov H.Əliyev haqqında xatirələrini danışarkən qeyd edirdi: “Bir dəfə Ulu öndərimiz məni və institutun bir neçə əməkdaşını yanına çağırtmışdı. O, söhbətə başlamazdan əvvəl üzünü mənə tərəf tutaraq soruşdu: “Nə işlə məşğul olursunuz?” Mən Azərbaycan dilinin ayrı-ayrı sahələri üzrə tədqiqatların aparılması, kitabların yazılması, müxtəlif məzmunlu lüğətlərin tərtib olunması və s. məsələlər barədə məlumat verdim. Cavabımdan razı qaldı və dedi: “Bunlar öz yerində, bəs nitq mədəniyyəti ilə bağlı nələr etmişsiniz? Siz bu sahəyə daha çox fikir verməlisiniz ki, xalq öz dilində sərbəst danışa bilsin” [1].

Ümummilli liderimiz “cəmiyyətin memarı” adını daşıyan müəllimlərimizi, onların əməyini daim yüksək qiymətləndirmişdir. Dahi şəxsiyyət çıxışlarında öz müəllimlərini minnətdarlıqla xatırlayıb, onlardan, onların əməyindən böyük fəxrlə bəhs edib. “Mən yer üzündə müəllimdən yüksək ad tanımıram” ifadəsini böyük şövqlə səsləndirən Ulu öndər müəllimlərin cəmiyyətdəki mövqeyini, zəhmətini və rifah halını yaxşılaşdırmaq üçün uğurlu işlərə imza atmışdır.

Məlumdur ki, bir milləti, dövləti məhv etmək üçün onun elmini, təhsilini yox etmək bəs edər. Məhz bu faciənin baş verməməsi məqsədilə Azərbaycana rəhbərliyi illərində H.Əliyev xalqını, xalqının təhsilini məhv olmaqdan xilas etməyə qadir oldu. Onu da qeyd etməliyik ki, təhsil sahəsində son dövrlər həyata keçirilən yeni islahatlar dahi şəxsiyyətin təhsil strategiyasının fundamental konsepsiyası əsasında qurulmaqdadır. Bunu xüsusi olaraq, nəzərə çatdırmalıyıq ki, islahatların keçirilməsi təhsil siyasətinin mühüm tərkib hissələrindəndir. H.Əliyev siyasi kursunu uğurla davam etdirən cənab İlham Əliyev Azərbaycanda təhsil sisteminin daha da inkişaf etdirilməsi üçün bir sıra Sərəncamlar imzalamışdır. Bunlardan birinə diqqət yetirməyi məqsədəuyğun hesab edirik.

Ölkə rəhbərinin “Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramının (2005-2007-ci illər) təsdiq edilməsi haqqında” 21 avqust 2004-cü il tarixində imzaladığı Sərəncam məhz bu günümüz, bugünkü təhsil sistemi üçün vacib olan informasiya texnologiyalarının müasir tələblərə uyğun istifadəsi məqsədilə strateji əhəmiyyətə malikdir. Bu günün təhsil sistemi, imkanları bunu bir daha sübut edir ki, H.Əliyev elm, təhsil yaradıcılığının banisi kimi gördüyü işlər, həyata keçirdiyi strategiyaya uyğun aparılan yuxarıda adı çəkilən islahatlar müsbət və real nəticələri gözlər önündə açıq şəkildə sərgiləyir. Həmçinin bu müsbət nəticələr Azərbaycanı dünyada – beynəlxalq arenada təmsil etməyə qadir olan gənc nəslin, potensiallı kadrların yetişməyinə inam və şərait yaradır.

Ən sonda onu vurğulamalıyıq ki, bizlərin – ölkəmizin elm, təhsil işçilərinin qarşısında duran əsas vəzifələrdən biri möhtərəm Prezidentimiz İlham Əliyevin ətrafında birləşərək, onu dəstəkləyərək, Azərbaycan dövlətinin sosial-iqtisadi, hərbi, siyasi-mədəni qüdrətini möhkəmləndirməklə elmimizin, təhsilimizin səviyyəsini yüksəltmək, bu sahədə misilsiz uğurlar əldə etməkdir. Məhz belə halda bizlər Heydər Əliyevin dövlətimizin inkişafı naminə qoyduğu vəsiyyətlərini, strategiyasını müvəffəqiyyətlə həyata keçirməyə nail olarıq.

**İstifadə edilmiş ədəbiyyat**

1. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı, 2013

2. Sadıqlı A.Ə. Ümummilli lider Heydər Əliyev və Azərbaycan dili. Bakı: Mütərcim, 2011, 180 s.

3. Səmədov A.A. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısı: Dərs vəsaiti. Gəncə, 2010, 499 s.

UOT 371.64/69:373.1

**Heydər Əliyev irsi Azərbaycan gəncliyi üçün daimi örnəkdir**

*Günel Alim qızı Nəcəfova,*
*Mingəçevir Dövlət Universiteti*

“Mən fəxr edirəm ki, Azərbaycanlıyam”. İllər ötsə də, Ulu öndər Heydər Əliyevin söylədiyi bu müqəddəs kəlam öz qiymətini itirməyib və Azərbaycan dövləti, xalqı qarşısında işıq saçan bir mayaq olmuşdur. Azərbaycan dövlətinin müstəqilliyi və ikinci çiçəkləyən dövrü, yəni 1993-cü ilin iyun ayından sonrakı dövr vətənimizə böyük uğurlar qazandırmışdır. Azərbaycan uğurlu xarici siyasət yeritməklə yanaşı səmərəli iqtisadi siyasət yeritməyə başlamışdır. Respublikamız dünyaya inteqrasiya prosesində öz inamlı addımlarını atmışdır. Azərbaycan iqtisadiyyatı inkişaf edərək, dünya iqtisadiyyatı səviyyəsinə qalxmışdı. Savadlı, bilikli mütəxəssislərin olması üçün yeni təhsil sistemimndə yeni təhsil texnologiyalarını tətbiq edərək, Təhsil İnstitutunun nəzdində dünya səviyyəsinə malik olan 7 pilot mərkəz, 20 pilot məktəb fəaliyyətə başlamışdı. Bu metodlarla hazırlanmış gənc kadrlar dünya və Avropa ölkələrində cox məharətlə işə qoşula bilirdilər. Türkiyənin ölkəmiz üçün hazırladığı gənc kadrlar artıq dünya tendensiyalarını təhlil etmək iqtidarına malikdirlər.

Gənclərlə iş sahəsində dövlət siyasətinin müəyyənləşdirilməsi, ölkənin ictimai-siyasi həyatında gənclərin fəal iştirakının təmin olunması, onların layiqli vətəndaş kimi formalaşmasına hərtərəfli şəraitin yaradılması H.Əliyevin hakimiyyətə qayıtdığı ilk günlərdən fəaliyyətinin əsas istiqamətlərindən olmuşdur. Cəmiyyətin inkişafında gənclərin rolunu yüksək qiymətləndirən Ulu öndər Heydər Əliyev daim onlara diqqət və qayğı göstərmiş və Azərbaycan gəncliyinin də itmiş inamı özünə qaytarmışdı.

Hələ keçmiş SSRİ dövründə respublikaya rəhbərlik edən H.Əliyevin göstərişi ilə minlərlə azərbaycanlı gənc müttəfiq respublikaların ən nüfuzlu ali təhsil ocaqlarında oxumuş və yüksək biliklərə yiyələnmiş mütəxəssis kimi vətənimizə qayıtmışlar. Həmin gənclərin işlə təmin olunmasında H.Əliyevin böyük əməyi olmuşdur. Vətənini ürəkdən sevən, Azərbaycanı hər zaman uca görmək istəyən, xalqımıza qayğı ilə yanaşan Ulu öndər Azərbaycanı hər tərəfli inkişaf etmiş bir dövlət kimi görmək istəyirdi. Ordusu olmayan, hətta bayrağı belə həbsdə olan Azərbaycanda 1972-ci ildə C.Naxçıvanski adına Bakı Hərbi Məktəbinin açılması Heydər Əliyevin böyük qələbəsi idi. Hal-hazırda müstəqil Azərbaycan ordusunda xidmət edən zabitlərimizin əksəriyyəti həmin məktəbin məzunlarıdır. Heydər Əliyevin Azərbaycana bəxş etdiyi bu məktəb xalqımızın qürur mənbəyidir.

Gənclərin bacarığına yüksək qiymət verən, vətənimizin gələcəyini gənclərlə bağlı olduğunu hiss edən Ulu öndər Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıdan kimi gənclər təşkilatının nümayəndələri ilə görüşmüş onların problemləri ilə yaxından tanış olduşdur. 1994-cü ildə Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması haqqında imzalanan Fərman gənclərə verilən ən yüksək qiymətdir. Bu dövrdən başlayaraq, gənclər siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində bir sıra işlər görüldü. Ümumiyyətlə, nazirliyin yarandığı ilk günlərdən qarşıya qoyulan məqsədlərdən biri gənc nəsli vətənə sədaqət, Azərbaycan xalqının dilinə, tarixinə, mədəniyyətinə, adət-ənənələrinə, dövlət rəmzlərinə hörmət və məhəbbət ruhunda tərbiyə etmək olmuşdur.

1995-ci ildə H.Əliyev Azərbaycan gənclərinin forumunun keçirilməsi təşəbbüsünü irəli sürdü. 2 fevral 1996-cı il tarixdə müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirildi. Forumda Ulu öndər Heydər Əliyev şəxsən özü iştirak etdi.

Gəncləri ürəkdən sevən, onların qayğısını çəkən Heydər Əliyev hər zaman onları sevindirmək, onlarda həyat eşqini canlandırmaqdan ötrü hər an yeni qanunlar, sərəncamlar verməkdən çəkinmirdi. Axı gənclər sabaha ümüdlə, inamla baxmalı və vətən, xalq qarşısında olan borclarını unutmamalı vətənə layiqli övlad olmalı idilər. Bunun üçün 1 fevral 1997-ci il tarixində Heydər Əliyev yeni bir Sərəncam imzaladı. O, gəncləri yeni bir bayramla təbrik etdi. 2 fevral Azərbaycanda Gənclərin günü oldu. Həmin günü təkcə gənclər deyil, uşaqlar da, yaşlılar da çox

sevdilər. Həmin vaxtdan etibarən, ənənəvi olaraq, hər il 2 fevral günü Azərbaycan gənclərinin bayramı kimi təntənəli şəkildə qeyd olunur. Özünü mənən gənc hesab edən H.Əliyevin gənclərə bəxş etdiyi bu bayram bu gün də sevilə-sevilə qeyd olunur.

Heydr Əliyev idmanı da çox sevirdi. Bütün şəhər və rayonlarda idman mərkəzləri açılmış və gənclərin idmanın bütün növləri ilə məşğul olması üçün şərait yaradılmışdır. Heydər Əliyev çox istəyirdi ki, gənclər idman yarışlarında yüksək yerlər tutsunlar və bayrağımız hər zaman birincilər sırasında dalğalansın. O, gənclərdən ilham alırdı və istəyirdi ki, gələcək nəsillərə azad, müstəqil Azərbaycan bəxş etsin. Onun ən böyük arzusu gənclərimizə arxalanaraq, mətn addimlarla irəli getmək və bu yolda gənclərə kömək etmək idi. O, arzusuna çatdı. Gənclərimiz başda Heydər Əliyev olmaqla onun ruhu qarşısında söz verərək, İlham Əliyevlə gələcəyə ilhamla, mətin addimlarla gedirlər.

Bu gün Azərbaycanın qüdrətli ordusu, göylərdə dalğalanan üçrəngli, aylı, ulduzlu bayrağı, mətanətli xalqı və bu xalqı qəlbən sevən Heydər oğlu İlhamı var. Biz inanırıq ki, onun ruhu bunları görür və duyur. O bizim gənclərlə fəxr edir, çoxlu dövlət işləri olmasına baxmayaraq, gənclərin bayramlarına gəlir və onlara ürək sözlərini bildirirdi. O bu bayramdan ruhlanaraq, gənclərdən ilham alaraq, gənclərə arxalanaraq, Azərbaycanı daha qüdrətli etməyə çalışır və yeni bir fərman imzalamaqla gəncləri təhsildə irəli getməyə, sağlamlıqlarını qorumağa dövlətin təşkil etdiyi hüquq qaydalarına əməl etməyə çağırırdı. "Mən sizi gördükcə, gələcəyə daha inamla baxıram və inanıram ki, məndən sonra da siz Azərbaycanin əsl vətəndaşı olacaqsınız," – deyə öz çıxışlarında qeyd edirdi [1; s.38]. 2 fevral 1998-ci il Heydər Əliyevin Azərbaycan Gənclərinə bəxş etdiyi ən gözəl gündür. 1999-cu ildə Heydər Əliyev yeni bir fərman imzaladı.

Ümummilli lider Heydər Əliyev kimsəsiz, atasını I Qarabağ döyüşlərində itirən şəhid balalarına xüsusi qayğını əsirgəmir, onların təhsilinə ciddi yanaşmaları üçün xüsusi qurumlara vaxtaşırı təlimat verdirir, bu məsələni daim nəzarətdə saxlayırdı. "Dövlət Gənclər Siyasəti haqqında" Fərman bu təlimatları özündə əks etdirir. Şəhid övladlarının təhsil haqqindan azad edilməsi Prezident səviyyəsində böyük bir addim idi. Gənclər dövlətin bu qayğısına etinasız qalmır, vətəninə, xalqına layiqli övlad olmağı üçün səylə çalışırlar. Ölkə gənclərinin idmanla məşğul olmalarını Heydər Əliyev vacib amil sayırdı. 1996-cı ildə Azərbaycan müstəqil dövlət kimi ilk dəfə Olimpiya Oyunlarına qatıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu öndər Heydər Əliyev kursunu layiqli şəkildə davam etdirərək, gənclər siyasətinə eyni diqqətlə yanaşır. Prezidentimiz tərəfi ndən "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı haqqında 06 aprel 2011-ci il tarixdə imzalanan Sərəncamın ardınca, aprel ayının 21-də bir qrup gənci və tələbə gənclər təşkilatlarının nümayəndələrini cənab İlham Əliyevin qəbul etmişdir. Beləliklə, Yeni dövrdə nə istədiyini, nə etmək lazım gəldiyini, Azərbaycan gəncliyi çox aydın dərk edir və Ulu öndər Heydər Əliyevin milli ideyalarının reallaşması üçün əlindən gələni edir, Azərbaycanın dünya səviyyəsində tanınması üçün çalışırlar.

Tezisimi Ulu öndərimizin sözləri ilə bitirmək istərdim: "Mən əminəm ki, Azərbaycanın gələcəyi etibarlı əllərdədir. Çünki bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclərdir, vətənpərvər gənclərdir, xalqını, millətini sevən gənclərdir. Mən əminəm ki, müstəqil Azərbaycanın gələcəyini qoruyub saxlaya bilən gənc nəsillər yetişir. Onların nümayəndələri bugünkü uşaqlardır, yetişən gənclərdir. Yaşasın Azərbaycanın gəncləri!"

## İstifadə edilmiş ədəbiyyat

1. Heydər Əliyev və müstəqil Azərbaycan. Bakı, 2003
2. Mirzəzadə A. Azərbaycan, zaman, inkişaf. Bakı, 2008
3. Əsgəroğlu İ., İbrahimov A. Zəmanəmizin böyük Azərbaycanlısı. Bakı, 2002
4. "Xalq Nəzarəti" beynəlxalq ictimai-siyasi hüquq jurnalı, Bakı, 2010
5. İsmayılov Ə., Əliyev O. Heydər Əliyev və milli ləyaqət fəlsəfəsi. Bakı, 1998

UOT 94 (479.24)

**Heydər Əliyev Azərbaycan Ordusunun qurucusudur**

*Aygün İslam qızı İsmayılova,*
*Mingəçevir Dövlət Universiteti*

Dövlətçiliyin atributlarından olan ordu cəmiyyətin tərkib hissəsi kimi həmişə hörmətlə əhatələnib. Ordu ictimaiyyət münasibətinin əsasında dövlətçiliyə sevgi, dövlətə sədaqət dayanır. Xalq ordusuna inanır, ordu xalqına güvənir. Biz ordunun qurulması onun ayaqda tutulması üçün bu faktorlar çox əhəmiyyət kəsb edir. Məhz bu gün bir vətəndaş kimi gücünə inandığımız və gücünü isbat edən Azərbaycan ordusunun qurucusu da Ulu öndər Heydər Əliyevdir. Ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Heydər Əliyev Azərbaycanın hərtərəfli inkişafına qüdrətlənməsinə öz töhfəsini vermiş təkcə bu gün üçün deyil, qarşıda onilliklər, yüzilliklər üçün dövlətimiz inkişaf strategiyasını müəyyən etmişdir. Ulu öndər Heydər Əliyev zəngin və çoxşaxəlli siyasi fəaliyyəti ilə xalqımızın yaddaşında əbədiliyi qazanmışdır. O təkcə xalqımızın deyil, eyni zamanda bütün dünyanın şəxsiyyətinə böyük hörmət bəslədiyi siyasi lider idi.

Tarixdə bu cür aqibət çox az şəxsiyyətlərə müəssər olur. Tarixin verdiyi şansları nadir sərkərdələr reallaşdırmağa qadir olurlar. Heydər Əliyev bu mənada xalqı dövləti qarşısında üzərinə düşən missiyanı layiqincə yerinə yetirmiş bir şəxsiyyətdir. Ümummilli liderin Azərbaycanın xoşbəxt, təhlükəsiz gələcəyinə təminat verən zəngin və çoxşaxəli fəaliyyətin əsas istiqamətlərindən birini də ordu quruculuğu təşkil edir. Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra ölkəmizdə ordu quruculuğu prosesi dayanmışdı.

Ümummilli lider Heydər Əliyevin 1969-cu ildə birinci dəfə hakimiyyətə gəlişindən sonra bu sahədə əsaslı dönüş yaradılmış, ölkəmizdə milli və hərbi kadrların hazırlanması prosesinə başlanmışdır. Məhz 1971-ci ildə Heydər Əliyevin öncə SSRİ rəhbərliyinin müdaxilə etməsinə ehtiyac olmadığını bildirilməsinə rəğmən öz mahir dimlopatiyası, qətiyyəti və uzaqgörən siyasəti sayəsində Bakıda Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi liseyi təşkil etdi. [1]

Təsadüfi deyil ki, müstəqillik illərində Cəmşid Naxçıvanski adına hərbi məktəb azərbaycanın ordu quruculuğunda əsas bazalarına birinə çevrilmişdir. Heydər Əliyev azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə və eləcə də SSRİ-nin digər məktəblərinə güzəştli şərtlərlə qəbul edilməsinə nail olmuşdur. Ulu öndər Heydər Əliyevin orduya verdiyi dəyər öz kəramətli sözlərində bu cür ifadə olunmuşdur: "Xalq azad, sərbəst yaşamaq istəyirsə, ölkəsinin torpaqlarının toxunulmazlığını arzu edirsə, gərək hər şeydən öncə orduya qayğı göstərsin. Hər bir Azərbaycan vətəndaşı, hər bir gənc orduda xidmət etməyi özünün şərəfli borcu hesab etməlidir. Azərbaycanın dövləti, dövlətçiliyi azərbaycanın ərazisinin müdafiəsi azərbaycanın konustision əsaslarının müdafiəsi hər bir zabitin, hər bir əsgərin, hər bir döyüşçünün müqəddəs borcudur."

Beləliklə, Ümummilli lider Heydər Əliyev Azərbaycanın müstəqilliyi əldə etməsindən 20 il öncə milli hərbi kadr hazırlığı üçün zəruri bazanın ən yüksək səviyyədə təşkilini həyata keçirmişdir. 1991-ci ildə Azərbaycanın müstəqilliyinin bərpasından sonra ölkədə siyasi-ictimai vəziyyət olduqca gərgin idi. Azərbaycan Silahlı Qüvvələrinin yaradılması haqqında qərar qəbul olunsa da bu sadəcə kağız üzərində qalmışdı. O zamankı iqtidarın yaratdığı xaos, özbaşnalıq ordu quruculuğuna da öz mənfi təsirini göstərmişdir. Düşmən torpaqlarımızın işğalını davam etdirdiyi halda silahlı birləşmələrimiz ayrı-ayrı insanların, qrupların maraqlarına xidmət edirdi. Ordumuzda bu acınacaqlı vəziyyət torpaqlarımızın 20 %-nin işğalı, bir milyona yaxın vətəndaşımızın didərgin düşməsi ilə nəticələnmişdir.

Lakin hər zaman ən çətin məqamlarda düzgün və qətiyyətli qərarlar qəbul etmiş xalqımız bu dəfə də iradəsini ortaya qoyaraq, özünün əbədiyaşar liderini yenidən hakimiyyətə gətirdi. Məhz Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə dövlət və ordu quruculuğu istiqamətində yeni bir mərhələnin təməli qoyuldu. Ulu öndərin yüksək sərkərdəlik bacarığı və hərb işinin incəliklərinə peşəkar yanaşma qabiliyyəti Ali Baş Komandana ordumuzdakı mürəkkəb

problemlərini həll etməyə və Azərbaycan Silahlı Qüvvələrinin elmi-nəzəri əsaslar üzərində qurmağa imkan verdi.

Dahi sərkərdə 1994-cü il mayın 12-də cəbhə xəttində atəşkəsə nail olmasından sonra ordu quruculuğu ilə bağlı genişmiqyaslı islahatlara başlamışdır. Qısa müddətdə hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırılmış, orduya çağırış, fərarilik halları ilə bağlı bütün problemlər öz həllini tapmışdır. Dövlətçiliyi və hərbi andı hər şeydən uca tutan, hərbçi olmağı şərəf bilən, mənəvi baxımdan sağlam zabitlər hərbi hissələrin rəhbərliyinə cəlb olunmuşlar. Ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırılmış, maliyyə-təsərrüfat fəaliyyəti nizama salınmış, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı və döyüş ruhu yüksəldilmişdir. Ordu quruculuğunun ən müxtəlif sahələri ilə bağlı zəruri qanunlar qəbul edilmiş, silahlı qüvvələrin mükəmməl qanunvericilik bazası yaradılmışdır.

Məhz Ulu öndər Heydər Əliyevin 1999-cu il fevralın 20-də Silahlı Qüvvələrin Hərbi Akademiyasının yaradılması, 20 avqust 2001-ci ildə respublikamızda fəaliyyət göstərən hərbi məktəblərin statusunun artırılması və nəhayət, 17 avqust 2002-ci ildə Silahlı Qüvvələrə Yardım Fondunun yaradılması haqqında imzaladığı fərmanlar heç şübhəsiz, bu istiqamətdə əsaslı dönüş yaratdı. Bütün bunların nəticəsidir ki, hazırda Azərbaycanda güclü maddi-tədris bazasına, müasir texnologiyalara malik, yeni tədris metodları ilə fəaliyyət göstərən, uğurları ölkəmizin sərhədlərindən də uzaqlara yayılan hərbi təhsil sistemi mövcuddur. Bu gün Azərbaycanın ali hərbi məktəblərində bir sıra xarici ölkələrin nümayəndələri təhsil alırlar [2].

Ordumuzun inkişafı üçün əlindən gələni əsirgəməyən Ümummilli lider Heydər Əliyev ordu sıralarında xidmət edən əsgərləri, zabitləri dinləməyi, imkan tapdıqca vəziyyət uyğun olduqca onlarla həmsöhbət olmağı da unutmurdu. Heydər Əliyevin siyasətindən, uzaqgörənliyindən nə qədər danışsaq da, bu cür kadrlar onun həm də çox gözəl insani keyfiyyətlərə malik olduğundan, necə səmimi və sadəlövh olduğundan xəbər verir.

Artıq bu gün regionun ən qüdrətli ordusu olan Azərbaycan Silahlı Qüvvələri dövlət sərhədlərimizi qorumaqla yanaşı, bir sıra ölkələrdə həyata keçirilən sülhməramlı əməliyyatlarda iştirak edir və böyük müvəffəqiyyətlər qazanırlar. Bunun ən böyük səbəbi Ulu öndər, əbədiyaşar sərkərdə Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu strategiyasının Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsidir. Azərbaycan Prezidentinin Fərmanı ilə yaradılan Müdafiə Sənayesi Nazirliyində 400 addan çox müdafiə təyinatlı məmulatın istehsalının həyata keçirilməsi ölkəmizin hərbi qüdrətinin artmasının mühüm göstəricilərindən biridir. Bu, Azərbaycana öz ordusunu zəruri silah, sursat və texnika ilə təchiz etmək üçün əvəzsiz imkan yaratmışdır.

Azərbaycanda hərbi quruculuq bu gün də yüksələn xətlə inkişaf edir. Bunun ən başlıca səbəbi isə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dövlət başçısı postunda fəaliyyətə başladığı ilk gündən Ümummilli liderimizin həyata keçirdiyi strateji əhəmiyyətli tədbirləri və ənənələri uğurla davam etdirməsi, o cümlədən ordu quruculuğu işini prioritet elan etməsi ilə bağlıdır.

Məhz uğurlu siyasət nəticəsində rəşadətli ordumuzun şücayəti sayəsində Ermənistanın 30 il ərzində yaratdığı ordu sadəcə 44 gün tab gətirdi və beləliklə, dünya ictimaiyyətində Ermənistan ordusu haqda yaranan yenilməzlik mifi puç oldu. Azərbaycan Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə haqq mübarizəsinə qalxdı və düşməni iti qovan kimi öz ərazilərimizdən çıxardı. Azərbaycan hərb tarixinə yenilik kimi düşən strategiya tətbiq edərək ən müasir silahlardan istifadə etməklə, habelə minimal itkilər verərək qısa müddət ərzində düşmənin bütün hərbi texnikasını məhv etdi, canlı qüvvəsinə ciddi zərbə vurdu. Azərbaycan Ordusunun yüksək peşəkarlıqla apardığı işğaldan azadetmə əməliyyatı dünya üzrə müharibələrin aparılması doktrinasında ciddi dəyişikliklərə səbəb olacaq. Yüksək dağlıq şəraitdə həyata keçirilən Şuşanın azad edilməsi əməliyyatı Azərbaycanın hərb tarixinin ən parlaq səhifəsidir. Noyabrın 8-də qəhrəman əsgər və zabitlərimiz üzbəüz mövqelərdə, təkbətək döyüşərək Qarabağımızın göz bəbəyi olan Şuşa şəhərini işğaldan azad etdi. Ardınca bir günün içində 70-dən artıq kənd, 8 strateji yüksəklik düşmən tapdağından təmizləndi, bu da düşməni mat vəziyyətinə saldı. Savaşın başladığı ilk zamanlar

Ermənistanın baş naziri Nikol Paşinyan uzun müddət müharibənin dayandırılması məqsədilə xarici dövlətlərə yalvardı. Dövlət başçımızın dəmir iradəsi, Azərbaycan xalqının öz liderinə qüvvətli inamı, ordumuzun ruh yüksəkliyini görəndən, üstəgəl də Şuşanın azad edilməsindən sonra çıxılmazlıq labirintinə düşdü.

Artıq 10 noyabr – xalqımız üçün Zəfər Bayramıdır, Qələbə Günüdür. Biz qalib ölkə olaraq, Ermənistana kapitulyasiyanı imzalatmağı bacardıq. Paşinyan məğlubiyyətdən yaxa qurtarmaq məqsədilə bu imzanı atsa da, ölkəsində ona qarşı etirazlar sürətlə artıb. Ermənistanın siyasi rəhbərliyi bütün xəbərdarlıqlara baxmayaraq, heç bir halda öz şövinist siyasətindən əl çəkmədi. Bu da onun üçün ağır nəticəsi – həm döyüş meydanında məğlub oldu, həm də ki, onsuz da çətin iqtisadi durumda olan ölkəni bu qədər maliyyə itkiləri ilə lap pis vəziyyətə saldı. Bu maliyyə böhranından çıxmaq üçün düşmən ölkəyə azı bir neçə onillik lazım olacaq. Eyni zamanda, Paşinyanın xalqının gözündə olmayan etibarı tamamilə yerlə bir oldu. Azərbaycanın Dövlət–Ordu–Xalq Birliyinin gücü, savaş meydanında qəhrəmanlıq dastanı yazan oğul və qızlarının şücaəti düşmənin dünyada 30 ildə yaratmağa cəhd etdiyi mifi 44 gündə alt-üst elədi.

**İstifadə edilmiş ədəbiyyat**

1. Xilaskar (Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91 illiyinə həsr olunub). Bakı: “MTR” group mətbəəsi, 2014, 242 s.

2. Rüstəmov İbrahim. Heydər Əliyev Azərbaycan ordusunun qurucusudur. “Respublika” qəz., 2009, 12 dekabr, №270, s.7

UOT 342.5

## Azərbaycan Respublikasında çoxmillətlilik siyasətinin inkişafında Heydər Əliyev tolerantlılığının rolu

*Xəyalə Rəmiyyədin qızı Abdullayeva,*
*Mingəçevir Dövlət Universiteti*

*“Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq”.*

*Heydər Əliyev*

Azərbaycanın İslam aləmində dünyəvi dövlət kimi tanınmasında, heç şübhəsiz ki, dahi lider Heydər Əliyevin siyasətinin böyük rolu vardır. Ölkəmizin bu sahədə qazandığı mükəmməl təcrübə artıq dünyanın öyrəndiyi modeldir. Azərbaycan Respublikasının Konstitusiyasına görə dinindən, irqindən, eləcə də dilindən asılı olmayaraq, hər bir vətəndaşın hüquqları və azadlıqları qorunur. Respublikamızda yaşayan hər bir etnik azlığın və hər bir xalqın təmsilçilərinin mədəniyyəti, mənəvi dəyərləri müxtəlif qanunlar və normativ-hüquqi aktlarla təsbit olunur. Din, etiqad azadlığı Azərbaycanda tam şəkildə təmin edilir. Ayrı-ayrı etnosların, millətlərin və xalqların, dinlərin və konfessiyaların, mədəniyyətlərin nümayəndələri burada mehriban, dostluq, qardaşlıq mühitində yaşayırlar. Azərbaycan milli xarakterinin formalaşmasında iştirak edən çoxlu sayda ən vacib təbii-coğrafi, etnik-siyasi, sosial-mədəni, dini-mənəvi, ictimai-iqtisadi, ruhani və əxlaqi tip faktorlar içərisində əsl multimədəni dəyərlərin, həmçinin sırf tolerantlıq motivlərinin xüsusi yeri və rolu vardır. Sözügedən ümumbəşəri ideyalar Şanlı Azərbaycan tarixinin bütün dövrlərində təzahür edən ictimai-fəlsəfi dünyagörüşündə, yeni dini baxışlarda, bədii əsərlərdə, dramaturgiyada, kinematoqrafiyada və təhsil sistemində öz əksini tapmışdır. Məhz bu səbəbdən əsrlərin olduqca çətin və sərt sınaqlarından keçib gəlmiş müasir Azərbaycan millətinin ən xarakterik cizgilərini tolerantlıq, humanizm, qonaqpərvərlik, mərhəmət, yardım etmək arzusu, sədaqət, vəfadarlıq və s.

kimi ümumbəşəri ruhani dəyərlər təşkil edir. Hətta müasir Azərbaycan etnosunun bu xüsusiyyətləri, bəzən onun düşmənə kifayət qədər nifrət etməsinə belə mane olur.

Azərbaycan tarixində tolerantlıq və multikulturalizm ideyalarını siyasi müstəviyə və dövlət siyasəti səviyyəsinə Ümummilli lider Heydər Əliyev çıxarmışdır. Heydər Əliyevin Azərbaycana I rəhbərliyi (1969-1982) zamanı etnik-milli və mədəni məsələlərə xüsusi diqqət yetirilmiş, dövrün multimədəni dəyərlərinin inkişafında ciddi sıçrayış baş vermişdi. [3] Məhz sözügedən dövrdə Azərbaycan Respublikasının da təmsil olunduğu sovet ittifaqında sosialist beynəlmiləlçiliyinə əsaslanan yeni münasibətlər sistemi formalaşdırılmışdı. Lakin bu, süni şəkildə yaradılmış və ən zorakı üsullarla tənzimlənən bir sosium idi. Onun məhz belə olmasını SSRİ-nin tənəzzülü və iflası dövründə ittifaqın tərkibində təmsil olunan xalqlar arasında etnik-mədəni və dini münasibətlər zəminində başlanmış silahlı münaqişələr bir daha sübut etdi. Lakin Azərbaycana gəldikdə, SSRİ-nin dağılması ilə əlaqədar respublikanın tərkibində təmsil olunan çoxsaylı xalqlar və etnik qruplar arasında milli və dini zəmində heç bir münaqişə (erməni separatizmini nəzərə almasaq) baş verməmişdir. Bu isə təsadüfi hadisə deyil.

Ümummilli liderimizin ən böyük uğurlarından biri də o idi ki, xalqımızın ən dəyərli keyfiyyətlərindən olan digər millətlərin hüquq və mədəniyyətlərinə hörmətlə yanaşma xüsusiyyətini milli ideologiya – azərbaycançılıq səviyyəsinə qədər yüksəltdi və rəsmiləşdirdi. Bu böyük şəxsiyyət Azərbaycanı separatizm və parçalanma bəlasından xilas edərkən tarixən bu torpaqlarda yaşayan xalqların təmsilçilərini də vahid məram ətrafında səfərbər etdi, onları Azərbaycan bayrağı altında birləşdirdi. Bu baxımdan tam əminliklə demək olar ki, bu gün dünyanın böyük maraqla öyrəndiyi Azərbaycanın multikulturalizm və tolerantlıq modelinin banisi də məhz Ulu öndərimiz Heydər Əliyev olmuşdur. [3 s.438]

1995-ci ildə şəxsən Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış və qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında, ölkə ərazisində yaşayan bütün xalqların, etnik qrupların hüquq və azadlıqları bütöv şəkildə təsbit olundu. "Bərabərlik hüququ" (maddə 25, bənd 3), "Milli mənsubiyyət hüququ" (maddə 44, bəndlər 1 və 2), "Ana dilindən istifadə hüququ" (maddə 45, bəndlər 1 və 2) və s.

Təsadüfi deyildir ki, Ümummilli lider Heydər Əliyev multikultural dəyərlərə əvəzsiz sərvət kimi yanaşırdı: "Azərbaycanın çoxmillətli, tolerant ölkə olması bizim böyük sərvətimizdir, üstünlüyümüzdür... Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da – bütünlükdə hamısı azərbaycanlıdır. "Azərbaycan" sözü bizi həmişə birləşdirib". [2, s.52] Bu söz bu gün də son dərəcə əhəmiyyətlidir və təkzibedilməz həqiqət gücündədir: biz, yəni Azərbaycanda yaşayan bütün xalqlar məhz bir yerdə, məhz azərbaycanlı olaraq dünya üçün maraq kəsb edə bilərik. Biz ayrı-ayrılıqda heç kim üçün maraqlı deyilik! Elə bu məntiqlə də zəmanəmizin dühası Heydər Əliyev Azərbaycanın çoxmillətli dövlət olaraq milli siyasətinin əsas məzmununu belə müəyyən etmişdir: "...Respublikamızın ən başlıca sərvəti əsrlərdən bəri bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olar". [1, s.54]

Əlbəttə ki, biz torpaqlarımıza qayıdacağıq, şəhərlərimizi bərpa edəcəyik, orada yeni məktəblər və xəstəxanalar inşa edəcəyik, lakin tarixi abidələrimizi bərpa edə bilməyəcəyik. Ermənilər bizim tarixi irsimizi məhv edibbr, lakin onlar bizim iradəmizi məhv edə bilməzlər, evlərinə geri qayıtmaq istəyən qaçqın və məcburi köçkünbrin, Bakıda və A zərbaycanın digər şəhərlərində dünyaya gələn, öz tarixi torpaqlarını heç vaxt görməyən, lakin doğma torpaqlarına qayıtmaq üçün qəlbində böyük iradə ib yaşayan insanların nəvə və nəticələrinin iradəsini məhv edə bilməzlər. Onlar geri qayıdacaqlar! Biz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün hər şeyi edəcəyik". [2] "Multikulturalizm bizim adət-ənənəmizdir".

Beləliklə, sonda onu da xüsusi olaraq, qeyd edək ki, Ulu öndər Heydər Əliyevin müəllifi olduğu çoxmədəniyyətlilik siyasətinin Prezident İlham Əliyev tərəfindən novatorcasına davam etdirilməsi kursu dünyanın üzbşdiyi potensial və real risklərin, o cümlədən ksenofobiya, irqçilik, islamofobiya və multikulturalizmin alternativi olan digər təhdidlərin aradan qaldınlması mənafeyinə

xidmət göstərən orijinal həll yollarını irəli sürülməsi baxımından da unikaldır: “Siz qonşunuzdan milliyyətini, kilsədə, sinaqoqda və ya məsciddə ibadət etməsini soruşmadan onunla yanaşı yaşamalısınız. Yalnız bu halda potensial riskləri azalda bilərik.”

**İstifadə edilmiş ədəbiyyat**

1. Niftiyev N. Azərbaycanda birgəyaşayış və multikulturalizm. Bakı, 2015, 408 s.
2. Prezident İlham Əliyevin UNESCO Baş Konfransmın 38-ci sessiyasının Liderlər Forumunda çıxışı/ www/president.az
3. Əliyev V. Ümummilli lider Heydər Əliyevin milli siyasətində multikulturalizm faktoru – XXI əsrdə Azərbaycanı sivilizasiyalararası dialoq mərkəzinə aparan yol / “Heydər Əliyev və multikultural dəyərlər” mövzusunda keçirən konfransın materialları. Bakı: Azərnəşr, 2016, 616 s.
4. Əmiraslanov Ə. Heydər Əliyevin ümumbəşəri ideyalarında multikulturalizm siyasəti / “Heydər Əliyev və multikultural dəyərlər” mövzusunda konfransın materialları. Bakı: Azəməşr, 2016, 616 s.

UOT 32

## Tarixi vəzifə: idarə etmək və xilas etmək

*Gülər İlham qızı Əjdərzadə,*
*Mingəçevir Dövlət U niversiteti*

Zaman məfhum olaraq, fəlsəfi cazibədarlığı ilə seçilir. Onu geriyə döndərmək, dayandırmaq və də dəyişmək mümkün deyil. Zamanı duyub anlamaq, qiymətləndirmək və hətta itirmək olar. Yalnız müdrik və dahi şəxsiyyətlər zamanı özününküləşdirmək, tarix yaratmaq və yaşadıqları dövrü öz irsi ilə gələcək nəsillərə ötürmək qabiliyyətinə malik olurlar.

XX əsrin ikinci yarısı – XXI əsrin əvvəli Azərbaycanın tarixinə Heydər Əliyev epoxası kimi daxil olub. Azərbaycan üçün ən həlledici dövrdə, ən mürəkkəb və gərgin vəziyyətdə xalqına dayaq olaraq liderliyi ilə çıxış yolu tapan, insanların həm bugünkü, həm də gələcək xoşbəxtliyini təmin edən dahi insan – Heydər Əliyev...

Heydər Əliyev o tarixi şəxsiyyətlərdəndir ki, onun həyatı müasir dövrün və öz xalqının tarixinin tərkib hissəsinə çevrilmişdir. Bu insanın tərcümeyi-halında dövlət işindəki fəaliyyəti qabarıq şəkildə nəzərə çarpır. Belə böyük insanları zaman yaratsa da, gərgin hadisələrlə zəngin yüzilliklər cilalayaraq formalaşdırır. Sanki dövran onların şəxsi həyatını cəmiyyətin ictimai həyatına tabe etdirərək çiyinlərinə taleyüklü problemlərin həllini qoyur.

Məhz ictimai tələbat 1969-cu ildə Heydər Əliyevi kəskin problemlər içərisində olan Azərbaycanın birinci şəxsi zirvəsinə gətirib çıxartdı. XX əsrin əvvəllərində keçmiş Rusiya imperiyasının sənaye cəhətcə inkişaf etmiş bir regionu, artıq əsrin ortalarında bir çox məsələlərdə ümumittifaq göstəricilərindən ciddi geri qalırdı. 1982-ci ilədək Azərbaycanın birinci şəxsi postunda qalaraq, Heydər Əliyev özünün liderlik bacarığını tam göstərə bildi. Cəmiyyət onu reallığa bağlı, milli xüsusiyyətlərə bağlı güclü strateq kimi kəşf etdi.

Heydər Əliyevin respublikaya birinci siyasi rəhbərliyi cəmiyyətin bütün sahələrində nəzərəçarpacaq müsbət nəticələrə gətirib çıxartdı. Azərbaycan aqrar-sənaye bölgəsindən sənaye-aqrar bölgəsinə çevrildi, sənaye və aqrar məhsul istehsalı bir neçə dəfə artdı, elmi potensial gücləndi, yeni ali məktəblər açıldı, yüzlərlə yeni orta məktəb binaları tikildi [1].Azərbaycanın mənzil fondu 1969-1982-ci illərdə iki dəfə artdı, əhalinin maddi vəziyyəti xeyli yüksəldi. Dövlətin mədəniyyət və incəsənətə qayğısı artdı, nəticədə dünya və ümumittifaq mədəniyyət xəzinəsinin incisinə çevrilən yeni-yeni əsərlər yarandı. Həyatın bütün sahələrində əldə edilən əsaslı nailiyyətlər sonradan müstəqil Azərbaycanın iqtisadi, mədəni, sosial infrastrukturunun əsas bünövrəsini təşkil

etdilər. Bunun nəticəsində 70-ci illərdə və sonradan dünyanın müxtəlif politoloji mərkəzlərində Azərbaycan “durğunluq” keçirən SSRİ-də “ayrıca çiçəklənən bir ada” adlandırıldı. Keçmiş sovet rəhbərliyində bu prosesləri görən realist və praqmatik qruplar dəfələrlə Heydər Əliyev potensialından, rəhbərlik qabiliyyətindən, siyasi uzaqgörənliyindən ali rəhbərlikdə istifadə etmək məsələsini qaldırırdılar. Ancaq təəssüf ki, Moskva Siyasi Bürosunun aparıcı rəhbərlərinin bəzilərinin antiqafqaz və antitürk əqidəsi bu obyektiv reallığın baş verməsinə maneçilik törətdi.

1982-ci ildə hakimiyyətə gələn və Sovet İttifaqının ağrılı problemlərini yaxşı bilən Yuri Andropov onların həllində qabiliyyətli, praqmatik və aldadıcı xəyalpərvərlikdən uzaq olan Heydər Əliyevsayağı kadrlarlardan istifadənin vacibliyini yaxşı başa düşürdü. Həmin ildə Sovet dövlətinin ali rəhbərlərindən birinə çevrilən həmyerlimiz 1987-ci ilədək rəhbərlik etdiyi bütün sahələrdə ciddi nəticələr əldə edə bildi.

Təsadüfü deyil ki, həmin dövrdə onunla birlikdə Moskva işləyən şəxslər, Kremldə onu əhatə edənlər H.Əliyevin yüksək şəxsi keyfiyyətlərini daima qeyd edirdilər. Bu sırada yüksək nüfuz, şəxsi məsuliyyət hissi, problemi dərindən öyrənmək istəyi, mütəxəssislərlə məsləhətləşmək bacarığı, özünü doğrultmuş yeniliklərin həyata keçirilməsi praktikası xüsusi vurğulanırdı. Əliyev iş stili o vaxtkı ənənəvi sovet yanaşmasından və kabinet qərarlarından kəskin fərqlənirdi və buna görə də o dövrün insanlarının yaddaşında, ictimai həyatda dərin iz buraxdı.

Müstəqil Azərbaycan üçün həlledici dövr – parçalanmaq ərəfəsində olduğu 1993-cü ilin yayı idi. Ölkə ərazisini separatizm dalğası bürümüşdü. Bu ağır böhran iki yüz ildən sonra bərpa edilmiş Azərbaycan dövlətçiliyinin süqutuna gətirib çıxara bilərdi. Cəmiyyətdə dəmir iradə, ağıl-dərrakə və qətiyyət tələb olunurdu. Hakimiyyətə gələn şəxs çoxsaylı problemləri həll edə bilən dövlət maşınını qurmalı və işə salmalı idi. İcra hakimiyyəti qətiyyətsiz və plansız, qanunverici hakimiyyət isə bir araya gələ bilməyən əks qütblü siyasi qüvvələrin konqlomeratı idi.

Heydər Əliyevin 15 iyun 1993-cü ildə parlament sədri, dörd ay sonra isə dövlət başçısı seçilərək böyük siyasətə qatılması fəlakətlər dalğasının qarşısını aldı və dövlət tədricən inkişaf yoluna qədəm qoydu. O, cəbhə xəttində atəşkəsin əldə olunmasına, dünya birliyi ölkələri ilə münasibətlərin qurulmasına, inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsinin ölkəyə gətirilməsinə, cəmiyyətin inamının özünə qayıtmasına nail ola bildi. Zaman Azərbaycanın xeyrinə işləməyə başladı.

Jurnalistlər yazırdılar ki, “1993-cü ilin Bakısı – kədərə bürünmüş küçə və evlər idi və bu mənzərə durğunluq dövrünün çiçəklənən beynəlmiləl böyük şəhərinə heç oxşamırdı”. Güclü dövlətin yaradılması, müasir iqtisadi infrastrukturun əsasının qoyulması, cəmiyyətin bütün sahələrində müasir tələblərə cavab verən islahatların keçirilməsi, xalqın sosial vəziyyətinin yaxşılaşdırılması, güclü ordunun formalaşdırılması, uğurlu xarici siyasət, sabahkı günə inam – bu, Heydər Əliyev dövrünün müsbət nəticələrinin ancaq kiçik bir hissəsidir[3].

Heydər Əliyev qısa müddətdə idarəetmədə intizam, məsuliyyət və hər kəsin məhz öz işinə cavabdeh olması prinsipini dəmir qanuna çevirə bildi. Onun rəhbərliyi ilə 1995-ci ildə müstəqillik dövrünün ilk demokratik Konstitusiyası işlənib hazırlandı və ümumxalq referendumunda bəyənilərək qəbul edildi. Məhz bu Konstitusiyaya söykənərək 1996-cı ildən başlayaraq, bir-birinin ardında radikal islahatlar keçirmək mümkün oldu. İqtisadiyyatda ciddi srtuktur dəyişikliklərinin keçirilməsi və müasir infrasrtukturun əsaslarının qoyulması öz nəticələrini ildən-ilə bariz şəkildə göstərməkdədir. 2003-cü ildə büdcə 1,5 milyard ABŞ dolları həcminə, ümumi daxili məhsulun artımı 11 faizə, onun adambaşına düşən həcmi isə yüksək 850 ABŞ dolları rəqəminə gəlib çatmışdır. Məhz Heydər Əliyevin rəhbərliyi ilə hüquq-mühafizə orqanlarında ciddi islahatlar aparıldı, Avropa təcrübəsindən hərtərəfli istifadə edildi, onlar cəza srtukturlarından insan hüquqlarına müdafiə üzrə dövlət təsisatlarına çevrildilər. Onların qabaqcıl demokratik ölkələrin müvafiq orqanlarla əlaqəsinə ciddi fikir verildi. Beynəlxalq təşkilatların bu sahə üzrə tövsiyyələri daima iqtidarın diqqət mərkəzində oldu.

Prezident Heydər Əliyevin Milli Ordunun yaradılmasında da xidməti həddən artıq böyükdür. Azərbaycan kimi mürəkkəb geosiyasi vəziyyətdə ordu quruculuğu çox böyük təcrübə və siyasi incəlik tələb edir. O bunun öhdəsindən çox böyük bacarıqla gələ bildi. Bu gün Azərbaycan Silahlı

Qüvvələri Cənubi Qafqazda ən müasir və professional ordu sayılır. Onun maddi texniki təchizat məsələsi ən yüksək səviyyədə həll edilmişdir.

Heydər Əliyevin siyasətşünaslıqda və dövlət quruculuğunda göstərdiyi ən böyük xidmətlərindən biri də Azərbaycanın xarici siyasət kursunun müəyyənləşdirilməsi oldu. Ölkəmiz artıq müəyyənləşmiş beynəlxalq münasibətlərdə özünün layiqli yerini tuta bildi. Bu gün respublikamızın mövqeyi tək region məsələləri üzrə deyil, ümumilikdə dünya problemləri üzrə həmişə diqqətlə öyrənilir. Bu da heç də hər bir yeni müstəqil dövlət üçün müyəssər olmur. Azərbaycan kimi kiçik dövlət üçün belə bir sistemi toplamaq, həqiqətən, böyük təcrübə tələb edirdi. Artıq Prezidentin sağlığında belə siyasət Heydər Əliyev siyasəti və ya balanslaşdırılmış xarici siyasət adlanırdı və onun prinsipləri bir sıra beynəlxalq politoloji mərkəzlər tərəfindən indi də diqqətlə öyrənilməkdədir [2].

Əldə edilmiş bütün bu nailiyyətlər ümumi halda Azərbaycanın dövlət müstəqilliyinin praktik müstəvidə özünü göstərməsi üçün əlverişli zəmin yaratdı. Ulu öndərimizin rəhbərliyi ilə dövlətimizin hüquqi və siyasi suverenliyinin təminatı prosesi sürətləndi. Demokratik islahatlar geniş vüsət aldı. Azərbaycan dövləti Avropa ailəsinin tam hüquqlu bir üzvünə çevrildi.

Qürur duyduğumuz ən vacib məqam budur ki, Ulu öndərimiz həyata keçirdiyi inkişaf kursunun ardıcıllığını təmin etmiş, bu kursun ən layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin timsalında ölkəmizin taleyini etibarlı əllərə əmanət etmişdir.

Avroatlantik məkana geniş inteqrasiya yolu tutmuş Azərbaycan öz mədəni və mənəvi nailiyyətləri ilə bu gün sivilizasiyalararası dialoqun fəal iştirakçısıdır. Ulu öndərimiz Heydər Əliyevin müəllifliyi ilə reallaşan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri layihəsi bu gün qlobal proseslərin ən əhəmiyyətli tərəflərindən biri kimi Azərbaycanın dünya üçün əhəmiyyətini daha da artırır. Ulu öndərimizin davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanı Cənubi Qafqaz regionunun ən güclü dövlətinə çevirmiş, ölkəmiz iqtisadi inkişaf tempinə görə dünyada rekord göstəricilərə sahib olmuşdur. Bütün bu nailiyyətlər isə hələ sağlığında özünə müstəqil Azərbaycan dövləti kimi əzəmətli və əbədi bir abidə ucaltmış Heydər Əliyev siyasətinin təntənəsidir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Abdullayev V. Müstəqilliyimizin strategiyası. Bakı, 2002
2. Hüseynova İ. Azərbaycan dövlətçiliyinin bu gününün və sabahının qarantı. Yeni Azərbaycanın qurucusu. Bakı, 2002
3. Mirzəzadə A. Demokratiya plyus. Bakı, 2004

UOT [002:004]:316.774

## İnformasiya-kommunikasiya texnologiyaları sahəsində Azərbaycanın inkişafı Heydər Əliyevin adı ilə bağlıdır

*Leyla Vüqar qızı İsmayılzadə,*
*Mingəçevir Dövlət Universiteti*

Konturları Ulu öndər Heydər Əliyev tərəfindən cızılmış ölkəmizin strateji inkişaf siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Bunun məntiqi nəticəsi olaraq, "bu gün Azərbaycan dünya miqyasında güclü ölkələr sırasındadır" [1].

Öncül ölkələrin təcrübəsi göstərir ki, elm, təhsil və iqtisadiyyat üzrə sistemli siyasət hər bir ölkənin davamlı tərəqqisi üçün əsas şərtdir. Bu siyasətin əsas qüvvəsi sayılan informasiya-kommunikasiya texnologiyaları (İKT) müasir dövrdə sürətlə inkişaf edərək insanların həyat və

fəaliyyətinin ayrılmaz hissəsinə çevrilmişdir. İKT-nin ən son nailiyyətləri bütün sahələrdə tətbiq olunaraq, cəmiyyətin hər bir üzvünə yaranan şəraitdən bəhrələnməyə imkan verir. Bu nöqteyi-nəzərdən yeni, müasir texnologiyalar üzrə dövlət siyasəti cəmiyyətdə formalaşan ictimai-siyasi təfəkkürdən öndə olmalı, yaxın gələcək üçün bu istiqamətdə həyata keçiriləcək fəaliyyətin əsas xəttini müəyyən etməlidir. Respublikamızda da İKT sektorunun inkişafı üzrə dövlət siyasəti qabaqcıl ölkələrin təcrübəsinə əsaslanaraq, bu prinsip üzərində qurulmuşdur.

Ölkəmizin son yarıməsrlik inkişaf tarixinə baxsaq, sabaha yönəlmiş, davamlı inkişafı təmin edən, elm və texnologiyaların tərəqqisini şərtləndirən, iqtisadiyyatın bütün sahələrinin davamlı inkişafına istiqamətlənmiş və ölkənin hər bir vətəndaşının rifahına xidmət edən müdrik Heydər Əliyev siyasətinin bəhrələrini görə bilərik. Bu siyasətin ayrılmaz tərkib hissəsi kimi, ölkəmizdə rabitənin, elektron məhsullar və İKT sahəsinin inkişafının belə böyük vüsət götürməsi məhz Ulu öndərin adı ilə bağlıdır. Azərbaycanın yaxın gələcək üçün inkişaf perspektivlərini elmi biliklərə söykənən iqtisadiyyatla bilavasitə əlaqəli olduğunu uzaqgörənliklə fikirləşən Ulu öndər Heydər Əliyev İKT sahəsinin inkişafının özülünü hələ keçən əsrin 70-ci illərində qoymuşdur.

Ötən əsrin 70-80-ci illərdə Elmlər Akademiyasında, ali təhsil müəssisələrində və sahə institutlarında elektronika, avtomatika və hesablama texnikası üzrə bacarıqlı mütəxəssislər, alim və tədqiqatçılar ordusu yetişdirildi, elektron məmulatlar istehsal edən müəssisələr inşa edildi. Kibernetika İnstitutu, Kosmik Tədqiqatlar Mərkəzi, İnformasiya-Telekommunikasiya Elmi Mərkəzi, “Neftqazavtomatika” və s. kimi elmi-tədqiqat müəssisələri meydana gəldi. Ulu öndərin təşəbbüsü və bilavasitə iştirakı sayəsində ölkəyə ilk böyük elektron hesablama maşını – BESM-6 gətirildi. Respublika avtomatlaşdırılmış idarəetmə sistemləri – RASU – “Azərbaycan”, respublika kompüter şəbəkəsi, akademşəbəkə, bütün Sovet İttifaqında tanınan və istifadə edilən avtomatlaşdırılmış neftçıxarma idarəetmə sistemləri və kompleksləri işlənib hazırlandı. “NORD”, “AZON” kimi elm-istehsalat birlikləri, Radiozavod, Elektron hesablama maşınları zavodu, “Ulduz”, “Peyk” kimi iri istehsalat kompleksləri inşa edildi. Bir qədər sonra Naxçıvanda, Tərtərdə, Mingəçevirdə, Əli Bayramlıda, Gəncədə, Sumqayıtda və Bakıda 30-dan artıq elektron və cihazqayırma zavodları tikilib istifadəyə verildi. Beləliklə, ölkəmizdə yeni və son dərəcə əlverişli bir sənaye sahəsi təşkil edildi, bu sahənin elmi təminat bazası formalaşdırıldı. Elmi-tədqiqat institutlarının nəzdində “Kristal”, “Registr”, “Tellur”, “Kibernetika”, “Biotex”, “Mikroelektronika”, “Kaskad” kimi xüsusi konstruktor büroları yaradıldı. Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft Akademiyası, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Sumqayıt Dövlət Universiteti, Mingəçevir Politexnik İnstitutu, Lənkəran Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti kimi ali təhsil müəssisələrində İKT ixtisasları üzrə mütəxəssis hazırlığı üçün müvafiq maddi-texniki baza formalaşdırıldı.

Beləliklə, hazırda dünya ictimaiyyətinin qəbul etdiyi, müasir sosial-iqtisadi inkişaf sxemi kimi xarakterizə edilən “Universitet-iqtisadiyyat-hökumət” modelini Ulu öndər keçən yüzilliyin 70-80-ci illərdə artıq Azərbaycanda pratiki olaraq tətbiq etmişdi. [2].

Müstəqilliyimizin ilk dövrlərində Ulu öndər İKT-nin tətbiqinə böyük diqqət verir və bu sahədə əsaslı irəliləyiş əldə etmək üçün həmişə səylər göstərirdi. Amerika qitəsi ilə respublikamız arasında birbaşa rabitəyə imkan yaradan peyk-rabitə sisteminin qurulması, “Baksell” və “Azərsell” ortaq müəssisələrinin təsis edilməsi ilə ölkəmizdə mobil rabitənin inkişafının təməli qoyulması, beynəlxalq Telefon Stansiyasının quraşdırılması Ümummilli liderin bu sahədə atdığı ilk və mühüm addımlar idi.

Respublikamızda rabitə sektoruna ilk sərmayələrin cəlb edilməsi də Heydər Əliyevin əməyi sayəsində mümkün olmuşdur. Respublikamızın radio-televiziya yayımının müasir tələblərə cavab verən səviyyədə təşkil edilməsi, milli televiziya proqramının süni peyk vasitəsilə yayımlanması, Avropa və Yaxın Şərq ölkələri ilə yanaşı, faktiki olaraq, blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının sakinlərinin də Milli televiziya proqramlarına tamaşa etmək imkanı əldə etmələri məhz Ulu öndərin adı ilə bağlıdır.

Təsadüfi deyil ki, bu gün regionda ən dinamik inkişaf edən ölkə kimi Azərbaycanın İKT sektorunun böyüməsi üçün geniş imkanları var. Cəmiyyətimiz bu imkanlardan maksimum

faydalanaraq, dünya birliyinə inteqrasiya olunmağı özünün əsas vəzifələrindən biri kimi görür. Bu vəzifənin şərəflə yerinə yetirilməsi üçün 2003-cü ildə Ulu öndərin uzaqgörənliklə imzaladığı və bu məqsədlərə nail olmağın yollarını müəyyən edən “Azərbaycan Respublikasının inkişafı naminə İnformasiya və Kommunikasiya Texnologiyaları Üzrə Milli Strategiya”sı [3] düşünülmüş surətdə, kompleks şəkildə, sistemli və ardıcıl olaraq həyata keçirilir. Azərbaycan Cənubi Qafqaz regionunda bu sahə üzrə Milli Strategiya qəbul edən birinci ölkə olmuşdur.

2003-cü ildə İlham Əliyevin prezident seçilməsi ilə respublikamızın inkişafı yeni mərhələyə qədəm qoydu. Ölkə iqtisadiyyatının inkişafı davamlı və dayanıqlı xarakter aldı. Qısa müddət ərzində Azərbaycanda İKT sektorunun inkişafı üçün tarixi əhəmiyyətli addımlar atıldı. Azərbaycan İKT üzrə beynəlxalq tədbirlərin aparıcı iştirakçısına və aktiv təşkilatçısına çevrildi. Bu bir faktdır ki, İKT-nin inkişafı bu gün ölkənin dövlət siyasətində müəyyən olunmuş əsas prioritet istiqamətlərdən biri olaraq qəbul edilir.

Ölkəmizdə İKT sektorunun inkişaf dinamikası, düşünülmüş uğurlu neft strategiyası sayəsində Azərbaycana olan inamın artması, beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq, yüksək texnologiyaya söykənən iqtisadiyyatın formalaşması, dövlət siyasətinin mühüm tərkib hissəsi kimi İKT sektoruna xüsusi diqqət və daimi qayğı göstərilməsi, respublikamızın yaxın gələcəkdə yüksək texnologiyalar sahəsində yalnız regionda deyil, eyni zamanda öncül ölkələr arasında özünə layiq yer tutacağına təminat verən amillərdir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi: https://president.az/articles/35601
2. Abbasov Ə. Heydər Əliyevin İKT siyasəti müasir mərhələdə. “Azərbaycan” qəz., 2009, 8 may, s.5
3. Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə milli strategiya (2003-2012-ci illər). Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli 1146 nömrəli Sərəncamı ilə təsdiq olunmuşdur.

UOT 32(092)

## Heydər Əliyev və Azərbaycan təhsili

*Mənsurə İttifaq qızı İsmayılova,*
*Azərbaycan Dillər Universiteti*

Azərbaycan təhsilinin mühüm inkişafı Ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Ulu öndərin təhsil sahəsinə diqqət və qayğısı əvəzsiz olub.

“Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı, Azərbaycan elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərlə əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq.” [4] Bu kəlamlar Ümummilli liderimizin təhsilə nə qədər önəm verdiyinin təzahürüdür.

Azərbaycanlı olmağı ilə fəxr edən, müəllim adını bütün adlardan üstün tutan Ulu öndər müəllimə həmişə yüksək qiymət vermişdir. “Həyatını müəllimliyə həsr edən insanlar, həqiqətən, fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır” [4].

Azərbaycan Respublikasına rəhbərlik etdiyi bütün dövrlərdə Ümummilli liderimiz təhsilin inkişafı üçün bir çox yeniliklər etmişdir. Heydər Əliyev SSRİ dövründə, yəni Azərbaycan

Respublikasına rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində də Ümummilli lider Heydər Əliyevin təhsilimizə böyük qayğısının nəticəsi olaraq, Azərbaycanda çoxlu sayda məktəb binası tikilərək istifadəyə verilib. Ölkədə yeni ali təhsil müəssisələri açılıb, təhsil ocaqlarının maddi-texniki bazası möhkəmləndirilib, lazımi avadanlıqla təchiz olunub.

“Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam. Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu mənim prinsipial mövqeyimdir...” [4]

Ulu öndər daim gənclərin hərtərəfli inkişafına böyük önəm verirdi. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə hər il yüzlərlə Azərbaycan gənci SSRİ-nin müxtəlif şəhərlərinə ali təhsil almağa göndərilirdi. Həmin gənclər Azərbaycan üçün çox vacib olan ixtisaslar üzrə təhsil alırdılar və respublikamıza bacarıqlı mütəxəssislər kimi qayıdırdılar. Ümummilli lider öz çıxışlarında da dəfələrlə təhsilin mürəkkəb və olduqca vacib bir sahə olduğunu vurğulayaraq qeyd etmişdir ki, “təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır”.

Ulu öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. O, təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır.

Ulu öndərin tapşırığı əsasında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 26 aprel 1999-cu il tarixli Qərarı ilə Azərbaycan Respublikasında ümumi orta təhsilin dövlət standartının təsdiq edilməsi və buna uyğun olaraq, həyata keçirilən islahatlar təhsil sistemində mühüm yeniləşməyə rəvac vermişdir. Ümummilli liderin “Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında” 30 mart 1998-ci il tarixli Sərəncamına uyğun olaraq, təhsil sektorunun bütün sahələrini əhatə edən islahatlar proqramı hazırlanmışdır. H.Əliyevin 15 iyun 1999-cu il tarixli Sərəncamı ilə qəbul olunmuş “Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı” bu sahədə hərtərəfli inkişafa geniş şərait yaradan qiymətli dövlət konsepsiyasıdır.

“Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir,” – deyən Ümummilli lider Azərbaycan təhsilinin dinamik inkişafını təmin edən bir sıra sənədlər imzalamışdır. “Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi haqqında” 13 iyun 2000-ci il, “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 18 iyun 2001-ci il, “Azərbaycan əlifbası və Azərbaycan Dili Günü (1 avqust) təsis edilməsi haqqında” 9 avqust 2001-ci il, “Azərbaycan Respublikasında dövlət dili haqqında” Qanunun tətbiq edilməsi barədə” 2 yanvar 2003-cü il tarixli Fərman və Sərəncamlar təhsilimizin dünya standartları səviyyəsinə qaldırılmasında böyük rol oynadı.

2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı “Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında” Sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biridir. Bu sərəncam ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır.

“Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli Sərəncamı da ölkədə təhsil sahəsində müstəsna əhəmiyyətə malik dövlət sənədidir.

Ümumiyyətlə, qəbul olunmuş qərar, fərman və sərəncamlar, onların həyata keçirilməsi müstəqil Azərbaycanda təhsil sektorunun hərtərəfli yüksəlişini, tərəqqisini, məzmunca yeniləşməsini, maddi-texniki cəhətdən möhkəmlənməsini, dünya standartlarına yaxınlaşmasını şərtləndirmişdir. Yeni təhsil müəssisələrinin yaradılması, məktəblərin müasir tədris vasitələri ilə təmin edilməsi, şagirdlərin dövlət hesabına pulsuz dərsliklərlə təmin olunması, müəllim əməyinin yüksək qiymətləndirilməsi, onların maddi vəziyyətinin əsaslı şəkildə yaxşılaşdırılması, istedadlı

gənclərə böyük dövlət qayğısının göstərilməsi, onların xaricdə təhsilə göndərilməsi və sair sahələrdə də Ümummilli liderimizin misilsiz xidmətləri müstəqil Azərbaycanda təhsil siyasətinin geniş üfüqlərindən soraq verir.

Ümummilli liderimizin təməlini qoyduğu, möhkəmləndirdiyi təhsil siyasəti bu gün də etibarlı zəmin üzərində sistemili şəkildə uğurla inkişaf etdirilir. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin böyük səyləri sayəsində elm və təhsil sahələri Azərbaycanın davamlı inkişaf strategiyasının mühüm istiqamətlərindən birinə çevrilmişdir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Səmədov A. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısı, Gəncə, 2020
2. http://www.anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_dekabr2009/99233.htm
3. https://azedu.az/az/news/29117-uluonderheydereliyevtehsilve-elm-haqqinda
4. http://www.anl.az/down/meqale/az_muellimi/2010/dekabr/145271.htm

UOT 9/47.924

**Azərbaycan Ordusunun tarixi qələbəsi Ulu öndər Heydər Əliyev ideyalarının və Xalq-Prezident birliyinin məntiqi nəticəsi kimi**

*Samirə Əliağa qızı Qasımova,*
*Azərbaycan Dövlət Aqrar Universiteti*

Bu günlərdə hər birimiz çox qururlu və şərəfli bir tarix yaşadıq. Azərbaycan xalqının birliyi, Müzəffər Ali Baş Komandanın dəmir iradəsi, sarsılmaz qətiyyəti, Şanlı Ordumuzun qüdrəti sayəsində Azərbaycan xalqı zəfər qazandı. Cəmi 44 gün davam edən Vətən müharibəsi işğal edilmiş ərazilərimizin azad edilməsinə və eləcə də 30 ilə yaxın davam edən münaqişənin həllinə gətirib çıxartdı. Bu baxımdan Azərbaycan xalqının bu qələbəsi fövqəladə tarixi əhəmiyyətə malikdir.

Əlbəttə ki, Vətən müharibəsində Böyük Qələbəmizdən yazarkən qeyd edilməsi vacib olan ən mühüm amillərdən biri də Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu ordu quruculuğu siyasətidir. 1993-cü ilin böhranlı yayında xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdandan sonrakı aylarda Ulu öndər qısa bir müddətdə atəşkəsin əldə olunmasına, qüvvələrin səfərbər edilməsi üçün zəruri olan təşkilatlanma fəaliyyətinin həyata keçirilməsinə, iqtisadi tənəzzülün dayandırılmasına və ölkənin davamlı inkişafına yol açan sabitliyin təmin edilməsinə nail oldu. Məhz bu tarixdən başlayaraq, Azərbaycanda daha sistemli və vahid mərkəzdən idarə olunan ordu quruculuğuna start verildi [4, s.3].

H.Əliyevin rəhbərliyi altında Azərbaycanın hərbi təhlükəsizliyinin, müstəqilliyinin və suverenliyinin qarantı olacaq ordunun formalaşdırılmasının dövlət səviyyəsində, mərkəzləşdirilmiş şəkildə həyata keçirilməsi üçün qəti və təxirəsalınmaz tədbirlər müəyyənləşdirildi, xalqın və ölkənin bütün imkanları bu mühüm prosesə səfərbər edildi, ordu quruculuğu zərərli sapınmalardan təmizləndi, bu proses dövlətçilik təcrübəsi və milli maraqlar üzərinə gətirildi və bununla da silahlı qüvvələr quruculuğunun keyfiyyətcə yeni bir mərhələsi başlandı. Həmin mərhələnin başlanğıcını isə Heydər Əliyevin radio və televiziya ilə Azərbaycan xalqına 2 noyabr 1993-cü il tarixli müraciəti qoydu [6, s.345].

Qeyd etmək lazımdır ki, bu xidmətlərin tarixi öz başlanğıcını hələ sovet dövründə Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdən götürürdü. Belə ki, xüsusən, milli hərbi kadrların yetişdirilməsi və o cümlədən C.Naxçıvanski adına hərbi-internat məktəbin açılması Azərbaycanda milli hərbi quruculuğun çox qiymətli səhifələrindən birini təşkil etməkdədir.

Bütövlükdə, Ümummilli lider Heydər Əliyevin ikinci dəfə, ölkəmiz üçün həlledici bir məqamda hakimiyyətə gəlişi Azərbaycanın müasir tarixinin şərəfli səhifələrinin yazılmasına və dövlətimizin müstəqilliyinin əbədiliyinə hərtərəfli zəmin yaratmış oldu. Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlər möhtəşəm quruculuq və tərəqqi, davamlı və hərtərəfli inkişaf mərhələləri kimi şanlı tariximizin səhifələrinə qızıl hərflərlə yazılmışdır [1, s.6]. Ulu öndər Azərbaycana 1993-2003-cü illəri əhatə edən ikinci hakimiyyət dövründə də dünyanın ən nadir şəxsiyyətlərindən, görkəmli siyasi xadimlərindən biri olduğunu növbəti dəfə nümayiş etdirdi.

Bu gün Ümummilli liderin ideyaları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin gərgin əməyi və fəaliyyəti nəticəsində yaşayır və uğurla inkişaf edir. Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən ötən müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Şübhəsiz, sosial-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində Ümummilli lider Heydər Əliyevin inkişaf strategiyası, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır. O da həqiqətdir ki, Ulu öndərin əsasını qoyduğu daxili və xarici siyasət kursunun uğurla davam etdirilməsi sayəsində Azərbaycan bugünkü yüksəlişə və inkişafa nail olub [3, s.12].

Bütün sahələrdə olduğu kimi, 1994-cü ildən 2003-cü ilə kimi ordu quruculuğunda da qazanılan uğurlar cənab İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra daha da genişləndi. Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev tərəfindən qurucusu Ümummilli liderimiz Heydər Əliyev olan ordunun maddi-texniki bazasının gücləndirilməsi, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilməyə başlanıldı. Cənab Prezident ordu quruculuğunu dövlətin qarşında dayanan prioritet vəzifələrdən biri kimi dəyərləndirirdi. Ordu quruculuğunun dövlət quruculuğunun mühüm sahələrindən biri olmasını və bu sahəyə dövlət tərəfindən ciddi diqqət yetirildiyini öz çıxışlarında hər zaman qeyd edirdi: “Ordu quruculuğu məsələləri həmişə diqqət mərkəzindədir. Bu, bizim üçün əsas məsələdir” [7]; “Ordu quruculuğu hər bir ölkə üçün çox önəmli məsələdir. Xüsusilə müharibə şəraitində yaşayan ölkə üçün bu, prioritet olmalıdır. Bu, belədir və Azərbaycanda ordu quruculuğu ən prioritet məsələdir” [8].

Cənab Prezident İlham Əliyev ordu quruculuğunu həm də milli qürur məsələsi sayırdı və bununla bu prosesin ümummilli xarakter daşıdığına da işarə edirdi. Bu prosesin xalq qayğısı, hər bir vətəndaşın qayğısı ilə əhatə olunmasının vacibliyini respublika Prezidenti öz çıxışlarında da qabardırdı. Çünki xalqın bir parçası olan ordu xalqın qayğısı ilə əhatə olunmasaydı bu ordu güclü ordu ola bilməzdi: “Azərbaycanda ordu quruculuğu ümumxalq işidir. Dövlət buna öz qayğısını, diqqətini göstərir. Azərbaycan xalqı, Azərbaycanda yaşayan, işləyən bütün insanlar, bütün qurumlar, özəl sektorun nümayəndələri də bu məsələyə böyük diqqətlə yanaşmalıdırlar”; “Bu gün ordu quruculuğu prosesinə böyük diqqət verilir. Siz bunu hiss edirsiniz, cəmiyyət bunu hiss edir. Çünki ordunun möhkəmləndirilməsi hər bir vətəndaşın işidir, hər bir vətəndaşın borcudur. İlk növbədə, dövlət öz diqqətini əsirgəməməlidir. Biz bütün sahələrdə orduda gedən proseslərin inkişafına çalışırıq” [5, s.697].

Çox sevindirici haldır ki, bütövlükdə, Ümummilli lider Heydər Əliyevin Dağlıq Qarabağla bağlı hərtərəfli düşünülmüş, dünya birliyi tərəfindən qəbul edilən siyasətini son 17 ildə onun layiqli davamçısı cənab Prezident İlham Əliyev uğurla davam etdirdi. Bu siyasətin bir cümlə ilə ifadə edilə bilən mahiyyəti belə idi: “Ermənistan münaqişənin danışıqlar yolu ilə, müharibənin sülhlə başa çatmasına razı olmasa, Azərbaycan öz torpaqlarını hərbi yolla azad edəcək”. Dövlət rəhbəri eyni zamanda onu da bəyan edirdi ki, müharibənin davam etdirilməsi Azərbaycan dövlətinin seçimi deyildir. Lakin işğalçı dinc müzakirələrin nəticəsi kimi işğal etdiyi ərazilərdən geri çəkilməsə, onda Azərbaycan xalqının və dövlətinin başqa bir seçimi də qalmayacaqdır. Məhz 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı təxribat törədərək, hərbi obyektləri və mülki əhalini hədəfə alandan sonra Azərbaycan Ordusunun beynəlxalq hüquqa əsaslanaraq, ərazi bütövlüyümüz uğrunda əks-hücuma keçməkdən başqa yolu qalmadı. Ermənistanın növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham

Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirdi. Vətən müharibəsinin ilk günlərindən taktiki üstünlüyü ələ alan Azərbaycan Ordusunu hər gün yaşayış məntəqələrimizi, strateji yüksəklikləri azad edərək düşmən üzərində tam üstünlüyə nail oldu, düşmənin illərlə yaratdığı "məğlubedilməz ordu" mifi 44 gün ərzində bütün dünyanın gözü qarşısında yerlə yeksan etdi və tarixi qələbə qazandı. Qarabağın tacı sayılan Şuşanın azad edildiyi 8 Noyabr rəmzi olaraq, tariximizə Zəfər Günü kimi yazıldı.

Vətən müharibəsində Zəfər qazanmağımızda böyük rolu olan amillərdən biri də Azərbaycan əsgər və zabitlərinin peşəkarlığı, yüksək mənəvi keyfiyyətləri, cəsurluğu, vətənpərvərliyi, inamı, şəxsi rəşadətləri, qələbə əzmi, döyüş əhval-ruhiyyəsidir. Sözün həqiqi mənasında döyüş meydanında yeni tarix yazan Azərbaycan Ordusunun hərbi qulluqçularının göstərdiyi qəhrəmanlıq, şəxsi rəşadət, igidlik qanı və canı bahasına bu qələbənin əldə olunmasını təmin etdi. Azərbaycan xalqının qəhrəman oğulları hər birimizə qürurverici anlar yaşatdı, qəlbimizi fərəhlə doldurdu və Azərbaycan xalqını dünyaya qürurlu xalq kimi tanıtdı.

Tarixi qələbənin qazanılmasında dünyanın harasında olmasından asılı olmayaraq hər bir azərbaycanlının həmrəy olması da əsas şərtlərdən oldu. Ölkəmizin azadlığı, ərazi bütövlüyü naminə öz şəxsi mənafeyini, canını, malını qurban verməyi bacaran və dəmir bir yumruq olaraq dövlət başçısının ətrafında birləşməyi bacaran Xalq olduğunu bir daha təsdiq etdi. Azərbaycan Prezidentinin Vətən müharibəsinin gedişində xarici kütləvi informasiya vasitələrinə çoxsaylı müsahibələri Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, davam edən hərbi əməliyyatlarla bağlı tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanaraq tutarlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, ölkəmizin haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. Bu, Azərbaycan diasporunun ziyalıları və ən əsası isə, qəlbi daima Vətənlə döyünən soydaşlarımızı informasiya müharibəsi istiqamətində düşmən üzərində əldə etdiyimiz qələbənin qazanılmasında daha da ruhlandırdı və azərbaycançılıq ideyası ətrafında milli həmrəyliyin daha da güclənməsində müstəsna rol oynadı [2, s.8].

Bütövlükdə, Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti, Azərbaycan xalqı Vətən müharibəsində qalib gəlməklə, Ulu öndər Heydər Əliyevin böyük siyasətinin ölməzliyini bir daha təsdiqləmiş oldu. Həmçinin, əminik ki, bu tarixi qələbə daim azərbaycanlı olması ilə fəxr edən Ulu öndər Heydər Əliyevin ruhunu şadd etdi. Hər birimiz Ulu öndərin Cənab Prezidentimiz İlham Əliyev haqqında "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" dediyi bu fikirlərin hər keçən gün öz təsdiqini tapdığının şahidi olduq. Zaman Heydər Əliyev siyasətinin alternativsizliyini və xalqın İlham Əliyevi dəstəkləməklə ən doğru addım atdığını göstərdi.

**İstifadə edilmiş ədəbiyyat**

1. Babayev E. Heydər Əliyev – tarixi şəxsiyyət və tarix yaradan şəxsiyyət. "Xalq qəzeti", 2020, 12 dekabr, №261, s.6
2. Əhmədov E. Ulu öndər və Azərbaycan diasporu. "Xalq qəzeti", 2020, 13 dekabr, №262, s.8
3. Quliyeva Z. Müdriklik zirvəsi – Azərbaycan xalqının əbədiləşmiş lideri. "Səs" qəz., 2020, 12 dekabr, №223, s.12
4. Feyziyev C. Müstəqil Azərbaycanın böyük memarı. Xalq qəz., 2019, 3 oktyabr, №218, s.3
5. Süleymanov M. Azərbaycan ordusunun tarixi. V cild. Bakı: Maarif, 2019, 784 s.
6. Süleymanov M. Ehtiyatda Azərbaycanda Ali Baş Komandanlıq institutunun Heydər Əliyev mərhələsi. Bakı: Elm və təhsil, 2018, 728 s.
7. http://files.preslib.az/site/ialiyev/2010.pdf Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyində ordu quruculuğu məsələlərinə həsr olunmuş müşavirə. 23 aprel 2010-cu il
8. http://files.preslib.az/site/ialiyev/2010.pdf Azərbaycan Silahlı Qüvvələrinin Yaradılmasının 92-ci ildönümü münasibətilə Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və Daxili İşlər

Nazirliyi Daxili Qoşunlarının birləşmə və hissələrinin keçirdiyi irimiqyaslı birgə əməliyyat-taktiki təlimi. 24 siyun 2010-cu il

UOT 94(479.24)

**Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər**

*Pərviz Tahir oğlu Cəfərov,*
*Sumqayıt Dövlət Universiteti*

Müasir Azərbaycan Ordusunun qurulması, inkişafı, möhkəmlənməsi Heydər Əliyevin təşkilatçılıq qabiliyyətinin, dövlətçilik təfəkkürünün, siyasi uzaqgörənliyinin məhsuludur. Azərbaycan Ordusunun memarı olması Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətlərindən biridir. Heydər Əliyevin qətiyyət və fədakar əməyinin əsəri olan müasir Azərbaycan Ordusu müstəqilliyimizin və ərazi bütövlüyümüzün etibarlı qarantıdır.

Heydər Əliyev ordu quruculuğu sahəsində Azərbaycan xalqına nəsillərdən-nəsillərə ötürüləcək, izləniləcək zəngin bir irs buraxmışdır. Bu irs Azərbaycan xalqının müstəqil dövlət quruculuğunun fəlsəfəsini əks etdirir, bu prosesə milli yanaşmanı formalaşdırır. Heydər Əliyevin ordu quruculuğu təfəkkürünün əsasını güclü lider, xalq və ordu birliyi ideyası təşkil edir.

Heydər Əliyev hələ Sovetlər dövründən başlayaraq, ordu quruculuğu sahəsində əvəzsiz işlər görmüşdür. Azərbaycanın imperiya əsarətində olmasına baxmayaraq, Heydər Əliyevin xalqımızın zəngin hərb tarixinin canlandırılması, görkəmli hərb xadimlərinin şərəfli yolunun davam etdirilməsi üçün hər zaman yorulmaz fəaliyyət göstərmişdir.

Hələ çar Rusiyası dövründən əsası qoyulmuş və Sovet Rusiyası dövründə də davam etdirilən azərbaycanlıların hərb işindən təcrid olunması siyasətı Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə tam iflasa uğradı. Heydər Əliyev respublikaya rəhbərlik etdiyi illərdə Azərbaycan xalqının hərbi xidmətə yeni münasibəti formalaşdırıldı, hərbi xidmət kişilik məktəbi, gənc nəsil üçün xüsusi əhəmiyyət kəsb edən ləyaqətli peşə sahəsinə çevrildi.

1969-1982-ci illər Sovet Azərbaycanının ictimai, sosial və mədəni sahələrində uğurlu islahatlar, böyük nailiyyətlər, diqqətəlayiq qələbələr illəri kimi həkk olunmuşdur. Heydər Əliyevin təbirincə desək, "... bu illər quruculuq işlərinin vüsətinə görə, respublikanın salnaməsində görkəmli yer tutur" [2, s.125].

Hələ totalitar-bürokratik idarəetmə sisteminin hakim olduğu illərdə Azərbaycanın nə vaxtsa imperiya buxovlarından qurtulub azad olacağını uzaqgörənliklə duyan Heydər Əliyev azərbaycanlı gənclərin Sovet Silahlı Qüvvələrində daha geniş təmsil olunmaları yönündə cəsarətli addımlar atır, gələcək müstəqil Azərbaycanın Silahlı Qüvvələri üçün kadr hazırlığının təməlini qoyurdu [1, s.7].

Məlumdur ki, Sovet dövründə azərbaycanlı gənclərin əksəriyyətinin arxa xidmət hərbi hissələrinə göndərilirdi ki, buna da əsas səbəb kimi onların rus dilini zəif bilməsi göstərilirdi. Burada əsas məqsəd isə azərbaycanlıların hərb işindən yadırğadılması idi. Azərbaycanlı gənclərin əksəriyyəti ikinci-üçüncü dərəcəli hərbi hissələrə və ya inşaat hərbi hissələrinə göndərilirdi. Heydər Əliyev bu sahədə əsaslı dəyişikliklər edilməsi üçün bir sıra vacib addımlar atdı. XX əsrin 70-ci illərindən etibarən peşəkar hərbi kadrların hazırlanması məsələsi Azərbaycan xalqının əsas vəzifələrindən biri kimi ortaya qoyuldu. Respublikada rus dilinin tədrisinə diqqət artırıldı, rus dili müəllimləri hazırlayan ayrıca bir institut yaradıldı. Azərbaycan Dövlət Pedaqoji İnstitutu nəzdində ibtidai hərbi hazırlıq müəllimləri hazırlayan fakültə açıldı, hərbi komissarlıq orqanlarının fəaliyyətinə tələbkarlıq artırıldı, hərbi vətənpərvərlik tərbiyəsi gücləndirildi, gənclərin hərbi xidmətə çağırış işi təkmilləşdirildi, xüsusi ixtisas hazırlığı verən hərbi hissələrə göndərilən azərbaycanlıların sayı artırıldı.

İttifaq rəhbərliyi orduda yüksək vəzifələrə başqa millətlərin, o cümlədən azərbaycanlıların yüksəlməsinin əleyhinə idi. Bu dövrdə respublikada Bakı Ali Ümumqoşun Komandirləri Məktəbi

və Bakı Ali Hərbi Dənizçilik Məktəbi fəaliyyət göstərirdi ki, bu məktəblərdə təhsil alan kursantların arasında azərbaycanlıların sayı son dərəcə az idi. Heydər Əliyev öz qətiyyətini ortaya qoydu və ilk növbədə yüksək rütbəli azərbaycanlı kadrın Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin rəhbərliyinə gətirilməsinə nail oldu. Geniş təşkilati işlərin aparıması bu məktəbə qəbul olunanlar arasında azərbaycanlıların sayının xeyli artmasına gətirib çıxardı. Digər tərəfdən İttifaq miqyasında olan ali hərbi məktəblərdə təhsil alan azərbaycanlı gənclərin də sayının artırılması istiqamətində böyük işlər görüldü.

Heydər Əliyevin sovet dövründə ordu quruculuğu sahəsində apardığı hərbi-təşkilati işin ən parlaq səhifəsi general Cəmşid Naxçıvanski adına hərbi-internat məktəbin açılması oldu. Çox böyük maneələrin mövcudluğuna baxmayaraq  gənclərin hərb işinə cəlb edilməsi və milli hərbi ənənələrin canlandırılması üçün fövqəladə əhəmiyyətə malik olan belə bir təhsil ocağının açılması Heydər Əliyevin şəxsiyyətinin  mübarizliyinin, fədaklarlığının nəticəsi idi.

Heydər Əliyevin diqqət və qayğısı sayəsində C.Naxçıvanski adına Hərbi Lisey qısa vaxt ərzində ən müasir hərbi təhsil müəssisəsinə çevrildi. Hərbçi peşəsinin nüfuzunun artmasında, orduda peşəkar hərbçilərin sayının artmasında bu xüsusi diqqət və qayğı çox mühüm rol oynadı.

XX əsrin sonlarında Azərbaycan xalqının müstəqillik əldə etməsi və onun ayrılmaz atributu olan müstəqil milli ordu yaradılması prosesi zamanı Sovet dövründə C.Naxçıvanski adına Hərbi Liseyin təşkil edilməsinin, eləcə də azərbaycanlı gənclərin hərbi işə cəlb edilməsinin nə qədər böyük  tarixi əhəmiyyətə malik olduğu bir daha aydın oldu.

Təxminən 70 illik fasilədən sonra Azərbaycan xalqının intizarında olduğu belə bir tarixi imkanın meydana gəlməsi zamanı, hakimiyyətə gələnlərin səriştəsizliyi, təcrübəsizliyi, xalqın milli mənafelərinə laqeyd münasibətləri Azərbaycan Ordusunun yaranmasını prosesini ləngitdi. Dövlətin ordu quruculuğuna səriştəli şəxslərin rəhbərliyini təmin edə bilməməsi ordunun bəzi cinayətkar şəxslərin ətrafında cəmləşdirilməsinə, parçalanmasına, siyasi mənsubiyyətə görə qruplaşmasına gətirib çıxardı. Səriştəsiz şəxslərin avantürist əməlləri nəticəsində ayrı-ayrı şəxslərin ordunu parçalamaq istiqamətində apardıqları təxribatlar yalnız və yalnız düşmən dəyirmanına su tökürdü.

Beləliklə, 1993-cü il iyunun 9-da Ulu öndər Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi Azərbaycanın taleyi ilə bağlı narahatçılıqlara son qoydu. Bu qayıdış xalqımızı fəlakətdən xilas etdi. Ümummilli liderin Bakıya gəlməsi xəbəri xalq tərəfindən sevinclə qarşılandı. 1993-cü il iyunun 15-də isə Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü il iyunun 15-də Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Azərbaycanın mürəkkəb kataklizmlərlə müşayiət edilən daxili siyasi böhrandan qurtulması məhz bundan sonra mümkün oldu [3, s.3].

**İstifadə edilmiş ədəbiyyat**

1. Heydər Əliyev və ordu quruculuğu. Bakı: Adiloğlu, 2006, 480 s.
2. Sərdarov Zakir. Heydər Əliyev və milli mübarizə tariximiz. Bakı: Çinar, 2008, 166 s.
3. “Yeni Azərbaycan” qəz., 2019, 3 sentyabr,  №159

UOT 949(479.24)

## Ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə müstəqil Azərbaycanın iqtisadi inkişafı

*Samir Qasım oğlu Məhərrəmov,*
*Sumqayıt Dövlət Universiteti*

Heydər Əliyev hələ 1993-cü il oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti kmi andiçmə mərasimindəki nitqində Azərbaycanın ağır iqtisadi böhran vəziyyətindən çıxarılması üçün

sosial-iqtisadi sahədə qarşıda duran təxirəsalınmaz vəzifələri irəli sürmüş və onların həyata keçirilməsi uğrunda həyatının sonuna qədər biliyini, bacarığını, təcrübəsini həsr edəcəyinə and içmişdi. O, elə bir şəraitdə hakimiyyətə gəlmişdi ki, son illərdə respublika iqtisadiyyatı, demək olar ki, tamamilə dağılmışdı. Lakin Heydər Əliyev respublikamızın böyük iqtisadi-sosial, elmi-texniki potensialına əsaslanaraq ölkəni ağır böhrandan çıxacağına əmin olduğunu bəyan etdi. “...biz gələcək işimizdə bir tərəfdən yaranmış potensialdan səmərəli istifadə etmək, digər tərəfdən isə yeni iqtisadi islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik”. İqtisadi islahatların həyata keçirüməsində yeni mülkiyyət formalarının, münasibətlərinin yaranması, dövlət mülkiyyətinin özəlləşdirilməsi əsas xətt idi. Heydər Əliyev deyirdi: “Respublikada bazar iqtisadiyyatına, sərbəst iqtisadiyyata keçmək üçün mülkiyyət forması dəyişməlidir, özəlləşdirmə getməlidir”. Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsi haqqında hələ 1993-cü ilin yanvar ayında Milli Məclis qanun qəbul etmişdi. Heydər Əliyev həmin qanunu özəlləşdirməni həyata keçirmək üçün hüquqi əsas yaradan bir sənəd hesab edirdi. Lakin həmin qanunun qəbul edilməsindən sonra respublikada özəlləşdirmə sahəsində heç bir konkret tədbir görülməmişdi. Mülkiyyət münasibətlərinin islahatı üçün hüquqi zəmin olan bu sənədə əsaslanıb fəaliyyət göstərmək üçün imkanlar açılmışdı. Lakin keçmiş Dövlət Əmlak Komitəsi fəaliyyətsizlik göstərmiş, özəlləşdirməyə dair kompleks proqram və onun həyata keçirilməsini təmin edən normativ sənədlər hazırlamamışdı. Komitənin təqdim etdiyi sənədlərdə isə özəlləşdirmənin lazımi miqyasda aparılması nəzərdə tutulmurdu. Azərbaycan Respublikası Nazirlər Kabineti də özəlləşdirmə prosesini qaydaya salmaq sahəsində zəruri tədbirlər gönnək əvəzinə, respublikada özəlləşdirmə prosesinin inkişafına mane olurdu. [2, s.251-252]

Prezident Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlər mövcud iqtisadi böhranı aradan qaldırmağa, iqtisadi sabitlik yaratmağa və tərəqqiyə yol açmağa imkan verdi. Ölkənin iqtisadiyyatına bütün mənbələrdən sərmayə qoyuluşu 1993-cü ildəki 29 milyard manatdan 2000-ci ildə 4,2 trilyon, 2001-ci ildə 5,7 trilyon manata çatdırıldı. 2002-ci ildə bu, 1 milyard 200 milyon dollar təşkil edirdi. Ümumiyyətlə, 1996-2002-ci illərdə iqtisadiyyata 12 milyard dollar investisiya cəlb olunmuşdu. Respublikada bir çox yeni sənaye müəssisəsi, istehsalat, sex, qurğu işə salındı. 1993-cü ildə Bakıda çoxsaylı lövhələr istehsal edən “Peyk” zavodu, parket, plastik pəncərə fabrikləri işə düşdü. 1995-1996-cı illərdə Neft daşlarında yanacaq qazının tutulub sahilə ötürülməsi üçün kompressor stansiyası istifadəyə verilərək 318 modernləşdirildi və gücü iki dəfə artırıldı. 600-dən çox, təkcə Balaxanı-Sabunçu Ramana yatağında 380 köhnə quyu təmir olunub istismara qaytarıldı. Şirvanın köhnə Gürovdağ neft yatağında yeni məhsuldar qatlar kəşf olundu. 1997-ci ilin yazında burada qazılan iki quyu fontan vurdu. “Bahar” dəniz neft yatağında yeni üsulların tətbiqi nəticəsində köhnə neft quyusu işə düşdü.148 1997-ci ildə “Günəşli” yatağında ilkin neftin hasilinə başlanıldı. 2000-ci ildə respublikada 14 milyon ton neft hasil edildi. 1994-1995-ci illərdə neftayırma zavodlarında qurğular modernləşdirildi. Qaz emalı zavodu yenidən quruldu. Respublikanın maşınqayırma sənayesi müəssisələri xarici bazar olmadığından profilini dəyişib respublika sənayesi və kənd təsərrüfatı üçün avadanlıq, texnika, ehtiyat hissələri istehsal etməyə başladı. [1, s.317-318]

Heydər Əliyevin 1994-2003-cü illər iqtisadi strategiyasının əsas tezisləri aşağıdakılar idi:

- ölkə büdcəsinə 20 il ərzində 200 mld.dollar vəsait cəlb etmək;
- Xəzərin hüquqi statusunun müəyyənləşməsi prosesinə müsbət təsir göstərən fəaliyyət;
- iqtisadi və siyasi stabilliyin yaradılması;
- xammal ehtiyatlarından müstəqil istifadə etmək üçün şərait yaradılması;
- qeyri-neft sektorunun inkişafına təkan verilməsi;
- ölkənin xammal istehsal edən ölkədən tədricən sənaye məhsulları istehsal edən ölkəyə çevrilməsi.

Müstəqil Azərbaycan Respublikasında 1993-2003 və ondan sonrakı illərdə həyata keçirilən tədbirlər maliyyə-kredit böhranı da aradan qaldırdı, inflyasiyanı sabitləşdirdi, büdcə, xəzinə, xarici investisiya qoyuluşu və maliyyə-kredit problemlərini həll etdi. 2005-ci ildə manatın denominasiyası haqqında Fərman imzalandı, xəzinəyə iki milyard ABŞ dollarından artıq pul toplandı, neft gəlirlərinin vahid fonda yığılması və istifadəsi strategiyası müəyyən edildi. Ölkənin xarici kapital və

investisiya üçün əlverişli dövlət imicinin qorunub saxlanması üçün, qeyrineft sektorunun inkişafı üçün, manatın sabit kursunu təmin edilməsi üçün tədbirlər görüldü. [3, s.454-455]

Azərbaycanın bir dövlət kimi qarşıya qoyduğu məqsədlərdən biri də ordunun Vətənə, Azərbaycan xalqına və dövlətinə sadiq, yüksək hərbi hazırlığa malik milli hərbi kadrların yetişdirilməsində müasir tələblərə cavab verən hərbi təhsil sisteminin inkişafı və təkmilləşdirilməsidir. Prezident Heydər Əliyevin 1999-cu il 20 fevral tarixli Fərmanı ilə Hərbi Akademiya yaradılmışdır. Azərbaycanın 3,3 milyard dolları keçən illik hərbi büdcəsi Milli ordumuzun ən yeni hərbi texnika, silah-sursat və digər döyüş vasitələri ilə təchiz edilməsinə sərf olunur. Hərbi Dəniz Qüvvələri gəmilərinin, Hərbi Hava Qüvvələri isə Rusiya, Ukrayna və Belorusiyadan alınan döyüş təyyarəsi və helikopterlərin, İsraildən isə alınan yeni nəsil döyüş texnikası hesab edilən pilotsuz təyyarələrin sayına və hərbi-texnika imkanlarına görə Azərbaycan regionda ən güclü hava qüvvələri və donanmaya malik dövlətə çevrilmişdir. [4, s.317]

Qeyd edə bilərik ki, Heydər Əliyevin hakimiyyəti dövründə daxildə siyasi sabitliyin təmin edilməsi, makroiqtisadi göstəricilərin sabitləşməsi, tənəzzülün cilovlanması, iqtisadi dirçəliş, respublikanın etibarlı tərəfdaş imicinin yüksəlməsi, xarici iqtisadi əlaqələrin, investisiya qoyuluşunun genişlənməsi, struktur və institusion dəyişikliklərə istiqamətləndirilmiş islahatların dərinləşməsi iqtisadi inkişafın dönmədən sürətlənməsinə şərait yaradırdı. Ulu öndər Heydər Əliyein layiqli davamçısı Prezident İlham Əliyevin hakimiyyəti dövründə Azərbaycanın iqtisadi, sosial və siyasi həyatı daha da inkişaf etmişdir. Bu gün düşmən üzərində layiqli qalibiyyət, 30 ilə yaxın müddətdə işğalda olan vətən torpaqlarımızın düşmən tapdağından azad edilməsi ölkənin yalnız iqtisadi deyil, bütün sahələrdəki inkişafının bariz nümunəsidir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı: Elm, 2008, 608 s. (+80 s. illüstrasiya)
2. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, 472 s.
3. Qəniyev H.Q. Azərbaycan tarixi (ən qədim zamanlardan – XXI əsrin ilk onilliklərinədək) Ali məktəblər üçün dərslik. Bakı: Elm və Təhsil, 2019, 499 s.
4. Nuriyeva İ.T. Azərbaycan tarixi (ən qədim zamanlardan – XXI əsrin əvvəllərinədək): Ali məktəblər üçün dərslik. Bakı: Mütərcim, 2015, 336 s.

UOT 336.717

## Heydər Əliyev strategiyasının bank sisteminin gücləndirilməsində rolu və əhəmiyyəti

*Səmirə Rasim qızı Seyidova,*
*Sumqayıt Dövlət Universiteti*

Bu gün müstəqil Azərbaycan dövlətinin yaşaması, qüdrətli ölkə kimi təşəkkülü üçün Ümummilli lider Heydər Əliyevə minnətdarıq. Bunu demək yerinə düşər ki,  hər bir vətəndaşımızın qəlbində əbədiyaşarlıq zirvəsini fəth etmiş Heydər Əliyev əmanət olaraq xalqımıza zəngin maddi və mənəvi dəyərlər, alternativsiz dövlətçilik konsepsiyası, siyasi və iqtisadi cəhətdən etibarlı dayaqlar üzərində olan güclü Azərbaycanı qoydu.

Azərbaycan iqtisadiyyatını innovativ əsaslarla modernləşdirmək vəzifəsi iqtisadiyyatın real sektoruna intensiv birbaşa investisiyalar axınının təmin edilməsi məsələsinin əhəmiyyətini ön plana çəkir. Bu baxımdan əmanətləri investisiyaya çevirən, ölkənin iqtisadi sahələri və regionları üzrə səmərəli kapital axını təmin edən təşkilatlar kimi bankların rolunu artırmaq, onları real sektora borc

vermə məsələsində aktiv mövqe tutmağa sövq etmək lazımdır. Bu, Azərbaycanda investisiya layihələrinin maliyyələşdirilməsini təmin etmək, iqtisadiyyata kapital axınını sabitləşdirmək və iqtisadi subyektlərin investisiya aktivliyini artırmaqla vəziyyəti normallaşdırmağa kömək etməlidir.

Bu şərtlərlə bank sisteminin tənzimlənməsinin təkmilləşdirilməsi həm milli bank sisteminin təhlükəsizliyinin, həm də iqtisadiyyatın real sektoruna borc verilməsində bankların fəallığının artırılması istiqamətində həyata keçirilməlidir. Buna görə bank sisteminin sabitliyini gücləndirməklə, ölkənin kredit təşkilatlarının rəqabət qabiliyyətini artırmaq, bank tənzimləməsini və nəzarətini yaxşılaşdırmaq, mənafelərinin qorunmasını artırmaq və əmanətçilərin və digər kreditorların etibarını gücləndirməklə milli iqtisadiyyatın davamlı inkişafına kömək etmək aktual məsələlərdəndir.

Bank sisteminin vəziyyəti böyük ölçüdə milli iqtisadiyyatın inkişaf meyillərini və keyfiyyətini müəyyənləşdirir. Bank sisteminin gücləndirilməsi iqtisadiyyatın inkişafı üçün ən vacib şərtdir. Eyni zamanda, innovativ inkişaf və istehsalın iqtisadi artımı üçün bankların imkanlarından tam istifadə olunması dövlətin rolunun artmasını tələb edir. Müasir və yüksək texnologiyalı bank sektorunun formalaşması və inkişafı bu gün həm regional sosial-iqtisadi sistemin, həm də ölkənin bütün bank sisteminin inkişafı üçün müəyyənedici bir vektordur. Bütün bu cəhətlər bankların iqtisadi təhlükəsizliyinin və maliyyə sabitliyinin təmin olunmasını obyektiv zərurətə çevirir.

Hal-hazırda bank sistemlərinin təhlükəsizliyi üçün iki yanaşma mövcuddur:

- vahid yanaşma – təhdidlərə qarşı bir sıra üsulları birləşdirir;
- parçalanmış yanaşma, yəni müəyyən təhlükələrə qarşı mübarizə.

Böyük bank sistemlərinin (məsələn, beynəlxalq banklararası şəbəkələrin) qorunması üçün vahid yanaşma istifadə olunur. Bank sisteminin təhlükəsizliyini qiymətləndirmək üçün vahid yanaşma aşağıdakı şək. 1-dəki tələblərə cavab verməlidir [3, s.67].




**Şəkil 1.** Bank sisteminin təhlükəsizliyini qiymətləndirmək üçün vahid yanaşma

Hazırda bankların maliyyə sabitliyinin qiymətləndirilməsində yanaşmaları, yəni həm ayrı-ayrı bankların, həm də bütövlükdə bank sisteminin inkişaf xüsusiyyətlərini nəzərə alan göstəricilər toplusunu təkmilləşdirmək lazımdır. Bu baxımdan, bankların maliyyə sabitliyinin qiymətləndirilməsi sisteminin inkişafında perspektivli bir istiqamət yeni göstəricilərin (məsələn, davamlı maliyyələşdirmə nisbətinin və s.) tətbiq edilməsidir [2, s.315]. Beləliklə, müasir şəraitdə

bankın ən vacib səciyyəsi maliyyə sabitliyidir. Onun təmin edilməsi bankların fəaliyyətində ən çətin vəzifələrdən birinə çevrilir. Prinsipcə, qiymətləndirmənin nəticəsi istifadə olunan metodologiyadan və seçilmiş göstəricilər sistemindən asılıdır. Buna görə bankın dayanıqlığını qiymətləndirmək üçün etibarlı və dolğun məlumatlar əsasında bankın öz resurslarının, gəlirliliyinin və s. sahəsindəki siyasətini tam qiymətləndirməyə imkan verən göstəricilər sistemindən istifadə etmək vacibdir.

Bankların milli iqtisadiyyatda rolunu gücləndirmək üçün onların fəaliyyəti səmərəli idarə olunmalıdır. Bank sisteminin inkişafının idarə edilməsinin əsas vəzifələri bunlardır:

- bankların əmanətçilərinin və digər kreditorlarının maraqlarının qorunmasını gücləndirmək;
- bank sistemi tərəfindən əhalinin və təşkilatların vəsaitlərinin toplanması və onların kredit və investisiyalara çevrilməsi istiqamətində həyata keçirilən fəaliyyətlərin səmərəliliyinin artırılması;
- ölkənin kredit təşkilatlarının rəqabət qabiliyyətinin artırılması;
- kredit təşkilatlarının haqsız ticarət fəaliyyətinin həyata keçirilməsinin və qanunsuz məqsədlər üçün istifadəsinin qarşısının alınması;
- rəqabət mühitinin inkişafı və kredit təşkilatlarının fəaliyyətində şəffaflığın təmin edilməsi;
- investorlar, kreditorlar və əmanətçilər tərəfindən Azərbaycanın bank sektoruna inamın gücləndirilməsi;
- ölkənin bank sektorunun beynəlxalq maliyyə bazarlarında mövqeyinin gücləndirilməsi.

Cədvəl 1 [1, s.126] vasitəsilə əhalinin banklardakı əmanətlərinin illər üzrə həcminə diqqət yetirək.

**Cədvəl 1**

**Əhalinin banklardakı əmanətləri, ilin sonuna (mlyn. manat)**

| İllər | 2005 | 2010 | 2015 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| **Əhalidən cəlb olunmuş əmanətlər, o cümlədən** | **494,5** | **3029,8** | **9473,9** | **7561,2** | **8375,4** | **8637,9** |
| Milli valyuta ilə | 55,8 | 1409,9 | 1420,2 | 2532,9 | 3142,2 | 4132,7 |
| Xarici valyuta ilə | 438,7 | 1619,9 | 8053,7 | 5028,3 | 5233,2 | 4505,2 |

Cədvəldəki məlumatlardan göründüyü kimi, əhali tərəfindən banklara qoyulan əmanətlərin həcmində artım müşahidə olunur. Ən çox 2015-ci ildə əhali əmanətləri banklara cəlb olunmuşdur. Belə ki, əgər 2019-cu ildə əhali tərəfindən banklara qoyulan əmanətlərin həcmi 8637,9 milyon manat təşkil etmişdir ki, bu da 2005-ci illə müqayisədə 8143,4 milyon manat və yaxud 17,5 dəfə, 2010-cu illə müqayisədə 5608,1 milyon manat və yaxud 2,9 dəfə, 2017-ci illə müqayisədə 1076,7 milyon manat və yaxud 14,2 %, 2018-ci illə müqayisədə 262,5 milyon manat və yaxud 3,1 % çoxdur. Lakin 2015-ci illə müqayisədə 836,0 milyon manat və yaxud 8,8 % azalmışdır. 2005-ci ildən 2019-cu ilin sonunadək milli valyuta ilə əhalinin əmanətlərinin banklara cəlb olunmasında da artım davamlı olaraq müşahidə olunmuşdur. Lakin 2005-ci ildən 2019-cu ilin sonunadək əhalinin banklara qoyduqları əmanətlərin həcmi artsa da, 2015-ci ildən etibarən azalmağa doğru meyillilik müşahidə olunur.

Qeyd edək ki, 2015-ci ildə bank sisteminə təsir edən əsas amillər manatın devalvasiyası, neftin qiymətinin düşməsi, həmçinin bank müştərilərinin gəlirlərinin azalmasına və onların ödəmə qabiliyyətinə səbəb olan ümumi iqtisadi böhran olmuşdur. Bu da əhali əmanətlərinin banklara cəlb olunmasında azalmalara səbəb olmuşdur. Azərbaycanda bank sisteminin daha da inkişafı üçün sabitliyini artırmaq, investorlar, kreditorlar və əmanətçilər tərəfindən ölkənin bank sisteminə inamı gücləndirmək və əmanətlərin sığortasının səmərəliliyini artırmaq lazımdır.

Maliyyə vasitəçiliyi sistemində bankların rolunun gücləndirilməsi sahəsində aşağıdakıları təmin etmək lazımdır:

- beynəlxalq maliyyə hesabatlarının standartlarına uyğun olaraq iqtisadi fəaliyyətin maliyyə vəziyyəti və göstəriciləri barədə məlumatların açıqlığının təmin edilməsi və maliyyələşdirmə, likvidliyin idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi;

- müasir informasiya və bank texnologiyalarına əsaslanan maliyyə bazarında əməliyyatların həyata keçirilməsində kredit təşkilatları üçün bərabər imkanların yaradılması [4, s.226].

Ümumiyyətlə, müasir bank sisteminin inkişafını müəyyənləşdirən ümumi ümumi iqtisadi artım və daim artan rəqabət mübarizəsidir.

Beləliklə, ölkənin bank sisteminin daha da inkişaf etdirilməsi və gücləndirilməsinin əsas istiqamətləri aşağıdakılar olmalıdır:

- dövlət və Mərkəzi Bank tərəfindən hüquqi tənzimlənmənin təkmilləşdirilməsi;
- müəssisələrə və əhaliyə göstərilən bank xidmətlərinin keyfiyyətini artırmaq və siyahısını genişləndirmək üçün institusional infrastrukturun inkişafı;
- bank sisteminin kapital bazasının daha da gücləndirilməsi üçün beynəlxalq maliyyə mexanizmlərindən səmərəli istifadə;
- kredit resurslarının ayrılması prosesində bank fəaliyyətinin dövlət tərəfindən dəstəklənməsi və stimullaşdırılması;
- bankların fəaliyyətlərini maliyyələşdirməkdə maraqlı olmaq üçün müəssisələrin işgüzar fəaliyyətinin intensivləşdirilməsi məqsədilə əlverişli şəraitin yaradılması.

Beləliklə, fəaliyyəti ölkənin iqtisadi artımının ən vacib amillərindən biri olan bank sistemini inkişaf etdirmək və onun sabitliyini təmin etmək sayəsində milli iqtisadiyyatın davamlı inkişafına nail olmaqla mümkün olacaqdır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycanın Statistik Göstəriciləri. Statistik məcmuə. Bakı, 2020, 722 s.
2. Пименов Н.А. Управление финансовыми рисками в системе экономической безопасности. М.: Юрайт, 2016. 416 с.
3. Манохина Н.В. Экономическая безопасность. М.: НИЦ ИНФРАМ, 2016, 320 с.
4. Селищев А.С. Деньги. Кредит. Банки. СПб.: Питер, 2007, 432 с.

UOT 316.34

**Heydər Əliyev – müstəqil Azərbaycan dövlətçiliyinin banisi**

*İsmayıl Əliyar oğlu Faxtiyev,*
*Sumqayıt Dövlət Universiteti*

Tarixi gerçəkliklərin müqayisəsi böyük şəxsiyyətlərin fəaliyyətinin obyektiv qiymətləndirilməsində ən obyektiv istinad yeridir. Bu mənada Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan istisnasız olaraq, daim problemlərin həllinə doğru irəliləyən, iqtisadi, sosial, humanitar və mədəni sahələrdə intibaha can atan, hər addımda insan və şəxsiyyət amilini uca tutan ölkə kimi görünür. Həmin dövrün inkişaf salnaməsini gözlərimiz önündə canlandırsaq, istər-istəməz bu qənaəti bölüşməli olacağıq: Azərbaycanın müstəqil dövlət quruculuğuna aparan yolu əslində 1969-cu ildən etibarən, yəni Heydər Əliyevin respublikaya rəhbərliyə gəlişindən sonra başlanmışdır. Məhz bu mərhələdən Azərbaycan cəmiyyəti Heydər Əliyevin göstərdiyi səylər nəticəsində yeni inkişaf parametrləri qazanaraq özünün daha dinamik inkişaf mərhələsinə qədəm qoymuşdur. Həmin dövrdən başlayan böyük tarixi mərhələdə Heydər Əliyev ideyaları ölkənin həyatının başlıca gerçəkliyinə, inkişafın təməl daşına çevrilmişdir.

Ulu öndər Heydər Əliyevin qətiyyəti ilə həmin dövrdə həyata keçirilən tədbirlər sosial-iqtisadi həyatın bütün sahələrinin inkişafına, həmçinin iqtisadi, ictimai-siyasi həyatda yaranmış tənəzzülün xalqın mənəvipsixoloji durumuna mənfi təsirinin qarşısının alınmasına gətirib çıxarmışdır. Beləliklə, Azərbaycanın qarşısında tamamilə yeni inkişaf səhifəsi açılır və bu, ölkə tarixinə qızıl hərflərlə yazılırdı. Qətiyyətlə deyə bilərik ki, ölkənin iqtisadi müstəqilliyi, onun xarici iqtisadi

əlaqələrinin sistemli olaraq genişlənməsi və dünya iqtisadiyyatına daha dərin şəkildə inteqrasiya prosesi 1970-1980-ci illərdə Heydər Əliyev tərəfindən təməli qoyulmuş potensiala əsaslanır. [3]

Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə Heydər Əliyev ölkədə milli ruhun və azərbaycançılığın kommunizm ideologiyası çərçivəsində sıxışdırılmasının qarşısını alaraq onun dirçəldilməsi istiqamətində mövcud imkanlardan maksimum dərəcədə istifadə etmişdir. Məhz buna görədir ki, XX yüzillikdə azərbaycançılığın ən parlaq səhifələrinin 1969-cu ildən etibarən yazılması qənaəti birmənalı şəkildə qəbul edilən reallıqdır. Ulu öndər xalqın tarixi yaddaşının özünə qaytarılması kimi ideoloji təməl prinsipləri əsasında milli ruhun hədsiz yüksəlişini təmin etmiş, millətin qəlbində illərdən bəri sıxışdırılıb qalmış milli dövlətçilik ideyasının gələcəkdə böyük hərəkətverici qüvvəyə çevrilməsi üçün münbit zəmin formalaşdırmışdır. Həmin dövrdə qarşıya qoyulmuş bu məqsədlərə nail olmaq üçün Azərbaycanın iqtisadi potensialının artırılmasının, onun SSRİ məkanında birincilər cərgəsinə çıxarılmasının vacibliyini əvvəlcədən görən Heydər Əliyev ölkədə genişmiqyaslı dəyişikliklərə start vermişdir. Eyni zamanda, iqtisadi və sosial sahələrdə dərin struktur islahatları aparmış, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçməsinə şərait yaratmışdır.

O dövrdə Azərbaycan xalqı üçün, sözün əsl mənasında, tarixi əhəmiyyət daşıyan bu mühüm qərarlar 70-80-ci illər arasında və daha sonrakı perspektivdə ölkənin sosial-iqtisadi inkişafının əsas istiqamətləri üzrə kompleks məsələləri müəyyənləşdirmişdir. Ulu öndər Heydər Əliyevin qətiyyəti ilə həmin dövrdə həyata keçirilən tədbirlər sosial-iqtisadi həyatın bütün sahələrinin inkişafına, həmçinin iqtisadi, ictimai-siyasi həyatda yaranmış tənəzzülün xalqın mənəvipsixoloji durumuna mənfi təsirinin qarşısının alınmasına gətirib çıxarmışdır. Beləliklə, Azərbaycanın qarşısında tamamilə yeni inkişaf səhifəsi açılır, bu səhifə ölkə tarixinə qızıl hərflərlə yazılırdı. Qətiyyətlə deyə bilərik ki, ölkənin iqtisadi müstəqilliyi, onun xarici iqtisadi əlaqələrinin sistemli olaraq genişlənməsi və dünya iqtisadiyyatına daha dərin şəkildə inteqrasiya prosesi 1970-1980-ci illərdə Heydər Əliyev tərəfindən təməli qoyulmuş potensiala əsaslanır. Ulu öndər Heydər Əliyevin respublika rəhbəri kimi ilk günlərdən başlayaraq diqqət yetirdiyi məsələlər təkcə iqtisadi potensialın artırılması ilə məhdudlaşmırdı. Bu dövrdə dahi rəhbər milli dilin inkişaf etdirilməsinə, dövlət müəssisələri də daxil olmaqla ictimai-siyasi həyatda geniş istifadəsinə ciddi fikir verirdi.

Azərbaycançılıq məfkurəsinin genişləndirilməsi və ictimai şüurda daha dərin iz buraxması üçün Heydər Əliyev yaradıcı insanların sərbəst düşünməsinə və fikirlərini azad şəkildə ifadə etməsinə, beləliklə, milli-mənəvi idealın yüksəldilməsi üçün də lazımi mühit formalaşdırılmasına çalışırdı. Bu isə, öz növbəsində, Azərbaycanın dövlətçilik tarixində suverenliyi, müstəqilliyi təmin edən dəyərlərə aparan yolları tapmaq imkanı verən şərait yaratmışdı. [5]

Heydər Əliyev siyasi kursu – bu böyük dühanın parlaq adını və çoxcəhətli fəaliyyətini, geniş dünyagörüşünü və mənalı irsini əhatə edən zəngin dövlətçilik təlimi, siyasi-ideoloji baxışlar sistemidir. Heydər Əliyev siyasi kursu – qlobal yanaşma ilə milli dəyərlərin vəhdətindən yoğrulmuş düşünülmüş yetkin dövlətçilik təlimidir. Heydər Əliyev siyasi kursu – milli dövlətçilik təliminin strategiyasından və xalqın inkişaf dialektikasının taktikasından ibarətdir. Haqlı olaraq deyildiyi kimi, O, böyük siyasətin uzaqvuran topu, ağır artilleriyası idi. Heydər Əliyev siyasi kursu – xalqı birləşdirən, əlaqələndirən, səfərbər edən və daha böyük gələcəyə aparan gerçəkçi siyasətin ifadəsidir. Heydər Əliyev siyasi kursu – müstəqillik qazanmış ölkələrin dövlət quruculuğunun inkişaf etdirilməsi və möhkəmləndirilməsi üçün sınaqlardan çıxmış modeldir. Nəhayət, Heydər Əliyev siyasi kursu – cəmiyyət həyatının, ümummilli inkişafın əbədiyyət ünvanlı lokomotividir.

Heydər Əliyevin formalaşdırdığı bu şərait yüzlərlə azərbaycanlı ziyalını sovet totalitarizminin repressiya maşınından xilas etmişdi. Halbuki, Sovet İttifaqının bir çox başqa respublikalarında həmin dövrdə milli məfkurədən çıxış edən elm və mədəniyyət xadimlərinə, ziyalılara qarşı təqib və təhdidlər özünü aşkar hiss etdirirdi. Həmin illərdə respublikada nəinki dissident hərəkatı olmamış,

əksinə, Ulu öndər Heydər Əliyev milli ziyalı elitasını sovet rejiminin sərt repressiyalarından, təqiblərindən qorumaqla, bu yolda bütün çətinliklərə mərdliklə sinə gərməklə əslində Azərbaycan xalqının genefondunu hifz etmişdir. 1937-ci ildə repressiyaya məruz qalaraq, Sibirə sürgün olunmuş görkəmli dramaturq Hüseyn Cavidin nəşini uzaq Sibirdən Azərbaycana gətirmək üçün apardığı mübarizə də Ulu öndərin milli irsə nə qədər sayğı və ehtiramla yanaşan, heç bir siyasi riskdən çəkinməyən şəxsiyyət olduğunu bir daha təsdiqləyir. Ulu öndər nitqlərinin birində demişdi: “1937-ci ildə “millətçilik”də ittiham edilərək, sürgün olunan ölməz dramaturqumuz Hüseyn Cavidin nəşini uzaq Sibirdən Azərbaycana gətirmək asan iş deyildi. Bu, böyük iradə, cəsarət tələb edirdi.” [2]

1990-1992-cü illərdə – Heydər Əliyevsiz Azərbaycanda hakimiyyətdə xalqın etimad göstərdiyi siyasi qüvvənin olmaması ilkin mərhələdə özünü ciddi problem kimi göstərmiş, ölkədə ictimai-siyasi böhranın, iqtisadi tənəzzülün dərinləşməsinə, vətəndaşların hüquq və azadlıqlarının addımbaşına pozulmasına, dövlətçiliyə potensial təhdid olan cinayətkar qruplaşmaların baş qaldırmasına gətirib çıxarmışdı. O zamankı böhranlı və ağır şəraitdə respublikanın gələcəyini düşünən, reallığı adekvat qiymətləndirməyi bacaran nüfuzlu ziyalılar çıxış yolunu məhz Ulu öndər Heydər Əliyevin böyük siyasətə qayıdışında görürdülər. Ağır vəziyyətdən cana doymuş xalq Heydər Əliyevin hakimiyyətə gəlişini əngəlləmək üçün Konstitusiyaya daxil edilmiş qondarma yaş senzinin ləğvi üçün respublikanın müxtəlif bölgələrində mitinqlər təşkil edir, onun yenidən böyük siyasətə qayıdışını təkidlə istəyirdi. Belə böhranlı və ağır şəraitdə Azərbaycanı sürətlə fəlakətə sürükləyən məkrli planların qarşısını almağa, düçar olduğu fəlakətlərdən qurtarmağa qadir yeganə şəxsiyyət məhz Ulu öndər Heydər Əliyev idi.

İyun ayının 9-da xalqın və həm də o zaman çıxılmaz vəziyyətə düşmüş AXC-Müsavat hakimiyyətinin təkidli istəyi ilə Bakıya qayıdan Ulu öndər xalqı vətəndaş qarşıdurmasından, müstəqilliyini itirmək təhlükəsindən qurtarmış, çağdaş tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil olmuşdur. Ulu öndər Heydər Əliyev dərhal bir qrup ziyalı ilə birgə Bakıdan Gəncəyə yola düşərək, baş vermiş silahlı qarşıdurmanın əsl səbəblərini araşdırmış, özünün müdrik və uzaqgörən addımları ilə silahlı qarşıdurmanın miqyasının genişlənməsinin qarşısını almışdır. Gəncədə olarkən “Hadisələr dəhşətlidir. Qan tökülüb, cinayət edilib. Bunlar araşdırılmalıdır və bütün qanunu pozmuş adamlar, cinayətdə iştirak etmiş adamlar, cinayəti təşkil etmiş, hansı tərəfdən asılı olmasına baxmayaraq, qanun qarşısında məsuliyyət daşımalıdırlar”, - deyən Ulu öndər bir daha prinsipial mövqeyini ortaya qoymuş, AXC-Müsavat cütlüyünün ölkəni vətəndaş qarşıdurması həddinə çatdırdığını açıq bildirmişdir. [1]

Azərbaycan xalqının Ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev Azərbaycan tarixinin yetirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Azərbaycanın son 30 ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi, bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəlişi Heydər Əliyevin adı ilə sıx bağlıdır. Heydər Əliyev rəhbərlik etdiyi bu dövr ərzində Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxara bilmiş, ölkənin gələcək inkişaf strategiyasını müəyyən etmiş və onun həyata keçirilməsi üçün mühüm addımlar atmışdır. Azərbaycanın 1969-cu ildən bəri yaşanan dövrü xalqımızın tarixinə Heydər Əliyev dövrü kimi əbədi həkk olunmuşdur. [4]

Ulu öndər Azərbaycanı daim inkişaf edən, müasir görmək istədiyindən xalqın gələcək taleyinə biganə qalmamış, müasirləşmə xəttini özündən sonra layiqincə davam etdirəcək yeni düşüncəli, yüksək idarəetmə və təşkilatçılıq qabiliyyətinə malik müasir ruhlu lider yetişdirmişdir. Əgər Heydər Əliyevin müasirləşmə siyasəti ötən əsrin 70-ci illərindən etibarən Azərbaycanı keçmiş SSRİ-nin qabaqcıl ölkəsinə çevirmişdisə, eyni zamanda, 90-cı illərdə xaos və tənəzzüldən inkişafa doğru mükəmməl strategiyanı təmin etmişdisə, onun layiqli davamçısı cənab İlham Əliyevin yürütdüyü modernləşmə kursu respublikamızın milli inkişaf modelinin formalaşmasını şərtləndirmişdir. Ötən illərdə Ulu öndərin yürütdüyü siyasəti bütün sahələrdə çox böyük uğurla

davam etdirən Prezident İlham Əliyevin iqtisadi siyasətinin əsasında məhz "Güclü dövlət, sosial rifah" tezisi dayanır. Bu da təsadüfi deyil – güclü iqtisadiyyat qurmadan güclü dövlətə nail olmaq, insanların yüksək sosial rifahını təmin etmək qeyri-mümkündür. Neft gəlirlərinin iqtisadiyyatın vacib sahələrinə, xüsusən də, qeyri-neft sektoruna, istehsal sahibkarlığına yönəldilməsi, yeni müəssisələrin açılması yolu ilə işsizlik probleminin aradan qaldırılması, bir sözlə, əhalinin sosial müdafiə tədbirlərinin gücləndirilməsi Azərbaycanda həyata keçirilən sosialyönümlü iqtisadi siyasətin ana axarını təşkil edir.

Dövlət başçısı iqtisadi inkişafa yalnız neft amili hesabına nail olmağı məqbul saymayaraq, tarazlı və davamlı tərəqqi naminə qeyri-neft sektoruna xüsusi diqqət yetirilməsinin vacibliyini önə çəkib. Prezident İlham Əliyevin ölkəyə rəhbərliyinin ən parlaq nəticəsi ondan ibarətdir ki, bu gün Azərbaycan, sözün əsl mənasında, tam müstəqil siyasət yürüdən dövlətdir. Hazırda müstəqil Azərbaycan dövlətinin öz siyasi dəst-xətti, dövlətçilik siması, inkişaf yolu vardır. Ölkə iqtidarının milli maraqlara əsaslanan siyasəti, iqtisadi inkişaf və demokratikləşdirmə, hüquqi dövlət quruculuğu, effektiv diplomatiya istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyəti də məhz milli müstəqilliyin praktik surətdə gerçəkləşdirilməsini təmin etmişdir.

Azərbaycan bu gün Şərqlə Qərbi birləşdirən nəqliyyat-kommunikasiya xətlərinin, habelə neft-qaz boru kəmərlərinin keçdiyi əlverişli tranzit məkan kimi təkcə Avropa üçün deyil, həm də Uzaq Şərq üçün strateji əhəmiyyət kəsb edir. Avropa Şurasının tamhüquqlu üzvü olan respublikamızın avrostrukturlara Avropa Birliyi, NATO kimi təşkilatlarla sıx əməkdaşlığı hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin dönməzliyinə etibarlı təminat kimi qiymətləndirilir. Son illər bir sıra mühüm beynəlxalq tədbirlərin keçirilməsində Bakı şəhərinin seçilməsi respublikamızın beynəlxalq nüfuzunu daha da yüksəldir. Aşkar görünür ki, Azərbaycan sülh və əməkdaşlıq paytaxtı kimi tanınmağa başlayır və belə bir müsbət imicin formalaşmasında son illər respublikada keçirilən beynəlxalq toplantıların əhəmiyyətini xüsusi vurğulamaq lazımdır.

Ölkədə müşahidə olunan dinamik iqtisadi tərəqqi ilə paralel şəkildə demokratik-hüquqi islahatların da dönmədən davam etdirilməsi, bu iki təmayülün ümumi strateji inkişaf kursunun prioritet xətti kimi nəzərdən keçirilməsi Azərbaycanı qlobal əhəmiyyətli tədbirlərin mərkəzinə çevirmişdir. Bunun əsas səbəblərindən biri də xalqımızın tolerantlıq düşüncəsinin yüksək səviyyədə olmasıdır. Bakıda müxtəlif forumların keçirilməsi, ilk növbədə, respublikamızın sivilizasiyalararsı dialoq prosesində fəal mövqe tutduğunu, zəngin Şərq və Qərb mədəniyyətləri arasında körpü rolunu oynadığını göstərir. Bu bir daha təsdiqləyir ki, Azərbaycan müxtəlif mədəniyyətlərin, qədimliklə müasirliyin qovuşduğu məkan olaraq, bu məqsədlərə yönəlmiş mühüm təşəbbüslərlə çıxış edir. Ümumilikdə, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Bakıda keçirilən beynəlxalq tədbirlər sülh naminə çalışan insanlara dünyada təhlükəsizliyin təmin olunması və xalqlar arasında dialoqun inkişafı üçün zəmin yaradır.

Azərbaycan son 10 ildə praqmatik xarici siyasətlə yanaşı, həm də milli maraqlara əsaslanan enerji diplomatiyası ilə Avropada və bütün dünyada mövqelərini möhkəmləndirmişdir. Şübhəsiz, həyata keçirilən qlobal neft-qaz diplomatiyası Azərbaycanda insan kapitalının inkişafına xidmət edən uğurlu layihələrin reallaşdırılması üçün də yaxşı imkanlar açır. Modernləşmə xəttinin tərəfdarı olan cənab İlham Əliyev hesab edir ki, bu yol ölkəmizi bilik və informasiya cəmiyyətinə gətirib çıxaracaqdır. Bu isə modernləşmənin cəmiyyətin şüuru, onun elmə, təhsilə, mədəniyyətə münasibəti ilə bağlılığını bir daha təsdiqləyir.

Azərbaycanın sosiomədəni modernləşməsi təkcə yeni texnologiyaların və bazar mexanizmlərinin tez bir zamanda keyfiyyətli tətbiqini deyil, kreativ və innovasion şüurun köməyi ilə millətin sivil yeniləşməni şərtləndirə bilən institutların yaranmasını nəzərdə tutur. Prezident İlham Əliyev yaradıcı zəka sahiblərinin, intellektual, kreativ kadrların, gənc, qabiliyyətli insanların dövlətin lazımi diqqət və qayğısı ilə əhatə olunmasını da son dərəcə vacib sayır. Cənab İlham

Əliyev dəfələrlə vurğulamışdır ki, iqtisadi resursların insan kapitalının inkişafına yönəldilməsi yolu ilə formalaşan yeni təfəkkürlü intellektual elita ölkənin perspektiv inkişafının əsas lokomotivi – aparıcı qüvvəsi kimi çıxış edəcəkdir.

Ulu öndər Heydər Əliyevin ölməz ideyaları Azərbaycanın sabit və davamlı inkişafının başlıca qarantı kimi çıxış edir. Ölkəmizə inamla rəhbərlik edən möhtərəm Prezident İlham Əliyev Ulu öndərin qarşıda strateji hədəf kimi müəyyənləşdirdiyi əksər vəzifələrin həllinə nail olmuş, Azərbaycanı bütün sahələrdə dinamik inkişaf edən, məqsədlərinə doğru əzmlə irəliləyən dövlətə çevirmişdir.

**İdtifadə edilmiş ədəbiyyat**

1. Mahmudov Y.M. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı: Təhsil, 2002
2. Cəfərov N.Q. Azərbaycan – Heydər Əliyevdən İlham Əliyevə. Bakı, 2004
3. "Azərbaycan" qəz., 2014, 13 iyul, №148, s.4
4. Mirzəyev A. Heydər Əliyev siyasi irsinin politoloji aspektləri. Bakı, 2016
5. "Xalq qəzeti" qəz., 2015, 13 dekabr, №275, s.5

UOT 32(092)

**Elmimizin ideya mənbəyinə çevrilən irs**

*Nigar Mustafa qızı Məhərrəmova,*
*Mingəçevir Dövlət Universiteti*

Ədəbiyyat, söz ustalığı olaraq, milli özünüdərk və özünürealizasiya baxımından informativ xarakterli digər predmetlərdən fərqlənir. "XXI əsrin ədəbiyyatı qloballaşmış və mürəkkəb dünyada yaşamağa, müstəqillik və yaradıcılıq nümayiş etdirməyə, öz xalqını və vətənini ləyaqətlə təmsil etməyə qadir olan müasir dünyagörüşünə, milli və ümumbəşəri dəyərlərə malik vətəndaş yetişdirmək üçün böyük imkanlara malikdir" [1]. Həyat yolunu, yaradıcılığını, dövrün hadisələrinə münasibəti, ədəbiyyat yaradanları tarixi, Yaradıcı nümunələrlə yanaşı, hökmdarların, dövlət başçılarının və görkəmli siyasi xadimlərin münasibətini, fəaliyyətini əks etdirən mənbələr də mühüm rol oynayır. Bu mənada Ümummilli lider Heydər Əliyevin şəxsiyyətinin tarixi fenomeni unikaldır. "Ədəbiyyat tariximizin daha dərin təbəqələri, dilimizin, ruhumuzun, ədəbi-mədəni abidələrimizin incəlikləri üçün zəmindir". Ulu öndər ədəbiyyata, bədii-ədəbi irsə, müasir söz ustalarına böyük hörmət və qayğı ilə yanaşmış və tarixin buraxdığı səhvləri uzaqgörənliklə aradan qaldırmışdır.

Heydər Əliyev üçün sənətkarın şəxsiyyəti, bədii sözü, ədəbiyyatı hər şeydən üstün idi. Onun min illərlə ifadə etdiyi fikirlərinin xatirəsi ilə yanaşı, xalqın, "Kitabi-Dədə Qorqud" ənənələrinin, klassik irsin nümayəndələrinin folklor mənbələrindən tutmuş, müasir şair və yazıçıların yaradıcılığına qədər ədəbiyyatımızın tarixində silinməz izlər qoymuşdur. Hər bir söz ustasının şəxsiyyətinə hörmət təkcə onun praktiki fəaliyyətində deyil, həm də onun dünya mədəniyyəti və ədəbiyyatı xəzinəsində yeri, nəşr və saxlanması ilə əks olunur. Bu qərarlar bir tərəfdən tarixin həll olunmamış səhifələrinə gözəl vətəndaş düzəlişi, digər tərəfdən isə xalqa, onun ustalığına və ədəbiyyatına təmənnasız qayğı ilə yanaşılması idi.

Heydər Əliyev qeyri-adi zəkaya, dünyagörüşünə malik olaraq, ədəbiyyata böyük xidmət göstərmişdir. O, Azərbaycan ədəbi-poetik dilinin beşiyi önündə dayanan Füzuli və Nəsimi irsini yüksək qiymətləndirdi. O, Füzulini dünya ədəbiyyatının klassiki hesab edir və qeyd edirdi ki, onun təkcə ölkə daxilində deyil, həm də Azərbaycanın hüdudlarından kənarda da məşhur olması vacibdir. Hələ gənc yaşlarından Füzuli yaradıcılığına böyük məhəbbət bəsləyən liderin ideyası uzun illər

sonra, sadə, təvazökar bir cümlədə bir çox ədəbi tənqidçilər tərəfindən orijinal və xatırlanır: "Füzuli elə bir ulduzdur ki, 500 il bundan əvvəl işıq saçır və öz şüalarını dünyaya yayırdı. Füzuli təkcə Şərqdə, müsəlman aləmində, türk dünyasında, bütün dünyada, o cümlədən inkişaf etmiş Qərb ölkələrində tanınır. Ancaq Füzuli Azərbaycan xalqı üçün daha da əzizdir və sevilir, son vaxtlar zirvələrə qalxıbdır. Bu gün iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan xalqının, Azərbaycan alimlərinin Füzulinin tanınması və onların gördüyü işlər xalqımızın öz köklərinə, ənənələrinə, tarixinə, dininə, dilinə nə qədər bağlı olduğunu sübut edir".

Ulu öndər xalqın mədəniyyətini qoruyub saxlayan və gələcək nəsillərə ötürən heç kəsi diqqətdən kənarda qoymadı. O, "milli varlığımızın nüfuzlu mənbəyi" adlandırdığı "Kitabi-Dədə Qorqud" dastanının tarixi və milli-mənəvi missiyasını təsvir etmiş və qeyd etmişdir ki, öz milli köklərinə malik yeni nəsil gənclər yetişdirmək lazımdır. Keçid dövrünün çətinliklərinə və mürəkkəb proseslərinə baxmayaraq, biz qısa müddət ərzində tariximizin dəyərli səhifələrini aça və xalqımıza göstərə bilmişik. Millətimizin hər bir nümayəndəsi tarix və mədəni irs sahəsində geniş biliklərə malik olmasından böyük qürur hissi keçirir" [4].

Beynəlxalq səviyyədə, dahi Nizami Gəncəvinin 840, ölməz Füzulinin 500 və Nəsiminin 600 illik yubileylərinin təşkili şəxsən diqqət mərkəzində olan Heydər Əliyev böyük söz ustalarının qəbirlərinin bərpasına və bərpasına da biganə qalmamışdır. Onun üçün hər bir bədii söz ustası – istər keçmişdən, istərsə də müasirlikdən vətəndə, yaxud qürbətdə gizlənən, milli dəyərləri qoruyub saxlayan və təbliğ edən sənətkar bir azərbaycanlı kimi əhəmiyyətlidir.

Gəncədə Heydər Əliyev qeyd edirdi: "Azərbaycanda tarixi şəxsiyyətin şərəfinə ucaldılmış heç bir məqbərə, məqbərə yoxdur, amma şair və yazıçılara ucaldılmış türbələr var. Amma açıq olaq, xalqımız təkcə şairlər, yaxud yazıçılar tərəfindən məşhur deyildir. Azərbaycan krallarla, sərkərdələrlə, xanlarla da məşhurdur. Xanlıqlar dövründə müxtəlif dövlətlər və bu dövlətlərin başçıları var idi. Azərbaycan torpağı böyük dövlət xadimləri ilə məşhurdur. Amma onlardan hansına məqbərə, yoxsa heykəllər qoyulubdur? Ancaq şair və yazıçılara abidələr də, məqbərələr də ucaldılıb, bu da var və olmalıdır" [4].

Böyük biliklərə və dərin təfəkkürə malik olan Heydər Əliyev hər bir ədəbi şəxsiyyəti və ədəbi incini yalnız bir fərdiyyət kimi nəzərdən keçirmir, onlarda Azərbaycan tarixinin parlaq bir parçasını görürdü. Ədəbiyyatımızın tarixində elə bir nümayəndə yoxdur ki, onun yaradıcılığına və bədii yoluna görə Heydər Əliyev onu qiymətləndirməsin. Onun Nizami, Füzuli, Xətai, Vaqif, Cəlil Məmmədquluzadə, Sabir, Cavid, Səməd Vurğun, Xəlil Rza, Məmməd Araz, Bəxtiyar Vahabzadə və başqa şair və yazıçılarla bağlı ədəbi irsi Azərbaycan ədəbiyyatının tədrisində nəzəri metodoloji sərvətdir.

"Latın qrafikalı Azərbaycan dilində kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2004-cü il tarixli və 27 dekabr 2004-cü il tarixli "İşlərin siyahısının təsdiq edilməsi haqqında" Sərəncamlarına uyğun olaraq, 2005-2006-cı illərdə Latın qrafikası ilə Azərbaycan dilində nəşr olunmuş kütləvi tirajla və ölkənin bütün kitabxana şəbəkəsinə, Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinə hədiyyə edilmişdir. Hər iki Sərəncamla Azərbaycan və dünya ədəbiyyatı dövrlərindən olan kitablar, eyni zamanda ümumi tirajı 9 milyon nüsxədən çox olan lüğətlər və ensiklopediyalar kitabxanalara göndərilib oxuculara təhvil verilib.

Hüseyn Cavid fəlsəfi lirikanın motivlərinin, humanizm və insansevərlik məsələlərinin, tarixi dramlarının əks olunduğu əsərləri ilə Azərbaycan ədəbiyyatında və dramaturgiyasında yeni səhifə açdı. Qeyri-adi istedadlı şair, romantik, namuslu, sadiq insan, gözəl ər, gözəl ata – Hüseyn Cavid xalqına həsr etdiyi çox faciəli həyat yaşamış, onun üçün ölməz əsərlər, Azərbaycan və dünya ədəbiyyatına qızıl hərflərlə yazılmış əsərlər yaratmışdır.

8 fevral 1956-cı ildə görkəmli Azərbaycan yazıçılarının bir qrupu bəraət dövründə qanunsuz olaraq məhkum olunmuş Cavidin reabilitasiyası üçün hüquq-mühafizə orqanlarına vəsatətlə müraciət edərək, onu görkəmli şair və dramaturq kimi səciyyələndirmişlər. Vəsatəti Süleyman Rəhimov, Mehdi Hüseyn, Süleyman Rüstəm, Mirzə İbrahimov, Mir Cəlal Paşayev, Əli Vəliyev və başqaları imzalayıblar.

6 mart 1956-cı ildə SSRİ Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyasının müəyyən edilməsi ilə 9 iyun 1939-cu ildə SSRİ DTK-nın nəzdində xüsusi müşavirənin Hüseyn Cavid barəsində qərarı ləğv edilmiş və onun hərəkətlərində cinayət tərkibinin olmamasına görə iş icraata xitam verilmişdir.

12 oktyabr 1982-ci ildə şairin 100 illik yubileyi ilə əlaqədar ədalətli və qətiyyətli dövlət xadimi, Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Cavidin cənazəsinin Naxçıvanda yenidən dəfn edilməsi haqqında qərar qəbul edilir. Oktyabrın 14-də partiya komitəsinin sədri Həmid Cəfərov, polkovnik Telman Əliyev və Azərbaycan SSR Ali Sovetinin deputatı Zakir Əliyev İrkutsk şəhərinə yola düşdülər və oktyabrın 21-də Şevçenko kənd qəbiristanlığına gəldilər. Nümayəndə heyəti 59 saylı tabutun dəfn olunduğu yeri tapdı və tabut qəbirdən çıxarıldı. Oktyabrın 24-də nümayəndə heyəti Cavid qalıqları ilə birlikdə İrkutskdan Bakıya uçdu. Oktyabrın 26-da təyyarə Bakıya endi. Həmin gün SSRİ tarixində görünməyən, böyük vətəndaş cəsarəti və Heydər Əliyevin səyləri nəticəsində mühüm hadisə baş verdi. Azərbaycan xalqının Ümummilli liderinin sayəsində görkəmli dramaturq və şairin qalıqlarının Vətənə qaytarılması, onların Naxçıvana köçürülməsi və məzarı üzərində abidənin ucaldılması mümkün oldu.

Vidalaşma mərasimindən sonra böyük şair və dramaturqun cənazəsi Bakıda Şirvanşahlar sarayından Naxçıvana gətirilmiş və atalıq evinin yanında tut ağacı altında dəfn edilmişdir. Şairin məzarı üzərində məqbərə ucaldıldıqdan sonra 13 sentyabr 1996-cı ildə şairin həyat yoldaşı Müşkünaz və oğlu Ərtoğrul, 12 sentyabr 2004-cü ildə isə qızı Turan Cavid türbədə dəfn edilmişdir.

Ümummilli lider Heydər Əliyev görkəmli mütəfəkkir Hüseyn Cavidin yaradıcılığını yüksək qiymətləndirirdi. O, deyirdi: “Hüseyn Cavid bizim üçün doğrudan da əzizdir. O, tariximizdə böyük bir şəxsiyyətdir və böyük bir irs qoyub gedibdir. Nə qədər ki, xalqımız yaşayır, bizim tariximiz, Hüseyn Cavidin irsi də yaşayacaq və xalqımız da bundan istifadə edəcəkdir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycanın milli sərvətidir.” Şairin əsərlərində türkçülük və turanizm ideyaları öz əksini tapmış, insan dəyərlərinin mahiyyətinin dərk edilməsinə diqqət yetirmişdir. Cavid ümumbəşəri miqyaslı sənətkardır. Deməк lazımdır ki, Cavidin yaradıcılığı bu gün də aktuallığını saxlamaqdadır. Onun əsərlərinin müxtəlif dillərə tərcüməsi Cavidin irsinin bütün dünyada yayılmasına kömək edir.

Heydər Əliyevin 1972-ci ildə Aşıq Ələsgərin 150 illik yubileyinin keçirilməsi haqqında imzaladığı Sərəncam Qərbi Azərbaycanın (İrəvan Çuxurunun, Vedibasarın, Göyçənin, Zəngəzurun və s.) tarixi-mədəni irsinin məhz Azərbaycan xalqına mənsubluğunun rəsmən bəyan edilməsi olmuş və bu irsə sahib çıxmağımız üçün bir işarə mahiyyəti daşımışdır.

“Vaqif Türbəsinin açılışı 1982-ci il yanvarın 14-də Azərbaycanın lideri, Ulu öndər Heydər Əliyev və məşhur mədəniyyət və incəsənət işçiləri – Mirzə İbrahimov, Süleyman Rüstəmin də olduğu bir qrup fəxri qonağın iştirakı ilə baş tutdu. Niyazi, Polad Bülbüloğu, Fərhad Bədəlbəyli və başqaları. Buna hazırlıq böyük məsuliyyətlə aparıldı, qonaqların görüşünə və yerləşməsinə qədər belə əlamətdar bir tədbirin təşkili üçün böyük bir iş görüldü. Məqbərənin açılışında Heydər Əliyev Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin birinci katibinə Vaqif şeir günlərinin hər il keçirilməsini tapşırdı”, - deyə Zahid Abbasov xatırlayır. Elə həmin ilin yayında, 29 iyulda bir həftə boyunca “Vaqif şeir günləri” keçirildi, təşkilatçılarından biri Zahid Abbasov idi. “Vaqif şeir günləri”nin açılışı həmişə mədəniyyət və incəsənət insanlarına böyük hörmət və məhəbbət bəsləyən, milli şeiri şərəfləndirən Heydər Əliyevin iştirakı ilə keçirildi.

Azərbaycan hökuməti elmə və mədəniyyətə qayğı göstərir, Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycanın görkəmli şəxsiyyətlərinin dünyada tanıdılması istiqamətində çoxsaylı tədbirlər həyata keçirilir. Ümummilli liderimizin mədəni siyasəti bu gün ölkənin birinci xanımı, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən də uğurla davam etdirilir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Həsənli B.A. Bakı ədəbiyyatının tədrisi metodikası. Bakı: Müəllim, 2012

2. Heydər Əliyev və azərbaycan ədəbiyyatı. Bakı: Şərq-Qərb, 2009
3. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Kitab XIII. Bakı, 2004
4. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Kitab XVIII. Bakı, 2006
5. "Kitabi-Dədə Qorqud" Ensiklopediyası. I. Bakı, 2006

UOT 949(479.24)

## Ulu öndər Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafında rolu

*Aysel Məhəmməd qızı Şamilova,*
*Sumqayıt Dövlət Universiteti*

1993-cü il Azərbaycan tarixində, müstəqil dövlətçilik tariximizdə, respublikamızın ictimai-siyasi fikir tarixində dönüş ili kimi yadda qalmışdır. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra elmə göstərilən diqqət və qayğı elə ilk günlərdən bir daha özünü göstərmişdi. Heydər Əliyev hələ Azərbaycan prezidenti seçilməzdən əvvəl ziyalılarla ilk görüşlərindən birini 1993-cü il sentyabrın 21-də Azərbaycan Respublikası Elmlər Akademiyasında keçirmişdir ki, bunu da yalnız ölkə rəhbərimizin alimlərə bəslədiyi böyük ehtiram, Azərbaycan elminin gələcəyinə göstərilən hədsiz qayğı və diqqətlə izah etmək olardı. Bu, həm də ölkəni 1993-cü ilin iyununadək idarə etmiş səriştəsiz insanların respublikada elm adamlarına münasibətdə yol verdikləri ədalətsizliklərdən irəli gələn narahatlıqlarla bağlı idi.

Elə həmin görüşdə Heydər Əliyev belə narahatlıqların tamamilə əsassız olduğunu və yalnız naqis adamların təxəyyülünün məhsulu olduğunu cəsarətlə ifşa edərək demişdi: "Mənə sədalar gəlir ki, Elmlər Akademiyasını, institutları dağıtmaq istəyirlər, elm ocaqlarına biganə münasibət var. Biz bunların hamısına son qoyacağıq. Nəyin bahasına olursa-olsun, son qoyacağıq. Hansı iqtisadiyyat olursa-olsun, elm inkişaf etməlidir.

Elmlər Akademiyası Azərbaycan xalqının tarixi nailiyyətidir. 1945-ci ildə bu akademiyanı yaradan alimlər çox böyük şücaət göstərmişlər. Ötən dövrdə bu akademiyanın çərçivəsində Azərbaycan elmi çox inkişaf etmişdir. Əmin ola bilərsiniz ki, Elmlər Akademiyası da, institutlar da fəaliyyət göstərəcəklər və biz buna imkan yaradacağıq. Azərbaycan elmi inkişaf etməlidir". [4]

Azərbaycan Respublikası Prezidenti tərəfindən vaxtilə xalq düşməni adı ilə unutdurulmuş şəxslərin adlarının tarixə qaytarılması, bərpa edilməsi elmdə böyük tarixi xidmətdir. Azərbaycan Xalq Cümhuriyyəti uzun illər tarixin unudulmuş səhifəsi idi. Azərbaycan müstəqilliyinin bərpa edilməsindən sonra Xalq Cümhuriyyəti tarixinin həqiqətlərinin üzə çıxarılmasında, onun Azərbaycan tarixində yerinin və əhəmiyyətinin göstərilməsində Heydər Əliyevin nəinki siyasi xadim kimi, eyni zamanda, böyük tarixçi kimi yüksək xidməti vardır. Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi haqqında Prezidentin 1998-ci il 30 yanvar tarixli Sərəncamı böyük tarixi hadisə oldu. Prezident Sərəncamının yerinə yetirilməsinin nəticəsi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə dair sənədlər və materiallar külliyatı 7 cilddə hazırlanıb, 1998-ci ildə nəşr edildi. Cümhuriyyət tarixinə dair elmi-tədqiqat işləri aparılmağa başlandı. Prezident Heydər Əliyevin 1 fevral 2003-cü il tarixli fərmanı ilə Bakı şəhərində Azərbaycan Xalq Cümhuriyyətinin xatirəsinə abidə ucaldılması qərara alındı. [3, s.385]

Prezident Heydər Əliyev 2000-ci il iyunun 13-də "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Fərman verdi. Təlim-tərbiyə proseslərinin keyfiyyətcə yeniləşdirilməsini gücləndirmək üçün mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq, bütün təhsil müəssisələrinə tədris-metodik rəhbərlik, ayrı-ayrı dövlət qurumlarına məxsus təhsil müəssisələrinin (Müdafiə və Milli Təhlükəsizlik nazirlikləri müəssisələrindən başqa) tabeçiliyi Təhsil Nazirliyinə verildi. Azərbaycan Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması Baş İnstitutunun bazasında Azərbaycan Müəllimlər İnstitutu və onun regionlarda filialları yaradıldı. Təhsil 336 Problemləri üzrə Respublika Elmi-Metodik Mərkəzi ilə Azərbaycan

Elmi-Tədqiqat Pedaqoji İnstitutu bazasında Təhsil Problemləri İnstitutu, təsərrüfat hesablı Təhsil Texnologiyaları Mərkəzi təşkil olundu. 2000-ci ildə respublikada 111 min uşağı əhatə edən 1790 məktəbəqədər müəssisə fəaliyyət göstərirdi. 2000-ci ilin noyabr ayında Bakının Əhmədli qəsəbəsində Beynəlxalq "SOS Kinderdof İnternational" təşkilatı tərəfindən yaradılmış 12 evdən ibarət uşaq kəndi istifadəyə verildi. Bu, 1999-cu ildə təşkil olunmuş "SOS Uşaq Kəndləri Azərbaycan Assosiasiyası"nın (prezidenti Sevil Əliyeva) səmərəli fəaliyyətinin nəticəsi idi. Respublikada 367 məktəbdənkənar müəssisə vardı. [1, s.335-336] Təhsil sahəsində inkişafı təmin etmək məqsədilə Ulu öndər Heydər Əliyev təhsil müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında Sərəncam imzalamışdır. [2, s.39]

Ölkənin maddi və maliyyə durumundakı çətinliklərə baxmayaraq, Prezidentin qayğısı sayəsində 1993-2002-ci illər ərzində 137 yeni ümumtəhsil məktəb binası tikilsə də, bu mövcud tələbatı ödəmirdi. Müqayisə üçün deyək ki, son on ildə ölkə üzrə şagird kontingentinin sayı 333516 nəfər artmış, sinif komplektləri üzrə artım isə 20010 sinif təşkil etmiş, təkcə Bakı şəhərində bu illər ərzində şagird kontingenti 115 min (ümumi ölkə üzrə artımın təxminən üçdə biri həcmində) artdığı halda, Bakı şəhərində cəmi 1740 yerlik 3 yeni məktəb binası inşa edilmişdir ki, bütün bunlar mövcud tələbatın yalnız 10 %-i təşkil edir. Bu mənada Prezidentin yeni Sərəncamı ilə təsdiqlənmiş məktəb tikintisinə dair Dövlət Proqramı müstəqil Azərbaycanda hələ keçən əsrin 70-80-ci illərində əsası Heydər Əliyev tərəfindən qoyulmuş təhsil müəssisələri üçün müasir tipli tədris korpuslarının tikintisi sahəsində qazanılmış və maarif tarixinə şanlı səhifələr yazmış mütərəqqi ənənələrin yeni dövrdə, XXI əsrin əvvəllərində daha yüksək səviyyədə, beynəlxalq standartlara uyğun yenidən bərpası və inkişaf etdirilməsinə təminat verir, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi yolunda yeni üfüqlər açır. Proqrama görə, 2003-2007-ci illərdə ölkə üzrə 149 yeni məktəb binasının, 175 məktəbdə əlavə sinif otaqlarının tikintisi, 408 məktəbdə əsaslı təmir işlərinin aparılması nəzərdə tutulmuşdur. İnanırıq ki, bu işlərin həyata keçirilməsi ümumi təhsildə keyfiyyətin yüksəldilməsi haqqında Prezident Heydər Əliyevin konseptual göstərişlərinin layiqincə yerinə yetirilməsinə imkan verəcəkdir. [3, s.396]

Ulu öndər Heydər Əliyevin müdrikliklə müəyyən etdiyi və həyata keçirdiyi elm siyasəti bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla və yaradıcılıqla davam etdirilir. Elmin inkişafına göstərilən yüksək diqqət, eyni zamanda, Azərbaycanın güclənməsinə, inkişafına, dünya miqyasında tanınmasına və layiqli yerinin təmin olunmasına xidmət edir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı: Elm, 2008, 608 s. (+80 s. illüstrasiya)
2. Azərbaycan Respublikası Prezidentinin Fərmanları və Sərəncamları: Biblioqrafik göstərici. №2 (13). Bakı, 2010, 71 s.
3. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, 472 s.
4. AMEA Naxçıvan Bölməsinin rəhbəri, akademik Hacıyev İ. "Azərbaycan" qəz., 2016, 11 may

**Mingəçevir Dövlət Universiteti**
**Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin**
**anadan olmasının 98-ci ildönümünə həsr olunmuş**
**"VƏTƏN MÜHARİBƏSİNDƏ QAZANDIĞIMIZ TARİXİ ZƏFƏR**
**HEYDƏR ƏLİYEV SİYASƏTİNİN TƏNTƏNƏSİDİR"**
**mövzusunda**
**ELMİ-NƏZƏRİ KONFRANSIN**
**M A T E R İ A L L A R I**
**4 may 2021-ci il**


Yığılmağa verilib: 07.05.2021
Çapa imzalanıb: 16.05.2021
Format: 60 x 84 1/16

F.Ç.V. 38

Tiraj 100

MİQ Poliqrafiya ofisi